

Şəmil Sadiq, Müşfiq XAN

# ÜMİDLƏRİN İZİ İLƏ

Sənədli detektiv roman

4-cü nəşr

XAN NƏŞRİYYATI

Redaktorlar:
Cəlil Cavanşir
Səbuhi Şahmursoy

Korrektor:
Dürdanə Ramazanlı

Texniki redaktor:
BəxtiYar

Dizayn və qrafika:
Teymur Fərzi

© Şəmil Sadiq, Müşfiq XAN. Ümidlərin izi ilə
© "XAN" nəşriyyatı. Bakı-2019. 384 səh. 4-cü nəşr

Tarixi faktlar; əsir və girovluqda olan canlı şahid xatirələri, MTN-nin arxiv materialları əsasında yazılmış roman iki gəncin nakam məhəbbətindən bəhs edir. Universitet tələbələri olmuş Aytəkin və Ramilin bir-birindən ayrı düşməsinin səbəbi azərbaycanlılara qarşı törədilən soyqırım – Xocalı facisədir. İki müəllifin ürək döyüntüləri ilə yazdığı bu roman iki müxtəlif süjetlə inkişaf etdirilib: Xocalıda əsir düşərək Fransaya qədər aparılan Aytəkinin hisslərini, keçirdiyi acı günləri əks etdirən "Girov qadının xatirələri" və 20 il boyunca hər an keçmiş sevgilisi Aytəkinin xatirəsi ilə yaşayan keçmiş kəşfiyyatçı Ramilin yaşantıları. Məxfi şöbənin təcrübəli əməliyyatçısı Mikayıl Qüdrətov 2011-ci ildə əlinə keçmiş gündəlik vasitəsilə Azərbaycana göndərilən casus qadının izinə düşür. Nəticədə erməni siyasi terrorunun, Böyük Ermənistan dövlətinin qurulması üçün məxfi bir sənədin yerini bilən şəxsin Azərbaycanda olmasının üstünü açır.

Yetkinlik yaşına çatmayanların və ürəyi xəstə olan
insanların oxuması tövsiyə edilmir.

ISBN: 906987742258

Müəllif hüquqları qorunur. Müəlliflərin rəsmi razılığı olmadan kitabın
təkrar nəşri və əsər əsasında film çəkilişi qəti qadağandır.

www.hedefnesrleri.az
© "XAN" nəşriyyatı / 2012-2019
© Şəmil Sadiq, Müşfiq XAN / 2012-2019



Ајтәкиним!

Сән тәтилдән гајыдана гәдәр нечә … ләдәзәдәм билирсән
Сәни о… чох севирәм ки!.. Билирсән, руһум дүшүрү-
рәм ки, … бизим адәт-әнәнәләримиз … белә олмајајды… Сәнә
олан ав… ачыб а… даныш… билсәјдим.
Сабаһ сәнинлә көрүшә… вахта гәдәр олан саатлары
инандан сајырам … Нох һәсрәт чәкәҹәјәм сәниз
го… һәср… чәкирсәнсә … севирсән, севирсәнсә
һәс…ә ширин олур!.. Бу һәср… ағы олса да, сәнин
күф… һәсрәтини дүшүнүркән ширин олур. Сәни к…
јәтәдәм Ајтәкин… … …әјәҹәјәм, руһума ке…
јин кими, әлләримлә … голл… …өзләјәҹәјәм… бу к…
ләјиш күнләр, ајлар, иллар олса …

Ајрылыг гәлбимә дүшмән олса да…
Һәсрәтим … дост олуб инди.
Вүсалым һә…ти мәни јорса да,
Хәјалым бунҹа мәст олуб инди.

…
Хәзәлыда ке… …дијин мәнсиз јај күнләриндә дүзүнү
горуј… Билкү әнан һәр анымы фикрини чәкән, бири
вар бурада – Бакыда… Ен исти … …дим … …анында –
– сәнинлә һаггында даныш… … сәни … …дә кечи-
рим бу күнләри!..
…эмик! Дона дәзә билм… !

…рәсиз Рамилин…

…81-ҹи илин …

*Xocalı faciəsi qurbanlarının*

*əziz xatirəsinə ithaf olunur.*

Hər ümidsizlikdə bir ümid, hər
qaranlıqda bir işıq yaşayır.
H.Cavid

# PROLOQ əvəzi

"BMW" markalı tünd göy rəngli avtomobil metronun Elmlər Akademiyası stansiyasının qarşısındakı yol ayrıcına çatanda sürətini nəzərə çarpacaq dərəcədə azaldıb tələbələrin hər gün sıxlıq yaratdığı küçəyə döndü. Şənbə günü olmasına baxmayaraq, burada digər yerlərlə müqayisədə daha çox adam gözə dəyirdi. Bir az irəlidə isə maşınların sıxlığı çoxalır və gediş-gəlişin çətin olduğu bu küçədə hərəkəti daha da pisləşdirirdi.

Fevral ayı olsa da, hava o qədər soyuq deyildi. Hətta isti geyimdən imtina edib cins şalvara və buna o qədər də uyğunlaşmayan müxtəlif rəngli köynəklərə üstünlük verən gənclərə də tez-tez rast gəlmək olardı. Maşınları çətinliklə irəli sürməyə çalışan sürücülər hərəkətin çətin olduğu bu küçə boyu yoldan keçən bütün piyadaların üz cizgilərini yadda saxlaya bilərdilər. Bahalı xarici avtomobillərdə əyləşmiş tələbələr ətrafdakı insan selinə xüsusi diqqət və maraqla tamaşa edirdilər. Havanın nisbətən xoş olmasından istifadə edib sükan tərəfdəki şüşələri açıq qoyan bu cavanların oğrun baxışları səki boyu hərəkət edən qızlara zillənmişdi. Bu qızlar Azərbaycanın müxtəlif yerlərindən ölkənin bir nömrəli universitetinə oxumaq,

təhsil almaq, ziyalı olmaq üçün təşrif buyurmuşdularsa da, onların içərilərində əsl məqsəd üçün çalışanlara çox az rast gəlinirdi. Onlar da öz növbəsində bahalı maşınların sahibi olan bu cavanlara göz qoyur, hətta öz rəfiqələri ilə “səninkinin maşını filandır”, “mənimkinin maşını filandır” kimi özlərinin səviyyələrinə uyğun rəqabət də aparırdılar. Bəzən də onları qınamağa çətinlik çəkənlər də tapılırdı. Axı, niyə ucqar dağ rayonundan gələn qızın bahalı maşını olan sevgilisi olmasın?! Məgər bu pis idimi?! Necə olsa belə maşınların qiyməti ona universitetdə elm öyrətmək üçün saatlarla mühazirə oxuyan professor Sabir Qəşəmovun 20-30 illik əmək haqqısından daha çox idi... Əlbəttə, Sabir müəllim savadlı insan idi. Ömrünün əlli ildən çoxunu elmə sərf etmişdi. Demək olar ki, respublikanın hər yerində yetirmələri var idi. Amma ki, bu əlli il ərzində onun şəxsi həyatında dəyişən bircə maraqlı hadisə var idisə, o da qoca professorun adı idi. Bəli, adı! Məsələ burasında idi ki, valideynləri o doğulanda adını Samalyot qoymuşdular. Sabir müəllim də uzun müddət utana-utana universitet auditoriyalarında bu adı daşımalı olmuşdu. Yalnız Azərbaycan ikinci dəfə müstəqillik əldə edəndən sonra pasportların dəyişilməsi zamanı o da öz uşaqlıq adından imtina edərək, nəhayət ki, “Sabir müəllim” olmuşdu. Və bu il artıq bütün Azərbaycan ziyalıları dövlət müstəqilliyimizin iyirmi illiyini qeyd edəndə Sabir müəllim ikiqat sevinc hissi keçirəcəkdi.

Sabir müəllim həm də ona sevinirdi ki, daha metronun qarşısındakı dayanacaqda saatlarla gözləmirdi. Tələbəsi Ayla professorun adını da bilmədiyi CİP ilə onu evlərinə qədər aparırdı. Elə buna görə də son vaxtlar professor yorğun vaxtlarında dayanacaqda gözləmək istəmirdi. Avtobusa minməyə hazırlaşanda da əvvəl yola nəzər yetirirdi ki, birdən Ayla maşını ilə buradan keçər. Əslində

bu hər gün baş vermirdi, amma professor Sabir müəllim bu qızı həmişə gözləyirdi. Birinci dəfə qız onu maşınına səsləyəndə Sabir müəllim özünü itirmişdi də. Amma qızın xətrinə dəyməmək üçün alimlər, müəllimlər, atalar, analar yetişdirən bu professor qızara-qızara maşına minmiş, mindiyi kimi də evinin qarşısında düşmüşdü. Çünki şən, şıltaq, parlaq gözlü bu qızın mini yubkasından görünən düz ayaqlarını görməmək üçün üzünü pəncərədən ayırmamışdı. Bir də ona görə mindiyi kimi maşından düşmüşdü ki, axı o çox az hallarda belə xarici maşınlara minirdi. Onun üçün də içəridə necə davranacağını belə müəyyənləşdirə bilməmişdi. İstidənmi, xəcalətdənmi tərləməsinə baxmayaraq, pəncərəni də açmamışdı. Axı necə açardı, qapının üstündəki düymələrin nə olduğunu bilmirdi, əvvəlki sovet maşınlarında olan, şüşəni endirdiyin zaman cığhacığ səs salan pəncərəaçan bu maşında yox idi. Birinci gün özünü necə aparacağını bilməyən Sabir müəllim yavaş-yavaş buna alışmışdı. İndi artıq bu komfortlu maşında evə getmək ona ləzzət edirdi. Buna necə sevinməyəydi Sabir müəllim?! Deyirlər, müəllimin vicdanı təmiz olanda, cibi də təmiz olur. Sabir müəllimdə də belə idi. Universitet auditoriyalarında dərs deyərək qazandığı pul ailəsinə yetmədiyindən hər şeyi atıb repetitorluqla məşğul olduğu zamanlardan cibi bir az "çirklənmişdi". Buna baxmayaraq, Sabir müəlimin vicdanı təmiz idi. Bütün bu sevinci Sabir müəllimə 20 illiyini həvəslə gözlədiyi müstəqillik gətirmişdi...

***

"BMW" markalı avtomobil universitetin əsas darvazasının qarşısından ötərək "Mətbuat" prospekti istiqamətindəki arxa darvazaya yaxınlaşdı. Sürücü hiss etdi ki, sol tərəfdə səkinin kənarında dayanan üç tələbə qızdan biri-

nin baxışları ona tərəf yönəlib. Maşını irəli sürüb növbətçinin onun üçün açdığı darvazadan içəri keçdi. Maşının salonundakı güzgüdən bir anlıq diqqət edəndə gənc qızın hələ də onun arxasınca baxdığını gördü. Amma qız onu görmürdü. Bütün fikirləri "MX" seriyalı bu maşında idi. Yanındakı rəfiqələrini də unutmuşdu.

Sürücü maşını universitetin həyətinin arxa tərəfində yerləşən açıq dayanacaqda saxlayıb avtomobildən düşdü. Əlində qara cildli kitab vardı. Ani olaraq ətrafa diqqət yetirib inamla əsas həyətə tərəf addımladı. Bu, 30-32 yaşlarında, əynində qara rəngli qısa palto olan ciddi görkəmli adam idi. Paltonun qabağı açıq olduğu üçün altındakı səliqə ilə ütülənmiş ağ köynək və bu rəng ahəngi ilə uyğunluq təşkil edən qara şalvar və parlaq qara ayaqqabı onun ciddi görkəmini tamamlayırdı.

Universitetin ikinci tədris korpusunun qarşısında şəhidlər üçün qoyulmuş abidə kompleksinin yanına çatanda bir az ayaq saxlayıb yenidən yoluna davam etdi. Saatına nəzər saldı. Tədbirin başlanmasına on beş dəqiqəyə qədər vaxt qalırdı. İndi günəş də nisbətən mülayim səhər saatlarını geridə qoyub buludların arxasından boylanır, sanki ölkəsinin ürəyi miskinli sakinlərinə təskinlik verməyə çalışırdı. Həyətdəki tələbələr iki-iki, üç-üç gəzişir, müxtəlif mövzularda qızğın mübahisələrini davam etdirirdilər. Bir az kənardakı skamyalarda oturan cavanlar isə, sanki həyatdan təcrid olunaraq ətrafdakı bütün hadisələrə laqeyd halda əllərindəki telefonu qurdalayır, arabir sağ əllərinin iki barmağı ilə etinasız şəkildə tutduqları siqaretdən sümürməyi də unutmurdular.

Bir az da irəli gedib universitetin əsas binası ilə üzbəüz iri şam ağaclarının altındakı boş skamyalardan birində oturdu. Gözlərinin dərinliyindəki ifadədən onun indi hansısa mühüm bir məsələ haqqında düşündüyünü

demək olardı. Bu, doğrudan da, belə idi. O, öz millətinin keçmişini əzbər bilən, gələcəyini düşünən və vətəndaşlıq borcunu tam məsuliyyəti ilə dərk edən vətənpərvər idi. Ətrafındakılar onu Mikayıl müəllim kimi tanısalar da, əslində o, milli təhlükəsizlik sisteminin xüsusi şöbəsinin gizli agenti "Tənha Canavar" ləqəbli mayor Mikayıl Qüdrətov idi. Bu şöbə birbaşa ölkə rəhbərliyinə tabe idi və məxfi fəaliyyət göstərirdi. Qüdrətov ölkə miqyaslı sonuncu uğurlu əməliyyatdan sonra general-mayor Kamil Əzimovun təqdimatı və rəhbərliyin əmri ilə bu şöbəyə keçirilmişdi. Keçmiş şöbə əməkdaşlarına isə onun dövlətin göstərişi ilə sevimli peşəsindən ayrıldığı deyilmişdi. Əslində isə...

Qüdrətov əlindəki kitabı skamyanın üstünə qoyub siqaret yandırdı. İndi bayaqkı fikirli gözlər yerini simasında daha çox hiss olunan narahatlığa vermişdi. Universitetin həyətindəki tələbə gənclər, ətrafdakı səliqə-sahman, gözəlliklər bu gün diqqətini çox az çəkirdi. Bəlkə də, o, həmişə belə idi. Yaşına görə çox çətinliklər görmüşdü. Həyat təcrübəsi də az deyildi... Saatı bir daha dəqiqləşdirdi. Təxminən beş-altı dəqiqə sonra universitetin əsas binasındakı böyük akt zalında Xocalı faciəsinin 19 illiyi ilə bağlı tədbir keçiriləcəkdi.

## 1. Gözlənilməz təsadüf, yoxsa?..

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə,*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən, şanlı Vətən!*
*Azərbaycan, Azərbaycan!*

Bayaqdan ayaqüstə dayanıb maqnitofonda səslənən musiqinin sədaları altında dövlət himnini oxuyan tədbir iştirakçıları, nəhayət ki, dahi Ü.Hacıbəyovun və Ə.Cavadın yaratdıqları bu möhtəşəm əsəri tamamlayıb yerlərinə əyləşdilər. Rektorun giriş sözündən sonra tədbir iştirakçıları növbə ilə çıxış etməyə başladılar. Çox rahat şəkildə demək olar ki, Xocalı faciəsindən sonra ötən bu 19 il eyni ssenari ilə ölkənin əksər müəssisələrində qeyd edilir və bir gündən sonra həyat yenə də adi qaydasında davam edirdi. Kimlər üçün adi, kimlər üçün əsl faciə hesab olunan bu gün illər keçdikcə, sanki unudulurdu...

– Əziz həmvətənlərim! Mən çıxışımı Bakı Dövlət Universitetinin tarix fakültəsinin baş müəllimi Ramil İbrahimov kimi deyil, bir zamanlar bu universitetdə oxuyarkən sevdiyi qızı itirən tələbə Ramil olaraq quracağam. Tədbirdə iştirak edən tələbələrimdən üzr istəyirəm.

Çıxış üçün yenicə kürsüyə yaxınlaşan, yaşı 40-42 arasında olan universitet müəlliminin bu ifadəsi demək olar ki, zalda oturan bütün insanların diqqətini özünə çəkdi. Hətta çıxışına başlayarkən dediyi bu iki cümlədən sonra qəhərləndi də. Kürsünün küncünə qoyulmuş stəkandakı sudan bir qurtum içib sözə başladı.

***

1992-ci ildə ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdiyi həmin qanlı gün hamı kimi məni də sarsıtdı. Çox sarsıldım... Həmin gün sevimli tələbəlik illərimin ən şirin xatirəsini – Aytəkinimi itirdim...

Onunla 1990-cı ildə elə universitetdə tanış olmuşduq. İkimiz də eyni fakültədə oxuyurduq. Tarix fakültəsində. Mən üçüncü, o isə birinci kursda idi. Bir-birimizi çox sevirdik. Bu, bəlkə də, xarakterlərimizin oxşar olmasından doğurdu. Aytəkin vətənini həmişə əziz tuturdu. Hərdən onun belə söhbətlərinə qulaq asanda qeyri-ixtiyari olaraq özümü tarix dərsindəymiş kimi hiss edirdim. Bəzən ona zarafatca "ay qız, sən lap canlı vətənpərvərlik dastanısan ki!" deyərdim. Elə vaxtlar olurdu ki, bu söhbətlərdə mübahisəmiz də yaranırdı. Hətta bir dəfə bilərəkdən dediyim "vətənin dərdi sənə qalıb?!" sözündən sonra bir həftə məni danışdırmadı. Bu sözə görə məndən bərk incimişdi. Onda hələ beş-altı ay idi ki, tanış olmuşduq. Sonradan mənim bu sözləri ürəkdən demədiyimi anladı və mənə inandı. O vaxt biz bir-birimizi dəlicəsinə sevirdik. Öz aramızda saf, gənc qəlbimizin ölənə qədər bir olacağına and içib əhd-peyman bağlamışdıq. Amma evlərində deməmişdi. Həmin yay Xocalıya – öz yurduna yay tətilinə gedəndə söz vermişdi ki, anasına deyəcək. Ancaq... Məni qoyub getdi! Əhdinə sadiq qaldı. Mən isə bunu bacarmadım. Ailə həyatı qurdum, işlədim, övlad sahibi oldum... Qızıma onun adını verdim. Beşinci sinifdə oxuyur. Tarix dərslərini çox sevir... Aytəkin kimi... Ona baxanda 19 il əvvəli və sonranı düşünürəm həmişə. Neçə-neçə talesiz insanlarımız gözlərimin önündə canlanır. Qarabağdakı döyüşlərimizi xatırlayıram. Gecə də, gündüz də bu fikirlərimlə yatıb qalxıram. Fikirlərim isə ümidli olmağa çağırır məni. Ümidlərimin izinə düşüb dünyanı qarış-qarış

gəzib Aytəkinimi axtarmaq istəyirəm... Qardaşı Kənanı, bacısı Gülcahanı, həmin yay Naxçıvandan onlara qonaq gəlmiş qoca nənəsini, namusu tapdalanmış analarımızı, bacılarımızı, gəlinlərimizi, uşaqlıq sevincləri gözlərində qalmış körpələrimizi, qisas almaq atəşi ilə dişi bağırsaqlarını kəsən cavan oğullarımızı haraylamaq istəyirəm... Və bir də... Bir də həmin məktubu oxumaq istəyirəm. Sonuncu məktubuma Aytəkinimin yazdığı şad xəbər dolu cavab məktubunu. Demişdi ki, aramızdakı münasibəti, bir-birimizi sevdiyimizi anama deyən kimi sənə məktub yazacağam. Görəsən, demişdimi?! Əgər demişdisə, məktub da yazmışdımı?!.

***

Universitet müəlliminin çıxışı yarımçıq qaldı. Ola bilsin ki, fikirlərini tamamlamışdı. Onsuz da deyəcəyini deyib hamını xeyli kövrəltmişdi. Rektorun işarəsi onun halının pisləşdiyini göstərirdi. İki nəfər tələbə gənc kürsüyə yaxınlaşıb onun düşməsinə kömək etdilər. Deyəsən, zaldan çıxarırdılar.

Sevgilisini itirəndən sonra ali təhsilini yarımçıq qoyub müharibəyə yollanan Ramil müəllim ətrafında olanları heyrətə gətirən şücaətlə Qarabağdakı qanlı döyüşlərdə iştirak etmişdi. Dəfələrlə ölümlə üz-üzə gəlmişdi. 1993-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlərdə başından ağır yaralanmış, iki ilə qədər müalicə alsa da, hərdən səhhətində problemlər yaranırdı. Həkim həyəcanlanmağın ona çox pis təsir etdiyini dəfələrlə demişdisə də, Ramil müəllim buna məhəl qoymurdu.

***

Mayor Qüdrətov tədbir yekunlaşan kimi ayağa qalxıb arxa qapı tərəfdən çıxışa yaxınlaşdı. Sürətlə pilləkənləri

aşağı düşüb universitetin həyətinə çıxdı. Ətrafda daha çox adam gözə dəyirdi. Təxminən saat yarımlıq tədbirdən sonra, sanki bu insanlar daha qayğısız görünürdülər. Elə bil ildə bir dəfə verməli olduqları danışmaq borclarını yerinə yetirib rahatlamışdılar. Bunu Qüdrətov görə bilirdi. Amma nədənsə çox fikirli idi. Siqaret yandırıb özünəməxsus ustalıqla ətrafa göz gəzdirdi. Baxışlarından bu dəqiqələrdə kimisə axtardığı aşkar hiss olunurdu. Bu baxışlarda maraq, təəccüb və hətta, heyrətdən doğan qəribə bir ahəng var idi. Məxfi şöbənin gizli agentinin bu qədər böyük istəklə həyətdə görməyə çalışdığı adam, görəsən, kim idi?!. Bəlkə, bir az əvvəl tədbirdə çıxış edərək hamını kövrəldən həmin o Ramil müəllim?! Bəlkə, tədbiri giriş sözü ilə açan rektor?! Yox, deyəsən, birinci idi. Çünki elə bu saniyələrdə rektor onun üçün açılmış arxa sağ qapıdan dövlət nömrə nişanlı qara maşına oturaraq oradan uzaqlaşdı. Sürücünün idarə etdiyi maşın hətta Qüdrətovun iki addımlığından keçib getsə də, bu mayorun diqqətini çəkmədi. Deməli, o, həqiqətən də, Ramil haqqında düşünürdü. Kəskin baxışlarında qətiyyət hiss olunurdu. Bu, adətən, o hansısa bir əməliyyata başladıqda, yaxud nəyinsə üstünü açdıqda daha çox biruzə verirdi. Görəsən, Ramil müəllimlə bağlı mayorun kəskin marağına səbəb olan nə idi?!

***

Qüdrətov arxa həyətdə saxladığı maşınına çatar-çatmaz pultla qapını açıb əlindəki qara cildli kitabı və paltosunu soyunub arxa oturacağa qoyaraq tərəddüd etmədən mühərriki işə saldı, onun üçün açılmış darvazadan çıxaraq oradan uzaqlaşdı.

– Universitetin tarix fakültəsində yaşı 40-42 arası olan Ramil adlı müəllim haqqında bu gün axşama qədər ət-

raflı məlumat istəyirəm. Bu gün tədbirdə çıxış edib, baş müəllimdir.

Zəng etdiyi adama bunları tapşırıb telefon əlaqəsini kəsdi. İndi onun idarə etdiyi tünd göy rəngli "BMW" markalı maşın Mətbuat prospektindən Badamdar qəsəbəsi istiqamətində sürətlə irəliləyirdi. Evə tələsirdi. Deyəsən, axtardığı öz iş otağında kitablarının, yaxud da sənədlərinin içərisində olmalı idi.

Həmin gündəlik... Qüdrətov onu axıra qədər oxumuşdumu?! Bir neçə dəfə cəhd etmişdi, alınmamışdı. Amma sonra hansısa araşdırma zamanı əməliyyata gərəkli materiallar toplaması üçün bir dəfə axıra qədər oxumuşdu, deyəsən. İnsanın qanını damarda dondururdu orada yazılanlar. Bəs indi təcrübəli təhlükəsizlik işçisini həmin dəftərçəni yenidən oxumağa sövq edən nə idi?! Doğrudanmı, Fransada olarkən təsadüf nəticəsində əlinə keçən həmin gündəlikdəki qız... Yox, Qüdrətovun xarakterində təsadüflərə yer yox idi! Bəs indi?! Necə olur-olsun, evə tez çatmaq, həmin gündəliyi tapmaq və o qadının miskin həyat səhifələrini bir daha diqqətlə vərəqləmək lazım idi. Aytəkin, Ramil, Gülcahan, Kənan, Naxçıvandan gələn qoca nənə, tarix fakültəsi, illər... Yox, hər şey bu qədər təsadüfi ola bilməzdi. Bir az əvvəl tədbirdə çıxış edib ürək ağrısı ilə zaldan çıxarılan Ramil müəllimin qismətsiz sevgilisinin – Aytəkinin gündəliyi idi o!.. Başqa cür ola bilməz!..

***

... Qüdrətov iş otağındakı kitabların arasında həmin gündəliyi axtarmağa başladı. Və sanki indi fikirlərindən ayrılıb evə çatdığını hiss etdi. Maşını necə sürdüyü, saxladığı, evə gəlməyi hamısı, elə bil yuxu kimi keçmişdi. İndi bütün diqqəti həmin gündəliyin axtarışına hakim kəsil-

mişdi. Kitab rəfindən yerə tökdüyü kitabları bir tərəfə itələyib, sanki qorxa-qorxa üz qabığı saralıb-solmuş həmin dəftərçənin ilk səhifəsini açdı. Heyrətindən dodaqları qurumağa başlayırdı. Ona tanış gələn bu sətirləri əzbərləyibmiş kimi sürətlə oxumağa başladı. Məxfi şöbənin gizli agenti həyatında ən gözlənilməz təsadüflə rastlaşmışdı. Bəli, bir neçə il əvvəl Qüdrətovun əlinə keçmiş bu gündəliyi Aytəkin yazmışdı...

## 2. Girov qadının xatirələri...

Keşməkəşli bir ömür yolu keçmiş, həyatda təsəvvür belə edilməyəcək işgəncələr görmüş, dəfələrlə ölümü yaşamaqdan üstün tutmasına baxmayaraq, bu həsrətdən məhrum olunmuş, səhrada günlərlə susuz qalmış bir insanın suya həsrət qaldığı kimi ölümə də beləcə həsrət qalan bir ananın göz yaşları içində yazmaq və ya yazmamaq fikirlərindən yazmaq istəyinin üstün olması oxuyacağınız bu gündəliyi ortaya çıxartdı.

O günləri ölə-ölə, ət tökə-tökə xatırlamaq və ya xatırlaya-xatırlaya ət tökmək, mənən ölmək yazmamağım üçün ən yaxşı bəhanədir. Amma çox düşündükdən sonra yazmaq qərarına gəldim. Və bir daha bu haqda düşünməmək üçün özümdən uzaqlaşmağıma ümid edərək yazıram.

Ümid edirəm ki, yazdığım bu gündəliyi elə bir zaman gələcək ki, özüm cıracağam, bəlkə də, yox, cırmayacağam, cəmiyyətin əllərinə təqdim edəcəyəm. Əslində bu gün bu dəftəri yazmağa imkanım varsa, gücüm, iradəm çatırsa, yaza bilirəmsə, tanrıma şükür edirəm.

Bu cümləni belə işlətdiyim zaman qəlbimdə özümə yazığım gəlir. Hətta nifrət edirəm desəm, bu qadının ürək çırpıntılarının səmimiliyinə inanın.

Gör mən nəyə şükür edirəm?..

Məsum bir qızkən, sevgilim (bizim elimizdə qız “sevgilim” sözünü işlətməyə utanardı) haqqında anama necə deyəcəyimi, söhbətə haradan başlayacağımı düşünəndə yanaqlarımın qızardığını, sinəmin həyəcanlı döyüntüsünü, qulaqlarımın isti təndir çörəyi qədər qızdığını hiss edən, açılmamış bir qızılgülün təhqir olunmasına baxmayaraq yaşamasına...

Bəlkə, zorlandığı zaman bir müsəlman qızı üçün ən toxunulmaz olan bakirəliyinin itirilməsini yox, elinin, yurdunun təhqir olunmasına şərait yaradan qadın cismimin yaşadığına?!

Bəlkə, o günə ki, otağında hər hansı bir tanımadığı kişinin gələcəyinə, sahiblərimizin məni kimə təqdim edəcəyini qorxa-qorxa gözlədiyimə şükür edirəm?

Bəlkə, mənimlə yaşayan intiqama, ümidə?

Bu xatirəmi oxuyandan sonra kiminsə mənə haqq qazandırmasını qətiyyən gözləmirəm, amma başa düşməsinə ümid edirəm. Necə ki bir gün sevdiyim oğlanı uzaqdan da olsa, 15 il boyunca ləyaqətimin hər an tapdanmasına baxmayaraq, bir dəfə görməyimə hələ də ümid edirəm, necə ki özündən asılı olmayan, zorlanmanın bütün növlərini görən bir qızın hələ də tanıdıqlarının üzünə baxa biləcəyinə ümid etdiyi kimi, oxuyanların da məni başa düşəcəyinə ümid edirəm.

İndi yadıma düşür ki, universitet auditoriyalarında repressiya dövründən danışan müəllimimizin: “şairlərimizdən biri digərini niyə satırdı?” sualımıza verdiyi: – Gəlin onları başa düşək, amma haqq qazandırmasaq da olar” fikrinə ilk dəfə mən qarşı çıxmışdım. Hətta “necə başa düşək?” – sualını da vermişdim. Müəllim də demişdi ki, necə başa düşürsünüz düşün, amma başa düşməyə çalışın. İndi sizdən də ricam budur ki, əgər bu yazılarımı

oxuyursunuzsa, başa düşməyə çalışın, necə başa düşəcəksinizsə, elə də başa düşün. Bəli, bilirəm, bir türk qızının bunları nəinki öz yaxınlarına, hətta böyük bir insan kütləsinə danışmasına mən də razı olmazdım.

Əziz həmvətənlərim, əgər sizlər bunu oxuyacaqsınızsa, bağışlayın, mən artıq fahişəyəm, bizim eldə də deyərdilər ki, fahişənin milliyyəti olmur. Amma yazmağa qərar verməyimin səbəbi erməniləri dünyaya, ər oğullarımıza bir daha tanıtmaqdır. Bunu oxuyandan sonra bir qızın başına gələnləri danışdığı üçün əxlaqsız olduğuna qiymət verənlərin sayı, ermənilərin vəhşi, alçaq, şərəfsiz, nacins, heyvan olduqlarına qiymət verənlərin sayından minlərlə az olacağına qəti olaraq inanıram. Qoy ər oğullarımız bunu oxuduqları zaman qınını yırtan qılınca çevrilsin, dağları lərzəyə salan vulkan olsun, qürurları mənliyini silkələsin, silkələsin, bəlkə, mənim kimi yüzlərlə sadəcə cisim kimi yaşayan, hətta qisas üçün fürsət gözləyən qızlarımızın könlü, fürsət tapıb intihar edən qızlarımızın ruhu şad olsun.

Amma əmin olun ki, oxuduqca görəcəksiniz ki, ümidlərimin izi ilə yorulmadan gedirəm. Başıma nələrin gəldiyindən asılı olmayaraq, bu gün yaşayıram. Niyə yaşadığımı özüm belə bilmədiyim halda, yaşayıram...

***

*Gedin deyin Xançobana,*
*Gəlməsin bu il Muğana.*
*Muğan batıb qızıl qana,*
*Apardı sellər Saranı,*
*Bir ala gözlü balanı.*

1992-ci ilin fevral ayı idi... Havalar çox soyuq keçirdi. Bizim evimiz şəhərin kənarında yerləşirdi. Bu evə yeni

köçmüşdük. Təzə ev olduğu üçün işıqların tez-tez sönməsi, qazların kəsilməsi evi qızmağa qoymurdu. Bu qış nənəm də bizdə idi xoşbəxtlikdən. Amma, sən demə, Naxçıvanda yaşayan nənəmin bizdə olması əslində bədbəxtlikdən imiş. Bir də ki, nənəm bizə qışda qalmaq üçün gəlməmişdi, yayı qalıb qayıtmalı idi. Atam şəhid olandan sonra bizi başsız qoymaq istəmirdi. Amma ermənilərin Qarabağa hücumunun şiddətlənməsi nəticəsində Xocalı neçə ay idi ki, mühasirədə idi. Bunun üçün də nənəmin dayımgilin yanına qayıtması müşkül məsələyə çevrilmişdi. Havanın soyuqluğundan şikayətlənəndə arvad tez-tez bizə öz kəndlərinin soyuğunu misal çəkirdi – "bala, siz hələ nə görmüsünüz, Naxçıvanda "tu" deyirsən, göydə donur". Bu söz də 6 yaşlı qardaşım Kənanın ağzına düşmüşdü. Çölə çıxırdı, içəri girirdi "tu deyiysən, göydə donuy, ee, nənə", – deyirdi. Bizim gülüşməyimiz isə nənəmi acıqlandırırdı, hətta uşaq kimi küsürdü də: "Qoy yollar açılsın, gedəcəyəm, bir də buralara gəlməyəcəyəm. Rəhmətlik kişi deyirdi axı, allah bizi uşaqların umidinə qoymasın". Anam birtəhər könlünü alırdı. Hər şey də tez yadından çıxırdı. Nənəm bir kitab idi sanki. Hər yadıma düşəndə, elə hey ondan danışmaq istəyirəm.

O sıxıntılı günlərdə, hər an qaçmağa hazır olduğumuz bir zamanda, atəş səslərinin bizi müşayiət etdiyi bir vaxtda qorxumuzdan zirzəmi məqsədilə tikilmiş birinci mərtəbə adlandırdığımız balaca, həyətə baxan, kiçik pəncərəsi olan, nənəmin "əldamı" adlandırdığı, əslində isə mətbəx funksiyası daşıyan otağa sığışdığımız ərəfədə evimizi şənləndirən bir nənəm, bir də qardaşım Kənan idi. Yəqin ki, bu da nənəmin dünyagörmüş bir qoca olması, qardaşımın isə uşaq olub ağlı kəsməməsi səbəbindən idi. Məhz bunlar bizə qorxudan, təhlükənin ciddilyindən uzaqlaşmağa kömək edirdi.

Anamın müharibənin ilk günlərində döyüşdə şəhid olan atamdan sonra heç eyni açılmazdı. Gözlərində bir kədər var idi. Həmişə əlləri qoynunda oturar, bizi seyr edər, elə bilərdik bizə baxır, amma bir şey soruşanda diksinərək hövlnak yuxudan duran adamlar kimi, "hə, nə olub, nə deyirsiz?" – deyərdi. Eşqin nə olduğunu başa düşmədiyi üçün qardaşımdan başqa, hamımız anamın halını anlayırdıq. Çünki atamla anam bir-birilərini sevib evlənmişdilər. Ona görə də bu ayrılıq anama ağır gəlirdi. Üstəlik o, Naxçıvan kimi ənənələrə bağlı olan bir yerdən ata-anasına qarşı çıxaraq atamla evlənmişdi. Hətta nənəm deyir ki, babası bir dəfə hirslənib demişdi ki, əgər Soltanla evlənib Xocalıya getsən, səni qızlıqdan çıxaracağam. Ailəmizin ilk övladı 8 ildən sonra olmasına baxmayaraq, onlar bir-birilərindən sarmaşıq kimi yapışmışlar. Bunun üçün də anam sevginin də, həsrətin də nə olduğunu yaxşı bilirdi. Hətta mənə elə gəlirdi ki, anam kimi heç kim həsrət çəkə bilməz. Onun həsrət çəkən gözlərində həmişə bir ümid var idi. Həmişə bu həsrətin vüsalla bitəcəyindən xəbər verirdi. Bəlkə də, anam həsrət çəkəndə xoş günlərini xatırlayıb sevgi ilə kədəri o qara gözlərində birləşdirirdi, qovuşdururdu. Onun üçün də həsrət anama belə qəşəng yaraşırdı...

*Al ələ darağı dara saçların,*
*Tökülüb gedirlər hara saçların,*
*Xınayla boyanmış qara saçların*
*Xəlvətcə ağardı, anam bilmədən,*
*Anam da qocaldı, zaman bilmədən.*

Son zamanlar da camaat arasında gəzən şayiələr onu yaman narahat edirdi. Tez-tez dili ilə dodağı arasında, "görəsən, bu işlərin axırı necə olacaq? Bizə sahib çıxan

olacaqmı? Allah, sən özün kömək ol! Bu qızları sağ-salamat burdan çıxarım, Əshabul-kəfdə bir qurban kəsəcəyəm", – deyərdi.

Yazıq anam neyləsin? Gündə bir xəbər gəlirdi, hərə bir şey deyirdi.

Biri deyirdi:

– Xocalını satıblar.

Biri deyirdi:

– Ordumuz mühasirəni yarmaq üzrədir.

Biri deyirdi:

– Bakıda elə bilirlər artıq Xocalı işğal olunub.

Biri deyirdi:

– Ruslar yenidən gəlir.

Bu söhbətlərdə, sanki bir ümid var idi,  özümüzü təsəlli edəcək nəsə axtarırdıq. Onun üçün də anam və nənəm hey bu barədə düşünürdü.

Bir tərəfdən ölüm qorxusu, bir tərəfdən havanın kəskin soyuqluğu, bir tərəfdən də ərzaq qıtlığı hamı kimi bizim də başsız ailəmizi yumaq kimi bir yerə yığmışdı. Doğrusu, bütün qəsəbə bizim kimi idi.

Məndən kiçik bacım Gülcahan isə 13 yaşına təzəcə girmişdi. Bizim nə düşündüyümüzdən asılı olmayaraq, o güzgünün qabağından çəkilmir, sarışın uzun saçlarını darayır, sığal çəkir, göz-gözə vurub biz görməyəndə öz əndamına baxırdı. Düzü, çox qəşəng idi. Yaraşığı göz oxşayırdı. Atam həmişə bizə deyirdi ki, ananıza heç oxşamamısınız. Bu gözəlliyi kimdən almışınız, bilmirəm. Bizi tərifləməsi xoşumuza gəlsə də, anamızı müdafiəyə keçərək, – nə olub ki, anamıza, deyərdik. Bəzən bu xor halında çıxardı. Amma Gülcahan, doğrudan da, çox gözəl idi. Gözəlliyi ilə bərabər cazibədarlığı da var idi. Amma çox heyf...

Mən isə bilmirdim, altı aydır üzünü görmədiyim Ra-

mili düşünüm, yoxsa anama təsəlli verim, darıxmaması üçün nənəmlə söhbət edim, ya Kənanla oynayım. Düzdür, anam ailənin bütün yükünü çiynində daşıyırdı, amma bu, yorulmuş bir adamın ayaqlarını sürüyərək yeriməsinə bənzəyirdi. Hər şeyə rəğmən getməli idi, amma çiynindəki yükü yerə qoymadan, dayanmadan getməli idi. Mənsə anamın yanında ona kömək etməyə gücü çatmayan, nə isə etmək istəyən bir susuz köməkçi idim. Mən anamla getməli idim, ona kömək etməli idim. Amma fikrim mənimlə deyildi. Ruhum tez-tez məndən uzaqlaşırdı. Müharibənin nə olduğunu bilsəm də, bundan ağır olacağını ağlıma gətirmədən Ramili düşünürdüm. Heç atamı, deyəsən, xatırlamırdım da. Ramil, sanki mənim ikinci mənim olmuşdu. Axı o, mərdliyinə, qüruruna və əsl Azərbaycan kişisinə layiq xüsusiyyətlərinə görə rəhmətlik atama çox bənzəyirdi... Neçə ay idi ki, ondan nə məktub ala, nə də danışa bilirdim. Qəlbimi gizlin-gizlin saxladığım şəklinə baxmaqla, bir də axırıncı məktubu ilə ovudurdum. O şəkli də anamdan gizlətmək üçün qoymadığım palazaltı, yükaltı, şkafüstü, kitabarası qalmamışdı.

Sanki bizi, bu eli, Xocalını elə Ramil qurtaracaqdı. Onu bir dəfə görsəydim, hadisələri danışsaydım, hökmən bizə köməyə gələcəkdi, məncə... Amma çox gözlədim...

Gecələr silah səsləri ilə yuxuya gedir, səhərlər Ramillə söhbətlə ayılırdım. Hər dəfə yadıma düşəndə həyəcanlanır, ilk dəfə əlimdən tutmasını, qəfildən yanağımdan öpüb “səni sevirəm” deməsini və bu hərəkətindən necə qızardığını unuda bilmirəm. Həmin gün mən də çox həyəcanlanmışdım, amma o qədər abırlı oğlan idi ki, onun utanması, sanki böyük bir qəbahət işləməsi kimi özünü aparması mənim qəlbimin titrəyişinin, yanağımın al-laləyə dönməsinin qarşısını aldı. Həmin gün bir-birimizə heç nə demədən ayrılmışdıq. Sanki böyük günah iş-

lətmişdik. Günahkarın kim olduğunu da bilmirdik. Mən yataqxanaya çatana qədər əlimi yanağımdan çəkməmişdim. Elə bilirdim hamı mənə baxır, onlar məni görüblər. İndi kimsə nəsə deyəcək. Sabahı gün məni kitabxanada tapması, söhbət etmək üçün yanımda oturmaq istəməsi, kitabxanaçı qadının da onun başqa yerdə oturmasını tələb etməsi, bu həngamədə kiçik bir məktub yazıb dünənki hərəkətinə görə üzr istəməsi məni ona bir daha bağlamışdı. Özünü o qədər itirmişdi ki, Cəbhəçilərin tüğyan etdiyi, vətənpərvərlik hisslərinin yüksək olduğu bir zamanda dilinin əzbəri olan "rədd olsun SSRİ!" şüarını unutmayan Ramilin oxumaq üçün götürdüyü Marksizm və Leninizm fəlsəfəsindən bəhs edən hansısa bir kitab idi. Bu hadisə nə vaxt yadıma düşürdü, gülümsəməyə bilmirdim. Bir neçə dəfə də anam buna görə danlamışdı ki, niyə gülürsən öz-özünə?..

Bütün bu düşündüklərimi elə həmin gecə basdırdım Xocalıda. Neçə illərdi, bu danışdıqlarım yadıma düşəndə sinəm həyəcanla qalxıb-enmir, gülümsünə bilmirəm, elə bil yadıma düşdüyü zaman unutmağa çalışıram. O, mən deyiləm demək istəyirəm. Amma nə edək ki, insan özündən qaça bilmir, uzaqlaşa bilmir. Nə olaydı ki, Tanrı bizə bu lütfü də verəydi. Necə ki bəyənmədiyimiz hər şeyi ata, unuda bilirik, kaş ki, özümüzdə də xoşagəlməz, xatırlamaq istəmədiyimiz hissləri kəsib ata biləydik...

Saf, məsum, pak gülüşümün donduğu o gecə səbəbkar idi buna. Həmin gecə ki camaatın niyə çığırışdığını, hara qaçdığını, sanki yuxuda görmüşəm. Nə tam xatırlaya bilirəm, nə də unuda... Amma xatırlamaq istəmədiyim kimi, unuda da bilmirəm.

***

... Nənəmin ayaqlarını ovurdum. Birdən odun gətirmək üçün həyətə çıxan anamın pəncərədən: “qaçın”, deməsi ilə atəş səsinin açılması bir oldu. Anam susdu... Üzümüzə baxa-baxa susdu. Gözləri ilə “məni bağışlayın”, – deyə-deyə susdu... Sanki anam ölümlə həyat arasındakı bir anlıq baxışında bizə kömək edə bilməyəcəyi üçün narahat idi. Sanki başımıza nələrin gələcəyini bilirdi. Bizi başsız qoyduğu üçün ürəyi ağrıyır, gücsüz olduğu üçün əzab çəkirdi...

O zaman anamın o cür qəddarcasına öldürülməsinə nə qədər kədərlənmişdimsə, sonralar Tanrıya anamı bu cür ölümlə mükafatlandırdığına görə dəfələrlə şükür etmişdim. Sözsüz ki, anam onun ölümü üçün Tanrıya şükür etməyimi eşidə, görə bilsəydi, məni ömrü boyu bağışlamazdı. Amma yazıq anam, nə biləydi ki, 6 yaşlı körpəsinin cinsiyyət orqanından güllələnməsini, əzablar içində qıvrınmasını, mənə sığınmaq istəməsini, qışqırtısını, fəryadını görmədiyi, eşitmədiyi üçün Tanrıya şükür etmişəm! Nə biləydi ki, bir zamanlar əlinə keçəni ilə cehizlərini aldığı, telli-duvaqlı gəlin köçəcəyini ümid edən qızları ömürlərinin bahar çağında üç erməni dığası və ruslar tərəfindən nənələrinin gözü qabağında zorlandığını görməməsi üçün Tanrıya şükür etmişəm! Nə biləydi ki, insan övladına xas olmayan hərəkətlərlə zorlandığı anda gözlərini analarına dikən, fəryad qoparan, nalə çəkən, inildəyən qızlarının pəncərədən bütün bu hadisələri sadəcə daş olmuş, donmuş, lal olmuş kimi baxan analarından kömək istədiyini eşitməməsi üçün Tanrıya şükür etmişəm?! Nə biləydi?! Nə biləydi ki, qoca anasının ermənilər tərəfindən alçaldılacağını, “hə, nə deyirsən, qoca, birdən tamahın düşər ha, könlündən keçir, sənin də, a kaftar?” – deyilərək heysiyyəti tapdalanacağını, sonra da

nəvələrini müdafiə üçün özünü qabağa atan bir qocanın sinəsinə “Kalaşnikov” güllələrinin doldurulmasını görmədiyi üçün Tanrıya şükür etmişəm!

O Tanrıya ki yaratdığı bu dünyada şər qüvvələrə bu qədər imkan verdiyi üçün onu dəfələrlə lənətləmişəm də. Dünyasına sahib çıxa bilmədiyi üçün qınamışam, daim şərin əməllərinə göz yumduğu üçün dünyasına da, özünə də yox demişəm, rədd etmişəm. Zalımın zəifə verdiyi işgəncələrdən zövq almasına qapı açan – bizi yaradan ola bilməz dediyim Tanrıya bir neçə saatdan sonra da şükür etmişəm. Çox qəribədir...

Özü kimi yaratdıqları da ziddiyyətlidir. Mən ateist olmasam da, hərdən üsyankar fikirlər söylədiyim zamanlarda zalımın zülmünə qurban gedən, ömrünün sonuna qədər tanrısına tapınan, daima “o bilən məsləhətdir” deyən rəhmətlik nənəm həmişə söyləyərdi ki, Tanrı öz sevdiklərini daha çətin imtahanlara çəkər. Mənsə bu cür sevgini istəmirdim mənim tanrımdan... Kaş ki məni sevməyəydi... Heç nifrət də etməyəydi. Heç yaratmayaydı da...

Bu, sanki bir aşiqin öz sevgilisini sınamaq üçün soyundurub başqa bir kişiyə təqdim etməsinə bənzəyir. Və həmin aşiq bununla da sevgilisinin ona olan sədaqətini görmək istəyir. Əzmlə mübarizə apardığını görmək istəyir, qısqanclığını ovundurmaq istəyir. Sonra da iş-işdən keçir. Sədaqətini yoxlamaq istədiyi sevgilisi ona da, sevgisinə də nifrət edir. Bu da sevginin sonu olur, nifrətin əvvəli...

Ümid edirəm ki, gördüklərimdən sonra ölümümə belə razı olmayan Tanrı nənəmin dediyi kimi, hələ də məni imtahana çəkir...

## 3. Acı peşmançılıq

Xəfif əsən qış küləyi azacıq aralı qalan qapıdan özünə yol tapıb nəhayət ki, içəri keçərək özü ilə bayırdakı soyuq havanı da içəri gətirdi. Sanki gecədən bəri apardığı mübarizədən sonra qapıya qalib gələn külək indilərdə bir-bir otaqları gəzirdi. Dəhlizdən baxdıqda qarşı tərəfdə bir geniş otaq, sol tərəfdə isə ümumi giriş qapısı ilə əlaqəli olan  zalın kənarlarında qapıları bağlı olan daha iki otağın olduğu diqqəti çəkirdi. Hava artıq çoxdan işıqlanmışdı. Bazar günü olduğu üçün ev sakinləri hələ ki, səssizcə yatırdılar. Təzəcə işıqlanmış mənzilə nəzər saldıqda zalın sonundakı divanda gecədən yatıb qalmış yorğun ev sahibini görmək olardı. Üstü qalın yorğanla örtülsə də, paltarlarını soyunmadığı, işdən gəldiyi kostyumda yatdığı aydın görünürdü.

Qonşu otağın qapısı açıldı. Otaqdan çıxan qadın ərini oyatmamaq üçün barmaqlarının ucunda dəhlizə keçib mətbəxə tərəf getdi. Çaydanı təzəcə dəmə qoymuşdu ki, kiminsə dəhlizə çıxdığını görüb geri çevrildi.

– Sabahın xeyir, Ramil! Allah məni öldürsün, oyatdım səni hə?! Nərminə özünəməxsus ahənglə ərinə səsləndi.

– Çoxdan oyanmışdım, gedəcək yerim var. Mənim üçün çay qoy, çıxmalıyam bir azdan.

– Bazar günü nə iş?! Heç olmazsa, axşamdan xəbər edərdin, vaxtında oyadardım da səni.

Nərminə bunu deyib, sanki indi yadına düşürmüş kimi tez də əlavə elədi:

– Axşam da gec gəlmişdin. Heç üzünü görə bildik ki, soruşaq da?! Gəlib üstüaçıq yatmısan bu soyuqda. Yaxşı ki, gecə baxdım.

– Yaxşı, bir az cəld ol, mən getməliyəm.

Nərminə ərinin kefsiz olduğunu görüb daha heç nə

demək istəmədi. Amma düşündü ki, əri evə qayıdanda onunla dərdləşib əhvalının niyə belə olduğunu öyrənsin. Əgər Nərminənin düşündüyü kimi idisə, deməli, Ramil yenə də hər il olduğu kimi dünən gecədən səhərə qədər Aytəkini düşünmüşdü...

Ərinin çayını süzüb yemək masasının üstünə qoydu. Özü də yanında əyləşdi. Deyəsən, Ramil çayın gəlməsini də hiss etmədi. Çənəsini iki ovcunun içərisinə alıb gözlərini divardakı hansısa naməlum nöqtəyə zilləyərək xəyallara qərq olmuşdu. Onun bu halı, yanında oturan həyat yoldaşına da təsir etmişdi. İndi Nərminə də nə barəsindəsə düşünürdü...

***

Onlar on iki il əvvəl evlənmişdilər. Hər ikisi ziyalı olduğu üçün bir-birilərini yaxşı başa düşürdülər. Bir yerdə işlədiklərinə görə, evlənməmişdən əvvəl aralarında sevgidən daha çox dostluq münasibətləri var idi. Bəlkə, indi də belə idi. Hər halda Nərminə Ramilə ərə gələndən sonra bunu daha çox hiss edirdi. Sonralar qayınanası Səmayə xaladan da öyrənmişdi ki, Ramil onun təkidi ilə evlənib. Tələbə olanda Aytəkin adlı qızı sevsə də, o, Xocalıda şəhid olur. Və buna görə də Ramil onu unuda bilmir. Əslində kənardan baxan üçün, bilməyən üçün Ramilin Aytəkini sevməsi haqqında yalnız bu iki-üç kəlməni demək olardı. Amma Nərminə oxumuş, ağıllı bir qadın idi. O, ərini çox yaxşı anlayır, onu heç vaxt qınamırdı da. Hər il Xocalı faciəsinin ildönümü gələndə ərinin könlünü almağa çalışır, onun yanında olduğunu, ürəyinə hay verdiyini var qüvvəsi ilə, bütün qəlbi ilə hiss etdirməyə çalışırdı. Sözsüz ki, Ramil də onu yaxşı anlayırdı. Toylarından bir il sonra, qızları Aytəkin dünyaya gələndə artıq aralarında sevgi hissləri də cücərməyə başlamışdı.

***

– Çayını təzələyim, Ramil, soyutdun, amma içmədin? – Nərminə, sanki indi fikirlərindən ayrılıb hələ də xəyallar dünyasında olan ərinə səsləndi.

– Yox, belə içəcəyəm. Sən get yat, narahat olma. Bunu deyib onu uzaqlaşdıraraq sakit düşünmək istəyirdi, deyəsən. Özü isə stəkandakı soyumaq üzrə olan çayı birnəfəsə başına çəkərək həyətə düşdü.

Dünən universitetdə Xocalı faciəsinin on doqquz illiyi ilə bağlı keçirilən tədbirdən sonra "Şəhidlər Xiyabanı"na getmişdi. Nədənsə, tək qalmaq istəyirdi. Hava qaralana qədər orada gəzişmişdi. Sonra isə evə gəlmiş, yuxarı qalxmayaraq həyətdə oturub siqaret çəkmişdi. Gəncliyini, nakam sevgisini düşünmüşdü.

İndi həyətə düşəndə gecədən külqabıda yığılıb qalmış siqaret kötüklərinə gözü sataşdı, sanki özü də bir anlıq heyrətləndi. Burada bir gecədə çəkilmiş iki qutudan çox siqaret kötüyü var idi. Stul çəkib həyətdəki fındıq ağacının yanında oturdu. Bir az əvvəl havadakı zəif külək indi güclənərək, elə bil qalib olmağın məğrurluğunu yaşayırdı. Dünənki günü və gecənin narahatlığı içərisində yatdığı qısa vaxt ərzində gördüyü qarışıq yuxunu xatırladı...

***

İndi onun xəyalları on səkkiz il əvvələ – qara xəbəri eşitdiyi günə qayıtmışdı. O gün Ramil dostlarından birini itirmişdi. Adili... Kəlbəcərdə şəhid olmuşdu Adil. Heç meyitini də vermədilər ermənilər.

1993-cü ilin mart ayı idi. Novruz bayramı təzəcə bitmişdi. Heç "bitmişdi" demək olmazdı da. Amma müharibə dövrü olduğu üçün indikindən fərqli olaraq, camaatda bayram əhvali-ruhiyyəsinin yerini döyüş istəyi doldur-

muşdu. Ramil dostu Adillə görüşüb universitet şəhərciyinə gəldi. Bir vaxtlar onlar burada tanış olmuşdular. Adil biologiya fakültəsində oxusa da, universitetin aktiv gənclərindən olan Ramili yaxşı tanıyırdı. Onda Adil birinci kursda oxuyurdu. Ramildən bir neçə yaş kiçik olmasına baxmayaraq, bir-birilərini yaxşı anlayırdılar. Aralarındakı səmimi münasibət sonralar dostluğa çevrilmişdi. Bəlkə də, bu, onların oxşar talelərindən irəli gəlirdi. Çünki hər ikisi təhsillərini yarımçıq qoyub müharibəyə yollanmışdı.

Gəzə-gəzə universitetin həyətindəki skamyalardan birində oturdular. Çox söhbət etdilər.

– İki-üç gündən sonra gedirəm Kəlbəcərə. Evdə də anamgilin dolanışığını gördüm, çox narahat oldum. Doğrudur, atam işləyir. Amma mən istəyirəm ki, qardaşım üçün kiçik də olsa, dükan kimi yer götürüm. Məktəbdən gələnə kimi anam baxar, qardaşım dərsdən qayıdandan sonra onu əvəz edər. Birtəhər dolanarlar...

– Ay Adil, şükür Allaha, dolanırlar da. Nəyinə lazımdır? Sən özündən muğayat ol, yetər, – Ramil onun sözünü yarımçıq qoydu.

– Yox, mən istəyirəm rahat gedim. Ona görə... – sözünün davamını gətirmədi. Deyəsən, pərt olmuşdu. Ramil isə necə oldusa, bunu hiss etmədi:

– Hamı sənə kömək edir, ay Adil. Yenə də narazısan, vallah. Düzəlmədin də sən!..

Əslində Ramil bir neçə dəfə dostu Adilə maddi baxımdan köməklik etmişdi. Adil də öz növbəsində Ramilə çox yaxşılıqlar etmişdi. Başqa cür ola da bilməzdi. Onlar dost idilər. Və əgər dost idilərsə, deməli, çətin günlərində də bir-birilərinin yanında olmalı idilər. Amma indi Ramilin bu sözləri Adilə çox pis təsir etdi.

Ramil isə həmin gün bunu o qədər də hiss etmədi. Yalnız üç gün sonra bildi əhvalatı. Günorta evə gələndə anası

Səmayə arvadı kədərli görüb soruşdu:

– Nə olub, ay ana?! Yenə niyə kefin yoxdur?

– Adil getdi Kəlbəcərə. Bu dəqiqə orada vəziyyət yaxşı deyil. Nigaran qaldım yazıq uşaqdan. Allah yazıq etməsin.

– Ay arvad, dayan bir görək. Necə yəni getdi?! Sən haradan xəbər tutdun? Bəs məni görməmiş niyə gedib? Ramil, sanki hər şeyi bir anın içərisində anlamağa çalışıb birnəfəsə suallarını yağdırdı.

– Bizimlə görüşməyə gəlmişdi. Dedi ki, inciyib səndən... – Səmayə arvad məyus halda dilləndi. Oğluna da acıqlana bilmirdi. Bilirdi ki, tam sağalan kimi o da döyüş bölgəsinə qayıdacaq. Ona görə də fikrini yarımçıq qoyub susdu və evə girdi.

Ramil yalnız həmin gün bildi ki, xətrini çox istədiyi dostu ondan inciyib. Əvvəlcə məktub yazmaq istəsə də, bunun işə yaramayacağını düşünüb fikrindən daşındı. Adilə zəng etmək, səsini eşitmək, könlünü almaq isə mümkün deyildi. Ən azından indi bu dəqiqə harada olduğunu bilmirdi. Düşündü ki, bir-iki gün səbir eləsin. Necə olsa, Adil ailəsi ilə əlaqə saxlayanda hərbi hissənin telefon nömrəsini birtəhər öyrənib onunla danışa bilər. İki gün sonra Adildən xəbər gəldi... Amma bu xəbər... O, aprelin birinə keçən gecə Kəlbəcər uğrunda gedən döyüşlərdə minaya düşərək şəhid olmuşdu...

Əlindəki siqaretin közü barmaqlarını yandıranda Ramil, sanki yuxudan ayıldı. Siqaret yanaraq filtirinə qədər gəlib çatmışdı. Kötüyü külqabıya atıb stuldan qalxdı və növbəti siqareti yandırıb həyətdəki evin arxa tərəfində heç kəsin görə bilməyəcəyi yerə tərəf getdi...

... İndi o, on səkkiz il əvvəl baş vermiş bu hadisəni xatırlayaraq için-için ağlayırdı...

***

Əl telefonuna gələn zəng mayor Qüdrətovu oxuduğu qara cildli kitabdan bir anlıq ayrılmağa məcbur etdi. Gələn zəngə cavab vermək üçün telefonu qulağına apardı:

– Eşidirəm.

– Cənab mayor, həmin müəllimlə bağlı yeni məlumatlar əldə eləmişəm, – zəng edənin səsi eşidildi.

– Dünən axşam verdiyin məlumatlarla ziddiyyətli olanı var?

– Hələ ki xeyr.

– Yeni məlumatları sənəd şəklində elektron poçtuma göndər. Bir azdan baxacağam.

– Oldu, cənab mayor!

***

Telefon danışığından sonra Qüdrətov əlinin altındakı qara cildli kitabı yenidən götürdü. Kitabın qara rəngdə olmasını, elə bil indi görürdü. Bəlkə də, ondan soruşsaydılar, oxuduğun kitabın cildinin rəngi necədir, yadına sala bilməzdi. Yox, Qüdrətov bu qədər diqqətsiz ola bilməzdi. Amma, doğrudan da, kitabın rəngi onun diqqətini cəlb etməmişdi. Axı bu detektiv üçün xoş olan hal deyildi. O, kitabın rəngini görmüşdü, bilirdi də, sadəcə indiyə kimi nə əvvəllər, nə də indi oxuduğu kitabın rəngi ilə qara bəxtləri, qara talelələri bir yerə qoymamışdı. Qarabağın qara bəxtini müqayisə etməmişdi. Kitabı yazan şəxs də, yəqin ki, bilərəkdən bu rəngi seçmişdir. Qüdrətov sonuncu əməliyyatdan sonra Qarabağ hadisələri ilə bağlı çoxlu sənədli materiallarla, kitablarla tanış olmuşdu. Amma, deyəsən, məhz indi əlində olan bu kitab onun diqqətini daha çox cəlb etmişdi. Yəqin, bu, son iki gündə bu kitabla yanaşı oxuduğu həmin girov qızın gündəliyinin təsirin-

dən idi – Aytəkinin...

Bayaqdan özü ilə danışan Qüdrətov özünə haqq qazandıra bildiyi üçün bir az rahatladı, hətta üz cizgilərinə diqqətlə baxan olsaydı, özü ilə qürur duyduğunu da görə bilərdi. Qüdrətov öz hisslərini heç zaman büruzə verməyən bir insan olsa da, sonunda insan idi. O da sevinə, kədərlənə, hirslənə, hətta ağlaya bilərdi. Bu dəfə məxfi agent öz diqqətini bir anlıq sorğu-sual edəndə özünə vurğunluğunu gizlədə bilmədi. Amma yox, o, hər zaman vətəninə xidmət etməyi özü üçün müqəddəs borc bilmişdi. Elə indi də belə idi. Əslində Qudrətovun qürrələnəcək, fərəhlənəcək, özü ilə sözün əsl mənasında fəxr edəcək o qədər işləri olmuşdu ki...

Qüdrətovun Aytəkinin dəftərini oxumağa marağı olsaydı da, bundan qaçmaq istəyirdi. Çünki o, müharibənin dəhşətlərini dərindən araşdırmış, akademiyada təhsil aldığı dövrlərdə və sonradan milli təhlükəsizlik sistemində işlədiyi vaxtlarda bu hadisələri dərk etməyə çalışmışdı. Orta yaş dövrünə yeni qədəm qoyan təcrübəli əməliyyatçı öz dövlətinin təhlükəsizliyi naminə az işlər görməmişdi. İndi isə xatirələri andıran həmin dəftəri oxuyub Aytəkinin taleyini araşdırmaq hissi ilə, müharibə dəhşətlərini yenidən xatırlamaq hissi bir-birinə zidd idi.

Hələ dəftərin ilk səhifələri ona bu qədər əziyyət verirdi. Yadına bir anlıq 1990-cı illərin əvvəlindəki ictimai-siyasi vəziyyət düşdü...

O zaman Azərbaycan SSRİ-nin tərkibindən ayrılıb öz müstəqilliyini yenicə elan etmişdi. İqtisadi vəziyyət çox çətin idi. Hakimiyyətə gələnlər nə qədər vətənpərvər olsalar da, səriştəsiz olduqları üçün çoxlu siyasi problemlər yaşanırdı. Digər bir tərəfdən Rusiya Azərbaycanın müstəqilliyinə razı ola bilmədiyi üçün əlində olan bütün imkanlardan istifadə edib ölkəyə təzyiqlər edir, So-

vet hərbi qüvvələrini ölkədən çıxartmaq istəmirdi. Bu da Azərbaycanın müstəqilliyinə açıq-aşkar təhlükə idi. Eyni zamanda 1980-ci illərin sonundan aşkarcasına havadarlıq etdiyi ermənilərin Azərbaycan torpaqlarına hücumuna yardım edir, onları silah-sursatla təmin edirdi. Hətta münaqişənin əvvəllərində uzaqgörənlik edib bütün azərbaycanlılardan ov tüfənglərini belə yığmışdılar. Guya ki, xalqlar arasında  dostluq yaratmaq istəyirdilər. Sonralar isə məlum oldu ki, ermənilərdən heç bir silah alınmamışdır. Bunu iki ildə ermənilərin Azərbaycanın bir neçə rayonunu asanlıqla işğal etməsi sübut edirdi. Erməni tərəfi o dövrün bütün müasir rus silahları ilə silahlandığı halda, azərbaycanlılar  dayandoldurum ov tüfənginə belə həsrət idilər.

1992-ci ildə Xocalı faciəsinin də baş verməsinə səbəb belə irili-xırdalı məsələlər idi. Xocalını sadəcə şəhərin özündən olan, heç bir zirehli texnika ilə silahlanmayan özünümüdafiə batalyonu qoruyurdu. Həmin batalyona cəmi iyirmi nəfərdən ibarət olan minaatanlar briqadası kömək edirdi. Ermənilər düşmən Rusiya ordusunun Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə birgə fevralın 25-dən 26-na keçən gecə mühasirədə olan şəhərə hücum etdi. Qısa bir zamanda düşmən tankları, zirehli maşınlar şəhərə girdi. Şəhərdə küçə döyüşləri başladı. Cəsur komandir, Milli qəhrəman Tofiq Hüseynovun başçılıq etdiyi batalyonun sayca xeyli az döyüşçüsü yağı düşmənlə mərdliklə döyüşdü. Düşmənə mane olub çoxlu insanın mühasirədən çıxmasına imkan yaratdı. Sonra isə komandir əsir düşməmək üçün özünü güllələdi.

Sözsüz ki, Aytəkinin bunlardan xəbəri olmamışdı... Çox güman evlərində kişi olmayan Aytəkinin ailəsi evlərinə girib, qapı-bacanı bağlayıb ya düşmənin gəlməsini gözləyirdi, ya da Bakıdan gələcək köməyi. Amma birinci

baş verdi. Həm də qəfildən, – deyə düşündü Qüdrətov. Aytəkinlərin taleyi həmin gecə ayı batmış gecəyə döndü.

***

Hər bir azərbaycanlı kimi Qüdrətovun da yaralı yeri olan bu mövzu nə vaxt yadına düşürdü, beləcə o illərə dalır, prosesləri xatırlayırdı. Gördükləri, əsirlərdən və döyüşçülərdən eşitdikləri ən ağrılı hadisələr gözlərinin önündən getmirdi. Milli qəhrəman Çingiz Mustafayevin, Şamil Sabiroğlunun və digər fədakar operatorlarımızın Qarabağda və Xocalıda çəkdiyi kadrları beynində canlandırırdı.

Ən dözülməzi isə girovluqda olub-qayıdanların söhbəti idi. Xatirələri idi. Onlardan biri də Qüdrətovun ruhunu zəbt etmiş Xədicənin xatirələri idi. Bir dəfə yazıçı Sabir Şahtaxtının "Xəzəl oldu Xocalının Xəzəngülü" kitabını vərəqləyəndə diqqətini cəlb etmiş, oxumuşdu. O gündən də hər il bu hadisənin anım mərasimlərində Xədicənin dediklərini insan beyninə yazılmış səs lenti kimi yenidən eşidirdi. Hər dəfə də qulaq asanda sonsuz bir hüznlə səsləndirilmiş bu səs onu məhv edir, qanının axınını birəbeş sürətləndirirdi... Nə qədər əzab çəksə də, qulaq asırdı bu səsə məxfi agent. Həm də məxfi şəkildə qulaq asırdı. Qulaq asırdı, çünki bu onun ruhuna yazılmışdı. Ata bilməzdi, atmazdı da. Daşımalı idi bu səsi. Hər dəfə qulaq asıb əsəbiləşməli, xəcalət çəkməli, düşmənə nifrət etməli, özündən utanmalı, özünü gücü çatdığı qədər qınamalı idi. Çünki illər ötsə də, bir vətəndaş kimi təsəlliverici heç nə etməmişdi. İndi də qeyri-ixtiyari olaraq Xədicənin səsinə qulaq asırdı...

***

Mən 1968-ci il dekabr ayının 2-də Xocalı şəhərində anadan olmuşam. Xocalı şəhərini 23 yaşımda tərk etmişəm. Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə saat 11:00-da erməni quldurları tərəfindən mühasirəyə alındı. Yeddi-səkkiz ay idi ki, Xocalıda işıqlar yanmırdı. İşıqları ermənilər kəsmişdi. Düşmənlər tank və zirehli döyüş maşınlarından şəhəri hər tərəfdən atəşə tuturdular. Şəhərdə hərə bir yana qaçırdı. Arvad, uşaq, qoca – hamı çaşbaş qalmışdı. Canlarını qurtarmaq üçün gizlənməyə yer axtarırdılar. Amma mümkün deyildi, hər tərəfdən od yağırdı. Biz də evdən çıxıb qaçmağa başladıq. Qonşumuzda bir oğlan vardı, Milli Ordunun döyüşçüsü idi. O gəlib bizə xəbər verdi ki, ermənilər şəhərə girib. Şəhərdə ağır döyüşlər gedir, gecikmədən meşəyə qaçmalısınız. Həmin gecə o oğlan ermənilərə əsir düşdü. Sonrakı taleyindən isə xəbərimiz olmadı. Bütün ailəmizlə birlikdə meşəyə tərəf qaçdıq. Xocalı şəhəri ilə meşə arasında Qar-qar çayı vardı. Şaxtalı qış gecəsində çayı birtəhər keçib meşəyə çatdıq. Ermənilər əvvəlcədən planlaşdırdıqları kimi meşə yolunu da mühasirəyə almışdılar. Bu, biz çıxandan sonra olmuşdu. Onlar şəhərdən çıxa bilməyənləri meşədə əsir götürür, öldürürdülər. Biz meşədə üç gün, üç gecə yol getdik. Ermənilər bizi meşədə əsir götürdülər. Bizi birinci dəfə girov götürəndə anamın ürəyi elə yerindəcə partladı, orada öldü. Ermənilər iki nəfər idi. Hərbi forma geyinmiş ermənilər yekəqarın, saqqallı, dağ ayısını xatırladırdılar. Üst-başlarından gələn içki və siqaretlə qarışmış tər iyi əsl üfunət idi. Bizi təhqir etdikdən, üstümüzdəki qiymətli əşyaları götürdükdən sonra: "Onsuz da meşədə donub öləcəksiniz", – deyib getdilər. Onlar gedəndən sonra biz anamın meyitinin başına yığışdıq. Sanki bayaqdan anamızın ölümü yaddan çıxmışdı. Anamı qoyub gedə

bilməzdik. Soyuqdan və yorğunluqdan anamı özümüzlə apara da bilmirdik. Bir gecə anamın yanında qaldıq. Soyuqdan bir-birimizə qısılmış, nəfəslərimizlə əllərimizi qızışdırır, göz yaşlarının yanaqlarında donmaması üçün uşaqların üzlərini ovuşdururduq. Səhərə yaxın ocaq yandıra bildik. Amma, kaş ki, bu ocağı yandırmaya idik. On altı yaşlı bacım Lətafət özünü oda atıb öldürdü. Atam, anam və bacımın dərdi ilə yaşaya bilmədi. Digər tərəfdən də kişilik qüruru onu yeyib dağıdırdı. Çünki atam daima bizim yanımızda olub, heç bir problemə yenilməyimizə imkan verməmişdi. Həmişə qeyrətli türk kişisi kimi şərəf və ləyaqətimizi qorumuşdu. İndi isə o, çarəsiz, əliyalın, əlacsız idi. Bu vəziyyətdən çıxmağımız üçün heç bir yol tapa bilmirdi. Bu səbəbdən onun da ürəyi partladı. Gözlərini kimsəsiz meşədə əbədi olaraq yumdu. Üç bacı, üç uşaqla meşədə tək-tənha qaldıq. Həm yuxusuzluq, həm də soyuq bizi əldən salmışdı. Amma uşaqlara görə harasa getməli idik. Oturub erməniləri gözləyə bilməzdik. Gəlib bir kəndin qırağına çıxdıq, buranı tanımırdıq. Bir az dincəlmək üçün oturmaqla yuxunun bizi aparması bir olmuşdu. Səhər ayılanda gördük ki, erməni qəbiristanlığının yanındayıq. Böyük bacım dedi ki, tez olun oyanın, yolu səhv gəlmişik. Buradan qaçmalıyıq. Bu dəm üç-dörd ermənin bizə tərəf gəldiyini gördük. Qaçmaq istədiyimizi gördükdə atəş açdılar. Onlar Azərbaycan dilində danışırdılar. Erməni olduqlarına əvvəlcə inanmadıq. Bizi tutub bir otağa apardılar.

Bacım qızının qulağında sırğa var idi. Ermənilərdən biri bıçağı çıxardaraq qızın qulağını kəsmək istəyirdi ki, bacım tez sırğanı çıxardıb ona verdi. Onlardan başqa birisi bizim kimlərdən olduğumuzu soruşdu. "Şofer Həsənin uşaqlarıyıq" deyəndə, həmin erməni atamı tanıdı. Amma sonra da dedi ki, heç ümidlənməyin. Dəxli nədir, hamınız

türksünüz.

Bizi Ağdama gətirdilər. Xəstəxanaya yerləşdirdilər. Ayılandan sonra gördüm... Ayaqlarımın ikisini də kəsmişdilər...

***

Heç vaxt hisslərə qapılmağı sevməyən Qüdrətov özündən asılı olmayaraq necə olurdusa, hərdən bu duyğunu da yaşayırdı. Sanki Qüdrətov vacib bir işi araşdırdığını indicə xatırladı. Dəftəri yenidən açıb oxumaq istəyərkən özünə çay süzməyi də unutmadı. Həmişəki kimi yenə təmkinlə çayı süzüb masanın üzərinə qoyduqdan sonra yerini rahatladı. Nə qədər yorğun olmasına baxmayaraq, o, heç vaxt uzana-uzana, nəyəsə söykənə-söykənə, dirsəklənədirsəklənə kitab oxumazdı. Bu dəfə də adəti üzrə stulda düz oturaraq dəftəri vərəqləməyə başladı...

## 4. Şirin günlərin acı xatirəsi

*Hər görəni ilk dəfə valeh edən qəhvəyi rəngli iri gözlərindir. Gözlərinin daima bulaq suyu kimi şəffaf, şən, hərəkətli olması insanı günlərin susuz yolçusu kimi yoldan çıxardır. Heç bir sürməyə ehtiyacı olmayan qara uzun kirpiklərin bu gözəlliyi tamamlayır. Təbiətin yaz aylarının yaşıllıqları bulağın əsrarəngizliyini tamamladığı kimi. Qaşlarınsa üçgünlük ayın parıldayan ulduzları yarımçevrəsinə aldığı kimi gözlərinə nəzarət edir, elə bil.*

*Yanaqlarına gəldikdə, almacıqlarının qabarıq olması gülən gözlərinin aynasıdır, sanki. Ağzının böyüklüyü, dodaqlarının qalınlığı isə cizgilərindəki cazibədarlığı bir az da artırır. Elə məni öp deyir, sev deyir. Gözlərin kimi gah qara, gah da qəhvəyi rəngdə görünən saçların lap tanrının möcüzəsidir. Sanki*

*Tanrı gözlərin ilə saçlarını eyni rəngdən istifadə edərək boyamışdır. Saçlarını arxadan yığaraq, bir az da boş buraxanda heç bir varlıq bu gözəlliyin qarşısında tab gətirə bilməz, ruhunu belə bilmədən satar. Doğru sözümdür, yaradan sənə nə gözəllik vardısa, onu da verib. Boynunun uzunluğu, çiyinlərinin enli olması, sinənin meydan kimi genişliyi, belinin incəliyi səni bir qadın kimi çox ecazkar edir. Sənin simanda məsumluqla cazibədarlıq vəhdətdədir. Bir kişi kimi sənə baxdıqda həm qəlbinə, həm də təninə hakim olmaq arzusu adamın ağlını alır.*

Belə bir məktubu Ramil səkkiz mart qadınlar bayramında yazmışdı. Hə, indiki kimi yadımdadır – 1991-ci ildə. Və tapşırmışdı ki, evdə tək olanda oxuyum. Bunları oxuyanda çox gülmüşdüm Ramilimə. Nə qədər çox sevsə də, söz ehtiyatının azlığındanmı, böyüyüb-başa çatdığı yerin əxlaqındanmı, ya da ki az mütaliə etməyindənmi, o, heç vaxt məni ürəyi istədiyi kimi tərifləyə bilmirdi. Əsl Azərbaycan kişisiydi. Amma mən ona belə deyəndə acığına gəlirdi. Azərbaycan kişisinə nə olub, – deyə, – "Dədə Qorqud" dastanındakı kişilərin qadınlarına dediyi gözəlləmələri misal çəkirdi:

*Par-par yanan, parıldayan incə donlum,*
*Yeriyəndə yerə qədəm basmayan,*
*Qar üstünə qan dammış tək al yanaqlım!*
*Qoşa badam sığmayan dar ağızlım,*
*Qələm ilə rəssam çəkən qara qaşlım,*
*Hörükləri qırx tutamlıq qara saçlım!*

Sonra da deyirdi ki, görürsən, Azərbaycan kişiləri necə olub?! "Yeriyəndə yerə qədəm basmayan" bunu hansı xalqın romantik kişisi deyə bilərdi?

Mən başa düşürdüm ki, o, məni tərif edəndə Füzulinin Leyli üçün yazdığı ən gözəl sözləri demək istəyir. Bunu

deməsəydi də, başa düşürdüm. Amma ondan eşitmək daha çox ürəyimə yatırdı...

Doğrudan da, bir qadın kimi çox gözəl idim. Hələ məktəbdə oxuyarkən bu gözəlliyimi dərk etmişdim. Məhəlləmizdəki oğlanların gizlin-aşkar mənə göz qoyması, paralel sinifdəki oğlanların dəfələrlə mənə görə davadalaşı, rəfiqələrimin hərdən məni qısqanması bir az da nazlandırırdı məni. Sanki gözəlliyimlə hər kəsə meydan oxuyurdum. Gözəlliyimin dəyərini artıran da özümə verdiyim qiymət idi. Bu gözəlliyi, yaraşığı heç vaxt yerlərdə süründürməzdim. Heç kimdən çəkinməz, yeri gələndə arxamca düşüb yerli-yersiz danışan oğlanları geri qaytarmağı bacaran bir qız idim. Şıltaqlığım da ki öz yerində. Atamın məni çox istəməsi, ailənin ilk övladı olmağım, bəlkə, məni belə böyütmüşdü. Atam mənə "Xınalı kəklik" deyərdi. Çox az atalar olardı ki, qızını atamın məni əzizləməsi kimi əzizləsin. Bütün nazımla oynayardı. Böyük qız olandan sonra da saçımı darayar, bantlarımı vurar, sonra da gözlərimdən öpərdi. Hətta bir dəfə dırnaqlarımı da laklamışdı. Bunu anam hər gələnə danışardı. Atamdan bir dəfə niyə mənə "xınalı kəklik" dediyini soruşduqda, o kəkliyin ən gözəl quşlardan olduğunu dedi. Dedim ki, kəklik niyə belə gözəl olub? Sualıma cavab olaraq "Xınalı kəklik" əfsanəsini danışdı. O əfsanə heç vaxt yadımdan çıxmır, həmişə güzgünün qarşısına keçəndə o qızın gözəlliyini yadıma salırdım. Atamın mənə verdiyi "Xınalı kəklik" adının mənə yaraşdığını təsdiqləyirdim.

Universitetdə də məni bəyənən çox idi. Ramil təzə-təzə məni sevəndə nə qədər oğlanla üz-üzə gəlmişdi. Ta ki mən ona razılıq verib, birlikdə gəlib-gedənə qədər. Hətta Ramilin mənim yanımda gedəndə kiminsə mənə baxmaması üçün gözlərinin daima axtarışda olduğunu görmək məni gözəlliyimlə bir az da fəxr etməyə, qürrələnməyə

sövq edirdi. Çünki məni sevən var idi, məni qoruyan var idi. Mənimlə bir yerdə olmaqdan xoşbəxt olan var idi. Güzgüyə baxarkən bir sözü həmişə təkrarlayırdım:
"Dünyanı gözəllik xilas edəcək..."

Amma nə biləydim ki, bir zaman gözəlliyim məni xilas etmək əvəzinə məhv edəcək, içimdən əridəcəkdi, həm də asta-asta. Elə əridib – yandıracaqdı ki, tüstümü yalnız özüm görəcək, yalnız özüm udacaq, səsimi yalnız özüm eşidəcəkdim.

***

Evimizdəki hadisələr çox sürətlə baş verdi. Həmişə üsyankarlığımla, haqqımı tələb etməyimlə tanınmağıma baxmayaraq, heç nə edə bilmədim bu dəfə. Sadəcə hər şeyə mat-məəttəl qalmışdım. Sanki bir kabus görmüşdüm. Gülcahanın qışqırtısı, yalvarışı belə mənə təsir etməmişdi. Sanki bunlar olmalıymış, mənsə seyr etməliymişəm. Mən bir də o vaxt özümə gəldim ki, bütün bu hadisəni törədən iki erməni zabiti qapıdakı daha üç əsgəri çağıraraq evi axtarmağı əmr etdi. İkisi evi axtarmaqla məşğul olduğu halda zabitlərdən biri bizi – mənimlə bacımı göstərərək ona erməni dilində nəsə tapşırıq verdi. Mimikasından hiss etdim ki, bizi harasa aparmalarını tapşırdı. Məni göstərərək nəsə xüsusi bir tapşırıq verdi. Mən sonralar bu leytenantı tez-tez görəcəyimi ağlıma belə gətirməzdim. Hələ də kiminsə bizi xilas edəcəyinə ümid edirdim. Bunun üçün də ermənin bizi aparmasına heç bir etiraz edə bilmirdim. Taleyin hökmünə boyun əymiş, razılaşmışdım. Gözlərimdən yaş belə axmırdı. Cansız müqəvva kimi idim. Amma Gülcahan ağlayır, gah anam, gah da al qan içində yatan Kənan tərəfə qaçırdı. Zabitlər isə hərbi kəmərlərini bağlaya-bağlaya harın-harın gülür, gördükləri işdən sonra, sanki rahatlamış, yüngülləşmişdilər. Məni göstərən za-

bitdən yaşca böyük görünən ucaboy, ermənilərə xas əyri burun, yekə qarın zabit Gülcahanın hərəkətlərinə əsəbiləşirdi. Hətta bir dəfə onu vurmaq üçün avtomatı hazır vəziyyətə gətirdi.

Amma  digər zabit yenə ermənicə ona nəsə dedi, o da ucadan gülərək avtomatı aşağı saldı. Əsgər bizi qabağına qatıb evimizdən çıxartdı. Gülcahan çıxmamağa dirənsə də, erməni əsgərləri onu silahın ucu ilə vuraraq qapıdan çölə atdılar. Mən artıq bacıma dəstək olacağımı, mənə onun ehtiyacı olduğunu indi dərk etdim. Pilləkənlərdən ağzı üstə düşən Gülcahanı qaldırdım. Bağrıma basdım. Bizi beləcə təzə-təzə doğmalaşdığımız, hər küncünə yenicə alışdığımız evimizdən, həyətimizdən sürüyərək apardılar. Başıaçıq, ayaqyalın... O gecə, sanki tanrı da üzünü bizdən çevirmişdi. Nəinki bizdən, təbiətdən də üzünü çevirmişdi allah. Bizi aparan əsgər Azərbaycan dilini bilirdi. Onun üçün də tez-tez "sizə bu da azdı, hələ bir dayanın görün Safaryan sizin başınıza nə gətirəcək. Yaxşı ki, gözəlliyiniz var, yoxsa sizi də burada cəhənnəmə göndərərdik. Gərək, siz o müsəlman allahınıza şükür edəsiniz".

Bu sözləri eşidəndə birinci dəfə idi ki, gözəl olmağımın mənə bu cür yardım edəcəyini gördüm. O gözəlliklə ki bir zamanlar fəxr edirdim, həmin anda nifrət etdim bu gözəlliyə. Həmin gözəlliyə ki, doğrudan da, zaman gəldikdə məni xilas edəcəkdi...

## 5. Gündəliyin tapıldığı gün...

Vaxtın necə ötdüyünü hiss etmədən əlindəki dəftəri sonuna qədər oxuyub qurtardığını, sanki indi hiss edən Qüdrətov telefonun displeyini işıqlandırıb saata baxdı. Bir azdan altı olacaqdı. Deməli, gecədən səhərə qədər

olan şirin yuxudan cəmi iki saat vaxtı qalırdı. Amma nə beynindəki fikirlərdən ayrılıb yata bilirdi, nə də ki, fikir lərini bir-birinə calayıb onu daxildən narahat edən şübhələrinin izinə düşə bilirdi. Yorğun halda yalnız indi xatırlaya bildi ki, bu dəftəri artıq ikinci dəfə oxuyur. İlk dəfə dəftər əlinə keçəndə və bir də indi. Aytəkin adlı girov qızın yazdığı bu dəftərin ayrı-ayrı səhifələrini isə təcrübəli əməliyyatçı ayrı-ayrı vaxtlarda bir neçə dəfə oxumuşdu. Xocalının on doq-quz illiyi ilə bağlı həmin tədbirdən sonra isə bu dəftərdə yazılanlar onu hansısa müəmmalı bir hadisənin aşkara çıxarılmasına sürükləyirdi. Özü də bunu hiss edirdi. Getdikcə daha çox şübhələnir və öz hisslərinə inanmağa çalışırdı. İndiki yorğun vəziyyətində isə nədənsə özünü qınamağa başladı. Kimlərsə ümidlərinin izi ilə azad həyata can ataraq sevdiyinə qovuşmaq istədiyi halda, Qüdrətov öz şübhələrinin izi ilə çarpışırdı. Məgər bu yaxşı idimi?! Əlbəttə! O ən doğru olanı düşünürdü həmişəki kimi. Dövlətinin mənafeyi və təhlükəsizliyi naminə ən adi hadisələrdə ayıq-sayıq olmaq onun taleyinə yazılmışdı. Bu, onun müqəddəs borcu idi. Bir az əvvəl oxuyub bitirərək stolun üstünə qoyduğu xatirə dəftərini yenə də açdı. Sonuncu səhifələrini açaraq yenicə oxuduğu sətirlərə bir daha nəzər saldı. Bütün diqqəti ilə həmin müəmmalı sətirlərə hakim kəsilmişdi. Aytəkinin öz dəftərçəsinin sonunda yazdığı həmin səhifələr mayor Qüdrətovu həmin universitet müəllimi Ramil haqqında daha dərindən düşünməyə vadar edirdi. Təcrübəli əməliyyatçı əvvəlki şöbədə olanda rəisi general-mayor Kamil Əzimovdan çox tapşırıqlar almışdı. Bu tapşırıqlar çətinliyinə və kəskinliyinə görə bir-birinə çox bənzəyirdi. Məxfi şöbəyə gələndən sonra isə, sanki bu tapşırıqların sayı azalmışdı. İndi Qüdrətovun əvvəlkindən daha çox vaxtı olurdu. İndi də belə bir şübhələrə qalib gələrək məsələnin

əsl tərəfini açıb göstərmək üçün hər şeyə hazır idi. Əgər o yanılmırdısa, deməli, Ermənistanın planı ilə göndərilmiş xain qüvvə Bakıda hansısa mühüm tapşırığı yerinə yetirməli idi. Bu isə miqyasından asılı olmayaraq dövlətimiz üçün təhlükəli ola bilərdi. Oxuduqlarına inanmaq Qüdrətov üçün bir insan kimi çox çətin idi. Dəftərdəkilərdən belə bir nəticə çıxartmaq olardı ki, Aytəkin bunu edə bilməzdi, etməzdi də. Axı o, azərbaycanlı idi, vətəndaş idi, doğma Azərbaycanının bir parçasını – Ramili sevirdi... O, buna necə razı ola bilərdi?! Bu kiçik dəftərdən onun ağıllı qız olduğunu da öyrənmişdi. Başqa bir yol da tapa bilərdi, yaşamaq və yaşatmaq üçün.

Qüdrətov hiss etdi ki, artıq çox yorulub. Düşünməsi üçün həmişə yardımçı olan çay da indi öz təsirini itirmişdi. Odur ki, otağın işığını söndürüb siqaret yandıraraq həyətə düşdü. Bir az açıq havada gəzişərək tez də qayıdıb yatmaq qərarındaydı. Amma necə oldusa, Aytəkinin dəftərini ona verən Fransadakı restoran gözətçisi həmin qoca Vasya yadına düşdü. Yuxusuz və yorğun gecədə qeyri-ixtiyari olaraq qocanı söydü də... Buludların arxasında gizlənən ay, sanki onun bu sözlərinə şahidlik etmək üçün özünə yer edib boylanaraq ətrafı öz nurlu işığı ilə boyadı. Addımlarını ləngidib yaxınlıqdakı ağacın yanındakı skamyada oturdu. Yəqin ki, həmin günü xatırlayırdı – dəftərin ona verildiyi günü...

***

Bu hadisə ötən il – Qüdrətov Fransada olarkən baş vermişdi. O vaxt Qüdrətov bunu bəlkə də, təsadüf adlandıra bilərdi. Amma indi təcrübəli əməliyyatçının fikrincə, həmin vaxt dəftərin ona verilməsi, doğrudan da, planlaşdırılmış hadisə idi. Və məxfi şöbənin gizli agenti bunu təxminən altı ay sonra dəqiqləşdirə bilmişdi. Əslində indi

də şübhələrində dəqiq qənaətə gəlib çıxa bilməmişdi. Buna baxmayaraq, həmin dəftərin sonunda qeyd olunanları araşdırmaq çox vacib idi. Və, bəlkə də, Qüdrətovun şəxsən özünün fikirləri əsasında formalaşan bu əməliyyat sonda uğursuzluğa düçar olacaqdı. Ya da ki şübhələri boşa çıxaraq vaxtını, əsəblərini boşuna tükədəcəkdi. Həmin dəftər əlinə keçəndən sonra Bakıya qayıdan kimi bu barədə rəisə məlumat vermişdi. Bu barədə onun xüsusi tapşırığı da olmuşdu. Amma bu barədə aparılan araşdırma öz nəticəsini vermədiyinə görə dayandırılmışdı.

O, yalnız indi daxili əminlikdən yaranan bir duyğuyla öz hislərinə bağlandı və özünə, doğru düşündüyünə inanmaq istəyinə nail olaraq altı ay əvvəli yadına sala bildi...

Avqust ayı idi. O, verilən tapşırığa əsasən, Fransada bir sıra yerlərdə olmalı və dövlətlərarası bir neçə rəsmi görüşdə iştirak etməli idi. Tapşırığı vaxtından əvvəl başa vurduğuna görə, indi xeyli asudə vaxt yaranmışdı.

Özü üçün oteldə kirayələdiyi otaqda paltarlarını dəyişib idman dəbində olan tünd göy rəngli digər paltarlarını geyinərək aşağı endi. Artıq dördüncü gün idi ki, burada tək qalırdı. Otel böyük olduğu üçün bir neçə restoranı, əyləncə və istirahət mərkəzləri var idi. Nahar etmək üçün oteldən kənarda yerləşən hansısa maraqlı restoranlardan birinə getmək fikri ilə küçəyə çıxdı. İlk qarşısına çıxan taksi sürücüsü onun əl işarəsindən sonra maşını saxladı. Arxa sağ tərəfdən maşına əyləşib sürməyi xahiş etdi.

– Müsyö, haraya gedəcəyik? – taksi sürücüsünün kişi üçün o qədər də xarakterik olmayan ciyiltili səsi eşidildi.

Qüdrətov fransızca pis bilmirdi. Sürücünün danışığındakı ləhcədən onun fransız olmadığını hiss etdi.

– Yəqin başa düşdünüz ki, turist olduğum üçün şəhəri yaxşı tanımıram. Məni çox da uzaqda olmayan resto-

ranlardan birinə apara bilərsiniz? – Qüdrətov bu sözləri deyərkən sürücünün salonun güzgüsündən diqqətlə ona qulaq asdığını gördü. Deyəsən, yaxşı anlamırdı.

– Sizdən ingiliscə danışmağınızı xahiş etsəm, olar? – taksi sürücüsü növbəti dəfə məyusluqla dilləndi. Və yalnız bundan sonra qonağın istəyini tam anlaya bildi. Başa düşdüyünü bildirmək üçün tələsik əlavə etdi:

– Hə, əlbəttə! Mən sizi şəhərin ən gözəl və böyük restoranlardan birinə apararam. Təbii ki, siz razı olsanız. Çünki bir az uzaqdır.

Qüdrətov bu dəfə razılıq əlaməti olaraq başı ilə taksi sürücüsünə işarə etdi və fikrinə aydınlıq gətirmək üçün bildirdi:

– Maraqlı olsun, yetər, narahat olmayın, bir az uzaq olsa da, olar. Mən onsuz da tələsmirəm.

***

Qüdrətov sifariş etdiyi çayı bu sevimli içkidən qəribsəyibmiş kimi sonuna qədər içib ayağa qalxdı. Və çıxışa tərəf yaxınlaşdı. Düşündü ki, taksi sürücüsü ingilis olmasına baxmayaq, şəhəri yaxşı tanıyırmış. Baxmayaraq ki, fransız dilində kəkələyə-kəkələyə danışırdı, zalım oğlu ağzının dadını yaxşı bilirmiş. Birdən girişə yaxın əyləşmiş kişi diqqətini cəlb etdi. O, oğrun-oğrun Qüdrətova baxırdı. Onun haqqında nə isə düşündüyü üz cizgilərindən yaxşı sezilirdi. Mayor bu adamın onu izlədiyindən şübhələnərək istiqamətini dəyişdi və hiss etdirmədən ikinci mərtəbəyə qalxdı. Amma elə o dəqiqə də hiss etdi ki, kişi də oturduğu yeri kiməsə tapşıraraq tələsik onun dalınca gəlir. Qüdrətov ikinci mərtəbəyə qalxan kimi yaxınlıqdakı masalardan birinin ətrafında əyləşdi. Oturduğu yerdən ikinci mərtəbəyə açılan qapı yaxşı görünsə də hələ ki həmin qoca kişi gəlib çatmamışdı. Nəhayət, bir neçə dəqiqə

sonra qoca özünü yetirdi. Onun əlində kitaba oxşayan nə isə bükülü var idi. Birbaşa Qüdrətovun əyləşdiyi masaya yaxınlaşaraq rusca soruşdu:

– Narahat etmirəmsə, sizə çatacaq əmanətim var, onu verməyə gəldim, – kişi bir qədər üzrxahlıqla dilləndi.

Qüdrətov onu ani nəzərlə süzərək oturmaq üçün masanın ətrafında olan üç boş stuldan birini göstərdi. Qoca minnətdarlığını bildirib onun göstərdiyi stulu altına çəkdi və yubanmadan söhbətə keçdi.

– Adım Vasyadır.

Qüdrətov özünü təqdim etmədən gözlənilməz qonağın sözünün davamını dinləmək istədiyini hiss etdirdi. Əslində onun özünəməxsus olmayan adını səsləndirməsinə ehtiyac yox idi. Çünki restorana girərkən digər turistlər kimi pasportunu göstərib keçmişdi. Və əgər qoca onu restorana girəndən izləyirdisə, deməli, Qüdrətovun adını əzbər bilirdi.

– Siz restorana girərkən telefon danışığınızı eşidən restoranın tərcüməçisi “həmyerlin gəlib” deyə mənə söz atdı. – Qoca nəyə görə ona yaxınlaşdığını izah etmək istədi.

Qüdrətov başa düşdü ki, kişi bir az əvvəl onun Fransadakı Azərbaycan səfirliyinin əməkdaşı ilə telefon danışığına işarə etdi. Həmin telefon söhbəti ana dilində olmuşdu.

Kişi hiss edirdi ki, Qüdrətov o qədər də səbirli adam deyil. Tez də əlavə etdi:

– Anam fransız olsa da, atam rusdur. Atam ölənə qədər biz Rusiyada yaşayırdıq – Leninqradda. Mən müharibədən qayıdandan sonra anamı da götürüb buraya gəldim. Onda atam bir ildən çox idi ki, yatalaq xəstəliyindən dünyasını dəyişmişdi...

Sovet hökumətinin vaxtında hamı mehriban idi. İn-

sanlar rahat yaşayırdılar. Mənim üçün o vaxt daha yaxşı idi. Müxtəlif millətlərdən çoxlu dostlarım var idi. Bayaq siz restorana girəndə telefonla danışığınızı eşidəndə başa düşdüm ki, türksünüz. O vaxtdan yadımda bəzi sözlər qalıb. Müharibədə yoldaşlarımdan biri azərbaycanlı idi. Onun adı Məhəmmədhüseyn idi. Onunla müharibənin bütün əziyyətlərini birlikdə çəkmişdik. Yaxşı, mərd oğlan idi. O, tez-tez mənə Azərbaycan dili öyrədirdi. Müharibənin sonuna yaxın o, əsir düşdü. Bir dəfə 90-cı illərdə onunla qarşılaşdım. Dedi ki, vəziyyəti yaxşıdır. Amerikada olur. Özünə yaxşı iş də qurub. Həmin Məhəmmədhüseyn mənə çoxlu söz öyrətmişdi.

Neçə illərdir ki, burada gözətçi işləyirəm. Biləndə ki siz türksünüz, yadıma bu düşdü. Vasya bunu deyib əlindəki bükülünün içərisində gizlətdiyi dəftəri ona uzatdı.

Qüdrətov dəftəri alıb səhifələdi. Burada yazılanların hamısı onun öz doğma ana dilində – Azərbaycan dilində idi. Çox tələsik halda bir neçə sətir oxuyub dəftəri örtdü.

– Bu sizdə haradandır? – təcrübəli əməliyyatçı məsələni dəqiqləşdirməyə çalışdı.

– Mən neçə illərdir burada işləyirəm. Tənha insanam. Buraya gəlib-gedənlərin üzləri, simaları bir müddət yaddaşımdan silinmir. Hətta onların əynindəki paltarlar, çiynindəki çantalar... Bu dəftər də həmin qadının idi – həmin qəmgin qadının. O, bir kişi ilə restorana gələndə diqqətimi cəlb etmişdi. Üzündə əzab-əziyyətdən xəbər verən izlər gözəllik cizgilərini boğa bilməmişdi. Amma gözlərində o qədər kin-küdurət var idi ki, bunu görə bilən hər bir insanı heyrətləndirərdi. Çiynindəki çantası da yadımda idi. Amma bir az sonra o, tələsik gəlib qapıdan küçəyə tərəf çıxdı. Mənim yanımdan çox sürətlə keçdi. Bir az əvvəl gəldiyi kişi ilə yox, tək idi və tələsirdi. Hətta əl çantasını da unudub restoranda qoymuşdu. Sanki nə-

dənsə canını qurtarmağa çalışırdı. O gedəndən sonra kişi həmin qadını xeyli axtardı. Amma qadın artıq uzaqlaşmışdı. Onlar gedəndən sonra restoranda yenicə işə başlamış cavan və səriştəsiz ofisiant isə həmin əl çantasını otağı yığışdırarkən görüb, gətirib mənə verdi. Mən isə bunu atmadım... Həmin qızı buralarda bir neçə dəfə də görmüşdüm. Hərdən biri ilə gəlirdi. Hətta bir dəfə kimisə gözlədiyi üçün fürsət tapıb söhbət də etmişdik. Qafqazdan olduğunu demişdi. Bunu deyərkən nədənsə qorxduğunu hiss etdim. Çünki həmin anda ətrafa göz gəzdirirdi ki, görəsən, onu görən var? İri gözlərinin mənə yalvarış dolu baxışlarında, sanki "sənə Qafqazlı olduğumu dediyimi heç kim bilməsin", deyirdi. Mən də "nəyimə lazım, ağrımaz başımı ağrıdıram"– deyə düşünmüşdüm. O qıza da Məhəmmədhüseyn haqqında danışmışdım. O zaman Azərbaycan sözünü eşidəndə elə həyəcanlanmışdı ki, ifadə etmək mümkün deyil. Bu dəftər mənim əlimə keçəndən sonra isə onun həyəcanının səbəbini az da olsa anlamağa başladım...

***

Qüdrətov növbəti siqareti yandırıb oturduğu skamyadan qalxdı. Saat yarıma yaxın idi ki, həyətdə imiş. Bunu indi saatına baxanda hiss etdi. Yatmaq üçün vaxt olmasa da, bir az dincəlmək vacib idi. Yarıya qədər çəkdiyi siqareti söndürərək evə qayıtdı. Yenicə yerinə uzanıb gözlərini yummağa çalışırdı ki, telefonuna gözlədiyi mesaj gəldi. Orada sadəcə iki kəlmə söz yazılmışdı: "e-mailinize baxarsiniz". Mayor bu gün yata bilməyəcəyini başa düşüb elektron poçt ünvanına gələn məktubu oxumaq üçün iş otağına keçdi.

## 6. Zülmün ərşəyə qalxdığı gün

*Ötən gün Qüdrətovun girov qadının dəftərindən oxuduqlarından...*

... Erməni əsgəri bizi silahın qarşısına qataraq, hərdən də Gülcahanı saçlarından sürükləyərək həyətdən çıxartdı. O ərəfədə bir neçə dəfə gözümə sataşan çay daşını götürüb əsgəri vurmağı düşünsəm də, bir nəticə əldə edə bilməyəcəyimi dərk etdiyim üçün fikrimdən daşındım. Əgər vura bilməsəydim, lap vursaydım, amma ölməsəydi, o bizi öldürə bilərdi. Mən o zaman ölümdən qorxmuşdum. Ölmək istəməmişdim. Bacımın da ölməsini istəməmişdim...

***

Doğrudan da, şans insana həyatda az-az verilirdi. Onu dəyərləndirə bilməyən insan isə ömrü boyu peşman olurdu. O anda ermənilərin onları öldürməsindən qorxan Aytəkin sonralar dəfələrlə intihara qalxacaq, ermənilərin onu öldürməsi üçün üzünə tüpürəcək, üstlərinə atılacaqdı... Amma Aytəkinin ölümə olan məhəbbəti Leyli və Məcnun məhəbbəti kimi idi. Aytəkin həsrətdən alışıb yandığı zamanlarda heç vaxt ölümün ağuşuna atıla bilməyəcəkdi. Bəlkə də, Fərhadın Şirinə olan məhəbbəti kimi idi. Fərhad Şirini sevəcək, Şirin isə başqasını. Ölümün Aytəkinə olan məhəbbəti Şirinin Fərhada olan məhəbbətinə bənzəyirdi. Nə sevirdi, nə də nifrət edirdi.

***

Şəhərdə silah səsindən qulaq batırdı. Bizim evimiz şəhərin kənarında olduğu üçün erməni və ruslardan ibarət olan hərbçilər şəhərdən əsir və girov götürdükləri

xocalıları biz tərəfə gətirirdilər. Otuza qədər adam idik. Burada qoca, uşaq, qadın, kişi, hərbçi – hər cür adam var idi. Hamı ağlayır, tanıyan, tanımayan bir-birimizə dəstək verməyə, ermənilәri qıcıqlandıracaq heç nə etməməyə çalışırdıq. Axı biz girov düşmüşdük. Amma aramızda olan kişilər buna dözə bilmir, məğlubiyyətlə barışa bilmir, hər vəchlə bizi və özlərini qurtarmaq üçün fürsət axtarırdılar. Ermənilərin acımasız, istənilən şübhəli hərəkətdə kimə və hara atılmasına baxmadan atəş açmaları gözləri qanla dolmuş oğullara şərait yaratmırdı. Həm də, deyəsən, daim mübarizədə olan qürur hissi ilə qorxu hissinin şərəfsizliyin başçılığı altında çarpışması idi bu... Qürur hissi qorxu hissinə şərəfsizcəsinə məğlub olmaqda idi...

Amma Elşən adlı 16-17 yaşlı bir oğlan gözlənilməz zərbə ilə ona yaxın olan erməni əsgərlərindən birini yerə yıxdı. Əlindəki "Kalaşnikov"u alaraq onun başına söykədi. Bu isə ağır zərbələrdən yerə yıxılmış, özündə son gücünü tapmış qürurun hayqırışı idi... Son hayqırışı...

Ağlım kəsəndən münaqişələrin başlanmasının şahidi olduğum üçün artıq silahları da rahatca tanıyır, bir-birindən fərqləndirə bilirdim. Bunu təkcə mən yox, o illərdə Qarabağda yaşayan hər kəs bilirdi. Hətta uşaqlar da. Çünki o zamankı uşaqlar oyuncaq əvəzinə 7.62, 5.45 gilizlərini oynadırdılar. Hətta bir dəfə qonşumuzun 12 yaşlı oğlu Rövşən atılmamış gülləni oynadarkən çərşənbə axşamı ocağa atmış, güllənin açılması ilə bir gözünü itirmişdi. Girovluqda olarkən anası Həlimə xala onun ermənilərin əlinə düşməmək üçün üz tutduqları meşədə aclıqdan və soyuqdan öldüyünü, yaşamaq eşqinin üstün olduğu üçün onu meşədə qoyub qaçdığını demişdi. Sonradan isə özü girov düşmüşdü. Həmişə elə oradaca intihar etmədiyi üçün özünü dünyanın ən rəzil bəndəsi hesab edərək ağlayırdı.

Elşən ermənini girov götürən kimi bizi dövrəyə alan ermənilər silahlarını bir az da möhkəm tutaraq onu buraxmalarını tələb etdilər. Elşən: "Əgər camaatı buraxsanız, mən də bunu buraxaram", – dedi uşaq düşüncəsiylə, səriştəsizcə.

Erməni zabitlərindən biri Elşənin bu uşaqca hərəkətinə güldü. Gülüşündə alçaldıcı bir ironiya vardı. Sonralar bu gülüşləri çox eşidəcəkdim. Azərbaycan qızlarına qarşı zorakı cinsi əlaqələrdən sonra, hər tökülən Azərbaycanlı qanından, partladılmış bir şampanın verdiyi zövqdən həzz aldıqları kimi əyləndikdən sonra, ard-arda Azərbaycan torpaqlarının alınmasından sonra bütün ermənilərə xas olan tükürpədici gülüş idi bu gülüş. Azərbaycan dilini yaxşı bilən bu zabit: "Əgər camaatı azad etməsək, nə edəcəksən?", – sualını verdi. Heç nədən qorxmurdu. Heç nədən çəkinmirdi o cani. Hətta Elşənin nəinki girovunu, hətta onu vura bilməsindən belə qorxmurdu. Heç silahı yerə qoyması üçün Elşənə inandıracaq bircə dənə söz belə demədi. Yanında olan qoca bir kişini üzünə baxmadan güllələməsi, "Hə, nə deyirsən, öldürürsən əsgəri?" sözünü bitirən kimi qucağında uşaq tutmuş anadan körpəni alaraq soyuqqanlıqla göyə ataraq dəlik-deşik etməsi Elşənin əllərini boşaltdı.

Yeniyetmə qorxudan tir-tir əsən əlini silahdan çəkdi. Sanki "ay camaat, məni bağışlayın, bacarmadım", – dedi. "Ya da düşmənləri bu qədər amansız düşünə bilməzdim," dedi. Silahı yerə qoyarkən kiçik bir zaman kəsiyində o, ermənilərə yox, anasına tərəf baxdı. Bu, son baxış idi. Elşən bunu hiss etmişdi. Sanki anasından kömək istəyirdi. Yardım istəyirdi. O anasından ki, indi onun yardıma ehtiyacı daha çox idi. Həm də daha çox. Oğlunu xilas etmək, onu yaşatmaq, taleyini dəyişdirmək üçün hər kəsdən kömək istəməyə hazır idi. Hətta ermənidən belə.

Silahı yerə qoyması ilə ermənilərin onu tutması bir oldu. Elşəni vəhşicəsinə döydülər. Silahın qundağı ilə vuran kim, botinkanın dabanı ilə başını əzən kim. Sonra da zabitin əmri ilə Elşəni soyundurub cinsiyyət orqanını kəsdilər. Yenə həmin gülüşünü təkrarlayan dığa "bir müsəlmanı da mən sünnət etdim", – dedi. Onu saxlayan əsgərlərə isə "siz də kirvə oldunuz", – deyib əlini çiyinlərinə vurdu. Bu vuruş, sanki "erməni dediyin belə olar, düşmənlə bu cür davranarlar" mənasını verirdi.

Elşən o qədər döyülmüşdü ki, ağrını hiss etmədi. Elə bil yüksək dozalı narkoz verilmişdi ona. Ermənilər onu buraxdıqları zaman başı kəsiləndən sonra son qanını axıdan xoruz kimi can verirdi...

Bizi Xocalıdan ələ keçirilmiş bir maşına mindirdilər. Bu UAZ markalı maşın idi. Hamımızın ora sığışmadığını görən həmin zabit əsgərlərinə yerdə qalanları güllələməyi əmr etdi. Bu sözlər çox soyuqqanlılıqla deyildi. Əsgərlər də haya bənd imişlər kimi, üstəgəl onların da payına türk öldürmək düşdüyünün sevincindən bu işi sevə-sevə elədilər. O anda mənə uzun illər yad olacaq sevinc hissini keçirmişdim.

Bu da Gülcahanın göz qırpımında güllələnənlər arasında olmaması səbəbindən idi. Həmin anda mən özümü qınamamışdım ki, elə öldürülənlərin hər biri sənin bacın, qardaşındır. Amma bu tanrının bizə bəxş etdiyi ürək daima realist olur. Biz nə qədər romantik olmağa, ideal olmağa çalışsaq da. Bir onu öyrənmişəm ki, bu girovluq həyatında ürəyin verdiyi hökm gerçək olur. Halbuki, bu hökmü səndən başqa kimsə bilmir. Sən və o bilir. Ola bilsin ki, başqa cür hərəkət edir, başqa cür danışırıq. Bəli, mən onda Gülcahanın ölməməsi üçün sevinmişdim. Bu sevinc heç qəlbimin dərinliyində deyil, lap üzdə idi. Qaranlıqda o dəhşətin içində mənə diqqətlə baxan olsa idi,

bunu rahatlıqla görə bilərdi. Bir neçə saat əvvəl nifrətdən, kədərdən, qorxudan ürəyi partlamaq dərəcəsinə gələn bir insan nədənsə birdən sevinc hissini yaşamışdı.

Doğrudan da, əgər hər bir insanın taleyini tanrı yazırsa, bütün olanları o planlaşdırırsa, çox gözlənilməz süjet olduğunu etiraf etməliyik.

Maşında ət-ətin üstündəydi. Nəfəs almaq mübarizəsi gedirdi. İyirmiyə yaxın, bəlkə də iyirmidən çox adamın bu kiçik maşına təpiklə, süngü ilə yerləşdirilməsi çox az çəkmişdi. Ora minməklə, sanki camaat erməni zülmündən qurtulacaqdı. Bu, inanılması mümkünsüz, hər dəfə yox olması düşünülən bir ümid idi... Amma ümiddən çox bir anlıq qurtuluşun ləzzətini yaşamağa oxşayırdı. Daima insan bəndəsi belə olub. İnsanlar bir anlıq qurtuluş, azadlıq, istirahətə çox önəm verirdilər. Əslində o an qədər çəkəcək ağır işgəncəni ondan yüngülü ilə dəyişməyi, bəlkə də, bilmədən daha ağırı ilə dəyişməyi insanın rəngarəng həyata marağı ilə də bağlamaq olar. Tanrının bu cür süjetləri – yazdığı insan talelər ən həyəcanlı əsəri oxuyan zaman oxucunun hər sətri səbirsizliklə oxumasına bənzəyirdi.  Biz şərqlilər isə fatalist olaraq “Allah bilən məsləhətdir”, - deyirik. Hələ bir məsləhətinə şükür də edib “məsləhətinə şükür” ifadəsini çarəsi olmayanlar kimi müticəsinə səsləndiririk.

Həmişə tanrının haqsızlığa niyə bu qədər səlahiyyət verdiyi məni düşündürürdü. Buna inanmaq istəmirdim: “Mənim Tanrım haqsızlığa göz yuma bilməz”, – deyirdim. Dünyada hansısa bir cinayət, müharibə, haqsızlıq baş verirdisə, bu, “şeytanın işidir” deyirdilər. Mən də düşünürdüm ki, bəs bizim Tanrı hara baxır?! Hətta bu mövzuda nənəmlə mübahisəyə də girmişdim. Nənəm isə: “Get Quranı oxu və dərk et, sonra sənə hər şey aydın olacaq” – demişdi. Mən Quranın bir neçə ayəsini

oxuduqdan sonra daha da üsyankar olmuş, şeytana bu qədər imkan verdiyi üçün Tanrımı açıq-açığına günahlandırmışdım da. Bu fikrimi nənəmə açanda ilk sualı: "Sən Quranı oxudun?", – oldu. Mənsə "hə" cavabını verdim. Nənəm soyuqqanlılıqla "Qızım, ola bilsin ki, doğrudan da, oxumusan, amma hələ dərk etməmisən. Bir az mütaliə et, o da düzələcək". Düzdür, bu mövzuda biliyimi inkişaf etdirməmişəm, amma mən indi qərara gəlmişəm ki, deyəsən, Zərdüşt dediyi kimi, bu dünyanı iki allah – xeyir və şər allahı idarə edir. Bəlkə də, bu, mənim qəlbimdə yaşatdığım tanrımı ləkələnməkdən xilas etmək üçün təsəlli yolumdur. Yenə də olsun. Bu dünyanı bir Tanrı idarə edə bilməz. Bu cür ziddiyyətli, bu cür keşməkeşli dünyanı.

***

Bir dəfə məni boğazımdan asıb ayaqlarımın da altına qızmar dəmir qoymuşdular. Əllərimi isə açıq saxlamışdılar. Bu bilərəkdən edilmişdi, çünki bu asılma mərasimi öldürmək üçün deyil, dığaların əyləncəsi üçün edilmişdi. Məni onların istədiyi kimi intim münasibətə məcbur etmək üçün idi. Zorlamadan yetərincə zövq aldıqdan sonra girovları onlara həzz vermək üçün cinsi əlaqənin digər formalarına sövq etmək məqsədi güdürdü. Ölümü istədiyimə baxmayaraq, boğulmamaq üçün tez-tez ayaqlarımı qızmar dəmirin üstünə qoyurdum. Bilmirəm bunu ölməmək üçün edirdim, yoxsa boğazımın ağrısını azaltmaq üçün. Nəticədə ölümdən qaçmışdım. O ölümdən ki, mən onun həsrətini çox çəkmişdim. Bilmirəm intihar iradəsizlikdən idi, yoxsa iradəli olmaqdan. O işgəncələri görəndən sonra özünə qəsd eləməmək iradənin möhkəmliyindən olmalı idi. Çünki o işgəncələrə yenə qucaq açmaq hər özündən deyən, iradəli, güclü, əzmli insanın işi deyildi.

Naləmiz, fəryadımız özümüzü belə qorxudurdu. O vəziyyətdə nə qədər qalmağımızı deyə bilmərəm.

Amma maşından endiriləndə ahıl bir kişinin havasızlıqdanmı, həyəcandanmı, qürur hissinin onu boğduğundanmı ürəyi partlamasının bədbəxt şahidi oldum. Elşənin anası isə qapı açılan kimi ermənilərin üstünə atıldı. Bunu görən erməni əsgəri dərhal onu da güllələdi... Bu... Bu inanılmaz idi... Nə qədər acısı olan insan olursa, olsun, bunu edə bilməzdi. Bunu erməni etdi.

Dünyamızda manyak insanların olduğunu eşitmişdim, amma bir xalqın hamısının qaniçən manyak olduğunu qəbul edə bilmirdim... Sən demə, var imiş... Bu xalqın adı erməni idi!

Bizi keçmiş Əsgəran Polis Şöbəsinə gətirmişdilər. Hamımızı donuz kimi polis bölməsinin zirzəmisinə doldurdular. Ora qaranlıq, nəmişlik iyi verən alçaq bir yer idi. Çığırışmalardan içəridə bizdən başqa da girovların olduğunu hiss etdim. Bizim olduğumuz girov zirzəmisində iki gün müddətində əsirlərin və girovların sayı iki yüzü keçmişdi..

## 7. Şübhələr artır

Günorta saat birə yaxınlaşırdı. Telefonuna gələn zəng Qüdrətovu yuxudan oyatdı. Deyəsən, özü də hiss etmədən iş otağındakı divanın üstündə yatıb yuxuya qalmışdı. Cəld ayağa qalxıb ətrafa nəzər saldı. Kompüter açıq qalmış, printer isə elektron poçt ünvanına gələn məktubu çap edib dayanmışdı. Gecənin uzun sürən yorğunluğundan sonra qeyri-ixtiyari olaraq elə iş otağındaca yuxuya getmişdi. Hiss etdi ki, beş saata yaxın yatıb. Hələ də bitmək bilməyən telefon zəngi indilərdə, sanki beyninin bü-

tün hüceyrələrinə təsir edirmiş kimi tələsik iş masasının üstündəki əl telefonunu götürüb gələn zəngə cavab verdi. Zəng edən öz adamı idi. Salamlaşan kimi dərhal mövzuya keçdi:

– Cənab mayor, Ramillə bağlı göndərdiyim məlumatları ala bildiniz?

– Hə, almışam. İndi hardasan?

– Maşındayam, işə tərəf gedirəm.

– Ona nəzarət edən var?

– Hə, əməkdaşlardan birinə tapşırmışam. İndi universitetdə mühazirədədir. Saat 3-də dərsi bitəcək.

– Çox yaxınlaşmağa ehtiyac yoxdur. Sən özün diqqətli olsan, kifayət edər. Qaldı ki, Ramili nəzarətdə saxlayan əməkdaşlarına, onları iki gündən bir dəyiş. Unutma ki, o, müəllim olmaqla yanaşı, təcrübəli kəşfiyyatçıdır. Məni başa düşürsən də?!

– Əlbəttə, arxayın olun. Biz onu şübhələndirmərik.

– Bir də, yeni xəbər olan kimi mənə məlumat ver. Gecikmədən!

– Oldu, cənab mayor!

Qüdrətov telefon danışığını bitirəndən sonra vanna otağına keçdi. Nədənsə Ramil haqqında ona göndərilən məktubu oxumaq üçün tələsmirdi. Əslində işçisinin bir gün əvvəl telefonla verdiyi məlumatlar və öz şəxsi mülahizələri orada nələrin yazıldığını təxmin etmək üçün təcrübəli əməliyyat işçisinə kifayət edirdi. Amma məktubu oxumağa tələsməməsinin əsl səbəbi qarışıq səhər yuxuları idi. Aytəkinin dəftərini oxuyandan sonra sanki yuxuda həmin yerlərə çıxır, yazılanların canlı şahidi olurdu. Ən pisi isə bu idi ki, yuxuda o, düşmənlərin bu alçaqlıqlarına qarşı heç nə edə bilmirdi. Hər dəfə də hirs və həyəcan içində yuxudan ayılırdı. İndi başa düşdü ki, bir az əvvəl də yuxudan ayılmasına səbəb telefon zəngi deyil, elə gör-

düyü belə qarışıq yuxular idi. Rahat yatmış olsaydı, bəlkə də, zəng-filan eşitməyəcəkdi. Necə ki, adamının ilk zəngini eşitməmişdi.

Güzgünün qarşısında dayanıb özünə baxdı. Bir neçə gündə xeyli arıqlamışdı. Çox yorğun görünürdü. Gecə də, səhər də ya əyani, yaxud da ki, xəyali olaraq həmin girov qadının dəftərini vərəqləyir, təkrar-təkrar oxuduqca Aytəkinin daxili dünyasına bələd olmağa çalışırdı. Qüdrətov çox yaxşı başa düşürdü ki, mərkəzin xəbəri olmadan belə bir əməliyyatı başlamaq doğru deyil. Xüsusilə, əgər bu əməliyyatın bəhrələndiyi mülahizələrdə yanlışlıqlar, boşluqlar varsa. Amma nədənsə o öz şübhələrinin doğruluğuna inanırdı... Mətbəxə keçib özünə çay süzərək iş otağına qayıtdı və printerin yanında gecədən çap olunaraq yığılmış bir neçə səhifəlik materialı oxumağa başladı. Ramil haqqında olan bu materialı onun tapşırığı ilə adamı göndərmişdi.

***

*Cənab mayor, verdiyiniz tapşırığa uyğun olaraq Ramil haqqında daha çox məlumat əldə etməyə çalışdım. Amma adamın maraqlı və məncə, bir az da müəmmalı keçmişi məni çox narahat edir. Ümid edirəm ki, indi göndərdiyim bu məlumatlar işinizə yarayacaq. Və bir də, bu tapşırığım bitəndən sonra sizdən öyrənmək istədiyim vacib bir məsələ olacaq. İki gündür, həmin sual beynimi narahat edir. Peşəmizə zidd olduğu üçün tələsib həmin sualı sizdən soruşmasam da, bilin ki, sizinlə bağlı olan bu məsələnin həqiqi tərəfi mənim üçün çox maraqlıdır... Çox yəqin ki, nə soruşmaq istədiyimi anladınız...*

İbrahimov Ramil Mübariz oğlu, 10 yanvar 1970-ci ildə Bakıda anadan olub. Ata-anası ilə bir yerdə qalır. Atası qəzetdə müxbir işləyir. Anası Səmayə və həyat yoldaşı Nərminə isə evdar qadındırlar. On bir yaşlı qızları Aytəkin

ilə ailədə beş nəfərdirlər. Bacısı Nuranə ailəlidir. Bağçada tərbiyəçi işləyir. Ərinin adı isə Azərdir, tikintidə işləyir.

1988-ci ildə əla qiymətlərlə universitetin tarix fakültəsinə daxil olub. Üçüncü kursda oxuyarkən Aytəkin adlı qızla tanış olub və sonradan bir-birilərini seviblər. Səfərova Aytəkin Soltan qızı əslən Xocalıdan olub, 26 iyul 1972-ci ildə anadan olub. Xocalı faciəsindən sonra onun barəsində məlumat əldə edə bilməmişik.

İbrahimov Ramil universitetin üçüncü kursunu bitirəndən sonra 1992-ci ildə təhsilini yarımçıq qoyub müharibəyə gedib. Şahidlərdən öyrəndiklərimə əsasən müharibədə ən yaxşı döyüşçülərdən olub. Dəfələrlə yaralansa da, yenidən döyüş bölgələrinə qayıdırmış. Amma sonuncu dəfə 1993-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlərdə başından ağır yaralanaraq iki ilə qədər müalicə almışdır. Atəşkəsdən sonrakı illərdə itkin düşən sevgilisini axtarmağa başlayıb. Əvvəlcə universitet rəhbərliyinin onun üçün yaratdığı şəraitin köməkliyi ilə yarımçıq qalan bir neçə aylıq təhsilini davam etdirib, diplomunu alıb. Sonralar isə şəxsi səriştəsi ilə polis sisteminə işə düzəlib. Araşdırmalarıma görə, onun bu sistemdə işə düzəlməsində hər hansı tapşırıq olmayıb. Müharibədə göstərdiyi fəaliyyət polis sisteminə işə düzəlməsinə çox kömək edib. Fikrimcə, Ramilin məqsədli şəkildə polis sisteminə işə düzəlməsi Aytəkinin axtarılması üçün nəzərdə tutulmuşdu. Bunu Ramilin sonrakı fəaliyyəti də göstərir. O özünün bütün imkanlarından istifadə edərək həmin qadının tapılması üçün mübarizə aparmışdır. Müalicə aldığı dövrdə də – 1994-cü ilin yayında əsir və girovların dəyişdirilməsi prosesində əsas adamlardan biri olub. Azərbaycana qaytarılan bütün əsirlər barəsində məlumatı var. Hazırda universitetdə müəllim işləsə də, keçmiş işi ilə əlaqələri çox möhkəmdir. Dövlətdə onu nüfuzlu adam

olaraq tanıyan bir çox şəxslər var. Müharibədən sonra Azərbaycanda olan, demək olar ki, bütün erməni əsirləri ilə ayrı-ayrı vaxtlarda görüşüb. Onun Aytəkini tapmaq üçün bütün bu etdiklərini, həqiqətən də, mübarizə adlandırmaq olar. Öyrəndiyim məlumata görə, o hətta mayor Turabovun şöbəsinə aid olan xüsusi təcridxanadakı əsirləri də dəfələrlə danışdırıb. Maraqlısı budur ki, həmin təcridxanadakı əsirlər beş nəfər olsa da, Ramil onların hərəsini bir neçə dəfə danışdırıb. Həmin təcridxanada oldum. Onlar beş nəfər imişlər – Aşot, Tivan, Markar və daha iki nəfər. Mən ora getməmişdən bir neçə gün əvvəl hansısa məqsədlə onların ikisini digər yerə keçirtmişdilər...

## 8. Süd yerinə, qan əmən körpə

Bizi orada neçə gün saxladıqlarını bilmədik. Amma mənə elə gəlirdi ki, aylardı burdayıq. Aclıq, qorxu, həyəcan, uşaqların vahiməli çığırtısı əsl cəhənnəmi xatırladırdı. Zirzəmidə iynənin ucu qədər belə, işıq yox idi. Qapı hərdən açılır, kortof torbası kimi nəsə atılır, sonra isə yenə bağlanırdı. Sonradan bu atılanların əsir olduğunu bilirdik. O qaranlıqda get-gedə vahimə bizi bürüyürdü. Uşaqların səsini kəsməyə çalışan analar isə bunu, sözsüz ki, bacarmırdı. Çünki südəmər uşaqların heç nədən xəbərləri yox idi. Və heç nəyi də başa düşmürdülər.

Gülcahan mənə sığınmış, barmaqlarımızı bir-birinə keçirərək əl-ələ tutmuşduq. Bir neçə gün ərzində – "Bacı qorxuram", – cümləsindən başqa, heç nə deməmişdi. Üzümüzü də görə bilmirdik. Amma əllərinin təmasından, bərk-bərk sıxmasından "mənə güvəndiyini, məni qoru deməsini, məni heç vaxt buraxma, sənsiz yaşaya bilmərəm" deməsini hiss etmək o qədər də çətin deyil-

di. Əllərin danışmasını mən Ramillə ələ-ələ tutanda hiss etmişdim. Heç nə deməsə idi belə, əlinin hərarəti, həyəcandan tərləməsi, tez-tez barmaqlarımı sıxması "səni çox, həm də çox sevirəm" ifadəsinin təcəssümü idi. O zaman mən Gülcahan kimi Ramilə "məni qoru, məni sev" demək üçün əllərimdən istifadə etmişdim. Sevgimin möhtəşəmliyini, yenilməzliyini, sarsılmazlığını demək üçün əllərinə sığınardım. İndi isə Gülcahan mənə sığınır, ona arxa olmağımı istəyirdi. Mən onda başa düşmüşdüm ki, artıq ailəmizin başçısı mənəm. Nə olur-olsun, onu qorumalıyam. Nəyin bahasına başa gəlsə belə...

Qaranlıq, aclıq və susuzluq get-gedə bizi dəliyə çevirirdi. Hətta "nə baş verirsə, versin, amma tez bitsin bu qaranlıq həyat", – deyə düşünənlər də az deyildi. Zirzəmidə qaldığımız son gün birdən-birə atışma səsləri azaldı. Hər yer sakitliyə qərq oldu. Bu bir neçə saat davam etdiyi üçün girovların ümidləri işarmağa başlamışdı. Camaat bir ümidin izi ilə gedirdi bu zülmət qaranlıqda. O ümidin ki, bizimkilər ermənilər geri oturdub, burda camaatın olduğunu bilmirlər. Çünki ermənilərin də ara-sıra gələn danışıq səsləri kəsilmişdi. Bu xülyaya mən də inanmışdım, necə ki insan boğulanda saman çöpündən yapışar. Yavaş-yavaş camaat özünü inandırmağa çalışırdı ki, biz qışqırsaq, səs salsaq, bizi kimsə eşidər və azad edərlər. Camaatın çoxu qışqırmağa, qapını döyməyə başladılar. Amma heç bir səs gəlmirdi. Bu isə ümidlərimizin işığında bizi ruhlandırırdı... Bəlkə bizimkilər gələcək...

Qapının açılması və ermənilərin ucadan qışqırması halsızlıqdan, aclıqdan gözünə yuxu gedənləri diksindirdiyi kimi, eyni səbəblərdən ağlayan, zarıldayan uşaqları və böyükləri susdurdu. Çölə çıxmamızı əmr etdilər. Qaranlığa alışdığımız üçün çölə çıxdığımız zaman gözlərimizi aça bilmir, açsaq da görə bilmirdik. Bir də ki, hər

yanın ağappaq qar olması, səhər olduğu üçün günəş şüalarının qarı parıldatması bunu daha da əngəlləyirdi.

Sadəcə, bir-birimizə yapışaraq, qamaşan gözlərimizi yavaş-yavaş buna alışdırmağa çalışırdıq. Arxadan tutan botinka zərbəsi məni qarın üstünə elə atdı ki, həmin anda Gülcahanı ömürlük itirdiyimi düşündüm. Bilmədim, "qalx", – deyə bağıran ermənininin səsimi, yoxsa "bacı", – deyə qışqıran Gülcahanın səsimi, yerdən quş kimi qalxmağıma kömək etdi. Yerdən qalxan kimi gözlərimi qeyri-iradi olaraq açdım, Gülcahanın əlindən yapışdım. Bu zaman heç bir ağrı hiss etmədim. Bizi bölmənin qarşısına yığdılar. Özümüzə gəlməyə belə imkan vermədən aramızda olan "OMON"ları[1] və hərbi paltar geyən digər kişiləri bir-bir seçib qabağa çıxartdılar. Safaryan adlı komandirlərinin tapşırığı ilə harasa apardılar. Ağlıma gələn ilk o oldu ki, öldürməyə aparırlar. Çünki Safaryan onları təpikləyə-təpikləyə döyəndə "Siz bizə güllə atmısınız? Mən sizə düşmənlə döyüşməyi göstərərəm," – deyə bağırırdı...

Qadınlar yalvarmağa başladı, kimi onun ayaqlarına düşür, kimi söyür, kimi başqa bir erməni cəlladdan kömək istəyirdi. Çünki bu aparılanlar ya birinin qardaşı, ya əri, ya oğlu, ya da atası idi. Bu hissi ərini gözü qarşısında işgəncə ilə itirən arvad, ana, bacı, qızlar bilər yalnız. Təsəvvür etmək üçünsə xəyal gücünün mükəmməl olması lazımdır. Bu elə bir acı idi ki, qadınların hansı halda olduğu batmış səslərindən, nalələrindən duyulurdu. Heç nəyə baxmayaraq, iyirmiyə yaxın hərbçini apardılar...

Safaryan isə qan dolu gözləri ilə düşünmədən işgəncələr kəşf edirdi. Qucağında iki aylıq körpəsi olan bir ana uşağı sakitləşdirməyə çalışsa da, bacarmırdı. Safaryan hə-

---

1. ОМОН – Отряд Милиции Особого Назначения (Xüsusi Təyinatlı Milis Dəstəsi)

min qadını yanına gətizdirdi və dedi: “Ay qancıq, bu uşaq niyə səs salır?!” Qadın onun gözlərinə dik baxaraq: “Neçə gündür, yemək yemir, nə etməlidir?” – dedi. Bu söz, elə bil Safaryanı qudurtdu:

– Deyirsən ki, acdır bu uşaq? – deməyi ilə qadına şillə vurmağı eyni oldu. Mən indi onu doyduraram. Həm də sənin südünlə.

Əsgərləri yanına çağırıb göstəriş verdi ki, uşağı bunu əlindən alın, sonra da onun döşlərini kəsin. İki erməni əsgəri qadını tutdu. Amma Safaryan səbir etməyib, öz cibindən bıçağı çıxarıb qadının sinəsindən aşağıya doğru çəkdi. Bunu onun paltarını soyundurmaq məqsədi güddüyünü sonradan gördüm. Qadının qışqırığına, iniltisinə həzz ala-ala o, qadının döşlərini kəsdi. Qadın çığırırdı. Mən bunu sadəcə eşidirdim. Baxa bilmirdim. Əlimdən yapışmış Gülcahan əsirdi. Qadınlarımız isə qarğış yağdırırdılar. Kişilərin əksəriyyətini, xüsusən də cavanları apardıqları üçün yerdə qalanların hər birini ermənilər tutub saxlamışdı. Qadın yerdə ilan kimi qıvrılırdı. Bundan ürəyi soyumayan Safaryan qadının qucağından alarkən kənara tulladığı iki aylıq körpəni qadının sinəsi üstünə qoyub: “Ye, indi nə qədər istəyirsən ye. Anan sənə süd vermək istəmirdi?” – deyir, uşağın başını ananın döşünə basaraq “ye”, – deyə bağırırdı.

Etdiyi işlə öyünən Safaryan körpənin qana bulaşmış üzünü bizə tərəf tutdu. Onun kürəyindən yapışmışdı. Körpə isə, sanki gördüklərindən hər şeyi başa düşürdü. Məsum gözlərindən axan yaşlar belə yanaqlarında donurdu. Günahsız bir varlıq olmasına baxmayaraq, səsindəki yanğını duymaq olurdu.

“Görürsünüz bunu, sizin hamınızı bu günə qoyacağam. Təkcə ananızı yox, balalarınızı da ağlar qoyacam. Heç ana tapmayacaqsınız balalarınıza ağlasın” – dedi.

Mən onda qorxunun nə olduğunu hiss etdim. Bu, sonralar da belə olacaqdı. Çünki hər dəfə gördüyümüz bir-birindən fərqli idi. Nəyəsə alışmaq mümkün deyildi girovluq həyatında. Hər dəfə az qalırdım özümə sual verim ki, qorxmaq belə olur? Hər dəfə yeni işgəncə, hər dəfə yeni əzab görmək məni sarsıtmışdı. Halbuki, mən dəyişikliyə meylli adam idim. İndi isə bu xasiyyətimə nifrət edirdim.

Yüzdən çox adamın olmasına baxmayaraq, heç kimin səsi çıxmırdı. Hamı sadəcə nifrəti ilə baş-başa idi. Nə edəcəyimizi planlaşdıra bilmirdik. Girovlar baş-başa verib ağlaşırdı. Bayaq aparılan Azərbaycan əsgərlərinin qohumları belə sakitləşmişdi. Süst olmuşduq. Üzümüzü tutacaq, səsimizi eşidəcək yalnız Tanrı qalmışdı. O anlarda düşünürdüm ki, deyəsən, Tanrı məsələsi də insanların özlərinə təsəlli verməsi üçün yaradılmışdı. Buna baxmayaraq, mən də qəlbimdə ona dua edirdim. Bizi bu işgəncədən qurtarması üçün yalvarırdım. Hətta əlacsız qalan qocalar Xocalıdakı Seyidcəlal ocağına nəzir-niyaz da tapşırırdılar. Camaatda belə bir inanc var idi ki, Seyidcəlal ocağı müqəddəs bir pirdi, insanların arzusunu heç vaxt gözündə qoymur. Ona pənah gətirənləri naümid etməzdi Seyidcəlal piri.

Bizi sonralar da öz vəhşi məharətləri ilə dəhşətə gətirəcək Safaryanın isə ürəyi soyumurdu. O, körpəni ayaqlarından sallayaraq bir ayağını da Vaskanyanın tutmasını tələb etdi. Yırtıcı canavar kimi onu iki yerə şaqqaladılar. Qanlar içində son anlarını yaşayan ana isə bunu görürdü. Son dəfə "balam" dedi... O qəşş etdi.

Gülcahan özünü itirmişdi. Başını köksümə sıxıb ağlayan bacım hıçqırırdı. Məni, bəlkə də, Gülcahana təsəlli vermək, ona dayaq olmaq istəyi saxlamışdı. Bunları yazdığım anda belə, ürəyimin niyə o zaman dayanmadığına təəccüblənirəm. Bunu görmək və bununla yaşamaq in-

sana məxsus ola bilməzdi. Bu vəhşiliyi edənlər nə qədər qəlbsiz idilərsə, bunları görənlər də bir o qədər ürək sahibi deyildilər...

Sonra Safaryan qışqıraraq dedi:

– Kimlər Dəhraz yolunda girov düşüb, qabağa çıxsın.

Heç kimdən səs çıxmırdı. Hamı susmuşdu. Yenə bağırdı:

– Orda girov düşənlərin hamısı qabağa çıxsın, yoxsa hamınızı qıracağam. İyirmiyə qədər qocalı-cavanlı girov qabağa çıxdı. Amma ayaqları gəlmirdi. Onları nə gözlədiyini bilmirdilər. Buna baxmayaraq, yeridilər. Cəhənnəmə gedirlərmiş kimi qabağa çıxdılar. Vaskanyan adlı zabit onlardan gözəgəlimli kişiləri güllələdi. Ona görə ki, Safaryanın Dəhraz yolu dediyi həmin yerdə iki erməni meyiti tapmışdılar. Onların qisasını aldı. İki erməni əsgərinə qarşı ona yaxın dinc əhalini öldürdü. Bu girovlardan kimsə onları vurmuşdu. Sonradan mənimlə qismət dostu olan Samirənin dediyinə görə, onlar meşədə gedərkən qabaqdan iki erməni gəldiyini görürlər. Onun qardaşının Mehdi adlı oğlu dayısına deyir ki, dayı, bu erməniləri vuracağam. Dayısı deyir ki, yox, bala, vurma cəmi iki gülləmiz qalıb, girov düşüb eləsək, onunla qadınlardan cavan olanları öldürərik ki, ermənilərin əlinə düşməsinlər. Amma Mehdi hirsindən dözə bilmir. "Girovzad düşməyəcəyik!", – deyib ermənilərin ikisini də sərrast atəşlə öldürür. Arxadakı postda bunu görən ermənilər atəş açıb xeyli adam qırmışdılar.

İndi isə erməniləri ən yüksək səviyyədə təmsil edən Vaskanyan, əsir düşməmək üçün azərbaycanlılar tərəfindən məcbur qalıb öldürülmüş iki erməni üçün dinc əhalinin nümayəndələrini bir göz qırpımında güllələdi. Türklərin bir adəti var, əliyalın düşmənə silah verib mərdimərdanə öldürmək. Bu hiss həmişə qorxaq olan ermə-

nilərə yad idi. Sadəcə fürsət düşəndə çaqqal kimi öldürmək və yenə fürsət gözləmək...

Safaryan erməni dilində nəsə dedi. Əsgərləri bunu həyata keçirəndə başa düşdük ki, bir neçə azərbaycanlını Azərbaycan tərəfə əsir düşən ermənilərlə dəyişdirmək və qohum olanları bir-birindən ayıraraq başqa yerdə saxlamağı tapşırmışdı.

Onlar qocaları, yaralıları seçdilər. Bu hadisə isə tamamən insan faciəsi idi. Hər kəs bu zülmə uzaq olmaq üçün əsirlikdən qurtulmaq istəyirdi. Heç vaxt yadımdan çıxmaz. Təqribən əlli yaşında olan bir kişi girovlarla dəyişdirilməsi üçün yerdə olan ağacı tələsik götürüb özünü yaralı kimi göstərdi. Ağacı götürəndə biz göz-gözə gəldik. Kişinin utandığını, xəcalətdən qızardığını gördüm.

– Qızım, bağışla, mən dözə bilmirəm. Ola bilsin ki, bu bir kişiyə yaraşan iş deyil, amma bacarmıram, qala bilmərəm.  İndi ananın balanı atdığı gündür. Ermənilərə bunu demə. Mənə nifrət də etmə. Axı oğlanlarım ölüb, kürəkənlərim şəhid düşüb, nəvələrimə kim baxar?! “Bunu eləmək məcburiyyətindəyəm” – ifadəsini onun gözlərindən oxudum. Sanki kişi yalvarır və ona nifrət etməməyimi istəyirdi. Hətta imkan olsa idi, təsəlli üçün deyərdi ki, sizi də qurtaracaqlar, qorxmayın.

Mən Gülcahanın da dəyişdirilməsi üçün onu erməninin qabağına verdim. Gülcahan getmək istəmirdi. Bunu görən zabit Gülcahanı mənə tərəf itələdi. Hırıldayaraq: hələ siz lazımsınız bizə, hara gedirsiniz? Bu cür maralları qaytarmaq olar?! Rədd ol, get kənarda dur, – dedi və işini davam etdirdi.

Ayırdıqları xəstələri, qocaları bir maşına doldurandan sonra, əmrin ikinci hissəsini – qohum olanları bir-birindən ayırmağa başladılar. Dəyişdirilənlər içində ayaqlarını don vurmuş hamilə əmim arvadı da var idi. Onun get-

məsi bir az məni ümidləndirdi. Ramilə mənim haqqımda nəsə deyəcəyini düşündüm. Kimsə bizim yaşamağımız haqqında eşidəcək, bizi xilas etmək üçün nə isə edəcəkdi. Amma kim?! Ramildən başqa kim?! Bunu kim edə bilərdi? Atam yox, anam yox, əmilərim yox, bibimdən xəbərim yox. Dayılarım isə Naxçıvanda, onların da başına nə gəlib bilmirəm. Bəlkə, elə oranı da alıblar. Axı, ermənilərin çoxdankı arzusu idi, Naxçıvanı böyük Ermənistana qatmaq. Lap belə sağ qalsa idilər, nə edə bilərdilər axı. Yenə düşüncələrim Ramilin üstündə durdu. O bir kişi idi, əsl qəhrəman olacaq kişi. Mənim üçünsə hər şey etməyə qadir idi. Ramilin mənim yaşadığımı eşidəcəyi mənə yaşamaq eşqi bəxş etdi... Amma... Gülcahanın itirilməsi qorxusu... Bu lap dəhşət idi...

Həmin an, sanki bir neçə saat ərzində baş verənlərin hamısı yadımdan çıxmışdı. İndi yalnız Gülcahanın məndən ayrılması əsəblərimi tarıma çəkmiş, ruhumu yerindən oynatmışdı. Kimsə onu məndən ayırmağa cəhd etsə idi, onu dırnaqlarımla parça-parça edərdim. Buna gücüm çatardı, əminəm ki, çatardı. Amma bizi bir-birimizdən elə ayırdılar ki, sadəcə səsimə gücüm çatdı. Qarnından vurduqları təpik Gülcahanı yerə sərdi. Mən də onun üzərinə yıxıldım. Avtomatın qundağının başıma dəyməsi məni kənara atdı. Bu zərbə ilə insan ölməli idi. Amma mən heç özümdən də getmədim. Sadəcə, əllərim boşaldı.

Saçımdan tutub qaldıran erməninin məni sürüyərək həmin zirzəmiyə aparması ilə Gülcahandan ayrıldım. Gülcahan dədə-baba torpağını qucaqlayıb, mənə baxırdı. Mən çırpınır, bizi bir yerdə saxlamaları üçün qışqırırdım. Gözlərim Gülcahanda qalmışdı. Onu son dəfə gördüyümü düşünürdüm. Bu ayrılıq ananın balasından ayrılmasına bənzəyirdi. Axı həyatda mənə yaxın olan yeganə adam idi bacım. Həm də o, uşaq idi. Zəif idi, iradəsi formalaş-

mamışdı. Ona ağlayacaq anası, atası belə yox idi. Gülcahanın mənə tərəf qaçmaq istəməsi ilə ağzından vurulan təpik onu yerə sərdi. Mənim gördüyüm elə bu oldu. Gülcahanın üzünü al qan içində bir neçə il xatırlayacaq, onu görmək üçün, yaşatmaq üçün nələrə razı olacaqdım...

Nənəm həmişə deyərdi ki, insanı ümidlər yaşadır. O zaman ki, ümidlər öldü, demək, insan da öldü. Mənisə həmişə ən bitkin ümid belə yaşadırdı, izi ilə getməyə məcbur edirdi. O ümid ki, xəyanətə qədər məni sürükləyəcəkdi. Ruhuma, elimə, Ramilimə belə xəyanət etdirə biləcək bu ümid qarşısında nədənsə həmişə aciz olmuşam. O da bu acizlikdən vəhşicəsinə yararlanacaq, ruhumu soracaqdı...

## 9. Heç kim unudulmur!..

– Ata, sən heç erməni öldürmüsən? – əlində tutduğu kitabla öz otağından çıxan on bir yaşlı Aytəkin Ramilin oturduğu kresloya yaxınlaşdı.

– Aytəkin! Sənə deməmişəm atanı yorma?! Görmürsən o, istirahət edir?! – bu dəfə Nərminə dilləndi.

Ramil qızını çox istəyirdi. Elə həyat yoldaşı Nərminə də yeganə övladları olan Aytəkini dəymə-düşər edib ərköyün böyütmüşdü. İndi necə oldusa hər ikisi hiss etdi ki, Aytəkin bu sözdən inciyib yenidən öz otağına tərəf qayıtdı. Ramil oturduğu yerdən qalxıb həyat yoldaşına məzəmmətedici baxışla nəzər salıb yanından keçərək qızının ardınca otağa tərəf getdi.

– Mənim Aytəkinim yenə də küsdü?! – otağa girən Ramil həmişəkindən daha artıq nəvazişlə qızına səsləndi. O həmişə öz sevimli qızını "Aytəkinim" deyə çağırırdı. Öz çarpayısında üzü divara uzanmış qız atasının bu sözünə cavab vermədi. Əslində onun bu susqunluğunun özün-

də də həmişəki kimi uşaq şıltaqlığından doğan şirin bir "hə, mən sizdən küsmüşəm" cavabı gizlənirdi. Əbəs yerə deməyiblər ki, "susmaq razılıq əlamətidir". Yəqin ki, Aytəkin də bu çox işlənilən atalar sözünü eşitmişdi. Çünki öz yaşıdları arasında həmişə dünyagörüşü ilə fərqlənməyi bacarırdı. Oxuduğu sinifdə iki əlaçıdan biri idi. Ona bu ildən dərs deməyə başlayan Gülər müəllimə artıq onu bir neçə dəfə tərifləmişdi də. Əsas da bu idi ki, Aytəkin özü də Gülər müəlliməni çox sevir, onun "Ata yurdu" dərsində keçdiklərini hamıdan yaxşı öyrənməyə çalışırdı. Beşinci sinifdə oxumasına baxmayaraq, onun bu gedişlə atası kimi tarixçi olacağını düşünmək səhv olmazdı.

– Qızım atasından da küsüb?! – Ramil növbəti dəfə onun könlünü almağa çalışdı. Amma yalnız indi əlini Aytəkinin yanağına çəkəndə onun ağladığını hiss etdi. Qızını özünə tərəf çəkib bağrına basdı. Sanki bütün dünya onun olurdu övladını belə əzizləyəndə.

– Gözəl balam, adam da heç hər kiçik səbəbə görə ağlayar? Bax, anan da səni çox istəyir. Doğrudur, bayaq xətrinə dəydi. Amma indi mətbəxdə bizim üçün çay dəmləyir. Bir azdan ikimizi də şokoladla çaya dəvət edib səninlə barışacaq. Sən mənim ağıllı Aytəkinimsən, adam belə şeyə görə ağlamaz, qızım.

Bayaqdan sakit-sakit ağlayan qız indi necə oldusa, daha yüksək səslə hönkürtü vurmağa başladı. Hətta anası da onun bu səsini eşidib otağa gəldi.

– Mən anama görə ağlamıram, buna görə ağlayıram – qız bunu deyib yastığının altına qoyduğu "Ata yurdu" kitabını çıxartdı. Kitabın arasında hansısa köhnə bir qəzet də nəzərə çarpırdı.

Ramil kitabı açıb arasındakı qəzetə baxdı. Elə Nərminə də bütün diqqəti ilə orada nələrin yazıldığını anlamağa çalışırdı. Sən demə, sabah Aytəkingilin məktəbində Xo-

calı faciəsi ilə bağlı tədbir olacaqmış. Buna görə də Gülər müəllimə sinfin əlaçı şagirdi olduğu üçün ona kitabdan əlavə digər qəzet materialları da verib. Ramil qəzetdə olanlara, sonra isə qızının əlində olan kitabdakı Xocalı haqqındakı hekayəyə nəzər salıb məsələni anlamağa çalışdı. Qəzetin solğun səhifələrində insan qanını damarında donduracaq fotoşəkillər gözə dəyirdi. Bu şəkillər həmin qarlı qış gecəsinin ürəkağrıdan səhnələrinə şahidlik edirdi. Ağqara rəngdə verilmiş fotolara diqqətlə baxdıqca insan özü özündən ayrılır, sanki şəkillər dönüb rəngli olurdu. Hətta oradakı qan izlərini, bir az sonra qanın rəngini də görmək mümkün olurdu. Ölümlə azadlığın həsrətli çarpışmasının təcəssümü olan bu şəkillər faciə qurbanlarının ah-nalələrini insana çatdırırdı...

– Bunları Gülər müəllimə verib, – qız indi özünə gəlib gözünün yaşını silə-silə izah etməyə çalışdı. Dedi ki, sabaha hazırlayım. Sabah tədbiri mənim aparmağımı istəyib. Mən heç vaxt ermənilərin belə pis olduqlarını bilməzdim. Qız bunu deyib qəzetdəki şəkilləri göstərdi. Qəzetin digər səhifəsində erməni vandalizmini əks etdirən bir-neçə iri fotoşəkil yer almışdı. Belə şəkillər isə ürəyində az da olsa, insaf olan insan övladını ağlatmaya bilməzdi.

– Axı onlar bizdən nə istəyirlər, ata? – bu dəfə atasının məyus olduğunu görən qız əlini onun çiyninə qoydu. Nəyə görə bizimkiləri bu hala salıblar? Hə, ata?! Mən Azərbaycan əsgəri olsaydım, onlardan heç vaxt qorxmazdım! Avtomatımla onların hamısını öldürərdim...

***

– Ana, bəs mənim şokoladım hanı? – çay süfrəsi arxasında oturmuş Aytəkin soruşdu.

– Bəs bu nədir, bala?! – qızına yaxın qoyulan şokolad ilə dolu vazanı işarə edən Nərminə dilləndi.

– Axı, bunlar hamısı qara şokoladdır. Mən bunları sevmirəm! – Aytəkin hazırcavablıq göstərdi. Həmişə atası işə gedəndə onun üçün ağ şokolad alıb gətirməsini xahiş edən qız nə istədiyinə işarə etdi.

– Hə, ağ şokolad istəyirsən. Biz səninlə razılaşmışdıq ki, yadından çıxıb?

– Yadımdan çıxıb, nəyi deyirsən ana?

– Həkimin deyib ki, qara şokolad yemək dərslərə yaxşı çalışmaq üçün beynimizə daha faydalıdır. Sənə keçən dəfə bunu danışanda söz vermişdin ki, bundan sonra ağ şokoladın inadını etməyəcəksən. Bəs nə oldu?

– Ay ana, vallah yadımdan çıxıb, atacanı!

– Ramil müəllim, görürsən də qızın necə huşsuz olub?! – Nərminə Aytəkin ilə tək bacarmayacağını görüb üstü-örtülü şəkildə ondan kömək istədi. Əslində qadının ərinə ünvanlanan bu sualının cavabı hər ikisinə məlum idi. Aytəkin isə uşaq məsumluğu ilə atasının onu müdafiə etməsini gözləyirdi. Hiss etdi ki, qızının iki gözü onun bir ağzına dikilib, nə deyəcəyini gözləyir. Bir az əvvəl çay süfrəsinə gələrkən özü ilə iş otağından gətirdiyi kitabı büküb kənara qoyaraq sevimli qızına gözucu nəzər saldı. Qızı bunu hiss edib fürsəti əldən vermədi:

– Ata, Gülər müəllimə də mənə həmişə deyir ki, çox oxumaq lazımdır. İndi anam da deyir ki, huşsuzam. Səncə, niyə?

– Əlbəttə ki, ağ şokoladı çox yediyinə görə, – həyat yoldaşını daha intizarda qoymaq istəməyən Ramil qızına Nərminənin istədiyi cavabı verdi. Hətta fürsət tapıb hər ikisi gülümsədi də. Amma Aytəkin, deyəsən, bu anı qaçırmışdı. Çünki bir anlıq özü də bunun doğru olub-olmamasını aydınlaşdırmaq üçün beynini işə salmağa çalışmışdı.

– Bəs, mənə daha öz şokoladımdan almayacaqsan?

– Əlbəttə, alacağam, amma həftədə bir dəfə. Danışdıq? – Ramil həkimin sözlərini xatırlayıb fikrini bildirdi. Poliklinikanın sahə həkimi demişdi ki, uşaq yaşlarında həddən artıq ağ şokolad yemək xeyir gətirməz. Əvəzində isə digər şirniyyatlardan istifadə etməyi məsləhət görmüşdü.

– Yaxşı, ata, – Aytəkin nəhayət ki, yola gəlmişdi. İndi onun çöhrəsində bir az əvvəl öz otağında ağlayarkən yaranan qəmgin cizgilərdən əsər-əlamət qalmamışdı.

Ramil bundan məmnun halda qızına bir qədər tamaşa edib yarımçıq qalan çayını içərək ayağa qalxdı. Bu dəqiqələrdə onun fikirlərini nəyinsə məşğul etdiyi hiss olunurdu. Həyat yoldaşı Nərminə xanım da, onu yaxşı tanıyan digər dostları da Ramilin bu halını yaxşı bilirdilər. Başa düşürdülər ki, müharibədə aldığı zədə onu ayda bir neçə dəfə narahat edir, səhhətində çətinliklər yaradırdı. Belə olanda Qarabağ döyüşlərində gördükləri amansız düşmən vəhşilikləri, əsirlər, həmin günlər bir-bir yadına düşür, hamıdan təcrid olunaraq özünə qapılırdı. İndi də, deyəsən, bir az əvvəl Xocalı faciəsi ilə bağlı evlərində baş verən kiçik situasiyadan sonra həmin günlərə aid nə barəsindəsə düşünürdü. Nərminə onun bu halına bələd olduğuna görə ərini narahat etməyib qarşısındakı çayı təzələmək üçün mətbəxə keçdi. Ramil isə kitabı növbəti dəfə açaraq qaldığı hissəyə gətirdi. Süfrə arxasında rahatlaşa bilməyəcəyini düşünüb yenidən iş otağına qayıtdı.

İçəri keçən kimi otağın əsas işığını söndürüb iş masasının üstündəki lampanı yandıraraq kitabı vərəqləməyə başladı. Deyəsən, həmin illəri yada salmaq, müharibəni, Xocalını, Qarabağı, şəhid olanları, Aytəkini, qəhrəman Azərbaycan oğullarını xatırlamaq istəyirdi. Və hər dəfə də onları yad edəndən sonra vətəndaşlıq borcunu veribmiş kimi rahatlanardı. Necə olsa, özü də bir qəhrəman idi. Bunu heç vaxt dilə gətirməsə də, döyüşlərdə çox şü-

caətlər göstərmişdi. Qızının bayaqkı sualını xatırladı... İndilərdə simasındakı acı təbəssüm izləri getdikcə daha çox hiss olunurdu... Kitabı növbəti səhifəyə gətirəndə erməni terrorçusu Melkonyanın adını görüb dayandı. Bu qaniçən canini öldürmək Ramilə nəsib olmamışdı. Yaxşı ki, o yaralanıb hospitala gətiriləndən sonra dostu İbad ona verdiyi sözü tutmuş, həmin məşhur erməni terrorçusunu ələ keçirmişdi. Nədənsə, oxuduğu kitabı yenə yarımçıq halda iş masasının üstünə ataraq ayağa qalxdı. Siqaret yandırıb iş otağından həyətin arxa tərəfindəki bağçaya açılan qapıya tərəf getdi. İndi həmin erməni terrorçunun İbad tərəfindən necə zərərsizləşdirildiyini xatırladı... Ramil girov düşən nakam sevgilisinin axtarışı zamanı bu terrorçunun izinə düşmüşdü...

## 10. Qədim kişi

Mən otuza qədər adamla birlikdə qapını döyməkdən, çığırmaqdan əldən düşüb bir küncdə oturdum. Çarəsizliyimi indi başa düşdüm. Heç nəyə gücümün çatmadığını indi anladım. Halbuki, Gülcahanın yanında özümü güclü hiss etmiş, ona havadar olacağıma özümü inandırmışdım. Bu gücü bir az da Gülcahandan alırdım, deyəsən. Gülcahandan ayrılandan sonra, sanki ermənilərin əlində girov olduğumu indi hiss etdim. Onu bir daha görməmək qorxusu, o məsum gözlərini görə bilməmək dəhşəti, məni qucaqlayaraq başını sinəmə qoyan zaman saçlarını qoxulaya bilməmək həsrəti, sanki ikinci dəfə atamı itirmək qorxusuna bərabər idi. Anamın ölümü o qədər ani olmuşdu ki, narkoz verilmiş insan kimi heç nədən xəbərim olmamışdı. Amma atam öləndə universitetə bir ay idi ki, qəbul olmuşdum. Atamın da ən böyük arzularından idi,

mənim ali təhsilli olmağım. O, bunun üçün əlindən gələni etmişdi. Universitetə də ilk dəfə atamla getmişdim. Onun yanında universitet koridorlarını qürurla addımlayır, gələcəyimin qurulması üçün heç bir əngəl görmürdüm. O da mənimlə fəxr edirdi. Mənə "Siyasi tarix" fənnindən "2" yazan müəllimlə axıra qədər mübarizə apardı. Rektorun qəbuluna qədər getdi. İmtahanın yenidən keçirilməsini tələb etdi və buna da nail oldu. Mən də onun başını uca etdim. İkinci dəfə "2" aldığım imtahandan "5" aldım. Atam bunu hər gələnə danışır, bir özündən deyəndə, beş də məndən deyirdi. Birinci dəfə kəsiləndə mən elə bilmişdim, universitetə qəbul ola bilmədim, kəndə qayıdanda Qala dərəsində mənimtək savadlı qızın olmadığını düşünən anama başucalığı gətirə bilmədim. Amma atamın arxamda durması, axıra qədər mənim hüquqlarımı müdafiə etməsi mənə ikinci cəhdimdə ali məktəbə qəbul olmaq həyəcanı yaşatdı. Həmin an bütün problemlərin bitdiyini hesab etmişdim. Arxamda dağ kimi dayanan atamla fəxr etmişdim. Balaca uşaqlar kimi atamı dünyanın ən ağıllı, ən güclü adamı hesab etmişdim. Atalı keçirdiyim bir aylıq tələbə həyatı ərzində heç bir problem yaşamamışdım. "Qa deyəndə ət, qu deyəndə suyum" yanımda olurdu. Amma onun qəfil ölümü məni yaman sarsıtmışdı, hətta anam razılıq versəydi, universiteti buraxıb evimizə – ata ocağına qayıtmaq istəyirdim. "Yetim qızın oxumaqla nə işi?!", – deyə hərdən özümlə qalanda özümü danlayırdım da. Qanadı sınmış quş kimi hardan əsməsi bəlli olmayan küləkdən, kol dibindən nə vaxt çıxacağı bəlli olmayan yırtıcı pişikdən qorxurdum. Çarəsizlikdən qorxurdum, yalnızlıqdan qorxurdum, tənhalıqdan qorxurdum. Kimsəsizlikdən qorxurdum. Atam da min əzabla kimsəsiz böyüyüb başa çatmışdı. O, yetim uşağın çəkdiklərindən o qədər danışmışdı ki, mən artıq yetimliyi yaşamış kimi

olmuşdum. Bir daha yetim olmaq istəmirdim. "Bir tərəfdən bağlayan Allah, bir tərəfdən açar" deyən nənəmin müdrik ifadəsi o vaxt da Ramillə tanışlığımda öz təsdiqini tapmışdı.

İndi də yalnız Ramilin varlığı mənə təsəlli verirdi. Ləkələnmiş, zorlanmış, kiminsə artığı olduğumu bilə-bilə yenə də Ramilə olan sevgimə zərrə qədər də olsun zərər gəlməmişdi. Hələ də ümid edirdim ki, hər şey bitəcək, Ramil məni başa düşəcək, bu olanları unutmağım üçün mənə yardım edəcəkdi. Bütün bunları düşündüyüm zaman, sanki Ramillə danışdığımı hiss edirdim. Bunların hamısı yaşamaq üçün verilən təsəllidən başqa bir şey deyildi.

Həmin anda məni dünyalar qədər sevən Ramilə möhtac hiss etdim özümü. Ona sarılmağa, ona sığınmağa, onun qoynunda özümü dünyanın ən bəxtəvəri hesab etməyə çox ehtiyacım var idi. Kaş ki, yenə o illər ola idi....

Bütün bu düşüncələrim Qədim dayının qəlpə yarasından ağrılar içində iniltisi ilə müşayiət edilirdi. Girovları dəyişən zaman Qədim dayını yaralı olmasına baxmayaraq nədənsə dəyişmədilər. Qədim dayı bunun səbəbini onun Xankəndində sözükeçən, imkanlı bir adam kimi tanınması ilə izah etdi. Sən demə, Qədim dayı çoxlu yüksək vəzifələrdə işləyib, istər ermənilər, istərsə azərbaycanlılar tərəfindən hörmət qazanmışdı.

Sadə, mehriban, qayğıkeş olması ilə bərabər çox da cüssəli və ciddi bir kişi idi. Qədim dayı bizimlə olduğu 45 gün müddətində daima bizə dəstək olur, verilən işgəncələrə əzmlə dözürdü. Sanki bir liderə çevrilmişdi. Hər şeyi ona məsləhət edir, dedikləri ilə oturub-dururduq. Bəlkə də, o olmasa idi, sonradan qaytarılan girovların əksəriyyəti öldürülmüşdü. O həmişə səbirli olmağı tapşırır, keçmiş günlərdən danışaraq bizi ovundurmağa çalışırdı.

Zirzəminin qapısını açıb-bağlayan erməni əsgəri Veneks Qədim dayını tanımışdı. Qədim dayıya erməni dilində nəsə dedi. Qədim dayı da ona cavab verdi. Bu hadisə Qədim dayını ölümdən xilas etmişdi. O astaca ona demişdi ki, vəzifədə olan ermənilərdən tanışı-dostu varsa, adın desin ki, ona xəbər çatdırsınlar. O vaxtkı Xankəndi "QAİ"sinin rəisi Şamik Qədim dayının yaxın dostu olmuşdur. Qədim dayı da onun adını vermiş, ona xəbər verməlırini istəmişdi. Səhəri həmin Şamik Qədim dayını görməyə gəldi. O, Qədim dayını qan içində görəndə insan kimi qəlbinin ağrıdığı gözlərindən hiss olundu, amma bunu gizlətməyə çalışdı. Aşağı çömbəlib onun əlindən tutdu: "Biz dost idik, təəssüflər olsun ki, indi düşmənik", – deyib başqa heç bir söz demədən getdi. Mən o zaman Qədim dayının azərbaycanlı kişisi olması ilə fəxr etdim. Bir kəlmə belə demədi. Bəlkə də, Şamik Qədim dayının ona yalvarmasını, alçalmasını, onu buradan qurtarmasını istəyirdi. Amma Qədim dayı heç nə demədi. Ağrılarını da yaddan çıxartmışdı. Arxasınca soyuqqanlılıqla baxdı. Əvvəllər dostluq etməsinə görə özünü söymədi də, danlamadı da, deyinmədi də. Belə də olacağını gözləyirdi, sanki. Çünki o erməni idi. Atalar yaxşı deyib ki, ot öz kökü üstündə bitər. İtə nə qədər yaxşılıq etsən də, elə itliyində qalar.

Amma axşama yaxın tamam başqa bir şeyin şahidi olduq. Ermənininin hər şeyi etdiyinə inanar, buna inanmazdıq. Lakin şahid olduq. Bir həkim gəldi, cavan bir oğlan idi. Hiss olunurdu, universiteti yenicə bitirib. İçəri girən kimi erməni dilində asta səslə dedi:

– Qədim Abbasov kimdi?

– Mənəm, – deyə, Qədim dayı da erməni dilində cavab verdi. Qarabağda yaşayan ermənilərin əksəriyyəti Azərbaycan dilini, azərbaycanlıların da əksəriyyəti erməni di-

lini bilirdi.

– Səni əməliyyat etməliyik, – deyib Qədim dayını zirzəminin sonundakı otağa aparmalarını əsgərlərə tapşırdı. Özü də ora keçdi. O, Qədim dayını cərrahiyyə əməliyyatı etdi. Amma bu işləri də vəhşicəsinə etdilər.

Qədim dayını əməliyyatdan sonra yenə bizim yanımıza gətirdilər. Qarnından qəlpə çıxarmışdılar. Bir gün özündə olmadı. Həkim gedəndə əsgərlərə demişdi ki, bu dərmanları verərsiniz içsin. Amma həkim gedəndən sonra əsgərlər dərmanları yerə atıb ayaqları ilə əzdilər. Üstünə örtməyə belə, bir şey verməmişdilər. Biz üstümüzdə olanlardan onun altına-üstünə sərdik. Qədim dayı özünə gələndə danışdı ki, həkim narkoz və ya keyitmə üçün dərman vermək istəsə də, əsgərlər imkan verməmişdilər. Bunun əvəzində əllərini-ayaqlarını stola bağlamış, səs salmaması üçün isə ağzına taxta parçası qoymuşdular.

Samirə ermənilərə qarğış tökə-tökə Qədim dayıdan soruşdu:

– Qədim dayı, bu gərdəni sınmışlar nə yaxşı səni əməliyyat etdilər?

– Bala, yaxşılıq heç vaxt itmir. Nə olsun ki, ermənidir. Bu həkimi Şamik göndərib. Bizim Şamiklə ailəvi yaxınlığımız olub.

– Nə bildin, ay dayı, bu itlər adama yaxşılıq edər? Bəlkə, nə isə məqsədləri var?

– Yox, ay qızım, bu Vladik idi – Şamikin oğlu. Uşaqlıqda onu dizimin üstündə çox oynatmışam. O da məni tanıdı, amma tanımazlığa vurdu. Atası yəqin ki, işini itirməmək üçün tanışlıq verməyib.

Sonradan bu Vladik üç-dörd gündən sonra bir dəfə də gəlmişdi. Yenə ciddi-ciddi gəldi, özünü Qədim dayını tanımayırmış kimi apardı. Qədim dayıya gizlin olaraq çantasında bir sok da gətirmişdi. Qədim dayı öz xasiyyətinə

uyğun olaraq o soku tək içmədi. Zorla da olsa, hamımıza bir qurtumluq içirdi. Çünki bizə üç gündən bir yarım stəkan su verirdilər.

Qədim dayını əməliyyat edən günü bizim illərlə görəcəyimiz işin bir növ təməli qoyuldu. Əslində təməli bizim evimizdə anamı öldürəndən sonra qoyulmuşdu. Həmin axşam içmiş, qarnıyoğun erməni dığaları bizim qaldığımız zirzəmiyə gəldilər. Hiss olunurdu ki, rütbəcə yüksək zabitlər idi. Aralarında milis forması geyənlər də var idi. Onlar kişiləri döyür, bizim gözümüzün qarşısında onları mənən sındırırdılar. Yerə tüpürüb yalamasını tələb edən erməniyə yaxşı bir şillə atan Çingizi ağzından güllələmişdilər. Mən Samirəyə: "Niyə şillə vurdu, kaş ki, yumruqla vurardı, heç olmasa ağrısı çox olardı", – dedim. Samirə bir az gözüaçıq qız olduğundan bəzi şeyləri məndən yaxşı bilirdi.

Dedi ki, sən bilmirsən məgər, azərbaycanlı kişisi heç vaxt kişiyə şillə atmaz. Yalnız qadına şillə atarlar. Özü də özünü yaxşı kişi hesab edənlər bunu yalnız fahişəyə atar. Bunun üçün də alçaldıcı zərbə idi bu şillə. Çingiz yaxşı bilirdi ki, mənəvi zərbə cismani zərbədən daha ağırdı. Əgər bunu ermənilər başa düşərsə...

Kişiləri döyüb incidəndən sonra qızları götürüb aparırdılar. Hər erməninin öz "malı" vardı. Əsgərlər isə onların razılığı olarsa, qızları aparırdılar. Həmin axşam məni də döyə-döyə, zorla aparan Vaskanyan oldu. Bundan sonra mən yalnız Vaskanyana məxsus oldum. Onun fahişəsinə çevrildim. Əslində fahişə sözü bunu tam ifadə etmirdi. Dilimizdə bunu ifadə edəcək başqa söz olmadığı üçün belə adlandırırdıq özümüzü. Fahişələr könüllü olaraq bədənlərini satanlardı. Onların da zorlanmaya qarşı etirazları olur və qəbul etmirlər. Hətta nə olsun ki fahişəlik edirik, bu o demək deyil ki, bizi təhqir etməlidirlər,

– deyirlər. Bizim isə işimiz zorlanmaq idi. Həmin axşam zalımlığı ilə ad çıxaran Vaskanyanın payına düşmək mənim bəxtimə idi. Həmin Vaskanyan idi ki, bizi evimizdən çıxaranda məni əsgərə tapşırmışdı. Beləliklə, axşamların gəlməsini istəmədən gözləyirdik. Qızlar isə kişilərimizi utandırmamaq üçün işlətməyə aparıldıqlarını deyirdi. Bəzən də ümid edirdik, ola bilsin, girovluqdan qurtardıq. Yaşamağa üzümüz olsun. Amma hər şey aydın idi. Kişilər də bunu hiss edirdi. Amma Azərbaycanlı həyası bunu üzə vurmağa, xatırlamağa imkan vermirdi. Buna alışmağa borcluyduq...

### 11. Qaniçən düşmənin acizliyi

*Dostu İbadın qəhrəmanlığı ilə bağlı*
*Ramilin həmin günkü xatirələrindən*

Əsl adı Monte Melkonyan olan "Avo" ABŞ-da doğulmuşdu. Peşəkar terrorçu kimi ad çıxarıb. Terror təşkilatı ASALA-ya daxil olub, sonradan onun hərbi qanadını yaradıb. Məhşur terrorçu Karlos Şakaldan dərs alıb. Dünyanın bir çox bölgəsində, o cümlədən Livanda, Yunanıstanda, İtaliyada törədilən terror aktlarında yaxından iştirak edib. Terror hədəfinə çevirdiyi şəxslər sırasında türk mənşəlilər xüsusi yer alıb. 1985-ci ildə Parisdə qanunsuz silah və narkotik saxladığına görə, 6 il müddətinə həbs cəzasına məhkum olunub. Lakin erməni lobbisinin və digər himayədarlarının təsiri ilə vaxtından əvvəl həbsdən azad olunaraq Cənubi Yəmənə göndərilib.

Daha sonra Qarabağ döyüşlərinə qatılan Melkonyanın əli yüzlərlə günahsız azərbaycanlının qanına bulaşıb. Qaradağlı faciəsinin əsas müəlliflərindən biri məhz Melkon-

yandır. Bu kəndin ələ keçirilməsi zamanı girov götürülən xeyli sayda günahsız azərbaycanlının qətlə yetirilməsində, o cümlədən başlarının kəsilməsində, üzərlərinə benzin tökülərək yandırılmasında, müxtəlif bədən əzalarının kəsilməsində bilavasitə iştirak edib. Xocalı soyqırımında günahsız insanları – qadınları, körpələri, qocaları ən ağlasığmaz vəhşiliklə qətlə yetirən ermənilər arasında yenə də xüsusilə fərqlənən məhz Melkonyan idi. Əsas sevimli məşğuliyyətlərindən biri də girov götürülən azərbaycanlılara ən amansız yollarla işgəncələr vermək, onları xüsusi qəddarlıqla qətlə yetirmək olub. Ermənistanda mifikləşdirilən Melkonyanla düşmən dövlətin keçmiş prezidenti, o vaxtlar isə Qarabağda azərbaycanlılara qarşı hərbi separatizmin başında dayanan Robert Köçəryanla Serj Sərkisyan da birmənalı hesablaşırdı. Erməni işğalı və vəhşiliyinin əsas ideoloqlarından olan Zori Balayan isə bu beynəlxalq terrorçunun şərəfinə möhtəşəm təriflər yağdırır, ona həsr olunmuş şeirlər və publisistik məqalələr yazırdı. Bu amansız qatili erməni mətbuatı "ən böyük erməni" kimi fanaticcəsinə mədh edirdilər.

Qarabağ müharibəsində olmazın vəhşiliklər törədən, onlarla günahsız azərbaycanlını qətlə yetirən Melkonyan rəhbərlik etdiyi hərbi hissənin daha çox Azərbaycan ərazisi işğal etməsinə, mümkün qədər çox günahsız azərbaycanlının qanının axıdılmasına xüsusi diqqət yetirirdi. Amma ona yad olan bu torpaqda başına nələr gələcəyindən də hələ xəbərsiz idi…

***

… Yeni açılan gün gedişi və nəticəsi məlum olmayan savaş vəd edirdi. Başqa cür mümkün də ola bilməzdi. Çünki burada hər gün eyni keçirdi. Günün əsas xüsusiyyəti isə nə qədər erməni məhv etməyin və ən başlı-

casıözünün sağ qalıb-qalmamağın idi. Şəhidlərin xatirə lövhəsinə vurduğu şəklini diqqətlə gözdən keçirdikdən sonra İbad dəstəsi ilə birlikdə bu vaxta qədər qatıldığı döyüşlərin, bəlkə də, ən mühümünə, ən vacibinə yollanırdı.

İbad nə vaxtdandır ki, bir arzu ilə yaşayırdı – Avonu məhv etmək! Avonu ələ keçirmək üçün indiyə kimi düşmən arxasında soyuqda, qarda, yağışda ac-susuz vəziyyətdə həyata keçirilən kəşfiyyat əməliyyatları istənilən nəticəni verməmişdi. Bu dəfə isə Avo mütləq zərərsizləşdirilməli idi. Bu, həm Ağcabədinin Qiyaməddinli kəndinin ermənilərin əlinə keçməsinin qarşısını ala biləcək mühüm bir hadisə, həm də yüzlərlə günahsız azərbaycanlının intiqamının alınması demək idi. Ürəyində "ya sənə verər Allah, ya mənə" deyib qardaşlarının, bütün döyüşçü yoldaşlarının xeyir-duası ilə gecənin zülmətində yola düşdü. Plan Avonu İbadın erməni işğalı altına düşmüş doğma kəndi olan Muğanlıda zərəsizləşdirmək idi. Səhərə yaxın kəndə çatıb əvvəlcədən müəyyənləşdirdikləri yerdə durdular. Axşama kimi gözləsələr də, hədəf hələ görünmürdü. İbad hər qarışına əlinin içi kimi bələd olduğu doğma kəndini gecə qaranlığında xeyli gəzdi. Bir vaxtlar sevinc, toy-büsat səsləri ucalan kənddən indi heç bir əsər-əlamət qalmamışdı. Hər tərəfdə uçulmuş, yandırılmış evlər var idi. Ertəsi gün də hər şey təkrar olundu. İbad yenə Avonu ələ keçirə bilmədən qayıdacaqlarından yaman narahat idi.

Doğma kəndindəki kəşfiyyatında üçüncü gün idi. Uzaqdan sarı rəngli UAZ maşını Muğanlı kəndinə doğru gəlirdi. Avonun isə üç gündən bir təkbaşına sarı UAZ-da gəzərək postları, döyüş xəttini yoxlaması kəşfiyyatçılara məlum idi. Şübhə yox idi ki, UAZ-da gələn Avodur. Sürətlə onlara tərəf irəliləyən UAZ yoldakı dar keçiddə ilişib qaldı. Az keçmiş onun içindən bir nəfər düşərək pi-

yada Muğanlıya doğru hərəkət etməyə başladı.

Avonun hərəkət istiqamətini kəşfiyyatçı dəqiqliyi ilə hesablayan İbad kəndin köhnə məktəb binasının yanında onunla üz-üzə gəldi. Bu qəfil görüşü İbad nə qədər arzulamışdısa, Avo üçün də bu qarşılaşma bir o qədər gözlənilməz olmuşdu. Maddım-maddım İbada baxan Avo azərbaycanlı kəşfiyyatçıların ermənilərin nəzarətində olan kəndə soxulması, günün günorta çağı onun qarşısını kəsmələrinə öz-özlüyündə hələ də inana bilmirdi. İbadın silahı isə düz ona tuşlanmışdı. Artıq bir hərəkətin həyatına son qoyacağını yaxşı başa düşən Avo hələ də durduğu yerdə donub qalmışdı. İbad ondan çiynindəki avtomatı yerə tullamağı həm Azərbaycan, həm də rus dilində tələb etdi.

Onu öldürməməsi üçün yalvarmağa başlayan, lakin qəfil hərəkətlə silahını işə salmaq istəyən Avonu İbadın atdığı güllə sinəsindən yaraladı. Aldığı yaradan qıvrılan və geriyə dönən Avo yenə də avtomatını İbada sarı tuşlamağa cəhd edirdi ki, ikinci güllə onu yerə sərdi. Ayağa qalxmağa cəhd edən Avo taqəti olmadığından dizləri üstə sürünməyə başladı. Xırıltılı səsinin tonundan onu öldürməməsi üçün İbada yalvardığı aydın hiss olunurdu. Girov götürdüyü azərbaycanlıları aman vermədən əzazilliklə qətlə yetirən, azərbaycanlı başı kəsməsi ilə öyünən, qan tökməkdən həzz alan Avo indi qanının tökülməməsi üçün durmadan İbada yalvarmaqda davam edirdi. Azərbaycanlı gəncə zillənən gözlərində bir məzlumluq, yazıqlıq oxunurdu. Bu vəziyyətdə isə İbadın gözləri önündə Xocalı vəhşəti, Qaradağlı faciəsi canlanır, qulaqlarına zülmlə, işgəncə ilə öldürülən körpələrin, qadınların, qocaların, uşaqların ah-naləsi, hayqırtısı gəlirdi. Bu faciələrin baş verməsində rolu az olmayan, xaricdən Azərbaycana yalnız azərbaycanlı qanı axıtmağa gələn Avoya aman

yox idi.

Qulaqlarında günahsız yerə öldürülən azərbaycanlıların səsi cingildəyən, gözlərində süngüyə keçirilən, baş dəriləri soyulan körpələr, uşaqlar, Xocalıda, Qaradağlıda yüzlərlə başı kəsilən insanlar canlanan İbad qisas yanğısı ilə cibindən çıxartdığı bıçağı "Avo"nun boğazına çəkdi… 1993-cü ilin 12 iyunu… Xocavəndin işğal altındakı Muğanlı kəndi… Gənc azərbaycanlı kəşfiyyatçı və onun qarşısında "ən böyük erməni"nin başsız bədəni… Qisas alınmışdı! Amma əsas qisas hələ qarşıda idi!

## 12. Düşmənin iyrənc ehtirası

O gecə... o gecə həmin gecə idi ki, sonralar mənim əl-qolumu sındıracaq, taqətimi alacaq, intihar etməyimə imkan verməyəcəkdi.

Doğrudan da, kişilərlə qadınlar arasında iradə baxımından böyük fərq var. Tarixdə heç vaxt qadınlara qazı olmağa icazə verilməyib. Bunun səbəbi kimi, qadınların zəif, iradəsiz olmaları, qərarın verilməsinə öz hissləri ilə yanaşmaları göstərilirdi.

O, məni öz otağına gətirdi. Ora bizim qaldığımız binadan aralıda idi. Hərbçilərə məxsus binaya bənzəyirdi. İki otaqlı, dağınıq vəziyyətdə olan bir mənzil idi. Divarda bir kişi şəkli var idi. Sonralar bunun Andranik olduğunu öyrəndim. Biri yataq otağı idi ki, dəmir çarpayı və bir də stul var idi. Qonaq otağı üçün nəzərdə tutulan otaqda bir köhnə divan, stol və iki stul var idi. Stolun üstünü xəritə və araq butulkaları bəzəyirdi.

İçəri girən kimi, Vaskanyan məni yataq otağına itələdi və qapını bağladı. Donuz iyi verən otaq o qədər natəmiz görünürdü ki, bir həftəyə yaxın yorğan döşək görməyən,

yatmaq üçün kürəyi yerə dəyməyən bir insanın belə, oturmağa ürəyi gəlmirdi. Pəncərə dəmir barmaqlıqlarla örtülmüşdü. Mən 5-10 dəqiqə otaqda ayaq üstə durdum. Nə düşündüyümü heç indi də xatırlamıram. Bəlkə də, heç nə düşünmürdüm. Düşünə bilmirdim. Bacarmırdım düşünməyi. Hər şeyi unutmuşdum. Artıq Ramil də yadıma düşmürdü. Xatırlayanda da unutmağa, ondan uzaq olmağa çalışırdım. Qapının açılması və onun mənə "niyə soyunmamısan?" sualı məni donub qaldığım yerdən bir addım geri çəkilməyə məcbur etdi.

Məni çarpayıya itələyərək üstümə atıldı. Qolumdan tutduğu zaman çox güclü olduğunu hiss etdim. Əynindən hərbi paltarını çıxartdı. Qarnı o qədər iyrənc görünürdü ki...

Boyunun hündürlüyü, qollarının güclü olması istənilən qadınla mübarizədə qalib gəlməsinə kifayət edirdi. Vaskanyan məni öpməyə başladı. Əllərimi bir əli ilə tutub tülkü ağzına oxşar ağzı ilə dodaqlarımı, sinəmi öpür, bir əli ilə paltarımı soyundurmağa çalışırdı. Ağzından ürəkbulandırıcı araq iyi gəlirdi. Fısıltısı isə insanı dəhşətə gətirirdi.

Düzü, üstümdə elə uzanmışdı ki, hərəkət etməyə heç bir imkanım yox idi. Sadəcə başımı o tərəf-bu tərəfə çevirir, dizlərimlə onu vurmağa çalışırdım. O isə sanki yırtıcı heyvan kimi əlində olan zəif ceyranı parçalamağa çalışırdı. O anda ceyranın gücü sadəcə gözlərinə və ürəyinə çatırdı. Mənim çırpınmağım, ağlamağım, qışqırığım ona ləzzət verirdi. O durmadan məni vurur, dişləyirdi. Bir növ məni müqavimət göstərməyə sövq edirdi. Elə bil bilərəkdən işini uzadır, bitməsindən qorxurdu. Uzandıqca vəhşiləşir, gözləri qanla dolur, dana kimi böyürürdü.

– Sən bunlara alış, öyrən, vəzifəni bil, türk qancığı. Bundan sonra mənim kefim istədiyi zaman bura gələ-

cəksən. Mənə qulluq edəcəksən. Gör sənə nələr göstərəcəm. Sənin türk kişilərin sənə indiyə qədər əl vurmayıblar ki, mənə xidmət edəsən, – deyir, gücü çatdığı qədər ağır zərbələrlə şillə vurur, məqsədinə çatmağa tələsmirdi. Adətən, insan bu cür vəziyyətdə kimisə köməyə çağırar, haray qoparar, amma mən o anda bir şeyi dərk edirdim ki, köməyə çağırılası heç kim yoxdur. Sözsüz ki, Allahı nəzərə almasaq. Allahı isə çağırmağa heç bir ehtiyac yox idi. Bizə öyrədildiyi kimi idisə, o, bizi görürdü. Görməsə də, eşidirdi. Amma nə fayda?..

Nənəmlə mübahisələrimdə "Tanrı niyə pis adamları günahlandırmır? Onlara imkan verir ki, həyatı istədikləri kimi yönəltsinlər?"– deyə onu hirsləndirirdim. Rəhmətlik nənəm sadiq müsəlman idi. Dinini və allahını sevməyi və qorumağı həmişə bacarırdı. Yadıma gəlmir ki, nənəmin orucundan, namazından qaldığını görüm. Rəhmətlik bu sualımı çox sevdiyi atalar sözü ilə cavablandırırdı: "Allahın barmağı yoxdur ki, soxub göz çıxartsın", "Gec edər, güc edər". O, hər şeyi görür. Hər şeyə qadirdir."

Hətta nənəm danışırdı ki, 20 Yanvar faciəsi baş verəndə bütün naxçıvanlılar Nehrəmdəki İmamzadəyə yığışıb allaha yalvarıblar. Azərbaycanın üstünü alan qara buludları tez bir zamanda dağıtması üçün göz yaşı töküb, ağlayıblar da. Tanrının tez bir zamanda erməniləri cəzalandıracağına çox əmin idi rəhmətlik nənəm. Onun düşüncəsinə görə Tanrı yalnız bizim idi. Ermənilərin ya tanrısı yox idi, ya da bizim tanrı onları sevmirdi. Ya da Tanrı yalnız yaxşılara sahib çıxırdı. Pislərə isə şeytan başçılıq edirdi. Belə olduqda isə bizlər – müsəlmanlar yaxşı olduğumuz üçün Tanrı bizim idi. Ermənilərin isə payına şeytan düşürdü. Bu cür dayaz düşüncə isə dünyanı, bəşəriyyəti dərk etməkdə bizi müəyyən qapalı sahədə saxlayırdı. Bunun üçün də ya Tanrının bizə olan münasibətini

tam dəqiqləşdirə bilmirdik, ya biz Tanrıya qarşı münasibətimizi aydınlaşdıra bilmirdik. Tanrı isə həmişəki kimi bildiyini edirdi...

"Bu zülmü allah bağışlamaz", – deyirdi yazıq nənəm. Şərqin – müsəlmanların, bəlkə də bəlalara düçar olmasının ilk səbəbi hər şeyi göyə – Tanrıya bağlamaları idi. Hər şeyi də ondan gözləməsi idi. İstənilən müsəlman istənilən problem qarşısında qaldıqda üzünü göyə tutur, ondan kömək istəyir. Bu isə insan beyninin tənbəlləşməsinə gətirib çıxarır. Tanrıya müraciət etmək, həlli ondan gözləmək ən asan yoldur, lakin məntiqin gücü ilə problemin həlli daha çətin, daha mürəkkəbdir.

O gecə mənim ömürlük ruhuma damğalanmış acı bir gecə oldu... Var gücümlə mübarizə aparmağa çalışsam da, heç nə alınmırdı. Məndən qat-qat güclü olması istədiyi kimi rəftarına ən yaxşı yardımçı idi. Mənim alt paltarım da yox idi. Onu evimizdə olarkən əynimdən çıxartmışdılar. Bu onun işini bir az da asanlaşdırırdı. Mən artıq yorulmuş, taleyimlə bir daha barışmağa hazırlaşırdım. Amma, deyəsən, mənim yorulmağım, çırpınmamağım onun həvəsini söndürürdü. Bir də ki, çarpayının dəmir toru boş olduğu üçün orta hissə batırdı. Bu da onun işini çətinləşdirirdi. Bunu hiss edən Vaskanyan məni döşəmənin üstünə atdı. Bu zaman su əvəzinə qan axıdan gözlərim onun cinsiyyət orqanına sataşdı. Bayaqdan üstümdə qızmış dəmir parçası kimi məni narahat edən orqan artıq büzüşmüşdü. Vaskanyan dəliyə dönmüşdü. Gözləri qanla dolmuşdu. Kişilik qüruru hesab etdiyi onu məğlub vəziyyətə salmışdı. Yalançı qürur sahibi isə bunu hər hansı bir girovun qarşısında özünə heç bağışlaya bilmirdi.

Stolun üstünə qoyduğu şalvarından remenini çıxardı. Və dayanmadan məni vurmağa başladı. Mən bunu qələbə hesab edirdim. Timsahın dişləri arasından qur-

tulmuşdum. Amma Timsah əlindəki ovu yeyə bilmədiyi üçün çılğınlığından partlayırdı. Erməni dilində nəsə deyir, saçımdan tutaraq sürüyür, bağırırdı. Nə edəcəyini bilmirdi. Sığala ehtiyacı olan uzun saçlarımdan tutaraq başımı ayaqlarının arasına sıxmağa başladı. Bu, iyrənc və alçaldıcı idi... Dözülməsi mümkün olmayan bir vəziyyət idi... Bu yazdığım gündəlikdə özümlə baş-başa olmağıma baxmayaraq, yaza bilmirəm. Təfsilatı ilə danışa bilmirəm. Oxuduğunuz zaman ağlınıza nə gəlirsə, bilin ki, onlar da mənim başıma gətirilib. Bir şeyi ki insan özünə belə, danışa bilmir. Heç pıçıltı ilə də danışmaq mümkün deyil. Bunu sadəcə qışqıraraq, gücün çatdığı qədər ucadan bağıraraq demək mümkündür. Elə hayqırmaq ki, özün öz səsini eşitməyəsən....

Mən artıq ölümü gözümün qabağına almışdım. Nə edim ki, o məni öldürsün, – deyə düşündüyüm anda, remenindən çıxaranda tapançasının yerə düşdüyünü xatırladım. Gözüm onu axtardı və tapdı. İndi sadəcə onu tapmaq, götürmək və atəş açmaq qalırdı. Amma necə? Gücüm çatmırdı, bir də  tapança məndən uzaqda idi. Ağlıma gələn və gücüm çatan yeganə şey, var gücümlə onu dişləmək idi. Bütün gücümü yığaraq budundan dişlədim. Elə möhkəm dişlədim ki, it kimi hürdü vicdansız. Başıma vurulan yumruqların heç birini hiss etmir, dişlərimi sıxırdım. Vaskanyan ağrıdan vəngildəyirdi. Amma mən dişlərimi aralamaq istəmirdim, çünki məni nə gözlədiyini müəyyənləşdirə bilmirdim. Bu zaman o qulaqlarımdan tutaraq yuxarıya doğru dartdı. Mən də qulaqlarımın ağrısına dözə bilməyib dişlərimi araladım. Sol qulağımın cırıldığını zirzəmiyə aparılanda bildim. Məni divara elə çırpdı ki, başımın divara dəyməsi ilə gözlərimdən ildırım çaxdı. O, tez çarpayıya oturdu, qan axan ayağına baxdı. Ermənicə söyür, əlini yaranın üstünə sıxırdı. Deyəsən,

doğrudan da, möhkəm dişləmişdim. Onun ağrıdan başının qarışması mənə silahı yerdən götürməyə imkan yaratdı. Silahı götürən kimi ayağa qalxdım. Hıçqırırdım. Silahı götürdüyüm üçün bir az da ürəklənmişdim. Silahı onun üstünə tutdum, ayağa qalxmasını tələb etdim. O, sanki yarasının ağrısını unutdu, mənə baxaraq güldü. Heç yerindən də qımıldanmadı. Amma gülüşündə bir səmimilik hiss etdim.

– Siz türklərin bu hərəkətinə heyranam, – dedi.

– Hansı hərəkətinə? – Əsə-əsə soruşdum.

– Belə qeyrətli olmağınıza. Başqası olsa idi, indi məni vurmuşdu. Amma sən vurmursan, bilirsən niyə?

Əslində mən dəqiq bilmirdim, niyə öldürmürəm. Buna baxmayaraq ona “Niyə” sualını verdim. Deyəsən, qarğa kimi tülkünün hiyləsinə aldanmışdım. O qədər nifrət etdiyimə baxmayaraq, nəsə planlaşdıra, qərar verə bilmirdim. Bu da qadınlara məxsus olan bir hiss idi. Kişilər bu anı çox yaxşı dəyərləndirərdi.

– Yəqin ki, məndən bacını istəyəcəksən, ya da girovları buraxmağımı. Hə, düz demirəm, bəlkə?

– Düz deyirsən, bacım hardadır? – deyə düşünmədən cavab verdim. Əslində, o, mənim adımdan qərar vermişdi. Və ya mənə qərar verməkdə kömək etmişdi.

– Sən bilirsən ki, sizi qohumlarınızdan niyə ayırdıq? Ona görə ki, bu vəziyyətlərdə istifadə edək. Əgər sən mənə atəş açsan, sən də, bacın da öldürüləcəksiniz. Üstəgəl, mənim qanım üçün bəlkə, bütün əsirləri də öldürdülər.

Əllərim əsirdi. Bunu o da görürdü. Dediyi sözlər isə məni yenə çıxılmaz vəziyyətə saldı. Gülcahanın sonuncu dəfə mənə baxışı yadıma düşdü. Həsrət və çarəsizlik dolu baxış idi. İndi isə onu qurtarmaq üçün şans var idi. O mənim əlimdə idi. O, həmin şans idi ki, ona bütün ömrümü

qurban verəcəkdim və onu şanssızlığın xeyrinə yönəldəcəkdim. Vaskanyanı öldürməklə onu yaşada bilməyəcəkdim, onu yaşatmalıydım ki, Gülcahan da yaşasın.

Vaskanyan birdən yerindən qalxdı. Mən qorxumdan tətiyi çəkdim. Necə çəkdiyimi bilmədim. Axı mən Gülcahanın yaşaması üçün hər şeydən keçməyə hazır idim. Fikir o qədər sürətli idi ki, müddətin deyə bilmərəm, amma tətiyi axıra qədər çəkdiyim zaman kəsiyində çox şey fikirləşdim, götür-qoy etdim. O ölsə də, bizim hamımızı öldürəcəklər, ölməsə də. Amma silah açılmamışdı. Vaskanyan silahı əlimdən alıb mənə möhkəm bir şillə vurdu. Şillənin zərbəsindən burnumdan qan açıldı.

– Sürtük, mən sizi tanımıram? Sizin necə millət olduğunuza bələd deyiləm? Sən bilirsən mən nə qədər türk qanı içmişəm? Elə bilirsən ki, tapançanı sənin yanına hazır qoyacam ki, məni öldürəsən? Onu bil ki, bundan sonra mənim istədiyimi etməsən, bacın öləcək. Onun yaşamasını istəyirsənsə, əmrlərimə adam kimi tabe ol. İstəklərimi yerinə yetir. Bundan sonra hər axşam bura gələcəksən, məni razı salacaqsan, əgər belə olsa, sənə bacını göstərəcəyəm.

Mən küncə yıxılmış, için-için ağlayırdım. Tanrı da yadımdan çıxmışdı. Zülmə göz yumduğu üçün üsyan etmək də yadıma düşmürdü. Qadın olaraq Vaskanyanın bütün dediklərinə inanırdım. İnanmasa idim, nə edəcəyimi bilmirdim axı. İnanmağa məhkum idim.

İnandım. Bununla da illərlə bu həyatı yaşadım. Əzablar çəkdim. O gün üçün yaşadım ki, bacımın yaşaması qarşılığında vətən xaini olmağa sövq edilim.

O gecə mənliyimi, qürurumu itirdim. Ruhum zorlandı. Ramilin "göyərçini", atam Soltanın "Xınalı kəkliyi" uçub getdi. Yerində heç nə qalmadı. Heç qara daşa da dönmə-

dim. İçimdə olan mənim belə məni tərk etdi. Mən mənsiz qaldım.

Vaskanyan hətta mənə demişdi ki, əgər siz intihar etsəniz belə, sizdən ayırdığımız qohumunuzu öldürəcəyik. Bizi qorxutmaq üçün bunu sübut da etdi. Mən qapıdan çıxanda "ağlını başına yığ", – deyə bağırdı da. Əsgərləri məni zirzəmiyə gətirdi. Səhər bizi həyətə çıxaranda Qaçqınlar kəndindən olan, 16 yaşlı qız ilə girov düşən Səkinə adlı gəlini aramızda görmədik. Səkinə Qədim dayının əməliyyat olduğu otağa keçmiş, axşamkı "mərasim"dən sonra özünü bağışlaya bilməyib pəncərənin barmaqlığından asmışdı. Çünki həmin gecə bütün qadınları harasa aparmışdılar. Vaskanyan bizi qorxutmaq üçün, xüsusən də mənə nümunə göstərmək üçün Səkinənin qızını bizim yanımızda cinsiyyət orqanından vurdu. Sonra ikisini də meşəyə atdırdı.

– Əgər qızlardan kimsə özünü öldürmək istəsə, onun əlimizdə olan qohumunu, ya da burdakılardan birini öldürəcəyəm. Qaçmağa isə heç cəhd etməyin, – deyib, mənə xüsusi nəzər yetirdi. Sanki dediklərinin hamısını mənə deyirdi.

Beləliklə, mən bundan sonra Gülcahan üçün yaşadım. İndi də yaşayıramsa, bu onun üçündür. Bu, illər çəkəcək, amma deyəsən, sonu olmayacaqdı... Ölümdən qorxduğum üçün Gülcahanı özümə təsəlli etdiyimi də az düşünməmişəm. Amma o hissləri yaşamayan şəxs, ölümün o anda ən yaxşı məlhəm olduğunu birmənalı şəkildə başa düşər.

## 13. Xatirələr sorağında

Axı insanlar nəyə görə dinc yaşamaq istəmirlər?! Nəyə görə ta qədimdən bu günə, bu gündən sabaha düşündükləri, kimisə məhv etmək, torpaqlar, mülklər ələ keçirtmək, özündən zəif olanları qorxu altında saxlamaqla onlara hakim olmaq istəyidir?!.

Ramil vaxtın necə ötdüyünü hiss etmədən beynini yoran bu suallara cavab tapa biləcəyinə hələ də ümid edərək növbəti dəfə siqaret yandırmaq istəyirdi ki, həyat yoldaşı Nərminənin səsi eşidildi:

– Ay Ramil, yenə nə olub?! Niyə özünə zülm edirsən?

Nərminənin nə vaxt qapını açdığı, onun iş otağından keçib arxa həyətə düşməsini hiss etməyən Ramil, sanki indi yuxudan ayılırmış kimi səksəndi. Bu o qədər ani oldu ki, əlindəki siqaret yerə düşdü. Sən demə, Nərminə xanım iki-üç saatdır onun nə vaxt evə qayıdıb süfrəyə gəlməsini gözləyirmiş. Ona mane olmamaq üçün narahat etməməyi düşünmüşdüsə də, artıq dözməyib ardınca gəlmişdi. Başa düşmüşdü ki, əri yenə də özünü yaxşı hiss etmir. Belə olanda həmişə onun yanında olmağı, ona dəstək olmağı arzu etsə də, Ramil bu vəziyyətlərində tək qalmaq üçün qaçırdı. Bu isə hər dəfə onu ürəkdən sevən Nərminəni incik salırdı. Hərdən də qadın özünü danlayırdı belə şeyləri görəndə. Bir az əvvəl isə "gərək Ramil evdə olmayanda Aytəkinlə əməlli-başlı danışam ki, artıq böyük qızdır, yersiz suallar verməsin", – deyə düşünüb özünü növbəti dəfə məzəmmət eləmişdi. Axı qızı bu gün həmin sualı verməsəydi, Ramil də belə olmayacaqdı...

– Neynirsən məni?! – Ramil cavab gözləyən həyat yoldaşına nəhayət ki, cavab verdi.

– Necə yəni, neynirsən? Heç bilirsən nə qədər siqaret çəkmisən? Bayaq bu qutunu mənim yanımda açmısan,

bax, demək olar indi boşdur! Günorta yeməyinin vaxtı da keçib. Aytəkin deyir ki, heç olmasa, bu gün atam evdə olduğu üçün onunla yemək istəyirəm. Onsuz da uşaq son günlərdə çox az yeyir. Çox narahatam buna görə.

– Yaxşı, yaxşı, sən get hazırla, mən siqaret çəkib gəlirəm.

– Süfrə hazırdır... – Nərminə bunu deyib daha cavab gözləmədən getdi. Bilirdi ki, əri ilə söz güləşdirməyə ehtiyac yoxdur. Onsuz da o həmişə öz bildiyini edirdi. Ramil ilə ilk evlilik illərində buna alışmasa da, sonradan necə olmuşdusa, hər şeydə qərar vermək məsələlərini ərinə saxlayırdı. Doğrudur, müsəlman kişisinin özünəməxsus ailəçilik mentalitetini nəzərə alsaq, bunda qəribə heç nə yox idi. Nənələrin dediyi kimi, "kişi nə dedi odur, öl dedi, öl, qal dedi, qal!" olmalı idi. Amma Nərminə etiraf etməli idi ki, son illərdə bu baxımdan ərinə əməlli-başlı müstəqillik vermişdi. Ramilin bu açıq-aşkar üstünlüyü isə həyat yoldaşı Nərminəni qətiyyən narazı, incik salmırdı. Ona ailədə hamı güvənirdi. Uzaqgörənliyi, bacarığı, istedadı, ailəcanlılığı hamı üçün örnək idi. Qohumları onun qohumcanlı olmasından ağızdolusu danışırdılar. Ramil üçün ən həssas olan məsələ Vətən anlayışı idi. Vətən! Məhz beş hərfdən ibarət bu kəlmə haqqında Ramilin günlərlə danışacağı söhbətləri var idi. Bu kəlmə onun üçün namus, qeyrət, vicdan kəlmələri qədər ali idi. Onun bu həssaslığını ailə üzvləri, dostlar, iş yoldaşları hamısı yaxşı bilirdilər. Həmişə bu mövzuda söhbət zamanı diqqətli olmağa çalışırdılar. Müharibənin ağrı-acılarını görmüş, əsir düşməsə də, əsirlik həyatının nə demək olduğunu yaşayanlar qədər bilmiş, cavanlıq illərinin ən əziz xatirəsini – sevgilisi Aytəkini itirmişdi o... Onun beyninin neyronlarından ürəyində hərəkətə gələn qanına qədər hakim olan Vətən kəlməsinin belə müqəddəsləşməsinin səbəblərin-

dən idi bunlar. Dostları torpaqlarımız uğrunda canlarını fəda edəndə, o da onlarla bərabər ölmək istəmiş, məzara girmək istəmişdi. Canı yanmışdı. Amma həmişəki kimi ürəyinin səsinə deyil, beynində düşündüklərini etməyi seçmiş, ağır yaralar alandan sonra da bir az dirçələn kimi döyüşlərin ən ağır olduğu bölgələrə getmişdi. Ölmək üçün yox, məhz öldürmək, qisas almaq, qələbə çalmaq, vətəndaşı olduğu torpağın igid övladlarının mübarizliyini göstərmək üçün hər zaman məğrur dayanmışdı...

***

– Nərminə?! – iş otağına girən Ramilin səsi eşidildi. Sən demə həyat yoldaşı bayaq ondan ayrılıb süfrəni hazırlamaq üçün getsə də, ərinin iş otağına keçəndə bir az oturmaq adı ilə fikirli halda yuxuya dalıbmış. Ramil ona yaxınlaşanda bir neçə saat əvvəl özünün oxuduğu kitabı yoldaşının əlində gördü.

– Bəs, sən süfrə hazırlamağa getmişdin? – Ramil üzündəki təbəssümü gizlətməyib söz atdı. Mən də tələsik gəldim ki, bəs ay aman, yeyib qurtardılar, mənə qalmadı.

– Çox tələsik gəlmisən! – bu dəfə də özünə yenicə gələn Nərminə söz atdı. Hiss etdi ki, ən azı 10-15 dəqiqə ərinin iş kreslosunda beləcə yuxuya dalıbmış. İndi əri onu çağıranda da bunun yuxu olduğunu düşünüb cavab verməmişdi. Yalnız saçlarına toxunan barmaqların nəvazişindən bunun gerçək olduğunu duyub hövlnak ayağa qalxdı.

– Sən Allah, düzünü de, birini deyib neçəsini çəkmisən siqaretin?! – ərinə fürsət verməyib qabaqdangəlmişlik elədi.

– Mən birini çəkib buraya gəldim, amma səni belə görüb oyatmağa qıymadım, inanmırsan?! – Nərminənin sualından sonra ani düşünərək o gedəndən sonra qutudakı

iki, yeni qutudan daha birini çəkdiyini yada saldı.

– İnanan daşa dönsün! – Nərminənin şirin tərzdə dediyi bu sözdən sonra hər ikisi bərkdən gülüşdülər.

– Gəl, gedək – Ramil dilləndi. Görəsən, Aytəkin neyləyir?! Həyat yoldaşının əlindəki kitabı alıb stolun üstünə qoydu. Başa düşdü ki, xanımı onun nəyə görə belə fikirli olmasını anlayıb. Bu qədər anlayışlı olduğu üçün onu bağrına basmaq istəsə də, ürəyindən gələn səs buna imkan vermədi. Daha doğrusu, beyninə hakim çıxa bilmədi. Bir az əvvəl bu beynin bütün sirli aləmi on doqquz il əvvəl itirdiyi Aytəkini xatırlamışdı... Əli gəlmədi yoldaşını qucaqlamağa. Bu qəribə bir hiss idi... Bunu yalnız yaşayanlar bilərdi. Amma Ramil heç vaxt bunu kiməsə arzulamazdı. Bu o qədər ağır idi ki! Kişi mərdliyinə, qüruruna xələl gətirə biləcək qədər dözülməz idi. Bir az duruxsunub, iş otağından çıxmaq üçün qapıya tərəf getdi.

– Ramil!.. – həyat yoldaşının səsindəki həyəcan ona qeyri-adi gəldi. Bu səslənişdə yalvarış, minnətdarlıq, sevgi, bağlılıq, ürək ağrısı... Hər şey var idi. Ramil bunu hiss edə bilmişdi. Nərminənin nə deyəcəyini, yaxud edəcəyini anladı. Bir anlıq onu çağıranın Aytəkin olduğunu da düşündü. Özünü aldatmaq istədi həmin saniyələrdə... Axı, illərdir bu səsi həsrətlə gözləmişdi... Tələbəlik illərinin hər anı ilə xoş dəqiqələrinə, arzularına, niyyətlərinə qərq olmuş pak sevgisini yaşatmaq üçün Aytəkinin əsirinə çevrilmişdi. Həmişə, elə indi də, bu saniyə də elə düşünürdü ki, Aytəkin ölməklə o da ölmüşdü. Əzab çəkməklə o da sınmışdı. Əsir düşməklə o da əsir düşmüşdü. Bu əsirlik erməni əsirliyindən daha sarsıdıcı, dəhşətli və dözülməz idi... Ramilin əsirliyinin yeganə adı sevgi idi. Ümidsiz sevgi...

– Ay can! – sanki Nərminənin onun nə düşündüyünü bilməkdən utanıb tez özünü ələ aldı.

– Mən səni canımdan çox istəyirəm! – qadın bunu deyib onun boynuna sarıldı. Bu, əsl qadın nəvazişi idi. Hansı ki, artıq sözə ehtiyacı yox idi. Ramilin bayaq edə bilmədiyini həyat yoldaşı bacarmışdı. Hər ikisi hallarından məmnunluq hissi ilə bir-birinə sığınmışdılar.

– "Sevgi qarın doyuzdurmur, əzizlərim!" – yarıaçılı vəziyyətdə olan iş otağının qapısını açıb içəri keçən Aytəkinin otağa girməyi ilə bu sözü deməsi bir oldu. Valideynlərini bir-birini qucaqlayan görən qız özünü itirsə də, hazırcavablığından qalmadı. Yadına düşdü ki, qapını döyməmiş içəri girib. Amma qapıya da bağlı demək olmazdı axı! Həm də ki, nə qədər gözləmək olar?! Artıq bütün dərslərini oxuyub bitirmişdi. Sabahkı tədbirə də ciddi formada hazırlaşmışdı. Hətta otağındakı güzgünün qarşısında yarım saata qədər öz-özünə məşq də etmişdi.

– Sizə mane olduğuma görə bağışlayın, amma mən çox acmışam! – Səhvini boynuna almamaq üçün uşaq şıltaqlığı ilə dilləndi. Amma onun bu sözlərində uşaqdan daha çox böyük adamlara məxsus əda, ironiya var idi. Son günlərdə atasının ona hədiyyə etdiyi "Atalar sözləri, aforizmlər və məsəllər" kitabındakı sözlərdən də çox məharətlə istifadə edirdi. Bu bir daha onun istedadlı olmasını göstərirdi.

– Peşman olduq ha, sənə o kitabı almağa. Başımıza bəla oldun müdrik kəlamlarınla, – Ramil bunu deyib, qızını özünə tərəf çəkib boynunu qucaqladı.

Bu dəfə daha da ucadan gülüşdülər. Utandığından yanaqları qızaran Aytəkin də valideynlərinə qoşulub gülməyə başladı.

Bu yanaqların qızartısı Ramilə tanış idi. Həsrət qaldığı həmin yanaqlar... İllər aman vermədən ötmüşdü...

## 14. Köməyə gələn var?!

Martın 9-u idi... Havaların qızmağa doğru getməsi əsən küləyin yumşaqlığından hiss olunurdu. Soyuq əvvəlki kimi adamı göynətmirdi. Günəş isə yalançı pəhləvanlar kimi, sanki "mən də varam" deməyə çıxmışdı. Yerdəki qarlar isə ərimiş, yeri palçığa çevirmişdi. Təbiət, sanki soyuq havada ayağını yorğandan çıxardıb, üşüdüyü üçün yenidən içəri çəkən şıltaq uşağa bənzəyirdi. Günəşin şüaları yerə xeyli uzaq olduğundan adama bir o qədər də təsir etmirdi.

Bu gün ermənilərə nə isə olmuşdu. Bizim hamımıza bir rus adyalı verərək həmin binanın ikinci mərtəbəsinə qaldırıb, ya iki, ya da üç yerə bölərək otaqlara yerləşdirdilər. Çünki bizim otaqda 8 nəfər var idi.

– Əgər kimsə bura gələn adamlara yaşadıqları haqqında nəsə desə, ona qan uddураram. Bu gələnlər bir günlükdür, amma siz burda hələ çox qalacaqsınız, – deyə Vaskanyan yanındakı əsirin başına ironiya ilə sığal çəkdi.

Bizi otaqlara yerləşdirdikdən təqribən iki saat sonra səliqəli geyimdə olan üç kişi, bir də qadın gəldi. Bu Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri idi. Erməni əsgərləri bu gələnləri tam mühasirəyə almışdılar. Danışıqlarından almanlara oxşayırdılar. Hərəmizə bir kağız verdilər və tərcüməçinin vasitəsi ilə dedilər ki, siz kiçik bir məktub yazmalısınız. Bunu deyəndən sonra əsgərlər onları kənara çəkərək, sanki müdaxilə etməklərinin qarşısını alırdılar. Əlavə nəsə danışmağa imkan vermirdilər. Açığı bu gələnlərin də onlardan qorxduğu açıq-aydın hiss olunurdu. Bizim məktub yazmağımıza ermənilər nəzarət etdilər. Onların bilmədiyi dildə – Azərbaycan dilində astadan dedilər əgər kimsə artıq-əskik nəsə yazsa, axşam başlarına oyun açılacaq. Qırmızı Xaçlılar bir də onu de-

dilər ki, məktubun sonunda hansı ünvana getməlidir, onu yazsınlar. Biz məktubu özümüz yazmadıq, sadəcə, xətt bizim oldu. Məktubun məzmununu da ermənilər deyirdi.

*Əzizim, Ramil, mən sağam, hər şey yaxşıdır. Heç narahat olma, burada bizə yaxşı baxırlar. Deyirlər ki, erməni əsirləri ilə dəyişəcəklər. Öpürəm.*
*İmza:  Aytəkin*
*Ünvan: Bakı Dövlət Universiteti Tarix fakültəsi,*
*İbrahimov Ramil, 4-cü kurs tələbəsi.*

Məktubları da ermənilər yığdı. Qırmızı Xaçlılar məktubları almaq istəyəndə Vaskanyanın baxışı ilə geri çəkildilər. Yəqin ki, nə yazıldığını oxuyandan sonra onlara verəcəkdilər.

Məktubları yığandan sonra sarışın, cins şalvar geyinmiş, çiynində fotokamera olan alman xanım tərcüməçiyə nəsə dedi. Tərcüməçi Vaskanyanın üzünə baxdı. Başı ilə tərcümə etməsini işarə etdi. O sual verirdi ki, yeməkləri necədir?

Biz nə cavab verəcəyimizi bilmirdik. Hamı susmuşdu. Çünki ilk 4-5 gün bizə heç nə verməmişdilər yeməyə, sonrakı günlərdə isə gündə bir dəfə çörəyin dörddə birini və yarım stəkan su verirdilər. Bunumu deməliydik onlara? Bundan sonra nə olacağını təsəvvür etmək çox çətin idi. Çünki hər işgəncə əvvəlkindən fərqli olurdu. Onun üçün də nə gözlədiyini düşünə bilmirdik. Hamımız lal-dinməz almanların üzünə baxırdıq. Bizi yenə vəziyyətdən Qədim dayı çıxartdı. "Hər şey yaxşıdır", deyə sakit tərzdə cavab verdi. Almanlar isə vəziyyəti başa düşdükləri üçün heç bir əlavə sual vermədilər. Sadəcə, sonradan bildik ki, bizə isti yemək vermələri üçün Qırmızı Xaçın büdcəsindən pul ayırıb onlara vermişdilər.

Ermənilər də guya ki, buna əməl edirlərmiş kimi bizə gündə bir dəfə bir stəkan isti, qara rəngdə su verirdilər. Dadından qaynadılmış noxud suyuna bənzəyirdi. Bu da onların isti yeməyi idi.

Almanlar gedəndən sonra bizim otaqda bir sevinc hökm sürürdü. Tezliklə qaytarılacağımızı, elimizə dönəcəyimizi düşünürdük. Elə bil hamımız başımıza açılan oyunları unutmuşduq, dünənə qədər "bundan sonra qaytarılmaqdansa, ölməyimiz yaxşıdır" deyənlər işarmaqda olan bu ümidin sevinci ilə yaşayırdılar. İçimizdə olan azadlıq arzusu yaranın altında qaysaqlanırdı.

Mən ünvan yerinə haranı yazacağımı çox düşünmədim. Yazdıqdan sonra "niyə Ramil?"– deyə özümə sual da verdim. Amma cavabım sadəcə "məhəbbət" idi. Sadəcə onun məni qurtara biləcəyini düşünürdüm. İkinci bir tərəfdən ata tərəfdən heç kimim qalmamışdı. İki dayım isə uzaqda, Naxçıvanda idi. Rəsmi ev ünvanlarını da yaxşı bilmirdim. Bir də ki, qədim Azərbaycan torpağı Naxçıvanda da müharibə gedirdi axı. Onların başına heç bir faciə gəlmədiyini hardan biləydim. Hələ girov düşməmişdən Naxçıvanda da şiddətli döyüşlərin getdiyini bilirdim. Və naxçıvanlıların da arasında şayiə var idi ki, vəziyyət gərgin olsa, İrana qaçmaq lazımdır. Bütün bunları düşünəndə görürdüm ki, mən kimsəsizəm. Mənim kimimsə sağ qalmamışdı. Ramil isə mənim yeganə kimsəm idi. Sadəcə ona sığınmaq, ondan kömək gözləmək arzusu var idi.

O anda heç düşünə bilmirdim ki, Ramil məni bütün bu olanlardan sonra, namusu ləkələnmiş, şərəfi tapdalanmış vəziyyətdə qəbul edərdimi? Bu suala cavab axtarmağa belə xəcalət çəkirdim. Axı onun məni qəbul etməsini necə gözləyə bilərdim. Axı o çox qısqanc idi. Bir dəfə məndən Politexnik İnstitutunu soruşan oğlana yolu göstərdiyim

üçün incimişdi də. Düz etmədiyimi dəfələrlə söyləmişdi.

– Axı mən nə edim? Binanın yerini soruşdu, burda nə var axı? – deyə özümü müdafiə etmişdim.

– Deyəydin ki, bilmirəm. Sənsə əldən-ayaqdan gedərək, bilmirdin nə edəsən. Bəlkə, elə aparıb göstərə idin. Kim deyə bilər ki, o sənə yaxınlaşmaq üçün etmirdi bunu. Utanmaz oğlu bu qədər adamı qoyub səndən niyə soruşur?

– Mənim yerimə sən olsa idin, bir qız səndən soruşsaydı, nə cavab verərdin? – deyə sual vermişdim.

– O başqa, bu başqa, – deyə cavab vermişdi.

O vaxt Ramilə hirslənməmişdim. Bu hərəkəti nə qədər xoş olmasa da, qısqandığı üçün daxilən sevinmişdim də. Bir qadın kimi çox xoşuma gəlmişdi. Amma Ramilin hərəkəti yeniyetmə bir uşağı xatırladırdı. Mənim dodaqaltı gülümsünməyimi görüb o da yumşalmışdı.

– Bir də belə şey eləmə. Bilirsən ki, xoşuma gəlmir.

– Yaxşı, – deyə sakitcə cavab verdim. Mövzunun bağlanmasını mən də istəyirdim. Bu hiss yalnız şərqli qadınlara məxsus idi. Bunu yalnız biz azərbaycanlı qadınlar edərdik. Bu bir türk qızının sevdiyinə qarşı sədaqəti, inamı idi. Halbuki, avropalılar bunu insan hüquqlarının pozulması adlandırırdı...

Bu cür qısqanc bir kişi mənim başıma açılan oyunlara necə dözərdi?! O, çox qürurlu oğlan idi. Məncə, o, bunları eşitsə idi, ya məni öldürməli idi, ya özünü, ya da ermənilərin üstünə gedib qisas almalı idi. Bircə kəlmə desə idi, “bəs niyə yaşadın?” bu mənə bəs edərdi. Mənim niyə yaşadığımı isə sübut etmək cəhdi o qədər də asan olmayacaqdı. Mən bunların heç birinə razı olmazdım. “Birdən məni qaytardılar?” – sualı məni narahat etdiyi üçün özümü məzəmmət edirdim.

Qədim dayı ziyalı adam olduğu üçün Qırmızı Xaç cə-

miyyəti haqqında çox şey bilirdi. Onların gəlməsi, bizim qurtulmağımız deməkdir, – deyir və buna əminliklə inanırdı. Hətta bizə təsəlli üçün, işgəncələrə səbirlə dözməyi də məsləhət görürdü. Sakit olmağa, əzmli olmağa çağırırdı. İntihar etmək istəyənləri isə bu işdən çəkinməyə çağırırdı. Bunun Qurana da zidd olduğunu deyirdi. Amma bizə söz verirdi ki, əsirlikdən qurtaran kimi, hamımızın qisasını alacaqdı. Necə ki, Əsgəranda ermənilərin başına oyun açmış, onlara qan uddurmuşdu. Bu gördüklərini isə heç vaxt unutmayacağına söz vermişdi. O qədər nurani insan idi ki, o danışanda hər şeyi unudurduq, heç bir iyrənc xatirə yadımıza düşmürdü. Bəlkə də, bizim yanımızda olmasa idi, əksəriyyətimiz ən azından intihar etməyə cəhd etmişdik. O, türk mentalitetinə yaxından bələd idi. Buna görə də özü onun əksinə hərəkət edirdi bəzən. Deyirdi ki, çılğın davranıb nə edəcəyik? Ən yaxşı halda kiməsə bir şillə atarıq, yumruq vurarıq, özümüzü öldürərik. Amma burdan sağ çıxıb yenidən bunlara bəla olmaq lazımdır. Qisas üçün yaşamağımız lazımdır. Silah götürüb döyüşərsiniz. Orduya xidmət edərsiniz. Ölüm hər şeyin həlli demək deyil. Tək ölməkdənsə, bir erməni belə öldürüb ölmək daha yaxşıdır, – deyirdi.

Axşamları ermənilərin əyləncəsinə çevrilir, səhərləri ağrılardan, əzabdan birtəhər durur, yenə də axşamı gözləyirdik. Deyəsən, hər şeyin dərmanı olan zaman bizi də alışdırırdı. Əyyaş erməni zabitlərinin hər gecəki qiyaməti bizi gün-gündən məhv edirdi. Qonşu otaqlarda döyülən azərbaycanlıların səsindən kim olduqlarını müəyyənləşdirir, bizim otağa nə vaxt gələcəklərini gözləyirdik. Dörd divarı olan otaqda gizlənməyə də yer tapa bilmirdik. Gecənin düşdüyünü, səhərin açıldığını barmaq boyda olan dəmir barmaqlıqdan müəyyənləşdirirdik. Otaq daima ala-qaranlıq olurdu. Gecələr isə işıq olmadığından zülmət

içində olurduq. Bu zülmət məni illərlə ağuşuna alacaq, gizlədəcək, uçurumlardan uçurumlara aparacaqdı...

## 15. Qaranlıqdakı şahid

– Ramil müəllim, arxayın olun, onsuz da dərsim bitmişdi, – Tofiq müəllim auditoriyaya girməmiş bu sözləri deyib təbəssümlə içəri keçdi.

Məktəbdə qızının tədbirində olmaq üçün Ramil özü dostundan onun seminar dərsini bu günlük əvəz etməsini istəmişdi. İndi bir daha saatına baxıb pilləkənlərlə aşağı endi. Deyəsən, gecikirdi.

***

Görəsən, necə olacaq?! Aytəkinim yaxşı danışa biləcəkmi?! Özünü itirsə, heç yaxşı olmayacaq. Qızının da özü kimi belə məsələlərdə həssas olduğunu xatırlayıb bir anlıq kövrəldi. Ətrafdakı insanların diqqət obyekti olmamaq üçün üzünü yana – avtobusun bayıra baxan şüşəsinə tərəf çevirdi. İctimai nəqliyyatdan da istifadə etmək son dövrlər  onu çox sıxırdı. Sükan arxasına oturmağa icazə vermədiyinə görə həmişə həkimini qınasa da, onun haqlı olduğunu da inkar etmirdi. Çünki öz maşınını sürərkən fikirli olduğundan dəfələrlə pis vəziyyətlərdə qalmışdı. Hətta keçən il az qalsın maşınla adam da vuracaqdı. Bundan sonra bir müddət avtomobil idarə etməməyi özünə söz verdiyinə görə maşınını da satdı. İndi də avtobusda, metroda olarkən gördüklərinə göz yuma bilmir, daxilən əsəbiləşib sarsıntı keçirirdi.

Gözləri yolboyu yüksək sürətlə şütüyən maşınlara baxsa da, fikirləri yenə də naməlum yerlərdə cərəyan

edirdi. Arabir maşınlar arasında tələsik yolu keçən insan da onun diqqətini cəlb edirdi. Bu insanları onunla eyni avtobusda oturub sərnişinlik edən digərləri ilə müqayisə də edirdi. Amma bu çox az çəkirdi. Yenə də öz fikirlərinə qayıdırdı. İnsanların nəyə görə belə cılızlaşdığı onu indi daha çox yorur, sanki sonsuza qədər davam edəcək mübahisəli müqayisələr burulğanına sürükləyirdi. Uşaqlar isə bunların içərisində yeganə pak varlıqlar idi. Məhz onlar hər şeyi görür, böyüklərinin "ibrətamiz məsləhətlərinə" qulaq asır və bunlarla oturub-dururdular. Hərdən bu məsləhətlərə gülənlər, inanmayanlar, qulaqardına vuranlar da tapılırdı. Bu, uşaqları əyləndirmək üçün özünü gülünc vəziyyətə salan klounun halına bənzəyirdi. Uşaqları əyləndirmək istəsə də, uşaqlar ondan qorxur, ağlayaraq, sanki ustalıqla maskalanaraq gizlədilməyə çalışılan əsl simanı ətrafda olan "böyüklərə" çatdırmağa çalışırdılar.

– Düşən var "astanovkada"? – 13-14 yaşlı yeniyetmənin ciyiltili səsi onu fikirlərindən ayırdı. Məktəbin qarşısındakı dayanacağa çatmışdı. Əlindəki manatlığı özünü "konduktor" adlandıran bu uşağa uzatdı.

– Xırda yoxdur, ay dayı?! – üz-gözündən sırtıqlıq yağan oğlan dilləndi. Hiss olunurdu ki, məktəbəzada getməyib səfil həyatı keçirir. Köhnə yarımqol köynəyinin döş cibindən görünən ucuz siqaret də bundan xəbər verirdi.

– Yaxşı, düş get, düş get!.. Mənim də xırdam yoxdur, – uşaq Ramil müəllimin cavab vermədiyini görüb əda ilə dilləndi.

– Sən də rədd ol da, haradan peyda oldun?! – oğlan bunu deyib dilənmək üçün avtobusun açıq qapısından içəri soxulmaq istəyən dilənçi oğlana var gücü ilə təpik vurdu.

– Qoy itilsin cəhənnəmə, məni işə salma, – avtobus sürücüsünün amiranə səsi eşidildi.

– Lazım dayı, bunu əvvəllər görməmişdim, deyəsən, təzə gətiriblər, – konduktor oğlan indicə təpiklə vurduğu dilənçi oğlana işarə etdi.

– Hə, Allah bilsin kimin itidir! – sürücü həvəssiz dillənib müştərilərin yol haqqı olaraq köhnə peçenye qutusuna atdığı pulları sahmanlamağa başladı.

– Ay, oğul, o fağırı niyə vurdun?! Görmürsən ruhi xəstədir! – arxa oturacaqda əyləşən qoca qadının səsi eşidildi.

– Sən də sakit ol, ay nənə, sənə nə var e?! Sən onu tanımırsan, oğrunun biridir!

Oğlan tanımadığı dilənçi oğlan haqqında mühakimə yürüdüb vəziy`yətdən çıxmaq istədi.

– At getdik! Üç dəqiqə oldu, – dayanacaqda durma vaxtının tamam olduğunu işarə edən sürücü köməkçisinə dilləndi.

– Hələ yarım dəqiqə qalıb, ay Lazım dayı, niyə tələsirik e? – təzə yandırdığı ucuz siqaretini həvəslə sümürən yeniyetmə konduktor vaxtı uzatmaq istədi. Amma vurduğu dilənçi oğlanın hələ də yerdən qalxmadığını görüb bərk qorxmuşdu. On səkkiz-iyirmi yaşlarında olan bu dilənçiyə bədəncə cılız və zəif göründüyünə görə, əslində daha az yaş vermək olardı. Amma tük basmış sifəti bunu demirdi. Nəhayət ki, özünə gəlib ayağa qalxaraq konduktorun sifətinə acıqla baxdı, sonra isə yenidən dayanacağın arxasındakı yerinə qayıtdı.

– Sür getdik e! – onun özünə gəldiyini görən yeniyetmə deyəsən, özü də onunla bərabər qurtulmuşdu. Hətta yarıya qədər çəkmədiyi siqaretini da atıb sürücüsünə göstəriş verdi.

– Hə, "malış", deyəsən, özünə gəldin axı sən də, – sürücü Lazım da ona söz atıb avtobusu hərəkətə gətirdi.

***

Ramil məktəbin darvazasına çatanda ayaq saxlayıb geri döndü. Bütün diqqəti ilə bayaqkı dilənçi oğlanı axtarırdı. Avtobusdan düşəndən sonra həmin oğlanı dayanacağın arxasında oturan görsə də, indi o, orada deyildi. Siqaret yandırıb bir az aralıdakı sakit bir yerdə dayanmaq istəyirdi ki, telefonuna zəng gəldi. Nömrə tanış gəlsə də, ekranda hansısa ad çıxmadı:

– Bəli! – tərəddüdlə telefonu qulağına apardı.

– Salam, ata, mənəm! Bəs gəlmirsən, tədbirimiz indi başlayır axı!

– Çatmışam, qızım, narahat olma – yadına düşdü ki, bu Aytəkinin müəllimәsi Gülər xanımın nömrəsi idi. Keçən dəfə də zəng etmişdi. Yəqin ki, Aytəkinin həyəcanlandığını görüb özü zəng edib ki, onunla danışıb səsini eşidə bilsin. İndi hiss etdi ki, qızının səsində, həqiqətən də, həyəcan var idi. Axı birinci dəfə idi ki, belə bir tədbirdə aparıcılıq edəcəkdi. Əlindəki yarımçıq siqareti zibil qutusuna atıb darvazaya tərəf getdi. Və yalnız darvazadan içəri keçib sağa – məktəbə tərəf dönmək istəyəndə ani olaraq bayırdakı həmin dilənçi oğlanı gördü. Üst-başından çirkab tökülən bu adamın bir az əvvəl onun zibilqabıya atdığı siqareti götürüb damağına qoyduğunu gördü. Dilənçi bunu o qədər cəld etdi ki, sanki insanların onun bu hərəkətini görməyəcəyinə əmin idi. Necə olsa, onun da özünə görə qüruru var idi. Amma ətrafdakı "canlı ölülər" buna laqeyd və biganə yanaşırdılar. Hətta o, zibilqabını ələk-vələk eləsəydi də, çoxlarının ona yazığı gəlməyəcəkdi. Halbuki, o, dünəndən həsrət qaldığı bircə bütöv, heç olmazsa, yarı siqaret axtarırdı həmin zibilqabıda. Və ətrafda olan çoxlarından fərqli olaraq onun qüruru var idi. Bayaq onu təpiklə vuran konduktor oğlanın, demək olar ki, bütöv atdığı siqaretinə da əl uzatmamışdı buna görə...

## 16. Erməni məhəbbəti

– Sənin adın nədir?
– Əli.
– Soyadın nədir?
– Qurbanov.

Jor üzünü qapıçıya tutub: “Bu oğlanı istəyirəm”,– dedi.

– Kişilərin qiyməti bahadır. Gərək bir az da artıq verəsən, – deyən qapıçıya:

– Kəs səsini, boş-boş danışma. Baha olduğu üçün yüzlərlə kişini öldürüb çayın qırağında çalaya basdırdınız?! Mən bilirəm, kim bahadı, kim ucuzdu. Bu dəqiqə sizə türk qızı lazımdır. Öz arvadlarınızın da işini başqaları görsün. Onların kişiləri sizin qadınlarınızı öz istəkləri ilə yatağa salsın, siz isə, əlinizə fürsət düşmüşkən onları zorlayın. Heç indiyə qədər görmüsüz ki, bir türk qızı erməni arvadı və aşnası olsun. Yox, görə bilməzsiz. Amma erməni qızları həmişə azərbaycanlı kişisinin qarşısında təslim olub. Minlərlə erməni qadını var ki, bu gün də Azərbaycanda ərinin yanındadır. Bizim bu cür olmağımızı da liderləriniz etdi. Böyük Ermənistan xülyası üçün.... Elə generallarımız oldu ki, öz arvadlarını belə, türk yatağına saldı. Biz də onların kişiliyini gördük, həzzindən doya bilmədik. Pis öyrəndik. İndi gəlmisiniz mənə qiymət oxuyursunuz: “Kişilər bahadı...”

– Mən kiməm ki, mənə belə dedilər, mən də dedim də. Ay Jor, nə mənim üstümə düşmüsən?

– Kim deyib sənə, o psixopat Vaskanyan? Qələt edir. Mən Safaryana beş min dollar pul saymışam. Oğlumu qaytarmaq üçün oğul verməliyəm. Bu uşağın adını mənə veriblər. Bunu sağ çıxara bilsəm, ömürlük həbs cəzasına məhkum olunmuş oğlumu qaytaracaqlar. Onlardan bir hərbçi var, onunla danışmışam, pulunu da vermişəm. Və-

ziyyətin qarışıqlığından istifadə edib oğlumu türmədən çıxaracaqlar. Azərbaycanlılara da ayrıca pul vermişəm. Bu uşağın da dayısı ona pul verib, qaytarmaq üçün. O puldan Safaryana da çatır. Heç nədən sizə pul qazandırıram, indi mənə gəliş gəlmək istəyirsiz? Başınıza oyun açaram, deyəsən, məni tanımırsınız?

– Hanı e? Bizə bir şey çatır ki, evlərdən nə götürdük, odur. Başqa heç nə vermirlər. Mən də bilirəm ki, əsirlərin hamısını satırlar. Safaryan və Vaskanyan sadəcə əmr verməyi bacarır. Mənə dəxli yoxdur, Vaskanyana de, kimi istəyirsən apar.

Döşlərinin arasından yüz dollar çıxararaq qapıçının cibinə basıb:

– Daha çox danışma, uşağı endir aşağıya, maşında gözləyirəm, Vaskanyanına da deyərsən ki, Jor belə istədi, – deyib iri addımlarla ləngər vura-vura qapıdan çıxdı.

Bu Jor adlanan kişi cüssəli, hündürboylu, yaşına uyğun olmayan makiyajlı, kök qadın Qarabağda yuxarılarla əlaqəsi olan qadınlardan idi. İki dəfə ərə getmişdi. Birinci əri erməni, ikinci əri azərbaycanlı idi. Çox qətiyyətli qadına bənzəyirdi. Dili var idisə, dilçəyi də var idi.

O, Qədim dayını tanımasa da, Qədim dayı onu yaxşı tanıyırdı. Onun bir çox kişidən qeyrətli olduğunu da deyirdi.

Qapıçı oğlanı qolundan tutaraq çıxarmaq istəsə də, 14 yaşlı Əli getmək istəmirdi. İri qara gözlərində yeniyetməliyə xas hərəkətlilik olan Əli yenicə qanad açmaq istəyən qartal balasına bənzəyirdi. Zəif, cılız bədənə sahib olmasına baxmayaraq, gözlərində təlatüm, böyük bir fırtınanı rahatca sezmək olurdu.

Yenə Qədim dayı onun dadına çatdı. Dedi: – Oğul, qorxma get, səni dəyişdirəcəklər. Mən erməni dilini yaxşı bilirəm axı, nə danışdıqlarını da yaxşı eşitdim. Arvad

öz oğlu ilə səni dəyişdirmək istəyir. Dayın kimdisə, səni qaytarmaq üçün çoxlu pul verib. Qorxma, get.

Uşaq, sanki bizdən ayrılmaq istəmirdi. O qədər dəhşət görmüşdü ki, buna da inana bilmirdi.

– Düz deyirsən, Qədim dayı, məni öldürməzlər ki?

Yaş dolu gözlərlə Qədim dayını qucaqladı. Bu mərhəmətli kişi uşağı dartmaq istəyən erməniyə tərs-tərs baxaraq, dizlərini yerə qoydu və onu öpdü:

– Qorxma, bala, mənə inan. Burda da nə görmüsən, kimlər yadındadır qaytarılanda hamısını danışarsan.

Uşaq başı ilə razılığını bildirib, son dəfə bizə baxdı və getdi...

***

Bu hadisədən təqribən iyirmi gün keçmişdi. Qədim dayıya hörməti olan qapıçı Veneks fürsət düşən kimi, Əli haqqında ona danışırdı. Deyirdi ki, uşağın vəziyyəti əladır. Jor ona yaman baxır. Uşaq elə kökəlib ki, gəl görəsən. Hətta onu işlətmir də. Bunun da səbəbi Jorun yeganə oğluna olan sevgisidir. İndi evində gəlini ilə birgə yaşayır. Oğlu nə qədər avara olsa da, anası onu çox istəyir. Uşaqdan oğlunun iyini alır. Hətta hərdən uşağa deyirdi ki, əgər oğlum qaytarılmasa, səni burda saxlayacağam. Gəlinimlə evləndirəcəyəm. Amma onu da deyirdi ki, əgər oğlumun qolu olmasa, qolunu kəsəcəyəm, gözü olmasa, gözünü çıxardacağam. Əli kefdədir, narahat olma, Qədim kişi, bir sözlə, onun vəziyyəti cənnətdəki kimidir. Jorun oğlunu gətirirlər Bakıdan. Bu gün axşam onu dəyişəcəklər. Jor mənə bir qonaqlıq da söz verib. O, vəzifəlilərlə əlaqəli qadındır. Həm də sözü keçən arvaddır.

Veneksin Qədim dayıya olan bu cür isti münasibətinin səbəbi Qədim dayının ona etdiyi kiçik bir yaxşılıq olmuşdu. Qədim dayı deyirdi ki, bir dəfə atasının qəbrini götür-

mək üçün ona iki kisə sement verib. Əlində olan imkandan istifadə edən bu nurani kişi ondan həmin sementin pulunu da almayıb. O, hərdən Qədim dayıya evdən çörək də gətirirdi. Qədim dayı elə bunlara görə də pessimist ola bilmirdi. Ermənilərin içində yaxşıları olduğunu dəfələrlə görmüş, bunun üçün də "insan övladının hamısının qəlbinə şeytan hakim deyil", – deyə bizi inandırmağa çalışırdı.

Amma Qədim dayı bizim nə çəkdiyimizi, nələr gördüyümüzü görməmişdi. Sözün əsl mənasında biz ölüb-dirilirdik. Əslində bu sözü Azərbaycanda bu vəziyyətlər üçün istifadə etmirlər. Bu sözün çox böyük hikməti var. Mən onu ölüb-dirildikcə başa düşürdüm...

"Öldüm-dirildim" ifadəsinə ikrah hissi ilə yanaşanları qınayıram... İnsan ölüb-dirilə bilərmiş... Allah indiyə qədər ölən heç kimə canını bəxşiş etmədi, amma ermənilər bunu bir gündə bir-neçə dəfə bacardı... Hər gün ölmək həsrəti ilə yaşamaq, yaşamaq arzusu ilə bizi nə vaxt dəyişdirəcəkləri həsrəti ilə çırpınmaq... Bunu heç kimə arzu etməzdim...

***

Axşam bizə isti yemək adlandırdıqları noxud suyu verəndə Qədim dayı Veneksdən uşağın taleyini soruşdu. Veneks hirsləndi:

– Sizinkilər də düz adam deyil ha. Bilirsən nə oldu? Bilirsən ki, illərdir həsrətini çəkdiyi oğul dağını yaşatdılar Jora. Bu vəhşilikdir. ...

Əlini də Jor öldürdü. Bilirsən niyə, çünki oğlunun meyitini gətirmişdilər. Jor canavara dönmüşdü. Oğlunu itirən ana necə olmalıdır, o qədər həvəslə gözlədiyi oğlunun meyitinin gətirildiyini biləndə? Elə sərhəddə onu

öldürdü. Düz elədi də. Sevə-sevə uşağa baxırdı. O demişdi axı, oğlumu necə versələr, bunu da elə qaytaracağam.

– Qədim kişi, bu, alçaqlıqdır. Siz də özünüzü yaxşı hesab etməyin. Nə edirlər, azdır. İmkanım olsaydı, sizin hamınızı da mən qırardım. Biz zalımıqsa, bəs siz nəsiniz? Siz bizdən də geri qalmırsınız. O arvada bunu etmək olardı? Yazıq o cür ki uşağa baxmışdı. O cür ki ümidlə yaşayırdı. Ümidini baltaladınız. Adını da qoydular avariya olub. Buna kim inanar? İnanarsan, Qədim kişi? Axı səni yaxşı adam bilirəm, sən inanarsan? Veneks qapını dili qurumuş Qədim kişinin üzünə çırpıb "gəbərin", – deyərək getdi.

Qədim dayı başını tutdu. Dizi üstə yerə çokdü. Bu çöküş, sanki bir dağ çöküşü idi. O, bunları bizə ağlaya-ağlaya tərcümə etdi. O kişi ki o qədər əzaba dözmüşdü, dost dediyi insandan zərbə almışdı, qadınları-qızları ləkələnmişdi – ağlamamışdı, kiçilməmişdi.

Kimi günahlandıracağını bilmirdi. Əliyə nə qədər acıyırdısa, Jorun da vəziyyətinə elə yanırdı. Bunu hər dəfə yazıq Əli deyəndə, yazıq Jor da deməsi göstərirdi. Sanki uşağa verdiyi sözü o tuta bilməmişdi. Yazıq Əli... deyib bir küncə çəkildi. Başını tutdu. Həmişə bizə dayaq olan, qeydimizə qalan, cüssəli, hündür Qədim dayıdan əsər-əlamət qalmamışdı. Dərdlinin dərdini dərdli bilər. Biz onu başa düşürdük. Hətta biz Əli qədər Jorun da halına yanırdıq. Başımıza oyunlar açan millətin nümayəndəsinin halına yanırdıq. Bu isə insanın faciəsinə yanmaq demək idi, millətin yox. Alçağın, oğraşın, şərəfsizin milləti olmadığı kimi, mərhəmətin, ürək ağrısının, sevginin də milləti yoxdur. Sadəcə vəhşilik var. Bu isə bəzi xalqlarda daha böyükdür....

Söz tapa bilmirdik deməyə. O qədər ölümün içərisində Əlinin bu cür faciəli ölümü bizə daha pis təsir etmişdi.

Beş qadın, bir də Qədim dayı olan bu dörd divar ara-

sında bütün olanlar unudulmuş, bütün işgəncələr yaddan çıxmış, sadəcə, Əliyə yas tutulmuşdu. Heç axşam bizi hansı kef məclisinə, hansı seks oyunlarına aparılacağımız da maraqlandırmırdı. Heç səhər nələrin baş verəcəyi də. Hansı qisas proseslərinin başlanacağı da bizi qorxutmurdu. Bu zaman heç nəyə ümid də etmirdik. "Görəsən, məktublarımız ünvana çatdımı" – deyə fikirlər də irəli sürmür, təxəyüllümüzdə yaratdığımız "almanların yaxşı adama oxşadıqları mifi" də unudulmuşdu...

İnsan qəribə varlıqdır.... Bunları mənə kimsə danışsa idi, ya da hansısa kitabdan oxusa idim, inanmazdım. Uydurmadı, oxucunu həyəcanlandırmaq üçün yazılıb deyərdim. Ona görə yox ki bunlar ola bilməz, on görə ki, bunları kimsə gözü ilə görüb, yaşayıb. Bax bu fikrə inanmazdım. Axı az görməmiş, eşitməmişik ki, oğlunun ölüm xəbərin eşidən ananın ürəyi partladı, 20 Yanvar faciəsini kadrlardan izləyən neçə-neçə insan infarkt keçirtdi. Nədənsə mən və mənim kimilər yaşayırdı və görürdü. Hətta hər keçən gün dünənkini unutdururdu da. Deyəsən, bizi yaşadan, bizə məlhəm olan, dərdi unutduran yeni gördüklərimiz idi. Necə ilan vuranı ilan zəhəri ilə sağaldırlar, bizi də yeni faciə ilə müalicə edirdilər. Daha özümə "günahım nə idi?!" sualını da vermək mənasızlaşırdı. Bəlkə də, günah etmək üçün yaşayırdım, yaşadılırdım. Tanrı da bizim günahlar etməyimizə ümid edirdi. O da müəyyən ümidlərin izi ilə kainatı idarə edirdi. O, hansı ümidlərdi? Bunu yalnız Allah bilirdi... Biz isə qurulmuş ssenarini oynayan oyunçular idik... Rolumuzu məharətlə oynayırdıq... Lap belə onun istədiyi kimi... Axı nə baş verirversin, intiharı rədd edirdi O...

## 17. Müəmmalı hadisə

– Ara, bu türklərin qanını içmək lazımdır!

– Mən qamaz-qamaz bu türklərin canını alacam, sən də içərsən tələsmə ara, tələsmə.

Tatatatatat, ta, ta, ta!.. (avtomat səsi eşidilir)

– Ara, qaçın, deyəsən, türklərdir!

– Areni vurdular! Tez gəlin, qaçıb canımızı qurtaraq!

– Qaçmayın, qaniçənlər, qaçmayın! Hamınızı qırıb cəhənnəmə göndərəcəm!

Tatatatatat, tatatatat, tatatatat!.. Avtomat səsləri daha yaxınlıqdan eşidilir. İndi artıq sükutu yalnız havada sürətlə hərəkət edən mərmilərin atıldığı avtomatın səsi pozur. Qəhrəman kəşfiyyatçı qorxmadan irəliyə doğru şığıyır. Onun bir amalı vardır – kəndə soxulan erməniləri öldürmək!..

Səhnədəki məktəblilər Xocalı faciəsinin həmin dəhşətli anlarını tədbir iştirakçılarına çatdırmaq üçün hazırladıqları səhnəciyi bacardıqları qədər yaxşı canlandırmağa çalışmışdılar. Zalda oturanlar sükut içərisində səbirsizliklə bu səhnəciyin nə ilə bitəcəyini gözləyirdilər. Nəhayət ki, qısa işıqlandırılmış bu döyüş səhnəsi bitdi. Bu dəfə qalib biz idik – azərbaycanlılar! Deyəsən, tamaşaçıların da böyük əksəriyyəti bundan razı qalmışdı. Amma nədənsə dodaqlarını büzənlər də var idi. Bəlkə, onlar daha haqlı idilər. Bəlkə, o birilər heç, ümumiyyətlə, haqlı deyildilər... Hər halda məktəbin yetmiş iki yaşlı qocaman fiziki Hüseyn müəllim səhnəcik bitər-bitməz ayağa qalxıb zalı tərk edəndə son sözü bu olmuşdu:

– Biz həmişə sözdə, kinolarda, mahnılarda qalib gəlirik onsuz da!..

Amma tədbir iştirakçılarının çoxu bu səhnəcikdən təsirlənmişdi. Hətta bir həftəyə qədərdir ki, uşaqları bu təd-

birə hazırlaşdıran Gülər müəllimə göz yaşlarını saxlaya bilməmişdi.

Tədbir isə hələ davam edirdi. Bu dəfə Aytəkin şeir demək üçün öz sinif yoldaşlarını dəvət etdi. Artıq həyəcanı da keçmişdi. Arabir birinci sırada əyləşən atasına nəzər salır, daha da inamlı olmağa çalışırdı. Yəqin ki, tədbir bitəndən sonra atasına yaxınlaşacaq və ilk sualı da "ata, bəyəndin?" olacaqdı...

Ramil isə tədbirin ta ilk dəqiqələrindən o illərə qayıtmışdı... Cismi, özü burada olsa da, gözləri səhnədəki qızına baxsa da, ruhən indi o, həmin illərə qayıtmışdı...

***

1992-ci il... Martın 6-sı... Arzu ilə başladığı ali təhsilini yarımçıq qoyub birbaşa döyüş bölgəsinə getdi həmin gün. Azərbaycan özünün ən ağır illərini yaşayırdı həmin illərdə. Ən adi vətəndaşından tutmuş ziyalısına qədər hər kəs bu qırğının nə vaxt bitəcəyini gözləyirdi. Bacaranlar əlindən gələni edir, silaha sarılıb döyüşlərə gedirdilər. Amma təəssüf ki, bacardığı işi etməyənlər də az deyildi...

Həmin gün Aytəkin ilə gəzib-dolaşdığı bütün yerlərə getmiş, kəlmeyi-şəhadətini dilə gətirən müsəlmanlar kimi son dəfə öz-özünə pıçıldamışdı da – "Səni tapacağam, and içirəm, qisasını alacağam... Aytəkin!" Sonra isə vidalaşmaq üçün evlərinə – ata-anasının, bacısının yanına dönmüşdü. O, sonralar bu vida mərasimini dəfələrlə xatırlamışdı. Xüsusilə bacısının onun ayaqlarına düşüb yalvarması hər yadına düşəndə ürək ağrısı keçirirdi:

– Ramil, qurbanın olum, bizi qoyub getmə. Bəs biz sənsiz necə dözərik, hə?!

– Nuranə, qalx ayağa, sən uşaq deyilsən ki, niyə məni getməyə qoymursan? Öləndə öləcəyik, hər gün tabutu

gələn şəhidlərdən artığıq biz?! Onların bacıları bacı deyil?!

– Axı sən tək oğulsan, mənim, atamızın, anamızın yeganə ümid yerisən. Bacın sənə qurban olsun, heç olmasa bir ay gözlə, sonra istəsən gedərsən...

– "Aslanın erkəyi, dişisi olmaz", – bunu həmişə sən mənə deyirdin. İndi nəyə görə təkcə mən valideynlərimin ümid yeri oluram?! – bunu deyib bacısını sakitləşdirmək üçün boynunu qucaqlayıb zarafat etdi.

Maraqlı idi ki, Səmayə xanım oğlunun döyüşə getməməsi üçün çox da yalvar-yaxar etmirdi. Bəlkə də, onun tərsliyinə bələd olduğu üçün susurdu. Amma onun nigaran baxışlarında daha çox qürur hissi görmək olurdu. Yeganə oğul övladının vətən uğrunda döyüşə getməsinə dözə bilməsə də, bunu ona bəlli etmək istəmirdi. Bilirdi ki, Ramil deyibsə, gedəcək. Onu yolundan heç kəs saxlaya bilməz. Qorxurdu ki, narahatçılığını, ürək ağrısını oğlu anlasa, fikri onda qalacaq, soyuq səngərdə yağı düşmənə tab gətirməyəcək. Odur ki, özünü tox tutmağa çalışırdı.

– Ay ana, qurbanın olum, barı sən dillən!.. – Nuranə əlacsız halda bu dəfə də ona üz tutdu.

Qadın isə heç bir söz demədən qızının saçlarını oxşayır, onu ovundurmağa çalışırdı. Nəhayət, onun sakit olmayacağını görüb məzəmmətlə dilləndi:

– Ay qızım, bəs mən sənə uşaqlıqdan öyrətməmişəm ki, yola gedənin arxasınca ağlamazlar?

Bu sözlər məzəmmətlə səslənsə də, danlamaq üçün deyilməmişdi.

– Bundansa, çay gətir qardaşın üçün, bir azdan gedəcək axı.

Səmayənin son sözləri qızını sakitləşdirmişdi. Hiss olunurdu ki, "yola gedənin arxasınca ağlamazlar" məsələsi onun halına əməlli-başlı təsir etmişdi. Odur ki, başını aşa-

ğı salıb qardaşına çay gətirmək üçün evə tərəf getdi...

***

– Necəsiniz, Ramil müəllim? – bayaqdan bəri səhnədə şagirdlərinin yanında dayanan Gülər müəllimə indi onun qarşısında dikilmişdi. Tədbir də elə indi bitmişdi. Bunu Ramil səhnəyə ani nəzər salanda hiss etdi. Hələ ki qızı da orada idi.

– Salam Gülər xanım! – ani tərəddüddən sonra ayağa qalxıb qadınla salamlaşdı. – Belə tədbirə görə sizə minnətdarıq!

– Borcumuzdur, Ramil müəllim. Biz sizin kimi qəhrəman döyüşçülərin şücaətləri qədər olmasa da, çalışırıq ki, əlimizdən gələni edək.

– Bir daha təşəkkür edirəm. Əmin olun ki, şagirdləriniz sizinlə fəxr edir, – Ramil bunu deyib sağollaşdı. Qızı artıq gəlib onun əlindən tutmuşdu.

– Ata, evə gedirik?

– Hə, qızım, gedək.

Ata-bala hər ikisi məktəbin qarşısına çıxıb dayanacağa yaxınlaşdılar. Ramil bayaqkından fərqli olaraq, fikirlərində daha aydın və rahat idi. Bəlkə də, indi onun əlindən bərk-bərk tutan sevimli qızının təsirindən idi ki, özünü çox yaxşı hiss edirdi. Siqaret yandırmaq istəyəndə tədbirdən əvvəl məktəbin qarşısındakı dayanacaqda gördüyü dilənçi oğlanı xatırladı. Bayaq tələssə də, düşünmüşdü ki, çıxanda ona siqaret alıb versin. Qızına hiss etdirmədən baxışları ilə onu axtardı. O isə gözə dəymirdi. Yəqin gedib... Ola bilsin ki, sabah da siqaret tapmayacaq çəkməyə...

Həmişə çoxlu suallar verən qızının indi susduğunu görüb ona nəzər saldı. Aytəkinin isə gözləri kimisə axtarırdı.

– Qızım, kimə baxırsan belə maraqla?

– Bayaq burada bir dilənçi var idi. Gəlib-gedəndən siqaret istəyirdi. Amma heç kim ona bir dənə olsun vermədi. Hətta yoldan keçən uşaqlar onu ələ salırdılar. Onu sənə göstərmək istəyirəm ki, siqaret verəsən, yazıqdır...

– Yəqin gedib... – Ramil indilərdə daxili bir heyrət hissi keçirirdi. Hətta o, dilənçinin nəyə görə onların diqqətini belə çox çəkməsi sualına da cavab tapmaq istəyirdi.

– Heyf... – deyərək qız da atası kimi susdu. İndi hər ikisi yaşı on səkkiz – iyirmi arası olan həmin dilənçi oğlan haqqında düşünürdülər.

## 18. Qara qarğa

Aprelin 12-si idi... Təbiət oyanmışdı. Dörd divarlı məhkum məntəqəsinin pəncərəsinin olmaması indi adama daha xoş gəlirdi. Çünki qışın çovğunu kiçik deşiklərdən elə hiss olunurdu ki, elə bil Şimalda iki böyük dağın arasında idik. O balaca deşiklərdən gələn külək, sanki sümüyümüzə işləyirdi. Adyala bürünüb, bir-birimizə sığınıb soyuqdan qorunmağa çalışırdıq.

Səhərlər isə betonun üstündə yatdığımızdan ayaqlarımız tutulur, böyrəklərimiz ağrıyırdı.... Amma insanın verdiyi əzablar o qədər böyük və zəngin idi ki, təbiətin göstərdiyi sərt üz bizi çox da ağrıtmırdı.

İndi isə təbiət canlanmışdı. Gülün, çiçəyin qoxusu kiçik deşiklərdən sel kimi içəri axırdı, necə ki soyuq, şaxta axmışdı. Qarabağ təbiəti dünyanın nadir təbiətlərindən idi. Avropalıların da bu gül-çiçəyə maraqları az deyildi. İndi isə bu torpağın vətəndaşı, doğmaları ola-ola, gözümüzün giləsi boyda olan deşikdən baxırdıq bu yaşıllığa, bu gözəlliyə. Heç uşaqlıqdan qırmızı yumurtasını, səmənisini, şəkərburasını səbirsizliklə, anbaan gözlədiyimiz

Novruz bayramının da necə keçdiyini bilmədik.

Səhər saat yeddi olardı... Uca səslə qarıldayan qara qarğanın səsi bizi ayıltdı. Qarğalar elə səs salmışdı ki, elə bil nəsə itiriblər. Bu qara qarğalar el adətinə görə, o qədər də, yaxşı qəbul edilmirdi. Onlar kəndə uçub gələndə nəsə bəd bir şeyin olacağına işarə kimi baxırdılar. Sadəcə inaq olmuş, öskürək xəstəliyinə tutulmuş insanlara dərman olan qara qarğa qanı bu quşu el arasında lazımlı edirdi. Başqa heç cürə, heç nəyə lazım olmurdu. Bir də həyət-bacadan cücələri aparanda yada düşərdi. İndi isə bu səs Qədim dayının fikrinə görə, bizi xilas edəcək səs idi. Bunda nə isə bir xoş xəbər görürdü Qədim dayı. O, deyirdi ki, əgər bu gün biz sağ qalsaq, deməli, bizə ölüm yoxdur. Ya öldürüləcəyik, ya da qaytarılacağıq. Əgər bu gün qaytarılmasaq, ermənilərin “soyqırım” adlandırdıqları 24 apreldə yüz faiz bizi işgəncə ilə öldürəcəklər. Amma nəsə ürəyimə damıb ki, yaxşı bir şey olacaq...

Biz bu sözlərə istehza edirdik. Dünyagörmüş bir insanın nədən yapışdığını, nədən kömək gözlədiyini qəbul etmək istəmirdik. Amma nəsə mənim də qəlbimdə buna inam var idi. Bəlkə də, bu, inam yox, sadəcə inanmaq istəyi idi. Axı ümid dolu bir fikir idi. Bütün insanlar belə olur. Özü üçün xoş olanı, ürəyindən keçəni mifləşdirir, onun həyata keçməsinə qəlbində canlandırdığı kimi inanır. Halbuki, inandığı bu fikir həyata keçməsi mümkün olmayan bir utopiyadır. Axı bu insandı, onda yaşam sevgisi var. Qara qarğanın səsindən məna çıxartdığımız istər ölüm, istərsə də qaytarılma fikri mənim üçün müqəddəs idi. Əgər belə olsa idi, mən o qarğaya ömrüm boyu totem kimi baxardım. Əlbəttə ki, yaşasaydım... Yəqin ki, qədim inanclar da belə yaranır. Təsadüflə üst-üstə düşən könül arzusu istənilən hadisəni inanca çevirə bilər, hətta sitayiş də etdirərdi. Yəqin ki, sonralar Qədim dayı da

bu hadisəni danışacaq, qara qarğanın xoş xəbər daşıyıcısı olduğunu vurğulayacaqdı. Onu gördükcə ona hörmət etməyə çalışacaqdı. Hətta nəvələri həyətə gələn qara qarğanı daşlamaq istəyəndə "bala, onunla işiniz olmasın, babanıza xilas xəbərini gətirən o olub" deyəcək, kövrələcəkdi. Nəvələr də bu hadisəni başa düşmədiyi üçün sual verəcək, bu hadisəni danışmasını istəyəcəkdilər. Qədim baba da bu günləri xatırlayacaq, göz yaşlarını gizlətməyə çalışsa da, qəhərdən boğulacaq, bəlkə də, danışmaqdan vaz keçəcəkdi....

Bu qara qarğa hadisəsi kafirlərin əlindən gizlənən Məhəmməd peyğəmbərin mağarasını hörümçək toruna bürümüş hörümçək məsələsinə bənzəyirdi. Həmin hörümçək də o zaman peyğəmbəri xilas etmişdi. Onun üçün də müsəlmanlar ona müqəddəs heyvan kimi baxır, öldürmürlər.

Günortaya yaxın qarğanın səsini unudur, ümidlərimizi basdırırdıq. Amma Qədim dayı israrlı idi: – Nəsə olacaq... buna adım qədər əminəm, mən heç nəyə bu qədər əmin olmamışam, deyirdi.

Əgər Qədim dayı bütün günü bizim yanımızda olmasaydı, şübhələnərdim. Yəqin ki, "nəsə deyiblər" deyərdim. Axı neçə gün idi, heç Veneks də növbəyə çıxmırdı. Bu kişini belə əmin edən nə idi? Qarğa səsi məlumdur, amma başqa bir şey də olmalı idi. Bu altıncı hiss də ola bilərdi. Həmin gün mən buna inandım. Altıncı hissin varlığını təsdiqlədi bu hadisə. Ya da "qara daşa inansan, şəfa taparsan" ideyasının tərənnümü idi bu. Bəzən deyirlər ki, insan nəyinsə həyata keçməsini çox istəyirsə, o da həyata keçir. Biz şübhələnmişdik. Samirə də təbiətindən gələn şıltaqlıqla buna etiraz edirdi, mən də, Həyat da. Amma Rəna və Həlimə xala bəxtlərə ağ günün xəbərini gətirən bu qara qarğaya Qədim dayı qədər inanırdı.

Günorta saat dörd olardı. Veneksla növbə dəyişdirən qapıçı içəri girdi. Qədim dayını və onunla yanaşı iki nəfər qadının çıxmasını əmr etdi.

Bu qadınlardan biri Rəna idi. Ata-anasının və həyat yoldaşının gözü qabağında öldürülməsindən sonra dili tutulmuş, üz-gözü əyilmişdi. 30-32 yaşı olan bir gəlin idi. Qorxudan 3 aylıq uşağını da salmışdı. Xarici görünüşcə o qədər də gözəl olmayan bu qadının üz cizgilərinin əyilməsi onu bir az da eybəcərləşdirmişdi. Ermənilərin təbirincə desək, heç bir işə yaramırdı. Elə bütün gün sakit oturur, heç bir söhbətə qarışmırdı. Heç Allah ümidinə verilən yeməyi də yemək istəmirdi.

Biri də 50-yə yaxın yaşı olan Həlimə xala idi. Yəqin ki, o da onların işinə yaramırdı. Həlimə xala gec ailə qurmuş, gec də övlad tapmışdı. Onu da Allah ona çox görmüşdü. Həlimə xalanın qaytarılması hamımızın ürəyindən olan məsələ idi.

Qədim dayı bu hadisədən yaman məyus oldu. Bir bizə baxırdı, bir də hara baxacağına yer axtarırdı. Bəs bu üç qız? – deyə qapıçıya tərəf yeridi.

–Onlara sahib çıxan yoxdur, sizə isə xeyli pul veriblər,- deyib alçaqcasına hırıldadı.

– Kim verib o pulu?

– Sənin qardaşın, elə bilirdin, səni neçə vaxtı burda havayı saxlayırlar? Hətta nazınla da oynayırdılar. Qardaşın külli miqdarda pul ödəyib səni almaq üçün. Di tez ol, laqqırtı vurma!

– Mənim əvəzimə bu qızlardan aparın, – deyib geri çəkildi.

– Nə boş-boş danışırsan? Dedim axı çərənləmə! Düş qabağıma. Qədim dayını qucaqlamaq üçün, "narahat olma" demək üçün ona yaxınlaşmaq istədikdə, sinəmdən dəyən avtomat qundağı məni yerə sərdi.

Beləcə vidalaşa bilmədiyimiz ay yarımlıq əzab yoldaşımız, havadarımız, ağsaqqalımız da getdi.... Gedəndə: "Sizin qaytarılmağınız üçün əlimdən gələni edəcəyəm, narahat olmayın!" – deyib birdəfəlik getdi.

Bir neçə saat bundan əvvəl ölümü qaytarılmaqdan üstün tutan qəlbim indi azadlıq eşqi ilə yanırdı. Ramili görmək arzusu ilə qovrulurdu. Hər şeyi danışardım Ramilə, hər şeyi deyərdim ona, o məni başa düşməsə idi də, sadəcə ona danışar, sonra da ayrılardım. Lap belə o, məni öz əlləri ilə öldürsəydi də... Bu, mənim vüsalım olardı. Qarğanın səsinə niyə təmiz qəlblə inanmadığım, niyə bunun düzgün çıxacağına əmin ola bilmədiyim üçün özümü qınayır, peşmançılıq hissi ilə külə dönürdüm. Sonrakı peşmançılıq fayda vermir. Bəlkə də, sidq ürəklə inansa idim, Tanrının mərhəmətinə Qədim dayı qədər inansa idim, mən də qaytarılmışdım... Bu da təsadüfün həqiqətə çevrilməsindən sonrakı reallığın peşmançılığı...

Amma ermənin dediyi "sizin üçün külli miqdarda pul ödəyiblər" cümləsi məni sarsıtmışdı.

Doğrudanmı, biz kimsəyə lazım deyildik? Doğrudanmı, Ramil bu qədər etinasız idi? Doğrudanmı, o, yazdığımız məktubu oxuyub məni qurtarmaq üçün çarə axtarmayıb? Bəlkə, o, mənə hirslənib, hələ də burda yaşamağım üçün məni qınayır. Bəlkə də, o, məndən əl üzüb. Əslində, bu fikirlər ağlıma gəlsə də, inana bilmirdim. Qarğanın səsinin xoş xəbər gətirdiyinə inanan Qədim dayı kimi. Amma qəlbimdəki ikilik daima məni daxildən yeyirdi. Hər şeyə şübhə edir, hər şeydən əmma çıxarırdım. Ağlıma gələn bu fikirləri ürəyim qəbul etmirdi. Çünki ağıl bəzən hisslərin təsiri ilə yanlışlıqlara düçar ola bilər, amma ürək heç vaxt özündən başqa heç nəyə inanmazdı. Mən də ürəyimin səsinə qulaq asıb Ramildən əlimi üzmədim. Axı ürəyim onun idi. İnsan az hallarda özünə xəyanət edər,

bu az hallar isə az hallarda baş verərdi....

Həyat, mən və Samirə qaldıq. Samirə heç olmasa danışır, o əzabların içində hərdən gülürdü də. Bəzən elə bilirdim Samirə bu girovluqdan o qədər də əziyyət çəkmirdi. Çünki danışıqlarından başa düşürdüm ki, istədikləri hər şeyi edirdi. Amma sonralar onun etdiyi inanılmaz hərəkət mənim onun haqqındakı düşüncələrimi məhv etdi...

Həyat isə gözəlliyi ilə baş gicəlləndirirdi. Çox cazibədar qız idi. Bu, Ramilin bölgüsünə görə üçüncü tip qadınlardan idi. O, qadınları üç qrupa bölürdü: sevmək, oxşamaq, həyat yoldaşı etmək istədiyin qadın, anan, bacın olmağa layiq olan qadın, aşnan, gəzdiyin ola biləcək qadın. Bunu qadınların gözünə baxarkən gördüyünü, ağlına gələ bilən ilk fikir olduğunu deyirdi. Məhz Həyatın gözlərinin parlaqlığı, qaynarlığı, oynaqlığı ilk gördüyümdə, qadın olmağıma baxmayaraq məni də heyrətə gətirmişdi. Gürcü qızlarına bənzər gözləri elə parıldayırdı ki, nənəm demiş: "adama gəl-gəl deyirdi". Amma onun gözlərindəki kədər gizlənməyə çalışır, bəzən qaçmağa yer axtarırdı. Göründüyü üçün utanırdı bu gözəllikdən. Bədən quruluşu isə qalın qış paltarlarının altından da diqqəti cəlb edirdi. Həyatdakı gözəllik elə idi ki, dünyanın istənilən özündən deyən kişisini diz çökdürərdi qarşısında. Bəzən qadınlar öz aralarında dediyi kimi, "kişi olsa idim, bu qızdan keçməzdim". Bəli, bu qız o qədər gözəl idi. Hərdən düşünürdüm ki, Samirədəki şıltaqlıq, uca səsli şaqraq gülüşlər bu qızda olmalı idi. Ya da ki, bunun gözəlliyi Samirədə. O zaman vəhdət görə bilərdik. Həyat bu qədər gözəlliyə baxmayaraq, çox sakit, həyalı, fağır qız idi. Bu da tanrının yaratdığı ziddiyyət idi. Həyatın xasiyyəti ilə, xarici görünüşü bir-birini tamamlamırdı. Bəlkə də, bu qız öz sevdiyinin yanında olsa idi, onun gözəlliyi ona mükəmməl yaraşardı. Amma indi heç yaraşmırdı. Ermənilərsə buna

məhəl qoymurdular. Onu tez-tez öz yatağına salan Qaribyan adlı mayor bu gözəlliyi görməmək üçün yaradılmışdı. Bir gözünü müharibədə itirmiş bu mayor gözünün qisasını onun gözlərindən çıxırdı. O gözlərə onu təhqir edilmiş formada göstərməklə...

Bura gətirilən yüzə yaxın insandan üç qız qalmışdıq. Bu, bizim bildiyimiz idi. Öldürülənləri və qaytarılanları görmüş, qalanlardan isə xəbərimiz yox idi. Beləcə bizi qarşıda yeni vəhşiliklə dolu macəralar gözləyirdi. Bu macəralar ölümə yaxınlaşdıracaq, sonra da kimsəsiz, vəhşi sahillərə atacaqdı... Öldürüb-dirildəcəkdi...

## 19. Təhlükə uzaqda deyil

Maşın kiçik çay daşları tökülmüş sahəyə daxil oldu. Bura Bakı kəndlərindən birində yerləşən kiçik evin həyəti idi. Tahir bir maşının güc-bəla ilə keçə bildiyi darısqal küçəyə nəzər yetirib vaxt itirmədən taybatay açılan darvazanı bağladı. Cəld maşına tərəf gedib qonağını salamladı:

– Xoş gördük! Nəhayət ki, səni görə bildik!

– Tapşırıq necə keçdi? – gələn şəxs vaxt itirmədən salamlaşaraq birbaşa evə qalxdı.

– Gəl otur, danış görək, – gələn adamın diqqətli baxışları Tahirin üzünə zilləndi. Səbirsizliklə onun nə deyəcəyini gözləyirdi. Bu xəbər son günlərdə onun bütün vaxtını alan hansısa bir sualın cavabı üçün çox vacib idi.

– Həsrəti tapşırdığın kimi məktəbin qarşısında düşürdüm. Özüm isə...

– Həsrət həmin dilənçi oğlanın adıdır? – qonaq onun sözünü kəsdi.

– Hə.

– Yaxşı sonra? Əvvəldən axıra qədər izləyə bildin Ramilin oraya gəlib-getməsini?

– Bütün tapşırıq boyu orada oldum. Yəqin ki, fikrimizdən yayınan heç nə olmayıb. Mən gəldiyimiz maşınla Həsrəti məktəbin qarşısındakı dayanacaqda düşürəndən sonra yaxınlıqda maşının içində izləməyə başladım. Ramil gəlib məktəbə girəndən sonra isə dilənçi oğlanı sürücü ilə buraya göndərdim. Özüm isə Ramilin tədbirdən qayıtmasını gözlədim.

– Ramil həmin dilənçi oğlanı tanıyırdı, səncə? Bizim əsas məqsədimiz onun Həsrəti tanıyıb-tanımadığını aşkara çıxarmaq idi. Sən buna yaxşı nəzarət edə bildin də?

– Bəli, əsas diqqət mərkəzində olan bu idi. Ramil məktəbə gələndə, sanki oğlana yaxınlaşmaq istəyirdi. Amma telefonuna gələn zəngdən sonra tələsik məktəbə girdi. Məncə, o dilənçi oğlanı tanımırdı.

– Tahir, əminsən buna?

– Məncə, hə. Çünki Həsrət də onu görəndə üzü nə isə şübhəli bir şey ifadə etmirdi. Sonra isə Ramil qızı ilə tədbirdən qayıdıb evlərinə getmək üçün dayanacağa gəldi.

– Sən tapşırıq yerindən nə vaxt çıxdın?

– Onlar gedəndən təxminən iyirmi dəqiqə sonra.

– Sənin dediklərindən aydın olur ki, Ramil bu oğlanı tanımır. Yaxşı bəs onda?.. – gələn şəxs fikrini tamamlamayıb siqaret yandırdı. Sonra, sanki yadından çıxacaqmış kimi tələsik əlavə etdi:

– Qulaq as, sən sabah Gəncəyə getməlisən. Al, burada axtaracağın adamın adı və 17-18 il yaşadığı ünvan yazılıb. Onu tapmaq mənim üçün çox vacibdir.

– Yaxşı. Sabah erkəndən çıxım?

– Hə. Gecikməyək. Onsuz da bu iş çox uzandı. Hə, Zaur ilə Salah neyləyirlər? Dünən mənə zəng etmişdilər.

– Çoxdandır, səni görmək istəyirlər.

– Gəncədən qayıdandan sonra toplaşarıq – gələn adam bunu deyib ayağa qalxdı.
– Oğlanı özün də danışdıracaqsan?
– Hə, tapşır gözlərini bağlasınlar, maşından səsyazma cihazını götürüm, gəlirəm.
Gələn adam həyətdə saxladığı "BMW" markalı maşının yanına çatanda çox fikirli idi. Neçə gündür ümidlə, bəlkə də həvəslə üzərində dayandığı şübhələrindən biri indi şaxələnərək daha da çətinə düşmüşdü. O, bu iş üçün xüsusi tapşırıq almasa da, şəxsi şübhələri ilə buraya qədər gəlib çıxmışdı. İndi yolun yarısından qayıtmaq heç cür onun ağlına batmırdı. Çünki o, general-mayor Kamil Əzimovun rəhbərlik etdiyi məxfi şöbənin ən təcrübəli agenti idi. Bu işdə xüsusi bacarığının olması son bir ildə yeni fəaliyyətə başlamış bu qurumun əsas adamına çevirmişdi onu. İndi də özü izinə düşdüyü bu müəmmalı hadisənin sonuna çıxmadan rahat ola bilməyəcəkdi. Orta yaş dövrünə bir neçə il əvvəl qədəm qoyan təcrübəli əməliyyatçı indi bu iş üçün bütün enerjisini xərcləməyə hazır idi. Keçmiş şöbədən ən yaxın köməkçiləri Salah və Zaurdan kömək almağa bir-iki dəfə cəhd etsə də, sonradan bu fikirlərindən daşınmışdı. Çünki keçmiş köməkçilərindən yalnız Tahir onun – mayor Mikayıl Qüdrətovun əslində məxfi şöbədə çalışdığını bilirdi. Xocalı faciəsi ilə bağlı universitetdə keçirilən həmin tədbirdə Ramili görəndən sonra onu araşdırmaqla bağlı da bütün işləri Tahir həyata keçirirdi. Aytəkin adlı həmin girov qızın dəftərini oxumağa başladığı gündən bəri şübhələndiyi bütün məqamların üstünü açmaq istəyində olsa da, uzun illər keçdiyinə görə ardıcıl fikir yürütmək mümkün olmurdu. Həmin girov qızın dəftərinin sonunda yazılanları isə, demək olar ki, hər gün nəzərdən keçirir və hər dəfə yeni nəsə aşkara çıxarmağa ümid edirdi. Çətinliklə olsa da, Həsrət adlı

bu dilənçi oğlanı tapa bilmişdi. Qüdrətov yanılmırdısa, bu oğlan Aytəkinin əmisi oğlu olmalı idi. Əgər Həsrət, həqiqətən də, onun axtardığı uşaq idisə, deməli, o, doğulmamışdan əvvəl anası erməni girovluğunda olarkən ciddi işgəncələrə məruz qalmışdır. Sonra isə anası digər erməni əsirləri ilə dəyişdirilərək Azərbaycana gətirilir. Girovluqda olarkən aldığı işgəncələrin ucbatından bu oğlan da psixi və ruhi baxımdan qüsurlu doğulmuşdu. Qüdrətov bir anlıq bunu düşünüb ondan nəyinsə öyrənməyin o qədər də asan olmayacağı qənaətinə gəldi. Amma hər halda səbirli olaraq hər şeyi sonuna qədər götür-qoy etmək, mümkün olduqca çox məlumat toplamaq lazım idi...

## 20. Tayqulaq Andranik

– Ay Aytəkin, sən bilərsən, bu Andranik kimdir ki? Tarix oxumusan, məni başa sal görüm.

– Ermənilərin "qəhrəmanıdır". XX əsrin əvvəlində yaşayıb. Samirənin bu sualına məcburən belə qısaca cavab verdim. Heç danışmaq istəmirdim. Bu gün Gülcahan yaman yadıma düşmüşdü. Onun yaşadığını Vaskanyan desə də, inanmırdım. Əslində, onun haqqında Vaskanyandan soruşmurdum, amma o məni ram etmək üçün Gülcahanın yaşadığını, dostlarından birinin yanında qaldığını deyirdi. Hətta ona müqavimət göstərməyim üçün yatağına atdığı zaman Gülcahanın daha qabiliyyətli olduğunu söyləyir və iyrənccəsinə gülürdü. Mənim müqavimət göstərməyim onu cuşa gətirirdi, elə bil. Mən nifrətimdən onu cırmaqlayır, döyür, üzünə tüpürür, cəhdlərinin qarşısını almağa çalışırdım. O da qışqırır, bağırırdı. Amma o, bundan zövq alırdı, ehtirası artırdı, getdikcə daha çox qışqırmağımı istəyirdi. Qarşılığında döyür, əllərimi çar-

payıya bağlayır, ölüm anının bir addımlığında boğazımı buraxır, taqətdən düşdüyümü hiss edirdim. O, işini bitirirdi...

Mən sonralar bildim ki, mənim çılğınlığım, mübarizə aparmaq istəyim onu daha da ehtiraslandırır. Bunu bir dəfə Samirəyə danışmışdım. O da məni öyrətmişdi ki, artıq bizimki bizdən keçib. Sən heç bir müqavimət göstərmə, gör nə günə düşəcək, o alçaq. Amma bunu bacarmırdım. İmkanım da olmurdu ki, ondan qisas alım. Artıq Gülcahanı da yaddan çıxara, unuda bilərdim, sadəcə ondan qisasımı alım, bu, mənim üçün dünyaya bərabər idi. Dünən axşam da o yadıma salmışdı. Demişdi ki, hə, nə deyirsən, Gülcahanın ermənilərə necə kef verdiyini görmək istəyirsən? Əlbəttə, görmək istəyirdim, kef verdiyini yox, Gülcahanı görmək istəyirdim. Amma qürurum imkan vermirdi ki, bunu ona deyim. Özümü yenilməz göstərməyə məcbur edirdim. Yazıq bacım, axı o, uşaq idi...

İndi də o yadıma düşmüşdü. Dünənki işgəncələrdən sonra Gülcahan elə hey yadıma düşürdü.

Dünənki hər şey: Vaskanyanın məni üç erməni dostuna təklif etdiyi də, gecənin yarısına qədər qollarımdan çarpayıya bağlanmağım da, əyyaş dığaların yıxılıb yatana qədər məndən istifadə etmələri də, gecənin bir yarısı Vaskanyanın məni təpikləyə-təpikəyə binamıza gətirməsi də, Andranikin şərəfinə məni alçaltmaları da yadımdan çıxmışdı. Sadəcə, "istəyirsən Gülcahanın ermənilərə necə kef verdiyini göstərim sənə" ifadəsi qulaqlarımdan getmirdi. Ən dəhşəti isə Həyatın başına gətirilənlər idi. Onun başına gətirilən mənim və ya Samirənin də başına gətirilə bilərdi. Amma bizi xilas edən Həyatın bizdən qəşəng olması idi. Tiqranın ovçarkası ilə cinsi əlaqədə hansımızın olmasını müəyyənləşdirmək üçün əyyaşlar əvvəlcə püşk atdılar, amma sonra o itə ən gözəl kimdir onu təqdim et-

məliyik deyib, Həyatı seçdilər. Buna ad verə bilmirəm... Sadəcə dəhşət, vahimə, faciə, iyrənclik, şərəfsizlik, vicdansızlıq daha nə qədər bu tip söz var idisə, bu səhnəyə vermək olardı... Həyat hər şeyi içində çəkirdi... gələndən heç nə demirdi... deməyə bir şey də yox idi. Sadəcə bir-birimizə baxır, ağlayırdıq.... Gözlərimizdən axan yaş damcılarını əkib cücərtmə imkanı olsa idi, bitən bu ağacın bütün gördüklərimizi və çəkdiklərimizi əks etdirəcəyinə heç şübhəm yoxdur.

Samirə isə, deyəsən, hər şeyi unutmuşdu. Amma o, planlı qız idi. Deyirdi sən bax, onların başına nə oyun açacağam. Nə deyirlər, edəcəyəm. Onsuz da zorla elətdirirlər. Amma fürsət tapan kimi qisasımı alacağam. Almadan ölə bilmərəm. İndi də bu Andranikin kimliyi onu narahat edirdi. Çünki onun adı tez-tez çəkilir, qisasını türklərdən alırıq deyirdilər. Təhsilli olmadığından əlavə məlumatı az olan bir qız idi bu Samirə.

– Aytəkin, bu Andranikə bizimkilər nə edib? Əslində nə ediblərsə az ediblər, amma bunları belə dəli edən nədir?

Çiynimdən vuraraq xəyallardan zorla ayırdı məni.

– Nə dedin?

– Deyirəm bu Andranikə bizimkilər nə edib?

– Düzdür, nə universitetdə, nə də məktəbdə Andranik haqqında heç nə keçmirdilər. Amma canlı tarix kitabı olan nənəm “adıbatmış” haqqında çox danışırdı bizə. Rəhmətlik də hər dəfə onun adının yerinə “adıbatmış” deyirdi. Samirənin israrla soruşması məni o hadisələri danışmağa məcbur etdi.

1918-ci il erməni-müsəlman davası zamanı bu adıbatmış ətrafına çoxlu erməni toplayıb Ağrıda, Naxçıvanda, Zəngəzurda müsəlman qanı içirdi. Arvad, uşaq, qoca, cavan bilmir, türk olan hər kəsi öldürürdü. O zaman da

vəziyyət qarışıq idi. Türkiyədə də kəndlərə qəfildən girir, kütləvi şəkildə camaatı qırırdı. Nəinki türkləri, Türkiyədə yaşayan kürdləri də kütləvi şəkildə qırmış, kanallarda, göllərdə boğmuşdu. O adıbatmış öz dəstəsi ilə Naxçıvanın kiçik kəndlərinə də girir, həmin işgəncələri onlara da yaşadırdı. Erməni birləşmələri gəlib Nehrəmə yaxınlaşır. Bu nehrəmlilər də tamam başqa adamlardı, elə bil. Qorxmaz, mərd camaatdır. Dediklərini edən, polad kimi əyilməz adamlardı. Əslində bu nehrəmli adı gələndə nənəmin gözləri işıldayırdı. Elə fəxrlə danışırdı ki, bu nehrəmlilərdən, adam bu kəndin camaatı ilə fəxr edirdi. Nənəmin atası nehrəmli idi. Nənəm Naxçıvan şəhərində böyüyüb boya-başa çatmışdı. Atası öləndən sonra kənd ilə əlaqələri zəifləmişdi. Hər il məhərrəmlikdə hökmən Seyid Əqil Ağanın qəbri yerləşdiyi imamzadəyə Aşura mərasiminə gedərdi. Onun fikrincə, nehrəmlilər çox savadlı və ağıllı adamlar idi. Nənəmin özünə görə dindar, bizə görə mövhumatçı olması da, elə nehrəmlilərə bağlılığından idi.

Bu Nehrəm kəndinin xüsusiyyətlərindən biri də zarafatcıl olmaları, lətifələr danışmaları və kənddəki hər kəsə ayama qoymaları idi. Deyilənlərə görə, bu kənddə ayamasız adam, tayfa yox idi. Əslində bizim Xocalıda da belə idi. Nənəm hərdən müqayisə də edirdi. Deyirdi, sizdə Qəssab Əli var, Nehrəmdə də, sizdə də palçıq Əli var, bizdə də? Sizdə də Nırqız Həsən var, bizdə də. Bunu bir dəfə anamın xocalılı Tıs Mamed haqqında nəsə deməsindən sonra danışmışdı. Hətta ona niyə Tıs Mamed deyirlər, deyə soruşmuşdu da. Onun zili var, o zili sürəndə maşının tez-tez çıxardığı səsə görə ona tıs Mamed deyirlər. Bu, anamın  həvəslə verdiyi cavab idi. Nənəm isə bizə Nehrəmdəki Tısçı Əli haqqında danışmışdı. Amma həmin adama ona görə Tısçı Əli deyirlər ki, o tez-tez yalan danı-

şarmış. Hətta nənəm Nehrəm ağsaqqalarının yaratdığı bir lətifəni də danışmışdı. Deyilənlərə görə, bir dəfə Abdulla adlı bir kişi Nehrəmdən qız alır. Bu qız ailənin tək övladı olduğu üçün Abdulla öz kəndindən köçüb gəlir bura. Bir gün Çaylaq deyilən kənd mərkəzinə çıxır. Ağsaqqallardan biri soruşur ki, bala, necədi, kəndimiz xoşuna gəlir? Abdulla da cavab verir ki, hər şey yaxşıdı, amma bir şey xoşuma gəlmir. Ağsaqqallar: "xoşuna gəlməyən nədir?"– deyə soruşurlar. Deyir, belə baxıram ki, bu kənddə ayamasız adam yoxdur, deyirəm bəlkə, mənə ayamadan, ləqəbdən heç nə qoymayasınız. Arif ağsaqqallar ustalıqla deyirlər ki, nə olar, sən də ol Ləqəbsiz Abdulla. Elə o gündən də Abdullanın ləqəbi olur "ləqəbsiz".

Andranik heç görmədiyi zərbəni elə bu Nehrəmdə alır. Nehrəm böyük kənd olsa da, camaatı həmişə seçdiyi mollanın, yəni kənd ağsaqqalının ətrafında birləşər, nə qərar verilsə idi, onu edərdilər. Camaat belə qərara gəlir ki, kəndin bütün qadınlarını yığsınlar seyidabalara. Əgər döyüşü uduzsaydılar, qapının ağzında duran gözətçi bura od vurub yandıracaqdı. Seyidaba qəbiristanlığın içində olan yeraltı sərdabə idi. Nehrəm qəbiristanlığında iki seyidaba var idi. Deyilənlərə görə, Kəbə arzusu, Məkkə arzusu ilə ölən insanların meyitləri öz vəsiyyətlərinə görə tabutda buraya qoyulurdu, torpağa basdırılmırdı. Onun yaxınlarından kiməsə bu ziyarətlər nəsib olsa idi, onların sümüklərini aparıb orada basdırırdılar.

Sonra hamı bir nəfər kimi döyüşə girir. Kənddə iki top olduğundan onları gah kəndin bu başından, gah da o başından atırdılar ki, erməniləri qorxutsunlar. İkinci topu atmağa isə Osmanlı ordusundan yavər gəlmişdi. Necə ki, bizimkilər Xocalı işğal olunmamışdan əvvəl bunu edirdilər. Nənəm onda deyirdi ki, bunu tarixə nehrəmlilər gətirib. Andranikin qoşunları güclü olduğundan nehrəm-

lilər geri çəkilməli olur. Döyüş qəbiristanlığın ətəyində davam edir. Bir erməni qəbir daşının dalından qışqırır ki, ay molla, ordan bir qız yolla, bəlkə, səni bağışlayaq. Kənddə aynalı tüfəngi ilə məşhur olan bir Müslüm var imiş. Müslüm, o qədər sərrast atıcı idi ki, quşu gözündən vura bilirdi. Müslüm onu bir də görmək üçün "nə?" soruşur. Elə bu zaman o, sözü təzədən təkrar edən erməninin dilindən vurur. Bundan sonra nehrəmlilər şirə-aslana dönür. Hücumu gücləndirirlər. Hətta rəvayətə görə, onlara Seyid Əqil Ağanın piri də köməyə gəlir. Nehrəmlilər deyirlər ki, guya ermənilərin atdığı toplardan biri həmin pirin küncünə dəyir. Ordan da bir göy atlı, göy paltarlı çıxır döyüşçülərə kömək edir. Nənəm onu da deyirdi ki, həmin uçulan yer hələ də sökük qalır. Nə qədər hörsələr də, uçub yerə tökülür.

Arxadan da türk ordusu artıq Naxçıvana girib, Andranikin arxasınca gəlirmiş. Andranik Osmanlı imperiyasına xəyanət etdiyi və minlərlə türk qanı axıtdığı üçün onu axtarırdılar. Hətta xəyanətinə görə 1880-ci ildə onun qulağını da kəsmişdilər. "Sənin qulağını türk kəsib, bir də özündən çıxma, ay erməni", – deyirlər. Başını sal aşağı, adamlığını et. Andranik bu vəziyyəti görüb qaçmağa məcbur olur.

Nehrəmdə bu hadisəyə Sona adlı qadın şeir də qoşmuşdu. Deyirdi, Nehrəmdə bunu hamı bilir. Nənəmə də ata qohumu olan tarix müəllimi Mehralı müəllim öyrətmişdi. Həmin Sona xanım Mehralı müəllimin nənəsi olub. O da nənəsinin ruhunu şad etmək və tarixi hadisəni gələn nəsillərə ötürmək üçün bütün imkanlardan istifadə edirdi, bu şeiri yaşatmaq üçün.

Nənəm bu şeiri elə həvəslə deyərdi... Ay Samirə, gördün kimdir, bu Andranik? Alçağın biri olub. Onu niyə öldürməyiblər, bilmirəm.

– Aytəkin, şillə məsələsini yadına sal, bu da onun kimidir, mənəvi zərbə.

– Ay Samirə, nə mənəvi zərbə? Bu itlər mənəvi zərbə başa düşəndilər? Allah rəhmət eləsin Teymurləngə, o vaxt ən yaxşısını eləmişdi bu ermənilərə.

– Nə eləmişdi ki?

– Əmr vermişdi ki, yer üzündə nə qədər erməni varsa, hamısı qırılmalıdır. Qırmağa başlamışdı da.

– Bəs nə oldu?

– Anası qoymadı. Dedi ki, oğul, bunları niyə qırırsan? Teymur da demişdi ki, çox alçaq, yalançı, oğru millətdir, ona görə. Qoy gələn nəsillər mənə rəhmət oxusun. Anası deyir ki, bala, sən bunları qırıb  qurtarsan, gələn nəsillər bunları tanımayacaqlar, səni də lənətləyəcəklər. Amma sən bunların bir qismini saxlasan, bunları tanıyar, sənə rəhmət oxuyarlar. Bu fikir Teymuru yolundan döndərir, o da əl saxlayır. O vaxt qırsa idi, indi biz burda olmazdıq.

Samirə, doğrudan, da əhli-kef qız idi. Hər şeyi unutmaq üçün “hər şey” edirdi. O, atəşin içində əylənməyi də bacarırdı. Bu hərəkətlərini görən Qədim dayı da bəzən hərəkətlərinə görə ona tərs-tərs baxardı.

Bu dəfə də yalvardı ki, o şeiri yadıva sal, bizə danış.

Dedim: Ay Samirə, bizə şeir yaraşır?

– Aytəkin, demirəm ki, məhəbbət şeiri danış. Ermənilərin Naxçıvandan qovulması haqqında şeirin nəyi pisdir?! De, heç olmasa sözlə özümüzə təsəlli tapaq. Yadındadı, uşaqlar oxuyurdular ha....

Hava yaman bürküdü,
Ermənilər tülküdü.

– Sən de görək, nənəvin nehrəmliləri nə deyib?

Əslində şeiri tam bilmirdim, bir az da ona görə söhbətdən yayınmaq istəyirdim. Samirə də zarafatından qalmırdı. Hə Aytəkin, de görək, – deyə əl çəkmirdi. Həyatın

hələ də dünənki şərəfsizlikdən sonra heç heyi qalmamışdı. Ona baxdım. Gözlərində heç bir məna yox idi. Şeiri deməyimi istəyib-istəməməyinə aid heç bir işarə də yox idi. Amma ona təsəlli ola biləcəyini, fikrindən yayınacağını düşünüb şeiri dedim:

*Baqratın paslı zəngi vuruldu.*
*Andranik qoşunu nizama durdu.*
*Hücuma keçdilər Nehrəm üstünə.*
*Cəmdək töküldü cəmdək üstünə.*
*Yeri ha, yeri ha, köpək Andri,*
*Nehrəmlilər quşu göydən endirir.*

*Andranik qoşunu gəldi Tahar düzünə,*
*Nehrəmlilər ölümü aldı gözünə,*
*Qırdılar, tökdülər, Tahar düzünə.*
*Yeri ha, yeri ha, köpək Andri,*
*Nehrəmlilər quşu göydən endirir.*

*Yavər də topunu durmadan atdı.*
*Andranik qoşunu yan-yana yatdı.*
*Hayına gəlmişdi, huyuna çatdı.*
*Yeri ha, yeri ha, köpək Andri,*
*Nehrəmlilər quşu göydən endirir.*

*Müslüm durub Hacəlinin bağında,*
*Müseyib sağında, Sadıq solunda,*
*Qırır-tökür imamzadə yolunda.*
*Yeri ha, yeri ha, köpək Andri,*
*Nehrəmlilər quşu göydən endirir.*

*Ərəzində Səməd, Nehrəmdə Müslüm,*
*Hücuma keçdilər hamıdan üstün,*

*Andranik qoşunun etdilər təslim.*
*Yeri ha, yeri ha, köpək Andri,*
*Nehrəmlilər quşu göydən endirir.*

*Sona xanım şeiri dedi özündən,*
*Güllə dəysin Andranikin gözündən,*
*Nehrəmlilər dönmədilər sözündən.*
*Yeri ha, yeri ha, köpək Andri,*
*Nehrəmlilər quşu göydən endirir.*

– Nə yazıb, allah köməyi olsun, qələminə güc versin o Sona xanımın, – deyə Samirə dilləndi.

Şeiri deyə-deyə gözucu Həyata baxırdım ki, mimikasından reaksiyasını anlayım. Amma heç nə görə bilmirdim, qız, elə bil, daşa dönmüşdü. Samirənin bu sözünə qeyri-ixtiyari gülümsündü. Niyə gülümsündüyünü mən də başa düşmüşdüm. Axı Sona xanım rəhmətə getmişdi. Nənəmin nənəsi yaşda olan qadın necə hələ də sağ qala bilərdi. Amma heç birimiz bunu onun üzünə vurmadıq.

Mən məqsədimə çatdığım üçün bir anlıq sevindim də. Amma nə biləydim ki, elə bu axşam onu da itirəcəyik. Həmin axşam Həyat tualetə getmək üçün qapıçını çağırdı.

Bir neçə həftə ərzində yan otaqlarda da girovların azalması hiss olunurdu. Çünki axşamlar yumruq zərbələrindən, inildəyən, qızıl dişləri mismarla çıxarıldığı üçün zarıyan yox idi. Yəqin ki, orda da kişiləri qaytarmış, qadınlara isə əzabı yataqlarında verirdilər. Bunun üçün də qapıçı oturduğu stolda mürgüləmişdi. Onu qapının kiçik deşiyindən görmək olurdu. Həyatın səsindən dik atılan qapıçı qapını açıb onu döyməyə başladı, erməni dilində nəsə deyə-deyə onu söyürdü, ağzı, burnu qanamış Həyatdan rus dilində nə istədiyini, nəhayət ki, soruşdu. Həyat da tualetə getmək istədiyini dedi. Söyə-söyə qabağına sa-

lıb tualetə apardı. Tualet bizim otağa yaxın idi. Otağımızla tualet arasında cəmi bir otaq var idi. Bir xeyli vaxt keçdi, Həyat hələ də gəlməmişdi. Erməninin qışqırığı, ratsiya ilə kimisə çağırması diqqətimizi çəkdi. O, rəhbərliyə nə barəsindəsə məlumat verirdi.

Çox keçmədən məlum oldu ki, Həyat tualetdə gördüyü şüşə parçası ilə venalarını kəsib... Onu çıxaranda o, hələ də çırpınırdı... Həmin gün Həyat da Andranikə qurban kəsilən türklər kimi qurban getdi. Əslində, o intihar etməklə yüksəldi, göylərə qalxdı. Şərəfsizliklərə dözə bilmədi. Deyirlər, şərəfsizlik ağır yükdür, o vaxta qədər ki, onu çiyinlərinə götürməmisən. Onu çiyinlərinə götürdünsə, o, yüngülləşir. Həyat o yükü çiyinlərinə götürmədi, onu yüngülləşdirmədi. O, hər gün ondan zövq alanlara məhrum etdi özünü. Özünü azad etdi. Ondakı iradənin qarşısında baş əyirəm. Hər dəfə yadıma düşəndə girovluqda olan anasının da öldürüləcəyini bilə-bilə bu yolu seçdiyi üçün ona qibtə edirəm. Bunu hər insan bacarmazdı, bu insanlardan biri də mən idim. İntihar etmək üçün bir dəfə imkanım olsa da, bundan yararlanmamışdım. Yəqin ki, qorxmuşdum. İnsanların itirəcəkləri şeylərin dəyəri çox olduqca qorxusu da çoxalır, nəyisə itirmək qorxusu ilə daima hər şeydən tərəddüd edir. Əgər itiriləsi şeyi düşünmədən, qorxusuz yaşayan insan varsa, o, qəhrəman olur. Həyat da belə qəhrəmanlardan oldu. Heç nəyi itirməkdən qorxmadı. Halbuki, biz onun anasını nə qədər sevdiyini yaxşı bilirdik. Onun üçün yaşamaq istədiyindən də xəbərdar idik.

Biz artıq iki nəfər qaldıq, bu isə o demək idi ki, qarşıda bizi böyük təhlükə gözləyir. Qədim dayının getməsindən 13 gün keçsə də, bizim qaytarılmağımız haqqında heç bir söhbət olmurdu... Amma buna baxmayaraq, mən hələ də lənətə gəlmiş ümidlə yaşayırdım... Ümidsiz ümidlə...

## 21. Şahid danışır

– Adın nədir?

– Mənə Həsrət deyirlər, Həsrət, Həsrət... – dilənçi adını bir neçə dəfə təkrar edib yersiz gülməyə başladı. Gözləri bağlı olduğu üçün qarşısındakının – ona sual verənin kim olduğunu görə bilmirdi. Hiss edirdi ki, tanış olmayan bir adamdır. Bəlkə də, tanışlarının azlığından idi ki, indi bunu çox yaxşı müəyyən edə bilmişdi.

– Özün haqqında danışarsan mənə?! – Qüdrətov danışıq tərzini dəyişdi. Deyəsən, bu oğlanla dil tapmaq, doğrudan da, asan olmayacaqdı. Tahirə tərəf baxdı. Onun işarəsindən başa düşdü ki, oğlan bu gün çox qorxduğuna görə sudurqa keçirib. Hətta dili də qatlanıb. Amma xoşbəxtlikdən sürücü vaxtında yardım göstərə bilmişdi.

– Siz kimsiniz? Məni öldürəcəksiniz? Öldürün, öldürün, onsuz da mən anamın yanına getmək istəyirdim, öldürün məni, nə durmusuz?! Tez olun! – dilənçi dəli kimi qışqırmağa başladı. Ayaqlarını o qədər qüvvətlə yerə çırpdı ki, oturduğu stul tab gətirməyib yerə aşdı. Özü də əli-ayağı bağlı halda yerə yıxıldı.

– Buna sakitləşdirici gətir, ayaqlarını da aç ki, rahat otursun – Qüdrətov köməkçisinə göstəriş verdi.

– Oldu!

***

Təxminən on beş dəqiqə sonra Qüdrətov yenidən həmin otağa qayıtdı. Bu müddət ərzində Həsrət sakitləşib özünə gəlmiş, Qüdrətov isə həyətə düşüb siqaret çəkərək olanları götür-qoy etməyə vaxt tapmışdı. İndi dilənçi oğlanı daha sakit şəkildə dindirməyi və tez bir zamanda məqsədinə çatmağı düşünürdü. Vaxt itirmək lazım deyildi. Sabaha həm özünün, həm də Tahirin vacib işləri var

idi. Əgər köməkçisi Gəncədəki adamın izinə düşə bilərdisə, deməli, Qüdrətov böyük bir səddi aşmış olacaqdı. Amma hələlik ona şahidlik edəcək yeganə canlı varlıq bu dilənçi oğlan idi. Stulu onun bərabərində qoyub lap yaxınında əyləşdi. Tərəddüd etmədən növbəti dəfə daha təmkinlə onu danışdırmağa başladı:

– Görürsən, biz sənə yardım etdik. Səni öldürmək istəmirik. Sən bizə kömək etməlisən, Həsrət!

– Mənim kimim-kimsəm yoxdur. Heç imkanım da yoxdur. Axı mən sizə necə kömək edə bilərəm?! Bir anam var idi, o da ölüb getdi, yazıq... – dilənçi oğlan bunu deyəndə bayaqkından çox fərqli görünürdü. Əgər bayaq yersiz halda qışqırıb ağlayırdısa, indi anasının ölməsi barəsində danışanda normal insanlara xas olan tərzdə kədərlənib, kövrəldi. Qüdrətov əlini onun çiyninə qoydu:

– Narahat olma, biz sənə kömək edəcəyik!

– Hamı elə bilir ki, mən dəliyəm. Düzdür, imkanım yoxdur, heç kim də məni işə götürmür. Mən də dilənməyə məcbur qalıram. Amma mən dəli deyiləm. Hərdən belə oluram...

– Necə?!

– Bayaqkı kimi... Özümü ələ ala bilmirəm. Anam yazıq deyirdi ki, məni bu vəziyyətə kökü kəsilmiş ermənilər qoyub. Mən hələ doğulmamışdan anam müharibədə girov düşüb. Ona işgəncələr veriblər, mən də belə olmuşam...

– Anan nə vaxt rəhmətə gedib?

– On bir il olacaq... Mənim onda səkkiz yaşım var idi.

– Həsrət, danışa bilərsən həmin illəri? Ananın dediklərindən yadında nə qalıbsa, hamısını. Elə bunu danışsan, bizə kömək etmiş olacaqsan.

– Mən onda uşaq idim. Çox az şey yadımda qalıb. Amma nə yadımdadırsa hamısını danışaram. Siz də

anamın məzarını tapmaq üçün mənə kömək edin. Xahiş edirəm...

– Əmin ol ki, sənə onun dəfn olunduğu yeri göstərəcəm. Bir yerdə gedəcəyik, – Qüdrətov dilənçi oğlanı arxayın etdi. Əslində dilənçi oğlanın tapılmasında vasitəçilik edən Həsrəti saxlamış həmin qoca qarının qızı oğlanın anası Şərqiyyənin harada dəfn olunduğunu ona göstərmişdi. O, indi bunu düşünüb ürəklə söz verdi.

***

O vaxt biz anamla Goranboydakı uşaq evində qalırdıq. Burada bizim kimi çoxlu məcburi köçkünlər toplaşmışdı. Xocalıdan olanlar da var idi, digər yerlərdən olanlar da. Hamının güzəranı pis idi. Darısqal otaqlarda on nəfərə qədər adam yaşayırdı. Neçə-neçə qohum-qonşu bir otaqda qalırdı. Amma bizim qohumlardan heç kim qalmadığına görə tanımadığımız adamlarla qalırdıq. Deyəsən, onlar Şuşadan idilər. Hamı bir-birinə kömək etməyə çalışırdı ki, beləcə ağır günləri çətinliklə də olsa, başa vursunlar.

Mən məktəbə gec getdim. Doqquz yaşım olanda Xırdı nənə məni qaldığımız yerin yaxınlığında açılan dərslərə yazdırdı. Onda anam bir il idi ki, rəhmətə getmişdi. Mən onsuz çox darıxırdım. Anam öləndən sonra məni Xırdı nənə saxlayırdı. Mənə çox kömək edirdi. O, Şuşadan idi. Sonralar bildim ki, mənim atam Xocalıdan olsa da, anam Şuşadan imiş və anam can üstündə olarkən Xırdı nənəyə yalvarıb mənə baxmağı vəsiyyət edibmiş. Yazıq anam...

Təxminən iki il sonra Xırdı nənə də rəhmətə getdi və mən tamamilə kimsəsiz qaldım. Doğrudur, onun qızı var idi. Amma o, hansısa rayona gəlin köçmüşdü. Mən ilk günlər onu axtarmaq istəsəm də, yerini tapa bilmədim. Uşaq evində məskunlaşmış qonşularımız isə onu tapmaqda mənə kömək etmirdilər. Hərə bir bəhanə ilə məni

azdırırdı. İndi onları da qınamıram. Problemləri, dərdləri o qədər idi ki... Mənim himayədarım da rəhmətə gedəndən sonra mən qaldığımız yerdən qaçmaq qərarına gəldim. Bilmirəm, buna qaçmaq demək olar, ya yox?.. Əslində, mənə sahib çıxacaq, "getmə, qal" deyən bir kəs də yox idi. Hərənin başı özünə qarışmışdı. Əksinə, qalmaqla kiminsə yerini dar etmiş olurdum.

Xırdı nənə öləndən on gün sonra gecənin birində evdən çıxıb Bakıya getmək qərarı ilə yola düşdüm. Adını eşitdiyim paytaxt şəhərimizə getmək, oranın insanları ilə eyni yerdə yaşamaq, eyni havanı udmaq, onların içdiyi sudan içmək mənə yuxu qədər əlçatmaz görünürdü. Axı Bakını görməmişdim. Bəlkə də, nə vaxtsa orada olmuşdum, tamam kiçik yaşlarımda.

Bakıya getmək üçün yola düşəndən iki gün sonra oraya çatdım. Yol maşınlarına yalvar-yaxar edib, nəhayət ki, birtəhər şəhərə gəlib çıxdım. Nə yaşım var idi ki?! On yaşı yenicə tamam olan, oxumağıyazmağı bacarmayan kimsəsiz yeniyetmə kimin nəyinə lazım idi axı?! İndi saymağı və adımı yazmağı bacarıramsa da, buna görə anama minnətdaram. Yazıq arvad xəstə canı ilə başıma sığal çəkəçəkə öyrətmişdi bunları mənə. Mən də uşaq şıltaqlığı ilə hər dəfə onun dərslərindən qaçır və saatlarla meşədə gəzib dolanırdım. Bir dəfə saymağı öyrənmək istəmədiyim üçün bərk əsəbiləşmişdi. Mən də uşaqlığıma salıb fürsət tapan kimi meşəyə qaçdım. Gələndə anamı pis vəziyyətdə görüb çox peşman oldum. Sən demə, mən gedəndən sonra yazıq arvadın şiddətli böyrək ağrısı başlayıbmış. Axı tək böyrəklə yaşayırdı anam. Girovluqdan qayıdandan sonra sağ böyrəyini çürüdüyünə görə kəsib götürmüşdülər. Heç o biri də sağlam deyildi. Tez-tez şiddətli ağrılardan əziyyət çəkirdi. Həkimlər təcili olaraq əməliyyat olunmasının vacibliyini desələr də, imkansızlıqdan

mümkün olan iş deyildi bu. Elə bu xəstəlikdən də dünyasını dəyişdi yazıq...

Bakıya gələndən sonra mənim üçün xəyal etdiyim günlərin əvəzində daha ağır anlar başladı. Dilənçilik etdim, zibilliklərdə yatıb-durdum, işləmək istədim, amma işə qəbul edən olmadı... Və doqquz ildir ki, sürünürəm... Bu həyatda iki arzum var. Birincisi anamın məzarını tapıb ziyarət etmək...

Oğlan bu dəfə çox kövrəldiyi üçün sözünü sona qədər çatdıra bilmədi. Qüdrətov bu dəfə də əlini onun çiyninə qoyub təskinlik verdi. Tahirə işarə etdi ki, oğlan üçün yemək-içməyi hazırlasın. Deyəsən, söhbətini yekunlaşdırırdı.

– Bəs, ikinci? – Qüdrətov onu mövzuya qaytardı.

– O biri də əsgər olub vətənimi qorumaq! – bu sözləri o qədər ürəklə dedi ki, sanki bir az əvvəl kövrəlib uşaq kimi göz yaşı axıdan adam deyildi.

– Bəs, anan qohumlarınızdan heç vaxt danışmırdı? – təcrübəli əməliyyatçı eşitmək istədiyi ən vacib məsələyə toxundu.

– Onlar hamısı ölüb gedib, şəhid olublar. Anam deyirdi ki, onlardan ən son əmim Soltanın böyük qızını görmüşdü. Anam dəyişdiriləndə onu verməyiblər namussuzlar! Dediyinə görə, çox gözəl qız imiş... Çoxdan ölüb getmiş olar...

– Adı nə idi həmin əmin qızının? – mayor səbirsizliklə dilləndi. Onun indi nə hisslər keçirdiyini özündən başqa heç kim dərk edə bilməzdi. Çətinliklə olsa da, nəhayət ki, on doqquz il əvvəl baş vermiş hadisənin izinə düşə bilmişdi. Bu hadisənin açılması neçə-neçə insanın ürək ağrısı, on doqquz il əvvəl bir-birini dəlicəsinə sevən iki gəncin həyatının təlatümə gəlməsi demək idi. Qüdrətov bu an olanları çox yaxşı anlayırdı. Yaranan növbəti sükutu po-

zan cavab məxfi agenti qane etmədi. Hətta bir anlıq məyus oldu da demək olardı. Çünki dilənçi oğlan "yadıma düşmür...", deyə cavab vermişdi onun sualına.

– Yadına salmağa çalış, Həsrət! Çalış xatırlayasan. Bəlkə, onun hansısa bacısı-qardaşı var imiş, onların adını yadında saxlamısan? – Qüdrətov oğlanın həmin adı xatırlaması üçün sonuncu şansından istifadə etdi. Haqqında soruşduğu qızın, demək olar ki, bütün taleyini vərəq-vərəq oxuyan təcrübəli xəfiyyə üçün bu o qədər də çətin deyildi.

– Anam deyirdi ki, onlar iki bacı, bir qardaş idilər...

– Həəəə, bacısının adı Gülcahan idi, indi yadıma düşdü! Gülcahan idi! – oğlan yeni bir şey kəşf edibmiş kimi dik atıldı. Elə Qüdrətov da az sevinmədi. Əslində gözlədiyi cavabı almışdı. Amma doğru yolda olduğuna əmin olub, bir anlıq rahatlıq hissi keçirtdi. İndi artıq o, dəqiq bilirdi ki, bu oğlan həmin gündəliyi yazan Aytəkinin doğma əmisi oğludur. Onun bacısının adının Gülcahan, atasının adının Soltan olması bunu bir daha təsdiq edirdi. Amma təcrübəli əməliyyatçı çətinliklə tapdığı bu adamdan bu qədər az məlumat almaqla kifayətlənmək istəmirdi. Aytəkinin sağ və ya ölü olması haqqında isə hələlik dəqiq bir fərziyyəsi yox idi. Buna görə də oğlanı nəzarət altında saxlamağı düşünərək, nəhayət, ayağa qalxdı:

– Həsrət, sən hələlik bizim himayəmizdəsən. Burada qalacaqsan. Məsləhət görürəm ki, vacib lazım olmayanda evdən kənara çıxma. Yemək-içməyini və siqaretini də artıqlaması ilə verəcəklər, çalış siqaretini də azalt. Sonra da yavaş-yavaş tərgidərsən. Danışdıq?

– Yaxşı. Amma siz demədiniz axı kimsiniz? Heç üzünüzü də görmədim.

– Buna ehtiyac yoxdur, – evi tərk etmək üzrə olan Qüdrətovun ümidverici səsi eşidildi. Oğlanın başı üstündə

dayanan Tahirə isə işarə etdi ki, bir azdan gözlərinə bağladığı qara parçanı aça bilər.

## 22. Əsirlikdən əsirliyə...

*Arpa çayı aşdı-daşdı,*
*Sel Saranı aldı qaçdı.*
*Sara gözəl, qələm qaşdı,*
*Apardı sellər Saranı.*

*Düyünü tökdüm qazana,*
*Qaldı uzana-uzana.*
*Qismətmiş qəbir qazana*
*Apardı sellər Saranı,*
*Bir ala gözlü balanı.*

Bu həzin xalq musiqisinin səsinə oyandım... Musiqi o qədər pəstdən oxunurdu ki, yarıyuxulu vəziyyətdə layla dinləyir kimi yerimdə mürgü vurmaq istəyirdim. Əslində, girov düşdüyümdən bəri Azərbaycan xalq musiqisi eşitmirdim desəydim, yalan olardı. Erməni dığaları hər dəfə əylənəndə, oynayanda öz musiqiləri adlandırdıqları Azərbaycan xalq mahnılarına qulaq asırdılar. Hətta bir dəfə Vaskanyan həmişəki işini yerinə yetirmək istəyəndə xalq mahnımız olan "Sarı gəlin" mahnısını qoymuşdu. Onun bu musiqini bilərəkdən qoyması aydın idi: məni vəhşiyə döndərmək və bundan zövq ala-ala kamına çatmaq. Desəm ki, mən daima mübarizə aparır, onu yaxın buraxmaq istəmirdim, düzgün olmazdı. Daha yorulmuşdum. Get-gedə taleyimlə barışırdım. Samirənin dediyi kimi, bir dəfə heç bir hərəkətinə reaksiya vermədiyim üçün o, ehtirasını içində boğmuşdu. O qədər çılğınlaşmışdı ki, hirsindən ehtiras belə ondan üz döndərmişdi.

Bu tipdə insanlar cinsi əlaqədən zövq almaq üçün manyaka çevrilirlər. Qarşısındakı müqavimət göstərməyəndə heç nə edə bilmir, bundan da dəliyə dönürlər. Vaskanyan da belələrindən idi. Məni  o qədər döymüşdü ki, huşumu itirmişdim, gözümü açanda özümü donuz tövləsində tapmışdım.

Onun həzz alması həmişə alınmırdı. Bu onun kişilik problemi idi. Buna görə də o, adətən, başqa ermənilərin yanında girovlarla cinsi əlaqədə olmaqdan yayınırdı. Problemini kimlərinsə bilməsi onu qorxudurdu. Qorxduğu üçün də ehtirası gizlənirdi. Hətta hiss edirdim ki, o, cinsi əlaqədə olanlara baxaraq daha çox zövq alırdı. O, əsl heyvan xarakterli insan tipi idi. Əslində heyvanda da olan sahiblənmək hissi ona yad idi. İstənilən bir kişi qadınına sahiblənər, onu kiməsə təqdim etməzdi. Dəxli yoxdur, bu, fahişədir və ya sevgilisi. Bu, insan övladının xislətindədir. Hətta kənddəki xoruzlar belə toyuğunun başqa bir xoruzla yaxın olmasına icazə vermir. Amma bunun Vaskanyan üçün heç bir fərqi yox idi... Mən ona məxsus idim. O da mənim razılığım olmadan sahibim idi. Sözünün keçərliliyini, vəzifəsinin sanbalını nəzərə alsaq, o məni kimsəyə təqdim etməyə bilərdi, buna gücü də çatardı. Amma o, manyak idi. Gülcahan daha qəşəngdir, – deyə-deyə, həm özü, həm də başqaları bizi zorlayırdılar. O da bundan zövq alırdı.

Onun istədiyi kimi olmağım üçün həmişə yeni bir şey tapırdı. “Sarı gəlin” musiqisinin sədaları altında mənə təcavüz etmək istəməsi isə mənə girov olduğum müddətdə vurulan ən iyrənc zərbə idi. Heç Həyatın itlə cinsi əlaqəyə məcbur edilməsi mənim heysiyyətimi bu qədər tapdalamamışdı. Həmin gün, elə bil mənə güc gəlmişdi. Mən içkili halda olan Vaskanyana güc gəldim. Onu ruhumun gücü ilə itələdim. Səndələyən Vaskanyan bundan məm-

nun halda yenidən hücuma keçdi. Heç nəyi düşünmədən onunla əlbəyaxa olmuşdum. Artıq xasiyyətinə bələd olduğum bu alçağı yaxşı tanıyırdım, mən hirsləndikcə, o, ehtiraslanırdı. Amma bu mənim heç vecimə deyildi. Mən, sadəcə, onun məni zor gücünə də olsa, əldə edəcəyini bildiyim halda, əsəbimi gizlədə bilmir, köhnə rus maqnitofonuna doğru getməyə çalışırdım. O isə məni var gücü ilə çarpayıya yıxmaq istəyirdi. Müsiqinin səsi isə, sanki mənim halıma ağlayırdı. Çarəsiz tapdalanan Azərbaycan heysiyyatını, şərəfini, namusunu görüb ağlayırdı. Birinci dəfə idi ki, mən ona qalib gəldim. Ona qadın əli ilə türk şilləsi vurmağa nail oldum. Bu şillə çox sərt idi. Bir anlıq duruxmasından istifadə edib maqnitofonu götürə bildim və var gücümlə onu yerə çırpdım. O an özümü qəhrəman kimi hiss etmişdim. Hikkəmdən əllərim əsirdi. Məqsədimə nail olduğum üçün içimdəki intiqam hissinə təşəkkür də etmişdim. Milli mənliyimin təntənəli qələbəsi idi... Ondan sonra onun nə etməsi məni heç maraqlandırmadı da. Hələ də içimdə vətən, millət qeyrətinin yaşaması məni sevindirmişdi. Özümü ölümə məhkum şərəfsiz hesab etdiyim günlərin hamısına qalib gəlmişdim. Hələ də bu qeyrət hissinin məni tərk etməməsi məni ümidləndirmişdi... Axı mən elə düşünürdüm, mənim kimi övlad nəinki vətənə, heç vətənin zibilliklərinə də lazım deyil. Amma yox, daxilimdə yatan mənliyin təntənəsi məni çox ruhlandırmışdı. Bir anlıq özümü Ramilə lazımlı bir insan hiss etmişdim. Ramilin bu cür vətənpərvər qızla fəxr edəcəyini dəqiq bilirdim. Axı hələ də mən ona xəyanət etməmişdim. Bəli, buna dəqiq əmin idim, mən xəyanətkar deyildim. Nə dünyalar qədər sevdiyim Ramilimə qarşı, nə də başı bəlalı Vətənimə qarşı... Xəyanət anlayışının cismani deyil, mənəvi məsələ olduğunu hamı yaxşı bilir. Buna xəyanət adı vermək mümkün deyildi. Amma qadın ləkələndisə,

istər xəyanət olsun, istərsə də zorla ləkələnsin, heç bir fərqi yox idi. Bunu başa düşmək üçün gərək kişilər xeyli dərin düşüncəli olmalı idi. Düzdür, sevgimin tüğyan etdiyi vaxtlardakı kimi Ramillə evlənəcəyimiz, uşaqlarımız olacağını planlaşdıra bilməzdim. Amma bütün bunları Ramilə danışıb qollarında can vermək üçün hələ də ümidlərlə yaşayırdım. Ölən ümidlərlə...

Musiqinin beşiyi olan qədim Şuşa şəhərində belə bir xalq musiqisini dinləmək mənə bir məlhəm idi. Amma o musiqiyə işğal altında olan bir Azərbaycan torpağında, əsirlikdə qulaq asmaq başqa bir faciə idi... Xan əminin sümükləri sızıldayırdı indi. Pənahəli xan qəbrində yata bilmirdi. Axı torpaqlarımızın bu cür alçaqların əlinə keçməsinə dövlət necə şərait yaradırdı? Niyə bir əncam çəkilmirdi? Ax, vətən!.. Başın bəlalar içindədir. Həmişə müstəqil olma ərəfəsində bu Odlar diyarı nələr görür, nələr yaşayırdı. Mənim timsalımda vətənin taleyini rahatca görmək olardı...

Şuşanın işğalından sonra Vaskanyanın rütbəsi də yüksəlmişdi. O, indi polkovnik olmuşdu. Şuşadakı batalyona rəhbərlik edirdi. O, bura gələndə məni Samirədən ayırıb özü ilə gətirmişdi. Samirə isə Əsgəranda qalmışdı. Müharibədən heç bir xətər görməyən bir evdə qalırdı. Rus arvadı ilə hələ 90-cı ildə ayrıldığından tək yaşayırdı. Əgər məni nəzərə almasa idik. Həyətə isə erməni əsgərləri nəzarət edirdi. Rusiyada hərbi məktəb bitirən bu alçaq hərdən deyirdi ki, böyük Ermənistanı qurandan sonra xaricə gedəcək. Fransada yaxşı dostları olduğunu dəfələrlə görmüşdüm. Bir neçə ay idi ki, məni hər gün Gülcahanla görüşdürəcəyini deyirdi. Mən də bu ümidlə bir gün bunun baş tutacağına inanırdım. Onunla yaxşı rəftar etməyə çalışır, hərdən özümü məcbur edirdim ki, onun gözünə

girim, Gülcahanı girovluqdan xilas edim. Hələ ki, bu baş tutmurdu...

O alçaq mənə tez-tez dolma bişirtdirir, iştahla yeyirdi. Evdən gedəndə isə məni içində təkcə bir çarpayısı olan otağa qatıb, qapını da bağlayırdı. Bu, bir azərbaycanlı evi idi. Evin quruluşu, evdə olan əşyalar bunu deyirdi. İndi də bu musiqi. Elə bilirdim ki, indi anam bizi səsləyəcək: "Ay qız, Aytəkin, Gültəkin, gün batdı axı, nə vaxt duracaqsınız?" Anam Gülcahanı belə adlandırıdı. Hətta Gülcahana bu adı qoyanda narazılığını da bildirmişdi. Demişdi ki, Aytəkin, Gültəkin bir-birinə çox uyur. Bu cür seçim Azərbaycanda məşhur idi. Adlar qoyulanda bir-birinə qafiyə olana daha çox üstünlük verirdilər. Amma atamın anasının adı Gülcahan olduğu üçün o, israrla bu adın üstündə durmuşdu. Əslində, heç mübahisə də etməmişdilər. Sadəcə, atam anamın narazılığını hiss etmiş, narahat olduğu üçün onun qəlbini ələ almağa çalışmışdı. Anam qadın olduğu üçün etiraz etmək hüququ yox idi. Sadəcə qəlbində yaşada bilərdi. Axı o, azərbaycanlı idi... Axı o, ərini sevir, ona hörmət edirdi. Etməli idi də, çünki bu anamın qadınlıq borcu idi. Şərqdə belə idi. Ailə mədəniyyəti bu cür formalaşmışdı Azərbaycanda. Ona görə də Avropalı kişilər Azərbaycan-türk qadını alanda özlərini kişi kimi hiss edirdilər.

*Düyünü tökdüm qazana,*
*Qaldı uzana-uzana.*
*Qismətmiş qəbir qazana...*

Musiqinin bu yerində anam gözlərimin qarşısına gəldi, toydüyün üçün uzun illərdən bəri atamdan gizlin yığdığı cehizlər yadıma düşdü. İndi anam sağ olsaydı, bizi yadına salıb ağlayacaqdı, hönkürəcəkdi... Bəlkə, elə bu mahnını da oxuyacaqdı. Oxuduqca qəhərdən sözlər qırı-

lacaq, səsi boğulacaq, o ala gözlərindən şəffaf bulaq suyu kimi axacaqdı yaşlar...

Nəqarəti dəfələrlə təkrarlayacaqdı...

*Apardı... sellər... Saranı...*
*Bir ala... gözlü... balanı...*

Bunlar yadıma düşdükcə kövrəlmişdim, başımı enli sinəsinə qoyub ağlamaq üçün Ramilimi hələ bu qədər arzulamamışdım. Bu səhnəni gözlərimin önündə canlandırıb elə hönkürdüm ki, Qarabağ dağları belə, lərzəyə gəldi. Girov düşəndən bu cür ürəkdən ağlamamışdım. Bu cür ürəyim əsməmişdi. Ağlamağın ən yandırıcı, ən təlatümlüsü idi bu. Bəzən adam özü də bilmədən ağlamaq naminə ağlayır. Məhz ağlamalı olduğu üçün ağlayır. Amma bu gün öz-özümə elə ağlamışdım ki, elə bil bütün içimdəkiləri yaş edib gözümdən axıtmışdım. Turş dadı verən göz yaşlarım, sanki zəhər idi. Hərdən dodaqlarıma dəyən göz yaşlarımın belə, halına acıyır, yazığım gəlirdi... Artıq musiqi səsi də dayanmışdı. Vaskanyanın həmişəki kimi erməni ləhcəsi ilə: "Qancıq, nə vaxt duracaqsan? Təzə gəlinlər kimi nə nazlanırsan?" – deyib qapını tələsik açıb təpiklə itələməsi məni məndən ayırdı... Bir də fransızla tanışlığımda məni silkələyəcəkdi...

## 23. O gecəki əməliyyat

– Ayağa qalx! – qaranlıq otaqda ayaq üstə dayanan adamın hökmedici səsi eşidildi.

Bu, Tahir idi – leytenant Tahir Qurbanov. Bir aya yaxın apardığı axtarışdan sonra, nəhayət ki, axtardığı adamı tapa bilmişdi. Gecənin səssiz qaranlığında diqqəti çəkməmək üçün xüsusi qara geyim və yumşaq idman ayaqqabılarından istifadə edərək rahat şəkildə bu həyətə

girə bilmişdi.

– Sən kimsən? Məndən nə istəyirsən?! – yerdə yataq paltarında əlləri bağlı vəziyyətdə uzatdığı adamın zarıltılı səsi eşidildi. Yaşı 40-45 arası olan bu adamın ləhcəsindəki rus üslubu yuxulu vəziyyətində açıq-aşkar hiss olunurdu.

– Aleksey, mən çox sual verən adamları sevmirəm! – Tahir əlindəki yapışqanlı parçanı onun ağzına yapışdırıb cəld hərəkətlə yaxasından tutaraq ayağa qaldırdı:

– Gedirik, cəld ol! Vaxtım yoxdur.

Həmin adam onun əlində çırpınmağa başladı. Hiss olunurdu ki, Tahir onu qapıya tərəf çəkdikcə başı ilə qonşu otağı göstərib nə isə demək istəyir. Leytenant bilirdi ki, həmin otaqda Alekseyin anası Motya qalır. Odur ki, qapıdan çıxartmaq üzrə olduğu adamın qulağına pıçıldadı:

– İstəyirsən ananı da aparaq, tək qalıb darıxmasın. Bu sözlər gecənin qaranlığında o qədər vahiməli səsləndi ki, Aleksey udqunub gözlərini bərəltdi.

Köhnə həyət evinin paslı darvazasının cırıltısı eşidildi. Bu darvazadan çox həbsxana barmaqlıqlarına bənzəyirdi. Tahir özü ilə apardığı adamı tələsdirərək yaxınlıqda saxladığı maşınına tərəf getməsini bildirdi. Gəncənin köhnə məhəllələr adlanan kiçik hissəsindəki bu həyət evindən gələn qəribə qoxu küçəyə çıxmalarına baxmayaraq, hələ də dözülməz təsirini itirməmişdi. Yaxınlıqdakı köhnə uçuq daxmadan gələn donuz səsləri bu vəziyyəti sona qədər tamamlayırdı. Heyvanlar hənirtini eşidib oyanmış, indi də, sanki öz dillərində üzrxahlıq edirdilər. Motyanın bu həyatda oğlundan sonra ən çox sevdiyi varlıqları olan bu xoşagəlməz heyvanlar müsəlman adət-ənənələrinə görə bəyənilməsə də, qadın uzun illərdir ki, onları saxlayır, artırır və qulluq etməkdən də bezmirdi. İndi köməksiz olduğu üçün heyvanların peyini həyətin kənarlarına

qədər gəlib çıxaraq burun göynədən üfunət qoxusu yaradırdı. Hətta arvadın gəlir mənbəyi olan həyətdə əkdiyi güllərin gözəl qoxusu da bu peyinin iyinə qarışaraq itib getmişdi. Bəlkə də, belə bir natəmiz həyətdə becərildiklərinə görə bütün tülpanlar etiraz olaraq öz sahiblərini gözəl qoxularından məhrum etmişdilər. Hər gün bu həyətdən gül-çiçək almağa gələn adamların sayı da get-gedə azalır, qoca qarı isə bundan məyus halda işəyaramaz oğluna və sevimli donuzlarına baxıb köks ötürməkdən daha da tükənirdi. Sonuna yaxınlaşmaqda olan gecənin səhərini isə o tək qarşılayacaqdı... Alekseysiz... Yəqin ki, oyanarkən oğlunun yoxa çıxdığını görəndə heç sevimli donuzları da onun köməyinə çata bilməyəcəkdi. Əvvəllər narkoman oğlunun son illərdə əyyaşlığa qurşanması onu nə qədər bezdirirdisə, sabah açılanda oğlunu evdə görməyəndə daha çox məyus olacaqdı... Hər gün onu söyüb lənətlədiyinə görə min dəfə peşmançılıq hissi keçirəcəkdi... Axı o da ana idi. Qərib məmləkətdə kimsəsiz keçən ömrünün yetmiş ilini haqlamışdı bu qadın...

***

– Cənab mayor, mən iki-üç saata Bakıya çataram. Harada görüşəcəyik? – səhərə yaxın çalınan telefon zəngində Tahirin yorğun səsi eşidildi.

– Sənin evində - telefonun o biri tərəfindən Qüdrətovun qəti fikri eşidildi. O, Bakı kəndlərindən birində yerləşən həmin gizli görüş yerini nəzərdə tuturdu. Bura Tahirin əlavə evi olduğu üçün onlardan başqa heç kəs evin ünvanını bilmirdi. Hətta Salah və Zaur da bu evin varlığından xəbərsiz idilər.

Qüdrətov qısa telefon danışığını bitirib həyətə düşdü. İmkan tapıb ənənəsinə uyğun olaraq təmiz havada bir az vaxt keçirtmək istəyirdi. Çünki bir azdan yenə də

gecədən yatan insanlar ayılacaq, maşınlar işə düşəcək, küçələrdə səs səsə qarışacaqdı. Hələ toz-torpaq... Bu daha dözülməz idi. Bu fikirlə həyətdə çox ləngiməyib birbaşa küçəyə çıxdı.

Təmiz hava beyninə yol etdikcə, sanki bütün sinirlər səhər rütubətinin təsirindən ayılır, işə başlamağa tələsirdilər. Qüdrətov ötən bir ay ərzində baş verənləri xatırlayaraq enli küçə ilə gəlib şam ağaclarının yaxınlığında dayandı. Ciyərdolusu nəfəs alıb yaxınlıqdakı skamyada oturdu. Bu dəqiqələrdə Tahirin gətirdiyi adam haqqında düşünürdü. Yəqin ki, Aleksey danışardısa, bir ay sürən şübhələrə az da olsa, aydınlıq gələcəkdi. Əslində, Tahiri Gəncəyə tapşırıq dalınca göndərəndə həmin adamın tapılmasına o qədər də inanmırdı. Ancaq, deyəsən, köməkçisinin bir aylıq axtarışı öz sözünü demişdi. Buna görə də Tahiri şəhərdəki bütün işlərindən azad edərək ona orada olmasını və Alekseyin tapılmasını tapşırmışdı. İndi isə, bir neçə saatdan sonra Qüdrətov həmin şahidlə görüşə biləcəkdi. Mayor onun izinə əməliyyata başladığı ilk günlərdən düşsə də, onu danışdıracağı gün bu vaxta qismətiymiş. Qüdrətov növbəti siqareti yandırıb saatı dəqiqləşdirdi. O gəlirdi... On doqquz il əvvəl baş vermiş müəmmalı avtoqəza hadisəsinin şahidi... Məhz həmin hadisə Qüdrətovun apardığı əməliyyatla bilavasitə əlaqədar olmalı idi. Onun bütün araşdırması da buna gətirib çıxarırdı...

## 24. Aytəkindən Vaskanyana töhfə

Günlər həftələri, həftələr ayları qovurdu. Bəzən insanlar deyir ki, heç bilmirəm vaxt hardan gəldi, hara getdi. Mən, doğrudan da, bilmirdim günlər hara gedir. Hardan

gəldiyini isə misqal-misqal, addım-addım görmüşdüm. Hara getdiyindən isə heç xəbərim olmurdu. Vaskanyanın azərbaycanlı evində ona xidmət etməklə keçən günlərimdə təqvimi belə bilmirdim. Hərdən Vaskanyanın kefi kök, damağı çağ vəziyyətdə evə qayıtmasından məlum olurdu ki, hansısa bir kəndi və ya rayonu ermənilər işğal ediblər. Həmin bu günlərdə o, daha da çılğına dönür, öz sevincini gecə saatlarında gəlməsinə baxmayaraq, mənimlə əylənərək keçirirdi. Artıq o, mənə "qancıq" deyə müraciət etmirdi. Bu sözün yerini "türk gözəli" almışdı. Bu ifadədə böyük bir ironiya var idi. Əslində, gözəl olmağına gözəl, türk olmağına da türk idim. Amma onun bunu səsləndirməsi, həm də əyləncə üçün səsləndirməsi ironiyadan başqa bir şey deyildi. Bu sözü Ramil desə idi, nə qədər canıma yayılardısa, bu dildən eşitməyim bir o qədər öldürücü idi. Amma eşidirdim, həm də tez-tez. İyrəndiyim insandan eşidirdim. Alçaldıqca alçalır, yurdumun daşı ilə, torpağı ilə birgə yerlərdə tapdalanırdım.

Bəzən isə həftələrlə onun üzünü görmür, görmədiyimə sevinirdim. Amma üzünü gördüyüm günlər görmədiyim günləri elə əvəz edirdi ki, o həftələrin necə keçdiyini bilmirdim. Laçını işğal etdikləri gün nə qədər sevinmişdisə, Kəlbəcərin işğalı bu sevinci on qat artırmışdı. ""Böyük Ermənistan"a bir şey qalmır. Sən də darıxma, qohum-qardaşının hamısını məhv edəcəyik. Sən onlar üçün heç darıxmayacaqsan" – deyir, ürəkdən gülürdü.

Tez-tez qonaqları gəlir, saatlarla iş otağında nəsə danışırdılar. İş başında olanda onlara çay verdikdən sonra məni yenə öz otağıma salıb qapısını bağlayırdı.

Uşaqlıqda tez-tez gəlib getdiyim Şuşaya həsrət qalmışdım. Hər nə edərdisə razı olardım bu gözəl şəhəri bir dəfə gəzmək üçün. Şuşa uşaqlığımın şəhəri idi... Həm də ən böyük şəhəri. Bir vaxtlar elə bilirdim ki, Şuşadan

başqa şəhər yoxdu. Ağlım kəsəndən sonra bu yeri Bakı tutmuşdu. O Bakı ki, cəmi bir-iki il orda oldum. O da qəlbimə ömrüm boyu gəzdirəcəyim eşqi hədiyyə etdi. O eşqi ki, sonralar qəlbimdə qızarmış bir dəmirə çevriləcəkdi. Bəlkə də, o eşq olmasa idi, ya bu girovluqda heç bircə an da yaşamayacaq, ya da bu qədər əzab çəkə-çəkə dözməyəcəkdim. Hansısa kitabda oxumuşdum ki, "eşq" ərəb sözü olub sarmaşıq adıdır. Həmin sarmaşıq sarıldığı bitkini, ağacı qurudana qədər, ona olan məhəbbətini artırır, onu məhv etdikdən sonra özü də məhv olurdu. Mənim məhəbbətim də mənə elə sarılmışdır ki, məni məhv etməyincə mənimlə yaşayacaq, qanımı, ruhumu soracaqdı...

Şuşa daha çox da yadımda öz paradı ilə qalırdı. Bu parada gəlmək üçün hər ilin yanvarından verilən qəpikləri yığmağa başlayardım. Məktəbdə kojik almaq üçün atamın verdiyi pulları paradda xərcləmək üçün toplayardım. Ya da müəlliməmizin bizi qədim tarixi olan bu şəhərin abidələrini gəzməyə gətirdiyi günlərdə xərcləmək üçün, Bülbülün, Üzeyirin, Mir Möhsün Nəvvabın ev müzeylərinin, Qala divarının, Qacar sarayının qarşısında, Cıdır düzündə şəkil çəkdirmək üçün yığırdım.

Son dəfə 11-ci sinfi bitirəndə gəlmişdik bura. Vinetka çəkdirmək, uşaqlığımızın son günlərini sinif yoldaşlarımla birgə keçirmək üçün. Hətta Üzeyir Hacıbəyovun ev muzeyinin qarşısından keçəndə, hələ onuncu sinifdə mənə eşq elan edən Elxan mənə atmaca ilə "Elə istərdim Leylimlə əl-ələ tutub burdan keçim" deməsi heç yadımdan çıxmırdı. Fikrini mənə bildirəndə ona hirslənmiş, düz bir il onu danışdırmamışdım. Uşaq şıltaqlığı ilə onu hərdən ələ də salırdıq qızlarla. Son gəzintimizdə elə bu Şuşada "Gəl daşı ətəyindən tök, axı mən səni çox sevirəm" deməsi və cavabında isə "Bu Şuşa şahid olsun ki, bu dünyada bir sən, bir də mən qalsam, səni sevməyəcəyəm"

cümləsini məndən eşidərkən “buna görə bir gün çox peşman olacaqsan”– deyib vinetkaya şəkil çəkdirmədən getmişdi. Ondan sonra bir də heç vaxt mənim dalımca gəlməmiş, heç məktub da göndərməmişdi. İndi, doğrudan da, o sözü dediyimə peşmanam. Nəinki Elxana, elimin ən axırıncı adamına da dəyişmədiyim ermənilər mənim gözəlliyimdən zövq alır, onu istismar edirlər. Məni bağışla, Elxan, məni bağışla... Qəlbini qırdığım üçün, qədrini bilmədiyim üçün məni bağışla. Həya, ar, namus hesab etdiyimiz üçün bir gülüşümüzü belə, vətən oğlullarına əsirgədiyimiz halda, indi bu alçaqların oyuncağına çevrilmişik.

Bu türk torpağında yadların kef etməsi, orda ola-ola yad olmağım, uzaq olmağım qəlbimi göynədirdi. Belə bir tarixi şəhərin əsirlikdə olmasını görəndə mənim kimi milyonlarla insandan birinin əsirliyini yada salmaq bu şəhərə, bu torpağa ən böyük xəyanət olardı. Bütün qarabağlıların göz bəbəyi kimi sevdiyi, qürur duyduğu bu şəhər indi səssizliyə qərq olmuşdu. Yəqin ki, xarabalıqlar içində idi. Bu şəhəri işğal etdiklərinə hələ də inana bilmirdim. Həm tarixdən oxuduqlarım, həm də rəhmətlik atamın dediklərini nəzərə alsaydım, sıldırım qayalıqlar üzərində ucalan bu şəhərə girmək mümkün deyildi. Amma fakt faktlığında idi, bura Şuşa idi – işğal olunmuş Şuşa şəhəri. O Şuşa ki, ...

***

Son günlər özümü pis hiss etdiyimi o vicdansız Vaskanyan da hiss etmişdi. Elə bil qəlbinə mərhəmət gəlmişdi bu alçağın. Nəsə məni son zamanlar çox da incitmirdi. Çox pis hiss edirdim özümü. Əslində bir ildən çox idi ki, heç yaxşı hiss etməmişdim də. Amma bu, fərqli idi. Ürəyim bulanır, başım gicəllənir, yuxum gəlir, iştahım qaçır-

dı. Heç özümə yer tapa bilmir, iyrəndiyim Vaskanyanı görəndə əvvəllər ürəyim ağzıma gəlirdisə, indi az qalırdı bağırsaqlarım gəlib ağzımdan tökülsün. Həmin axşamlardan birində Vaskanyan evə bir həkim gətirdi. O məni müayinə etdi. Həmin an həkimin simasında əvvəlcə sevinc, ani olaraq yerinə keçən nifrət gördüm. O, mənə elə acıqlı baxdı ki, elə bil qayınata qarnında bic gəzdirən gəlininə baxır. Baxışlarda erməniyə məxsus çarəsiz, gücsüz bir adamın alçaldıcı münasibətini asanca görmək mümkün idi. Məndən ayrılandan sonra Vaskanyana nəsə dedi. Son sözü aydınca eşitmişdim... Bunu eşidən Vaskanyanın gözləri parladı. Tez-tələsik onu yola saldı. Qayıdan kimi məni oturduğu otağa çağırdı.

– Bilirsən, nə olub sənə?

Əslində, deyəsən, bilirdim. Ağlıma heç vaxt gətirmək istəmədiyim bir şey olmuşdu mənə. Amma yenə də bu fikri qovmaq istəyirdim özümdən, iti qovan kimi qovmaq istəyirdim.

– Nə olur-olsun, – dedim. Bundan ağır nə ola bilər ki? Girov olmağımı nəzərdə tuturdum.

– Bəxtin gətirib, ay Türk gözəli, bəxtin gətirib. Toyuğun qızıl yumurtluyub. Azərbaycanlılarla o qədər oturub durmuşdu ki, bütün mədəniyyətimizi bilirdi.

Mən nə olduğunu artıq dəqiq bilirdim. Heç nə eşitmək istəmədiyim üçün otaqdan çıxmaq istədim.

– İndiyə qədər Gülcahan üçün yaşayırdınsa, bundan sonra oğlun üçün yaşamalısan, – deyə arxadan səsləndi və qaqqanaq çəkərək güldü.

Mən hamilə idim... Həm də 4 aylıq... Özümdən eşitdiyim bu söz mənə cəhənnəmin səsindən əzablı gəldi. Ola bilməz, bu mümkün deyildi. Axı mənim günahım nə idi? Tanrı niyə mənə bu qədər əzab verirdi? Niyə bu qədər işgəncə, əzab yaşadırdı. Qışqırmaq istəyirdim. Bağırmaq

istəyirdim. Yerə düşməsini istəyirdim o Tanrının. Mənim günahımın nə olduğunu soruşmaq istəyirdim. Nə etmiş-dim axı, o mənə bu qədər ağır həyat yaşadırdı? Mən bilən, mənim bu həyatda bunların mində birini qazanacaq günahım yox idi. Əgər bu işgəncələr ata-anamın günahı idisə, onda bu tanrı dedikləri gözə görünməzin ədalətdən xəbəri belə yox idi. Axı onların olmadığı bir həyatda mən niyə onların günahının əvəzini verməliydim? Lap belə tutaq ki, həyatda idilər, necə ola bilər ki, bir insan başqasının əvəzində əzab və işgəncəyə düçar olsun?! Bu Tanrı dediklərinin ədaləti bu idimi? Yaxşı, ola bilsin ki, mənə verilən bu əzablarla o dünya adlandırdıqları cənnəti qazanacaqdım. Axı o cənnətin qazanılması bu qədər iztirablı idisə, o cənnət kimə lazımdır? Kimin nəyinə lazımdır belə cənnət? Məncə, məni yaradan Tövratın, İncilin, Zəburun, Quranın dediyi Tanrı ola bilməzdi. Ya o Tanrı bizi yaradıb ki, uşaq oyuncaqları ilə əylənən kimi əylənsin, ya da onun oyuncaqlarını məhv edən, dağıdan, amma onun gücü çatmadığı başqa bir tanrı vardı.

Axı atam Soltanın dilinin əzbəri olmuş "Allah adamın ürəyinə görə verir" fikrini mən çox bəyənirdim. Bu sözü eşidəndə ürəyimlə fəxr də edirdim. Deyirdim ki, mənim ürəyim qızıl kimidir, yumşaqdır, insanları sevir. Tanrı bunu nəyimə görə mənə "hədiyyə" edirdi. Bu nə allahlıqdı edir?

"Mən hamiləyəm, kimdən?!" Bu sözü nə qədər ürəyimin dərinliklərində səsləndirsəm də, bütün dağlar-daşlar duyurdu. İnanmıram, onlar da ağlasın halıma, çünki onları da bu mərhəmətsiz Tanrı yaratmışdı.

Bu hadisə bütün fəlsəfələrin, dini ehkamların, deyimlərin, Tanrı haqqındakı ehtimalların tar-mar olub dağılması, süqutu, çöküşü idi... Bundan sonra nəinki Tanrının varlığına inanacaq, heç adını da çəkməyəcəyimə söz ver-

mişdim. Ona nifrətlə yaşayacaqdım. Nə qədər sübut, dəlil gətirsə idilər də, mənə etdiklərinə görə bağışlamayacaqdım onu.

Bunları yaşadıqca mənə məlum olurdu ki, Tanrı ona verilən qiymətlərə layiq deyil. Çünki bu dünyanı bu tərzdə bir Tanrı idarə edə bilməzdi. Onun şəriki vardı. Özü də onunla yola getməyən şəriki. Əgər O tanrı vardısa, dinlərdə deyildiyi kimi, o, dünyanın inkişafını, gözəlliyini istəyirdisə, ondan güclü olan onun şəriki buna imkan vermirdi. Bu, Şeytan adlandırdıqları uydurma varlıq ola bilməzdi. Bu, bu dünyanı idarə edən, ən azından bizim tanıdığımız Tanrının gücünün yarısına malik olan başqa bir Tanrı idi. Bunu bizim şüurumuzda yaratdığımız tanrı edə bilməzdi. Məni bu övladı dünyaya gətirəcək qədər zorlayan tanrı mənim tanrım ola bilməzdi.

Təpəgöz türk ərinin zorladığı mələkdən dünyaya gəlmiş dünyanı udacaq qədər məkrli olmuşdu. Təpəgözün nə anası, nə də atası şər idi. Bəlkə də, anası şər olmuşdu, amma ən azından atası şər qüvvə olmamışdı. Amma mənim bətnimdəki şərdən, zalımdan törəmişdi axı. Onun dünyaya nə qədər düşmən kəsiləcəyinə kim zəmanət verə bilərdi. Az qalırdım o şər Tanrısını tapım, deyim ki, sənə halaldı, mən də sənin tərəfinə keçirəm. Mən də sənin qulun oluram. Çünki sən güclüsən, çünki sən böyüksən...

Həmin gün bu düşüncələr məni didib-dağıtdı. Nəinki əlimi qarnıma yaxınlaşdıra bilmir, heç gözucu da olsa, baxa bilmirdim. O qarında ki, ruhumu şər qüvvə ilə birgə bölüşən körpə böyümüşdü. Axı mən bundan niyə xəbərdar olmamışdım? Niyə bunu hiss etməmişdim? Niyə bu günə qədər ona canımdan can verib yaşatmışdım. Allahımı bağışlaya bilmədiyim kimi, özümü də bağışlaya bilmirdim.

Cavabını tapanda isə insani hisslərin mənə yenidən

qayıtdığını hiss etdim. Axı necə biləydim, anam yanımda deyildi  ki, ondan bu məsələlər barəsində məsləhət alım, ərim yox idi ki, ona övlad vermək üçün tələsim və narahatçılıq hiss edəndə kimdənsə soruşum, rahat günüm yox idi ki, bir yerim ağrıyanda hiss edim. Axı mən qızlıq şərəfini itirən aciz bir Allah bəndəsi idim. Allah sözünü bu cür işlədəndə bir daha insanlığıma, acizliyimə yenidən döndüyümün şahidi oldum.

Təkcə qarnımda ağrı, fərqli bir şey hiss etməmişdim ki, hamilə olduğumun fərqinə varım. Uzun müddət soyuqda qalmaqdan böyrəklərim, döyülməkdənsə hər yerim ağrıyırdı. Əslində, bizim şəhərdə bu hamiləliyi bəxtəvərlik adlandırırdılar. Məndəki "bəxtəvərlik" isə bambaşqa idi. Bu "bəxtəvərlik" elə bir hiss idi ki, məni yalnız ölümlə hədələyirdi. Bu bəxtəvərliyin son nöqtəsi yalnız və yalnız intiharda idi...

Üzümü hələ də instinkt kimi alt şüuruma yerləşən tanrıma tutub məni bağışlamasını istədim. Bu isə o demək idi ki, özümün də xəbəri olmadan onun varlığını qəbul etmiş, onu bağışlamışdım... Axı niyə?! Bunun səbəbi nə idi?..

## 25. Düşünülmüş qəza

– Xahiş edirəm, məni öldürmə! Yalvarıram... Ayy... Heç olmasa balalarıma görə yazığın gəlsin... Ayy... aaa – döyülməkdən ağzı-burnu qana bulaşmış adam növbəti dəfə ağzıüstə yerə yıxıldı. Qüdrətov onu qaldırıb divara söykədi. Bu anda mayorun gözlərindəki qorxunc qəzəbi, bütün üz cizgiləri ilə əks olunan nifrəti görüb sakit nəfəs almaq bu adam üçün çox çətin idi.

– Deyirsən, yadından çıxıb hə, kim idi o?! – mayorun növbəti yumruq zərbəsi adamın üzündə elə açıldı ki, başı divara çırpılaraq huşunu itirdi.

– Deməli, tanımırdın onu, hə?! Qalx ayağa, it oğlu, it. Şərikin gəlib, səni axtarır! – Qüdrətov növbəti dəfə onun yaxasından sürüyərək dəmir stolun üstünə çəkdi. Yanındakı vedrə dolu buz kimi suyu başından aşağı tökərək ayılmasını gözlədi. Sonra isə bayaqdan bəri bu mənzərədə yalnız izləyici mövqeyi tutan Tahirə üzünü tutdu:

– Gətir, o biri iti də buraya!

Tahir hələ də nə baş verdiyini anlamadan sakitcə otaqdan çıxdı. Qüdrətovun dediyi adamı – Alekseyi qonşu otaqdan bir az da gec gətirsəydi, mayor həmin adamı döyə-döyə öldürə bilərdi. Tahir onu heç vaxt belə görməmişdi.

– Qasançik?! – Tahirin kürəyindən itələyərək otağa saldığı Aleksey içəri girər-girməz bunu dedi. Şübhəsiz ki, döyülməkdən inildəyən adama səslənmişdi.  O, deyəsən, elə indi özünə gəlmişdi.

– Sənin ananı... – Alekseyin “Qasançik” deyib çağırdığı, əsl adı isə Həsən olan bu adam sözünü sona qədər çatdıra bilməyib yenə də özündən getdi.

– Mənim anamı neynirsən, ay bədbəxt?! Özünə gəl, yaxşı yer tapmışam, səni oraya aparacağam! – Aleksey bunu demişdi ki, boynunun ardından dəyən təpik zərbəsi, sanki onun bütün dünyasını başına uçurtdu. Zərbə o qədər sarsıdıcı oldu ki, gülmək üçün iyrənccəsinə çölə çıxardığı dili, sanki dişləri arasında ilişib qaldı. “Öldüm, ay ana!..” – o yalnız bunu deyib yerə sərildi.

– Peysər oğlu!

– Bunların ikisinin də əllərini bağla, qoy özlərinə gəlsinlər. Mən aşağıdayam, – Qüdrətov siqaret yandırıb həyətə düşdü.

***

– Bu "Həsənçik" kimdir belə? – pilləkənləri düşmək üzrə olan Tahir adamın adını özünəməxsus avaz ilə səsləndirərək həyətə çatar-çatmaz tələsik soruşdu. Hiss olunurdu ki, məsələnin kökünə getməkdə o da çox maraqlıdır. Bir aya yaxın axtardığı, tapıb buraya gətirdiyi Aleksey kim idi axı?! Onun Həsən deyilən bu adamla nə əlaqəsi var? Ümumiyyətlə, Qüdrətovun hələ də heç kimə məlumat vermədiyi bu əməliyyatın sonu kimə bağlıdır? Gənc leytenant bir an olsun vaxt itirmədən bu sualların cavabını eşitmək istəyirdi. Qüdrətov isə təmkinlə növbəti siqareti yandırdı. Özü də başa düşürdü ki, həddindən çox çəkir. Amma, deyəsən, siqaretdən sonra əməlli-başlı sakitləşmişdi.

– Hə, cənab mayor? – Tahir ona bir az da yaxınlaşıb sual verdiyini xatırlatdı.

– Ayıldılar?

– Hələ ki, yox! – Qurbanov vəziyyətdən razı halda dilləndi.

– O Həsən bilirsən kimdir? – təcrübəli əməliyyatçı, sanki bir anlıq nə deyəcəyini, haraya qədər deyəcəyini planlaşdırırmış kimi söhbəti uzatdı. Tahir isə yalnız üz mimikalarının iştirakı ilə yaranan qəribə bir görkəm almışdı bu an. Maraqlı idi ki, onun bu cür uşaq kimi hər şeydən bixəbər quruluş yaradan siması Qüdrətovu da bir anlıq gülümsəməyə və sonra isə danışmağa məcbur etdi.

– Həsən əslində şərəfsizin biridir, – mayor izahat verdi. Qarabağ müharibəsinin qızğın vaxtında dövlətin ona tapşırdığı kiçik işi yarıda bilməyib. Şərəfsizlik edib! O vaxt bu həbsxana maşınında sürücü işləyirmiş. Sənin Gəncədən tutub gətirdiyin Aleksey isə buna çoxlu miqdarda pul verərək dövlətin həbsxana maşınını bilərəkdən qəzaya uğratmağı tapşırıb. Mənim öyrəndiyimə görə Həsə-

nin sürdüyü maşının qarşısına çıxan yük maşınını da elə Aleksey özü sürürmüş. Yəni qurama bir iş görüblər. Maşının içərisində cəhbə bölgəsinə dəyişdirilmək üçün aparılan Qarib adlı erməni var idi. Həmin dığa Ermənistanda Jor adlı qadının oğlu idi ki, bu qadının da o vaxtkı və indiki yüksəkçinli məmurlarla, əsasən də hərbçilərlə sıx əlaqəsi olub. Mən Qədim adlı bir nəfəri bu məsələ ilə bağlı danışdırdım. Qüdrətov bunu deyib gözucu Tahirə baxdı. Bilərəkdən Xocalı ilə bağlı söhbət salmadı. Hətta Qədimin əslində Xocalıda əsir düşüb dəyişdirilmiş bir adam olduğunu da bildirmədi. Nədənsə hələ də öz şübhələri əsasında başladığı bu əməliyyat haqqında heç kimə tam danışmaq istəmirdi...

Jor adlı həmin qadın o vaxt Əli adlı bir nəfər azərbaycanlı əsir oğlanı öz yanında saxlayırmış. Hətta ona oğlu kimi baxacağına da söz veribmiş. Şahidlərin dediyinə görə, Jor sözünün üstündə sona qədər durub. Amma bizimkilər onun oğlunu sağ qaytara bilmədiklərinə görə o da Əlini sağ yox, öldürüb vermişdi. Sən başa düşürsən, bu, necə də dəhşətlidir?! Bir saatdan sonra sağ-salamat evinə qayıdacağı halda, hansısa xainin ucbatından valideynlərinə kəfəndə gəlib çıxır...

– Bəs, siz nəyə əsasən deyirsiniz ki, bu, xainlikdir? Bəlkə, Aleksey həqiqətən də, Həsənin maşınını bədbəxt hadisə nəticəsində vurub.

– Yox, əzizim. Sən məni tanıyırsan. Mən heç vaxt əmin olmadığım ehtimalımda bu qədər kəskin davranmamışam. Birincisi, mən bu işi araşdıranda mənə ilk qəribə gələn o oldu ki, dövlət maşını həmin vaxt nəyə görə ara küçələrlə gedirmiş. İkincisi, Həsəndən şübhələnəndən sonra onu axtarıb tapıb evində olmuşdum. O, hələ indi də bundan xəbərsizdir ki, mən onun evindən şəkil albomundakı Aleksey ilə olan şəklini tapmışam. Yəni ki, Həsən ilə

Aleksey həmin avtoqəza hadisəsinə qədər bir-birini tanıyırlarmış, ya da ki, həmin hadisədən sonra onlar dost olublar. Etiraf elə ki, ikinci versiya ağlabatan olmadığına görə, birincinin üzərində dayanardın sən də.

– Elədir... – Tahir onun fikrini yayındırmaq istəmədi.

Və üçüncüsü, şahidlər, əsasən də Qədim adlı həmin qoca deyir ki, hadisə ən son anda baş verib. Yəni ki, qabaqcadan dəqiq məlum imiş ki, Əli həmin gün sağ-salamat Qarib ilə dəyişdiriləcək. Və bu da o deməkdir ki, "bu işin içində bir iş var". Qüdrətov sonuncu sözləri qəribə tərzdə dedi. Çünki bu Tahirin adət edib gündə ən azı beş-altı dəfə dediyi ən sevimli ifadəsi idi.

– Doğrudan da, işin içində iş var imiş ki... – Qurbanov fikirli halda dilləndi. İndi onun simasında bayaqkından daha çox təəccüb var idi. Amma bunu müəyyən etmək çətin idi ki, onun kəskin marağına səbəb olan Qüdrətovun az qala iyirmi il sonra üstünü açdığı məsələ idi, yoxsa Qaribin müəmmalı səbəbdən öldürülməsi. Deyəsən, elə Qüdrətovun da bütün beyni ikinci məsələyə köklənmişdi. Tahir bunu mayorun susmasından hiss edib danışdıracaqları adamların ayılıb-ayılmadıqlarını yoxlamaq üçün yuxarı qalxdı.

## 26. Ümidlərin cəhənnəmdə dirilişi

– Salam, bacı, necəsən? Yaşadığını eşidəndə, elə bil ki, yenidən doğuldum. Hər şeydən əlimi üzdüyüm zaman sənin yaşadığını eşitməyim bütün həyatımdan gəlib-keçənləri unutdurdu mənə. Məndən narahat olma, həyatda yeganə ümidim sən idin, səni bir də görmək, saçlarıma çəkdiyin sığalı bir də hiss etmək üçün başıma

gələnlərin hamısına dözərəm. İnsan nəyəsə görə yaşadığını biləndə, yaşamaq həvəsi ölməyib deməkdir. Ən sonda ölən ümidlərin belə tarmar olduğunu düşündüyüm halda, sənin həyatda olduğunu, məni soruşduğunu, məni axtardığını eşitməyim... mənə can verdi... Bircə səni görsəydim... Bacı, biz görüşəcəyik, bu, ürəyimə damıb, biz qovuşacağıq, sən yenə mənə xəbərsiz olduğum məsum sevgidən danışacaq, heç kimə deməməyimi tapşıracaqsan. Buna inanıram...

Bunları  intihar haqqında düşündüyüm və bu gecə bunu həyata keçirəcəyimə söz verdiyim zaman Vaskanyanın gətirdiyi videodan eşitdim. Gülcahan sağ idi, o yaşayırdı. Onu görmək mənə nəsib olmuşdu. Amma qara qutunun içində. Gülcahan dəyişmişdi. Həm də çox.... Yeniyetməliyin açılmamış qönçə kimi solduğunu gördüm onun simasında. Hətta danışarkən ağlamamağa çalışdığını da aydınca hiss etdim. Hətta sonda ağladığı da məlum idi. Son cümləni dediyi zaman özünü saxlaya bilməməsi kadrın yarımçıq kəsilməsindən görünürdü. Bu kadrlara bir daha, bir daha baxmaq üçün Vaskanyana yalvarmışdım da. O da bundan zövq ala-ala mənim xahişlərimi yerə salmırdı. Məqsədinə çatdığına görə şərəfsiz gözlərində bir sevinc hissi də işarırdı. Əgər uşağı sağ-salamat doğsaydım, Gülcahanı vətənə qaytaracağını da deyirdi. Və buna inanmağım üçün israr da edirdi. Mənim də inadıma azdan-çoxdan bələd olan bu vicdandan xəbəri olmayan it özünü yaxşı insan kimi göstərməyə çalışırdı. Maraqlı idi, görəsən, türklərə bu qədər nifrət edən bir şəxs türkdən uşağı olmasına niyə bu qədər sevinirdi? Bunu gizlətməyə çalışsa da, əməlləri hər şeyi deyirdi. Bir dəfə kefli vəziyyətində həkimlərin ona uşağının olma ehtimalının çox az olduğunu dediyini mənə söyləmişdi. Amma insanlıqdan xəbəri olmayan bu adamın uşağı olsaydı, nə dəyişərdi?

Həm də ona nifrətlə bəslənən bir uşağın. Həmin gün mənə o qədər vədlər verdi ki, buna inanmaq ağılsızlıq olsa da, inanırdım. Axı çarəm yox idi...

Gülcahanın "buna inanıram" kəlməsi qulaqlarımda cingildəyirdi. Artıq intiharı unutmaq, yenə də Gülcahan üçün yaşamaq və yaşatmaq lazım idi. Bu dəfə bacarmırdım. Bu uşağı dünyaya gətirə bilməzdim. Artıq öz cismimdən iyrəndiyim kimi, ruhumdan da iyrənirdim. Bu hamiləlik təkcə cismani məsələ deyildi axı. Buna ruhum necə icazə vermişdi, inana bilmirdim. Cismimin ixtiyarı məndə deyildi, ruhumdan da xəbərim yox idi. Bəs mən kim idim? Məndən xəbərsiz ruh və cismim bu işə imza atmışdırlarsa, buna niyə mən razı ola bilmirdim? Deməli, insan bir neçə mühüm parçadan ibarətdir. Maddiyyat yığını olan cisim, gözəgörünməz, tanrıya bağlı olan ruh və özü. Deyəsən, bunlardan yalnız insanın özü insan şəxsiyyətinə və iradəsinə bağlı idi. İndi mənim özüm bu işə yox deyirdim. Amma bətnimdə ruhumdan və cismimdən qidalanan şeytan böyüyürdü. Buna şeytan demək də düzgün deyildi, anlayırdım. Çünki mən şeytandan uzaq bir varlıq idim. Yəqin ki, bu uşaq da ikili xarakterə malik olacaqdı: xeyir və şər. Onun cismində hansının güclü olacağı isə nədən asılıdır, bilmirəm.

Axı bu cür varlığın dünyaya gəlməsinə heç bir din, heç bir təriqət, heç bir fəlsəfə, heç bir məntiq razı ola bilməzdi. Bəs mən bu vəziyyətdən necə çıxmalı idim? Buna gözümdə son halı canlanan Gülcahanın gözləri imkan vermirdi. Onun ümidləri var idi, axı o, bu ümidlərlə yaşayırdı... Mənim isə bu ümidləri məhv etməyə ürəyim imkan vermirdi. Qərarsızlıq məni məhv edirdi, nə edim, neyləyim ki, yaxşı olsun. Ən azından Gülcahan üçün. Onun üçün onsuz da qurban getməyə hazır idim. Amma indi vəziyyət tamam fərqli idi.

Günü-gündən qarnım böyüyür, böyüdükcə də qürurumun, şəxsiyyətimin, mənliyimin gözünə girirdi. İstəristəməz bu halımla razılaşmışdım. Hər gün Gülcahanı görmək arzusu ilə analıq hisslərindən uzaq olan nifrətlə yaşayırdım. Hərdən təsəvvürümə gətirirdim o uşağı: mən ona necə baxacaqdım, ona necə şəfqət göstərəcəkdim, necə ana südü verərdim?! Bu, mümkün deyildi. "Başına gələn başmaqçı olar" atalar sözü çox müdrik sözdür. Bəzən başqaları zorlanaraq qazandığı övladını atıb gedən, boğub öldürən anaları qınayır. Mən indi onları başa düşürəm, onlara haqq da qazandırıram. Axı vəhşiliyin, zülmün, işgəncənin şövqündən törəyən bir varlığın xisləti necə ola bilərdi?! Onun yaşamasına, böyüməsinə Tanrı göz yumsaydı da, insan bunu bacarmazdı. Mən, deyəsən, zülmün əlindən başını itirmiş filosofa çevrilirdim.

Bu cür düşüncələrlə özümlə baş-başa qaldığım zamanlarda dünyanın sahibi öz işində idi. Uşağın get-gedə böyüməsini, bətnimdəki hərəkətlərini yadıma salmaq istəmirəm. Bəlkə, ilk dəfə bu hissləri yaşayan analar məni başa düşərlər. İçəridən vurulan ilk təkməyə gözlərində gülüş, təbəssüm, ürəyində titrəyiş olan analardan fərqli olaraq, mən bu hissləri böyük bir qorxu ilə qarşılamışdım. Nəinki mənim, bütün dünyanın sonunun gəldiyini düşünürdüm. Bu körpə qara buludların arasından çaxan şimşəyi xatırladırdı. Şimşək yeri-göyü lərzəyə salan hava gurultusu ilə birgə çaxmışdı. İlk gurultuda insan necə qorxardısa, mən eləcə qorxmuş, sonrakı gurultuları sakitcə izləmişdim. Təəssüf ki, mən bu gözəl anları belə vahimə ilə qarşılamış, vahimə ilə də özümdən xəbərsiz yola salmışdım.

Hamiləliyin son beş ayı girovluqda olduğum illərdə keçirdiyim ən sakit günlər idi. Vaskanyan nə məni incidir, nə döyür, nə zorlayırdı. Əlbəttə, heç şəfqət də göstərmir-

di. Amma daima ciddi nəzarətdə saxlayırdı. Evə olan nəzarəti də artırmışdı. İndi keşikçilər təkcə həyət qapısında yox, evə də keşik çəkirdilər. Yəqin ki, bu da mənim intihar etməyimin qarşısını almaq məqsədi güdürdü. Mən artıq ikicanlı olduğumu hiss edirdim. Ağır bir yük daşıyırdım. O yükü nə ata bilir, nə də daşımağa gücüm çatırdı. Amma son mənzilə aparmağa məcbur idim. Vədəmin yetişdiyini duyurdum. Bunun üçün də ona verdiyi sözü xatırlatdım. Başı ilə "hə" işarəsi edib evdən çıxdı. İnanılması mümkün olmayan şeyə inanmaq istədim. Bəlkə, insafa gələr dedim. Gülcahanın qaytarılması üçün sadəcə inanmağa gücüm çatırdı axı.

Bir ay olardı ki, Vaskanyan evə gəlmirdi. Evdə sadəcə yeyir, içir, yatırdım. Elə olurdu ki, radiosuz, televizorsuz evdə saatlarla pəncərənin qarşısında oturur, keçmiş günləri xatırlaya-xatırlaya yuxuya gedirdim. Maraqlı yuxular da görürdüm. Bəzən yuxularımda elə xoşbəxt olurdum ki, ayılandan sonra da onun xoş təəssüratları ilə yaşayır, gördüyüm yuxunun ardını təsəvvür edirdim. Nə əsgərlər məni danışdırırdı, nə də mən onları. Hərdən az qalırdım ki, dilimin olduğunu, danışa bilmə hissinin varlığını unudum. Elə bil lal idim. Sadəcə düşünürdüm. Dərdimi deməyə isə tez-tez üsyan edib incidiyim, sonradansa ondan başqa kimsəmin olmadığını düşündüyüm Tanrıdan özgə heç kim yox idi. Bir də xəyallarım idi mənə yoldaş olan.

1993-cü ilin oktyabr ayı idi. Günorta saat 3-4 olardı... Məni güclü bir ağrı tutdu. Qeyri-ixtiyari elə qışqırdım ki, əsgərlərin hamısı yuxarı qalxdı. Ağrıdan dözə bilmir, elə hey çığırırdım. Bu acılı ağrılar o qədər güclü idi ki, adam elə bilirdi ölür. Əsgərlər bir-biri ilə danışanda ağrıları unutduracaq daha böyük bir ağrılı xəbər eşitdim. Bir əsgər digər əsgərə "Vaskanyan indi Qubadlıdadır", – dedi.

Bu, o demək idi ki, dünyanın axırı gəlib. Deməli, ordumuz məğlub olur, torpaqlarımız ermənilər tərəfindən işğal olunurdu. Əgər Qubadlı da işğal olunubsa, deməli, Azərbaycanın işğalına bir şey qalmayıb.

Komandirlərindən əmr alan kimi, həkim dalınca gedib, qısa müddətdə bir kişi, bir də qadın həkim gətirdilər. Məni heç yana aparmadan doğuzdurdular. Yaşadığım otaqdakı çarpayının üstündə bu işgəncəyə son verdilər. Amma heç nədən xəbərim olmadı. Çünki həyatım kimi bu uşaq da tərs gəlmişdi. Sanki o da dünyaya üsyan əlaməti olaraq dünyadan üz çevirmişdi. Doğuşun ağrılı olduğunu çox eşitmişdim. Amma bu qədər çətin olacağına inanmazdım. Gördüyüm işgəncələrdən sonra həyatın əzablarının məni daha heç vaxt incidə bilməyəcəyini düşündüyüm halda, elə bir ağrı, elə bir zillət yaşadım ki, sözün əsl mənasında cəhənnəmi görüb qayıtdım. Körpə bütün cəhdlərimə baxmayaraq, dünyaya gəlmək istəmirdi. Bətnimə zorla düşdüyü kimi, zorla da çıxarıldı. Məhz zorla... Həkim qadının danışmasından bilmişdim ki, uşaq ölə də bilərmiş.

Mən son mərhələni xatırlamırdım ayılanda. Doğuş 3-4 saat çəkmişdi. Bədənim əldən düşmüş, özümü itirmişdim. Özümə gələndə gözlərim yaşla dolmuşdu. Erməni üçün bunu etdim, – deyə gözümü açmağa belə utanırdım. Sanki bütün azərbaycanlıların yanında xəcalət çəkirdim. Ailəsində şıltaqlığı ilə tanınan Aytəkin həyatın ən şıltaq üzü ilə rastlaşmışdı, boyun əymişdi ona. Utanırdım – özümdən utanırdım, mənliyimdən utanırdım. Gözümü açıb həyata gəlməsində inkubator rolu oynadığım uşağa baxmağa utanırdım, qorxurdum. Birdən onu görər, ona sevgim yaranardı. Özümə bir daha xəyanət etmiş olardım. İnsan aciz vəziyyətdə necə ağlayardısa, mən o zaman eləcə içimdə ağlamışdım. Gözümü açanda yanımda

heç nə görmədim. Bircə erməni həkimdən başqa. O da mənə qoşduğu sistemin balonuna baxırdı. Uşaq yanımda yox idi. Bəlkə, o, doğuş zamanı ölüb? Özümə verdiyim bu sualı sevinclə qarşılamış, Allaha inamımın ölməsinə baxmayaraq, alt şüuruma yerləşən "inşallah" sözünü pıçıltı ilə ifadə etmişdim. Bunu soruşmağa belə ürək eləmirdim. Başqa cavab alacağımdan ehtiyatlanırdım. Həkim mənim ayıldığımı görüb özü söhbətə başladı:

– Özünü necə hiss edirsən?

– Necə hiss etməliyəm?

– Nə bilim?

Bir anlıq sakitlik oldu. Nə həkim bir şey dedi, nə də mən. Bir azdan sakitliyi yenə o pozdu.

– Niyə oğlunu soruşmursan?

Bu cümlədən oğlum olduğunu eşitdim. Amma heç nə hiss etmədim. Ürəyim belə əsmədi. Görmək üçün tələsmədim də. Qadının nəsə demək istədiyini gördüyüm üçün "hardadır?" deyə qısaca sual verdim.

– Bilmirəm, - dedi, - bildiyimə görə, sən bir daha onu görməyəcəksən. Vaskanyan tapşırıb ki, doğulan kimi uşağı oradan uzaqlaşdırın. Hara apardıqlarını bizə də deməyiblər. Amma əsgərlərin danışığından eşitdim ki, hardasa Vaskanyanın donuz saxladığı bir yerə aparacaqlar. O donuzlara da, yəqin ki, sizinkilər baxır. Vaskanyan əlindəki imkandan istifadə edib əsirlərin köməyi ilə təsərrüfatla məşğul olur. Deyirlər, təkcə Vaskanyanın əlində 50-yə qədər türk əsiri var. Sənin bəxtin gətirdiyi üçün burdasan. Bəlkə, sən də hamilə olmasaydın, hansısa donuz damında donuzların altını təmizləyir, ya da hərbçilərə xidmət edirdin, – dedi.

Mənə bu qədər informasiya verməsi bir az şübhələndirdi məni. Axı o niyə bunları mənə danışırdı? Səbəb nə idi? Elə bunun üçün də dedim:

– Bunları mənə niyə danışırsan? Olmaya, mənə ürəyin yanır? Sonuncu sualda ironiyanı hiss etmişdi.

– Bəli, ürəyim yanır. Balasından ayrı düşmək, ondan ayrı yaşamaq bilirəm nə deməkdir. Onun üçün də səni bir ana kimi başa düşürəm. Acına da şərik olmağa çalışıram. Amma türklərə nifrət edirəm. Əgər sən ana olmasaydın, səni elə bu stolda öldürərdim.

– Sən niyə məni başa düşməlisən? Olmaya mənim kimi, atan, anan öldürülüb, yoxsa bacın düşmən əlində fahişəliyə sövq edilir, bəlkə, zorlanaraq hamilə qalıb uşaq doğmusan? Bunların hansını görmüsən, hansını yaşamısan ki, məni başa düşürsən?

– Dediyin bir şey qaldı: övladını itirmək, həm də ömürlük itirmək hissini yaşamışam mən. Necə ki sən yaşayacaqsan.

– Cəhənnəmə itsin, onu görmək mənə daha çox əzab verər. Görmədiyim üçün çox sevinirəm.

– İndi belə deyirsən, o ağrıları ki, sən çəkdin, yaşamağın belə möcüzədir. Bir az keçəndən sonra 9 ay qarnında daşıdığın qanından, canından olan bir körpəni itirməyini anlayacaqsan. Onda məni başa düşərsən.

O, başına gələn nəyisə danışmaq istəyirdi. Bunu hiss etdiyim üçün sual verdim:

– Sən övladını itirmisən?

– Yaş dolu gözlərlə "hə", – dedi. Ermənilərdən o qədər əzab görmüşdüm ki, yazıq bu qadının halına acıya, göz yaşlarına isə inana bilmirdim.

– Necə baş verib bu?

– Sizinkilər övladımı əlimdən alıb. Mən əslən Mehridənəm. Bakıda oxumuşam. Bir azərbaycanlı ilə də tanış olmuşdum o vaxt. Məni çox sevirdi. Ailəsi razı olmasa da, mənimlə evlənmişdi. İşimizə görə, Sumqayıtda "Okean" mağazasının olduğu binada yaşayırdıq. Bu hadisələr qa-

rışanda mənim oğlumun 9 yaşı vardı. Məhəllədə məni də, oğlumu da hamı söyür, Azərbaycandan çıxıb getməyimi tələb edirdilər. Oğlum Roma həyətə çıxa bilmirdi. Bütün məhəllə uşaqları onu ələ salır, lağ edir, gülürdülər. Roma cavab verdiyi zaman isə onu döyürdülər. Atası da bunun üstündə hər gün savaşırdı. Sizinkilər ona satqın deyirdilər. Hətta cəbhəçilər onu bir dəfə möhkəmcə döymüşdülər də. Onun adı Məhəmməd idi. Doğrudan da, o, məni sevirdi. Məni nə qədər qorumağa çalışsa da, bacarmadı. Bir dəfə evə gəlib "Sonya, hazırlaş, səni yola salacağam", – dedi. "Hara" sualıma isə cavabı "Dağılmış Ermənistana" oldu. Heç nə başa düşmürdüm. Axı bu necə olurdu? Biz Əsli və Kərəmdən, Bahadır və Sonadan, Şeyx Sənanla Xumardan fərqli olaraq bütün ehkamları eşqin gücü ilə aşmış, qalib gəlmişdik. İndi ayrılıq niyə belə asanlaşmışdı Məhəmmədə? Mənə izah etməyə çalışırdı ki, əgər getməsən, bizimkilər səni ermənilərdən qisas almaq üçün öldürə bilərlər. Mən Romanın da mənimlə gəlməsini dediyim zaman, çox pis hirslənmişdi. "Mənim oğlumu ermənilər böyüdəcək?", – deyə bağırmışdı. Bir sözlə, məni sürüyə-sürüyə vaqona mindirdi, Ermənistana yola saldı. Dörd ilə yaxındır ki, oğlumdan xəbərim yoxdur. Özümlə götürdüyüm bir neçə şəkli ilə təsəlli tapıram. İndi bildin ki, təkcə siz əziyyət çəkmirsiniz, bizə də az təsir etmədi bu müharibə. Bizdə də qadınlar kişisiz, analar oğulsuz, bacılar qardaşsız qalıb bu müharibənin nəticəsində. Onun üçün də səni yaxşı başa düşürəm. Sizsə buna inanmırsınız, elə bilirsiniz ki, bu müharibə yalnız azərbaycanlılar üçün faciədir.

– Unutma ki, Sumqayıtdakı hadisələri də elə sizinkilər və havadarları törədib. Siz bir şeyi unudursuz ki, həmişə rusların oyuncağı olmusunuz. Böyük Ermənistan xülyaları ilə başınızı bişirirlər. Başbilənləriniz bu

xülyalar içərisində hətta öz xalqını da öldürməkdən çəkinmir. Bəli, müharibə hamımız üçün faciədir. Sən yaxşı düşünsən, mənimlə sənin aranda olan fərqi görərsən. Sən bizim şəhərdə yaşaya-yaşaya, bizimkilərin əlində ola-ola, sağ-salamat, işgəncə görmədən elinə göndərilmisən. Mənə gəldikdə isə, oturduğum evimdən zorla alınıb bura gətirilmiş, bu hallara düşürülmüşəm. İndi sən de, müharibə kim üçün daha çox faciədir? Azərbaycan xalqı üçünmü, erməni xalqı üçünmü? İkincisi də, siz bizdən bizə aid olan torpaqları istəyib müharibə başlatmısınız, biz yox! Bunu unutmayın! – deyib ürəyimi boşaltdım.

Sonra onunla xeyli söhbət etmişdik. O, öz sevgisindən, mən isə öz sevgimdən danışmışdım. Başıma gələnləri ona demiş, erməniləri ona tanıtdırmağa çalışmışdım. Düzdür, Sonya da millətini sevirdi, amma hərdən mənimlə razılaşır, bu işləri başladanlara qarğış tökürdü. Bu söhbət mənə məlhəm olmuşdu. Həmin gün vurduğu iynədən sonra səhərə qədər yatmış, yüngülləşmişdim. Sonralar o həkim qadını da, qarnımdan çıxan körpəni də bir daha görə bilmədim...

### 27. Qəribə yuxu

Dənizdən sahilə doğru əsən külək günboyu baş verənləri nağıl edir, insanların dürüst olmamalarından şikayətlənirdi. Sanki hər şeyə şahid idi bu dəniz. Öz dalğaları ilə birlikdə min bir qəm-qüssəni sahilə beləcə daşıyırdı. Mavidən daha çox qaraya çalan suyu isə ləpələnərək az qala yola qədər gəlib çıxmağa can atırdı. Bu, dənizin harayı idi. Hamı bunu anlaya bilməzdi. Gecənin qaranlığında dənizin ucsuz-bucaqsız mənzərəsinə tamaşa edən Ramil isə bu harayı duyur, indilərdə daxili aləmində baş qal-

dıran təlatümün nəzarəti ilə suların nə danışdığını dərk etməyə çalışırdı. Dəniz isə durmadan ona şikayətlənirdi... Keçmiş günlərini xatırlatmaq istəyirdi, deyəsən... Amma o, son günlərin yorğunluğundan sonra beynini sakitləşdirmək üçün buraya gəlmişdi. Və indi, yəqin ki, evdə ailəsi də onun harada olmasından xəbərsiz idi. Bir anlıq qızını düşündü. Yəqin, o da yatmış olardı indiyə...

Düşündükcə uzaqlara gedir, on doqquz il əvvəl itirdiyi sevgilisini axtarır, tapmadıqca da yorulurdu. Bəlkə də, bu, ötən gecə gördüyü yuxunun təsirindən idi. Aytəkini ona qonaq gəlmişdi. Gecədən səhərə qədər eyni yuxunu görmüş, həyəcanla olub-keçənləri yaşamışdı bir göz qırpımında. Elə səhərə yaxın da qışqıraraq öz səsinə ayılmış və bütün gördüklərinin yuxu olduğunu yalnız onda başa düşmüşdü. Həyat yoldaşı Nərminə də onun səsinə ayılmış, bərk qorxmuşdu. Ramil indi səmimi qəlbdən etiraf edirdi ki, o hələ də Aytəkini unutmayıb. Buna görə həm özünü qınayır, həm də qeyri-müəyyən halda düşdüyü vəziyyəti qiymətləndirməyə çalışıb xəyallar quraraq fikirlər dünyasına qərq olurdu. Axı necə oldu ki, o, Aytəkini unutdu?! Bəlkə də, heç vaxt onu unutmayıb, sadəcə ona belə gəlir?.. Aytəkinin günahı nə idi axı olanlarda?!

Onu yüzlərlə gözəl qızların arasından özünə yar seçmişdi. Bir-birilərinə vurulmuş, sonra da yar olmuşdular. Evlənəcəkdilər, övladlar bəxş edəcəkdilər vətənlərinə. Nəyə görə belə olmalı idi axı?! İndi bunları düşünə-düşünə ötən illərin xatirələri gözləri önündə canlanırdı. Bu xatirələr nə qədər acı, kövrəldici olsa da, düşündükcə beyninə özü ilə hərarət gətirirdi. Heç vaxt inanmazdı ki, Aytəkindən ayrılacaq, heç vaxt. Kiçik mübahisələri nəzərə alınmasaydı, onları bir-birindən ayrı salacaq ciddi bir səbəb olmamışdı heç vaxt. Amma, elə bil Aytəkinin həmin gün ürəyinə nə isə dammışdı. Həmin gün – yay tə-

tili olduğuna görə Ramildən ayrılıb Xocalıya getdiyi gün.

İndi necə oldusa, Ramil həmin günü xatırladı. Bütün günü əl-ələ tutuşub bir yerdə gəzişmiş, xoş anlar keçirmişdilər. Ayrılanda isə sevgilisi soruşmuşdu:

– Ramil, mən ölsəm, sən nə edərsən?!

– Allah eləməsin, niyə belə danışırsan, nə oldu birdən-birə?!

– Nə bilim e, maraq üçün soruşuram. Xahiş edirəm, cavab ver. – Aytəkin israrla bildirdi.

– Birincisi, ölüm haqdır, hamımız gec-tez öləcəyik. Amma indi ölmək yox, sevmək vaxtıdır, əzizim. Aytəkinin onun "əzizim" sözündən xoşu gəlirdi. Amma nədənsə qız yenə də inadından dönmədi:

– Onda məni çox istəmirsən də, hə?! Axı mən səndən xahiş etdim, Ramilim...

– Yaxşı, küsmə. Bax, bu gün gedirsən, sonra qala bilməyəcəm ha sənsiz! Ölüm haradan ağlına gəldi, ay balam?!

– Yaxşı, ölüm olmasın, belə deyək, mən olmasam, nə edərsən?

– Necə yəni "olmasam"? Aytəkinim, əzizim, sənə nə olub axı? Bu ayrılıq məqamında belə danışıb ürəyimi niyə ağrıdırsan? Cəmi iki aydan sonra yenə görüşəcəyik. Ömürlük ayrılmırıq ki?!

– Ramil, sən ki mənim nə demək istədiyimi anlayırsan. Niyə cavab verməkdən yayınırsan?!

– Sevgilim, inan ki, nə demək istədiyini hələ də başa düşə bilmirəm, – Ramil qızın könlünü almağa çalışdı.

– Əslində heç mən də bilmirəm ki, mənə nə olub. Amma içimdə qəribə boşluq var. Sanki səni bir daha görə bilməyəcəm. Nə bilim, nə isə qorxulu bir hadisənin baş verəcəyini hiss edirəm, elə bil... Ötən gün qorxulu bir yuxu da görmüşəm...

– Dəlisən də, dəli!.. – Ramil həyəcanlansa da, bunu biruzə vermədi. Buna baxmayaraq onun intuisiyasına bələd idi. Bir neçə dəfə sınaqdan keçirmişdi.

– Nə görmüsən yuxuda? – özünü saxlaya bilməyib soruşdu.

– Yox, demək istəmirəm. Utanıram, həm də çox qorxuram həmin yuxu yadıma düşəndə. Onsuz da hələ özümə gələ bilməmişəm.

– Olmadı da, onda mən də sənin sualına cavab verməyəcəm, – Ramil onu danışdırmağa çalışdı. Həm də Aytəkinin bu gün nəyə görə belə kefsiz olmasının səbəbini aydınlaşdırmağa çalışdı.

– Yaxşı. Bax özün istədin ha. Amma yenə yuxudur da. Özün bilirsən ki, mən yuxulara inanmıram, – qız bunu deyib könüloxşayan xoş təbəssümlə gülümsədi. Sonra hər ikisi gülüşdülər.

– Bilirəm, bilirəm... Yataqxanada bütün qızlara danışmış olarsan indiyə, – Ramil söz atdı.

– Yox, vallah, birinci sənə danışıram. Heç kimə danışmaq istəmirdim. Görürəm ki, qış vaxtıdır. Çoxlu qar yağıb. Mən bizim kəndin yaxınlığındakı meşədə azıb qalmışam. Bilmirəm, neçə gündür, amma çox halsız və taqətsiz vəziyyətdəyəm. Hər yerim buz bağlayıb. Ayağa qalxa bilmirəm. Heç dilim də söz tutmur. Sonra sən meşənin hansısa sıx ağaclığından çıxaraq məndən xeyli aralıda olan talaya üz tutursan. Amma tək deyilsən. Yanında bir neçə silahlı əsgər var. Sənin isə silahın yoxdur. Qabaqda balaca bir oğlan uşağı gedir. Sən isə onun arxasınca gedirsən. Əlisilahlılar isə sizi müşayiət edirlər. Amma görünür ki, o əsgərlər sənə tabedirlər. Birdən necə olursa, həmin balaca oğlan yanınızla gedən əsgərlərdən birinin avtomatını dartaraq özünə çəkir. O, bu halı ilə çox aciz görünür. Simasında məsumluq var. Etdiyi hərəkətin

doğru olmadığını bilə-bilə bu işə davam edir sanki. Heç nəyə nail ola bilməyəcəyini isə çox yaxşı başa düşür. Siz isə ona kinayə ilə gülürsüz. Sənin işarənlə əsgər avtomatı ona uzadır. O isə mənim kimi taqətsizdir. Əsgərin ona uzatdığı silahı alar-almaz avtomatın ağırlığından ağzıüstə qarın üstünə yıxılır. Sonra siz yenə gülüşürsüz. Bu gülüşlər çox qorxuncdur. Sən hirslə həmin balaca oğlana qışqırırsan. Sonra isə yanındakı əsgərə o balaca oğlanı öldürməyi əmr edib dayanmadan gedirsən. Mən isə səni səsləyirəm. Qışqırmaq istəyirəm. Səsim çıxmır. Sən məni görmürsən, duya bilmirsən. Allaha yalvarıram qəlbimdə. Yalvarıram ki, sən geri dönüb bir az əvvəl verdiyin əmrdən vaz keçəsən...

– Niyə?.. – Ramil heç nə anlamayıb gözlərini qırpdı.

– Çünki həmin balaca uşaq mənim oğlumdur. Sən isə nədənsə onu tanımırsan. Sanki o uşağı girov götürüb harayasa aparırsan. Sonra da onun etdiyi hərəkətlərdən bezib öldürməyi əmr edirsən.

– Necə yəni "mənim oğlum"? Bəlkə, bizim oğlumuz?

– Nə bilim, Ramil, yuxudur da. Amma nədənsə sən onu tanımırsan. Və sanki mən yalnız sən o oğlanı öldürtdürmək əmrini verəndə sənə səslənirəm. Ona qədər isə meşədə olduğumu, azıb qaldığımı sənə bildirmək istəmirəm. Bilmirəm... Çox qarışıq yuxu idi... Çox qorxdum, Ramil, çox qorxdum... – qız bunu deyib sevgilisinin qoynuna sığındı. İsti göz yaşları yanağından süzülərək əlinə axırdı. Sanki bir az əvvəl deyib-gülən adam deyildi. Ramil isə yuxunun sonunu öyrənmək qərarındaydı:

– Mən qayıtdım?

– Nə?! – Aytəkin, sanki bayaqdan nədən danışdığını unutmuşdu bir neçə saniyənin içində. Bu rahatlıq Ramilin qoynuna sığındıqdan sonra baş vermişdi.

– Deyirəm ki, mən qayıtdım? Axı dedin ki, mən uşa-

ğı öldürmək üçün əmr verəndən sonra çıxıb gedəndə sən Allaha dua edirsən ki, qayıdıb fikrimdən vaz keçim. Bunu soruşuram.

– Yox, qayıtmırsan. Sənin oğlanı öldürmək üçün əmr verdiyin həmin əsgər düşünmədən tətiyi çəkir... – qız bunu deyib sevgilisinə bayaqkından daha möhkəm sarıldı.

– Oğlan öldü? – Ramil onun yuxusunun hələ də bitmədiyini düşünüb əhvalatın sonu ilə maraqlandı. Bu yuxu onun üçün doğrudan da, maraqlı və müəmmalı bir əhvalata çevrilmişdi bir neçə dəqiqə içərisində.

– Bilmirəm, Ramilim... Amma avtomatın atəş səsinə yuxudan ayıldım. Gecə yarısı bunun yuxu olduğunu biləndə necə sevindiyimi bir görsəydin!

– Şükür Allaha ki, yuxu imiş... – deyəsən, Ramil də yuxudan çox təsirlənmişdi. Necə yəni uşaq öldürmək?! İnsanlığa, kişiliyə sığardımı bu?! O ki heç vaxt adam öldürməmişdi. Bu barədə heç vaxt düşünməmişdi də.

– İndi bildin ki, bayaq niyə o sualı verdim? Buyur səni gözləyirəm, sualıma cavab ver. Bax elə lap mənim yuxumdakı kimi mən itkin düşsəydim, yerimi-yurdumu bilməsəydin nə edərdin?

– Axtarardım, inan ki, tapana qədər axtarardım. İnan mənə əzizim! Ramil bunu o qədər ürəkdən, o qədər həyəcanla və nüfuzedici şəkildə dedi ki, qızı növbəti dəfə ağlamaq tutdu. Bu dəfə Ramil onu var gücü ilə özünə sıxıb sakitləşməsini istədi. Saçlarına sığal çəkib dodaqlarını dodaqları arasına keçirtdi. Bu pak sevgidən doğan əsl sevgi öpüşləri idi və hər ikisi hallarından razı halda, bu gün artıq neçənci dəfə idi ki, bunu təkrar edirdilər.

Həmişəkindən çox öpüşmələrinin səbəbi isə münasibətlərində yeni bir mərhələyə qədəm qoymaları idi. Artıq bir-birilərinə sevgilidən daha çox ər-arvad kimi mü-

nasibət bəsləyirdilər. Doğrudur, aralarında indiyə qədər hansısa ciddi intim münasibət olmamışdı. Ancaq qucaqlaşıb dodaq-dodağa öpüşməklə hisslərinə hakim ola bilmişdilər. Amma indi hər ikisində bir-birinə ciddi ehtiyac yarandığını duyduqları bir anda həm qız, həm də Ramil daxili bir həyəcanın onların bütün vücudlarına hakim kəsilməyə başladığını hiss etdi. Əvvəl bunun yalnız özündə olduğunu düşünsə də, sonradan Aytəkininin də tirtir əsdiyini gördü. Yox, o ağlamırdı, artıq sakitləşmişdi. Gözlərini də yummuşdu. Dodaqları və əlləri isə hərarətdən yanıb-alışırdı. Sinəsi həyəcandan sürətlə qalxıb-enir, Ramili daha da çılğınlaşdırırdı. Bu, onlar idimi?! Dünənə qədər bircə öpüşdən utanan Ramil və Aytəkin idimi?!...

... Həmin gün Aytəkin Xocalıya getmədi. Evlərinə zəng edərək universitetdə işi çıxdığını deyib, daha bir gün qalmalı olduğunu bildirdi. Əvəzində isə demək olar ki, bütün gününü Ramillə keçirib səhərisi rayona yola düşdü.

***

Sahilə yaxın yerdə dayanan taksinin səsi Ramili xəyallar dünyasından ayırdı. Taksi sürücüsü maşının işığını söndürərək içəridən onu izləyirdi. Ramil bunu o dəqiqə başa düşdü. "Şərəfsizlər, it kimi sülənib işverənlik edirsiniz!" – dodaqaltı bunu deyib oturduğu yerdən qalxaraq oradan uzaqlaşmaq qərarına gəldi. Hiss etdi ki, taksi sürücüsü qaranlıqda buraya onun tək, yoxsa qız ilə gəldiyini aydınlaşdırmaq üçün narahatdır. Ramil bilirdi ki, beləleri gecələr ikitərəfli pul qazanır – həm taksi ilə adam daşıyır, həm də polisə "işverənlik" edərək çörək pulu qazanır. Və əgər hansısa oğlan gecə vaxtı buraya bir qızla gəlsəydi, bu taksi sürücüsünün polisə verdiyi "müjdə" əsasında həm qız, həm də oğlan soğan qabığı kimi soyulmalıydı. Əks halda hər ikisi biabır ola bilərdilər.

Gələn qonağı çox intizarda saxlamamaq üçün addımlarını yeyinlədib sahildən uzaqlaşdı. Gələrkən sakitləşəcəyinə ümid etsə də, indi bayaqkından daha fikirli, daha yorğun idi. Nə qədər istəsə də, on doqquz il əvvəl baş vermiş həmin hadisəni illər sonra bu gün yenidən xatırlamasının səbəbini izah edə bilmirdi.

## 28. Kəlbəcər xatirələri

Adama elə gəlir ki, içindəkiləri yazarsa, yüngülləşmiş, acısını azaltmış olar. Amma, deyəsən, belə deyildi. "Kədəri paylaşdıqca azalar, sevinci paylaşdıqca çoxalar" ifadəsi bu dəftəri yazdıqca mənim üçün iflasa uğrayırdı. Olsun ki, dərdimi paylaşmağa, bölüşməyə bir nəfər belə yox idi. Amma bu dəftəri özümə sirdaş olaraq tutmuş, xatirələrimi yazmağa başlamışdım. Lakin yazdıqca hirslənir, hirsləndikcə çılğınlaşır, çılğınlaşdıqca da özümü idarə edə bilmirdim. Dəfələrlə bu dəftəri cırmaq istəmiş, sonra da fikrimdən daşınmışdım. Balaca uşaq öz oyuncağından küsən kimi, mən də bütün hirsimi, acığımı bu dəftərə tökür, ondan başqa heç nəyim olmadığını düşünəndə isə barışırdım. Hərdən mənə elə gəlirdi ki, dəftər dilə gəlib məni qarğıyır, götürdüyü yükün ağırlığından ağzına qədər batdığı bataqlıqdan çıxarmağı tələb edirdi. O zaman isə dəftərə yazığım gəlir, bağrıma basıb ucu görünməyən sonsuzluğa baxırdım. Çətinliklə də olsa, gözümdən bir damcı yaş süzülüb almacıqlarımda donurdu. Daha göz yaşlarım da tükənmişdi... Ya da mən ağlamaqdan bezmişdim...

Hamiləlikdən azad olduğum günü xatırlayıb yazanda da belə olmuşdu. O günləri xatırladığım vaxtlarda dəftəri dəfələrlə kənara atmış, sonra peşmanlamış, başı-

ma gətirilənləri yenə yazmağa qərar vermişdim. Hər şeyi yazmaq istəyirəm. Hər şeyi. Keçirdiyim bütün hissləri qələmə almaq istəyirəm. Heç nəyi yaddan çıxarmaq istəmirəm. Yazdıqca, elə bil o günləri yenə yaşayıram. Gördüklərim o qədərdir ki, hər saatım üçün roman yazmaq olar. Amma nə səbrim çatır, nə də ki o qədər vaxtım olur. Fikrimi toplayıb yazmaq istəyəndə isə müştərim gəldiyi üçün iş otağına keçməyi tələb edirlər. Yenə bir faciə yaşayır, soyuq bir ruh kimi bir kişini yataqda məmnun edib, yenə qayıdıram...

Bu dəftəri yazarkən çoxlarının xəyalı ilə yaşadığı Fransadayam. Amma mən bu cür Fransanı heç vaxt arzulamazdım. Heç bir informasiya əldə edə bilmir, hər an nəzarətdə saxlanılırdım. Bircə onu bilirdim ki, bu şəhərin adı Alfortville idi. Elə bil Ermənistandan fərqlənmirdi. Yatağına atıldığım kişilərin çoxunun erməni olması bunu deyirdi. Sonralar Vasya dayıdan öyrənmişdim ki, doğrudan da, burada yaşayan əhalinin əksəriyyəti ermənilərdi. Hətta burada ermənilərin türklər tərəfindən soyqırıma məruz qaldıqlarını əks etdirən "Xaçkar" adlı abidələri də var.

Bu ermənilərin türklərə qarşı qaldırdıqları yalançı soyqırım iddiasının tərkib hissəsi idi. Bəs görəsən 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın abidəsini nə vaxt qoyacağıq? Onları ifşa etmək üçün mənim başıma gətirilənlər əyani sübutdur.

Mənimlə yatan bəzi ermənilər isə Ermənistanda olub müharibədə türklərə qarşı iştirak edə bilmədiyi üçün qisas məqsədi ilə bu oteldə saxlanılan türk qızına görə bura gəlirdi. Əzab verə-verə məni zorlayır, işgəncə verir, şəhvətlərini söndürürdülər. Bizi otelin arxasındakı erməni arvada məxsus evdə saxlayırdılar. Hotelin arxa qapısından gətirir, sonra da aparırdılar. Bəzən isə bunu elə hə-

min evdə həyata keçirirdilər. Beş ildən artıq bu şəhərdə yaşamağıma baxmayaraq, hələ də həyat üzümə gülmürdü. Sistemləri çox mükəmməl işləyirdi. Nəzarət o qədər güclü idi ki, kiməsə nəsə demək, kimdənsə nəsə soruşmaq belə mümkün deyildi. Monik ilə birgə fransızlaşmış mavi bir erməni yaşayırdı. Mavi olmasına baxmayaraq, çox güclü idi. Monik əllidən çox yaşı olan erməni qadın idi. Əsl adı Laura olsa da, Fransada məşhur olan bu əxlaqsız qadın Monik adı ilə yaşayırdı. Sovet hökuməti dağılandan sonra bu şəhərə gəlmişdi... Hələ də şəhər haqqında başqa heç nə bilmirəm. Mənə ayrılan bir çarpayısı olan 5-6 kvadrat-metrlik otaqdan başqa heç nə görmürdüm. Bir də ki, mənim kimi, bir neçə qız. Bir-birimizlə danışmağa şərait olmadığından onların hansı millətdən olması da məlum deyildi. Məni Fransaya gətirən fransızı isə çox gec-gec görürdüm.

***

Uşağı dünyaya gətirəndən bir neçə həftə sonra Vaskanyanı gördüm. Yeni rütbə almışdı. Dediyinə görə, artıq məqsədlərinə yaxınlaşdıqları üçün Vaskanyana yeni vəzifə və rütbə vermişdilər. Bunları özü ilə qürur duyduğu üçün danışanda başa düşmüşdüm. Onu gördüyüm an oğul doğan ana kimi hörmətli olduğumu düşünərək onun üstünə atıldım. Verdiyi sözləri yerinə yetirməsini tələb etdim. Qışqırdım, ağladım, hətta kişilikdən əsər-əlamət olmayan bir adama "adam kişi olar" cümləsini də işlətdim. Əvvəl mənə fikir vermək istəmədi. Sanki mən yox idim kimi özünü aparmaq istəyirdi. Mən bundan ürəklənib bir az da üstünə getdim. Gülcahanın qaytarılmasını tələb etdim. Çox qəribə idi, elə bil Vaskanyanın kim olduğunu unutmuşdum. Özümü o qədər itirmişdim ki, onun girovu olduğumu da yaddan çıxartmışdım. Söz

verib yerinə yetirməyən ər və ya aşna kimi ondan verdiyi sözü yerinə yetirməsini istəyirdim. O da qadınını əldən vermək istəməyən kişi kimi gözlərini məndən qaçırdır, yalan danışdığı hiss olunduğu üçün gizlənməyə çalışırdı. Uzun müddətdir ki, görmədiyim üçün onu yaddan çıxarmışdım, deyəsən. Çığırıb-bağırmağıma reaksiya verməyən bu adamın qarşısına keçib ona bir şillə də atdım. Ani hərəkətlə üzünü yana çəkən Vaskanyan birdən özünə qayıtdı. Xirtdəyimdən elə tutdu ki, həmin an nəfəsimin kəsildiyini hiss etdim. Bərəlmiş qanlı gözlərini gözümə zilləyərək burnu burnuma dəyəcək yaxınlıqda ozünə tərəf çəkib qışqırdı:

– Qancıq, sən bu qədər qudurmusan? Sən və o qəhbə bacın yaşayırsınızsa, o uşağa görədir. Yaşadığınız üçün allahınıza şükür etməkdən, durub mənə "zakon" qoyursan? Bacını tikə-tikə edib sənə yedizdirərəm. Sən o qədər qudurmusan ki, mənə şillə atırsan?

Mən ölümlə yaşam arasında çırpınır, üz-gözünü cırmaqlayırdım. Aslan pəncəsindəki cüyür kimi qurtulmağa çalışırdım. Mən çırpındıqca o ehtiraslanır və məni soyundururdu. Sanki ona kömək edirdim əl-qol hərəkətlərimlə. O, isə köhnə günlərdəki kimi məni divanın üstünə çırpıb heyvan kimi döyə-döyə işini görməyə çalışırdı. Və buna nail də oldu. Mən yenə üsyanımın qurbanına çevrilib, ona qulluq etmiş oldum. O isə yataqdan məmnun halda ayağa durub:

– Hə, sən, deyəsən, bunun üçün darıxmışdın. Əla! Elə buna görə səndən xoşum gəlir də. Yoxsa səni erməni qəbrinin üstündə qurban kəsərdim, necə ki ellilərini etmişəm. Yaşamağının da səbəbi elə yataqdakı bu məharətindi. Özünü belə aparsan, ölməyəcəksən, hətta bacın da yaşayacaq. Bəlkə, bir gün qaytardım.

İyrənc şəkildə gülə-gülə bunları deyəndə mən miskin

şəkildə divanda qorxu, həyəcan və nifrətimi qucaqlamışdım. Yenə həmişəki kimi, heç nə edə bilmirdim. Dizlərimi qucaqlayıb oturmuş, niyə ağladığımı belə unutmuşdum. Əsgərlərinə nəsə tapşırıb, otağın qapısını bağlayaraq getdi.

Axşam evə səliqəli geyimli, bir az da mədəni görünən sarışın saçlı, hündür və yaraşıqlı bir kişi ilə gəldi. Əgər girovluqda olmasaydım, bu kişidən xoşum da gələrdi. Bəlkə də, elə xoşum gəlmişdi, sadəcə vəziyyətim imkan vermirdi ki, bunu etiraf edim. Nədənsə, çoxdan unutmağa çalışdığım Ramil yadıma düşmüşdü. Ürəyimdən keçən bu fikirlərə görə tez-tələsik Ramilimdən üzr də istəmişdim. Hətta Ramillə müqayisə də etmişdim onu. Əlbəttə ki, Ramili bütün xüsusiyyətlərinə görə ondan üstün də hesab etmişdim. Sadəcə Ramildən cazibədar idi. Qadın gözü ilə baxanda bunu deməmək mümkün deyildi. Qırxa yaxın yaşı olan bu fransız cazibədarlığı ilə kişiləri heyran edən qızlar kimi gözəl idi. Amma bu həmin qızların kişi tipi idi. Əslində bunları o vaxt belə dərindən düşünməmişdim. Sadəcə ilkin olaraq ağlımdan keçmiş, tez də rədd etmişdim.

Onun da mənə avropalılarsayaq açıq-açığına baxması diqqətimi cəlb etmişdi. Hətta süfrəsinə çay gətirdiym zaman fransızca nəsə demiş, üzümə də gülümsünmüşdü. Bu hərəkət üzündə abır-həyadan əsər-əlamət belə qalmayan bir məzlum "fahişəni" utandırmışdı da. Əvvəlcə, deyəsən, o elə bilmişdi ki, mən Vaskanyanın yaxın bir adamıyam, mən ikinci dəfə içəri girəndə kim olduğumu öyrəndiyini hiss etdim. O, artıq mənə başqasının arvadına baxan kimi həsəd dolu gözlərlə baxmırdı. Bunu Vaskanyan da hiss etmişdi. Hətta məni ona təklif də etdi. "Türklər həmişə ələ düşməz, bundan keçmək dünyadan keçmək deməkdir", – dedi. Bütün söhbətlər rus dilində gedirdi. O isə mənə

olduğum kimi, yəni yazıq bir insan kimi baxırdı. Başı ilə "yox" dediyini gördüm. Amma onun məndən xoşu gəldiyini bir qadın hissiyyatı ilə duymuşdum. Hətta ağlımdan keçdi ki, bəlkə, siyasət işlədib ondan xoşum gəldiyini azacıq da olsa, göstərim. Gələcəkdə də bundan istifadə edib digər planlar qurum. Axı zorla, üsyanla, ağlamaqla heç nə əldə edə bilmədiyimi anlamışdım. Amma mənliyim bunu bacarmadı.

Həmin gecə Vaskanyan onunla saat üçə-dördə qədər söhbət etdilər. Çay gətirəndə "Kəlbəcər" sözünü işlətdiklərini eşidə bilmişdim. Nəsə iş qurmaq istəyirdilər.

Səhər mən oyananda birinci dəfə gördüyüm erməniyə oxşamayan bu kişi yox idi. Saat on bir olardı ki, evin qapısı döyüldü. Vaskanyan çölə çıxıb qayıdandan sonra: "geyin, gedirsən", – dedi. "Hara?" sualını vermək yersiz olduğundan, heç nə demədim. Qəlbimin dərinliyində bir qığılcım hiss etdim. "Deyəsən, Gülcahanı qaytarırlar, onunla görüşməyə aparırlar", deyə düşündüm. Bunları düşünə-düşünə hazırlaşmağa başladım. Geyinəcək qalın, isti paltarım yox idi. Sadəcə hava soyuq olduğundan ardımca gəlib mənə verdiyi hərbi kürkü geyindim. Bir sevinc var idi içimdə. Hara getdiyimin sonunun tez gəlib çatmasını istəyirdim. Gülcahanla görüşəcəyimə, bəlkə də, saatlar, yox dəqiqələr qalır, – deyə özümə toxtaqlıq verirdim. Qapıdan çıxanda onun üzünə baxdım, az qalırdım ki, təşəkkür də edim. Amma onun mənə məhəl belə qoymaması, özün-dənrazı alçağın simasında heç bir şeyi ifadə etməyən halda olması məni bu fikirdən daşındırdı. Qədim dayı ilə ayrılandan sonra heç nəyə bu qədər qəlbən inanmamışdım. Bu dəfə qara qarğa səsi rolunu axşam evə gələn avropalı oynamışdı. Bir anlıq ürəyimdən keçdi ki, yəqin, bu, hansısa təşkilatın üzvüdür. Məni və Gülcahanı qaytarmağı o, tələb və ya xahiş etmişdi. Axı girov

düşdüyümüz ilk günlərdə, həftələrdə Qırmızı Xaç cəmiyyətinin bizi xilas edəcəyi fikri bizi xeyli ümidləndirmişdi. Bunun da onlardan olduğunu düşünmüşdüm.

Məni bir RAF-a mindirdilər. RAF-ın şüşələri qara rənglə boyanmışdı. Sürücü ilə olan aralıq isə bağlanmışdı. Mənim oturduğum salonda isə bir əsgər oturdu. Çiynində də "Kalaşnikov" var idi. Mən maşına minəndə Vaskanyanın üzünə son dəfə baxdım. Üz cizgilərini unutmamaq üçün idi bu. O üz cizgiləri ki iki ilə yaxın idi, hər an mənə əzab vermiş, olmazın işgəncələr yaşatmış bir insana məxsus idi. Baxışlarımda "qisas qiyamətə qalmaz", ifadəsini də görmək mümkün idi. Çünki bir gün bu etdiklərinin cavabını soruşacaq bir kişi çıxacağına inanırdım. Bu kişinin türk-azərbaycanlı olması isə xüsusi ilə ürəyimdən keçdi. Bütün ərlərimizin qırılmadığına, qeyrətsizləşmədiyinə inanırdım. Hətta ona da inanırdım ki, yəqin, bizimkilər bizlərin öldüyünü düşünürlər. Əgər bilsə idilər ki, ana-bacıları burda bu qədər alçaldılır, heç vaxt dözməzdilər. Yaba götürməli də olsa, götürüb bura gələr, son damla qanına qədər vuruşar, bizi azad edərdilər. Bu alçaqlardan intiqam alardılar. Qadınların ürəyi yuxa olur, – deyirlər. Artıq məndə o yuxa ürəkdən heç bir əsər-əlamət qalmamışdı. İmkanım olsa idi, bütün erməniləri öldürər, uf da deməzdim.

Maşın yerindən tərpənəndə, elə bil ürəyim ayaq açıb yeriyirdi. Uzun müddətdir atasını görməyən uşaqlar kimi qollarını açıb atasına doğru qaçırdı. Elə qaçırdı ki, yıxılsa idi, dişləri qarnına gedərdi. Ağzı-burnu qan olardı. Ürəyimin bu cür hərəkətə gəlməsi həm də yuxularda xəyal kimi gördüyümüz qaçışa bənzəyirdi. Ha gedib çatmır, ha cəhd edib tuta bilmədiymiz kimi.

Bir xeyli yol getmişdik ki, mənimlə üzbəüz oturan erməni əsgər bir azdan mənim yanıma keçdi. Silahı hələ

də çiynində idi. Əsgəri saqqal basmış, vəhşiliyin təcəssümü olan simasını bir az da təlatümlü etmişdi. O, bir əli ilə silahını tutub, digər əli ilə mənim başımı özünə tərəf çəkmək istədi. Mən onu var gücümlə itələdim. O isə fikrində qəti idi, yenidən cəhd etdi. Mən yenə  ona mane olmaq istəyəndə silahını oturacağın arxasına qoyub mənə hücüm etdi. Yeganə məqsəd məndən qadın kimi istifadə etmək idi. Mən onunla mübarizəyə başladım, onu özümə yaxın buraxmırdım. Elə bil nəyəsə güvənirdim. Kiminsə indi yardıma gələcəyini, bu donuzdan məni qurtaracağını gözləyirdim. Birdən maşın dayandı. Amma dığa bundan narahat olmadı, əksinə maşının hərəkətsizliyindən istifadə edib təzyiqi daha da artırdı. Bu zaman qapını açan sürücü əlindəki silahı bizim üstümüzə tutdu. Ermənicə nəsə dedi, mənə təcavüz etmək istəyən erməni isə onun üstünə qışqırdı. Bu zaman sürücü əlindəki silahı hazır vəziyyətə gətirib onun üstünə tutdu. Və maşından düşməsini tələb etdi. Sonra da onun silahının harda olduğunu soruşdu. Yerini biləndən sonra onun özünə götüzdürüb qapını bağladı. Və həmin dığanı aparıb yanında oturtdu. Bütün bunlar sürücünün iradəsi və əsəbi şəkildə qışqırığı ilə baş verirdi. Məni erməni qurtarmışdı erməni əlindən. Bu da onu göstərirdi ki, az da olsa, qəlbində insan sevgisi olan ermənilər hələ də var. Sürücü o qədər yaxşı insana oxşayırdı ki, mən onun erməni olduğuna şübhə etdim. İmkan olsa idi, soruşardım ki, hansı millətdəndi? Beləcə məni gözlənilən məkana gətirdilər.

Gətirildiyim yerin hara olduğunu öyrənəndən sonra atasının qucağına qaçan uşaq kimi yerə yıxıldım. Dişlərim qarnıma qaçdı, ağzım-burnum qan oldu. Yerimdən durub qaçmaq istədikdə atamın gözdən itdiyini gördüm. Lap qolum-qanadım qırıldı. Dizlərim tab gətirmədi, yenidən yıxıldım. Bu dəfə də üfunətin içinə....

## 29. Reallıqdakı və düşüncələrdəki iki ideal qadın

Səhər günəşinin şölələri yenidən ətrafa işıq saçmağa başlamışdı. Yeni günün başlanğıcında hər şeyin əvvəlki kimi təkrarlanacağını bilən şəhər sakinləri də oyanmağa ərincəklik edir, yerlərindən qalxmaq istəmirdilər. Bir azdan saat on olacaqdı. Telefonun zəngli saatı işə düşdü. Bu, artıq beşinci idi. Oyanmaq lazım idi. Ramil əlini uzadıb çarpayısının baş tərəfində qoyduğu telefonun səsini kəsərək yataqdan qalxdı. Deyəsən, Nərminə də səsə ayılmışdı. Adətən, çox ayıq yatan bu qadın gecə necə olmuşdusa, ərinin gəlməsini duymamışdı. Əslində, Ramil də evə gecədən xeyli keçmiş gəlmiş, sakitcə yataq otağına keçərək elə paltarlı vəziyyətdə yatıb qalmışdı. İndi həyat yoldaşının maraqla ona baxdığını görcək bir azdan sualların başlayacağını düşünüb özünü başı ağrıyırmış kimi göstərməyə çalışdı:

– Sabahın xeyir! Narahat olma, yat, onsuz da bu gün işə getməyəcəm.

– Sabahın xeyir, Ramil. Başın ağrıyır yenə? – qadın bunu deyib övladının qayğısına qalan ana şəfqəti ilə ərinə yaxınlaşdı. Onun başını özünə tərəf çəkib sinəsi üstünə qoydu. Əli ilə saçlarına sığal çəkir, susurdu. Ərini çətin vəziyyətdə qoymamaq üçün heç onun üzünə də baxmırdı. Əllərini Ramilin saçlarında, alnında gəzdirir, getdikcə daha aşağılara doğru gəlir, qadın nəvazişini əsirgəmirdi. Ramil isə həyat yoldaşının onu belə əzizləməsindən məmnun halda səssiz-səssiz uzanırdı. Xatırlamağa çalışırdı ki, artıq iki aydan çoxdur ki, kişi kimi öz qadınına yaxın durmur. Elə indi də fikirlərini bir yerə toplayıb nəyi haradan düşünməyi müəyyən edə bilmədiyi məqamda bunu xatırlayıb daxili narahatlıq hissi keçirməyə başlamışdı. Nərminə isə yenə də susurdu. Qadının əlləri, barmaqları

boynundan çəkilib sinəsində gəzişdikcə ona qarşı haqsızlıq etdiyini düşünüb utanırdı. Həmin anlar bu barmaqlar qadının ürəyinin hənirtisini ərinin qəlbinə daşıyırdı. Bu hənirti bayaqdan bəri səssizcə eyni sualı təkrarlayırdı: "Dünən harada idin? Harada idin? Harada?!"

Ramil həyat yoldaşını qınamırdı. Axı onun nə günahı var idi? Həyatının problemlərlə dolu olduğu illərdə onunla evlənmişdi. Sözsüz ki, valideynləri aylarca, yüz dəfələrlə "ay oğul, evlən" deyəndən sonra bu, baş tutmuşdu. Hətta evlənənə qədər Ramil Aytəkindən sonra hansısa bir qadını xoşbəxt edə biləcəyinə inanmırdı və buna görə də kiminsə qəlbini qırmaq, layiq olmadığı bədbəxtliklə üz-üzə qoymaq istəmirdi. Amma Nərminə ilə evləndikdən sonra bu qorxuya qalib gələ bilmişdi. Elə ilk illərdən, xüsusilə övladları dünyaya göz açandan sonra çox xoşbəxt idilər. Nədənsə Ramil indi həmin qorxunu xatırlayaraq getdikcə daha çox məyus olurdu. Deyəsən, axı o, özü də hiss etmədən bu on doqquz il müddətində həmin Aytəkinsizlik, onsuz yaşaya bilməmək, heç bir qadını sevməyi bacarmamaq qorxusuna yenilirdi. Ramil isə bunu yalnız indi, məhz dünən hiss etmişdi. Bəli, həmin yuxudan sonra hər şey dəyişmişdi, sanki.

Qadının isti sinəsini üzərində hiss edəndə, elə bil yuxudan ayıldı. Hiss edirdi ki, yanaqları, dodaqları və sinəsində getdikcə artan istilik bütün bədəninə yayılırdı. Amma bu istilik onu yandırmırdı, əksinə, vücudunu lərzəyə gətirən ehtiras yaradırdı bütün əzalarında.

O, sözün əsl mənasında, gözəl idi. Ramil bunu heç vaxt inkar edə bilməzdi. Elə indi – onunla qucaqlaşanda bir daha bunu hiss etdi. Əlini belində, ayaqlarında gəzdirdikcə belə gözəlliyi yaradan Tanrıya şükür etməkdən başqa çarəsi qalmırdı. Qadın hərəkət etdikcə asta-asta yellənən gərdəni bu gözəlliyi sona qədər tamamlaya bilirdi. Ra-

mil öz qadınının belə gözəl olmasını bu gün yenidən kəşf edirdi. Onu oxşadıqca daha da çox əzizləmək istəyirdi...

***

– Mən qəşəng bir çay dəmləyim, – qadın bunu deyib isti xalatı çılpaq bədəninə bürüyüb yataqdan qalxdı. Ərinin nəvazişindən sonra dünyanın ən xoşbəxt qadını olmuşdu. Çox sevincli görünürdü. Heç ötən gecə ərinin harada olması ilə bağlı söz də demədi.

– Yaxşı, əzizim. Mən də indi qalxıram, – Ramil də öz növbəsində baş tutan yaxınlıqdan məmnun qaldığını hiss etdirdi. Yataqdan qalxmağa çalışmırdı. Deyəsən, yenə də dünəndən bəri beynini məşğul edən məsələni düşünürdü. Həmin yuxunu...

Bir gün əvvəlki yuxuda Aytəkinini görmüşdü. Görmüşdü ki, sağdır. Ermənilərin əlindən qurtularaq gəlib çıxmışdı. Çox dəyişmişdi, hətta onu güclə tanıya bildi. Amma gözlər həmin məsum gözlər idi. Bu gözlərdən onu tanımamaq qeyri-mümkün idi. Küskün nəzərlərlə sevdiyi oğlanın gözlərinə baxaraq eyni sözü bayaqdan bəri neçənci dəfə idi ki, təkrar edirdi:

– Ramil, sən məni unutdun. Amma bax, mən ölümə qalib gəlib sənin üçün yaşadım... – Qız yalnız bunu deyirdi.

– Aytəkin, Aytəkinim... Mən səni axtardım... Mən səni çox axtardım. Hər yerdə, hər yerdə... Tapa bilmədim səni, canım, tapa bilmədim, əzizim... Amma səni unutmadım... – Ramil bunu deyib ona tərəf getmək istədi. Ayaqları tutulmuşdu, sanki, birinci addımı atar-atmaz yerə yıxıldı. Qız isə eyni şeyi təkrar edirdi:

– Sən məni unutdun, unutdun məni, mənə verdiyin sözü unutdun...

– Aytəkin, qurban olum, belə danışma. Allah şahiddir ki, mən səni unutmadım. Sənə görə həyatımdan keçməyə

hazır oldum, döyüşlərə girdim, dəfələrlə ölümlə üz-üzə qaldım, sənin qisasını almaq üçün. Hər gördüyüm girovdan, əsirdən səni soruşdum. Hamısının dedikləri sənin öldüyündən xəbər verirdi. Sənə görə öldürməyə başladım, şüurumun özündə olduğu dəqiqələrin hamısını döyüşdə ermələri qırmağa həsr etdim. Sənin qisasını almaq üçün.

– Ramilim... Axı niyə belə etdin?! Mən ki sənə məktub yazdım. Dedim ki, “məni gözlə, sağam, gözlə bir gün gələcəyəm. Qız bunu deyib yerə əyildi. Yerə yıxılan Ramilin biləyindən tutub var gücü ilə sıxdı. Sanki hirsini belə çıxarırdı. Elə bil sevdiyi oğlandan qisas alırdı. Bu adi hərəkət olsa da, çox tükürpərdici mənzərə yaradırdı. Qız dayanmadan ürək ağrısı ilə nalə çəkib ağlayır, Ramilin biləyini getdikcə daha da möhkəm sıxmağa çalışırdı. Sonra isə əlini tutub sinəsinə yaxınlaşdırmaq istədi. Ürəyinin ağrısını Ramilə çatdırmağa çalışırdı. Amma biləyindən tutduğu həmin sağ qolun sonu əlsiz və barmaqlarsız bitirdi. Ramil həmin əlini döyüşdə itirmişdi. İndi Aytəkin sevgilisinin həmin qolunu yuxarı qaldırıb heyrətlə baxırdı. İnanmaq istəmirdi. Aytəkinin özünə, qüruruna, mənliyinə daha çox inanıb məğrur görkəm almaq üçün bir vaxt tutduğu həmin əl indi yox idi. Heç Aytəkin özü də bir vaxt qüruru və mənliyi ilə öyünən qız deyildi... Bunlardan yeganə qalan hiss var idisə, bu da özünə inamı idi. Sağ qalacağına inanmışdı. Ramil üçün sağ qalmalı idi, ona söz vermişdi... İndi isə...

Sevgilisinin naləsi Ramilin ürəyini ağrıdırdı. Özündə güc tapıb yıxıldığı yerdən qalxdı. Dikəlib onu özünə tərəf çəkdi. İllərdir həsrətlə gözlədiyi an gəlib yetişmişdi. Sevdiyi qız qayıtmışdı. Amma onu heç vaxt belə ümidsiz görmək istəməmişdi. Heç özü də heç vaxt belə çarəsiz olmamışdı. Qız isə dayanmadan ağlayır, günahı olan

uşaq kimi nəyisə kimdənsə gizlətməyə çalışırdı. Cəhənnəmdən qurtulub azadlığa çıxmaq arzusu ilə gəlmişsə də, indi azadlıq onu sıxırdı. Nəfəs almağına mane olurdu. Bu hisslər sözlə ifadə oluna biləcək məsələ deyildi. Amma o, sevdiyi oğlandan çox özünü, onu bu vəziyyətə salanları, müharibəni törədənləri və ən çox da ermənilər qınayaraq lənətləyirdi. Ramilin nigaran baxışlarını üzərində hiss etdikcə daha da həyəcanlanırdı. Sevgilisi onun saçlarını oxşayıb bu dəfə daha ayıq nəzərlə onun üzündəki cızıqlara, zülmün izlərinə diqqət yetirdi. Baxdıqca Ramil də öz növbəsində bütün günahların onda olduğunu düşünürdü. Aytəkini qınaya bilmirdi. Axı qismət, alın yazısı olan yerdə Aytəkin kimi məsum qızlar nə edə bilərdilər ki?! Sevdiyi qıza baxdıqca hiss edirdi ki, o daha çox həyəcan keçirir və bu həyəcan durmadan artır. Bu dəfə nəzərləri qızın hiss olunacaq dərəcədə qabarmış qarnında bənd aldı. Bir anlıq beyni iflic oldu, dili tutuldu. Nə deyəcəyini, nə soruşacağını bilmədi. Demək, bayaqdan bunu görməmişdimi Ramil?! Yox, deyəsən, hələ indi özünə gəlib fərqinə varırdı. O, hamilə idi... Aytəkini hamilə idi... Hər ikisi nə deyəcəyini bilmirdi. Sən demə, qızın da bayaqdan günahkarcasına gizlətməyə çalışdığı bu imiş. Hər ikisinin illərdir qurduğu xəyallar dünyası, həsrətli günlərin vüsala yetişəcəyi anları səbirsizliklə gözləmək ümidləri puça çıxmışdı. Qış, bahar, ağrı-acı bilmədən ümidlərinin izi ilə çıxdıqları yolçuluq onları uçurumun ən qaynar yerinə gətirib çıxartmışdı...

Ötən gün Ramil bu yuxunun təsiri ilə öz səsinə ayılmış, sonra səhərə bu barədə düşünmüşdü. Hətta çox insanlarda olduğu kimi, o da bu dəhşətli hadisənin yuxu olduğuna sevinmişdi. Elə indi də yatağında uzanaraq bu barədə düşünürdü. Yadına düşdü ki, Nərminə səhər

süfrəsini hazırlayıb onu gözləyir. Odur ki, könülsüz halda ayağa qalxıb otaqdan çıxdı.

***

– Nərminə, mənimlə bir işin yoxdursa öz otağıma keçib bir az işləyəcəyəm, – səhər yeməyini əlüstü yekunlaşdıran Ramilin səsi eşidildi. Süfrəyə könülsüz gəlsə də, bunu hiss etdirmədi.

– Yox, amma çalış saat ikiyə qədər işlərini yekunlaşdırasan, – Nərminə harasa gedəcəklərini yada salmaq istədi.

– Niyə? Bu dəfə hara gedirik?

– Bala, bacın qızının ad günüdür, hamımız yığışıb oraya gedəcəyik, – bu dəfə divanda oturub səhər xəbərlərini dinləyən Ramilin atası Niyaz müəllim dilləndi.

– Hə, doğrudan! – Ramil bunu bilməsə də, özünü unudubmuş kimi göstərməyə çalışdı. Baxmayaraq ki, Nərminə bunu o dəqiqə anladı. Dünən bugünkü ad günü ilə bağlı ərinə demək istəsə də, onu evdə tapa bilməmişdi. İndi açıb-ağartmamaq üçün artıq heç nə demədi. Sadəcə təbəssümlə ərinin üzünə baxdı. Bu baxışlarda təbəssümlə yanaşı aşkar sezilən minnətdarlıq hissi də var idi. Ramil bunu duya bilmişdi. Nərminə də bu hisslərini gizlətməyə çalışmadı. Çünki bir az əvvəl yataqda olarkən canı qədər sevdiyi və kişiliyini bir qadın kimi yüksək qiymətləndirdiyi əri ona dünyanın ən şirin anlarını yaşatmışdı. Bayaq həmin anları yaşayan qadın indi uşaq kimi sevinirdi. Bunu onun fürsət tapan kimi Ramilə tərəf yönələn gizli baxışlarından sezmək çətin deyildi.

## 30. Ölüm arzusu

1993-cü ilin noyabr ayı... Çovğun, şaxta öz vəzifəsini layiqincə yerinə yetirirdi. Dağlardan əsən sazaq adamın iliyinə işləyirdi. Qurumuş, havada uçuşan qar dənələri burula-burula sovrulub adamın gözünə girirdi. Küləyin hansı istiqamətdən əsdiyini isə dəqiqləşdirmək olmurdu. Məni iki mərtəbəli bir binaya gətirdilər. Hiss olunurdu ki, bina müharibə nəticəsində zədələnmiş, bunun üçün də sonradan naşı şəkildə, təmir edilmişdi. Bura qadın girovların saxlanıldığı yer idi. Girən kimi sağ tərəfdə sayca dördüncü qapını açıb içəri atdılar. İçəri girəndə cır-cındırın içində binanın qabağındakı qarı təmizləyən iki qadını gördüyüm zaman ürəyimdən keçənlərin düzgün olduğunu bu otaqda olan qadınla tanışlıqdan sonra öyrəndim. Bəli, bura azərbaycanlı qadınların girov saxlanıldığı yer idi. Bura Kəlbəcər idi. Oğraş Vaskanyan düz deyirmiş. Azərbaycan torpaqları yavaş-yavaş ermənilərin əlinə keçir, qadınları isə girov düşürdü. Gördüklərimə əsaslanıb deyə bilərəm ki, bu həbsxanada yüzdən çox qadın vardı. Hərəsi də bir Qarabağ rayonundan: Laçından, Şuşadan, Ağdamdan, Füzulidən və daha çox Qaradağlı və Xocalıdan idilər.

Elə mənim ilk dəfə saxlanıldığım kameradakı qadınlardan ikisi Qaradağlıdan, mənimlə birlikdə digər qadın da Xocalıdan idi.

Mən içəri girəndə Qaradağlı qadınların ikisi də ayağa qalxdı. Ermənilər gedən kimi adımı soruşdular, hardan olduğumu soruşdular, nə vaxt girov götürülməyimlə maraqlandılar. Mən də, əlbəttə ki, könülsüz və həvəssiz onlara haqqımda ilkin məlumatı verdim. Amma mənim diqqətimi küncdə yarıçılpaq vəziyyətdə dizlərini qucaqlayıb oturan qız çəkdi. Mən onlar haqqında soruşmazdan

əvvəl qızın kim olduğunu soruşdum. Qaradağlı qadınlardan  Səriyyə adlı yaşca böyük olanı dedi ki, onu dünən gətiriblər. Xocalıda girov düşüb. Gələndən heç nə danışmır. Yaman işgəncə veriblər yazığa. Allah heç kimə göstərməsin. Həvəslə danışan qadın bu sözü elə dedi ki, elə bil özü tamamən başqa bir yerdə, başqa məkandadır. Bu gördüklərini isə ona kimsə danışır. Ya da ki, ekranda bunları seyr edir. Özü girovluqda ola-ola hansısa bir girovun halına yanmaq üçün, vəziyyətinin ağırlığına acımaq üçün halına acıdığın adamın halı misli görünməmiş dərəcədə ağır olmalı idi. O qadına hansı işgəncəni verdiklərini eşitdikdə, elə mən də onun kimi oldum. Hətta tüklərim də biz-biz oldu. Bu, dəhşət idi. Danışarsan ağzındakı dil, görərsən gözlərin, yazarsansa əllərin od tutub yanar. Dözülməz idi... Mən düşüncəyə dalarkən o, hadisəni təfərrüatı ilə danışırdı. Bir anlıq özümü Xocalıda hiss etdim. Qadınların bulaq başında və ya Qarqarın qırağında xalça yuyarkən bir-birilərinə danışdıqları qeybəti xatırlatdı. Səriyyə elə maraqla danışırdı ki, elə bil adam axtarırdı bu hadisəni danışsın. O adamı da tapmışdı. Danışdıqca məndə ilkin təəssürat belə oldu ki, yəqin bunlara burada yaxşı baxırlar. Sadəcə işlətməklə qane olurlar. Amma sonralar onlar başlarına gələnləri danışanda heç də bu hadisədən az təsirlənməmişdim. Səriyyə bu qadını qəhrəman kimi təsvir edirdi. Dəfələrlə halal olsun da deyirdi. Çünki bu qız ermənilərin gözünə girmiş, nə demişlər etmişdi. Beləliklə, onun sahibi bu qıza inanmışdı. Bu qız da üç-dörd gün bundan qabaq əvvəlcədən gizlətdiyi bıçaqla həmin erməni zabitinin cinsiyyət orqanını kəsmiş, sonra onun tapançasını götürüb onu və iki erməni əsgərini öldürmüşdü. Səriyyə Vaskanyanın adını çəkərkən özünü kimdənsə gizlədirmiş kimi apardı. Bir az astadan dedi: Ermənilərin "opşi" komandiri var ha, Vaskanyan, deyirlər çox alçaq

adamdı. Bizim qızlara, kişilərə olmazın əzablar verir. Həmin Vaskanyan bu hadisəni eşidəndə gəlir bu qızı birinci özü zorlayır, qızın bədəninə "Böyük Ermənistan" sözünü tuşla yazdırır. Sonra da qızı verir əsgərlərə ki, bu gün axşama qədər hər kəs bununla yatsın, imza üçün üstünə də öz adını döydürtsün. Azğınlaşmış əsgərlər də bir gün də bu qızın üstünə onlarla ad yazır. Hər bir ad bu qızın kimlər tərəfindən zorlanmasının sübutudur. Bura gələndən heç nə danışmır. Nə qədər təsəlli etməyə çalışsaq da, bacarmırıq. Oturduğu yerdən də tərpənmir. Hətta bu gün səhər onu işlətməyə aparmaq istəyən ermənilər də nə qədər döydülər, xeyri olmadı.

Mən öz günümə şükür elədim. Özümü ermənilərin bütün işgəncələrini görmüş hesab edirdim. Bunu isə indi görürdüm. Bu qıza ürəyim elə yandı ki, özüm yaddan çıxdım. Ona tərəf getmək istədikdə Səriyyə: "Aytəkin, işin olmasın, təsəlli vermək istədikcə daha da pis olur", – dedi. Səriyyə adımı çəkdiyi zaman qız başını qaldırdı.

Üz-gözü qurumuş qan və göyərmiş zədələrlə örtülmüşdü. "Aytəkin", – deyə təkrar etdi. Bu, Samirə idi. Biz onunla Əsgəranda ayrılmışdıq. Tale bizi yenə qovuşdurdu. Taleyi bir yazılanlardan idik, deyəsən. Sadəcə bir fərqimiz var idi, mən ermənidən uşaq doğmuş, o isə ermənin cinsiyyət orqanını kəsmişdi. Sanki mənim qisasımı almışdı. O, mənim üzümə baxdı, dodaqları əsirdi: "Həyatın qisasını aldım Qəribyandan. Onu əzablar içində öldürdüm", – dedi. "Sənin də", üzünü digər qadınlara tutub "sizin də qisasınızı aldım alçaqlardan. İmkan olsa, yenə qisasımı  alaram. Heç nədən qorxmuram", – dedi. Danışdıqca səsi titrəyir, gözləri ona dəstək verəcək, onunla qürur duyacaq göz axtarırdı. "Mənim qəlbimə onsuz da erməni damğası vurublar. Cismimə vursalar, nə olacaq?!" – deyə xırıldayırdı. Nə qədər qürurlu görünməyə çalışsa

da, sonacan dözmədi. Sinəmə qısılaraq hönkür-hönkür ağladı. Elə bil anasının qoynuna sığınmışdı. İnsanın bundan aciz anı olmazdı. Samirənin dərdini mənim kimi heç kim anlaya bilməzdi. Bu, talesizlərin bir-birini anlaması idi. Bir-birinə sirdaş olması idi. Təsəlli edəcək söz tapa bilmirdim. Sadəcə əllərim və qəlbim onun idi.

Etdiyi işin cəsarətli hərəkət olduğunu ürəyimdən keçirdim. Əhsən sənə, Samirə! Var ol! Sənin kimi övladları olan bir millət məhv ola bilməzdi! Sən kimlərinsə ürəyindən keçirib edə bilmədiklərini etdin. Sağ ol! Sənin amalın müqəddəsdir. Çəkdiyin əzab isə vətən üçün edilən ən böyük addım idi. Kimlərsə qorxaqlığının altında yatır, sənsə mənə verdiyin o vaxtkı sözü yerinə yetirmisən. Sağ ol! Amma mən o vaxt sənə o qədər də yaxşı baxmır, səni millətimə yaraşdırmaq istəmirdim. Bu sözləri ürəyimdə deyir, dedikcə onu bağrıma basır, sanki eşitməsini istəyirdim. Digər qadınlar isə donmuş heykəl kimi bizə baxırdılar. Bir-birimizi necə tanıdığımıza təəccüblənirdilər. Samirə isə əsirdi. Şok keçirirdi. Get-gedə onun bədəni soyuyur, titrəməsi isə çoxalırdı. Nə edəcəyimiz isə məlum deyildi. İki gündür, heç nə yeməyən, sadəcə dizlərini qucaqlayıb yarıçılpaq vəziyyətdə betonun üstündə oturan qız gözümüzün qarşısında bizimlə vidalaşırdı. Mənim əlimi möhkəm-möhkəm sıxmışdı. Nəsə onun cismində üsyan edirdi. Zəlzələnin yeri titrətdiyi kimi, mənliyi də onu eləcə silkələyirdi. Daxildən darmadağın olduğu hiss olunurdu. Ruhu belə bədənindən çıxa bilmirdi. Biz üç qız onu saxlaya bilmirdik. Çırpınırdı... Əli heç yerə çatmayan bir insan nə edərdisə, biz də onu edirdik. Samirə beləcə gözlərimizin önündə dünyasını dəyişdi... O dünyaya alnıaçıq getdi...

Mənim Kəlbəcərə gəlişim beləcə dəhşətlə başladı. Başıma nəyin gələcəyini bilmədən sabahı gözlədim. Hər

açılan sabahı beləcə gözləyirdim. Alışmışdım bu həyata. Deyəsən, müharibə də rəsmən bitmişdi. Daha ermənilərin döyüş üçün hazırlıqlarını görmürdük. Bizi isə hər cür məqsədlə işlədirdilər. Axşamları isə baş-başa verib ya keçən günlərdən danışır, ya da bugünkü vəziyyətləri bir-birimizə söhbət edirdik. Çox maraqlı idi ki, heç birimiz gələcək haqqında söhbət açmırdıq, necə qayıdacağıq, qayıtsaq necə olacaq? Bunların heç birini düşünə bilmirdik. Sadəcə dünənlə yaşayırdıq. Sabah isə bizim üçün yox idi. Amma gedirdik. Sabahı olmayan səhərə doğru ayları, həftələri özümüzdən xəbərsiz keçirib gedirdik. Bir gün sonu çatar deyə. Axı bu, bizim alın yazımız idi. Bunu bizə uca tanrımız rəva görmüşdü. O bilən məsləhətdir. Onun iznindən kənar heç nə olmaz deyərək, cızdığı planla yaşayırdıq. Biz kim idik ki, taleyimizə dəyişiklik edək? Bu dəftəri oxuyan hər hansı bir şəxs əgər yaxşı bir yol bilirsə, qoy bizim kimiləri qınasın. Ağılsız adlandırsın. Axı biz qoyun sürüsü kimi hara istənilirsə, ora gedirik. Bu, necə ədalətli dünya ola bilərdi? Bir insana ki taleyində azacıq dəyişiklik etməyə şans verilməyə, burda hansı ədalətdən danışmaq olardı? Məni ən çox düşündürən isə günahımın nə olduğunu bilməməyim idi. Bəlkə də, onu etmiş və bilmiş olsa idim, bu qədər əzab çəkməzdim. Artıq mənim üçün ermənidən çox tanrı ilə mübarizənin sonu maraqlı idi. Bu mübarizəni aparacaqdım, sonunu bilmək üçün. Mənə bundan sonra nə verilə bilərdi ki, mən bütün bu olanları olmamış hesab edim? Bu, çox maraqlı idi. Onun dediyi kimi, intihardan da uzaq idim. Bu yazılanları oxuyan elə düşünməsin ki, mən tanrının "intihar günahdır" fikrinə görə intiharı etmirdim. Sadəcə, ya alınmırdı, ya da alınanda ölümdən qorxurdum. Sözsüz ki, öz ölümüm məni o qədər qorxutmazdı, Gülcahan olmasa idi. Vaskanyan da məni bura göndərəndə "özünü yaxşı aparsan, bir

gün dediyimi edəcəyəm", – demişdi. Onun üçün də hələ də ölümsüz ümidlə yaşayırdım. Mənim intiharım sadəcə ümidlərimin ölməsi zamanı baş verəcəkdi. Bu isə hələ də baş vermirdi...

## 31. Açıq döyüş

– Ata, bax nənə mənim üçün nə aldı! – qapını döyərək iş otağına girən Aytəkinin sevincli səsi eşidildi.

– Ay çox mübarək! Qızım gəlsin atasının yanına. Lap dünya gözəli olmusan ki! – Ramil qızının hər iki yanağından öpərək ad günü ziyafəti üçün anasının qızına aldığı paltarı bəyəndiyini bildirdi. Əlindəki dəftəri də tələsik büküb kənara qoydu ki, içərisində yazılanlar qızının arxasınca içəri daxil olan anası Səmayə arvadın diqqətini çəkməsin. Onsuz da oğlunun hər işi ilə maraqlanmağa adətkar idi. Yeganə oğlunun bütün işləri ilə maraqlanmaq artıq nəvə sahibi olan bu qadının bir növ gündəlik məşğuliyyətinə çevrilmişdi. İndi isə nəvəsinə aldığı paltarı tələsik qıza geyindirərək atasına nümayiş etdirməyə gəlmişdi.

– Atası, görürsən də, Aytəkin artıq böyük qız olub. Necə yaraşır, bax hələ sən! – qadın bunu deyib təriflər yağdırmağa başladı.

– Hə, ana, çox gözəl seçmisən, – fikirləri dəftərin yanında qalan Ramil bu nümayiş olunma mərasiminin tez bitməsi arzusunda idi.

– Yaxşı, mən getdim, – qız bunu deyib otaqdan çıxmaq istəyirdi ki, nənəsi tələsik səsləndi:

– Ay fərasətsiz, dayan görək bir!

– Ay can, nənə. Niyə, nə olub? – təzə paltarının, doğrudan da, çox yaraşdığını özü də hiss edən Aytəkin qəmzə

ilə gözlərini süzdürdü.

– Atandan pul aldın? – Səmayə arvad zarafata salaraq bunu deyib oğluna nəzər saldı. Hiss etdi ki, Ramilin fikirləri tamam başqa aləmdədir. Oğluna yaxşı bələd idi. Onu nəyinsə narahat etdiyini o dəqiqə başa düşdü.

– Yox, ay nənə...

– Yaxşı, gəl gedək, ataya mane olmayaq. Get babadan al, mən də gəlirəm indi, – qadın bunu deyib nəvəsini yola saldı.

Ramil isə anasının sualına hazır vəziyyətdə onu gözləyirdi. Bilirdi ki, Səmayə arvad indicə suallarını yağdıracaq. Belə də oldu. Qızı ayağını otaqdan kənara qoyan kimi anasının səsi eşidildi:

– Ramil?! Nədir yenə, gözlərin bizə baxır... Fikirlərin haradadır?

– Yaxşı da, ay ana, yenə də başladın?! Axı nəyə görə məndən ötrü belə narahat olursan, bilmirəm. Mən uşaqzad deyiləm ki! – Ramil ümidsiz halda vəziyyəti yüngülləşdirməyə cəhd göstərdi.

– Qələtini elə! Sən mənim üçün uşaqsan, bildin?! Ay oğul, qadanı anan alsın, de görüm nəyin var? Niyə bikefsən? – oğlunun üstünə qışqırsa da, tez də yumşaldı.

– Ay ana, vallah yorğunluqdandır, gecə yaxşı yatmamışam. İndi də işlərim çoxdur... – anasının mühakiməsi qarşısında aciz qalan Ramil növbəti dəfə şansını yoxlamaq istədi. Amma bu dəfə daha ağır "hücuma" məruz qaldı:

– "Gecə yaxşı yatmamışam" yox e, de ki, ay arvad, sənin başını tovlayıram! Sən heç gecə evdə olmusan ki?! Səhərə yaxın gəlməmisənmi?!

Ramil başa düşdü ki, anası həmişəki kimi onun evə nə vaxt gəlib, nə vaxt getdiyindən xəbərdardır. Əvvəllər qadın bunu gəlinindən öyrənsə də, sonradan Nərminə

Ramilin bundan xoşlanmadığını görüncə, o da ərinin bu işlərini ört-basdır etməyə çalışırdı. Deyəsən, alınırdı da. Amma hərdən Səmayə arvad indiki kimi işlərin üstünü isti-isti açmağı da bacarırdı.

– Yaxşı, səninlə sabah danışarıq. İndi görürəm işin var, amma alacağın olsun, hazırlaş, cavab verəcəksən! – qadın bunu desə də, getmədi. Sözsüz ki, oğlunun nə cavab verəcəyini gözləyirdi.

– Yaxşı, ay ana... – Ramil günahkar qismində dindirilən adamlar kimi astadan dilləndi.

Qadın yalnız bundan sonra otaqdan çıxdı. Anası gedərkən Ramil bir müddət onun ardınca baxıb nə isə düşündü. Onun əvvəlki vaxtı olsaydı, tənbeh etməklə kifayətlənməyib, oğlunu döyərdi də. Amma indi, deyəsən, illər dəyişdikcə Səmayə arvad da dəyişmiş, həlimləşmiş, daha təmkinli olmuşdu. Gözünün ağı-qarası olan yeganə oğlu onun bu həyatda ən əziz adamı idi. Qızından, hətta hərdən elə düşünürdü ki, nəvələrindən də çox istəyir anası onu. O da həmişə nazını çəkir, özünün ən çətin anlarında da onun fikir çəkməməsinə görə könlünü almaq üçün əlindən gələni edirdi. O illər müharibədəki ağır döyüşlərdən arabir evə gələrkən həmişə anası onu duz kimi yalayır, bütün günü oğlunun yanından ayrılmazdı. Bir ana xarakteri üçün maraqlı idi ki, bu qadın heç vaxt oğluna “getmə” demirdi. Hər dəfə oğlu növbəti dəfə cəhbə bölgəsinə qayıdanda “Allahın nəzəri üstündən əskik olmasın, igid balam!” deyib onu yola salırdı. Həyat yoldaşı Niyaz müəllimin də arvadının bu xüsusiyyətinə görə onu “daşürəkli” adlandırmasına da heç vaxt məhəl qoymazdı. Bax belə qadın idi o – kişi kimi mərd. Səmayə arvad vətənini sevən, onu qorumağın hamının müqəddəs borcu olduğunu məclislərdə ağızdolusu dilə gətirən bir qadın idi. Ramil heç vaxt anasını ümidsiz, gözüyaşlı, ağlayan

görməmişdi. Sevimli anası uşaqlıqdan onun qanına hopan bir obraz idi. Bu obraz ən məhşur aktyorun canlandırdığı qəhrəmandan, tanınmış rəssamın çəkdiyi qiymətli əsərdən daha təbii, daha parlaq və nəzərə çarpan idi. Hansı ki, burada qəhrəmanlıq da, mərdlik də, qeyrət də bir yerdə əks olunurdu. Məhz Səmayə ananın simasında bu keyfiyyətlər hər an, hər saniyə şərə, şərin amansız zülmünə qarşı mücadilə aparırdı. Ramil bunları düşünərkən bir hadisəni xatırladı. O, şəxsən həmin hadisənin canlı şahidi olmuşdu. Anasının ağlamasını, bəlkə də, ömründə ilk və son dəfə onda görmüşdü. Müharibədə ən yaxın cəbhə yoldaşının necə şəhid olduğunu anasına danışanda qadın göz yaşlarını saxlaya bilməmişdi...

... Ağır döyüşlərdən birində cəbhə yoldaşı Səlimi itirdi. Gözlərinin qarşısında şəhid oldu Səlim.

Mühasərini yara bilmədikləri üçün qeyri-bərabər qüvvələrin iştirak etdiyi döyüşü sona qədər davam etdirmək lazım idi. Ramil həmin gün bir həftə idi ki, ilk dəfə aldığı yarasının sağalmasından sonra döyüşə qayıtmışdı. Sağ ayağındakı yara hələ də sarğılı idi. Onun cəld hərəkətlər etməsinə, qaçmasına əngəl yaradırdı. Buna görə də Səlim onun döyüşü nisbətən arxa mövqedən aparmasını istəmişdi. Ermənilərin qəfil hücumundan sonra tağım komandirinin əmri ilə hamı geriyə çəkilməli oldu. Amma ön cərgələrdə olan Səlimin dəstəsi artıq mühasirəyə düşmüşdü. Sağdan-soldan, həmçinin, qarşı tərəfdən düşmən silahlıları getdikcə daha da yaxınlaşırdılar. Ramilgil isə dörd nəfər idilər – Səlim, Fərid və İlqar daha öndə, Ramil isə arxada idi.

– Ramil, bacardığın qədər cəld olmalısan! Küçüklər yaxınlaşırlar, biz səni qoruyarıq, – Səlimin səsi eşidildi.

– Yox, sən də qayıt! Onlar hələ ki, uzaqdadır. Biz mühasirədən çıxa bilərik – Ramilin ayağı yaralı olduğu üçün

təkcə sol ayağı ilə birtərəfli sürünərək irəliyə atılmağa can atırdı. Səlimi qorumaq istədiyinə görə ətrafına diqqətlə baxmadan çətinliklə də olsa, ona sarı sürünürdü.

Gözlənilmədən sağ tərəfdən üçüncü səngərdən çıxan erməni əsgərinin silahı birbaşa ona tuşlandı. Erməni yaraqlısı düzgün qərara gəlmişdi. Məhz Ramilin öldürülməsi Səlimin hərtərəfli mühasirəsi demək idi. Amma Fərid artıq özünü yetirmişdi. Ani fasilə ilə əvvəlcə bir, sonra yeddi-səkkiz avtomatik atəş eşidildi. Həm Ramil, həm də Səlim səs gələn tərəfə baxdılar. Nə baş verdiyini hər ikisi səngərin çölündə üzüqoylu yıxılan ermənini görəndən sonra anladı. Fərid Ramilin həyatını qurtarmışdı. Birinci atəşi özü edərək erməni dığasını yerə sərmişdi. Digər atəşlər isə çox yəqin ki, erməni huşunu itirib yerə yıxılarkən tətiyin qeyri-dəqiq şəkildə onun barmağında açılmasının nəticəsi idi. Hər halda Ramil bunu cəbhə yoldaşlarına baxanda başa düşdü. İtki yox idi... Amma onlar lap yaxınlaşmışdılar...

– Fərid, siz gedin! İlqar sən də! Ramilə kömək edin, döyüş ərazisindən çıxın. Onlara mən lazımam. Hər şeyin bir sonu var. Qəhrəmanlığın da, inanın mənə qardaşlarım! Bu köpək oğlanlarının da sonu bu gündür. İndi baxarsız, – Səlim bunu deyib ayağa qalxdı. Daha sürünmədən açıq hücuma keçmişdi. Qarşısına çıxanları sərrast atəşlə yerə sərib irəlilədikcə daha da qabağa getmək istəyirdi.

– Səlim, getmə!.. – Ramil onun ani etdiyi bu hərəkətindən sonra qeyri-ixtiyari olaraq qışqırsa da, artıq gec idi. Fiziki cəhətdən çox hazırlıqlı olan Səlim onlardan xeyli uzaqlaşıb, erməni əsgərlərinin sıx olduğu qarşıdakı təpəyə keçmişdi. Bu – sözündən, inadından dönməyən qəhrəman Azərbaycan əsgərinin şücaət səhnəsi idi. Erməni dəstəsinə başçılıq edən mayor Baqdasaryanın əmrinə əsasən bütün əsgərlərə Səlimi sağ tutmaq tapşırılmışdı.

Hətta erməni mayor Səlimi kimsə yaralayacağı halda belə həmin əsgəri öldürəcəyini bildirmişdi. Baqdasaryan özü isə bir az aralıda dayanan zirehli maşında aylardır ələ keçirtmək istədiyi düşmənin gətirilməsini gözləyirdi. Səlim bu erməni mayorunun iki qardaşını və oğlunu öldürmüşdü. Dəfələrlə öz dəstəsi ilə onların səngərlərini basaraq ağır itkilərə məruz qoymuşdu. Onu artıq yeddi aya yaxın idi ki, təkcə Baqdasaryan yox, bir çox erməni komandirləri axtarırdı. Bu onlara indi qismət olmuşdu.

Səlim isə ermənilərin onu sağ tutmaq planından xəbərdar idi. Onların üstünə yeriyib atəş açdıqca yalnız müdafiə mövqeyi tutan erməni əsgərlərinin vəziyyəti bunu deyirdi. Bir az aralıda olan hündürboylu erməni giziri bezərək arxadan Səlimi nişan aldı. Amma komandirin köməkçisi buna imkan vermədi və dərhal da giziri cəhənnəmə göndərdi. Çünki o, mayor Baqdasaryanın əmrinə tabe olmayıb Səlimi öldürmək istəmişdi.

Səlim isə son məqsədinə çatmaq istəyən insanlar kimi inamla döyüşü davam etdirirdi. Onun bu halını təpənin arxasında olan cəbhə yoldaşları indi-indi anlayırdılar. Sən demə, Səlim qabaqcadan yoldaşlarına hiss etdirmədən ehtiyat üçün özü ilə avtomatdan əlavə bir neçə tapança və normadan bir neçə dəfə artıq güllə götürübmüş. Dayanmadan etdiyi atəşlər erməni əsgərlərini də get-gedə daha çox qorxuya salırdı. Sanki onun güllələri heç bitməyəcək, silahı heç susmayacaqdı. Əlacları kəsilən ermənilər nə onu öldürə bilir, nə də ki, yaxın düşməyə cürət edirdilər. Yeganə çıxış yolu erməni qanına susamış bu Türk canavarının silahının susmasını gözləmək idi. Ürəklənib irəli yeriyənlər isə sərrast atəşdən sonra cəhənnəmə gedirdi. Ramil və cəbhə yoldaşları bir neçə dəqiqə ərzində yalnız Səlim tərəfindən öldürülən ermənilərin sayını itirmişdilər. Sanki gördükləri həqiqət deyildi. Canlı baş

vermirdi... Həqiqətən də, Səlimin döyüşünü görməyənlər heç vaxt həqiqət kimi düşünə bilməzlər. Nə vaxtsa bunu eşidənlər də onun şücaətini xalq tərəfindən şişirdilmiş, dillərdə get-gedə daha çox əzbərlənən qəhrəmanlıq dastanı kimi xatirələrə yazacaqlar. Ramil isə onların görmədiyi bu hadisənin şahidi idi.

Türk canavarının getdikcə taqətdən düşdüyü hiss olunurdu. Bunu ona bir az da yaxınlaşıb dövrəyə almaq üzrə olan erməni əsgərlərinin hərəkətlərindən də görmək mümkün idi. Erməni mayoru Baqdasaryan isə gözləri önündə baş verən biabırçılığa dözməyərək dayandığı yerdən səs-gücləndirici ilə bağırırdı:

– Hamınız qırılsanız da, onu sağ istəyirəm! Yoxsa sizi tək-tək özüm cəhənnəmə göndərəcəm! Eşitdiniz məni, it uşaqları!

Səlim son nəfəsini verən insan kimi erməni dilində deyilən bu sözləri eşitdikcə bir az arxayınlaşaraq bacardığı qədər vaxtı uzadaraq daha çox erməni öldürməyə çalışırdı. Amma... Nəhayət ki, güllələri bitdi... O, qəhrəmanlıqla döyüşərək son məqsədinə çatmışdı. İndi nə ermənilərin, nə də ki, Ramilgilin inkar edə bilməyəcəyi fakt onun bu döyüşə atılmasında son məqsədinin məhz ölüm olması idi. Səlim bu döyüşə öldürmək üçün girsə də, öləcəyini bilirdi... Bu da sonu... Erməni əsgərləri dörd bir yandan ona yaxınlaşmağa başladılar. Artıq mayor Baqdasaryan da maşından düşüb ona tərəf gəlməyə hazırlaşırdı. O isə fiziki hazırlığından istifadə edərək avtomatın qundağı ilə gücü çatdığı qədər ağır zərbələr endirərək son dəqiqələrdə belə əlbəyaxa döyüş əzmini göstərirdi. Növbəti ağır zərbə isə arxadan onun özünə dəydi. Bütün dünya qaralaraq gözləri önündə pərdə çəkdi. Bu pərdə işıqlı dünya ilə axirət dünyasının astanasında olan dayanacaq idi. Gözlərini yumdu. Şüurunun özündə olduğu ana qədər

gözləyə biləcəkdi. Son dəfə bütün iradəsini toplayıb ətrafına daha çox ermənin yığışmasını gözlədi. Çox yubanmaq olmazdı. Əks halda huşunu itirib əsir düşə bilərdi. Bir az əvvəl gözləri önünə çəkilən qaranlıq pərdə getdikcə çəkilir, yerini sayrışan ulduzlara verirdi. Hiss edirdi ki, düşünmə qabiliyyətini itirir. Qabaqcadan fikirləşdiyi sonuncu həmlə planını reallaşdırmaq üçün barmağını ehmalca kitelinin iç tərəfində hazır vəziyyətdə saxladığı əl qumbarasının üzüyünə keçirərək vaxt itirmədən var gücü ilə çəkdi. Son nəfəsində partlatdığı qumbaradan sonra ətrafında olan bütün erməni əsgərləri yerə sərildi. Əksəriyyəti ölsə də, bəziləri yaralı idi. Bir az aralıda isə onun cansız meyiti sərilmişdi... Qumbara partlayışından sonra yaralanan Baqdasaryanın köməkçisi sürünərək onun meyitinə tərəf gəldi. Tapançasını çıxarıb Səlimin meyitinə tərəf tuşlamışdı ki, özünü yetirən mayorun etdiyi atəş onu əlindən yaraladı. Tapança yerə düşdü.

– İt uşaqları, siz ancaq ölüdən qisas almağı bacarırsınız. O kişi kimi döyüşdü, son nəfəsində də sizi qırıb sonra öldü! Siz isə... Lənətə gələsiniz hamınızı! O Türk olsa da, qəhrəmandır!

Təpənin arxasından olanları izləyən Ramilin nitqi qurumuşdu. Erməni dilində yaxşı bildiyi üçün mayorun dediklərini başa düşmüşdü. Dostunun şəhid olmasında özünü günahkarlandırsa da, bilirdi ki, ermənilər ona qarşı Səlimə olduqları kimi olmayacaqlar. Səngərdən çıxan kimi öldürəcəklər.

– Tez olun, burada qəbir qazın və bu əsgəri basdırın. Hamınız bir nəfər kimi! Bu, əmrdir! O türk olsa da, kişi kimi qəhrəmanlıq göstərərək öldü. Siz isə hamınız qorxaqsınız! Sizin hamınızın..!

Baqdasaryanın əmrindən sonra Səlim erməni tapdağında olan doğma vətənində torpağa tapşırıldı. Kitelində

olan Azərbaycan gerbini də mayorun əmri ilə onun baş daşına bərkitdilər...

Bir neçə saniyə sonra isə Baqdasaryanın iki qardaşını və oğlunu öldürən bu Türk canavarının xatirəsinə mayor özü sağ qalan əsgərlərlə birgə havaya atəşlər etməyə başladılar...

...Ramil indi də iş otağında olarkən on səkkiz il əvvəl baş vermiş bu döyüşü xatırlayıb kövrəldiyindən özünü saxlaya bilməyib ağladı. Necə ki, Səmayə arvad o vaxt bu hadisəni eşidəndə göz yaşlarına hakim çıxa bilməmişdi.

## 32. Cəhənnəm mələyi

O görüş istər sevgilisinə olan ölməz məhəbbəti ilə yaşayan Aytəkinin, istərsə də girovluqda yaşamağa məcbur edilən Aytəkinin həyatında böyük dəyişiklik etdi. Özümdən xəbərsiz nəfəs alıb-verməyə məhkum edildiyim zamanlarda qarşıma çıxan Fabian bu həyatı dəyişdi. Bu tanışlıq məni ən azından öz torpağında girov olub alçaldılmaqdan qurtardı.

Kəlbəcərdə saxlanılarkən işgəncələr azalmışdı. Təqribən 1995-ci ilin yaz ayları idi. Ermənilərin dediyinə görə, müvəqqəti atəşkəs olmuşdu. Bunu biz hər gün aramıza qoşulan yeni qadınların daha gəlmədiyindən də hiss edirdik. Onların da, elə bil gözü doymuşdu qandan. Əldə etdiklərini istifadə etmək arzusunda idilər. Qadınlar da mübarizədən yorulmuşdu. Qaytarılanlar qaytarılmış, fürsət tapıb intihar edənlər ölmüş, qalanlar isə ya iradəcə zəif çıxıb ölümdən qorxanlar, ya hansısa yaxın qohumuna görə bu əzablara sinə gərənlər, ya da ki satqın çıxanlar idi. Düzdür, satqınları da qınaya bilmirəm. Onlar da işgəncələrə dözə bilmədikləri üçün satılmışlar zümrəsinə aid

edilmişdi. Amma onlarla bizim fərqimiz sadəcə yemək və yataq yerimizdə idi. Bütün qadınlar onlara nifrət edirdi. Elə mən də. Amma indi onları başa düşməyə çalışıram. Çünki onların etdiklərini satqınlıq və ya alçaqlıq adlandırmaq olmazdı. Bəlkə də, onlar həyatı bizdən yaxşı dəyərləndirirdilər. Gördüyümüz işlər fərqli deyildi. Biz də kiminsə yatağına salınırdıq, onlar da. Biz də işləyirdik, onlar da. Sadəcə, biz məcbur şəkildə, döyülə-döyülə bu işlərə sürüklənirdiksə, onlar könüllü edirdilər. Nəticə baxımından bu eyni idi. Sadəcə bizim onlara baxış tərzimiz fərqli idi. Onlar isə daima istəyirdilər ki, biz onları anlayaq. Universitetdə oxuduğum vaxtlarda belə bir şey diqqətimi cəlb etmişdi: İsraildə hər hansı bir insan əsirlikdə olarkən işgəncələrdən əziyyət çəkdiyi üçün, əzablardan qorxduğu üçün nəyəsə razılıq veribsə, bu, cinayət deyil. Onu cinayət məsuliyyətinə cəlb etmirlər. Amma insanların öz arasında müəyyənləşdirdiyi bir qanun var, yazılmamış qanun. Biz yazılmamış qanuna görə onlara satqın adı verirdik. İndi isə yadıma düşəndə buna peşman da oluram. Axı insan ağrı qarşısında acizdir. Bu istər mənəvi, istərsə də cismani ağrı olsun. Mən onda heç düşünmürdüm ki, necə olur, mən namus, qeyrət anlayışlarının hamısını Gülcahana qurban verir, bunu satqınlıq adlandırmıram, amma bu insanların döyülməkdən qorxduqları üçün nəyəsə könüllü razılaşdıqlarını satqınlıq adlandırıram. Atalar yaxşı deyir axı, heç kəs oz ayranına turş deməz.

Mən bu dəftəri yazanda onları da yadıma salmağa çalışdım. Kiçik müqayisədən sonra millətimin adına sevindim də. Çünki içimizdə satqın adını verdiyimiz azərbaycanlıların sayı çox az idi. Mənim tanıdıqlarım 3-4 nəfər idi. Bunlardan bir-ikisi də atası-anası başqa millətdən olanlar idi.

Biz hər gün səhər binanın qarşısına yığılır, girovlara nəzarət edən Akopyan Sarkisin əmri ilə iş yerlərinə göndərilirdik. Bu iş yerləri ya Kəlbəcərdəki erməni hərbi hissəsi, ya donuzların saxlanıldığı fermalar, ya da zavod və sexlər idi.

Bunların içində Xocalıdakı Zərinbağ daş yatağı, Kəlbəcərin "Söyüdlü" və "Qızılbulaq" qızıl yataqları da var idi. Bu yerləri ona görə xatırlayıram ki, buralarda işləmək mənim də bəxtimə düşmüşdü. Nəinki bizi oraların təmizlik işlərinə, yemək hazırlamağa göndərirdilər. Hətta elə olurdu ki, kişilərə xas olan işlər də görürdük – bizə daş daşıdır, ağac kəsdirirdilər. Xocalıdakı ağacları kəsəndə ağacın altında qalanlar, mərmər kəsərkən daş mişarının kəsib doğradığı girovlar da az olmurdu. Onlara münasibət isə ermənin girova olan məlum münasibəti idi: girovlar ya elə oradaca qalıb can verir, ya da Lella Baqdasarovnanın "Amputasiya otaqları"na göndərilirdi. Bu cür əməliyyatları girov düşdüyümüz günlərdə görmüşdük. O vaxt 5 yaşlı bir uşağın bazu sümüyünü amputasiya otağında kəsib çıxarmışdılar. Bu cür yaralananları da geri qayıtmamaq məqsədilə Xankəndinə göndərirdilər. Kəlbəcərdə olanda intihar da asanlaşmışdı. Amma indi də intihar etmək istəyənlərin sayı az idi. Hər kəsin yaşamaqda bir məqsədi var idi: kimi sağ qalıb vətənə qayıtmaq, kimi də bacısını, anasını, qızını qurtarmaq istəyirdi. Həmin müəssisələrin rəhbərləri istədikləri qadını öz kabinetinə aparmaq imkanına da malik idilər. Bizim üçün işlədiyimiz zaman söymələri, əl atmaları, qabağımıza yediklərindən qalan artıq sümükləri tullamaları da adiləşmişdi. Yemək isə gündə iki dəfə verilirdi: çörəyin dörddə bir hissəsi və sup. Bunu da yeməyə və istirahət etməyə cəmi 15 dəqiqə vaxt verirdilər. Bu, səhər saat yeddidən axşam saat yeddi-səkkizə qədər verilən yeganə istirahət idi.

Beləcə  biz zamanı qabağımıza salıb aparır, ya da zaman bizi qabağına salıb şallaqlaya-şallaqlaya qovurdu. Günlərin keçdiyini isə bəzən saniyələrinə qədər sayır, bəzən də sürətlə gedən qatarın pəncərəsindən gördüyün ağaclar, dağlar, kollar kimi ötüb gedirdik. Nə gördüyümüzü belə dərk etməyə imkan tapmadan...

***

1996-cı ildə – kölə həyatı yaşadığım günlərin birində Kəlbəcərin "Söyüdlü" qızıl yatağında işləyən fəhlələrə yemək verirdim. Qızıl yataqlarında işləməyə gəlmək girov üçün sanatoriya idı. Kimin bəxtinə bura düşürdü üzündə sanki çiçək açırdı. Burada otuzdan çox işçi var idi. Onların çoxu erməni deyildi, hətta Qafqazlı da deyildi. Bəziləri danışıqlarından farslara oxşayırdılar. Fars hərfləri ilə yazılan kamaza oxşar maşınlar da çox idi ki, onlarla harasa dağdan yığılan daşı-torpağı daşıyırdılar. Bir qismi də ingilis dilli işçilər idi. Bunun üçün insana münasibət fərqli idi. Qeyri-normal hərəkətlər də yox dərəcəsində idi. Hətta bizə nəzarət edən ermənilər də burada mədəni, kübar olmağa çalışırdılar. Bu, sadəcə, bizi gətirən köhnə avtobusun oradan tərpənməsinə qədər davam edirdi. Bir də səhər-səhər ora çatandan sonra. Ermənilər, elə bil nəyisə gizlədirdilər onlardan. Məncə, işçilərin çoxunun bizim girovluqda olduğumuzdan da xəbəri yox idi. Bizə verilən tapşırığa görə kiminləsə nəsə danışmaq olmazdı. Bunun cəzası ölümə qədər gedib çıxırdı. Ya da Sarkisin dediyi kimi, orqanlarımızı çıxardıb sata bilərdilər. O deyirdi ki, əgər icazə versələr, sizi Lellaya satıb milyoner olardım. Yoxsa hər gün sizin nazınızla oynamaq mənim nəyimə lazımdı?

Ora aparıldığım günlərin birində bəxtim açıldı. İş bitəndən sonra bizi maşınlara mindirəndə kimsə qolumdan tu-

tub məni özünə tərəf döndərdi. Başımı yuxarı qaldıranda tanış bir sima gördüm. Bu adam Vaskanyanın evində gördüyüm sarı saçlı fransız idi. Qolumu buraxmadan nəzarətçiyə – erməniyə nəsə dedi. Hiss olunurdu ki, bu dığa fransızın nə dediyini başa düşmürdü. Mütilik göstərərək başqa bir nəfəri çağırdı.  Fransız hələ də mənim qolumu buraxmamışdı. Üzümə elə sevincək baxırdı ki, elə bil nəsə bahalı bir şey tapmışdı. Onun rus dilini bildiyindən xəbərim var idi. Başqa dildə danışması isə yəqin mənim başa düşməməyim üçün idi. Bu zaman digər bir erməni gəldi. Onunla nəsə danışdılar. Danışıqlarından yalnız "Vaskanyan" sözünü başa düşdüm. Məni həmin fransıza təhvil verdilər. Həmin gün bu bədbəxt "türk gözəli"ni qadınların yaşadığı həbsxanaya yox,  zavodun həyətində yeni tikiliyə bənzəyən binaya gətirdilər. 19 yaşıma çatmağıma baxmayaraq, həmin gecə qaldığım otaq qədər səliqəsahmanlı otaq görməmişdim. 19 yaş dedikdə mən girovluqda olduğum dövrü hesab etmirəm. Çünki bu illər insan taleyi deyil. Buna yaşamaq demək olmazdı...

O gündən mən Fabian adlı fransızın "mal"ı oldum. Həmin gün onu görmədim. Amma sonra məni onun yaşadığı evə apardılar. Bu ev zavodun yaxınlığında idi. Amma evdə lazım olan hər şey var idi. Düz iki il fransıza qulluq etməklə bu evdə yaşadım. Bu, Tanrının mənə göndərdiyi hədiyyə idi. Həmin bu evdə günləri çox rahat keçirirdim.

Sözün əsl mənasında xanım kimi yaşayırdım. Nə əziyyət var idi, nə də işgəncə. Həmin o evdə ki, Ramilə xəyanəti də burada etmişdim.

Deyəsən, Ramili unutmuşdum... Çox qəribədir. O vaxt belə düşünmüşdüm: əgər mən indi elimdə-obamda olsaydım, atam-anam sağ olsaydılar, bəzi ailələrdəki kimi məni sevdiyimə – Ramilə yox, başqasına versəydilər, ərə getdiyim adam da bu cür yaxşı adam olsaydı, mən Ramili

unudardımmı? Hər dəfə mənə də xoş təsir bağışlayan bir hissi yaşadığım üçün bunu Ramilə xəyanət hesab edərdimmi? Zaman bütün yaraların dərmanıdır. Mənim də yarama zaman məlhəm olmuşdu. Bədənimdə qalan təkcə siqaret közlərinin izləri idi. Çox təəccüblü də olsa, bu güzaran məni bəzi şeyləri unutmağa məcbur edirdi...

Onu tanıdıqca insanlığı məni heyran edirdi. Həddindən artıq mədəni adam idi. Köləsinə belə tapşırıq verəndə "zəhmət olmasa" ifadəsi dilindən düşməzdi. Mən taleyin bu oyununa inana bilmirdim. Deyirlər, Tanrı insana daşıya biləcəyi qədər yük verir. Deməli, bütün başıma gələnləri daşıya biləcək gücdə olmuşdum ki, tanrı mənə bu qədər əzab yükləmişdi. İndi isə artıq o limitin bitdiyini görüb, bu cəhənnəm mələyini mənə yetirmişdi. Vaskanyanın yanında qaldığım zamanlarda hər an ondan Gülcahanı soruşurdum, o da görüşə biləcəyimizə ümid verirdi. Amma Kəlbəcərə gələndən Gülcahan haqqında heç kimdən məlumat ala bilmirdim. Yaşayıb-yaşamadığını da bilmirdim. Fabianla qarşılaşmamışdan bir neçə gün öncə, yaşamağımın heç bir dəyəri olmadığı qənaətinə gəlirdim. Gülcahan üçün yaşamağım isə artıq yaşamaq üçün bir bəhanəyə çevrilmişdi. Bunu özümə etiraf edə bilməsəm də, qəlbimin bir küncündə buna qərar vermiş, amma hər vəchlə mənliyimdən gizlətmişdim. Hətta bəzən Gülcahanı belə unudur, yalnız olduğumu düşünürdüm. Bu ərəfədə fransız iş adamının mənim qarşıma çıxması, bəxtimi plov üstündəki buda bənzətdi. Bir vaxtlar şikayətləndiyim Tanrıya şükür etməyi də unutmuşdum o illərdə. İnsan hər hansı bir işə içində olduğu zaman qiymət verə bilmir. Nə zaman ki iş bitir və ya o işi başqası görür, kənardan onu yaxşıca təhlil etmə imkanı olur. Mən bir zamanlar Fabianla xoş günlər keçirən Aytəkini indi kənardan daha yaxşı analiz edə bilirəm. Necə ki, insan güzgü olmadan özünü

görmür, lakin güzgü qarşısında özünü yaxşıca görüb tanıyır. Mən o Aytəkini indi uzaqdan daha yaxşı görürəm. Çətin günlərinin səbəbkarı kimi Tanrını günahlandıran Aytəkin, cəhənnəmin içində, cənnət vadisinə düşməsinə görə Tanrısına bircə dəfə də olsun "sağ ol" deməmişdi. Buddistlərin dünyagörüşünə görə, müsəlmanlar çox tənbəl ruhda tərbiyə alırlar. Onlar deyir ki, siz müsəlmanlar problemlə üzləşəndə "Allah, özün kömək ol!" və ya "Tanrı sən necə məsləhət görürsən, elə olsun" deyirsiniz. Amma buddistlər heç bir halda onu köməyə çağırmırlar. Bütün problemləri əldə etdikləri şüur və məntiqlə həll etməyə və ya dərk etməyə çalışırlar. Doğrudan da, bu fikirlə razılaşmamaq olmur. Axı biz niyə hər şeyin göydən gələcəyinə ümid edirik? Bəs biz özümüz nəyə lazımıq. Və ya hər şeyin göydən gəldiyinə inanırıqsa, Fabianın da Allah tərəfindən göndərilməyinə inanmalı, ona şükür etməli idim. Bir-iki dəfə dilimin ucuna gəlməsinə baxmayaraq, ürəklə tanrıma şükür etməmişdim. Amma nənəmin dediyi ibrətamiz rəvayətə söykənərək o günümə şükür etməli idim. Axı mən digər qadınlardan fərqli olaraq, çıxılmazların içində geniş, aydın bir meydan tapmışdım. Sözsüz ki, orda qalan qadınların hamısı mənim bu vəziyyətimi bilsəydilər, mənə paxıllıq da edərdilər. Qonşu qızın imkanlı adama ərə getməsinə görə paxıllıq etdikləri kimi. Amma onlar yəqin ki, mənim yaşamadığımı düşünürdülər. Amputasiya otaqlarına aparıldığım fikri ilə razılaşmışdılar. Buna görə ermənilərə nifrət də edirdilər. Mənim qolumdan tutularaq saxlanıldığımı Esmira və Nəzakət görmüşdü. Dəqiq anlamadıqları vəziyyəti bir az da bəzəyərək danışmışdılar qadınlara. Onlar da acınacaqlı şəkildə mənim halıma acımışdılar, yəqin ki.

Fransızla yaşadığım günlər, həqiqətən, şükürlü günlər idi. Bu, ən azından nənəmin şükür məntiqi ilə belə idi.

Onun tez-tez danışdığı rəvayətlərdən biri belə idi: Bir gün Məhəmməd peyğəmbərimiz atını minib Allahla görüşə gedir. Yolda qurumuş bir ağacın dibində, Ərəbistanın qumluq səhralarında istidən və küləkdən qorunmaq üçün qumla üstünü örtmüş bir kasıb görür. Kasıba yaxınlaşanda həmin kasıb kişi peyğəmbərdən hara getdiyini soruşur. Peyğəmbər Allahla görüşmək üçün getdiyini deyir. Kasıb deyir ki, Allaha mənim vəziyyətimi danış. Bu qədər acınacaqlı həyat keçirdiyimi söylə. Mənə bu vəziyyətdən çıxmağım üçün bir yol göstərməsini xahiş et. Peyğəmbər "deyərəm" deyib yoluna davam edir. Bir az getdikdən sonra qarşısına bir adam da çıxır. Bu adam isə çox varlı insan idi. Yanında əshabələri, başının üstündə uçan quşları belə var idi. Bu varlı kişi də, peyğəmbərdən hara getdiyini soruşur. Peyğəmbər buna da Allahla görüşə getdiyini deyir. Varlı kişi peyğəmbərdən xahiş edir ki, tanrıdan onun var-dövlətinin azalmasını istəsin. Peyğəmbər bunun səbəbini soruşur. O deyir ki, mənim pulum çoxdur, qorxuram ki, bu var-dövlət məni yolumdan azdırar, səhv yola salar, Tanrımı unutdurar.  Peyğəmbər buna da "deyərəm" deyib yoluna davam edir.

Peyğəmbər görüşdən qayıdanda birinci olaraq qarşısına həmin varlı kişi çıxır. O, xahişini Tanrıya çatdırıb-çatdırmadığını soruşur. Peyğəmbər deyir ki, bəli, dedim.

– Bəs o, nə dedi?

– Dedi ki, Allaha olan şükrünü bir az azaltsa, pulu da azalar.

– Əstəğfürullah! Adam da şükürün azaldar? Allah, sənə min şükür, min şükür! – deyə-deyə varlı kişi Peyğəmbərin yanından uzaqlaşır.

Peyğəmbər qayıdanda həmin kasıb kişinin də yanından keçir. Kişi də onun sözünü Allaha dediyini soruşur. Peyğəmbər deyir:

– Bəli, dedim.

– O nə dedi?

– Dedi ki, oturub-durub şükür etsin. Əgər Allaha etdiyi şükürünü çoxaldarsa, arzuları da yerinə yetər.

– Necə? Şükür? Mən hansı günümə şükür edim? Mənim şükür edilməli nəyim var? Sən nə danışırsan?

Elə bu vaxt külək əsir, qumu sovurur. Kişinin qumla örtülmüş çılpaq bədəni günün qabağında qalır.

Peyğəmbər: – İndi isə bu gününə şükür et ki, hələ də əlin-qolun üstündədir. O qumu yenidən üstünə yığa bilərsən, – deyib gedir.

Bəli, mən də şükür etməliydim o günlərə, ən azından əlim-qolum üstümdə idi. Nəyəsə görə müqavimət göstərə, mübarizə apara bilirdim. Amma bütün yaşadıqlarımdan sonra Tanrının mənə ucunu göstərdiyi xoş günlərə görə şükür etməmişəmsə, bunu günah olaraq yazsın mənim dəftərimə. Axı güclüdür, bizim etdiklərimiz onu qəzəbləndirə, o isə bizi cəzalandıra bilər. Biz isə məzlumuq, nə şikayət etməyə, nə cəzalandırmağa, nə üsyan etməyə heç bir haqqımız yoxdur. Güclülər həmişə haqlıdır. Tanrı, yəqin ki, mənim ona şükür etmədiyim üçün üzrlərimi qəbul edər, məni bağışlayar. Axı o adil Allahdır. Onun mənə rəva gördüklərini kim qəbul edib, bağışlayacaq, bilmirəm...

## 33. Mən sağam

Gecə işıqları ilə növbəti dəfə öz gözəlliyinə qərq olmuş şəhər küçəboyu şütüyən maşınların səsini dinləyərək daha bir yorğun gününü yola salmağa hazırlaşırdı. Həmişəki kimi sakit və susqun halda saatları beləcə yola salırdı. Elə dünən də belə olmuşdu və yəqin, bu sabah

da təkrarlanacaqdı. Amma doğma şəhər heç zaman öz sakinlərindən şikayətini dilinə gətirmirdi. İllər keçdikcə insanları kimi o da dəyişilir, buraya gəlib-gedən adamların istədikləri kimi görkəmlərə düşürdü...

Maşının salonunda yayılan həzin musiqi sədaları əlavə hansısa söhbətin yaranmasına mane olaraq içəridə olan ailə üzvlərinin hamısının adından nələrsə danışırdı. Hamı da susaraq onu başa düşməyə çalışırdı. Adətən hansısa ziyafətdən, qonaqlıqdan qayıdarkən orada olanları müzakirə etməkdən doymayan Səmayə arvad da, gəlini də susurdu. Qabaqda əyləşən Niyaz müəllim isə, yəqin ki, sükan arxasında olan oğluna mane olmamaq üçün susaraq xəyallara dalmışdı. Ən çox yorulan isə Aytəkin olmuşdu, deyəsən. Şənlikdə o qədər oynamışdı ki, bir az əvvəl maşına minər-minməz yuxuya getmişdi.

İndilərdə fikirlərinin qarmaqarışıqlığından hamıdan çox yorulan Ramil yenə də özündən asılı olmayaraq srağagün gecədən onu narahat edən məsələyə köklənmişdi. Xeyli vaxtdan sonra bu gün birinci dəfə idi ki, dostunun maşınını alaraq özü sükan arxasına oturmuşdu. Yaxşı sürücü olsa da, səhhətindəki problemlərlə bağlı həkimlər sürməməsini tövsiyə etmişdilər. Beyninin dərinliklərində yenidən sürətlə inkişaf etməkdə olan fikirləri uzaqlaşdırmağa çalışırdısa da, alınmırdı. Belə gərgin halda maşını idarə etdiyi üçün narahatlığı getdikcə artırdı. Hələ indi fərqinə vardı ki, artıq öz küçələrinə çatıb. Belə hallar avtobusda işə gedib-gələrkən tez-tez təkrarlansa da, indi özü maşın sürərkən bunun baş verməsinə təəssüfləndi. Bacısıgildən öz evlərinə qədər olan yolu necə sürdüyünü istəsə də xatırlaya bilmədi. Sağ-salamat gəlib çatdıqları üçün bir anlıq sevindi də. Bəlkə də, bu, sevincdən daha çox şüurlu insan üçün xas olan tanrısına şükür hissi idi. Amma hər halda o bunu hiss etdi...

***

– Ramil, yorğun olarsan, istəyirsən yat istirahət elə – yataq paltarını geyinmək üzrə olan Nərminənin səsi eşidildi. Bunu desə də, hiss olunurdu ki, ərinin belə tez yatacağına özü də inanmırdı.

– Yaxşı, əzizim. Sən yat, mən də əl-üzümü yuyub gəlib yatıram.

– Yaxşı, – həyat yoldaşı onun ənənəvi cümləsini eşidəndən sonra bir az əvvəl düşündüklərində yanılmadığına bir daha əmin oldu. Ürəyinin dərinliyində saxladığı sözü dilə gətirməkdən əlini üzərək çarəsiz adamlar kimi yenicə isitməyə çalışdığı yerində məqsədsiz halda bir neçə dəfə fırlandı. Sanki yumşaq yataqda deyil, daşın üstündə yuxu tapmağa çalışırdı. Onun tanıdığı Ramil yenə də hansısa bəhanə ilə yatmayıb iş otağına, yaxud da, ürəyinin səsinə qulaq asa biləcəyi qeyri-müəyyən bir yerə gedəcəkdi. Nərminə bunu düşünüb məyus olsa da, səsini çıxartmaq istəmədi. Amma əri siqaretini pencəyinin cibindən götürüb otaqdan çıxmaq istəyəndə yenə də ürəyi dözmədi:

– Mən yatmıram, səni gözləyirəm. Tez gəl, əlindəkinə başın qarışmasın, az çək...

– Yat, yat, – Ramil bunu deyib vaxt itirmədən otaqdan çıxdı.

Səssizlik beynindəki fikirlər burulğanını coşdurduqca bir yerdə qərar tuta bilmirdi. Əlindəki siqareti yandırıb yanına gəlib çatdığı divana çökdü. Deyəsən, əməlli-başlı yorulmuşdu. Amma hiss edirdi ki, bu fiziki yorğunluqdan daha çox mənəvi rahatsızlıqdan qaynaqlanır. Özünü çox pis hiss edirdi. Bir az əvvəl yoldakı narahatçılığı evlərinə çatandan sonra azalmışdısa da, indi başqa bir şəkildə yenidən peyda olmuşdu. Bu arzuolunmaz idi. Öz intuisiyasına çox zaman arxalanmışdı. Heç vaxt gözlənilməz ha-

disələri təsadüf adlandırmırdı. Əgər bir şey baş verirdisə, deməli, o, olmalı imiş. İndi də intuisiyasının səsinə qulaq asmağa çalışırdı. Altıncı hiss isə çox yavaşdan nə isə pıçıldayırdı. Bu pıçıltı nə qədər zəif olsa da, özü ilə hansısa dəhşətli xəbəri gətirməyə çalışırdı. Ramil bunu duyduqca getdikcə daha çox narahatlıq keçirirdi. Bir daha özünü inandırmağa çalışdı ki, iki gün əvvəl gördüyü yuxu, dünən, bu gün Aytəkini, onunla bağlı ötən nakam illərini xatırlamasının heç biri təsadüf deyil. Yuxuda Aytəkinin sağ olduğunu görmüşdü... İndi də yuxusunun həmin anlarını gözlərinin qabağına gətirdikcə həyəcanlanırdı. Hətta elə indicə divanda onun sağ tərəfində oturan Aytəkini də gördü. Bu ani olsa da, Ramil çox qorxdu. Sanki siqaretin acı tüstüsü olmasaydı, elə həmin an huşunu itirəcəkdi. Özünü ələ almağa çalışdı. O, heç vaxt belə vəziyyətə düşməmişdi. Bu qorxu, yaxud da qarabasma deyildi. Ramil intuisiyasının onun üçün pıçıltı ilə söylədiklərini eşidə bilmişdi. "Mən sağam... Mən sağam..."

– Ramil, mən səni gözləyirəm axı, gəlmirsən?

Ramil sağ çiyninə nəvazişlə toxunan qadının əlini hiss edər-etməz yerindən dik atıldı. Yaxşı ki, Nərminə idi...

– Can, qorxutdum səni, – qadın ərinin onun gəlişini hiss etmədiyini başa düşdü. Ramilin dik atılmasını görüb, o da təşvişə düşmüşdü.

– Bəs, sən yatmamışdın? – Ramil anladı ki, özündən asılı olmayaraq çox qorxub.

– Yox, səni gözləyirdim. Sənə nə olub yenə? – qadın növbəti dəfə çarəsiz halda ərinin belə fikirli olmasının səbəbini öyrənməyə çalışdı.

– Heç nə, yorğunam. Gəl gedək, mənim də yuxum gəldi.

Sualı ilə bağlı ərinin cavabı qadını qane etməsə də, gəl gedək" kəlməsini eşidəndə səssizcə onun yanına düşüb

getmək qərarına gəldi. Onsuz da gecə vaxtı ərinin beynini məşğul edən həmin məsələnin nə olduğunu öyrənə bilməyəcəkdi.

Yatağa uzanıb ərini də öz yanına çəkdi. Bir az əvvəl ərinin otağa qayıtmayacağı ilə barışıb ürəyindəkini bəyan etməkdən vaz keçmişdisə də, indi bu hisslər qeyri-ixtiyari şəkildə özləri dilə gəlirdilər. Ramil isə həyat yoldaşının fikirlərini anlayaraq bu gün artıq üçüncü dəfə yaşadığı daxili narahatçılıqdan məyus olurdu...

***

Yatağa girməsindən bir saatdan çox vaxt keçməsinə baxmayaraq, gözünə yuxu getmirdi. Artıq Nərminə də öz tərəfinə çəkilərək ərindən razı halda şirin yuxulara qərq olmuşdu. Ramil isə düşüncələrinin izi ilə ötənlərə qayıtmışdı. Amma bu bir saat əvvəlki zaman kəsiyindən çox-çox uzaqda olan həmin məsum, kimsəsiz illər idi...

Yenə də Aytəkini düşünürdü. Onun itkin düşdüyü gündən sonra yaşadığı illəri saniyəsinə qədər xatırlamağa çalışırdı. Özü də öz möhkəmliyinə həsəd aparmağa başlamışdı. Doğrudanmı, o həmin Ramil idi?! Yox, on doqquz il əvvəlki həmin yuxaürəkli Ramildən əsər-əlamət qalmamışdı. Sanki ürəyi də daşa dönmüşdü. Belə hiss edirdi... Bu qəribə duyğuların təcəssümü onu Aytəkinsiz keçirdiyi illərə qaytarır, hər anı əzab, işgəncə dolu həmin anları düşünməyə bir daha vadar edirdi. Dünyanın acılarına, insanların inadına, yalanlarla dolu sevgilərin, qiyamətlərlə dolu günahların varlığına inanaraq təəccüblənməsinə səbəb olurdu. Bu gerçək bir eşq qəhrəmanının keçdiyi ömür yolu idi... Öz sevgisi uğrunda, sevgilisinin yolunda bütün çətin anları yaşayıb, ölüm kəfənini yırtıb gəlmiş Məcnunun eşqi idi. Ölümsüz bir eşq...

On doqquz il əvvəl ermənilər tərəfindən Xocalıda

törədilən dəhşətli faciənin xəbərini eşidəndə dünyadan ümidini kəsmişdi. Aytəkinin də öldürüldüyünü düşünmüşdü. Amma heç vaxt özünü buna inandırmayaraq onu axtarmağa başladı. Həmin dövrdə öyrənə bildi ki, faciə törədilən günün gecəsi ermənilər Xocalıdan çoxlu sakini girov götürüblər. Rəsmi məlumatlarda onların sayı 1275 nəfər göstərilsə də, əslində daha çox insan erməni girovluğuna düşmüşdü. Ramil bunu ən azından elə rəsmi məlumatların özündə tez-tez təkrar olunan 150 nəfər xocalı sakinin itkin düşməsi faktı ilə izah edirdi. İtkin düşənlər ölənlər və yaralılar arasında tapılmırdı. Bu da o demək idi ki, erməni tərəfi məlum olan rəqəmlərdən daha çox insanı öz əsirliyində saxlayır...

Həmin gün Ramil özünə ermənilərdən qisas alacağına və Aytəkinin ölüsünü də olsa, tapacağına söz verdi. Və bununla da sonu görünməyən mübarizənin içinə girdi. Gözünü qan örtmüşdü. Xocalının işğalından sonra vertalyot ilə şəhərdən gətirilən meyitlərin və yaralıların arasında Aytəkinini çox axtardı. Ermənilərin müasir insan şüurunun həzm edə bilməyəcəyi vəhşiliklə insan övladına qarşı törətdiyi bu qətliamın qurbanlarını bir-bir gözləri ilə gördü. Öz vətəninin övladlarının təhqir olunmuş meyitlərini gördükcə hiddətindən əsəbləri tab gətirmirdi. Amma məcbur idi. Sevgilisini axtarmalı idi. Özünə söz vermişdi. O isə tapılmırdı...

Ramil, nəhayət, əlini hər şeydən üzüb gizli yollarla ermənilər tərəfə keçməyi planlaşdırdı. Rus dilini yaxşı bilməsi onun üçün çətinlik yaratmazdı. Onsuz da həmin dövrdə işğal olunmuş ərazilərdə rus əsgərlərinə tez-tez rast gəlinirdi. Düşmən tərəf bunu təkzib etsə də, adi mülki geyimli rus yaraqlıları işğal olunmuş ərazilərində keşik çəkməkdə erməni “qardaşlarına” kömək etmələri həqiqət idi.

Döyüşlərin ən qızğın nöqtələrinə qədər gəlib çatan Ramil artıq Aytəkinin axtarışı üçün beynində tutduğu partizan planını götür-qoy etməyə başlamışdı. Əgər istədiyi kimi baş tutsaydı, o öz sevgilisini tapa bilərdi. Hər halda o bu ümidləri üzərində bütün planını ölçüb-biçmişdi. Çox çətin olan bu əməliyyatı sona qədər səhvsiz həyata keçirməklə doğrulda bilərdi həmin ümidləri. Gənc universitet tələbəsini də narahat edən, çox vaxt isə qorxuya salan əsas məsələ də bu idi. Ölümdən qorxusu olmasaydı, məqsədinə çatmadan bunu dadmaq istəmirdi. Fiziki hazırlığı, düşünmə qabiliyyəti qarşısına qoyduğu çətin tapşırığın öhdəsindən gələ biləcəyinə inanmağa sövq edirdi.

Nəhayət, həmin gün gəlmişdi, deyəsən. Bütün planları bir daha saf-çürük edib əməliyyata başlaya bilərdi. Təəssüf ki, erməni tərəfinin digər məntəqələrdən etdiyi atəşlər onun planına mane olurdu. Milli ordu hər an qarşı tərəfin hücum planını gözlədiyi üçün müdafiə mövqeyində idi. Ramilin rəhbərlik etdiyi tağımın əsgərləri də qarşıdakı səngərdə cavab atəşləri ilə düşmən mövqelərini susdurmağa çalışırdılar. Bir az əvvəl onlardan biri yaralanmışdı da. Ramil buna görə daha çox dilxor idi. İstəməsə də, planlaşdırdığı fərdi əməliyyatı bu gün təxirə salmaq lazım idi. Əks halda başçılıq etdiyi tağımın əsgərləri məhv ola bilərdi. İndilərdə həmin tağıma rəhbərlik etməyə razılıq verməsinə də peşman olmuşdu. Amma bu dəqiqə vəziyyəti dəyişmək mümkün deyildi. Sabahı gözləyib komandirlə görüşərək onu dəyişməsini istəməklə həmin məsələni ancaq həll etmək olardı. Tək olandan sonra isə istənilən kəşfiyyata qoşulmaq Ramil üçün daha ağla-batan görünürdü. Odur ki, qərara gəlib bu gün əməliyyatı təxirə saldı. Onsuz da erməni tərəfi hələ indi-indi sakitləşirdi. Buna görə də onların mövqeyinə bu ərəfədə yaxınlaşmaq çox təhlükəli idi. “Allah şeytana lənət eləsin, bu

gün son gün idi!" – Ramil bunu düşünüb özünə təskinlik verərək səngərdəki əsgərlərinin yanına qayıtdı.

***

Həmin gün öz planını həyata keçirə bilməyən Ramil səhəri gün necə olur-olsun, öz məqsədinə çatmağı düşünürdü. Artıq hadisədən qırx gündən çox vaxt keçirdi. Son günlərdə əsirlərin dəyişdirilməsi prosesi demək olar ki, hər həftə baş verirdi. Bu gün də Xocalıdan olan girovların bir neçəsi dəyişdiriləcəkdi. Ramil düşündüyü əməliyyat öncəsi solmuş ümidlərlə sevgilisinin də bu gün dəyişdiriləcəyini gözləyirdi. Amma gələnlər üç-dörd nəfər yaşlı adamlar oldu. Bunların hər biri ilə görüşüb Aytəkinlə bağlı söhbətlər aparsa da hələ ki, onu gördüm deyən olmamışdı. Nəhayət, ən son qaytarılan kişi – Qədim dayı Aytəkin adlı bir qızın əsirlikdə onunla eyni yerdə saxlanıldığı haqqında məlumat verəndə Ramil artıq qəti şəkildə əmin oldu ki, sevgilisi yaşayır. Hələ də qulaqlarına inana bilməyib bir daha xəbər aldı:

– Qədim kişi, onları harada saxlayırlar? Vəziyyətləri necədir? Axırıncı dəfə nə vaxt görübsən onu?

Ramil dayanmadan sualları bir-birinin ardınca verirdi. Ermənilərin əlindən qurtulduğuna inana bilməyən Qədim kişi isə hələ indi-indi özünə gəlməyə çalışırdı. Nəhayət ki, Ramilin ona tərəf bərələn gözlərinə tab gətirə bilməyib çətin də olsa, dili topuq vura-vura cavab verməyə çalışdı:

– Bizi Əsgəranın milis idarəsində saxlayırdılar. Yaxınlıqda da silahlı adamlar gecə-gündüz keşik çəkirdi.

– Aytəkinin vəziyyəti necə idi?

– Yaxşıdırlar, orada ən çox kişiləri incidirlər. Həm də Aytəkindən başqa onunla bir yerdə daha bir-neçə qadın da saxlayırlar, – kişi ona təskinlik verməyə çalışdı. Özü

45 günə yaxın girovluqda qalan bu kişi indi uydurduğu ağ yalanı Ramilə danışa-danışa xəcalət çəkirdi. Elə bil ata gəlininin pis yola düşdüyünü bilə-bilə bunu oğlundan gizlətməyə çalışırdı. Bu çox qəribə bir vəziyyət idi. Qədim kişi də, Ramil də işin nə yerdə olduğunu anlayırdılar. Baxmayaraq ki, Qədim kişi hadisələri gözü ilə görüb gəlmişdi, Ramil də cavan və yaraşıqlı qızın erməni girovluğunda olmasının nə demək olduğunu düşünüb mənəvi sarsıntı keçirirdi. Qədim kişini də yalan danışdığına görə qınamırdı. Axı yazıq nə etməli idi?! Deməliydi ki, ermənilər hər gün sənin Aytəkininin başına min oyun açıb qadınlıq ləyaqətini tapdalayırlar?!

Qədim kişi ilə qısa söhbətdən sonra Ramil hiss etdi ki, daha heç kəsi dinləyəcək halı qalmayıb. Bir yerdə qərar tuta bilmirdi. Aytəkinin sağ olmasını öyrənmişdisə də, bilmirdi ki, bu xəbərə sevinsin, yoxsa xəlvət bir yerə çəkilib uşaq kimi ağlasın. Amma sevdiyi qızın ermənilərin əlinə sağ düşməsi ilə razılaşa bilmirdi. Qədim kişi ilə danışandan bəri elə hey düşünürdü ki, "gərək Aytəkin özünü öldürəydi!.." Amma bu asan idimi?! Bir insan özünü həyatdan necə məhrum edə bilər?! Şəxsən Ramil özü bunu edə bilərdimi? Əlbəttə! O bunu bacarardı. Amma intihar etmək aciz insanlara xasdır axı... Yox, bu intihar məcburiyyətdən doğur, acizlikdən deyil. Aytəkin isə bunu bacarmamışdı, buna cəhd etməmişdi... Bəlkə, Qədim kişinin xəbəri yoxdur, Aytəkin özünü öldürmək istəyib, amma ona mane olublar? Axı kişi onu hər an izləyə bilməzdi...

Özü ilə beləcə dialoq aparan Ramil onda hiss etdi ki, artıq idarə etdiyi maşınla hərbi hissənin yerləşdiyi yerdən xeyli aralanaraq başqa kəndin ərazisindəki cəbhə xəttinə yaxın mövqelərdən birinə çatıb. Aytəkin ölməmişdi və Ramil onu xilas edə bilərdi. Amma təkbaşına bacaracaqdımı?! Axı, Qədim kişi dedi ki, ətrafda silahlılar hər an

keşik çəkirlər... Yox, o bunu etməli idi, bacarmazdısa da, ən azından bunu yoxlamalı idi. Gecikməyə isə qətiyyən ehtiyac yox idi. Gecəni gözləmək, sonra isə planı həyata keçirmək! Ramilin beynində olan yalnız bu idi. Sevgilisinin düşmən girovluğunda olmasını isə heç cür qəbul edə bilmirdi. Onu özünü öldürməməsinə görə qınaya da bilmirdi... Bəlkə də, ağır şərtlər qoyublar qarşısında... Bəlkə də ailəsinə işgəncə verməklə hədələyiblər... Ramil bunları düşündükcə əsəbləri daha da tarım çəkilir, hirsindən ürəyi yarpaq kimi əsirdi. Siqaret yandırıb yaxınlıqda saxladığı maşına minərək hərbi hissəyə qayıtmaq üçün yola düşdü. İndi ən çox arzu etdiyi bir şey var idisə, bu da gecənin qaranlığının tez düşməsi idi...

***

... Dəhlizdə hənirti eşidildi. Deyəsən, Səmayə arvad namaza durmuşdu. Ramil otağın həyətə baxan pəncərəsinə nəzər saldı. Bir azdan hava işıqlaşacaqdı. Bayaqdan bəri olub-keçənləri düşünən Ramil də daha yata bilməyəcəyini görüb yataqdan qalxdı.

## 34. Ramilə xəyanət

Fabian Soissona hansısa bir şirkətin rəhbəri idi. Özü fransız olsa da, rəhbərlik etdiyi şirkət Kanadaya aid idi. Tam dəqiq məlumatım olmasa da, deyəsən, onlar Kəlbəcərdəki qızıl yataqlarını işlədirdilər. Tez-tez xaricə gedib gəlirdi. Dediyinə görə, boşandığı xanımından 12 yaşlı bir qızı da var imiş. Qızını anası ilə yaşadığından 4-5 il idi ki, görmürdü. Çox qəribə idi ki, buna adi bir şey kimi baxırdı. Bu, onun Avropalı olmasından irəli gəlirdi. Bir də ondan hiss olunurdu ki, o, mənə rahatca "səni se-

virəm" deyə bilirdi. Azərbaycanlı kişilər heç vaxt belə edə bilməzdilər. Başıma gələn hər şeyi bildiyi halda, mənim yaxşı adam olduğumu, bunlara layiq olmadığımı vurğulayır, ağuşuna alırdı. Amma çox müəmmalı adama bənzəyirdi. Bəzən çox sadə, bəzən isə çox mürəkkəb xasiyyəti ilə məni qorxudurdu. Hərdən onun çox yaxını, hərdən isə heç kimi olurdum. Amma heç kimi olduğum zamanlarda belə o, mənimlə çox mədəni olurdu.

İnsan həmişə hər şeyin ilkindən – birincisindən qorxur. Qatil belə qatil olacağına qorxmur, sadəcə onu qorxudan birinci dəfəkidir. Sonradan hər şey adiləşir, hər şey sadələşir. İstər sevmək, istər sevdiyini tərk etmək, istər ilk öpüş, istər ilk yataq, istərsə də, mənim üçün adiləşmiş olan ilk cəza. Əvvəllər televizorda hər hansı bir işgəncəni gördükdə "insan buna necə dözər?" – deyə ürəyim sızıldayardı. Amma mən girovluqda elə işgəncələr gördüm ki, təsviri mümkün deyil. Amma bunlar indi mənim üçün adiləşib. Və daha heç nədən qorxmuram.

Elə ilk xəyanət də belə olurmuş... Bu gün necə ki, Tanrıya o xoş günlərinə görə şükür etmədiyim üçün peşmançılıq hissi keçirirəm, eləcə də Ramilə etdiyim xəyanətə görə özümü bağışlaya bilmirəm. Girovluqda olduğum müddətdə başıma gələnlərin heç birindən utanmazdım, bəlkə də. Özümə haqq qazandıracaq səbəblər çox idi. Amma insan kimi özümlə bacarmadığım, özümə hökm edə bilmədiyim o gecə... məni daima utandıracaq bir gecə idi. 1992-ci ilin fevralından 1996-cı ilə qədər bir saniyə də insan münasibəti görməyən bir qız birdən-birə cənnətə düşmüşdü. Fabian onun evində qaldığım ilk gecə məni hamama göndərdi. Mən uzun illərdən bəri idi ki, güzgüdə özümə baxma imkanı tapmışdım. Bir zamanlar özü ilə tək olanda güzgünün qarşısında durub əndamına baxan, əlini sinəsində gəzdirən, belinin incəliyini yoxlayan, güz-

güyə yaxınlaşıb barmaqlarını dodaqlarında gəzdirən qız, indi güzgüdən utanırdı. Özünə diqqətlə baxmağa xəcalət çəkirdi. O məsumluqdan, o zəriflikdən, o gözəllikdən əsər qalmamışdı. Nəinki üstündən xəzan küləyi əsmişdi, borana, şaxtaya düşmüşdü o gözəllik. Donmuşdu... yox olmuşdu... o gözəllik. Sonuncu dəfə güzgü ilə bu cür baş-başa qalmağım yataqxanada Ramillə ilk görüşümüzdən sonra olmuşdu. Onda onun əli dəydiyi belimə, dodaqları dəydiyi dodağıma və sinəmə baxmışdım. Onda da utanmışdım özümdən. Onda da özümə baxmağa xəcalət çəkirdim. Amma, o hisslə bu hiss arasında böyük fərq var idi.

Sən demə, o, xəcalət deyil, qadınlığını yenicə kəşf etmə hissiymiş. Xəcaləti isə indi çəkirəm.  Güzgünün qarşısında nə qədər durdum deyə bilmərəm, sinədən aşağı hissələrimə baxmağa cəhd belə etmədim. Heç gərək də yox idi. Sifətimdə elə bir ciddi dəyişiklik yox idi. Bir az oturuşmuşdum. Hətta mənə elə gəldi ki, gözəlləşmişəm də, amma gözlərim hər şeyi deyirdi, qırpıqlığı və vahiməsi ilə... Sərtliyi və küskünlüyü ilə... Gözlərimə baxanda ürəklənib elə ağladım. Astaca vannanın küncünə oturub ürəkdə  ağladım. Sanki gözlərimdə atamı, anamı və ya nənəmi görürdüm, onlara sarılıb ürəyimi boşaldırcasına ağladım. Qapının döyülməsi və içəri baxmadan mənə uzatdığı qətfə və hamam xalatı gördükdə tez ayağa qalxıb onları almaqla özümdən bir az uzaqlaşdım.

O, fransız ləhcəsi ilə rusca danışırdı. Çətinliklə də olsa, onu başa düşürdüm. İlk öncə adımı soruşdu. Sonra da hazırladığı kofeni mənə təklif etdi. Mən birinci dəfə idi ki, kofe içirdim. Bunun nəyini belə həvəslə içdiklərinə də təəccübləndim. Kofe çox acı idi. İçə bilmədiyimi görüb qənd təklif etdi. Qənd bir az şirinləşdirdiyi üçün yavaş-yavaş içməyə başladım. Məsum və qorxaq şəkildə

kresloda büzüşmüşdüm. Başıma nələrin gələcəyini düşünürdüm. Amma bu cür münasibət məni qorxudurdu. Bu, necə ola bilərdi axı? Əsirlikdə bu cür şəraitdə yaşayasan? Kofesini yerə qoyub oturduğum kreslodan qalxıb divanda oturmağımı istədi. Mən sakitcə verilən bütün tapşırıqlara əməl edirdim. O, mənim ondan qorxduğumu hiss etdiyi üçün pıçıltı ilə qorxmamağımı dedi. Yavaş-yavaş əlini saçlarıma atdı. Mən indi vəhşicəsinə yatağa atılacağımı gözləyirdim. Döyüləcəyimi gözləyirdim. Bütün əzalarımı buna hazır etmişdim. Bu hiss məndə artıq şərti refleksə çevrilmişdi. Dodaqlarını təzəcə qurumaqda olan bədənimdə gəzdirdi. Ruhum gizildəyirdi. Qorxudan tir-tir əsirdim. İlk dəfə qapı dalında sevgilisi ilə görüşən qızlar kimi həyəcanlı idim. Qeyri-ixtiyari gözlərimi də yummuşdum. Əvvəlcə bunun yuxu, yuxumdakı kişinin isə Ramil olduğunu düşünmüşdüm. Ya da bu bir arzu idi ki, xəyalən yaşayırdım. O gecə bir kəlmə də olsun danışmamışdıq onunla. Hər şey onun fərasətli kişi rolunu oynaması ilə baş vermişdi. Qadınlar qulaqları ilə sevir fikri də təsdiqsiz qalmışdı. O, qadın cisminin tələbatını ödəmişdi. Necə olduğunu bilmədim. Amma mən də hər şeyi unutdum. Bu kiçik zaman kəsiyində, sanki dörd ili də unutmuşdum. Bəzən insanın özünə belə etiraf etməsi mümkün olmayan bir hiss idi bu. Sığal, şəfqət, nəvaziş, hörmət – hamısı var idi bu münasibətdə. Bu, mənim Ramildən uzaqda ona etdiyim ilk xəyanət idi. Məhz buna görə indi də utanıram. Amma səhərə qədər utanc hissindən yatmayıb bütün bu olanları özüm üçün analiz etmişdim. Həmin gecə heç yadıma düşməmişdi ki, mən girovluqdayam. Sadəcə bunlar məni düşündürürdü: Bu necə baş verdi, mən Ramilə necə xəyanət etdim? Bunu etməyə bilərdimmi və s. Özüm, ruhum və cismim vəhdətdə idi. Özümün bunu istəmədiyimi desəm, riyakarlıq olar. Çox düşündükdən

sonra insan olduğumu yadıma saldım. Bəlkə də, bu, təsəlli üçün idi. Müəmmalı, sirli, görünməz tərəfləri böyük olan bir insan... Bəzən insanlar özlərini olduqları kimi qəbul edə bilmirlər. Məsələn, yadıma düşür ki, ən yaxınımız öləndə bizim bikef, bədbin görünməyimiz tələb edildiyi halda, biz nəyəsə gülürük. Sonra yenə yaslı olduğumuz yadımıza düşür və kədərli sifət alırıq. Mənim bu xəyanətim də ona bənzəyirdi. Bu qədər əzabın içində mən yad bir kişi ilə əlaqədə olmaqdan zövq almışdım. Məncə, bütün qadınların yaşadığı ən gözəl hiss idi bu. Necə olurdu ki, dəfələrlə məcburi olan yataqda var gücümlə mübarizə aparır, qışqırır, ağlayırdım, amma o gecə əllərim süst olmuşdu, ruhum göylərdə uçurdu, hətta yardım da edirdim ona. Bunu özümə bağışlaya bilmir, özümü məzəmmət edirdim. Bu dəfə günahı nə cismimdə, nə ruhumda axtarırdım. Bu günahı yalnız özüm etmiş, özüm yaşamışdım. O, mənə rəzil kimi yox, bir qadın kimi yanaşmışdı. Etdiyi bütün hərəkətlər nazlı bir qıza centlmen bir kişi tərəfindən edilən nəvazişdən başqa bir şey deyildi. Məni də özümdən alıb aparan elə bunlar idi. Bu cür gözəl hissləri birinci və axırıncı dəfə Ramillə öpüşərkən yaşamışdım. O görüşümüzün sonu bitməmişdi, amma bunun sonu da olmuşdu, zirvəsi də... Çox təzadlı idi. Fabiana qarşı olan münasibətimin düzgün olmadığını bilə-bilə, özümü danlaya-danlaya ona təslim olmuşdum.

Səhər o, evdən gedəndən sonra da o gecəni xatırladım. Nifrət və məhəbbətlə. İki hissin çarpışması gedirdi cismimdə. Biri mənim olmaq istədiyim Aytəkin idi ki, özünə nifrət edirdi, ikinci isə reallıq. Hansı mən idim, tanıya bilmirdim. Yəqin ki, mən reallığın içində idim. Lakin cəmiyyətin istədiyi Aytəkin isə mənim olmaq istədiyim qız idi. Bu hisslərimin yeganə cavabı çoxdandı adını çəkmədiyim nənəmin "kim nə bilir, kim nə çəkir" deyimi idi. Bəli, mə-

nim nələr çəkdiyimi yaşamayan bilməz.

Bu görüşdən sonra onu bir neçə həftə yaxına buraxmadım. O da bunu hiss edirdi. Amma heç bir təzyiq və ya zor işlətmirdi. Ermənilər kimi hər gün cinsi əlaqə ilə məşğul olmağa da meylli deyildi. Bəzən elə olurdu ki, o, aylarla mənə toxunmurdu. Bu, əsl sevgiyə bənzəyirdi. Mən ona münasibətimi də müəyyənləşdirə bilmirdim. Bir dəfə özümə sual da vermişdim, onu sevirəmmi? Xeyr! Heç vaxt sevmədim. Qəlbimi və ruhumu titrədəcək hisslər deyildi bu. Amma ona olan hörmətim günü-gündən artırdı. Onsuz olduğumda nəsə itirmiş kimi olurdum. Çünki axşamlar onun gəlişini səbirsizliklə gözləyir, burda olmadığı günlərdə darıxırdım da. Qapıda keşik çəkən əsgərlərdən qorxduğum üçünmü belə idi, yoxsa ona olan hörmətdənmi? Aydın deyildi. Hər an onlar tərəfindən təcavüzə məruz qalacağımı gözləyirdim. Bunun hər an baş verə biləcəyinə inanırdım. Amma onun qoynuna girməyi heç arzulamırdım. Onun mənə qarşı olan münasibətinə görə yataqda yaxşı rəftar etmək artıq boynuma düşmüşdü. Bəlkə, bununla Gülcahanı azad edəcəyimə də inanırdım. Ramildən isə əlimi üzmüşdüm. Gülcahanın azad edilməsini görsəydim, onunla bir ömür yaşamağa belə razı olardım. Sonralar onu sevəcəyimə də inanardım.

O isə həmişə "Zamanla hər şey düzələcək", – deyirdi. "Sənə kömək edəcəyəm, səni bu zindandan qurtaracağam" – deyirdi. O qədər inandırıcı danışırdı ki, inanmaya bilmirdim. Hətta o, boş vaxtlarında mənim başıma gələnləri ona danışmağımı istəyirdi. Bircə-bircə hər şeyi deyirdim. Elə o zaman ağlıma gəlmişdi ki, bunları bir yerə yazmalıyam. O da bunu demişdi. Demişdi ki, əgər sən bunları yaxşıca qələmə alsan, mükəmməl bir əsər olar. Bir dəfə mənə dedi ki, bacın yaşayır, səni onunla görüşdürəcəyəm. Bu xəbər məni yaman sevindirmişdi.

Hətta boynuna tullanıb üz-gözündən öpmək də istəmişdim. Amma etməmişdim. O, mənə yaman bağlanmışdı, artıq biz ər-arvad kimi yaşayırdıq. Hər dəfə də Gülcahanı soruşurdum, o isə mənə "yaxşı olacaq" deyib söhbətin uzanmasına şərait yaratmırdı. Nədənsə bu adamın mənə yaxşılıq etmək niyyətinə inanırdım. O, bunu əməlləri ilə göstərir, mənim ona bağlanmağıma şərait yaradırdı. Mən ona həmişə "fransız" deyə müraciət edirdim. Bir dəfə necə oldusa, onu adı ilə "Fabian" deyə çağırdım. Gözləri sevinclə güldü. Mən onda yaman qızarmışdım. Bunu da özümə və Ramilə ikinci xəyanət hesab etmişdim. Beləcə, artıq xəyanət hesab edəcəyim hallar çoxalmış, bunu xəyanət adlandırmağım isə gülünc hala çevrilmişdi. Necə ki sevgi vərdişə çevrildiyi üçün sevgi adını dəyişib hörmətə çevrilir, eləcə xəyanət də vərdişə çevrildikdə, adını dəyişib yaşam tərzi olur. Mənim Ramilsiz düşünə bilmədiyim yaşam tərzinə...

Elə gün olmurdu ki, ondan Gülcahanı soruşum, o da cavab verməsin. Deyirdi ki, Vaskanyanı yola gətirə bilmir, amma onunla bu haqda tez-tez danışır. Mən bir dəfə dedim ki, heç olmasa məni Xocalıya apar. O susdu. Sanki bunu necə edəcəyini düşünürdü. Bir az keçəndən sonra "bu, mümkündür", – dedi, – "Bu həftə səni Xocalıya aparacağam." Mən nə qədər çətin olsa da, Xocalını görmək istəyirdim. Və o gün gəlib çatdı, Fabian verdiyi sözə əməl etdi...

## 35. Onlar danışacaqlar

– Qədim dayı, necəsiniz? Xəyaldı sizi narahat edən, – Qüdrətov söykəndiyi maşından aralanaraq evin arxa tərəfinə getdi.

– Hə, həmin jurnalist oğlan? – mayorun telefondakı həmsöhbəti yaddaşını işə salaraq onu tanımağa çalışdı.

– Bəli, bəli.

– Necəsən, ay oğul? Səni çox gözlədim, amma sonra "yəqin məni yaddan çıxarıb", – deyə narahat eləmək istəmədim, – Qədim kişi özünəməxsus astagəlliklə dilləndi. Əslində Qüdrətovla ilk görüşündə onu jurnalist kimi tanıyan qoca sonradan məxfi şöbənin gizli agentini qəzet səhifələrində çox axtarmışdı. Qüdrətovla bir neçə dəfə görüşən bu kişi onun tanınmış jurnalist Xəyal Mövsümsoy olduğuna inanmışdı. Hətta Qüdrətovla ilk görüşündə bəzi jurnalistlər kimi onun haqqında yazdığı üçün pul istəyib-istəməyəcəyini soruşduğuna yaman peşman da olmuşdu. Sonra da "mən yazıq nə edim, əsirlikdə olmağım bəs deyil, işgəncələr yaşamağım bəs deyil, bunları kiməsə danışıb yenidən göynəməyim bəs deyilmiş kimi, bəzi üzdəniraq jurnalistlər mənim gördüklərimi işıqlandırdıqları üçün məndən pul da istəyirlər. Demirlər ki, bu qaçqın kişi belə ağır vəziyyətdə özünü dolandırırsa, sağ olsun. Hələ utanmaz-utanmaz pul da istəyirlər. Mən də bundan qorxduğum üçün əvvəlcədən soruşdum" deyib özünə haqq qazandırmışdı.

Qüdrətov da onu danışdırmaqla Aytəkinlə, daha sonra Əlinin öldürülməsi ilə bağlı şübhəli məqamlara aydınlıq gətirəcəyinə inandığı üçün Qədim kişi ilə şəxsən görüşməkdən başqa çarəsi qalmamışdı. Adi vaxtlar olsaydı bunu köməkçisinə də tapşıra bilərdi. Amma indi – düşdüyü vəziyyətdən özünün də tam baş aça bilmədiyi bir

məqamda bunun doğru olmadığını düşünüb onunla görüşməyə məcbur olmuşdu. Özü də bir neçə dəfə. Elə soyadını da onda uydurmuşdu. Mövsümsoy... Xəyal adı isə ona çox doğma idi. Həyatındakı məlum hadisədən sonra bu ad onun üçün özününküləşmişdi.

– Qədim dayı, vaxtınız olsa, bu gün bir çayınızı içmək istəyirəm, – Qüdrətov görüşmək istədiyini bildirdi.

– Hə, bala, niyə olmasın, sevə-sevə. Bəs neçə gündür harada idin? Axı demişdin ki, gələcəksən?

– Burada deyildim, Qədim dayı. Bir reportaj var idi – Qarabağla bağlı. Onu hazırlamaq üçün xaricə getmişdim, – kişinin sadəlövhlüklə verdiyi sualı mayor təmkinlə qarşıladı. Amma onun çox sual verməsindən də artıq bezməyə başladı. İş şəraitində sorğulayan, cavab alan tərəf həmişə özü olduğu üçün belə suallara da tabı az idi. Yalnız rəisi general-mayor Kamil Əzimova verdiyi raportlar bu baxımdan istisna idi. Əslində, çox vaxt bu raportların özləri də çox qısa olurdu. Amma təbii ki, təcrübəli əməliyyatçının bu raportları məzmununa görə həmişə məxfi şöbənin rəisini qane edirdi.

– İşin avand olsun, ay oğul. Allah vətənin üçün gördüyün bu işlərə görə həmişə səni qorusun! Onda bu gün səni gözləyəcəyəm. Gəlməmişdən xəbər elə, samovara od salıb sən bəyəndiyin çaydan da dəmləyim.

– Yaxşı, Qədim kişi.

Qüdrətov telefon danışığını bitirib həyətdəki evin arxa tərəfində qoyulan köhnə dəmir çarpayıda oturdu. Hələ ki tam hazır olmayan tikili, tikintidən qalan ayrı-ayrı ləvazimatlar buranı çox səliqəsiz göstərirdi. Müsəlmanın ölənə qədər işdən, söküb-tikməkdən yorulmadığını, səhərdən axşama qədər işlədiyini düşündükcə, bir az əvvəl evdəki stressdən uzaqlaşırdı. Hətta fikirlərini tamam başqa bir məsələnin məşğul etdiyini də hiss etmək olardı. Həyətin

sol küncündə kiçik təpə şəklində yığılan quma köklənən gözlərində də bunu görmək olardı. O isə bir az əvvəl Qədim kişinin "Xəyal" deyərək ona müraciət etməsindən sonra xatirələrə dalaraq səkkiz il əvvələ – 2003-cü ilə qayıtmışdı... Sevərək ayrılması, xəyanət etdiyini düşünərək qınaması, silib atması, sonra isə həyatın təsadüflər burulğanında onun xəstəlikdən əzab çəkərək öldüyünü öyrənməsi... Və həmin əməliyyat, hansı ki sonu gözlənilmədən onun həyatı ilə bilavasitə bağlı olan vacib bir insanın adı ilə bitmişdi – Sevdanın adı ilə. "Tənha canavar" ləqəbli təcrübəli əməliyyatçı yalnız sevgilisinin məzarını və onun qardaşı Elmarı tapandan sonra Sevdanın əslində ona xəyanət etmədiyini, xərçəng xəstəsi olduğuna görə ondan ayrıldığını və ölənə qədər də tək yaşamasını öyrənə bilmişdi. İndi də həmin anları gözünün qarşısına gətirdikcə həyəcandan, sanki nitqi tutulacaq adamlar kimi dərindən nəfəs almağa başladı. Oturduğu yerdən evin giriş qapısına nəzər saldı. Tahir evdə idi. Dünən Alekseyi və Həsəni üzləşdirməyə macal tapmayan Qüdrətov şöbədən çağrıldığı üçün gözləməyib getmişdi. Tahir isə həmin adamlarla təkbaşına söhbət aparmış, öyrənə bildiklərini gecə ilə mayora xəbər vermişdi. Amma onun bu adamları danışdırması o qədər də asan olmamışdı. Görünür hər ikisini danışması üçün məcbur etmişdi.

İndi Qüdrətov köməkçisinin xəbərini gözləyərək yenidən fikirlərə dalmışdı. Həyətdəki səssizlik isə onu yenidən öz xəyallarına qayıtmağa məcbur edirdi. Bu ölüm sükutunu pozan yeganə səslər zəif əsən mehin təsirindən hərdənbir xışıldayan yarpaqlar və oturduğu köhnə dəmir çarpayının həbsxana barmaqlıqlarına bənzəyən məftillərinin cırıltısı idi.

Sevgilisinin öldüyünü biləndən sonra onun məzarına tez-tez baş çəkirdi. Hər dəfə qəbiristanlığa gedəndə yün-

gülləşirdi. Akademiyanı bitirəndən sonra təyinatı verildiyi üçün rayon sərhəd zastavalarından birinə göndərilmişdi. Bir il keçməmiş Sevdanın başqası ilə nişanladığını, ərə getdiyini eşidib çox sarsılmışdı. Həyata baxışları dəyişmişdi. Sevdiyi qızın xəyanətini bağışlaya bilmirdi. Amma ötən il keçirdiyi dövlət əhəmiyyətli əməliyyatdan sonra zaman onun haqsız olduğunu sübuta yetirdi. Hər zaman müəmmalı tapşırıqlar ardınca mübarizəyə qoşulan Qüdrətov həmin gün Sevdanın ona xəyanət etmədiyini gec də olsa bildi. Onun haqqında belə düşündüyünə görə özünü heç vaxt bağışlaya bilmədi. İndinin özündə də... Bir anlıq Sevda ilə Aytəkini müqayisə də etmək istədi. Hətta buna nail də oldu. Qüdrətovun fikrinə görə, bu iki talesiz qadının ortaq cəhətləri çox idisə də, fərqli cəhətləri də az deyildi. Həm Sevda, həm də Aytəkin öz qismətləri ilə barışmış insanlar idi. Qismətləri isə ölüm, yaxud da ölümdən betər yaşamaq idi. Biri düşdüyü qorxunc xəstəliyin onun nəfəsinə nə zaman son qoyacağı anı gözləyirdisə, digəri girovluqda əzraillə can çəkişirdi. Hər ikisi öləcəyi anı gözləyirdi. Canı qədər bağlandıqları sevgililərindən uzaqda... Qüdrətov bu müqayisəni apardıqca hiss edirdi ki, daxildən hansısa müəmmalı fikir onun beyninə bıçaq kimi sancılır. Bu zərbə o qədər kəskin idi ki, mayor bunu düşündükcə beynində baş qaldıran həmin ağrılar getdikcə bütün bədəninə yayılır və həmin zoqqultunu bütün döş boşluğunda hiss edilməyə başlayırdı. Buna səbəb olan nə idi axı?! Bəlkə xəyanət? Hə, elə bu idi. Məhz bu məsələdə öz sevgilisini Aytəkinlə müqayisə edə bilmirdi. O ki, Aytəkin kimi sevgilisinə xəyanət etməmişdi. Yox, bunlar tamam ayrı-ayrı məsələlər idi... Deyəsən, Qüdrətov həyatında birinci dəfə idi ki, düşünə-düşünə kiminsə günahına girə biləcək bir fikrə gəlib çıxmışdı. Amma yenə də Sevda ilə Aytəkinin həyatları fərqli olsa da, onları xə-

yanət baxımdan müqayisə etmək olurdu. Bəlkə, yenə də doğru fikirləşmirdi... Bəs Aytəkin özü?! Axı Fabian adlı həmin fransızla könüllü yatağa girdiyini qız öz dili ilə etiraf edirdi. Bu, xəyanət deyildimi?! Qız özü də bunu xəyanət adlandırırdı... Bəs, nəyə görə Qüdrətov Aytəkini öz içində müdafiə etmək istəyirdi? Bir anlıq Sevdanın da Aytəkinin yerində ola biləcəyini düşünmək istədi. Görəsən, onun sevgilisi də Aytəkinin yerində olsaydı, bunu edərdimi?! Bunu düşünmək istədisə də, qeyri-ixtiyari ayağa qalxaraq fikirlərini dağıtmağa çalışdı. Sanki nə düşündüyünə özü də heyrətləndi.

Siqaret yandırıb evə qalxdı. Hiss etdi ki, Tahir içəridəkilərdən hansınısa danışdırır. Görünür, özlərinə gəlmişdilər. Otağa girməzdən əvvəl bir az əvvəl düşündüklərini beynindən silib atmaq istədi. Amma onu da anlayırdı ki, bu həyatda insanın düşüncələrindən və düşünə biləcəklərindən kənarda çox şey ola bilər. Elə Sevda da Aytəkinin, Aytəkin də Sevdanın yerində ola biləcəyi kimi...

## 36. Vətənə gəldim, imana gəldim...

Sabah oldu. O, verdiyi sözə əməl etdi. Doğrudan da, düz dediyi vaxtda gəlmişdi. Elə sevinirdim ki... Güzaranı, həyat tərzi istədiyi kimi olan adam özünü necə xoşbəxt hiss edərdisə, mən də o hissləri keçirirdim. Sevinirdim, amma nəyə? İtirdiyimin mində birini tapmağıma? Axı götürə bilməzdim. O, mənim deyildi, sadəcə mənim olan bir şeyə tamaşa edəcəkdim deyə sevinmişdim. Bütün insanlar belə olur. Pul itirir, kədərlənir, onu tapanda sevinir, problemə düçar olur, həlli yolun tapır, sevinir. Xəstələnib məyus olur, sağalır, sevinir. Nə qəribədir, deyilmi? Tanrımız insana necə sevinclər yaşadır?! Əlindəkini alıb, kə-

dərləndirir, sonra da verir, balaca uşaq kimi sevindirir. O vaxt rəhmətlik nənəm yanımda olsaydı, deyərdi: "Ay nankor, sənə o əlindəkini kim vermişdi?"

Bəli, mən o gün əlimdən zorla dartılıb alınan, doğulub boya-başa çatdığım, havası, suyu ilə qidalandığım, qoynunda olarkən doğmalığının fərqinə belə varmadığım Xocalıya – evimə qonaq getdim. Qızlar öz ata evinə iki halda qonaq gələ bilərdi: biri ailə qurub gedəndən sonra təmtəraqla, hörmətlə, izzətlə, biri də evlənib gedəndən sonra əri ilə yola getməyəndə, başıaşağı geri qayıdanda. Birinci halda evdə qoyub getdiyin atan, anan, bacın, qardaşın səni ağırlayıb əzizləyir, "orda oturma, burda otur, burda oturma, orda otur" deyirlər. Gəlin də nazlanır, yeni getdiyi evin qaydalarından, ənənələrindən, ərinin ona necə mehriban davranmasından, qayınatasının onu necə əzizlədiyindən, qayın arvadı varsa, onun ona etdiyi qısqanclıqdan danışır, fürsət düşən kimi, anasına qayınanasının qeybətini də edir. İkinci halda isə qıza heç otur deyən olmur. Atadan tutmuş bacı-qardaşına kimi, hamı sənə tərs-tərs baxır. Axı bizim eldə gəlin ərinin evindən ancaq kəfəndə çıxmalıdır.

Mən evimizə kirlənmiş, ləkələnmiş şəkildə qayıtmışdım. Mənə yer göstərən, gəlişimə sevinən, qabağıma qaçıb "xoş gəldin" deyən olmadı...

Bununla qarşılaşacağımı elə Xocalıya girəndə qəbul etmişdim. Ürəyim döyünür, qəlbim titrəyirdi həmin anda. Uşaqlıqdan həsədlə baxdığımız Haçadağı görəndə Xocalıya gəldiyimə inanmışdım. Bu Haçadağa bəzi xocalılılar Haçatəpə də deyirdilər. Xocalıdakı bu təpə Səməd Vurğunun "Göyəzən", Şəhriyarın "Heydərbaba" dağından balaca deyildi. Amma bizim Səməd Vurğunumuz, Şəhriyarımız çıxmamışdı ki, onların təsvir etdikləri təpələrdən geri qalmayan bu təpə də məşhurlaşsın. Rəvayət edirdilər

ki, Türkiyədə yaşamış bir erməni Xocalıya gəlir. Gecə ilə o təpənin düz ortasını qazır, bir sandıq qızıl çıxarıb aparır. Ona görə də təpənin ortası haçalanır. O gündən bu təpəyə Haçatəpə adı verilir.

Bu rəvayəti eşidəndə hamı kimi mən də erməniyə həsəd aparmışdım. Bu qədər müsəlmanın içində heç kimin xəbəri olmamışdı ki, bütün günü göz qabağında duran kimsəsiz təpə başında bir sandıq qızıl var.

Xocalı sönmüş ocağa bənzəyirdi. Külü də sovrulmuşdu. Sadəcə, ocağın qırağındakı qaralmış daşlar qalırdı. Evlər dağıdılmış, ağaclar kəsilmiş, altı üstünə çevrilmiş, ölən şəhəri xatırladırdı Xocalı. Hər yerdə ölü bir sükut var idi. Heç quşlar da cəh-cəh vurmurdu, heç külək də fit çalmırdı. 90-cı illərin əvvəlindəki şəhərdən əsər-əlamət qalmamışdı. O zaman maşının kiçik pəncərəsindən seyr etdiyim şəhərə gəldiyim üçün peşman olmuşdum. Hətta dəfələrlə ağzımı doldurub “Saxla! Geri qayıt!” demək istəsəm də, bacarmamışdım. Evimizi görmək istəyi bütün qürurumu ayaqlamış, unutdurmuşdu. Elə bilirdim, evimizi, həyətimizi, məhəlləmizi görsəm, təskinlik taparam, Xocalıya qayıtmaqla paklanaram, necə ki insanlar günah çıxarır, mən də elə. Vətənlə baş-başa qalmaq çox az hallarda olur. Bəlkə də, bunu yaşayanlar yox dərəcəsindədir. Mən həmin gün vətənimlə baş-başa idim. Bir o, bir də mən... Nakam məhəbbət yaşamış, 10 illərdən sonra bir-birini görən gənclik illərinin yaşlı təmsilçiləri kimi üz-üzə idik. Sadəcə gözlərimiz baxırdı. Dodaqlarımız əsirdi. Kimsə kimisə günahlandıra bilmirdi. Nədən başlayacağımızı müəyyənləşdirməyi və düşünməyi bacarmırdıq. Sadəcə, gözlərimizin bəbəyində keçmiş xoş, şirin anları görürdük. O xoş günləri gördüyümüz üçün hərdən dodağımız da qaçırdı. Sevincmi, kədərmi ifadə etdiyi bilinməyən göz yaşımız da yanaqdan süzülərək dodaqlarımıza

qədər axırdı. Əl-ələ tutmaq üçün qolumuz belə qalxmırdı.

Mən onda vətənin nə olduğunu dərk etdim. Onda vətənin necə olduğunu gördüm. Mane olan heç nə yox idi: nə insan, nə də təbiət. Hər şey susmuşdu. Ətrafda hər şey bizim bir-birimizə nə deyəcəyimizi, necə sarılacağımızı görmək üçün nəfəs belə çəkmirdi. İndi heç külək də fit çalmırdı...

***

Bilmirəm, mənmi şəhərim üçün böyük həsrət çəkmişdim, şəhərmi öz yetirmələrinin hənirtisi, ayaq səsləri, gülüşü, davası, əyləncəsi üçün darıxmışdı? Əlimi şəhərimin boynuna salmaq istəsəm də, o rədd edirdi. Ola bilsin ki, məni ləkələnmiş görüb, özünün də mənə bulaşmamasını istəyirdi, ya da küsmüşdü, incimişdi. Məncə, şəhərim küsmüşdü, bütün yetirmələrindən küsmüşdü. Axı o da mənim kimi, zorlanmış, tapdalanmış, ləkələnmiş, əzilmişdi. O da mənim kimi, kimsəsiz idi hazırda. O da dərdini deyəcək, şikayətini edəcək bir həmdərd tapa bilmirdi. Yəqin ki, elə incimişdi o təbiət gözəli. Amma azacıq keçməmiş o, məni tanıdı. Dərdini dilə gətirdi. Əlimdən tutub uçuq-sökük həyətləri, daşına qədər sökülmüş varlı evləri göstərdi. Elə bil şəhərdən tufan, qasırğa keçmişdi. Lələ köçüb, yurdu boş qalmışdı. Məni darta-darta: – Bax, bu bir zamanlar məktəb idi, indi yeri qalıb, bax, bu bir zamanlar milyoner Qasımın evi idi... Bax, bu..., bu... Şəhər dilə gəlmiş, gözləri yaşarmışdı, danışdıqca ürəklənirdi. Şəhər danışdıqca həmin gecə gözlərimin qarşısında canlanırdı. Həmin gün aydın səma olmasına baxmayaraq, qrad səsindən qulaqlarım batırdı... Qışqırıq, bağırtı, vahimə bütün dağları silkələyirdi. Nəinki yer, hətta səma da od tutub yanırdı. Fabian mənim içimdəki təlatümü görsə də, heç nə demirdi. Ölən şəhər elə bil dirilmişdi. Yol-

iz itməsinə baxmayaraq, məni Qala dərəsinə – evimizə apardı. Hətta Xocalı qəbiristanlığını da göstərdi. Şəhər şikayətlənirdi. Hərdən mənim kim olduğumu ya bilmirdi, ya da unudurdu. Elə bil şəhəri tərk etmiş, başı var-dövlət qazanmağa qarışan, eyş-işrətdən başı açılmayan, gözünü pul örtən bir “ər” tapmışdı. Hayqırırdı: “bax, görürsənmi, nə günə salıblar məni, qəbir daşlarımı da aparıblar, əsrin əvvəllərində türk şəhidinə ucaldılmış günbəzi də yerlə yeksan ediblər. Bax, gözün görsün, qəlbin fərəhlənsin, mənsiz necə kef edirsən, ay nankor, mənsiz necə deyib gülürsən, ay vicdansız, mənsiz necə “Yanıq Kərəm”lə oynayırsan, heç utanmırsan yanan Kərəmdən, tüstülənən Kərəmdən?! Gah qabağımda, gah ayaqlarımın altında, gah da arxamda qalan şəhər indiki halı ilə üsyan edirdi. Artıq bizim məhəlləyə çatmışdıq. Mən evimizi gördüyüm zaman “dur”, – dedim. Daha şəhəri eşitmirdim. O danışır, ağlayır, yalvarır, sızıldayırdı. Amma mən onu eşitmirdim. Eşidə də bilməzdim. İndi məni eşidən, məni duyan adam lazım idi ki, saçımı yolmağa qoymasın, üzümü cırıb dağıtmağa qoymasın. Hayıma hay verən lazım idi ki, ağı deyib ağlasın. Evimiz, sanki orta əsrlərin yağmalanmasına məruz qalmışdı. Şiferləri də yox idi. Sadəcə birinci mərtəbənin çay daşından olan qırıntıları qalmışdı. Evimizin divarlarının küncləri kubikdən olduğu üçün onları da sökmüşdülər. Ayaqlarım yerimirdi... Həyətə girəndə kinolardakı kimi keçmiş günlər gözümün qarşısından keçirdi. Birinci kursu bitirib evə gələndə bütün ailə, qohumlar hamısı məni qapıda qarşılamışdılar. Hamı ilə bir-bir görüşüb-öpüşmüşdük. “Ay qız, nə qəşəngləşmisən?”, “Ay qız, maşallah, şəhər sənə düşüb”, “Ay qız, başıma xeyir, daha bizim oğlanı bəyənməzsən, daha şəhər uşağı olmusan”, “Yaman ağarmısan, ay qız”, – deyə gülüşən qonşuların yarızarafat, yarıgerçək sözləri qulağımda cingildədi.

Səmayə adlı qonşu qızının fürsət düşən kimi, "məktubda yazdığın oğlandan danış görüm, necə adamdı", – pıçıldaması, boynumu qucaqlayıb bağrına basmağa doyunca imkanı olmayan anamın kənardan durub məni qürurla seyr etməsi, illərin həsrətini çəkmiş gözlərlə mənə baxması – hamısı gözümün qarşısından keçdi. Atam bu evi nə arzu ilə tikmişdi? Anam bizə nə arzu ilə cehiz yığırdı. Amma ... Onlardan heç bir iz qalmamışdı. Fabian maşından düşmədi. Məni özümlə baş-başa buraxdı. Uçuq-sökük divarların arasında nəsə axtarırdım.

Nəsə mənə əziz olan bir şey axtarırdım. Heç olmasa, yadigar götürüm üstümdə. Tozun-torpağın arasında qalan sadəcə kitablar idi. Çoxu yanmışdı. Kitabları görən kimi, yadıma Ramildən gələn sonuncu məktubu oxuduğum zaman anamın gəlməsi ilə tez-tələsik "İdeal" romanının arasına qoyduğum gün düşdü. Daşları təmizləmək istədim, gücüm çatmadı. Kitablar qırılmış şifer parçalarının arasından görünürdü. Bəziləri günün, yağışın altında çürümüş, bəzilər isə yağışın, günün dəymədiyi yerdə bir az saf qalmışdılar. Həmin kitabı gözüm axtardı. Tez çölə çıxıb Fabianı səslədim, mənə kömək etməsini xahiş etdim. O da gəlib mənimlə birlikdə daşları təmizləməyə başladı. Həmin kitabı tapdım. Bir qırağı yanmışdı. Vərəqlədim... məktubu tapmaq üçün kitabı cildindən tutaraq silkələdim. Saralmış məktub yerə düşdü. Ürəyim də həmin kağız parçası ilə birgə yerə düşdü. Onu ilk dəfə əlimə aldığım zaman necə gözümə sürtə-sürtə oxumuşdumsa, o vaxt da eləcə oxudum. Elə şirin gəlirdi ki, o məktub. Uzun illərdən bəri heç nə məni elə kövrəltməmişdi. Heç nə qəlbimə belə yumşaq təsir etməmişdi. Sevginin gücünü yenə ruhumda hiss etdim. Oturduğum daşın üstündə özüm də daşa döndüm. Artıq şəhərin səsini eşidirdim. Onunla baş-başa verib ağlayırdıq. Bir-birimizə qəmxar

idik. İki yetim, atılmış, sahibsiz, uçulub-dağılmış şəkildə qol-boyun olmuşduq. Mən onun halına ağlayırdım, o da mənim. Şəhərimizi belə viran görəndən sonra illərdir izi ilə getdiyim ümidlər daha mənə təsəlli ola bilmirdi. Gizlənməyə yer axtarırdı, amma tapa bilmirdi. Axı harda gizlənə idi? Həsrətdən deşik-deşik olan qəlbimdə, məkanı murdarlanmış ruhumda, yoxsa şərəf və namusunun pozulduğunu gördüyü üçün kor olmuş gözlərimdə? Gizlənə bilmirdi, lüt-üryan halda qarşımda diz çökdü ümidlərim. "Mən də tükəndim", – dedi. Səni bu qədər aldatdığım üçün mən də tükəndim. Axı sənin yaşamağın üçün lazımam mən. Mənsiz sənin yaşamağın mənasızdır.

– Səncə, bu, haqsızlıq deyil? Bir insanı illərcə aldatmaq, arxasınca süründürmək haqsızlıq deyil?

– Əlbəttə, yalan həmişə gerçəklərin qarşısında haqsızdır. Amma mən yalan deyiləm, ümidəm. Ümid isə yalandan fərqlidir. Ümid ümid etdiyi heç nəyin baş tutmayacağına ümidsiz yanaşmır. O, həmişə ümid edir ki, yaxşı olacaq. Mən də sənə yalan yox, ümid vermişəm.

– Çəkil, get qarşımdan, sən həmişə əsrlərlə əl vurulmamış taxta parçası kimi şux görsənə bilərsən, amma yanından yalançı külək belə keçərkən toz olursan, yoxa çıxırsan. Bunu sən yaxşı bilirsən, amma daima insanları aldatmaqla məşğulsan.

– Siz hamınız beləsiniz, əvvəl bizi qovur, gözünüzün önündən çəkilən kimi ehtiyac duyursunuz, sonra da geri çağırırsınız. Biz gəlmədiyimiz zaman isə siz ölürsünüz. Ümidlər isə heç zaman ölmür, onlar sadəcə yaşayır. Mənim getməyim səni yaşadacaqsa, gedərəm. Amma mən hələ də sənin qəlbinin dərinliyində yaşayıram, axı Gülcahan var.

– Rədd ol, rədd ol. Heç nə istəmirəm. Gülcahan da rədd olsun.

– Aytəkin, sən mənim kim olduğumu yaxşı bilirsən, həmçinin həmişə istədiyin sonluğun olmayacağına da əminsən. Sən zorla mənim boynuma qoyursan ki, yaxşı olacaq. Mənim də vəzifəm bu olduğu üçün səni pərt etməmək istəməmişəm. Sən niyə günahları məndə görürsən? Axı ümidləri siz insanlar yaradırsınız, onlara can verən sizsiniz. Bəzən isə uydurduğunuz şirin bir yalan üçün yaratdığınız ümidi qabağa ötürüb, onun izi ilə gedirsiniz. O isə şirin yalandan yarandığına baxmayaraq, puç olub zəhərə dönməyi bacarır. Məni yaradan da sənsən, yaşadan da sən. Yaşamağın üçün məni yaratmağa ehtiyacın var idi, yaratmısan. Əgər ehtiyacın yoxdursa, bunu bacarırsansa, mən gedim. Amma əmin ol ki, mənsiz bacarmazsan, nəfəs ala bilməzsən. Bax, məni rədd etdiyin zaman belə, bir əlimdən tutmusan. Hələ də özünü inandırırsan ki, bir gün gələcək, hər şey bitəcək. Buna mən nə edə bilərəm? Mənim günahım səni yaşatmaqdırsa, sənin günahın məni yaratmaqdır. Əmin ol ki, Ümid insanların yaşam səbəbi kimi var etdikləri real və ya qeyri-real olduğu bəlli olmayan şirin bir hissdir. Bəzən bu hiss gerçəkləşir, əksər hallar da isə qeyri-müəyyən olaraq qalır.

Ümidlərimin məni bu cür utandırması, özümü-özümə tanıtması həmin anda əllərimi boşaltdı. Dünya başıma fırlandı. İnsan özünü tanıyanda, həqiqəti üzünə özü çırpanda sarsılır, sonra da yenə təsəlli üçün "nə edim, məni də Tanrı belə yaradıb" deyərək bir daha özünü aldadır. Məqsəd isə yaşamaqdır. Bu yaşamağın hikməti nədirsə, nə qədər  o dünyada cənnət vəd etsələr də, heç kim getmək istəmir. Bu, qonaq getdiyimiz bir yerdə balaca uşağın ev sahibinin hər hansı bir əşyasını, oyuncağını götürdüyü zaman, onu uşağın əlindən almaq üçün "Evdə daha yaxşı oyuncaq var" və ya "Sənə daha yaxşı oyuncaq alacağıq" deməyə bənzəyir. Ağıllı uşaqlar əlindəkinin nağd

olduğunu bilərək vermir, israrla saxlayır, iradəcə zəif, tamahkar xarakterdə böyüyəcək olan uşaqlar isə əlindəkini verir. Amma onun əvəzində heç nə qazanmır. Bəzən isə sözünə bütöv olan valideynlər verdiyi sözə əməl edir, dediklərini qismən də olsa, həyata keçirir.

*Ümidsiz yaşamaq ölümdən betər,*
*Qəmli gecələrin səhəri yoxdur,*
*Anam da dünyadan köçüb gedəndən,*
*Elə bil dünyanın məhvəri yoxdur.*
*Mehdi Calal*

## 37. Qaribi kim öldürüb?

– Bunlar nə isə danışmaq istəyirlər yenə, – leytenant Qurbanov xüsusi ahənglə həyətdə gəzişən mayora səsləndi. Bu, o demək idi ki, Alekseyin hər şeyi olduğu kimi danışması üçün Qüdrətov öz dindirmə üsullarını tətbiq etməliydi.

– Gəlirəm, – Qüdrətov bunu deyib vaxt itirmədən kiçik pilləkənlərlə evə girdi.

Dünən burada olan səliqə-sahmandan əsər-əlamət yox idi. Hər şey bir-birinə qarışmışdı. Qüdrətov otağa nəzər salanda dünən burada baş verənləri təxmin etdi. Hətta ani olaraq üzündə qəribə təbəssüm də yarandı. Üzündə maska olduğu üçün otaqdakılar onun bu halını hiss etmədilər.

– Bu deyir ki, bildiklərini ancaq sizə danışmaq istəyir, – Tahir növbəti dəfə istehza ilə dilləndi. Hiss edirdi ki, Qüdrətov məqsədinə nail olmaq üçün bu adamlardan istədiyini ala biləcək. Odur ki, rahat idi. Dünəndən bəri belə arxayın olmamışdı. Bu adamlara görə gecəni demək

olar ki, yuxusuz keçirmişdi. Necə olsa, Qüdrətov onları diqqətdən qoymamağı tapşırmışdı. Leytenant özü də yaxşı dərk edirdi ki, mayor bu işin üstünə belə düşübsə, deməli, nə isə ciddi bir məsələ var. Həm də çox ciddi. Amma bu dəqiqənin özünə qədər Tahir hələ də Qüdrətovun apardığı bu araşdırmanın konkret nə ilə bağlı olduğunu bilmirdi. Nədənsə indi Tahiri maraqlandıran məsələ tamam başqa idi. O, dünəndən bəri bu anı gözləmişdi – Qüdrətovun həmin bu adamları necə danışdıracağını gözləri ilə görəcəkdi. Bir anlıq ümidsizliyə qapılsa da, sonra yenə də başa düşdü ki, yanılır. Demək olar ki, gecədən səhərə qədər Aleksey və Həsəni danışdırmağa çalışsa da, onun üsullarının heç biri sona qədər işə yaramamışdı. Doğrudur, Qüdrətov, Tahirə işgəncə üsullarından istifadə etməyi qadağan etmişdi.

Amma istənilən halda mayorun onları hansı üsulla ələ alıb danışdıra biləcəyi Tahir üçün maraqlı idi. Bu dəqiqə, sanki ustadına tamaşa edən şagird kimi mayorun yanında dayanmışdı.

– Hansı idi mənə sözü olan? – Qüdrətov bunu deyib Alekseyə yaxınlaşdı. Onun oturduğu stulun qabaq ayaqları sınmaq üzrəydi. Mayor xatırladı ki, bu, dünən belə deyildi. Kinayə ilə dediyi sözdən sonra əlini Alekseyin çiyninə qoyub, sanki heç kimin eşitməməsi üçün qulağına pıçıldadı:

– İstəyirsən təklikdə söhbət edək səninlə?!

– Mən heç nə bilmirəm! Məndən nə istəyirsiz axı?! Bu adamı da tanımıram, – bunu deyib Həsəni göstərdi.

Tahir dünəndən Alekseyin “mən heç nə bilmirəm” sözlərini bu dəfə də eşidib əsəbi şəkildə yumruğunu divara çırpdı. Bir sutka ərzində bu adamdan eyni sözləri eşitmiş, öyrənə bildiyi isə yalnız bu adamın soyadı, ata-anasının adı, nə işlə məşğul olması olmuşdu. Həsən isə,

ümumiyyətlə, heç nə danışmırdı.

– Mənim vaxtım yoxdur, əzizim! – Qüdrətov sağ əlinin möhkəm pəncəsi ilə onun xirtdəyindən yapışdı. Bu, o qədər sərt oldu ki, sanki Tahir onun qırtlağındakı qığırdaqların xışıltı səsini eşitdi.

– Bu it oğlunun canına yazığı gəlmir, öldürək getsin! – Tahir söz atdı.

– Burada olmaz, çək zirzəmiyə, hər ikisini güllələ, - Qüdrətov da Tahirin işarəsinə cavab verdi.

– Gəl görüm, it oğlu it! Səni başa salacam indi adamı ələ salmaq necə olur, – Tahir bunu deyib, Alekseyin boynundan tutub sürüyərək onu xüsusi şəkildə hazırlanmış zirzəminin evin içindəki gizli girişinə tərəf çəkdi. Qüdrətov isə Həsənin yaxasından tutaraq eyni tərəfə apardı.

Tahir evin içindən zirzəmiyə açılan yolun gizli qapağını götürüb kənara qoyanda bir anlıq Alekseyə nəzər saldı. Onun gözləri qorxudan bərəlmiş, rəngi avazımışdı. Həsənin halı daha acınacaqlı idi. Bir az əvvəl qorxudan rəngi sapsarı olan bu adam qeyri-ixtiyari olaraq altını islatmışdı. Qüdrətov spirt iyi ilə qarışmış sidik qoxusunu hiss edəndə vəziyyəti başa düşdü. Alekseyin "Qasançik" adlandırdığı bu adam, sanki elə indi özündən gedəcəkdi. Əynindəki şalvarın yuxarı hissəsindən süzülən sidik getdikcə ayaqlarına qədər süzülüb gəlir və onu daha dözülməz hala gətirirdi.

– İşığı yandırma! – Qüdrətov Tahirə göstəriş verdi.

– Biz girmirik? – Qurbanov mayorun nə etmək istədiyini dəqiqləşdirmək üçün soruşdu.

– Keç kənara, – mayor bunu deyərək özü Alekseyin boynundan tutaraq ani bir fəndlə onu girişi döşəmədə olan zirzəmiyə itələdi. Heç düşünmədən yaxasından tutduğu özünü bulamış adamı da onun ardınca içəri itələdi. Adam boyundan hündür tikilən bu qaranlıq zirzəmi elə

indicə qarşıladığı qonaqlarının gəlişi ilə yuxudan ayıldı, sanki.

– Bunlar burada qalacaq?! – Tahir onun nə etmək istədiyini anlamağa çalışdı.

– Çox sual vermə, maşından mənim silahımı gətir. Bir az cəld ol!

– Siz beləsiniz hamınız! Nə etmək istədiyini bilməyən axmaqlar! Qarib erməni idi. Ermənilər ki, sizin düşməninizdir! – Həyatının son dəqiqələrinin yaxınlaşdığını hiss edən Alekseyin qaranlıq zirzəmidən vahiməli və lənətləyici səsi eşidildi.

– Dayan getmə, yandır işığı! – Qüdrətov, Tahirin işığı yandırmasını gözləməyib özü də zirzəmiyə həmin adamların yanına düşdü.

***

– Mən bilirəm siz kimsiniz. Amma etdiyiniz işin heç bir faydası yoxdur. Çox gecikmisiniz. Bu hadisədən az qalır iyirmi il vaxt keçə. Siz hələ indi yatdığınız yuxudan ayılmısınız! – Aleksey istehza ilə bildirdi. Sanki onu tutan adamları öz sözləri ilə yola gətirməyi düşünürdü. Hələ də susmaq istəmirdi:

– Bilirsiniz, mənim azərbaycanlılara yazığım gəlir...

– Aleksey! Hələ də nəfəs ala bildiyin üçün məni peşman etmə! – Qüdrətov onun yaxasından tutub öz bərabərliyinə qaldırdı. Bu halda alçaq boylu bu adamın hər iki ayağı az qala yerdən üzülmüş vəziyyətdəydi. O, çox aciz və qorxaq görünürdü.

– Bəs, sənin özünə yazığın gəlmir?! – bu dəfə Tahir dözməyib dilləndi. Dünəndən Alekseyin yersiz halda dil boğaza qoymayaraq “igidlik” göstərməsi onu əməlli-başlı dilxor etmişdi. Bir tərəfdən də Qüdrətovun hələ də əsas

məsələyə keçmədiyini görüb öz hərəkətlərinə nəzarət etməyə çalışırdı. Düşünürdü ki, bu Aleksey deyilən adam ona tanış olmayan vacib bir şəxsdir. Ona görə Qüdrətov da hələ ki səbir edir. Hövsələsi tamam daralmış və bir az əvvəl mayorun ardınca buraya – zirzəmiyə gəldiyinə peşman olmuşdu. Bir anlıq "gərək heç mən içəri düşməyəydim və Qüdrətov da bunları it kimi gəbərdərdi, bu nacins də belə dil-dil ötməzdi!" düşüncələriylə günahkar adam kimi özünə təskinlik verməyə çalışdı.

– Eşidirsən, sənin dostunun bizə yazığı gəlir. Sən nə deyirsən bu məsələyə, "Qasançik"?! – Qüdrətov bu dəfə Alekseyi kənara itələyib adını çəkdiyi adama tərəf baxdı. Bu adam, deyəsən, elə indicə özünə gəlmişdi. Özü də hiss edirdi ki, bu, müvəqqətidir. Hər an üzü maskalı adamın nə edəcəyini gözləyir, sanki huşunun getməsi üçün Allaha dua edirdi. Odur ki, vəziyyəti cavabsız həmlə gözləyən aciz adamı xatırladırdı.

– Niyə dinmirsən?! Dünən mən səni görəndə belə deyildin amma!

Qüdrətovun bu sözü deməklə şilləni onun sifətinə çəkməsi bir oldu. Adi şillənin bu qədər ağır olacağını heç Tahir də güman etməzdi. Amma Həsən adlı bu adamın zərbədən sonra fırlanaraq döşəməyə çırpılması leytenantın daha da ürəklənməsinə şərait yaratdı. Başa düşdü ki, Qüdrətov fikirlərində həqiqətən də, ciddidir və əgər bu adamlar danışmazsa, hər ikisini o dünyalıq edəcək. Tahir bir az əvvəl aldığı ağır zərbənin təsirindən yerə yıxılan adama yaxınlaşıb ayağı ilə onu arxası üstə çevirdi.

– Bu yenə də özündən gedib. Biz bunların artistliyinə çox tamaşa edəcəyik, deyəsən! – Tahir yenə də özündən çıxdı.

– O nədir, təzə sənət əsəridir? – mayor araya sakitlik gətirmək üçün bir az əvvəl zirzəmidə gördüyü aləti

göstərdi.

– Hə, turnik əvəzi istifadə edirəm, – Tahir əsəbi vaxtında verilən suala könülsüz də olsa, cavab verdi. Amma Qüdrətovun onun turnik adlandırdığı bu alətə nəyə görə belə ciddi maraqla nəzər saldığını anlamadı.

– Belə turnik olar?! Olsa-olsa bundan... – Qüdrətov köməkçisinin hazırladığı həmin idman alətindən gözünü çəkmədən nə isə fikirləşərək sözünü yarımçıq saxladı və tez də əlavə etdi:

– Bu nacinsləri apar turnikin yanına, sonra onu gətir mənə, – bunu deyib kiçik məşq zalını xatırladan zirzəminin küncündəki skamyanın üstünə atılmış kəndiri göstərdi.

– Baş üstə! – Tahir Qüdrətovun istifadə edəcəyi üsulun necə olacağını görmək üçün verilən tapşırığı layiqincə yerinə yetirmək üçün tələsdi. Birdən-birə, sanki qollarına güc gəlmişdi. Əvvəlcə Alekseyi, sonra da Həsəni sürüyərək deyilən yerə apardı.

– Bu da kəndir! – gənc leytenant sevincək halda Qüdrətova yaxınlaşdı.

– Əlindəkini bu it uşaqlarının ikisinin də boynuna bağlayıb turnikə qaldır! – Qüdrətovun acıqlı səsi eşidildi.

***

– Yalvarıram sizə, məni aşağı salın. Nə istəyirsiz deyəcəm... Bildiyim hər şeyi danışacam, – Alekseyin zarıltısı eşidildi.

Qüdrətovun tətbiq etdiyi danışdırma üsulu öz sözünü demişdi. Turnikin metal borusu ətrafında kəndirlə boyunlarından çarpaz şəkildə asılı vəziyyətdə qalan adamlar yaşamaq uğrunda mübarizəyə girişmiş, bayaqdan bəri gah biri, gah da o biri boğulmamaq üçün qollarının var gücü ilə qarşı tərəfi yuxarı qaldırmağa çalışmışdı. Belə

olanda güclü olanın ayaqları yerə çatdığı halda, gücdən düşən tərəf boğazından asılı vəziyyətdə qalırdı. Qolları yorulan Aleksey daha acizanə tərzdə yalvarmağa davam edirdi. Bədən və güc baxımından ondan qüvvətli olan Həsənin vəziyyəti yenə də acınacaqlı idi. Bilmirdi ki, qələbəsinə sevinsin, yoxsa kədərlənsin. Onu daha böyük cəzanın gözləyəcəyini gözlərinin qabağına gətirib udqunurdu. Dünən barda içdiyi arağın da təsirindən əsər-əlamət qalmamışdı. İndi bir anlıq dünənki kef məclisi yadına düşdü. Arvadını evdə necə aldatması, işdə gecə növbədə qalmasını bəhanə gətirməsi, sonra da həmin bara gedərək çoxdan bəri arzuladığı Elen adlı həmin qadınla bir yerdə əylənib kef çəkməsi yadına düşdü. Heç ağlına da gətirməzdi ki, bir az sonra başına belə bir iş gələcək. On doqquz il dövlətinin ona verdiyi kiçik vəzifəyə xəyanət etməsinin belə ağır nəticəsini heç vaxt gözləmirdi. Arvadına, uşaqlarına verdiyi qara günlərin əvəzində daha başqa şeylər gözləyirdi. İndi, bəlkə də, arvadı onun bu xəbərini eşidəndən sonra yenə də həmişəki kimi haray salıb qonşuları səsləyəcək, uşaqları yenə də ağlaşacaq, bir azdan qonşular arvadı Həsənin əlindən almaq üçün yığışıb onların həyətinə gələcəkdi. Amma bu dəfə onlar arvadının onun yoxa çıxmasına görə ağladığını görəcəkdilər... Nə arvadı, nə uşaqlar, nə də ki, qonşular onun harada olduğunu heç vaxt bilməyəcəkdilər. O heç özü də indi harada olduğunu, onu buraya gətirən maskalı adamın, dünəndən bəri döyən gənc leytenantın konkret kim olduğunu bilməyəcəkdi. Onun barda olmasına, Qüdrətovun əlinə keçməsinə kömək edənin də Elen adlı fahişə qadının olduğunu, həmin qadının mayorun əli ilə onun yanına göndərildiyini də ağlına belə gətirməyəcəkdi...

– Sən də qalx, it oğlu! – Tahir onun boynundakı kəndiri dartıb Qüdrətovun oturduğu stula tərəf çəkərkən o özünə gəldi.

– Danış görək! – Qüdrətov bu dəfə əvvəlki ilə müqayisədə daha təmkinlə dilləndi.

Aleksey yaxşı başa düşürdü ki, bu hər ikisinin sonuncu şansıdır. Əgər yenə də tərslik etsələr, onları öldürəcəklər. Hər halda o, belə düşünürdü. Gözlərini Qüdrətovun gözlərinə dikib:

– Nə danışım?! – deyə soruşdu. Onun bu baxışlarında qorxu, həyəcan və nifrəti görmək çətin deyildi. Gözlərində onu qorxu altında saxlayan məxfi şöbənin əməkdaşının maska altında gizlənmiş üzünü görmək arzusu get-gedə sönür, ümidlərini itirib danışmağa məcbur edirdi.

– Qaribi öldürməyi kim əmr etmişdi? – Qüdrətov nədən başlaycağını Alekseyin yadına saldı.

– Mən əmrlə iş görmürəm! Bu işi mənə tapşırıq olaraq vermişdilər. Əvəzində isə mən çoxlu pul aldım, – Aleksey bunu deyib bir anlıq duruxdu. "Bu barədə kiməsə danışsan, əvvəlcə ananı sənin gözlərin qarşısında ağlına gəlməyən işgəncə üsulları ilə öldürərlər, sonra isə sənin özünü tikə-tikə doğrayıb itlərə yedizdirərlər!" Bu sözləri ona on doqquz il əvvəl bu işi tapşıran adam bildirmişdi. Çoxdan unutmuşdu da bu sözləri. Amma indi necə oldusa birdən yadına düşdü. Susaraq gözlərini yerə zillədi. Bu dəfə isə Tahirin onun üzünə dəyən yumruğundan sonra o, Qüdrətovun ayaqlarına düşüb yalvarmağa başladı:

– Anam xəstədir, onun heç bir günahı yoxdur. Mənə tapşırıq verənləri satsam, onlar anamı tutub işgəncə ilə öldürəcəklər. Onlar məni xəbərdar ediblər...

– Sənin anan bizim nəzarətimizdə olacaq. Ona heç kim toxuna bilməz, – mayor yenə də təmkinini pozmadan bildirdi. Hiss edirdi ki, bu adam onun istədiyi məlumatları

verəcək. Hansı ki bu məlumatlar indi Qüdrətova hava və su kimi gərəkli idi.

***

– Mən bu Qasançıklə həmin hadisədən bir neçə il əvvəl kafedə tanış olmuşdum. Həmin vaxt orada boş yer olmadığına görə onun stolunun ətrafında özümə yer eləməli olmuşdum. O tək oturub içirdi. Sonradan bildim ki, Qasançik də mənim kimi yaxşı yeyib-içən adamdır. Buna yeyib-içmək demək olmaz... Çünki biz boş vaxtlarımızda əlimizə pul düşən kimi həmin pulu içkiyə və fahişələrə xərcləyirdik. Beləcə dostluğumuz başladı. Həmin vaxt o həbsxana maşınında sürücü işləyirdi. Mən isə imkan düşdükcə xırda oğurluqlarla özümü dolandırırdım. Həmin vaxtlar sizdə qarışıqlıq idi. Ermənilər Qarabağda qırğınlar törədirdilər. Hökumətiniz isə nəinki bölgələrdə, hətta Bakıda nəzarəti əldə saxlaya bilmirdi. Sonra anam xəstələndi. Mən məcbur olub qazanc yerim olan Bakıdan əl çəkib, Gəncəyə – anamın yanına qayıtmalı oldum.

Qarib ilə də elə Gəncədə tanış olmuşdum. Məndən yaşca bir az kiçik olsa da, oğurluq işində çox mahir idi. Onunla tanış olandan sonra bir yerdə oğurluqlara getməyə başladıq. Sonuncu dəfə isə o adam öldürdüyü üçün on dörd il iş alaraq tutulmuşdu. Mən isə o tutulduqdan sonra çarəsiz halda gəzib dolaşmaqdan bezməyə başlamışdım. Həm də onun kimi adam öldürəcəyimdən qorxurdum. Çünki oğurluq etməyə getdiyim vaxtlarda elə anlar olmuşdu ki, məcburən belə hallarla qarşılaşmışdım. Qarib tutulandan bir neçə ay sonra məni də tutdular. Bəxtim gətirmişdi – çünki cəmi altı ay iş kəsmişdilər. Bu isə qonşunun toyuğunu oğurladığıma görə idi. Altı aydan sonra azadlığa buraxılanda cibimdə bir qutu siqaret almağa belə pulum yox idi. Anam həyətdən satdığı güllə-

rin pulundan deyinə-deyinə mənə verir, mən də həmişəki kimi, bu pulları içkiyə və qadınlara xərcləyirdim.

Günlərin birində isə türmədə tanış olduğum Komarov bizə gəldi. Mən onun adını bilmirdim. Heç vaxt ona adı ilə müraciət edilməsini sevmədiyinə görə bunu ondan soruşmağa cürət etməmişdim. Çox zəhmli adam idi. Oturub mənimlə çay içdi. Hətta anam tələsik yemək də hazırladı bizim üçün. Amma mən çox təklif etsəm də, içmədi. "Başqa vaxta qalsın" deyib məni də içməyə qoymadı. Onu yola salanda isə mənə Qarib adlı həmin ermənini öldürməyimi istədi. Əvəzində mənə böyük miqdarda pul təklif etdi. Mən də razılaşdım... Həmin vaxtlar biz onunla tez-tez görüşürdük. Mən Qaribi öldürəndən sonra isə o mənə söz verdiyi pulu gətirib verdi və mən bir daha onu görmədim.

– Komarov özü bu tapşırığı kimdən alırdı? – Qüdrətov onun söhbətinin hələ bununla bitmədiyini xatırlatmaq istədi.

Həmin vaxtlar onun Qribkova familiyalı bir qadın haqqında danışığını bir neçə dəfə eşitmişdim. O, həmişə familiya ilə müraciət etməyi sevirdi. Amma bir dəfə necə oldusa, Komarov telefonda Qribkovaya hirsləndi: "Tatyana, mən həmin adamı cəhənnəmə göndərdim, işi görənlərin də pulunu verdim, onların nə günahı var ki?!" Bunu gizlincə qulaq asıb eşidəndə söhbətin mən və Qasançikdən getdiyini başa düşmüşdüm. Sonra Komarov ilə bu barədə danışanda o bildirdi ki, Tatyana adlı həmin qadın Komarova onun da öldürülməsini tapşırıb. Komarov isə Tatyana Qribkovanı məni öldürtdürməməsi üçün razı sala bilib. Əvəzində isə mən aldığım pulları da götürüb ömrümün sonuna qədər susmalı idim. Anamın və özümün sağ qalmağım üçün...

– Bəs bununla necə razılaşmışdın? – Qüdrətov tutduğu digər adamı işarə etdi. Həsən adlanan bu adamın rəngi-ruhu hələ də özünə gəlməmişdi. Sidiyinin islatdığı şalvarı həyəcanın yaratdığı hərarətdən qurumuş və qoxu daha da kəskin biruzə verməyə başlamışdı.

– Qasançik ilə çox sadə! Mən bunu ona deyən kimi razılaşdı. Əvəzində mənə verilən pulun xeyli hissəsini ona verdim və ...

– Sonra da, saxta avtoqəza planını qurduz, hə?! – Qüdrətov onun fikrini tamamladı. Nə isə demək istəyirdi ki, telefonuna gələn zəng buna mane oldu:

– Qüdrətov, əməkdaşlarımız dünən soruşduğun Fabian adlı adamın izinə düşüblər. Bir saatdan sonra səni şöbədə gözləyirəm! – məxfi şöbənin rəisi general-mayor Kamil Əzimov tapşırıq verdi.

– Lap yaxşı, gəlirəm! Qüdrətov bunu deyib tələsik yuxarı qalxdı. Tahirə verdiyi işarədən aydın idi ki, onun tutduqları adamlarla söhbəti artıq bitib.

## 38. Fransada

İnsanlar bir-birini başa düşmək üçün ya eyni səviyyədə, ya da eyni vəziyyətdə olmalıdırlar. Mən Fabiandan məni başa düşməsini nə istəyə, nə də gözləyə bilərdim. Çünki aramızdakı fərq uçurumlar qədər idi. Həm də qulun ağa ilə dərdləşməsi, hər hansı bir fikir bölüşməsi etik deyildi. Mən sadəcə onun mənə mərhəmətlə verdiyi sevgini qəbul etmək məcburiyyətində idim. Artığını istəyə bilməzdim. Buna haqqım və üzüm yox idi. Onun məni evimizə gətirməsi də möcüzə idi. Evimizə niyə gətirməsinin səbəbini o, həmin gün mənə izah etmişdi. Evimizdən

qayıdanda o, maşını Qarqar çayın sahilində saxladı. Çay lal olmuşdu. Qurumaq üzrə idi. Maşından düşüb çayın qırağında oturdu, mənsə lal çay kimi onu seyr edirdim. Onun kövrəldiyini görsəm də, məhz mənə görə olduğunu qətiləşdirə bilmirdim. Neçə ildir bir yerdə olmağımıza baxmayaraq, söhbətimiz çox uzun sürməzdi. Aramızdakı münasibətlərin isindiyi  zamanlarda o, hansısa bir iş üçün gedir, həftələrlə, bəzən aylarla gəlmirdi. Başıma gələnləri olmalıymış kimi qarşılayır, qulaq assa da, münasibət bildirməzdi. Etika naminə dinləyər, mövzunun dərinləşməsinə şərait yaratmazdı. Mən də bu münasibətdən qorxub sakit oturardım. O, çayın sahilində bir az oturandan sonra məni yanına çağırdı.

– Gəl, sən də bir az təmiz hava al. Yəqin ki, bu hava üçün çox darıxmısan. Görürsən, çayın da dili quruyub, haqsızlıqlara çay da danışa bilmir. Susmaq istəyir, susa bilmir, danışmağa da dili yoxdur.

Mən bu təklifin lap yerinə düşdüyünü düşünüb, maşından endim. Bir kənarda əli qoynunda dinməzcə çayı seyr etməyə başladım. Bu duruşum bir anlıq anamı xatırlatdı mənə, o da xəyallara dalanda beləcə, əli qoynunda olardı. Atam da bunu görəndə: "Südünə lənət, nə olub, ərin ölüb, yoxsa qardaşın? Əlini qoynundan götür. Mən öləndə əli qoynunda gəzərsən. Axşam-axşam bu nə duruşuqdu?" – deyərdi. Əgər yaxında olsaydı, əlini qoynundan da çəkərdi anamın. Anamsa, heç nə olmamış kimi: "əşşi sən də, nə var ki, burda? Belə olanda rahat oluram",– deyib kənara çəkilərdi.

Anamın bu hərəkətini atam xoşlamasa da, anam tez-tez belə edirdi.  O zaman özümə əli qoynunda olmağımın haqqın da qazandırmışdım. Sanki bunu atama özümü müdafiə üçün demişdim qəlbimdə. Axı mənim əlimi qoynuna qoymağım məni yetim uşaqlara, kimsəsiz uşaqlara

bənzətmirdi, çünki məndən kimsəsiz adam çox az tapılardı. Axı mən elə özüm yetim və kimsəsiz idim.

Fabian mənə tərəf dönmədən, daha səmimi səslə dedi:

– Onu çox sevirdin?

– Hə.

– Heç unutmadın?

Özümdən asılı olmayaraq gülümsündüm. O, əvvəl verdiyi suala istehza ilə güldüyümü başa düşdü. Amma mənim Ramili hələ də sevdiyimə şübhə ilə yanaşdığı üçün gülməmişdim, yadıma bir qaravəlli düşdüyü üçün gülmüşdüm.

Bir gün xan nökərə deyir ki, ay nökər, bir nağıl danış, qulaq asaq. Nökər deyir:

– Nağıl-mağıl bilmərəm, bilsəm də, sənə demərəm.

Şah deyir:

– Niyə, ay nökər?

Nökər deyir:

– Sən taxtda, mən quru yerdə.

Şah deyir:

– Çəkil xalçanın üstə.

Nökər xalçanın üstündə oturandan sonra şah deyir:

– Nökər, indi danış görək.

Nökər yenə deyir:

– Nağıl-mağıl bilmərəm, bilsəm də, sənə demərəm.

Şah deyir:

– Ay nökər, indi nə oldu?

Nökər deyir:

– Sən taxtda, mən xalça üstə.

Şah deyir ki, nökər, çəkil döşəyin üstünə. Nökər döşəyin üstünə keçir.

Şah deyir:

– Hə, indi danış.

Nökər deyir:

– Nağıl-mağıl bilmərəm, bilsəm də, sənə demərəm.

Şah hirslənir:

– Yenə nə istəyirsən?

Nökər deyir:

– Sən taxtda mən, döşək üstə.

Şah məcbur olur ki, nökərlə eyni səviyyədə olan döşəyin üstündə otursun. Bundan sonra nökər nağılı danışır.

Fabian bir xeyli güldü, sonra da bunu niyə ona danışdığımı soruşdu. Ona izah etməyə çalışdım ki, sən mənim dərdimi necə başa düşərsən, sevməyimin, unutmağımın nə mənası var?!

O, bir xeyli uzaqlara baxdı. Çox uzaqlara baxdı. Sonra da: "Mən səni çox yaxşı başa düşərəm", – dedi. Bu gün bizim şəraitimiz bir-birindən fərqlənməsinə baxmayaraq, qəlblər eyni hissi yaşaya bilər. Mən bu gün səni ona görə bura gətirdim ki, az da olsa, insanlıq borcumu yerinə yetirim. Axı mənim də atam gözlərimin qarşısında mafiyanın qurbanı olub. Axı mən də varidatımızı əmim satıb atamın borcunu ödəyənə qədər girov saxlanılmışam. Girovluğun nə olduğunu çox yaxşı bilirəm. Girovluqdan qaytarılandan 3 ay sonra anam məni əmimin ümidinə qoyub yeni sevgilisi ilə İsveçrəyə gedib. Bütün bunlar baş verəndə mənim cəmi 12 yaşım var idi. O zaman anamın dönəcəyini çox gözlədim, amma qayıtmadı. Əmim isə bir ömür atamın borclarını qaytarmaq üçün çalışdı. Sonunda ödəyib qurtardı. Biz azadlığa çıxdıq. Rahat yaşadıq. Sonradan tale məni yenidən yüksəklərə qaldırdı. Oxudum, təhsil aldım. Yaxşı iqtisadçı oldum. Böyük bir şirkətdə kiçik bir vəzifə sahibi oldum. Yavaş-yavaş vəzifəm artdı, pulum çoxaldı. Bir də baxdım ki, yenə hansısa bir mafiyanın içindəyəm. Kimə xidmət etdiyimi də bilmirəm. Bura göndərilməyim də üzünü görmədiyim rəhbərlər tərəfindən hazırlanıb, yeni şirkət, qeyri-qanuni iş... Xeyr, nə qə-

dər pulum çox olsa da, bu şirkəti yönləndirən başqalarıdır. Onlara verdiyim bütün vədləri pozaraq səni bura ona görə gətirdim ki, səni bir daha görməsəm, mənəvi cəhətdən rahat olum. İsa məni bağışlamazdı, sənə bu yaxşılığı etməsəydim. Dünən bizim şirkətdə işləyən bütün əsirləri yığdılar. İşçilərim dedi ki, onların hamısını gecə ilə öldürüblər. Bilirsən niyə? Çünki sizin tərəfdən kəşfiyyat burda əsirlərin olduğunu müəyyənləşdirib. Deyirlər, ola bilsin ki, qəfil hücüm da etdilər sizinkilər. Ya da buranın koordinatlarını beynəlxalq təşkilatlara verib ermənilərin gizlətdiyi əsirləri dünyaya tanıdacaqlar. Ermənilərsə bunun üstü açılmasın deyə, Kəlbəcərdə olan bütün əsir və girovları bir gecədə güllələyib basdırıblar. Bu, dəhşətdir... Elə bilirsən, bunlara dözmək asandır?! Mən də insanam, qəlbim götürmür. Hətta mən onların bu hərəkətlərini yuxarıya da demişəm. Deyirlər ki, sən işinlə məşğul ol. Mənimsə işim istehsal olunan qızılı xaricə ixrac etməkdir. İndi mən səninlə eyni səviyyəyə düşdümmü? Sən də mənə qəlbini aça bilərsən? Axı indi biz ikimiz də eyni yerdə oturmuşuq, görürsənmi?

Mən bu sözdən sonra başımın gicəlləndiyini hiss etdim. Fabian məni yıxılmağa qoymadı. Cəld yerindən qalxıb güclü əlləri ilə belimdən tutdu:

–Narahat olma, Gülcahan sağdır, o, Şuşada saxlanılır. Bu söz məni yaman sevindirdi, elə bil Gülcahan yenidən dirilmişdi. Artıq Fabianın mənə yaxşılıq etmək istəyini, səmimi olduğunu, yuxarıdan aşağı baxmadığını müəyyənləşdirmişdim. Bunun üçün də onu necə sevdiyimi, ona necə bağlandığımı bildirmək üçün həmin məktubu oxudum. Amma o gündən o məktubu bir an da yanımdan kənara qoymuram, balaca bir parçaya büküb qoynumda gəzdirirəm. Bu məktub son illər mənə təsəlli olacaq yeganə varlıqdır. Məktubdakı "gözləyəcəyəm, ya səni, ya

da məktubunu" sözləri isə hər an mənə sönməkdə olan közün işartısına verilən ağız dolusu hava kimi gəlir. Son iki ildə elə gün olmayıb ki, mən o məktubu düşünməyim, və ya oxumayım, qoxulamayım... Hər dəfə o məktubu oxuyanda, Ramillə keçirdiyimiz anlar yadıma düşürdü. Onunla yaşayırdım, onunla danışırdım, onunla dərdləşirdim. Hərdən düşünürəm ki, bəlkə də, o məktubu gözləmədiyim anda tapmasaydım, həyatım başqa cür olardı...

Məktubun məzmununu ona danışdıqdan sonra bir anlıq ikimiz də susduq. Mən dağlara, meşələrə baxırdım. Necə ki qız olduğum üçün həmişə həsrətlə baxırdım. Xocalının bütün oğlanları bir yerə yığışıb dağlara qonaqlığa (bizim oralarda yeniyetmələr yaz aylarında hərəsi evdən bir şey götürüb qəsəbədən uzaq bir yerdə, ağac altında, çay qırağında, yalçın qayalar döşündə yeyib-içib qayıdardılar. Bunun da adı "qonaqlıq" və "yeyib-içmək" idi. Menyuda da pomidor, pendir, göyərti olardı. Qarqarda üzməyə, balıq tutmağa getdiyi zamanlarda alnımda "qız" damğası olduğu üçün həmişə o dağlara həsrət qalmışam. O zaman da Fabianın yanında olarkən elə həsrətlə baxmışdım o ənginliklərə. Fabianın isə nəyi düşündüyünü nə bilirdim, nə də bilmək istəyirdim. İsti küləyin yanaqlarımı oxşadığı anda məni düşüncələrin əlindən Fabianın sualı ayırdı:

– Mənimlə Fransaya gedərsənmi?

Elə bil başıma soyuq su tökdülər və mən yuxudan ayıldım. Ona görə yox ki, girov qadına bunu deməzlər, – deyə təəccübləndim. Ona görə ki, məlum illər ərzində bu, mənə verilən ilk qiymət idi. Həm də çox baha qiymət. Oğlu İsmayılı qurban kəsmək istədiyi anda Tanrının ona olan sevgisi naminə qoçu göndərməsi necə idisə, bu təklif də bir o qədər möcüzəli idi. "Yox" cavabını düşünmək

gülünc idi. Bir cavab var idi... "Bəli". Amma yalnız bir cavabı olan sualı xeyli fikirləşdim. Fabianın niyə mənə qəhqəh çəkib gülmədiyinə məəttəl qalmışdım. Axı mən onun boynuna tullanıb, üz-gözündən öpməli idim, "sağ ol" deməli idim, sevinməli idim. Mən "bəli" demədim. "Bu, necə olacaq?" sualını verdim. O da "sən razı olsan, qalanı mənlikdir" dedi. Məhz bu hərəkəti onun digər kişilərdən fərqlənən cəhətlərindən idi. Məncə, başqa adam olsa idi, deyərdi ki, səni aparacağam Fransaya, bu çirkabdan qurtaracağam, gözəl bir həyat yaşadacağam sənə. Amma Fabian belə deyildi. İndi bu dəftəri yazanda da az qalmışdım onu Ramillə müqayisə edim, amma Ramilə olan nakam məhəbbət buna imkan vermədi. Hərdən mənə elə gəlir ki, mən öz mənliyimi Ramilə olan məhəbbətimi yada salmaqla qoruyuram. O, mənim üçün bir meyar olub. Onu unutmaq, onu yada salmamaq özümü unutmaq kimi gəlir mənə. Bu, Leyli məhəbbəti deyildi. Bu, Əsli məhəbbəti də deyildi. Bizim bir-birimizi tanımağımız heç bir il də çəkməmişdi. Amma o, mənim üçün bir ölçü olmuşdu. O, sanki mənə məni xatırladan ikinci bir mən olmuşdu. Fabianı niyə sevmədiyimi hələ də düşünürəm. Bir insan kimi analiz edəndə Fabian bir çox cəhətlərinə görə Ramildən üstün idi. Hətta fiziki baxımdan da ondan yaraşıqlı idi. Niyə mən ona aşiq ola bilmədim? Ramili tanımamışdan öncə onunla rastlaşsaydım, ona aşiq olardım, yəqin ki...

Özümü toplayıb:

– Bəs Gülcahan? – deyə soruşdum.

– Onun üçün də bir şey fikirləşərik. Amma çox çətin məsələdir. Buna söz verə bilmirəm. Amma sən burda qalmaqla ona heç bir halda yardım edə bilməyəcəksən. Əgər mənimlə getsən, ən azından öz həyatını qurtara bilərsən.

Əlbəttə, ən doğru yol idi, onun təklif etdiyi bu yol. Mən də bunun üçün qərar verdim. Onunla Fransaya – buraya gəlməyə razı oldum. Heç bir şərtsiz, heç bir təklifsiz...

***

Şərtləri onlar qoydu. Daha doğrusu, Vaskanyan. Fabiana demişdi ki, bu qız orda imkandan istifadə edib qaça bilər. Bu məsələ bütün dünyaya yayıla və Ermənistan dövlətinin imicinə birbaşa zərbə olar. Fabian da mənim adımdan ona söz vermişdi. Nə qədər söz versə də, insan qanı içməkdən insanları yaxşı tanıyan Vaskanyan Gülcahanın şəklini çəkdirib Fabianla mənə göndərmişdi ki, işdir, əgər hər hansı bir artıq hərəkət etsəm, Gülcahanı öldürəcəklər. Fabian da bunları mənə danışmış, əhdimə vəfa göstərməyi tələb etmişdi. Mən də ona söz vermişdim. Hansı üzlə bundan sonra vətənə qayıtmaq istəyərəm ki?! Axı mənim ora dönməyə heç bir haqqım yox idi. Heç kimin üzünə çıxa bilməzdim, heç kimlə oturub-dura bilməzdim. Heç Ramil də məni qəbul etməzdi, – sözlərini fikrən demişdim də Fabiana. Gülcahanın şəklini görəndən sonra daha da ümidlənmişdim. Fabiandan daha möhkəm yapışıb, onu da Fransaya aparacağım haqqında fantaziyalar qururdum öz aləmimdə. Fabianı tam inandıra bilmişdim. Düzü inandırmaq üçün çox danışmamışdım. Amma nədənsə Fabian mənə inanırdı. Xocalıya gedib gələndən sonra o, mənə, mən də ona yaman bağlanmışdıq. Elə bil bir-birimizi yenicə sevməyə başlamışdıq. O, mənimlə daha çox vaxt keçirir, daha yaxından tanımağa cəhd edirdi. Sevgili kimi tez-tez əllərimdən tuturdu, belimi qucaqlayırdı, mətbəxdə olduğum anlarda arxadan qucaqlayaraq boynumdan öpürdü. Əlbəttə, bir qadın kimi bunlar mənə ləzzət edirdi, xoşhallanırdım, onun bəxş etdiklərindən zövq alırdım. Özüm və Gülcahan üçün yeni

bir həyat görürdüm önümdə. Keçmişdən heç bir xatirəsi olmayan tamam yeni bir həyat. Ən düzü də bu idi. Buna gecə qərar vermişdim və gec ağlıma gəlmişdi. Amma bu, belə idi. Deyəsən, mən real həyata qayıdırdım. Hər şeyi unutmağa başlayırdım. Fransaya yola çıxmamışdan bir-neçə gün əvvəl Fabian mənə dedi ki, görəsən, sənin gözlərindəki bu kədəri nə vaxtsa silib təmizləyə bilərəmmi? O, bu sualı verdiyi zaman cavab gözləmədiyi üçün mən də cavab verməmişdim. Beləcə yeni məhəbbətim başlamışdı.

Bu dəfə ümidlərim aydın səmada pərvaz edirdi. Hərdən də sevincindən anasını havada görən ətcələr kimi yoluq qanadlarını çırpırdı, atılıb-düşürdü. Elə indicə anasının ona tərəf süzəcəyini gözləyən ətcələr kimi hay-küy salmışdı. Heç Fransanı gözlərimin qarşısında canlandıra bilmirdim, sadəcə buranı – ana yurdumu tez bir zamanda tərk etməyi canlandırırdım. Mənim üçün vətən anlayışı ölmüş, qırxı da, ili də çıxmışdı.

*Ürəyim sıxılır qəmlə kədərdən,*
*Öz arzu kamıma lap ağ olmuşam.*
*Yad mənə yaxındır mənim özümdən,*
*Mənsə öz-özümə uzaq olmuşam.*

*Burada göz açıb böyümüşəm mən,*
*Burada gülmüşəm, güldürmüşəm mən,*
*Burada xoş günlər keçirmişəm mən,*
*İndi o günlərə yamaq olmuşam.*

*Bir yadlıq duyuram özüm-özümdə,*
*Gülüşüm ağlayır mənim üzümdə,*
*Canlananda keçmiş günlər gözümdə,*
*Duyuram onlardan qıraq olmuşam.*

*Dağılıb yurd-yuvam, gedib torpağım,*
*Alınıb əlimdən can QARABAĞIM,*
*Sahibdir evimə namərd qonağım,*
*İndi qonağıma girov olmuşam.*

*Oğul atasından aralı qalıb,*
*Oralı yarıyıb, buralı qalıb.*
*Sınıb öz ağacım, yaralı qalıb,*
*Gedib özgə bağa calaq olmuşam.*

*Gör mən nə haydayam, zaman nə hayda,*
*Gələn getməlidir, bu da bir qayda,*
*Birdən ayıldım ki, yaşam nə fayda,*
*Öz bağımda bitən alaq olmuşam.*

Məni Ermənistana gələn konteynerə yükləyib Fransaya apardılar. Neçə gün yol gəldiyimi bilmədim. Qaranlıq, sükunət, dəmirlərin arasından hava almaq üçün açılmış deşiklərdən hava alırdım. Yanıma Misir qəbirlərinə qoyulduğu kimi yemək və su var idi. Ölməmək üçün yeyib Fransaya çatdıq. Əslində, mən hara çatdığımı qətiyyən bilməzdim, Fabian buranın Fransa olduğunu deməsəydi...

## 39. Təsadüf yoxdur...

... Bəzən insanlar nə istədiklərini bilmirlər. Yaşadıqları rahat həyatdan ayrılıb özlərini çətinliklərlə, problemlərlə dolu məsələlərlə cilalamağı üstün tuturlar. Bəziləri bunu risk, bəziləri isə ağılsızlıq adlandırır. Hər iki halda insan başına gələnlərə görə özünü günahlandırmaqdan boyun qaçırdır. Olanları təsadüflərə bağlayaraq özünü, ətrafın-

dakıları buna inandırmağa çalışır.

Az qisim insan isə nə istədiyini, necə istədiyini və nə üçün istədiyini dərk etməyi bacarır. Məhz bu qrupa aid olan insanlar həyatın sonu görünməyən burulğanına qarşı şüurlu mücadilə aparanlardan ola bilirlər. Heç nə təsadüfi deyil və az qala hər saniyə baş verən ən kiçik, ən lüzumsuz hadisələr belə, zərurət olduğundan baş verir. Sadəcə kimlər üçünsə bu zərurət yalnız qismət və alın yazısından ibarət olduğu halda, digərləri bunu olacaq, yaxud olmalı iş kimi qəbul edirlər...

Beynində bu fikirləri çək-çevir edən Qüdrətov şöbəyə çatdığını indi hiss etmişdi. Dünənkindən fərqli olaraq daha təmkinli və fikirlərində qətiyyətli idi. Ötən gün məxfi şöbənin rəisi general-mayor Kamil Əzimovun gözlənilməz suallarını, qoyduğu məsələləri gecədən indiyə qədər yetərincə düşünə bilmişdi. Əgər dünən şəxsi şübhələri ilə başladığı bu əməliyyat barəsində şöbə rəisinə məlumat verdiyinə görə narahat idisə, bu gün çoxdan axtardığı bir çox suallara cavab tapa bilmişdi. Aleksey adlı həmin rusu danışdırandan sonra isə, demək olar ki, təxirəsalınmaz işlərindən biri də artmışdı. Necə olur-olsun Komarov adlı həmin sifarişçini və Tatyana Qribkovanı tapmalı idi. Özü də başa düşürdü ki, bu məsələ o qədər də asan olmayacaq. Adı keçən adamlardan hansısa ölmüşdüsə, deməli, məsələ daha da qəlizləşəcəkdi. İndi ona görə bir az rahat idi ki, artıq şöbə rəisi də əməliyyatı sona çatdırmaq üçün əlindən gələn köməkliyi edəcəkdi. Nəticədə, Qüdrətov təsadüflərə inamsızlıq sindromunu növbəti dəfə meyar götürərək bu müəmmalı işin sonuna çıxa biləcəkdi.

Maşının sürətini azaldıb qarşıdakı küçəni sağa dönərək açıq darvazadan içəri keçdi. Bura binanın arxa girişi idi. Həyətdə həmişəki kimi səssizlik hökm sürürdü. Yalnız darvazanın giriş  hissəsini monitordan izləyən zabit

gözə dəyirdi ki, onun da yeri digər əməkdaşların görə bilməyəcəyi nöqtədə yerləşirdi. Bu izləmə mexanizmini şöbə rəisi özü təklif etmişdi. Belə ki, binanın arxa girişini nəzarətdə saxlayan silahlı əməkdaş əslində küçədə lap yaxın ərazidə yerləşən televizor mağazasının içərisində keşik çəkirdi. Bu halda darvazaya yaxınlaşan adamı hamıdan əvvəl o görə bilirdi. Nəticədə ona verilən əmrə uyğun olaraq hərəkətə keçə bilərdi.

İndi isə həmin silahlı şəxs darvazaya yaxınlaşan maşının yalnız seriyasına ani diqqət yetirdi. Bu onun gözlədiyi kimi "MX" seriyalı "BMW" markalı maşın idi. Zabit tərəddüd etmədən idarəetmə qurğusunu işə salıb məxfi şöbənin gizli əməkdaşının içəri daxil olması üçün darvazanı açdı.

***

– Sənin bu həngamələrin nə vaxt bitəcək, Qüdrətov? – şöbə rəisinin maraqlı baxışları növbəti dəfə mayorun üzündə bərqərar oldu.

– Yoldaş general-mayor, mən başa düşə bilmirəm ki, siz nəyə görə bu qədər narahatsınız? – Qüdrətov, sanki günlərlə apardığı araşdırmanın bütün əsas mötivlərini sürətlə beynində fırladaraq qısa vaxt qazanmağa çalışdı. Stulunu bir az da masaya yaxınlaşdırıb hər iki əlinin barmaqlarını bir-birilə çarpazladı.

Əzimov onun bu hərəkətlərinin sonunda həmişə ümidverici səbəblər görmüşdü. İndi də Qüdrətovun, sanki yerini rahatlayaraq maraqlı söhbətə başlamasını gözləməyi lazım bildi. Amma şöbə rəisi özü də dünəndən bəri bu məsələ ilə bağlı ciddi araşdırma aparmış, bir çox hallarda öz istəkli yetirməsinə haqq qazandırmışdı. Buna baxmayaraq, bəzi suallarının cavabsız qalması ilə hələ də razılaşa bilmirdi.

– Qüdrətov, sən şöbənin ən vacib əməkdaşlarından birisən. Mən başa düşə bilmirəm ki, üstündən iyirmi il keçən hadisədən şübhələnməyinin səbəbi nədir. Özün dünən yada saldın ki, həmin qızın yazdığı dəftər sənin əlinə keçən il keçib. Elədirmi?

– Bəli, elədir!

Əgər orada həqiqətən də, şübhəli məqamlar var idisə, onda nəyə görə dəftəri tapdığın vaxt mənə məlumat verəndən sonra apardığımız araşdırma nəticə vermədi?

– Keçən il bu dəftərçədə yazılanlarla bağlı ciddi əməliyyat keçirə bilməsək də, mən araşdırmanı davam etdirirdim. Sadəcə, bizim arxivlərdə də bunun kimi yazılar və qeydlərə çox rast gəldiyim üçün bir az laqeyd idim. Amma ermənilərin daima onlarda Azərbaycan əsirləri olduğunu danmaları və bizim beynəlxalq aləmə faktla çıxa bilməməyimiz bu işin vacibliyini və aktuallığını saxlayırdı. Dəftəri araşdırmağa başlayanda isə artıq ən vacib şahid – dəftəri mənə verən Vasya adlı həmin kişi ölmüşdü. Onun üçün də əməliyyat uğursuz alınmışdı. Bundan əlavə nə onda, nə də indi mənim əlimdə Aytəkin adlı həmin dəftəri yazan qızın sağ olub-olmaması barəsində dəqiq məlumat yox idi. Digər tərəfdən də, tədbir məsələsi. Axı, dünən danışdım sizə. Mən Xocalı faciəsinin ildönümündəki tədbirdə onun iyirmi il əvvəl sevdiyi adamı tapdım. Və bundan sonra həmin dəftərdə yazılanlar, o dəftərin mənim əlimə keçməsi, keçən ilki araşdırmam, ümumiyyətlə, bu hadisə məni çox maraqlandırmağa başladı. Özünüz də etiraf edərsiz ki, bu hadisə həqiqətən də, nəzərə alınacaq qədər maraqlı və müəmmalıdır.

– Yoldaş, məxfi agent, – Əzimovun səsindəki ahəng onun, sanki bu məsələyə dünəndən bəri inandığına peşman olduğu təsiri bağışladı, – razıyam, maraqlı işdir, hətta mən bunu hadisə adlandırmıram. Bax, maraqlı olduğunu

ki, etiraf edirəm. Sən də bunun təsadüf olduğunu qəbul et! – şöbə rəisi inamsız tərzdə stolun üstündəki qələmi götürdü. Bu dəfə Qüdrətovun susmasından istifadə edib yenə də öz fikirlərini əsaslandırdı:

– Bilirəm, yenə düşünürsən ki, təsadüf deyil, zərurətdir. Amma ən azı mənim qədər yaxşı anlayırsan ki, bizim peşəmizdə belə adi olaylar ciddi məsələyə çevrilməməlidir. Hansısa girov qız o dəftəri yazıb, o dəftər təsadüfən sənin əlinə keçib və sən təsadüfən onun sevgilisini görübsən. Yəni bu qədər sadədir.

– Cənab general-mayor! Mən hiss edirəm ki, bu təsadüf deyil!

– Hiss etmək?! Əzizim, sübut etmək lazımdır...

Arada kiçik fasilə yarandı. Şöbə rəisi susaraq Qüdrətova baxır, mayor da öz növbəsində bir-birinə çarpazladığı barmaqları növbə ilə hərəkət etdirərək bir anlıq düşüncələr dünyasına qərq olurdu. Bir az əvvəl isə bu barmaqlar yumruq halına gəlmiş, iri ovucun içərisinə sığmayacaqmış kimi hansısa fikri qətiləşdirdiyinə görə, sanki bayram etməyə çalışırdı. Amma bu dəfə sükutu yenə general-mayor Əzimov pozdu:

– Bax, bu qələm indi mənim əlimdədir və bir az əvvəl isə o stolun üstündə idi. Əgər mən fikirli olub onu təsadüfən oradan götürməsəydim, deməli, qələm hələ də yerində olacaqdı. Və yaxud da, mən qələmi yenidən stolun üstünə qoymaq istəyəndə onu təsadüfən yerə salıramsa, daha burada zərurət axtarmağa nə ehtiyac var?

Məxfi şöbənin rəisi danışdıqca Qüdrətovun reaksiyalarına diqqət edir, fasilə verməyə çalışırdı. Bir yandan işlərinin çoxluğu, o biri yandan da məxfi agentə, intuisiyasına olan inamı ona seçim etməkdə çətinlik törədirdi. Başa düşürdü ki, Tənha Canavar ləqəbli bu adamın şübhələrində müəyyən əsaslar da var.

– Yaxşı, bu işi nə vaxta qədər davam etdirməyi planlaşdırırsan? Bir işıq yeri görünür? Hələ dünəndən verdiyim sualların heç birinə cavab verməmisən, – bu sözlərlə Əzimov ona kömək edəcəyini, əməliyyatı birlikdə sona çatdırmaqda dəstək verəcəyini bildirdi.

– Çox tezliklə, mən buna inanıram.

– Dünən dediyin adamlardan bir şey öyrənə bildin?

– Bəli, mən bu işin içində olan iki nəfərin axtarışı üçün bir neçə günlük Rusiyaya getməliyəm. Əməliyyat üçün sənədlərimi bu gün gətizdirə bilərsiz?

– Hə, mümkündür. Qulaq as, dünən dediyim məsələni dəqiqləşdirə bildin?

– Hansını, dünən o qədər məsələ soruşuldu ki, məndən. Gecə yata da bilməmişəm, – Qüdrətov söz atdı.

– Dəftərçənin yazılma tarixindəki uyuşmazlığı deyirəm. Bəlkə, sənin ekspertlərin yanlışlığa yol veriblər.

– Xeyr, hər şey doğrudur. Dünən sizin şübhələrinizə əsasən mən erməni girovluğunda olmuş Aytəkin adlı qız tərəfindən yazılan həmin dəftərçənin yazılma, qələmə alınma tarixini bir daha yoxlatdırdım. Amma yenə də eyni nəticə çıxdı.

– Yenə 10 il?!

– Bəli, həqiqətən də, qız dəftəri 10 il əvvəl yazıb. Sadəcə mənim əlimə keçən il keçib. Ekspertlər dəftərin ilk, orta və son səhifələrindən götürülmüş nümunələrdəki mürəkkəb izlərini ciddi şəkildə araşdırandan sonra bu nəticəyə gəliblər.

– Bəs bu qədər gözləmək? Əgər həqiqətən də, Aytəkin sağdırsa, nəyə görə Azərbaycana gəlib çıxmayıb? Axı deyirsən ki, onu hansısa tapşırıqla biz tərəfə yollamalı idilər.

– Mən düşünürəm ki, Aytəkinin Azərbaycana gəlməsinə mane olan səbəb onun bu işə razılaşmaması ola bilər. Mən şahidlərlə görüşmüşəm. Onlardan Qədim adlı yaş-

lı kişinin söylədikləri əsasında dünən danışdırdığımız adamların izinə düşmüşdüm. İndi isə bütün ümidlər Rusiyada olmasından şübhələndiyim həmin adamlara qalıb. Çünki onlardan ən azı Komarov adlı adam ermənilərlə əlaqəli şəkildə indi də Moskvada fəaliyyət göstərir. Mən artıq bu barədə oradakı nümayəndəmizdən məlumat almışam.

– Fabian adlı fransızla bağlı məlumatlar bu qovluqda yazılıb. Tanış ola bilərsən, – şöbə rəisi siyirmədən götürdüyü sənədi ona uzatdı. Sonra isə əlavə etdi:

– Bu fransız haqqında kim məlumat verib sənə?

– Mən bununla bağlı Dilavər adlı adamı danışdırmışam. Siz onu tanıyırsız da – Kəlbəcərdən olan döyüşçü.

– Hə, o vaxt Şahid müəllimgilin şöbəsi onu danışdırmışdı. Adam iki dəfə işğal altında olan torpaqlara gedib çıxıbmış.

– Bəli, onu deyirəm. Dilavərdən Kəlbəcərin qızıl mədənlərində işləyən girovlarla bağlı sorğu-sual etməyə başladım. O, ikinci dəfə Kəlbəcərə gedəndə Fabian adlı adam və onun yanında gəzdirdiyi qadın barəsində mənə söhbət edəndə mən həmin qadından şübhələnməyə başlamışdım. Onun əksər əlamətləri dəftəri yazan qızla üstüstə düşürdü. Deməli, 1999-cu ilə qədər, yəni ki, Dilavərin ikinci dəfə Kəlbəcərə getdiyi vaxt Aytəkin həqiqətən də sağ imiş. Bu isə qadının öz dəftərçəsində yazdıqları ilə üst-üstə düşür.

– Qız bu dediklərini özü yazıb dəftərində?! – deyəsən, Əzimov da getdikcə bu hadisəyə daha çox maraq salmağa başlamışdı. Odur ki, məsələlərin kökünə çıxmaq üçün simasındakı səbirsizliyi, gərginliyi görmək çətin deyildi.

– Bəli, hamısını olduğu kimi özü yazıb.

– Qüdrətov, sən Ramili araşdırmağı kimə tapşırmışdın? – rəisin səsindəki ahəng bir az dəyişdi.

– Leytenant Qurbanova. Nə isə yanlışlıq var?! – mayor narahat olmağa başladı.

– Qurbanov sənə onu da məlumat veribmi ki, Ramil İbrahimov əslində baş leytenant rütbəsi ilə Şahid müəllimgilin şöbəsinin əməkdaşıdır?

– Mən Ramilin o vaxt girovların dəyişdirilməsi prosesində yaxından iştirak etdiyini bilirdim. Bunu mənə həm Qədim kişi, həm də Qurbanov demişdi. Başa düşürəm ki, girovdəyişmə prosesində iştirak etdiyinə görə sizin bəhs etdiyiniz şöbə ilə əlaqəsi olub. Amma açığı məhz həmin şöbənin əməkdaşı olduğunu bilmirdim. Yəni bu indi də davam edir?

– Bəli, indi də. Sadəcə olaraq, Ramil bildiyin kimi, universitetdə müəllim işlədiyinə görə, şöbə ilə əlaqəsi çox az-az hallarda olur. Və fikrimcə, sən indiyə qədər onunla görüşməli idin. Bu sənə çox kömək edərdi.

– Mən Rusiyaya getməmiş onunla görüşməyə çalışaram. Etiraz etmirsinizsə, mən öz otağıma gedib Fabian haqqında verdiyiniz qovluğa nəzər salmaq istəyirəm.

– Yaxşı get. Amma bir məsələ dünəndən beynimi çox yorur.

– Nə, cənab general-mayor?

– Ermənilər o qızı Azərbaycana hansısa təxribat və ya iş dalınca göndərəcəkdilərsə və Aytəkin hələ də sağdırsa, bu qədər illər nəyə görə gözləyiblər?!

– Məncə, onunla bağlı qurulan plan hansısa səbəbdən, bəlkə də, siyasi hakimiyyətlə bağlı səbəbdən bu on il müddətində təxirə düşə bilərdi. Qüdrətov bunu deyib otaqdan çıxdı.

Məxfi şöbənin agenti otaqdan çıxandan sonra general-mayor Əzimov bütün iş-gücünü kənara qoyub bu maraqlı hadisə barəsində düşünməyə başladı. “Doğrudan da, müəmmalı və maraqlıdır” deyə, özlüyündə götür-qoy

edirdi. İyirmi il əvvəl baş verən hadisələri təfərrüatı ilə beynində canlandırmaq üçün diqqətini toplamağa çalışdı. Hiss edirdi ki, yeni suallar peyda olub. Amma indi artıq Qüdrətov otaqdan çıxmışdı. Bunu hiss edib nə düşündüsə, iş stolunun üstündəki qeyd dəftərçəsini qarşısına çəkdi. Hər halda, belə demək olardı ki, bu məsələ ilə bağlı mayordan soruşacağı sualları yaddan çıxarmaması üçün dəftərçəyə qeyd etmək qərarındadır.

## 40. Aytəkinin vətəninə zəng etməsi

Bəli, bütün insanlar belə olur. Əzab-əziyyətlər içində yaşadıqları zaman bütün keçmişi, qohumları, əzizləri, sevgilisi yadına düşür, onlardan küsüb-inciyir, gileylənir. Amma o gün ki xoş günə çıxdı, heç kim yadına düşmür. Elə mən də beləcə o xoş günlərdə – Fransaya gətirildiyim ilk günlərdə və ondan bir neçə gün əvvəl də daha Ramili o qədər də düşünmürdüm. Bu o demək deyildi ki, mən Ramili unutmuşdum, sadəcə, yeni həyatımın planlarını qurduğumdan, orada Ramilə yer tapa bilmirdim. Ramil ya bünövrədə olmalı idi, ya da heç olmamalı idi. Amma mən Fabianla da çox yaşaya bilmədim, çünki səhv etdim. Bəlkə də, bu mənim həyatda etdiyim ən böyük səhv idi.

İlk günlərdə Fabian mənə tapşırmışdı ki, hələ sənədlərim tam hazır deyil, onun üçün də maksimum gizlin yaşamalıyam. O, çox az hallarda məni evdə tək qoyurdu. Onun 3 otaqlı, geniş evi var idi. Ev çox sadə idi. Hətta yerdə xalça da yox idi. Mebellər sadə, amma zövqlə bəzədilmişdi. Bir sözlə, evdə yaşamaq üçün hər şərait var idi, amma telefon və televizordan basqa. Bunun səbəbini bildiyim üçün soruşmadım. Üç mərtəbəli evin eyvanından şəhərə baxmaq dünyanın ən gözəl kanallarına dəyərdi.

Mən qarşıma məqsəd qoymuşdum ki, ona etdiyi bu yaxşılığa görə xidmət etməli, onu sevməli, yeni həyata başlamalıyam. Fabian da bunu gözləyirdi... Mən bu dəftərdə Fabianla keçirdiyim xoş günləri yazmaq fikrindən uzağam. Çünki əgər o günlərin dəyərini bilsəydim, nə səhv edər, nə də ona xəyanət edərdim. Xəyanət etdiyim Fabian dünyanı gül dəstəsi şəklində mənə bağışlamışdı. Mənsə Fabianı yox, dünyanın içindən təkcə məni götürəcək Ramili seçmişdim. On birinci sinifdə oxuyan zaman oğlanlarımızdan birinin qızlara verdiyi sual belə idi: Bir gün Şirinə deyirlər ki, Xosrova dedik ki, dünyanı sənə versəydilər, nə edərdin? Xosrov cavab vermişdi: Onu gül dəstəsi edib Şirinə bağışlayardım. Amma Fərhada bu sualı verəndə o demişdi ki, oradan Şirini çıxarıb, dünyanı atardım. Sən Şirinin yerində olsaydın, nə edərdin? Sözsüz ki, bütün oğlanların eşitmək istədiyi cavab "Fərhadı seçərdim" fikri idi. Elə biz qızlar da bu cavabı verdik. Ona görə yox ki, oğlanların xoşuna gələk, ona görə ki, biz həyatı dərk etmirdik. Elə bilirdik ki, sevgi olduğu zaman tikanlıq gülüstana dönəcək. Axı biz Leyli və Məcnun məhəbbəti ilə böyümüşdük. Yeniyetmə olduğumuz üçün hələ də şüurlardakı məhəbbətlə yaşayırdıq – pak, təmiz, saf məhəbbətlə. Sevgini yenicə dərk etməyə başlayan yeniyetmə heç vaxt nə öpüş, nə qucaqlaşmaq, nə intim münasibət, nə də var-dövləti düşünürdü. Bütün bunlara baxmayaraq, aramızdan iki nəfər qız realistcəsinə Xosrovu seçdiklərini dedi. Hamımız həmin gün onların xarakterlərinin qeybətini də etmişdik. Hətta üzlərinə də demişdik fikirlərimizi. Onların da cavabı belə olmuşdu: "Hə, deyirsiz ki, aclıq olsun, kef olsun. Biz acqarına kef çəkə bilmərik". Amma mən Fabianla birgə yaşadığım müddətdə başa düşdüm ki, könül istəməsə, könül şad olmasa, heç toxqarına da kef çəkmək olmur.

Təqribən bir ay evdə qapalı vəziyyətdə yaşadıqdan sonra Fabian məni şəhərə gəzməyə çıxartdı. Çox həvəsli idi, balaca uşaq kimi sevinirdi. O, mənə pasport hazırlatdıra bilmişdi. Elə bil öz doğma şəhərini mənə tanıtmaq üçün çiçəyi çırtlayırdı. Ağız dolusu Avropanı mənə göstərəcəkdi həmin gün...

Payız ayı idi. Həmişəyaşıl ağacların çox olmasına baxmayaraq, payız küləyinin sərt üzündən saralmış yarpaqları olan ağaclar bu sadə sənaye şəhərinə xüsusi gözəllik verirdi. Hara baxırdın, yük maşınları, uzun-uzun kamaza bənzər maşınlar, kranlar görürdün.

Yağan yağışdan sonra yenicə gün çıxmışdı. Biz şəhərin ortasından axan Sena çayının sahilinə gəlib çıxdıq. Şəhər çox səliqəli, hava sakit idi. Küçələrdə müxtəlif markalı maşınların olmasına baxmayaraq, mən heç bir siqnal səsi eşitmədim. Çay da Qarqardan fərqli olaraq elə lal axırdı ki, heç səsini belə eşitmək olmurdu. Şəhərin bir tərəfini o biri tərəfinə birləşdirən körpü ecazkar idi. Fabian dedi ki, bu körpünün adı "por A lanqle" adlanır. Luis Blank küçəsində yerləşən bu körpü Kosko hotelinin qarşısından baxdıqda görünürdü. Çox möhtəşəm körpü idi. Onu gördüyüm zaman adını eşidib, özünü görmədiyim əfsanəvi Xudafərin körpüsünü xatırladım. O da belə əzəmətli olmuşdu bir vaxtlar. O da iki canı bir-birinə birləşdirmişdi bir vaxtlar, təəssüflər ki, indi ayırır...

Fabian dayanmadan məni şəhərlə tanış edirdi. Körpüləri, binaları, ağacları...Fabian məni sevirdi. Onun bütün hərəkətləri bunu sübut edirdi.  Mənsə xəyala dalmış, Ramillə bulvarda əl-ələ gəzdiyimiz günləri xatırlayırdım həmin gün. Xatırladıqca da qaçmaq istəyirdim, əlimə düşən bu fürsətdən istifadə edib azadlığa çıxmaq istəyirdim. Polislərin yanından keçəndə isə az qalmışdım ki, onların yanına qaçıb yalvarım. Bunu Fabian da hiss etmişdi.

Mənə məsum-məsum “adamın vicdanı olar” da demişdi. Mən bunu ona edə bilməzdim. Doğrudan da, vicdansız olmaq lazım idi ki, bu hərəkəti edəsən. Amma mən dözə bilmirdim, nə edəcəyimi, necə edəcəyimi yenə də bilmirdim. Beynimdə tərəddüdlər yaranmışdı. Bu böyük və gözəl şəhərə qarşı nankorluq edirdim. Gözəlliyə baxıb zövq almaqdansa, heç elə bil bu şəhəri görmürdüm. Nə sevinə bilirdim, nə kədərlənə. Əslində bu möcüzəyə inana bilmirdim. Axı necə olurdu, mən hardan-haraya gəlib çıxmışdım?

Həmin gün mən şəhərdə tualetə getdim. Fabian mənə pul verdi ki, çıxanda qapıçıya verim. Mən tualetdən çıxanda Fabianı görmədim. Birdən ağlıma gəldi ki, fürsəti əldən vermə qaç, amma “hara” sualı da onun ardınca qolumdan tutdu. Skamyada oturan bir nəfərin telefonla danışdığını gördüm. Heç düşünmədən ona yaxınlaşıb, onun başa düşə bilməyəcəyi bir dillə telefonunu istədim. Dilimi başa düşməsə də, telefonu istədiyimi anlayaraq onu mənə uzatdı. Qadın ağlı ilə telefonu alıb yadımda qalan yeganə bir nömrəni yığdım.... Bu, Ramilgilin Bakıdakı ev telefonlarının nömrəsi idi. Amma qulağıma fransız dilində nə isə yad bir qız səsi gəlirdi. Nə isə düz etmədiyimi bildim. Yadıma Bakının beynəlxalq kodunu saldım. Yenə yığdım... Təlaş içində... Ürəyim çırpınırdı... dizlərim əsirdi... barmaqlarım titrəyirdi.... siqnal səsi gəlirdi... amma yenə fransızca nəsə deyilirdi. Gözlərim isə Fabianı axtarırdı. İndi gəlib məni belə bir vəziyyətdə görsəydi, nə baş verəcəkdi? Bunu düşünməyə vaxtım yox idi. Elə Fabian da vaxtında gəldi... Mən onu görən kimi, telefonu sahibinə verib, ona tərəf getdim. Şuluq etmiş uşaq kimi qaçdım onun yanına. Səhv etdiyimi başa düşmüş, it kimi peşman da olmuşdum. Bunu ona necə göstərəcəyimi təsəvvür edə bilmirdim. Amma artıq gec idi... O görmüşdü...  Əlində-

kiləri (yemək üçün nəsə almışdı) isə yanındakı zibil qutusuna atıb biləyimdən yapışdı. Tez yolu keçərək bir taksi saxlatdırdı və məni evə gətirdi. Bu, mənim həmin şəhərdə görüb-görəcəyim yeganə gün oldu.

Fabian çox hirslənmişdi, onu heç vaxt belə görməmişdim, amma bircə kəlmə də, səni bura gətirdiyimə peşmanam demədi, sən nankorsan, sən nə qədər utanmaz adamsan deyib üzümə tüpürmədi də. Məni balaca nəfəsliyi olan kiçik otağa apardı. İçəri salıb qapısını da bağladı. Mən yalvara da bilmirdim, utandığımdan üsyan da edə bilmirdim. Sadəcə taleyimə ağlayırdım. O, haqlı idi. Təsəlli olacaq bir şey var idi... o, yaxşı adamdı, məni bağışlayar.

Amma elə olmadı. Ağlıma gətirmədiyim formada cəzalandırdı. Heç sorğusuz, sualsız... Elə bil, bu onun üçün bir bəhanə oldu. Sonralar bunu – onun məni cəzalandırmasını anlamağa çalışırdım. Əgər o, məni sevirdisə, Ermənistandan Fransaya qədər gətirərək təhlükəli bir iş görmüşdüsə, hələ mənə sənəd də düzəltmişdisə, bəs niyə kiçik bir yanlışlığa görə məni ən ağır və ya sonuncu cəza növü ilə cəzalandırdı. Mənim anladığım yeganə səbəb bu idi ki, ya Fabian məni bura gətirdiyinə peşman olmuşdu, ya onu bu hərəkətinə görə sıxışdırırdılar. Ya da bu Avropalılar bizlərdən fərqli olaraq palçığa batdığı yolla bir daha getməzdilər. Bu da o demək idi ki, bağışlamaq hissi onlarda bizdən fərqli idi.

Mən həmin o balaca otaqda iki gün ac-susuz qaldım. Qapının açıldığını eşidəndə ürəklənib onu səslədim, bir də belə şey olmaz, dedim. Bundan sonra otağımın qapısının açıldığını eşidəndə az qalmışdı "ura" deyib qışqıram. Lakin qapı açılanda belə olmadı. Qapını açan Albert idi. Açan kimi donub qalmağımdan istifadə edərək mənə möhkəm bir şillə vurdu. Şillə məni o qədər də ağrıtma-

mışdı, amma qorxu öz sözünü demişdi. İlk sual belə oldu:

– Kimə zəng etmişdin?

– Ramilə.

– O, kimdir?

– Mənim ordakı sevgilim.

– Nə dedin ona?

– Danışa bilmədim. Bu sözdən sonra təpik qarnımdan elə dəydi ki, gözüm qaraldı. Özümə gəlməyimi gözləmədən saçımdan tutub, yuxarı qaldırdı. Bu zaman onun gözlərini gördüm. İlk əsir düşdüyüm günlər yadıma düşdü. O zalım baxışlar heç dəyişməmişdi. Həmin Albert Vaskanyanın baxışları idi. Saçımı əlinə dolayaraq var gücü ilə yenə yuxarı qaldıraraq qışqırdı:

– Ona nə dedin?

– Heç nə deyə bilmədim. Çünki danışa bilmədim.

– Yalan deyirsən, qancıq. Mən sizi tanıyıram, düz danışmaq üçün hələ bir az döyülməlisən deyərək, məni divara çırpdı. Yenə köhnə günlərdəki kimi qayışını çıxarıb məni döyməyə başladı. Mən artıq bir az özümü girov kimi hiss etmirdim. Bunun üçün də qışqırıb camaatı köməyə çağırdım. Bu zaman onun birinci işi ağzımı bağlamaq oldu. Ondan sonra xeyli döydü. Hərdən də ağzımı açıb "düzünü de, Ramilə nə dedin?" deyirdi. Mənsə heç nə deyə bilmədiyimi deyirdim. O, mənim, doğrudan da, Ramillə və ya başqa biri ilə danışa bilməməyimə inana bilmirdi. Hətta o, məndən ağıllı olduğu üçün elə bilirdi ki, hansısa Fransadakı rəsmi quruma zəng etmişəm. Amma mən onu inandıra bilmirdim. Bu işgəncə iki gün davam etdi. Sabahı axşam mənə iynə vurub bihuş edərək, başqa bir yerə – indi qaldığım fransızın evinə gətirdilər.

Bu, həmin Monik idi. Özümə gələndə başqa evdə olduğumu bildim və Vaskanyanın Monikə nəsə ucadan qışqırdığını eşitdim. Sonra yenidən mənim yanıma gəldi

və döşümün giləsindən yapışaraq, "kiminlə, nə danışdın" deyə yenə bağırdı. Axı mən heç kimlə danışmamışdım. Ona nə qədər danışmadığımı desəm də, inanmırdı. Məndən zəng etdiyim nömrəni istədi. Mən də ağrının altında inildəyə-inildəyə nömrəni dedim. Kodu soruşdu. Kodu bilmədiyim üçün danışa bilmədim, dedim.

– Səni bir dəfə möcüzə qurtarmışdı, amma bu dəfə qurtara bilməz. Əgər mən bir də bura gələnə qədər artıq-əskik hərəkət etsən ilk olaraq, bacını ölmüş bil. Səni də necə öldürəcəyimi ağlına belə gətirə bilməzsən. Mən indi gedirəm, Monik səndən şikayət etsə, məndən incimə.

Mən susurdum. Bunu görəndə boynumdan sıxaraq:

– Eşitdin, qancıq! – dedi. Sonra da yerə itələyərək getdi.

O gedişi çox gözləmədim. İki aydan sonra yenə gəldi və mənim üçün yeni bir era açıldı....

## 41. Ölümlə üz-üzə

Bəzən insanlar həyatın çətinlikləri ilə baş sındıra-sındıra günlərin necə ötdüyünün fərqində belə olmurlar. İstər rahat, istərsə də çətin güzəran keçirən insanları dindirəndə həmişə vaxtın, zamanın çox tez ötməsindən şikayətlənirlər. Bəzən də ötən illər indikilərdən o qədər fərqlənir ki, insanlar ya yaşadıqları bu günə çox şükür etmiş olurlar, ya da ki, ötən illərin həsrəti ilə yanıb, alışırlar.

Qədim kişi adəti üzrə köhnə paltosunu çiyninə salıb həyətə düşdü. Darısqal həyətin sağ tərəfi kiçik taxta piyada qapısından yaşıllığa açılırdı. Bura Qədim kişinin bağçası idi. Havaların yaxşı olduğu vaxtlarda burada bitkilərə qulluq edir, vaxtının çox hissəsini öz bağçasında keçirməyi xoşlayırdı. İndi də havanın mülayim olmasından isti-

fadə edib bağçadakı böyürtkən kollarının yanından keçib fındıq ağaclarına tərəf irəlilədi. Deyəsən, çiçəkləmişdilər. Tələsik samovara od salıb giriş qapısına nəzər saldı. Hələ ki gələn yox idi. Amma gələn qonağının – jurnalist Xəyal Mövsümsoyun dəqiq adam olduğunu, bir neçə dəfə görüşdükləri zamanda da həmişə deyilən vaxtda gəldiyini yaxşı bilirdi. Kişi bunu bilsə də, təbii ki, özünün jurnalist kimi tanıdığı bu adamın əslində məxfi şöbənin agenti mayor Mikayıl Qüdrətov olduğunu bilmirdi.

Hava getdikcə daha da mülayimləşir, hətta arabir günəş şüaları da öz təsirini göstərməyə macal tapırdı. Buna baxmayaraq, Qədim kişi hələ bir neçə həftə köhnə paltosundan ayrılmaq fikrində deyildi. İyirmi il əvvəl yaşadığı əsirlik həyatı, gördükləri işgəncə və faciələrdən sonra canına, sanki ölümünə qədər onu tərk etməyəcək bir üşütmə düşmüşdü. Qonağının gəlməsinə hələ 10-15 dəqiqə qalırdı. Odur ki, çaydana dəm atıb samovarın qaynamasını gözləmək üçün kənara qoydu. Özü isə yaxınlıqda qoyduğu balaca kətildə oturdu. İndi onun gözləri yol çəkməyə başlamışdı. Bir az əvvəl düşündükləri ilə bağlı beynində götür-qoy etməyə çalışırdı. Ötən günləri xatırladıqca həm o anlardan ötrü darıxır, həm də bu günlərinə görə öz tanrısına dönə-dönə şükür edirdi. Amma bu vəziyyət çox davam etmədi. Samovarın fit çalması ilə həyət qapısının cırıltı ilə açılması bir oldu. Qədim kişi maraqla saatına nəzər saldı. Ola bilsin ki, onun jurnalist tanışı həmişəkindən fərqli olaraq vaxtından tez gəlmişdi. Tələsik çaydanı qaynar su ilə doldurub samovarın üstünə qoyaraq qapıya tərəf getdi. Gələn adama səsləndi:

– Xəyal, bala gəl, xoş gəlibsən. Mən bağça tərəfdəyəm. Kişi bunu deyib bir az da qabağa yeridi. Amma gələn həmin jurnalist deyildi. Bu, Qədim kişinin sonuncu dəfə bir neçə il əvvəl gördüyü Ramil idi.

– Ramil müəllim?! – kişi onu görcək maraqla soruşdu.

– Salam, ay Qədim dayı! Yaddaşın yaxşıdır maşallah! Xoş gördük! – Ramil də onu görcək aralıdan əlini yellədi.

– Səni bura rüzgarmı gətirdi, ay bala?! – kişi bunu deyib ona sarı yeridi. Əl tutub görüşdülər.

– Demə, ay Qədim dayı. Deyəsən, qonağın gələcəkdi. Mən düz eşitdim.

– Hə, gəl gedək bağçaya. Qonağım da bir azdan gələr, yəqin. Əslində qonaq deyəndə ki, jurnalistlərdəndir. Qarabağla bağlı yazı-pozu edir. Mən də bildiklərimdən danışıram.

– Qarabağ... – Ramil bunu deyib susdu. Daha bilmədi ki, son günlərdə onun özünü də çox narahat edən ötən günlərin xatirələrimi onu belə etdi, yoxsa başqa bir səbəb mi, amma kövrəldi.

– Çay da hazırdır, gəl bir çay içək. Həm də söhbət edərik.

– Hə, yaxşı olar, Qədim dayı, – Ramil onun yaxşı çay dəmləməsinə bələd olduğunu yaddan çıxarmadığını biruzə verdi.

– Qədim dayı, kəklikotu atıbsan çaya yenə?! Bəh-bəh!

– Danış görək, işlərin necədir? Qızın böyüyübmü? – Qədim kişi onun kefsizlədiyini görüb bayaqkı Qarabağ söhbətini dəyişmək üçün ailəsindən söz açdı.

– Qədim dayı, sən söhbət elə. Məndə yeni xəbər yoxdur. Hər gün iş-ev, dəyişən bir şey yoxdur. Heç olmazsa, Xocalıdan danış. Oranın suyunu içib, çörəyini yemisən. Sənin dilindən bir ayrı maraqlıdır dinləmək. Mən neçə illərdir ki, Aytəkini unuda bilməmişəmsə, səni də yaxşı başa düşürəm ki, sən də öz kəndin, kəsəyin üçün qəribsəmisən.

– Ramil, mən istədim sənin könlünü açım. Amma görürəm sənin yenə dərdin var. Açıq danış görüm, nə olub?

– bu dəfə Qədim kişi, Ramili öz  övladı kimi dindirdi.

– Bilmirəm, Qədim dayı, neçə gündür bədbəxt yuxumdan çıxmır ki, çıxmır. Elə hey məni mühakimə edir. Məni günahlandırır. Son iki-üç gündə yuxum da ərşə çəkilib. Öz səsimə özüm ayılıram yuxumdan. Həkimin də yanına getmirəm. Deyəsən, yavaş-yavaş o söz...

– Dayan, dayan. Yenə də ağrıların olur? – Qədim kişi, Ramilin sonuncu dəfə döyüşdə ağır yaralandığını və uzun müddət müalicə aldığını bildiyi üçün soruşdu.

– Ağrı deyən də ki, ay dayı, normal insan kimi ola bilmirəm. Ürəyim ağrıyır başımıza gələnlərə. Ürəkdən sevinə bilmirəm. Bir il deyil idi ki, başlamışdım rahat həyata, amma son günlər yenə vəziyyətim pisləşib. Evdəkiləri də bezdirmişəm. Anam, yoldaşım... Hamısı, hamısı...

– Elə demə, oğul, özün məndən yaxşı bilirsən ki, insana ailəsindən yaxın heç kim ola bilməz. Sənin əlindən nə gəlir ki?! Sən bacardığını etdin, döyüşdün, yaralandın. Özü də bir dəfə yox, bir neçə dəfə. Ölümlə üz-üzə gəldin. Allahın sevdiyi bəndə imişsən. Sağ qaldın. Olanlarda, Xocalıda sənin sevdiyin qızın və ya başqa ana-bacılarımızın, körpələrimizin, qocalarımızın başına gətirilənlərdə sənin nə təqsirin var ki?! Sən tək adamsan! Sənin kimilərdən azdır...

– Axı mən nəyə görə onu xilas edə bilmədim?! Hə, Qədim dayı?! – Ramil iyirmi il əvvəl baş vermiş həmin hadisəni yenə xatırladı. Bu, son bir neçə gündə artıq ikinci dəfə idi.

– Sən onun üçün – Aytəkin üçün ölümə getdin. Amma bütün bu baş verənlər kimi, onun da orada öldürülməsi qismət idi. Bəlkə də, o vaxt mən onun yerini sənə deyəndən sonra sən onu Əsgəran milis şöbəsindən çıxara bilsəydin də, postlarda dayanmış silahlıları keçməyin mümkün olmayacaqdı. Və beləcə, ermənilər bundan duyuq

düşüb həm də səni öldürəcəkdilər, – Qədim kişi bunları deyərkən hiss etdi ki, Ramilin fikri artıq onda deyil. Keçmiş döyüşçü yenə də həmin günü xatırlayırdı – sevimli Aytəkinini xilas etmək üçün gizli formada işğal altında olan ərazilərə getməsini...

***

Ay buludların arxasında itərək yer üzünü öz füsunkar gözəlliyinə həsrət qoymuşdu, sanki. Təxminən iki ay bundan əvvəl bu yerlərdə baş verən dəhşətli hadisədən sonra, sanki yerin də, göyün də üzü dönmüşdü insanlardan. Amma bu yerlərin, Xocalı əhalisinin nə günahı var idi başlarına gətirilənlərdə?! Faciənin üstündən həftələr keçməsinə baxmayaraq, torpaq öz övladlarına yas tutmaqda davam edirdi...

Ramil havanın qaralmasını gözləmişdi. İndi artıq gündüzdən bəri beynində tutduğu planı həyata keçirtmək vaxtı idi. Fiziki cəhətdən hazırlığı yaxşı olduğuna görə özündə daxili bir əminlik hissinin getdikcə daha da artdığını hiss edirdi. Nəhayət, bütün silah-sursatını sonuncu dəfə yoxlayıb bəlli istiqamətdə hərəkətə gəldi. Beynində yalnız bir fikir var idi – Qədim kişidən öyrəndiyi yerə gedib sevgilisini xilas etmək. Yalnız bu ən vacib işi olaraq onun düşünən beyninin əsas hissəsini zəbt etmişdi.

Düşmən mövqeyinə yaxın olan erməni postlarını keçmək, sonra içərilərə doğru irəliləmək lazım idi. Beynində isə bircə fikirlə gedirdi. Qədim kişinin dediyini nəzərə alsaydı, Aytəkinin və digər bir neçə nəfər qadının Əsgəran rayonunun milis şöbəsində saxlanıldığını bilirdi. Əgər qurduğu plan üzrə hərəkət etməsində hər hansı problem çıxmasa, deməli, həm Aytəkini, həm də onunla bir yerdə saxlanılan digər girovları xilas edə biləcəkdi.

Düşünmədən irəliləyirdi. Bəlkə də, gün ərzində beyni

yalnız indi gecənin qaranlığı ilə təskinlik taparaq mürgüləməyə çalışır və hərdənbir qəlbindən gələn həyəcanın zərif xışıltısından narahat halda oyanırdı. Sonra yenə də şirin yuxuya dalmağa çalışırdı... Ürəyi isə bayaqkından çox artıq döyünür, çırpınaraq sinəsindən çıxmağa çalışırdı. Ramil getdikcə daha çox həyəcanlandığını hiss etməyə başlayırdı. Getdiyi yolun, sanki səhərə qədər bitməyəcəyindən təşvişə düşən döyüşçü indi artıq aşkar iri addımlarla düşmənin mövqeləri istiqamətində hərəkət edirdi.

Saatı dəqiqləşdirdi. Gecə 3-ü keçirdi. Sürəti bir az da artırıb qaçmağı planlaşdırdı. Adətən gecələr aləmi öz nuruna boyayan ay da bu qəhrəman döyüşçünün igidliyi, qorxmazlığı qarşısında utanaraq buludların arxasına çəkilmişdi. Yəqin ki, sabah sübhdən bu xəbəri yer üzünə çatdırmaq üçün günəşə pıçıldayacaq, gecə şahidlik etdiyi bu qəhrəmanlıq-sevgi dastanının necə baş verdiyini bir-bir gündüzlər sultanına xəbər verəcəkdi. Amma o da gecəsinin qəhrəmanı kimi məğrur idi və əsla Ramilə həsəd aparmırdı. Bu qəhrəman döyüşçünün öz amalına çatması üçün Tanrıya dua da edirdi. Bu, heç bir canlının başa düşə bilməyəcəyi bir dildə olan sözlərdən ibarət idi.

Ramil geriyə baxmadan xeyli irəliləmişdi. Hiss etdi ki, ilk rastlaşa biləcəyi düşmən səngərinə çox az məsafə qalıb. Yerə uzanıb özü ilə götürdüyü sudan içərək nəfəsini dərməli idi. Həmçinin avtomatın qoruyucusunu açıb atışa hazır vəziyyətə gətirdi. İndi onun sakitləşməsi ilə beyni də istirahətini bitirib çalışmağa başlamışdı. Bir daha planını götür-qoy etməyə zaman ayırıb, nəhayət ki, yenidən hərəkətə gəldi.

Ətrafa nəzər saldı. Sakitlik idi. Yəqin ki, yaxınlıqdakı səngərdə olan ermənilər ya yatırdılar, ya da ki, başları nəyəsə qarışmışdı. Hər halda səngərdə birdən çox adam var idisə belə, onlar bir-birinin yanında olmamalı idilər.

Qarşısındakı kiçik təpəni sürünərək ehmalca keçib sağ tərəfdən səngərə yumbalandı. Heç kim gözə dəymirdi. Darısqal qazılan səngərdə əlbəyaxa döyüşün daha effektli olacağını düşünüb avtomatın süngüsünü ayırdı. İndi silahın qundağını qatlayaraq çiynindən asmışdı. Hiss edirdi ki, bədəni tir-tir əsir. Maraqlısı bu idi ki, bunun səbəbini qorxduğu ilə izah etmək istəmirdi. Əslində isə darısqal qazılan erməni səngərində təxminən topuğa qədər olan palçıq və kiçik su yığınları Ramilin üşütməsinə daha çox səbəb olmuşdu.  Öz səngərlərində əsgərlərin bəyənmədiyi vəziyyət bundan qat-qat yaxşı idi.

İndi yerə əyilərək daha asta şəkildə səngəri burularaq sol cinaha dönmək istəyirdi ki, birdən dayandı. Deyəsən, kimsə gəlirdi. Amma onu dayandıran əsas səbəb burnuna gələn filtirsiz siqaretin xarakterik qoxusu oldu. Səngərdə olan erməni əsgəri elə indicə siqaret yandırmışdı. O yanılmamışdı. Səngərdəki ermənininin damağına bərk-bərk basdığı siqaretin kölgəsi gecənin qaranlığında səngərin rütubətli divarlarına güc-bəla ilə yerləşirdi. Ramil bir anlıq Tanrısına təşəkkür etdi. Təbii ki, bunun səbəbi ayın lazımi vaxtda yenidən peyda olması idi. Əgər bir az əvvəl o, buludların arxasında gizlənərək Ramili görünməz etmişdisə, indi səngərdəki ermənini öz şüaları ilə işıqlandıraraq onu hədəfə çevirmişdi. Ramil çox vaxt itirmədi. Ermənininin duyuq düşdüyünü hiss edib əlindəki süngünü qüvvətli zərbə ilə onun boyun hissəsinə sapladı. Erməni əsgəri əvvəlcə iki əli ilə boynundan tutdu, sonra isə xırıldayaraq yerə yıxıldı. Elə bu an səngərin sol cinahından kimsə yumbalanaraq içəri düşdü. Gəlişi ilə əlindəki fənərin işığı səngər boyu yayıldı. İçəridəki erməni əsgəri dostunun orada olmadığını görüb təşvişlə geriyə qaçdı. Nə isə baş verdiyini hiss etmişdi. Amma Ramilin səsboğucu ilə təchiz olunmuş tapançasından açılan atəş

onu səngərin içindəcə yerə sərdi. Güllə ermənininin başından dəymişdi. İndi artıq Ramilin səngərdən çıxıb növbəti mövqeyə doğru irəliləməsi üçün heç bir problem yox idi. Yaxınlaşıb bir az əvvəl yerə sərdiyi erməniyə çəkməsinin arxası ilə güclü təpik zərbəsi endirdi. O, çoxdan cəhənnəmlik olmuşdu. Ermənininin üzündə təbəssüm və narahatçılığın qarışığından yaranan qəribə ifadə ani olaraq diqqəti çəkdi. Əlində ağzı yarıya qədər kəsilib-cırılmış konservləşdirilmiş donuz piyi bankası var idi. Bunu indicə öldürdüyü ermənidən gələn pis qoxudan da hiss etmək olurdu. Deyəsən, yediyinin yarısını səngərdəki digər erməni əsgərinə gətirdiyinə görə sevincək olmuşdu. Ramil tələsik onun əsas hərbi geyimini soyundurub öz əyninə keçirtdi. Nə qədər dözülməz idisə də, o, bunu etməyə məcbur idi. Öldürdüyü iki erməni əsgərini səngərin qaranlıq küncünə çəkərək oradan çıxdı.

İndi bayaqkından daha diqqətlə bir az da irəliyə getmək lazım idi. Əsas məntəqəyə isə çox qalmırdı. Qarşıdakı səngərlərin sayı ya bir, ya iki olmalı idi. Bundan sonra isə əsas post gəlirdi. Buranı keçdikdən sonra Əsgəranın milis şöbəsinə tanıdığı kəsə yolla gedə bilərdi. Amma əvvəlcə həmin yolun təhlükəsizliyini də yoxlamaq lazım idi.

Qarşıda ay işığının pis düşdüyü yerdə iki ermənininin olduğunu sezdi. Bir az da yerə sıxılıb sakitcə irəliləməyə başladı. Sanki özü də hiss etmədən qarış-qarış sürünərək artıq həmin əraziyə xeyli yaxınlaşmışdı. Həmin ermənilərdən alçaq boylu biri səngərə yaxınlaşıb kimisə çağırdı. Bu çağırışdan sonra çox keçmədi ki, üçüncü erməni də əlində yarımçıq butulka səngərdən çıxdı. Yəqin ki, içindəki araq idi. Ramil onların başlarının qarışıq olmasından istifadə edərək daha da yaxınlaşdı. Əlindəki arağı bir nəfəsə başına çəkən erməni yanındakılara nə isə deyərək Ramilin mövqeyi tərəfi işarə etdi. Sonra avtomatını şaqqıldada-

raq ehtiyatlı addımlarla ona tərəf gəlməyə başladı. Ramil vəziyyəti başa düşmüşdü. Bildi ki, bu erməni bayaq səngərə donuz piyi gətirən ermənininin dalınca gedir. Amma Ramilin mövqeyi o qədər də ehtiyatlı deyildi. Əgər ona tərəf gələn erməni təsadüfən nə isə hiss etsəydi digər ermənilər də asanlıqla atəş aça bilərdilər. Odur ki, bu ermənininin getməsinə mane olmaq lazım deyildi. Fikirləşdi ki, o, səngərə gedənə kimi bu ikisini öldürsə, sonra onun dalınca qayıda bilər. Qeyri-ixtiyari bu qərarı qəbul etməli oldu. Deyəsən, istəyinə nail ola bilmişdi. Dostunun dalınca gedən ermənininin ayaq səsləri tam kəsildi. "Yəqin ki, indi səngərdə itlərini axtarır" deyə düşünüb, tapança ilə bir-birinin ardınca dörd-beş atəş etdi. Vaxt itirmək olmazdı. İrəli şığıyıb hər iki erməni sürüyərək səngərə saldı. Öldüklərinə əmin olub yenidən arxa mövqeyə tərəf qayıtmalıydı. Amma mümkün olmadı. Bəlkə, özü də hiss etmədən ləngimiş, ya da ki vaxt sürətlə keçmişdi. Hər halda arxa mövqedən onun gizləndiyi səngərə tərəf qaçan təşvişli ermənininin gəlişi bunları deyirdi. Həmin sərxoş erməni qorxusundan özünü səngərə necə saldısa, elə bil bayaqdan Ramilin qucağına düşməyə tələsirmiş. Ramil cəld hərəkətlə onun başına yumruq endirib tərk-silah etdi. Qışqırmağa macal verməyib sol əli ilə ağzını tutdu. Sonra nə düşündüsə, sol əlini tapança ilə əvəz etməli oldu. İndi onun əlindəki tapançanın səsboğucu bağlanmış hissəsindən daha çoxu ermənininin ağzında idi. Bu an hər ikisinin düşündüyü ayrı, amma son dərəcə konkret olan bir məsələ var idi: Ramil Əsgəran milis şöbəsinə hansı yolla daha tez, erməni isə gecənin qaranlığında düşdüyü bu bəladan necə çıxmağın yolunu düşünürdü.

– Qabaqda neçə səngər var? – Ramil sol əli onun qırtlağından yapışdı.

Erməni isə düşdüyü vəziyyətdə yalnız xırıldamaqla və başını birtəhər hərəkət etdirməklə cavab verməyə çalışırdı.

– Deyirsən, yoxdur?!

Ramilin bu sualına o, başının və az qala bütün bədəninin təsdiqə uyğun sallanması ilə cavab verdi.

– Postda neçə nəfər keşik çəkir?

Erməni bu dəfə barmaqları ilə göstərməyə çalışdı. Dörd nəfər olduğunu başa salmağa çalışırdı. Ramil anladı ki, tutduğu erməni canının qorxusundan yalan demir. Öyrənmək istədiyini öyrənmişdi. Gözləməyin mənası yox idi. Tapançanı onun ağzından çıxarıb var gücü ilə boynunu burdu. Ətürpədici xırçıltı səsindən sonra erməninin cansız bədəni üzüqoylu halda səngərin içindəki palçığa girdi.

... Posta yenicə yaxınlaşmışdı ki, içəridən iki əsgər çıxıb yaxınlıqdakı "UAZ" markalı maşına minərək oradan uzaqlaşdılar. Amma çox keçmədi ki, yenidən qayıtdılar. Ramil diqqətlə baxanda başa düşdü ki, bunlar bayaqkı əsgərlər deyil. Deməli, bayaq növbə dəyişilirmiş. Yeni gələnlər içəri keçəndən sonra onlardan biri çıxıb çöldə keşik çəkənlərdən birini çağırdı. Hücuma keçmək vaxtı idi. Ramil bunu tələsik düşünüb mövqeyini möhkəmlədərək növbəti dəfə tapança ilə atəş etməli oldu. Postun lap yaxınlığında dayanmış əsgər yerə sərildi. Deyəsən, hələ ölməmişdi. Ramil irəli yeriyərək onun ayaqlarından tutaraq binanın arxa tərəfinə çəkdi. Avtomatın qundağı ilə başından aldığı növbəti ağır zərbədən sonra yaralı erməninin zarıltısı tamam kəsildi. Bunun ardınca avtomatik atəş səsləri eşidildi. Ramil idi. Məqsədinə nail ola bilmişdi. İçəridə olan daha üç erməni Ramilin etdiyi atəşlərdən sonra dəlmə-deşik olub yerə uzanmışdılar. Tələsik

bir az əvvəl ermənilərin gəldiyi “UAZ”-ı işə salıb oradan uzaqlaşdı.

... Hədəfə çatmağına çox az qalırdı. Sürəti artırıb düz Əsgəran milis şöbəsinin qarşısında saxlayanda maşının gəldiyini görən erməni əsgəri ona yaxınlaşdı. Erməni dilində nə isə soruşmuşdu ki, sinəsinə saplanan avtomat süngüsündən sonra tirtap yerə sərildi. Hələ ki, görən yox idi. Ramil avtomatı növbəti dəfə hazır vəziyyətə gətirdi. Bu dəfə açıq döyüşə keçmişdi. Bəlkə də, indi psixi vəziyyəti də yaxşı deyildi. Onun qorxusuz hərəkətləri də bunu söyləyirdi. Öldürdüyü ermənini maşının içərisinə tullayıb binanın girişinə tərəf qaçdı. Bu an qarşı tərəfdən “Niva” markalı maşının faralarından düşən gözqamaşdırıcı işıq şüalarını görüb səksəndi. Ermənilər postdakı rabitənin cavab verilmədiyindən şübhəyə düşüb oraya gedirdilər. “Niva” markalı maşının ardınca daha bir maşın gəlirdi. Ramil tələsik binaya qalxmaq istəyirdi ki, yuxarıdan ona yönələn atəş səsləri eşidildi. Çiynindən yaralandı. Bu ağrının şiddəti binanın ikinci mərtəbəsindən gələn qışqırıq səsləri ilə qarışıb daha dözülməz hala gəlirdi. Ürəyinə dammışdı ki, Aytəkin buradadır. Onları və buradakı digər əsirləri döyürlər. Bunu bir neçə gün əvvəl Qədim kişi də danışmışdı. Deyirdi ki, gecələr bir qrup erməni əsgəri gəlib əsirləri ölənə qədər çırpıb gedirlər. İndi bu səsləri eşidən Ramilin əsəbləri daha da tarıma çəkildi. Yuxarıya doğru atəş edərək pilləkənləri qalxmağa başladı. İndi canında heç bir qorxu hissi yox idi. Öləcəkdisə, sevgilisini görüb onun yanında ölmək, onunla bir yerdə ölmək istəyirdi. Bunu seçmişdi və onu arxadan haqlamış ermənilərin gəlişinə də məhəl qoymaq istəmirdi. Bu dəqiqə yuxarıdan gələn qarışıq qışqırıq səslərinin arasından, sanki Aytəkininin səsini ayırd etməyə çalışır, uşaq kimi kövrəlirdi də. Sonuncu üç-dörd atəşdən sonra yuxarıdakı

ermənini öldürə bildi. Amma indi daha bir neçə silahlı yuxarıdan atəş etməyə başlamışdı.

– At silahı yerə! – arxa tərəfdən səs eşidildi.

Ramil itirdiyi qanın təsirindən həmişəkindən daha asta hərəkətlə arxaya qıvrıldı. Sağ əli ilə möhkəm tutduğu avtomatın güllələrinin bitdiyinə görə, sol əli tapançasını çıxarıb atəş etməyə cəhd göstərdi... Atəş səsləri eşidildi. Və yalnız bundan sonra nə baş verdiyini bütün ağırlığı ilə yerə çırpılan bədəninin dəhşətli ağrısından hiss etdi. Arxadakı ermənini yaralaya bilmişdisə də, yuxarıdan edilən növbəti atəş onu sağ qolundan yaralamışdı. Bütün gücünün tükəndiyini, məğlub olduğunu yalnız indi hiss etdi. Başına dəyən təpik zərbəsindən sonra kimsə onu sürüyüb həyətə çıxartdı. Getdikcə huşunu itirirdi. Qulaqlarında küy dolu səslər eşitməyə başlayırdı...

– Aaalbert, bunuuu indi öldürəəəkk?!

Sonra isə Albert Vaskanyan adlı həmin adamın qəhqəhələrini eşidirdi:

– Ara, buradakı türk gözəllərinin hamısını bina ilə birlikdə yandırın. Yaxşı kabab olsunlar. Bu türk köpək oğlu da acdır, sabah türk kababı yedizdirib göndərərik cəhənnəmə... Ha, ha, haa!

... Ramil həmin gün – əsir düşəndən, iki gün əsirlikdə qalandan sonra da bilmədi ki, Aytəkinin və Əsgəran milis şöbəsində saxlanılan digər girovların başlarına nə oyun gətirildi. Bircə ona gözləri ilə şahid oldu ki, çox çətinliklə əsirlikdən qaçıb Azərbaycana qayıtmadan gecə ilə həmin binanı görməyə gedəndə, doğrudan da, oranın yandırıldığının şahidi oldu... Və Aytəkinin şəhid olmasına, istəməsə də, inanmağa çalışdı... Amma bilmədi ki, onun öldü bildiyi sevgilisi, iki gündən sonra Ramilə min cür işgəncə verməyə çalışan Albert Vaskanyan adlı bu erməninin əsirinə, hər gün zorlayıb işgəncə verdiyi lazımsız bir

qadına çevriləcək... Həm də iki gün yox, aylarca, illərcə... Yaxşı ki, bilmədi...

## 42. Ya Gülcahan, ya vətən

Bu evdə mən artıq Monikin fahişələrindən biri idim. Hər gün bu dəftəri gizlin-gizlin yazdıqca allaha yalvarışım o idi ki, qısıla-qısıla yazdığım bu dəftər məni anlaya biləcək bir insanın əlinə düşsün. Bu dəftəri də mənə otelin qapıçısı Vasya dayı vermişdi. Onunla söhbət etməyə imkanımız olmasa da, bir dəfə onun rusca danışdığını hiss etmişdim. Onun üçün ürəklənib ondan kiçik bir boş dəftər istəmişdim. O, bunun təhlükəli bir şey olduğunu desə də, mənim üçün hazırladığı otağa qoymuşdu. Gördüyüm zaman, elə bil dünyanı mənə vermişdilər. Elə əlimə aldığım gün də yazmağa başlamışdım. Bu dəftəri yazmağa başlayanda artıq işini bilən fahişələr kimi Monikin iyrənc müştərilərinə qulluq edirdim. Çox qəribədir ki, Fabianın məni Vaskanyana təhvil verməsinə heç hirslənməmişdim. Ona acığım da tutmamışdı. Bura gəldiyimdən onu bir neçə dəfə görsəm də, onun etdiyi hərəkətə görə töhmətləməmiş, üzünə də vurmamışdım. O da bu haqda heç nə deməmişdi. Sadəcə kefimi soruşub, sağ-salamat olduğum haqda məlumat tutandan sonra getmişdi. Amma Monikin mənimlə olan münasibəti onun məni tapşırdığını göstərirdi. Ondan bunu gözləmirdim də. Axı adam uman yerdən küsər. Mən isə Fabiandan heç nə ummamışdım. Heç onunla yaşadığım xoş günlərə görə heyfsilənmirdim də. Bu, çox qəribə hiss idi. Sözsüz ki, bu günü özüm qazanmışdım. Ona mən özüm xəyanət etmişdim, elə buna görə də təəssüflənmirdim. Bir də ona görə təəssüflənmirdim ki, Fabianın hər dəfə məni yatağa uzatması, mənimlə olan

intim münasibəti, sığalları, mənə təsəvvür etmədiyim duyğuları yaşatması, içimdən göylərə ləzzəti oxşaya-oxşaya qaldırması, sonra da bu ləzzətlə baş-başa buraxması zamanı daxilən için-için ağlamağımdan qurtulmuşdum. Bu ləzzəti bir daha yaşamaq istəyimin olmasına baxmayaraq, baş tutmayacağını dərk etdiyim üçün ondan ayrılmağıma təəssüflənməmişdim. Ona olan bu münasibətim sevgi deyil, buna əminəm, sadəcə onun məni qadın kimi qiymətləndirməsi, tələbatımı ödəməsi onu mənə xatırladırdı. Həmişə qadın və kişi olmasından asılı olmayaraq, insanları belə bir fikir düşündürür: görəsən, sevmədiyin bir insanla cinsi əlaqədə olarkən zövq ala bilərsənmi? Düzdü, kişilər deyər ki, bəli, gözəl qadın olsa, niyə də olmasın. Amma, məncə, qadınlar heç vaxt belə cavab verməzlər (hətta belə düşünsələr də). Onlar üçün yalnız xoşlayıb sevdikləri kişilər onlara yataqda zövq verə bilər. Amma mən Fabianı sevməməyimə baxmayaraq, həmişə zövq alırdım. Dəfələrlə olmuşdur ki, Fabianın yaratdığı romantik gecələrdə gözlərimi qeyri-ixtiyari yumub ruhuma hakim olmuş bu kişinin Ramil olduğunu təsəvvür etməyə çalışmışdım, amma həzzin son anlarına çatdıqda Ramilin xəyalı gözlərimin önündən gedir, yox olurdu. Son anlarda bunun Fabian olduğunu dərk edir, o hissləri onunla yaşayırdım.

Bütün bunlar isə mənim əqidəmdə tərəddüdlər yaradır, Ramili sevmirəmmi? Fabianı sevirəmmi? Suallarına cavab axtarmağa vadar edirdi. Çünki bəzən insanlar istəmədiyi bir işi görür, bunun qarşısını özünün yox, başqalarının almasını gözləyir. Bu isə əlbəttə ki, iradəsizlik idi. Elə mən də iradəsiz idim. Çünki bu evə gətirilməyim məni yaşadığım ağrılı zövqdən qurtardı. Mən indi könüllü olaraq yox, zorla kişilərin yatağına salınıram. Bunda da günahı özümdə yox, zəmanədə, allahda,

xalqımda axtarıram. Beləliklə, mənən sakitləşir, vicdan əzabı çəkmirdim.

Monikin məndən fahişə kimi istifadə etməsini, başıma gətirilənlərin fahişə üçün də təhqir olduğunu qəbul etdiyimə görə geniş yazmaq istəmirəm. Bir onu bilirəm ki, bu dünyada ermənidən şərəfsiz bir millət yoxdur, olmayacaq da...

Bu cümləmi yazmışdım ki, Monik məni səslədi. Çıxdığım vaxt Vaskanyanın gəldiyini gördüm. Hamının otaqdan çıxmasını istədi. Sonra da birinci və axırıncı dəfə olaraq mehribancasına: – Aytəkin, sən bu dəfə də qurtuldun. Sənin allahın, deyəsən, səni çox sevir, – deyib hiyləgər gözləri ilə alçaqcasına gülümsündü. Gülümsəməyindən fərqli olaraq, səs tonu və sözləri ona xas deyildi. Heç üzbəüz oturduğumuz stulda əlimdən mərhəmətli şəkildə tutmaq istəməsi də. Bunun gözlənilməz bir səbəbi olduğunu başa düşsəm də, hansı səbəb olduğunu qətiləşdirə bilmirdim. Amma ona məğrurcasına baxdım. Nə sevindim, nə də özümü sevinmiş kimi göstərdim. Bu, ona və ermənilərə olan nifrətimdən irəli gəlirdi. Onun niyyətini biləndən sonra bu hərəkətimə görə özümə təşəkkür də etmişdim. Bir anlıq özümü Babəklə də müqayisə etmişdim. Babək son qanını ona görə üzünə sürtmüşdü ki, rənginin qaçdığını düşmən hiss etməsin.

– Hə, nə deyirsən, bütün bu işgəncələrə son qoymağımı, səni də, bacını da vətəninə qaytarmağımı istəyirsənmi?

– Necə olacaq bu? – deyə soyuqqanlıqla soruşsam da, çox maraqlı gəldi nə cavab verəcəyi.

– Mənim dediyim kiçik bir işi görsən, əvvəlcə səni, sonra da Gülcahanı Azərbaycana göndərəcəyəm.

– Nədir o “kiçik” iş?

– Sən ora gedəndən sonra Ramillə münasibətlərini in-

kişaf etdirəcək, onun yenidən sevgilisinə çevriləcəksən. Çünki Ramil hələ də səni sevir, hətta qızının adını Aytəkin qoyub. Sonra da mənim əmrimi yerinə yetirib Ramildən bir şey xahiş edəcəksən. Həmin xahişi də sən razılıq verəndən sonra sənə orda olanda deyəcəklər.

– Ramilin yaşadığını hardan bilirsən? O, nə işin sahibidir? Bütün bunları necə öyrəndin?

– Ha, ha, ha... Mənim də əl-ayağım sənin kimi bağlı deyil ki. Kəşfiyyatım araşdırıb. Sənin o sevgilin bilirsən kimdir? Hazırda Azərbaycanda Təhlükəsizlik Nazirliyinin ən vacib adamlarından biridir.

– Mənim Ramildən istədiyimi özü biləcək ki, sənin tapşırığındır?

– Nə boş-boş danışırsan? Ramil bunu bilsə, səni parçalar, öldürər. Sənin bizimlə bu işə razılaşmanı səndən başqa heç kim bilməyəcək. Sadəcə işi bitirəndən sonra Gülcahanı göndərəcəyik.

– Sən deyirsən ki, mən sizin casusunuz olum?

– Buna casus demə. Həyatını xilas etmək üçün verilən şans de.

– İndi sən deyirsən ki, bu qədər əzab-əziyyətdən sonra, əxlaqsız, şərəfsiz olmağıma baxmayaraq, bir də satqın adını daşıyım?

– Yox, qal burda, qəhbəlik et! Deyəsən, xoşun gəlir ha!

Bu sözləri dedikcə gözləri hədəqəsindən çıxırdı. Ayağa qalxdı, mənim də bu zaman ayağa qalxmaq istəyimi başa düşərək, elə bir şillə vurdu ki, stul qarışıq yerə yıxıldım. Təpiyini sinəmə qoyaraq:

– Sənə bir gün vaxt verirəm, – dedi, – əgər getməyə razılaşmasan, Gülcahanı öldürəcəyəm, indi sən düşün, ya Gülcahan, ya da vətən!

***

Vaskanyanın Ramil haqqında danışması məni kövrəltmişdi. Onu bircə dəfə görməyə hər şeyi dəyişərdim. Bu da fürsət, – deyib, – yollar axtarırdım. Onun danışıqlarından Gülcahanın yaşamasını, Ramilin uğurlarını eşitdiyim zaman sevinsəm də, bunu yaşamağa Vaskanyan imkan vermədi. "Ya Gülcahan, ya da Vətən" sözləri qulağımda səslənirdi. Ürəyim isə deyirdi: "Yazıq vətən, gör sən nə günə qalmısan ki, mənim kimi ləkələnmiş bir qıza şans verirlər, səninlə namus və ləyaqəti tapdalanmış bir qızı tərəzinin bir gözünə qoymaq istəyirlər".

Ya vətən, ya Gülcahan! Doğulduğun, böyüdüyün, suyundan içdiyin, istisinə qızındığın, küləyinə büründüyün, insanlarını tanıdığın, doğmalaşdığın, qardaşlaşdığın mücərrəd bir  məkan... Bir tərəfdə də həmin vətənin bir parçası, onunla qidalanan canlı bir varlıq. Hansını qəbul etməliyəm ki, mənən rahatlıq tapım, atdığım addıma görə peşman olmayım? Əslində indiyə qədər özümü "Gülcahana görə yaşamalıyam" fikri ilə aldatmışam. İndi niyə tərəddüd edirəm? İndi ki, əlimə Gülcahanı azad etmək şansı yaranıb, bunu əldən vermək olardımı?

Əgər Ramil belə güclüdürsə, mənim bu illərdən sonra ora niyə qaytarıldığımı bilməzmi? Bilərsə, nə edər? Bəlkə, mən ora çatan kimi bütün bu olanları Ramilə danışsam, o bir çarə tapar? O zaman isə Gülcahanın birbaşa ölüm fərmanını illərdir onun yaşamasına ümid edən, düşüncəsinə görə onu yaşadan bacısı imzalamış olmayacaqmı?

Bəlkə də, Ramil məni hələ də unutmayıb, necə ki, son məktubunda yazmışdı: "Həsrət çəkirsənsə, deməli sevirsən, sevirsənsə, həsrət də şirin olur. Bu həsrət acı olsa da, səni bir gün görəcəyimi düşündükcə şirinləşir. Səni, gözləyəcəyəm, Aytəkin.... Həmişə gözləyəcəyəm, ruhuma

gəldiyin kimi, əllərimə də gəlişini gözləyəcəyəm. Bu gözləyiş günlər, aylar, illər hesabına olsa belə....

*Ayrılıq qəlbimə düşmən olsa da,*
*Həsrətim vüsalla dost olub indi.*
*Vüsalın həsrəti məni yorsa da,*
*Xəyalım busəylə məst olub indi".*

Bu məktuba xəyanət etmək olmazdı. Ramilin qəlbində olan Aytəkin ölə bilməzdi... Aytəkin ölsə də, Ramilin ümidlərinin ölümünə razı ola bilmərəm.

Bəs Gülcahan?.. Bəs?.. Yox bacarmaram. Mən Gülcahana qıya bilmərəm. Onun xilası üçün əlimdən gələni edəcəyimə söz vermişəm axı. Gülcahan Vətən demək deyilmi? O, vətənin bir parçası deyilmi? Axı o məsum qız, bəlkə də, hələ məndən imdad gözləyir.

Vətən, Ramil, Gülcahan... Bu əsl məhəbbət üçbucağına bənzəyir. Vətəni sevsəm, Gülcahandan vaz keçmiş oluram, Gülcahanı sevmiş olsam Ramildən, Ramili sevsəm, Vətəndən və Gülcahandan vaz keçməliyəm. Onlara olan sevgini ölçmək üçünsə, meyar yoxdur... Amma məncə, Ramilə olan sevgi hamısından üstündür. Çünki orda Vətən də var, Gülcahan da...

O qədər işgəncə, əzab görmüşəm ki, başıma nə gələcəyini heç düşünmürəm də. Amma mən nə qərar verəcəyimi müəyyənləşdirə bilmirəm. Nə özüm, nə də ruhum bu işdə yardımçı ola bilir mənə. Əslində, yaşadığım bu illər nə qərar verməyim üçün ən böyük yardımçı idi...

Sabah məni nə gözləyir, bilmirəm. Bəlkə də, səhərə qədər bir qərar vermiş olaram. Bu dəm qapının arxasında Monikin "hazırlaş, bəlkə də, son xidmətindir" deməsi fikirlərimi dağıtdı. Çünki məni oteldə iyrənc bir müştəri gözləyirdi... Və bu anda da qərara gəldim ki, oteldən

imkan tapan kimi qaçım. Onun üçün də son günlər mənim sirdaşım olmuş bu dəftəri qoynuma qoydum. Bir də özümlə Ramilin məktubunu götürdüm. Bu dəftərin ardını yaza biləcəyimə ümid etməsəm də, ümidimin işığı arxasınca yenə gedirəm. Yəqin ki, bunlar girov qadının son cümlələri olacaq...

## 43. Gözlənilməz görüş?!

– Xəbərin var, müəllim yoxdur, deyəsən, dərsimiz boş keçəcək! – auditoriyanın yanında dayanıb açıq qapıya söykənən qız sevincək dilləndi.

– Çox sevinmə, indi Əliş kimisə tapıb göndərər, – həmin qızın tələbə yoldaşı olan digər qız əda ilə dilləndi.

– Ay qız, bəsdir görək, nəhs gətirmə! Hava da pis deyil, bu fürsəti oğlanlara eşitdirsək, o saat şəhərə gəzməyə çıxmağı düzüb-qoşarlar. Nə deyirsən?

– Bəlkə, Laləyə deyək, nə də olmasa Əlişlə arası yaxşıdır. Həm də bu, onlara da sərf edən variantdır. Qız bunu deyər-deməz hər ikisi gülüşdülər. Yəqin ki, söhbətin nədən getdiyini fakültədə bu qızlardan başqa daha çoxları bilirdi. Nə də olmasa, belə şeylər çılğın, söz-söhbətə böyük maraq göstərən və başqalarının işinə müdaxilə etməyi özünə borc bilən universitetin tələbə gəncləri arasında dəb halını almışdı. Başqalarının işi də iş ola!..

Məsələ burasında idi ki, Əli Rasimov fakültədə kafedraların birinə təxminən bir il əvvəl müdir təyin edilmişdi. Orta yaşlarını beş-altı il əvvəl geridə qoymuş bu adam savadlı olsa da, universitetin cavan qız tələbə və müəllimələrinə qarşı sözün yaxşı olmayan mənasında "biganə" qala bilmirdi. Bax bu, onun əsas cəhəti idi. Lalə ilə də keçən ildən arası yaxşı idi. Bu il isə qız ikinci kursa keçmiş, Əli

müəllim isə onun üçün yeni olan vəzifəsinə alışmışdı. Necə deyərlər, əlində hər cür imkan var idi. Qız da, Əli müəllim də hallarından məmnun idilər. Maraqlısı bu idi ki, yaraşığı və gözəlliyi ilə oğlanların canını yaxan Lalə kafedra müdirinin qızı yerində olsa da, münasibətlərinə pis baxmırdı. Bu tədris ilinin əvvəlindən Əli müəllimin bircə xahişi ilə Lalənin qrup nümayəndəsi təyin olunması qızın gələcək xəyallarına getdikcə daha sıx bağlanmasına səbəb olmuşdu. Hər gün tələbə yoldaşlarından ayrılıb guya evə tələsmək bəhanəsi, əslində isə xəlvət yerdə Əli müəllimin yeni aldığı bahalı maşınına oturaraq getməsi artıq heç kim üçün sirr qalmamışdı. Elə Lalə özü də ta əvvəlki kimi hər şeyi gizlətməyi rəva bilməyib qızlar arasında "Əliş" sözünü dilinin əzbərinə çevirirdi.

– Bax, Lalə gəlir, – bayaqdan bəri plan qurmağa çalışan qız dilləndi.

– Hə, yəqin sən deyəndi, Ramil müəllim olmadığı üçün bizi dərsdən azad edəcəklər.

– Qızlar, keçin içəriyə, Sabir müəllim bu gün dərsi əvəz edəcək, – Lalə onlara çatar-çatmaz xəbər verdi.

– Sən gec gəlincə, biz düşündük ki, hər şeyi yoluna qoyubsan. Eh, sən də gedib "Samalyotla" gəldin! – qapıya söykənən qız dodaqlarını büzüb mızıldandı.

– Yavaş, Sabir müəllim gəlir, eşidəcək indi! Keçin içəri, keçin! – Lalə tənbehedici şəkildə dilləndi.

– Ay qız, sən onun gününə bax, səncə onun məni bu məsafədən eşidəcək halı var?! Bir də ki, sənin nə vecinə, gedib Əlişinlə işini görüb rahatladın, indi də bizi dərsə salırsan! – qız acı dilini işə salıb yüksək tonla dilləndi. Sonra isə qrup nümayəndəsinin nə cavab verəcəyini dinləmədən auditoriyaya girdi. Lalə də onun ardınca içəri girmək istəyirdi ki, ona ünvanlanan sualı eşidib geri dönməli oldu.

– Xanım qız, müəlliminiz kimdir?

– Adım Lalədir! Nə üçün soruşdunuz?

– Mən Ramil müəllimi görmək istəyirdim, – qızı yolundan edən adam fikrini konkretləşdirdi. Lalə bir anlıq duruxub özlüyündə bir az əvvəl səhv edib, etmədiyini dəqiqləşdirməyə çalışdı. Deyəsən, qız bu adamı universitet tələbəsi bilib adi şıltaqlığından qalmamışdı. İndi həmin adam Ramil müəllimi soruşanda çaşıb qaldı. Bu, yəqin ki, utandığından irəli gəldi. Lalə kimi qızlara utanmaq anlayışı nə qədər yad olsa da, qız bunu elə indicə yanaqlarında hiss etdi. Həm Ramil müəllimin ciddi xarakterli insan olması, universitetdə hamının ona hörmət etməsi, həm də tanımadığı bu adamın sərt baxışları belə demək olardısa, qızı utanmağa məcbur etdi. Özünü ələ alıb zarafata salmağa çalışdı:

– Ramil müəllim bu gün olmayacaq, onun dərsini Sabir müəllim əvəz edəcək. Baxın, gəlir! – Lalə bunu deyib qımışdı. Çünki yaşı yetmişi çoxdan adlayan Sabir müəllimin gəlişinə gəlmək demək olmazdı. Kişi bayaqdan bəri beş-altı metr yolu ancaq gəlmişdi, ya gəlməmişdi.

– Yaxşı, sağ olun! – gələn adam təşəkkürünü bildirib uzaqlaşdı.

– Siz də... – Lalə özündən ixtiyarsız fikrini yarımçıq qoydu. Həmin adam qızın nə deyəcəyini gözləməyib tez uzaqlaşmışdı. İndi qız ciddi görünüşlü həmin adamın ardınca maraqla baxıb gözləri ilə onu yola salırdı. Nəhayət, adam koridorun sonuna çatıb sağa – pilləkənlərə tərəf burulub gözdən itdi. “Görəsən, kim idi?!” Lalə bunu düşünüb, bir anlıq tərəddüdlə onun arxasınca getmək istədi. Amma niyəsini bilmədi. Bəlkə, həmin adam ilk baxışdan Lalənin xoşuna gəlmişdi. Axı bu adam Əlişdən daha cavan, daha qamətli idi. Həm də imkanlı adama oxşayırdı. Kaş onu söhbətə tutaydım... Bəlkə, özümü təqdim et-

məyəydim... Eh, ona kobud cavab verdim...

– Qızım, keç içəri – nəhayət ki, qapının ağzına çatan Sabir müəllimin həmişəki nəvazişli səsi eşidildi. Lalə onun səsini eşidəndə, sanki dik atıldı. Özünə gəlməyə çalışıb, müəllimin ardınca içəri girdi.

***

– Sabir müəllim, icazə olar çıxım, özümü pis hiss edirəm? – dərsə beş dəqiqə deyil idi ki, başlamışdılar ayağa qalxan Lalənin təlaşlı səsi eşidildi. Sabir müəllim adəti üzrə başı ilə razılığını bildirən kimi Lalə tələsik qapıya tərəf getdi. Qızlardan hansısa astaca söz atdı:

– Biz bilirik özünü niyə pis hiss edir. Ay “Samalyot”, gör necə aldandın! Eh!..

Lalə isə geri dönüb həmin qıza tərs baxışla nəzər salıb cəld otaqdan çıxdı. Onun baxışlarında “bilmədiyini danışma” sözləri oxunurdu. Deyəsən, qız çıxarkən narazılıqla başını yelləyəndə də bunu demək istədi. Beynində isə bir fikir var idi – necə olur-olsun universitetin həyətinə düşüb bayaqkı adamı tapmaq istəyirdi. “Yəqin ki, çox uzaqlaşmaz...” – deyə özünə təskinlik verərək tələsik pillələnləri düşməyə başladı... Amma xəbəri yox idi ki, ona naməlum adam hansısa görüşə tələsdiyi üçün universitetin həyətinə düşər-düşməz gəldiyi maşın ilə oradan xeyli uzaqlaşmışdı...

***

– Qurbanov, mən Ramil müəllimi universitetdə görə bilmədim. Tələbə qızlar dedi ki, bu gün dərsinə gəlməyəcək. Sən öyrən görək indi haradadır bu adam. Bir az cəld ol, gözləyən var, tələsirəm.

– Oldu, cənab mayor. Bu dəqiqə xəbər bildirərəm – telefonun o biri tərəfindən Tahirin arxayınlaşdırıcı səsi eşi-

dildi.

Qüdrətov saata baxıb gecikdiyini görüncə Qədim kişiyə zəng etmək istədi. Yəqin ki, birinci dəfə idi ki, onu gözlədəcəkdi. Maşının sürətini bir az da artırıb sol zolağa keçdi. İndi idarə etdiyi "BMW" markalı maşın getdikcə güclənməyə başlayan paytaxt küləyini yararaq, sanki hərəkət edən hər nə varsa, hamısı ilə yarışa girmişdi. Qədim kişinin nömrəsini yığmaq istəyirdi ki, Tahirin cavab zəngi gəldi:

– Mən öz adamımdan soruşdum, Ramil indi Qədim kişinin evindədir. Həyətdə oturub söhbət edirlər, – leytenant Qurbanov tələsik məlumat verdi.

– Necə?! Bu lap yerinə düşdü! – Qüdrətov gözlənilməz görüşün onun xeyrinə olduğunu görüb razılığını bildirdi.

– Tahir, mən tələsirəm, sonra danışarıq. Hə, yenə də yadımdan çıxacaqdı, Həsrətin yanına getmişdin?

– Bəli, yoldaş mayor. Həkim dedi ki, müalicəsi yaxşı davam edir. Özü də sözə baxır.

– Lap yaxşı, ona ciddi nəzarət elətdir. Yeganə əsaslı dəlilimiz odur. O oğlan bizim iş üçün çox vacib adamdır!.. – Qüdrətov üstüörtülü şəkildə bildirdi.

– Oldu! – Tahir də bunu başa düşüb marağını gizlətməyə çalışdı.

***

Qədim kişinin evinə çatmağa az qalırdı. Qüdrətov hələ də vəziyyəti tam dəyərləndirə bilmədiyinə görə qəribə narahatlıq keçirməyə başladı. Bir neçə dəqiqə əvvəl Qurbanova verdiyi tapşırıqdan sonra dediyi sözləri xatırladı: "... çox vacib adamdır". Bəlkə, apardığı əməliyyatın bütün incə sirrlərini köməkçisi və dostu olan Tahirə demək vaxtı idi. Əgər, həqiqətən də, bu məsələlərin sonu rəisi Əzimova izah etdiyi kimi baş verəcəkdisə, deməli, Ermənis-

tanda siyasi hakimiyyət çevrilişi gözlənilirdi. Və əgər bu, belə idisə, deməli, həmin qüvvələr indiki hakimiyyətin düşməni, Qarabağ müharibəsi dövründəki hakimiyyətin isə iş birlikçiləri, yaxud onları prezidentlik kürsüsünə gətirən qüvvələrin özü idi. Bu halda isə Azərbaycana hansısa gizli məlumatı öyrənmək üçün casus göndəriləcəkdi. Bəs dövlətimizin milli təhlükəsizliyinin yüksək səviyyədə olduğu bir dövrdə bu necə mümkün olacaqdı?! Yox, bu məsələ yalnız Ermənistanla bağlı olmalı idi. Bax bu halda, bəlkə də, həmin dilənçi oğlan əsl bioloji dəlil rolunu oynaya bilərdi...

Məxfi şöbənin əməkdaşı mayor Qüdrətov özünə verdiyi sualların müşayiəti ilə gəlib Qədim kişinin evinə çatdığını indi hiss etdi. Çox yaxşı müqayisə edə bilirdi ki, özünün verdiyi bu suallara cavab tapmaq ötən gün general-mayor Əzimovun bir-birinin ardınca verdiyi suallara cavab tapmaqdan daha çətin və başsındırıcı idi.

Həyət qapısınının cırıltısı növbəti dəfə eşidildi. Ev sahibi Qədim kişi əlini Ramilin çiyninə qoyub:

– Yenə nə fikrə getmişdin ay oğul?! Bayaqdan sənə tamaşa edirəm. Xocalıdan danışan kimi yenə özündə olmursan. Dediyim jurnalist oğlan gəldi. Mən gedim onu qarşılayım, səni də tanış edərəm. Əla oğlandır!

– Yaxşı, Qədim dayı, yaxşı, – Ramil fikirlərindən ancaq ayrıla bilib könülsüz tərzdə dilləndi. İyirmi il əvvəl sevgilisini xilas etmək üçün düşmən tərəfə getdiyi həmin günü xatırlayandan sonra yaralandığı yerlər yenidən qanamağa başlamışdı sanki...

## 44. Aytəkin

Zaman demək olar ki, çox tez keçirdi. Hərdən bu sözləri çoxları dilə gətirəndə Ramil bunu adi söz kimi qəbul edirdi. Amma bunun öz başına gəlməsindən sonra  həqiqətən də, hiss etməyə başlamışdı ki, Aytəkinsiz keçən ötən iyirmi il onun üçün hər anı ilə, hər saatı ilə ağır olmuşdu. İndi düşünürdü ki, özünə yalandan ürəkdirək verib illəri geridə qoyması da əslində sevgilisini ona unutdurmayıb. Tam əksinə... Bax bu, indi onu daha çox sıxır, varlığını, bütün vücudunu əzirdi. Niyəsini bilmədən vicdan əzabı çəkirdi. Bəlkə də, Xəyal adlı həmin jurnalistin danışdıqlarından sonra yarandı bu fikirlər Ramildə. Amma yox, bu, belə ola bilməzdi. Ötən ağrılı-acılı günlərin xatirəsi də bununla bərabər onu həyəcanlandırırdı. O gündən sonra həmin jurnalisti görməmişdi. Heç Qədim kişi ilə də görüşməmişdi. İndi doğma ailə üzvləri də onun harada olduğunu bilmirdilər. Bilmirdilər ki, bütün əzablarını, tənhalığını başqalarına dərd etməmək üçün şəhərdən xeyli aralıda olan evdə tək yaşayır. Bir həftə keçməsinə baxmayaraq, ailə üzvləri onun harada olmasını hələ də bilmirdilər. Yalnız çıxarkən vacib işi olduğunu və ondan narahat olmamalarını tapşırıb getmişdi. Ötən bir həftə müddətində universitetdəki dərsləri Sabir müəllim əvəz etmişdi. Ramilin hər kəsdən gizli aldığı bu ev onun tənha və ağır günlərinin yeganə şahidi idi. Özünün ən çətin günlərini burada keçirtmişdi. Cansız divarlar bunun şahidi idi. Və bu divarlar  xeyli zamandan sonra yenə öz sahibini salamlayırdı. Dərdinə şərik olmağa çalışırdı. Dillənib, danışa bilməsə də... Amma bu dəfə daha təkəbbürlü idi bu soyuq daş divarlar. Onlar da nədənsə şikayət edirdilər, Ramili məzəmmət edirdilər. Bu, o qədər ürək-ağrıdıcı idi ki, bir insan düşüncəsinin bunu

anlaması, dərk etməsi müşkül məsələ kimi görünürdü. Ramil də bunu hiss edirdi. İndi onun yeganə ümid yeri olan sirdaşı – daş divarlar da susurdu. Laqeyd və soyuq dindirirdilər onu. Bunun səbəbini də yaxşı bilirdi. Sirdaşı ötən illər ərzində Aytəkini unutmaq istədiyinə görə onu qınayırdı. Məzəmmət etməsi də, təkəbbür göstərməsi də bu səbəbdən idi. Ramil indi iki od arasında qaldığı üçün daha çox düşünməyə başlayırdı. Onun bu vəziyyəti ən çarəsiz insanların halından daha acınacaqlı, daha üzücü idi. Ürəyi ağrıyırdı bütün bu olanlara. Sevdiyinə də, sevildiyinə də, hər şeyə təəssüf edirdi, peşmanlıq hissi keçirirdi. Hamının onun qarşısında, taleyinin belə olmasında payı var idi. Getdikcə düşündüklərini ayırd edib daha da səbirsizlənirdi Ramil. Taleyindən narazı olmağını kişi qüruruna sığışdıra bilmirdi. İndi özünü daha çox qınayır, heç nə ilə təsəlli edə bilmirdi. Hətta soyuq daş divarların da dil tökməsinə baxmayaraq, özünü ələ almaq cəhdləri baş tutmurdu. Yeganə ümid yeri olan gündəliyini təsəlli etməyə çalışdı. O dəftər ki, Ramil həmin dəftəri Aytəkini gördüyü gündən yazmağa başlamışdı. Onu ilk gördüyü gün, bəyəndiyi, aşiq olduğu, sevdiyini etiraf etdiyi, ilk sevgi öpüşləri, son görüş günü... Və ayrılıq günü, onu itirdiyi gün... Aytəkinin öldüyünə özünü inandırmağa çalışdığı gün... Bəli, bu dəftər məhz Aytəkinlə başlayıb, onunla da bitirdi. Nə tələbəlik illərinə qədər, nə də bundan sonra Ramil heç vaxt gündəlik tutmağı, öz duyğularını harasa yazmağı və gələcəkdə kiminsə oxumasına imkan verməyi sevərdi. Amma onu gördüyü gündən sonra dəlilər kimi aşiq olmuşdu Aytəkinə. Gecə də, gündüz də onun xəyalları ilə yatıb-dururdu. Bir müddət qıza ürəyinin sirrini açmağa ehtiyat edirdi. Ona görə yox ki onu sevdiyinə əmin deyildi. Yox, Ramil sadəcə qızı incitmək, özündən uzaqlaşdırmaq istəmirdi.

Amma hisslərini gizli saxlamaq gün-gündən daha da çətinləşirdi. Həmin günlər heç bir ay çəkməmişdisə də, Ramil həmin günləri indi də xatırladıqca özünə yazığı gəlirdi. Müqayisə etmək istəməsə də, dərk edir, bütün varlığı ilə, kişilik mənliyi ilə bu sevginin hədsiz güclü olduğunu anlayırdı. O, Aytəkinə bütün vücudu ilə aşiq olmuşdu. Bədəninin bircə hüceyrəsinin onsuz yaşaması mümkünsüz görünürdü. Aytəkini görmədiyi vaxtlarda dərslərdən, yoldaşlarından uzaqlaşıb özünə qapılırdı. Hər gün onu universitet kitabxanasında görmək ümidləri ilə gedir, görmədiyi günlərdə isə çarəsizliyinin üsyanı ilə yanıb-alışırdı. Axı nəyə görə qıza onu sevdiyini etiraf etmirdi?! İndi qız da onu az-çox tanımış, hətta bir neçə dəfə kitabxanada ondan kömək də istəmişdi. Bəlkə, qızın verə biləcəyi "yox" cavabına hazır deyildi?! Hə, bu, əsl səbəb idi. Ramil bundan qorxurdu... Nəinki hazır olmamaq, bunu ağlına belə gətirə bilmirdi. Aytəkinin hər hərəkətinin ölçülü-biçili olması onu daha da təşvişə salırdı. Özündən az qala üç yaş kiçik olan bu qızda nə idi Ramili belə çəkindirən? Axı Ramil pis oğlan deyildi. Savadlı, yaraşıqlı və ən əsası mərd. Başqasının qızına pis gözlə baxmağı bacarmayan insan idi Ramil. Amma Aytəkinin də müsbət xüsusiyyətlərinə görə ondan geri qaldığını demək yalan olardı. Deməli, o da Ramil kimi yersiz hərəkətlərdən ehtiyatlanırdı. Ramil öz sevgi sirrini açıb qıza danışdığı günə qədər bir neçə dəfə cəhd etmişdisə də, çəkinmişdi. Hər dəfə də hansısa səbəbə görə. Hələ iki gün dalbadal gördüyü o yuxular... Gah görürdü ki, Aytəkin ona "yox" deyib inciyərək gedir. Bir dəfə də yuxuda gördü ki, qız ona gecikdiyini, onun sevgi etirafını çox gözləsə də, Ramilin dinib-danışmamasına ümidsizlənmiş və atası da onu öz kəndlərindən olan yaxın dostunun oğlu ilə nişanlamışdı. Bax, həmin gün yuxudan ayılandan sonra Ramil bir

günə yaxın özünə gələ bilməmişdi. Deyəsən, siqareti də ilk dəfə həmin gün çəkmişdi. Universitetə getməkdən, qız ilə üz-üzə gəlməkdən qorxurdu. Birdən yuxuda gördüklərim həqiqət olar, o, mənə "yox" deyər, ya da mən gecikmiş olaram. Bəs onda... Həmin an Ramilin yaşamaq üçün, həqiqətən, də heç bir ümidi qalmayacaqdı.

Ramil indi xatırlayırdı ki, həmin gün həyatında ən ağır günlərdən biri olmuşdu. Ömründə siqaret çəkməyə meyl etməyən adam həmin gün iki qutunu boşaldıb səhərə yaxın üçüncüsünə keçmişdi. Tələbə vaxtı atasının onun üçün aldığı həmin kiçik həyət evində tək yaşaması o gün Ramili çox sıxmışdı. Təkliyin, çarəsizliyin nə olduğunu onda dadmışdı. Səhərə qədər düşündü. Sabah Aytəkini görüb onunla vacib söhbəti olduğunu deyəcək. Bu işi gecikdirməyəcək... Bütün gecə bunu düşünüb səhərə yaxın yorğun halda yuxuya getmişdi...

Ramil bunları düşündüyü kiçik vaxt ərzində daha da kövrəlmiş, daha da kimsəsizləşmişdi. İndi soyuq otaq divarları da öz təkəbbürünü kənara qoyub onun halına acıyır, onunla birlikdə ağlayırdılar. O da kiminsə, bəlkə də, bu daş divarların eşidəcəyindən ehtiyatlanaraq sakitcə ağlayırdı. Şkafın siyirməsindən toz basmış gündəliyi götürüb yerinə keçdi. Yeganə təsəlli yeri idi bu dəftər. Bəlkə də, vərəqlədikdən sonra halı daha da pis olacaqdı... Çox yəqin ki, bu, belə olacaqdı. Birinci dəfə idi ki, bu dəftərdə yazdıqlarını oxuyan olacaqdı – o da özü... Heç ötən iyirmi ildə də bircə dəfə olsun ürək eləməmişdi burada yazdıqlarını oxumağa. Amma indi bir həftəlik tənhalıqdan sonra, sanki birdən-birə o illərə qayıtmışdı. Duyğularını dilə gətirə bilmirdi... Bayırda əsən külək də onun bu halını başa düşməkdə aciz idi. Gecə yarısında səssiz və üsulluca həzin-həzin dillənir, sanki əllərindən bir iş gəlməyən adam kimi çarəsizcə şikayətlənirdi...

## 45. Unudulmuş cinayətin sirri

– Mövsümoviç, sizə yenə də çay gətirim? – otağı yığışdıran cavan qadın qonağa bir anlıq diqqətlə nəzər salıb soruşdu. Bir həftəyə yaxın müddətdə tanıdığı bu adamda hansısa yeni keyfiyyət aşkara çıxarmışdı. Əslində ərindən boşanandan sonra özünə çörəkpulu qazanmaq üçün işlədiyi bu yerdə çox adamlarla rastlaşmışdı. Adətən bu adamlar da müxtəlif ölkələrdən buraya qonaq gələnlər olurdu. Onun işi isə gəlib-gedənlərə xidmət etmək, qaldıqları evi yığışdırmaq idi. Ötən bir həftə müddətində qulluq etdiyi kirayənişin isə nədənsə çox xoşuna gəlmişdi.

– Hə, verərsiz. Sonra isə gedin, daha gecdir, – başı qeydiyyat dəftərçəsinə qarışan Qüdrətov hələ orta yaşlarına qədəm qoymayan bu, qadına laqeydliklə cavab verdi. Amma hiss etdi ki, qadın onunla söhbət etmək istəyir. Başını qaldıranda qadının nəzərlərinin hələ də ondan ayrılmadığının şahidi oldu. Necə oldusa, göz-gözə gəldilər. Bu artıq ikinci dəfə idi. Daha doğrusu, bu gün ikinci dəfə idi. İlk dəfə isə Qüdrətov buraya gəldiyi gün bu hal olmuşdu. Onda fikir verməmişdi Anita adlı bu cavan qadının baxışlarına. Sanki indi anladı ki, qadın bunu bilərəkdən edir. İlahi! Onun gözləri ehtirasdan alışıb yanırdı. Ətli dodaqlarına qaydasında çəkilən boya yanaqlarının anadan-gəlmə rəngi ilə mütənasiblik təşkil edən bu qadın elə indi Qüdrətov üçün hələ də öz qızlığını itirməmiş on yeddi-on səkkiz yaşlı şıltaq qız təəssüratı bağışladı. Doğrudur, Anita o qədər də yaşlı deyildi. Olsa-olsa iyirmi beş, ən çoxu iyirmi yeddi yaşı olardı. Əlbəttə ki, Qüdrətovla müqayisədə o, ən azı səkkiz-on yaş kiçik idi. Bu baxımdan onu "qız" da adlandırmaq olardı. Amma nədənsə məxfi şöbənin əməkdaşı bu qızın ondan daha böyük həyat təcrübəsi

olduğunu düşünmək istədi. Sanki nə edəcəyini bilmirdi. Tez də ani yaranan lazımsız düşüncələrindən ayrılıb dəftərçəsinə nəzər saldı. Təcrübəli təhlükəsizlik işçisi qeyri-ixtiyari yaranan bu arzuolunmaz duyğuları keçirdiyinə görə daxilən özünü danlamağa başladı. Axı nəyə görə Anitanı özü ilə müqayisə edir. Nəyinə gərəkdir ki, bu?!

– Mövsümoviç, siz həmişə belə ciddisiniz?! – qadın bu dəfə ətli dodaqlarını nəzərəçarpacaq qız şıltaqlığı ilə büzüb qonağına bir az da yaxınlaşdı. Qüdrətovu onun vətəninə gələn məşhur firmalardan birinin əməkdaşı olan Xəyal Mövsümsoy kimi tanıyan qadının hərəkətlərindən məqsədləri açıq-aşkar məlum idi. Arxa tərəfdən Qüdrətovun oturduğu stula yaxınlaşıb gözlənilmədən qolları ilə onu boyun tərəfdən qucaqladı:

– Mən bu gün burada – sənin yanında qalmaq istəyirəm, Mövsümoviç! – qadın qonağından bir şey çıxmayacağını görüb nəhayət özü dilləndi.

– Olmaz! – sanki qadının bu təklifini elə bu an gözləyən Qüdrətov nəzərlərini dəftərçədən ayırmadan sakit tərzdə dilləndi. Qadının təklifinə verdiyi qısa cavab zamanı nitqində azacıq olsun əsəbilik, acılama yox idi. Təcrübəli əməliyyatçının bu cavabı daha çox "olmaz axı, mənim işlərim çoxdur, mane olursan..." kimi məna doğurdu. Qüdrətov isə apardığı təhqiqatla bağlı beynində vacib məsələni çək-çevir edirdi. Odur ki, çox özündən deyən kişi üçün belə cazibədar və əlçatmaz qadının etdiyi təklifə cavab vermək marağı olmadı. Hətta qadının qollarını da özündən kənarlaşdırmağı unutdu sanki. Heç vaxt ətirlərə maraq göstərməyən mayor qadının bədənindən yayılan xoş ətrin yaratdığı qoxunun təsirindən uzaqlaşmağa çalışır, daha çox məqsədinə doğru irəliləmək istəyirdi. Anita isə ona bir az da yaxınlaşmış, azacıq əyilərək qabarıq

sinəsini onun kürəyinə sıxmışdı. Qüdrətov hiss edirdi ki, daxilində qadına qarşı hansısa maraq yaranmağa başlayır. Elə hiss edirdi ki, indi ürəyi döş boşluğunda deyil, kürək tərəfdən döyünməyə başlayıb. Və getdikcə bu döyüntü daha da şiddətlənir, çırpıntı ilə əvəz olunurdu. Bir az əvvəl Anitanın gözlərində yaranan dəli ehtiras indi qadının bütün vücudunu ağuşuna almışdı. Sinəsindəki istilik o qədər artmışdı ki, sanki Qüdrətov bu hərarətin onun kürəyini xoşallandırdığını da hiss etdi.

Deyəsən, gec idi axı?! Amma hələ yox... Qüdrətov ayağa qalxıb ondan aralanmaq istəyirdi ki, Anita onu qabaqladı:

– Bəs mən xahiş etsəm necə?! Yenə məni qovacaqsan?! – qadın bunu demişdi ki, gözlənilmədən iki əli ilə də firma əməkdaşı hesab etdiyi bu yaraşıqlı adamın ön tərəfdən çanaqdan aşağı ilk nahiyəsindən yapışdı. Çoxdan arzu etdiyi nəyisə tapıbmış kimi həmin hissəni düşünmədən sığallamağa başladı. Qüdrətov başa düşdü ki, indi, ümumiyyətlə, gecdir... O bacardığı qədər onunla yaxınlaşmaq istəyindən az qala havalanan bu qadınla mübarizə aparmışdı. Amma uduzduğunu da özünə etiraf etmək istəmirdi. Ən azından kişilik qüruru buna yol vermədi.

Anita isə öz işində idi. Fürsəti əldən verməyib onun qucağına oturdu. Qüdrətov, demək olar ki, ideal köklükdə olan bu qadının özünə çox yaxşı qulluq elədiyini bir daha hiss etdi. Qadın dayanmadan onun boynundan öpürdü.

– Yavaş ol, yıxılacaqsan, – başqa çarəsi qalmayan Qüdrətov qızı xəbərdar etdi. Qız isə sanki taxtda imiş kimi bir az da cuşa gəldi. Elə bu an Qüdrətovun dediyi oldu. Qadın özünü necə onun üstünə yıxdısa, stul aşdı. Amma qonağı fərasətli çıxmışdı. Sol əlini yerə dayayıb həm özünün, həm də Anitanın əzilməsinə mane oldu. Bu zaman

onun sağ əlinin qüvvətli pəncəsi qızın gərdənindən möhkəm tutmuşdu. Qonağının əzilməkdən qorunmaq üçün etdiyi bu hərəkəti Anitanı bu dəqiqə, sanki bihuş edəcəkdi...

***

Gecikən səhər, nəhayət ki, gəlib özünü yetirmişdi. Qüdrətov saatına baxanda artıq qalxmaq vaxtı idi. Bu gün həlledici gün olmalıydı. Dünən Bakıdan gələn xəbərə görə hələ ki, apardığı təhqiqatla bağlı Tahirdən də yeni məlumat yox idi. Ayağa qalxıb vanna otağına getməyə hazırlaşırdı ki, Anita özünü yetirdi:

– Mövsümoviç, mən səni oyatdım, hə?! – Qız peşmanlıqla dilləndi.

– Yox, əksinə, sənə demişdim məni oyat. Bax yenə bir işə yaramadın! – Qüdrətov məzəmmətedici nəzərlərlə onu süzüb ləngimədən əl-üzünü yumaq üçün yan otağa keçdi.

– Necə yəni, yenə?! Bəs, dünən işə yaramamışdım? – qız dünənki məlum məsələyə görə söz atdı.

– Yaxşı, mənə çay süz, getməliyəm, – qonşu otaqdan mayorun narazı səsi eşidildi.

– Ay Allah, bu qafqazlılar çayda nə görüblər, bilmirəm də?!

– Özün bil, istəmirsən vermə. Mən onsuz da gecikirəm.

– Yox, yox, mən sənin üçün əla çay dəmləmişəm, – qız bunu deyib tələsik mətbəxə keçdi. Qonağını söhbətə tutmağın mənasız olduğunu başa düşdü. Həm də ki, dünən qonağı istədiyini ona verə bilmişdi. Və yəqin ki, dünən əvvəlcə stulda, sonra qısa müddət döşəmədəki xalçanın üstündə və sonda isə yataqda aldığı həzzi Anita uzun müddət unutmayacaqdı.

– Yaxşı çay idi. İndi isə mən getməliyəm. Bir azdan hava limanında qeydiyyat başlayacaq, – Qüdrətov bilərækdən qızı azdırdı. Amma o hələ ki Azərbaycana qayıtmaq üçün bilet almamışdı və işini tamamlamadığı üçün, ola bilsin, hələ bir gün burada qalacaqdı.

– Mən səni yola salmağa gəlmək istəyirəm, dayan, çantamı götürüm, çıxaq, – qız canfəşanlıq etdi. Bir yandan da, həqiqətən, Qüdrətovdan ayrılmaq istəmirdi. Qüdrətov isə heç olmasa bugünkü ən vacib gündə ondan ayrı bir yerdə qalmaq istəyirdi. Yəqin ki, oteldə. Odur ki, söhbəti uzatmadan tələsik dilləndi və çıxdı:

– Yox, gəlmə. Hər şeyə görə sağ ol! Salamat qal.

– Sən də... – qız yalnız bunu deyə bildi. İndi artıq onun qonağı qapını örtüb çıxmışdı.

***

Məxfi şöbənin əməkdaşı bir həftə müddətində qaldığı evdən ayrılıb buraya – o qədər də böyük olmayan şəhər mehmanxanasına gəldi. Özünə nömrə sifariş verib bir günlük kirayə haqqını ödəyən kimi dərhal öz otağına qalxdı. İndi yeganə məqsədi sakitlikdə təkbaşına oturub ötən günlərdə apardığı təhqiqatların nəticəsini ümumiləşdirmək idi. Artıq əlində bir çox faktlar var idi. Bir həftə əvvəli düşündü...

Həmin gözlənilməz görüşdən sonra Qüdrətov apardığı təhqiqatla bağlı vacib bir məsələni ayırd edərək onu ən çox narahat edən maneələrdən birini keçmişdi. Ramil ilə görüşü çoxdan planlaşdırsa da, bir həftə əvvəl onunla gözləmədiyi bir yerdə – Qədim kişinin həyətində görüşəcəyini yuxusunda da görməzdi. Tahirin, Ramili izlətdiyi adamın vasitəsi ilə verdiyi məlumata əsasən, Qədim kişinin həyətinə gəlməmişdən əvvəl Ramilin burada olduğunu mayor onsuz da bilirdi. Düşünmüşdü ki, bu

vəziyyət onun xeyrinə oldu. Bu halda görüşmək istədiyi adam onun qarşısına çıxmış və Qüdrətovun da Ramillə görüş üçün nə isə bəhanə planlaşdırmağına ehtiyac qalmamışdı. Odur ki, həmin evə gedib guya çoxlarının "təsadüf" adlandırdığı bir səbəblə onunla üz-üzə gəlmişdi. İndi Qüdrətov həmin gün Ramillə etdiyi söhbətlərdən bir neçəsini xatırladı.

– Müharibədə olubsunuz, Ramil müəllim? – bunu, təbii ki, özünü jurnalist kimi qələmə verən Qüdrətov soruşmuşdu. Soruşmağa məcbur idi. Cavabını da yaxşı bilirdi.

– Hə, o vaxt bacardığım qədər döyüşlərdə olmağa çalışdım. Bir neçə dəfə yaralandım da. Qədim kişi deyir ki, siz Qarabağla bağlı reportaj hazırlayırsız. Doğrudurmu? – bu dəfə sualı Ramil verdi.

– Elədir, iki aya yaxındır. Bu yaxınlarda tamamlayacağam. Sizin kimi döyüşçülərimizin köməkliyinə, məlumatlarına ehtiyacım var, – məxfi şöbənin əməkdaşı söhbəti uzatmayıb birbaşa mətləbə keçdi.

– Əlimizdən nə gəlirsə edərik, narahat olmayın, – universitetin müəllimi onu arxayın etdi.

– Mənə Qarabağ hadisələri ilə bağlı bütün şahidi olduqlarınız və etibarlı mənbələrdən eşitdikləriniz lazımdır, – Qüdrətov məsələyə bir az da aydınlıq gətirdi.

– Siz yəqin ki, Qədim kişinin bayaq danışdıqlarını da nəzərdə tutursunuz?! Aytəkinlə bağlı... – Ramil köksünü ötürüb siqaret yandırdı.

– Hə. Bilirəm, sizin üçün çox çətin olacaq... – müsahibinin siqareti çox çəkdiyi mayorun nəzərindən yayınmadı. Ramil onun özündən də çox çəkirdi.

Qədim kişidən ayrılandan sonra da Qüdrətov onunla yolboyu söhbət edə bilmişdi. Elə Ramil də jurnalist kimi tanıdığı bu adamdan çox razı qalmışdı. Odur ki, Qüdrətovun telefon nömrəsini özündə qeyd edib, özü də vizitka-

sını verdi. Ramilin istər ev, istərsə də iş və mobil telefonları çoxdan Qüdrətovda var idi. Özü də əsas deyil, yalnız bu əməliyyatda jurnalist qismində iştirak etdiyi üçün istifadə etdiyi köməkçi telefonda.

Həmin gün aralarında olan söhbətdən sonra Qüdrətovun aydınlaşdırdığı əsas məsələlərdən biri isə Ramilin Aytəkinlə bağlı hər hansı yeni məlumatının olub-olmamasını öyrənmək istəyi idi. İndi Qüdrətov yəqin bilirdi ki, Ramil qızın girov götürülməsindən sonrakı taleyi, ölü, yoxsa salamat qaldığı haqqında heç nə bilmir. Bu, Qüdrətov üçün çox vacib məlumat idi. Aytəkinin ən azı on il əvvəl yazdığı həmin dəftərçənin sonlarında yazılanlar isə hələ də məxfi şöbənin əməkdaşına müəmma olaraq qalırdı. Ermənilərin Aytəkini casus olaraq Azərbaycana hansı məqsədlə göndərmək istədiklərinin səbəbini bilmək isə daha vacib idi. Əgər bu günə qədər Aytəkin Bakıya gəlməmişdisə, deməli, ya onu öldürmüşdülər, ya da ki, hələlik gəlməsi lazım olmayıb. O da ola bilərdi ki, Aytəkini bu işə məcbur etmək istəyən Vaskanyan öz qərarını dəyişib və yaxud qızın razı olmadığını görüb yerinə başqasını göndərib. Qüdrətov indi bunun necə və hansı yollarla baş verə biləcəyi barəsində düşünməyə başlamışdı. Deməli, bu, istər on il bundan əvvəl, istərsə də onlara lazım olan istənilən bir zamanda, məsələn, elə günü bu gün baş verə bilərdi. Bir variant da var idi ki, təcrübəli əməliyyatçı bu variantın üzərində, ümumiyyətlə, dayanmaq istəmirdi. Bu da o idi ki, həmin casus Azərbaycana elə on il əvvəl göndərilib və milli təhlükəsizlik orqanlarımız bundan xəbərdar olmayıb. Məxfi şöbənin təcrübəli əməliyyatçısı haqlı olaraq bunu mümkünsüz hesab etdiyinə görə digər iki səbəb üzərində baş sındırmalı olurdu.

Qüdrətov isə Tahirə hələ də Ramili izlətdirməyi tapşırmışdı. Bu, yəqin ki, hansısa şübhələrinə son qoymaq üçün

idi. Çünki Ramil onunla bütün danışıqlarında tərəddüdlü olurdu. Bunun səbəbi sevgilisinin başına gələn dəhşətli faciə idisə də, Qüdrətov əməliyyatla bağlı bütün detalları nəzərə aldığı kimi bunu da unutmamağa çalışırdı. Odur ki, "Tahir, sən adamına tapşır ki, Ramili diqqətlə izləsin. Səhv istəmirəm!"– deyə tapşırıq da vermişdi.

Yadına məxfi şöbənin rəisi general-mayor Kamil Əzimovun verdiyi qovluq düşdü. Aytəkinin dəftərçəsində adı çox hallanan fransız iş adamı Fabian haqqında olan bu qovluğu Qüdrətov özü rəisindən istəmişdi. Məxfi şöbənin rəisi həmişəki kimi bütün imkanları hesabına həmin adam haqqında ətraflı bilgiləri toplayıb öz sevimli əməkdaşına verə bilmişdi...

Sakit mehmanxana nömrəsi yavaş-yavaş öz müsbət təsirini göstərirdi. İndi Qüdrətov hadisələr arasında daha aydın fikirlərlə əlaqə qurmağa başlamışdı. Bir neçə xırda hadisələr isə ümumi hadisələrdən ayrı düşürdü ki, bu barədə də çox düşünmək lazım idi. Amma, onun fikrincə, hələ ki, hadisələrin iştirakçılarından daha bir neçə əsas qüvvə ifşa etmək lazım idi. İki gün əvvəl Bakıdan məxfi şöbənin verdiyi gizli məlumatda isə Qüdrətovun yerini öyrənmək istədiyi adamın sağ olmadığı bildirilirdi. Bu adam Monik idi. Qüdrətovun Aytəkinin son illəri haqqında məlumat öyrənə biləcəyi əsas adamlardan biri olan Monik təxminən dörd il əvvəl sifilis xəstəliyindən ölmüşdü. İşə lazım olduğu üçün Qüdrətov Monik haqqında Bakıdan məlumat gələnə qədər bu arzuolunmaz insanın sağ olmasını çox arzu etmişdi.

Mayor həmin dəftərdə adları keçən adamların adının yazıldığı qeyd dəftərçisinin səhifələrini bir daha çevirdi. Fabianla bağlı rəisinin hazırlatdırdığı qovluqdakı məlumatlara əsasən o, bir neçə il əvvəl Fransa mafiyasının əli ilə öldürülmüşdü. Deməli, bir nəfər cinayət iştirakçı-

sı qalırdı. Sonya!.. Qüdrətov, sanki indi xatırladı ki, bu qadının əri azərbaycanlı idi. Hətta onların bir oğlu da var idi. Roma adında. Həmin adamı elə bu gün araşdırıb tapmaq üçün dərhal Tahirə xəbər göndərdi. Tapşırığının köməkçisinə çatdığına əmin olub yenidən yazı stolunun arxasına keçdi. Dünən həmin qızla keçirdiyi vaxtın hədər olmasını, əslində vacib olan məsələlərin qeyri-ixtiyari diqqətindən yayınmasını özünə həzm etdirə bilmirdi. Axı nəyə görə o, indiyə kimi Sonyanın ərini araşdırıb tapmayıb?! O ki Sonyanın, Aytəkini tanıdığını, hətta Aytəkinin Vaskanyandan oğlu olanda onu Sonya adlı həmin qadının doğuzdurduğunu bilirdi. Yox, Qüdrətov bu şübhədən vaz keçə bilməzdi. Deyəsən, xatırlamağa başlayırdı...

Həmin vaxt Gəncədə Alekseyi axtarmaqla məşğul idi. Onu tapan kimi isə Bakıya Həsən adlı həmin satqın azərbaycanlı ilə üzləşdirməyə gətirirdi. Tahirlə birlikdə onları üzləşdirdikdən sonra isə Jor adlı erməni qadının oğlu Qaribin ölümünün bədbəxt hadisə deyil, plan olduğunu müəyyənləşdirə bilmişdi. Aleksey isə Qaribi öldürmək tapşırığının ona Komarov soyadlı adam tərəfindən verildiyini etiraf etmişdi. Təbii ki, Tahir onun sağ ayağının qamış sümüyünü sındırıb sol tərəfə keçəndə, ağrının şiddətinə dözməyərək iyirmi il əvvəl etdiyi bu müəmmalı cinayəti boynuna almışdı Aleksey. Və elə buna görə də Qüdrətov Sonyanın azərbaycanlı əri Məhəmmədin axtarışını ikinci plana salmışdı. İndi bunu düşünüb xeyli rahatlandı. Nəhayət, o, bu qədər qarışıq hadisələrin içərisində öz təhqiqatlarını dürüst apara bilmişdi. Hətta indi də, təxminən on gün əvvəl Sonyanın azərbaycanlı əri Məhəmmədin axtarışını sonraya saxlayıb buraya Komarovun axtarışı üçün gələn Qüdrətov əsla peşman deyildi. Bunun doğru qərar olduğunu düşünmək istəyirdi ki, Tahirdən cavab gəldi. Cavab mesajında qeyd olunmuş-

du ki, nə Məhəmməd, nə onun oğlu Roma, nə də Sonya Azərbaycanda deyil. Onlar yaşadıqları yeri yenə də dəyişməmişdilərsə, deməli, indi Rusiyada Qüdrətova yaxın ərazilərin birində yaşamalı idilər. Bəli, Tahir onların məhz Rusiyaya köçdüklərini yazmışdı.

Qüdrətov qarşısındakı çaydan bir qurtum içib otaqdan çıxdı. Nahardan xeyli keçməsinə baxmayaraq, ac deyildi. Saatını dəqiqləşdirdi. Vaxta bir saata qədər qalırdı. Otelin kiçik restoranına düşüb yaxınlıqdakı boş masalardan birinin arxasına keçdi. Ümumiyyətlə, bura oturmaq üçün münasib yer idi. İçəridə müştərilərin az olması Qüdrətovun daha çox xoşuna gəldi. Ofisiant bir az əvvəl istədiyi isti xörəyi yenicə masanın üstünə qoymuşdu ki, mayorun telefonuna gözlədiyi adamın zəngi gəldi. Bu, Moskvadakı agenturadan olan əməkdaş idi. Qüdrətovun bir həftə əvvəl parametrlərini verdiyi Komarov soyadlı həmin adamın işdən bir az gec çıxacağı barədə məlumat vermək üçün zəng etmişdi:

– Yoldaş mayor, dünən də, bu gün də izləməni davam etdirmişik. Həmin adamın Ermənistanla gizli əlaqələrinin olduğunu da müəyyən edə bilmişik. Amma bu da məlumdur ki, Komarovun Moskvada tabe olduğu qüvvələr var. Yəni ki, Ermənistandakı qüvvələrlə özü deyil, həmin tabe olduğu adamlar əlaqəyə girir.

– Aydındır! Komarov niyə bu gün işdən gec çıxacaq? – Qüdrətov dəqiqləşdirmə apardı.

– Öyrəndim ki, bu gün iclasları olduğuna görə işdən həmişəkindən bir az gec çıxacaqlar.

– Eybi yox, gözləyərəm, – mayor söhbəti qısa kəsib telefonu söndürdü. Bunu deyib qarşısındakı yeməyi özünə tərəf çəkdi. Necə olsa, vaxta hələ ki, var idi...

***

Günortadan sonra xeyli uzanan iclas artıq bitmişdi. Qüdrətov nəhayət ki, gözlədiyi adamın ətrafındakı insanlarla bərabər binanın qarşısına çıxdığını gördü. Həmin adam tələsərək onu gözləyən maşına atılıb sürücüyə sürməyi əmr etdi. Parlaq qara rəngli "Toyota" markalı avtomobil yerindən tərpənən kimi bir az aralıda dayanan daha bir maşın onun ardınca hərəkətə gəldi. Bundan sonra isə bayaqdan bəri əlindəki telefonu qurdalamaqla vaxt keçirən cavan, səliqəli geyimli adam da cəld sükan arxasına keçib irəlidə gedən iki maşının arxasınca sürdü. Eyni istiqamətə getdikləri bəlli idi. Olub-keçənlərə göz qoyan Qüdrətov taksi sürücüsü olan orta yaşlı sarışın adama sürmək üçün göstəriş verdi:

– Asta-asta bunların arxasınca sür, tələsmə...

Taksi sürücüsü onun dediyi kimi, maşını hərəkətə gətirib yola sarı döndü. Sürücünün heç bir məna ifadə etməyən gözləri, siması və ümumiyyətlə, özü çox sakit idi. Görünür, bu adam öz peşəsindən başqa hər şeyə belə laqeyd və biganə münasibət bəsləyirdi. Müştərisinin qarşıdakı maşınları ona izlətdirdiyini bilsə də, əmrə müntəzir halda yoluna davam edirdi. Maşının o qədər də geniş olmayan salonuna yenicə quraşdırıldığı aşkar sezilən maqnitofonun musiqi sədaları yayılmaqda davam edirdi. Amma, deyəsən, nə sürücü, nə də Qüdrətov bu dəqiqə hansı musiqinin səsləndiyinə əhəmiyyət vermirdilər. Taksini idarə edən adamın yersiz narahatlığının səbəbi isə təcrübəli əməliyyatçını maraqlandırmağa başlamışdı. Bir neçə saniyə əvvəl musiqi sədaları da kəsilmişdi.

– Çəkənsiz? – narahatlığının səbəbini, nəhayət ki, sürücü özü dilə gətirərək yaranan cansıxıcı sükutu pozdu.

– Burada dayan! – diqqəti xeyli aralıda – iki maşının arasında hərəkət edən qara "Toyota"da olan mayor tələ-

sik dilləndi. Həmin maşınlar öz sahiblərini yolboyu müşayiət edərək hansısa yolun ayrıcında dayandılar.

– Hə, yandırın, birini də zəhmət olmazsa, mənə verin – Qüdrətov eyni təmkinlə əlində siqaret onun cavabını gözləyən taksi sürücüsünə tərəf baxdı. Sürücü onun cavabına bənd imiş kimi düşünmədən əlindəki siqareti damağına basıb alışdırdı. Bundan əvvəl isə etika naminə qutudakı yerli siqaretlərdən birini müştərisinə uzatdı.

– Maşını kənara çək, yolu kəsməyək, – qarşıdakı maşınların haraya gedəcəklərini müəyyən etməyə çalışan mayor sürücüyə növbəti göstərişi verdi.

– Baş üstə! – yenicə yandırdığı siqareti yarıya qədər sümürməyə macal tapmış sürücü bayaqkından daha gümrah səslə dilləndi. Sonra əlavə etdi:

– Bu zəhrimarı çəkmək vaxtını ötürəndə, elə bil havam çatmır...

Qara rəngli "Toyota" küçəni sağa dönəndən sonra onu qoruyan maşınlardan biri dönmədən düz sürdü. Sonradan onlara qoşulan cavan sürücünün idarə etdiyi maşın isə təkərlərin yaratdığı xarakterik səslə yolun ortasında kəskin dönərək geriyə qayıtdı.

– Sür arxasınca! – Qüdrətov "Toyota" markalı avtomobilin döndüyü küçəni işarə etdi. İndi Qüdrətovun oturduğu şəhər taksisi mayorun bir həftəyə yaxın müddətdə təqib etdiyi Komarov soyadlı həmin adamın olduğu maşının arxasınca gedirdi. Federasiyanın əsas ərazilərindən birində məskunlaşan agentura əməkdaşının verdiyi məlumatlar işə yaramışdı. Həmin əməkdaşlara şöbə rəisinin bu barədə xüsusi tapşırığı da olmuşdu. Tapşırığa görə onlar əsl kimliyini bilmədikləri Qüdrətova tez bir zamanda Komarovu tapmaqda lazım olan köməkliyi etməli idilər.

– Adamların hələ də yaxınlıqdadır? – mayor zəng etdiyi agentura əməkdaşından soruşdu.

– Bəli, yoldaş mayor.

– De ki, qayıtsınlar, – Qüdrətov qısaca bildirdi.

– Köməyə ehtiyacınız olar, özünüzü təhlükəyə atmayın. Bizə sizi qorumağımızla bağlı xüsusi tapşırıq olub.

– Uzatmayın, dedim ki, getsinlər. Bu, əmrdir, tapşırıq yox!

– Oldu, yoldaş mayor!

– Saxla! – Qüdrətov bunu deyib taksini küçənin girişindəki mağazanın qarşısında dayanan mal gətirən yük maşınına bənzər avtomobilin arxasında saxlatdırdı. Sürücünün pulunu uzadıb:

– Mən çatdım, qayıda bilərsən. Sağ ol.

– Siz də sağ olun. İstəsəz, gözləyə bilərəm, – müştərisinə yenicə alışmış, həm də onun artıqlaması ilə verdiyi puldan ilhamlanan sürücü canıyananlıq etdi.

– Lazım deyil, gedin, – agentura əməkdaşı ilə danışandan sonra bir az hirslənən Qüdrətov, sanki sürücüyə acıqlanıbmış kimi dilləndi.

– Yaxşı yol! İsa köməyin olsun! – sürücü dua edib uzaqlaşdı.

## 46. Təqib

Maşını idarə edən boylu-buxunlu sürücü kiçik giriş qapısının qarşısında dayandı, sahibini düşürmək üçün yerə enib dərhal arxa qapıya yaxınlaşdı. Bu, Rusiyada iyirmi ildə böyük adsan qazanan iş adamı Komarov idi. Yəqin ki, adəti üzrə ciddi geyinməyi sevən bu adam son illərdə məşğul olduğu və çoxları üçün müəmmalı olan biznesindən məmnunluq ifadə edən görkəm almaq məqsədi ilə bu imici üstün tuturdu. İndi də iclasdan qayıtdığını nəzərə alsaq, belə geyimdə olması təbii idi. Yaşı 55-60 arası olan

bu adam əslində cangüdən funksiyasını yerinə yetirən sürücüsünün onun üçün açdığı qapıdan yerə enib ayaq saxlamadan giriş qapısından həyətə daxil oldu. Sürücü isə onun əlinin işarəsindən sonra getmək lazım olduğunu bilib oradan uzaqlaşdı.

Giriş qapısını nəzarətdə saxlayan Qüdrətov üçün belə bir yerə Komarovun nə üçün gəldiyi çox maraqlı idi. Agenturanın dəqiq məlumatına əsasən, Komarov şəhərin tamam başqa bir yerində xüsusi gizli mühafizəsi olan evdə yaşayırdı. Bu məhəllə isə xüsusi səliqəyə malik olmayan bir ərazi idi. Hələ giriş qapısı çox qədim görünürdü ki, buna əsasən də burada çoxdan yaşayış olmadığını güman etmək olardı.

Vəziyyəti dəyərləndirməyə çalışan mayor evə indi girməyin münasib olmadığını düşünüb vaxt keçirmək qərarına gəldi.

Onsuz da hava getdikcə toranlaşırdı. Bu minvalla Qüdrətov olsa-olsa 30-40 dəqiqə vaxt itirməli olacaqdı. Vaxtı hədər verməyib bu həyət evinin ətrafını yoxlamaq lazım idi. Mayor bir az əvvəl Komarovun kiçik giriş qapısından daxil olduğu həyətin başqa girişinin olub-olmamasını yoxlamalı idi. Hər halda, onun fikrincə, bu, əsas giriş qapısı deyildi. Bir adamın güc-bəla ilə keçə bildiyi bu qapıdan başqa ən azından maşın salmaq üçün digər giriş darvazası olmalıydı. Qüdrətov dalanı sona qədər gedib sola buruldu. Dalanın bu hissəsi nisbətən geniş küçəyə açılırdı ki, burada da bir-birinin lap yaxınlığında tikilmiş bir neçə yeni ev görünürdü. Daha irəlidəki həyətlərdə isə gecə işıqları artıq yandırılmış, bir çoxlarından insanların qarışıq danışıq səsləri gəlirdi. Cəmi bir həftəni keçməsinə baxmayaraq, öz vətəni üçün çox darıxmışdı. Elə indi həyətlərdən rus dilində gələn danışıq səsləri də onu bu barədə düşünməyə, xəyallar dünyasına aparmağa çalışır-

dı. Bir anlıq ailəsini xatırladı. Onlar da uzun müddət idi ki, xaricdə yaşayırdılar. Amma Qüdrətov heç vaxt uzaq səfərlərdə sakitlik tapa bilmirdi. Bu, onun özündən asılı deyildi. Azərbaycandan başqa dünyanın harası olur-olsun, bir neçə gün qaldıqdan sonra onu sıxmağa başlayırdı. Yəqin ki, onu ailəsindən və dostlarından fərqləndirən əsas xüsusiyyətlərdən biri bu idi.

Səs-küylü həyətləri geridə qoyub Komarovun olduğu həyətin arxa tərəfinə keçdi. Bu hissə həyətin digər tərəfindəki giriş qapısından xeyli aralı idi. Qüdrətov təxminən müəyyən etdi ki, onun indi dayandığı yer ilə küçənin əks tərəfi arasında ən azı 60-70 metr məsafə var. Deyəsən, axtardığını tapmışdı. Bir az irəlidə geniş paslı darvazanın qarşısında qırmızı rəngli maşın dayanmışdı. Darvazanın köhnə olması diqqəti xüsusilə çəkirdi. Sağ tərəfdəki lövhədəki pozulmuş yazılar isə oxunmaz hala gəlmişdi. Amma müəyyən etmək mümkün idi ki, bura hansısa yük maşınlarının qarajı olubmuş. Qüdrətov hər ehtimala qarşı silahını hazır vəziyyətə gətirdi. Qırmızı rəngli, adətən, qadınların sürdüyü bu "Hyundai" markalı maşının kimə məxsus olması onun üçün çox maraqlı idi. Avtomobilin arxa oturacağında olan qadın çantası və jaket də gələnin qadın olduğundan xəbər verirdi. Hər halda bu maşının sahibəsi Komarovun həyat yoldaşı ola bilməzdi. Belə köhnə tikilinin yüksək hasarları arxasındakı həyətdə bir evdə yaşadığı arvadı ilə görüş təyin etmək səfehlik olardı. Bu maşın bayaqkı iclas olan şirkət binasının yaxınlığında da yox idi. İclasda olmadığına görə ya şirkətin əsas işçisi deyil, ya da ki, ümumiyyətlə Komarovun şirkətində işləmir. Qüdrətov şübhələrini bir daha analiz etməyə çalışdı. Çox güman ki, maşının sahibəsi olan həmin müəmmalı qadın şirkətin əsas işçisi deyil. Bəs onda Komarov adi sıravi işçi ilə belə müammalı yerdə niyə görüşsün? Bəlkə,

bu yeri almaqla bağlı hansısa planları götür-qoy etməyə gəlmişdilər. Axı agenturanın məlumatlarında Komarovun sürətlə öz biznesini inkişaf etdirdiyi, köhnə yerləri alıb yeni dəblərə uyğun şirkət şöbələrinə çevirdiyi göstərilirdi. Qüdrətova bu dəqiqə maraqlı olan məsələ hündür hasarın arxasında hansı yaşayış binasının olması və oradakı qadının kimliyi idi. Ən vacibi isə burada baş tutan görüşün səbəbi idi.

Mayor hiss etdi ki artıq içəri girmək vaxtıdır. Hava onun bir az sonra keçirəcəyi əməliyyata şərait yaradacaq dərəcədə qaralmışdı. Hətta üstündən on-on beş dəqiqəyə yaxın müddət də keçmişdi. Silahı gödəkçəsinin iç tərəfində görünməz hala gətirib darvazaya yaxınlaşdı. Bu hissədə heç bir kamera-filan quraşdırılmamışdı. Qüdrətov bunu artıq yoxlaya bilmişdi. Darvazanın bir az aralı olan hissəsini itələsə də açılmadı. İçəridən açılmamaq üçün zəncir keçirmişdilər. Mayor yaxınlığa göz gəzdirdi. Qaranlıq hasarın dibində irili-xırdalı metal hissələrdən başqa heç nə əlinə keçmədi. Bu halda yaxınlıqdakı köhnə dirəkdən istifadə edərək həyətə düşməyin ağlabatan olduğunu görüb irəliyə yeridi. Bu köhnə dirək o, yuxarı qalxarkən, sanki dözməyib aşacaqdı. Həyətə boylandı. İşıq gələn yer görünmirdi. Uçuq-sökük qaraj divarları xaraba qalmış ərazini xatırladırdı. Çətinliklə hasarı adlayıb düşünmədən həyətə tullandı. İndi əsas məsələ Komarovun və onun müəmmalı qonağının bu geniş həyətdə harada olmasını tapmaq idi. Ehtiyatla irəliləməyə başladı. Silahı atəşə hazır vəziyyətdəydi. Hər an nə isə baş verə bilərdi. Qüdrətov böyük zəhməti hesabına izinə düşdüyü bu adamı heç bir vəchlə əldən buraxmaq istəmirdi.

Həyətin sol tərəfindəki qarajlardan baxıb yoxlamadığı daha beş-altısı qalırdı. Bir anlıq qulağına qəribə inilti səsləri gəldi. Amma tez də keçdi. Bu səslər ona tanış idi.

Qeyri-ixtiyari olaraq ötən gecə Anita adlı həmin qadınla yataqda yaşadığı anlar yadına düşdü. Əgər Qüdrətov Bakıya gedəndən sonra, yaxud da nə vaxtsa bu barədə həqiqəti etiraf etməli olsaydı, Anitanın, həqiqətən də yataqda kişiyə sözlə ifadə olunması mümkün olmayan həzz bəxş etməsini deməli idi. Səhərə qədər yorulmaq bilməyən bu qadın istənilən yaşda kişinin ağlına hakim ola bilərdi. Bəlkə, elə mayor özü də Anitaya bu baxımdan uduzmuşdu?! Yox, özü istəmişdi Qüdrətov... Özü istəmişdi, daxilində buna kişilik ehtiyacı yaranmışdı və bəzi kişilərdən fərqli olaraq heç kimə xəyanət etməyərək Anita ilə yaxınlaşmışdı. Həm də bir neçə dəfə...

Həmin inilti səsi bir daha qulaqlarında duyuldu. Mayor isə, sanki ötən gün yaşadıqları həmin saatların fikirlərindən ayrılmaq istəmədi. Amma normal insanı ehtirasa gətirəcək qadın iniltisi getdikcə ona daha yaxından duyulurdu. Yox, bu, ötən gecənin təsiri ilə bağlı deyildi. Qüdrətov tapançanı bel hissədən kəmərinə taxıb əyilərək sağ tərəfə yeridi. Hər şey aydın idi. Komarov yanına gələn həmin qırmızı rəngli "Hyundai"ın sürücü olan qadın ilə yaxınlıqdakı sökük girişi olan nisbətən iri qarajda idilər. Qarajın daxilində xüsusi ustalıqla hazırlanmış balaca tikili görünürdü. Buradan gələn səslərdən aydın başa düşülürdü ki, içəridəkilər indi göyün yeddinci qatındadırlar. Balaca daxmaya bənzəyən bu tikilinin kiçik pəncərəsindən düşən zəif şam işığı içəridə baş verənləri daha əyani şəkildə görməyə şərait yaradırdı. Düşünməyə ehtiyac olmadığına əmin olan mayor gəldiyi sakit addımlarla taxta qapıya yaxınlaşıb içəri girdi. Qapının cırıltı səsindən sonra nə baş verdiyini dəqiqləşdirməyə çalışan içəridəkilərə səsləndi:

– Bağışlayın ki, işinizə mane oldum.

Əlini yastığın altına uzatmaq istəyən Komarovun si-

lahını çıxarmaq istəyi nəticəsiz oldu. Qüdrətovun açdığı atəşdən sonra yaşına görə xeyli cavan qalmış bu kişi daş dəymiş yiyəsiz küçə itləri kimi büzüşüb bir kənara çəkildi. Mayorun tapançasından açılan güllə onu yaralamışdı. Bir anın içində rəngi-ruhu saraldı. Bilmirdi ki, yarasının hayına qalsın, yoxsa düşdüyü aciz vəziyyətini ört-basdır etsin, yoxsa ki, gözlənilməz qonağın kimliyini soruşsun. Hələ də çılpaq vəziyyətdə olan qadın əlinə keçənləri dartışdıra-dartışdıra özünə tərəf çəkib gözəl biçilmiş bədən əzalarını örtməyə çalışırdı. Onun da rəngi qorxudan ağappaq olmuşdu. Qüdrətov hələ də bu qadının kim olduğunu anlaya bilmirdi. Komarov kimi tanınmış iş adamı nəyə görə belə ucuz yerdə bu işlə məşğul olmalı idi?!

– Tez olun geyinin! Cəmi bir dəqiqə vaxtınız var! – mayor bunu deyib istehza ilə saatına baxdı. Vaxt sanki indicə donub qalmışdı. Siqaret yandırıb daxmaya bənzəyən kiçik otağın küncünə qoyulmuş stulu altına çəkdi. Hiss elədi ki, başında yaranan xoşagəlməz ağrı getdikcə daha da artır. Artıq siqaret çəkmək istəyi də qalmamışdı. Odur ki, yenicə yandırdığı siqareti söndürüb ataraq yenidən saatına nəzər saldı. Nədənsə çox narahat hiss edirdi özünü. Ağzında acı tam hiss etməyə başlamışdı. Yəqin ki, iki-üç gündür cibində gəzdirdiyi acı siqaretin təsirindən idi. Bəyənməsə də, atmamışdı nədənsə. Düşündü ki, buraya gələndə taksi sürücüsünün ona təklif etdiyi siqaret daha yaxşı idi. Bu barədə nəyə görə düşündüyünə əhəmiyyət vermədən tir-tir əsən qızı acıladı:

– Onu da geyindir! – Qüdrətov bir az əvvəl yaraladığı adama işarə etdi.

– Siz kimsiniz? Nə istəsəniz verərəm, məni öldürməyin... – Komarov yalvarmağa başladı.

– Bax, dil açdın artıq. Amma bayaqdan qoyun kimi baxırdın! – mayor işi yoxuşa sürdü.

– Siz yetər ki, istəyin! Nə desəniz...

Komarovun sözü ağzında qaldı. Qüdrətov əlinin arxası ilə onun üzündən təhqiredici formada itələdi:

– Demək, nə istəsəm, hə?!

– Hə, əlbəttə, əlbəttəəəəəəə...

Mayor qadının gözlərinin içinə baxaraq ayağı ilə Komarovun yarasına basdı.

– Mən sənin canını almaq istəyirəm, Komarov! – Qüdrətov onun yaxasından tutub imkanı çatdığı qədər yuxarı qaldırdı.

– Axı siz kimsiniz? Məndən nə istəyirsiz? Siz məni yaxşı tanımırsınız!..

Adam bunu demişdi ki, Qüdrətov onu qaldırdığı kimi də daxmanın taxta dirəyinə çırpdı. Bunu etməsi ilə adamın bağıraraq yerə düşməsi bir oldu. Yarasından açılan qan daha da şiddətlənmişdi.

– Bir az yaxşı düşünməli olacaqsan! Bil ki, səni çox gözləyə bilməyəcəm. Al, bu şəkli! Yəqin hələ də unutmayıbsan bu şərəfsizi! – Qüdrətov cibindən çıxartdığı şəkli onun üstünə atdı. Bu Komarovun Azərbaycandakı ortağı, daha doğrusu, əlaltısı olan Alekseyin şəkli idi.

Alekseyin şəklini görər-görməz Komarovun gözləri bərəldi. Onsuz da bayaqdan vəziyyəti pisləşən adam indi, sanki ürəyinə zəhərli xəncər saplanmış adam kimi xırıldamağa başladı:

– Bu iti mən tanımıraaaam...

– Əmri kimdən almışdın, əclaf? – Qüdrətov onun yalanına cavab vermədən tapançanı növbəti dəfə atəşə hazır vəziyyətə gətirib onun alnına tuşladı.

– Məni öldürməyin, mən heç nə bilmirəm... Allaha and içirəm ki, heç nədən xəbərim olmayıb...

Yana açılan atəşdən sonra Komarovun məşuqəsi olan həmin qadın qorxudan huşunu itirdi. Qüdrətov qəflətən

silahı ona yaxın istiqamətə yönəldərək xəbərdarlıq etmişdi. Mayor çox yaxşı başa düşürdü ki, əmri verən adam Komarov kimi ehtiyatsız biri ola bilməz. Amma bu da yəqin idi ki, belə müəmmalı tapşırığın axırında hansısa vacib gizli hadisə dayanıb. Bu hadisənin Azərbaycanla bağlı olub-olmamasını isə sona qədər öyrənmək lazım idi.

Sonuncu xəbərdarlıq atəşindən sonra anidən düşdüyü dəhşətli vəziyyətə dözməyərək gözlərini yuman Komarov indi yavaş-yavaş göz qapaqlarını qaldırmağa başladı. Sanki inamsız halda ölüb-ölmədiyini müəyyən etməyə çalışırdı. Və yalnız bundan sonra sağ qaldığına əmin olub ölməmək üçün danışmağa başladı:

– Mənə bu tapşırığı Qribkova vermişdi. Tatyana Qribkova...

– Yerini de, uzatma!

– Yerini dəqiq bilmirəm, amma bu, sənə onun yerini deyə bilər. Yaralı adam hələ də özünə gəlməyən qadını göstərdi.

– Kimdir bu?

– Bu qız Qribkova ilə mənim aramda vasitəçidir. Onun adamıdır...

– Niyə bura gəlib indi? – mayor alçaldıcı ironiya ilə soruşdu.

– Söz verin ki, məni öldürməyəcəksiz... Bildiyim hər şeyi danışacam. Mənim heç bir günahım yoxdur... Öz iş-gücüm var. Qribkovanın əmrinə məcburiyyətdən girmişəm. Onun hər yerdə adamları var. Onların dediklərini etməsəm, məni və ailəmi bircə saatda məhv edərlər...

– Komarov! Canına yazığın gəlsin! – Qüdrətov sağ əlinin güclü pəncəsi ilə onun qadınlara xas olan şumal boğazından yapışdı.

– Buuuuraxın, ölüüüürəəəəm...

– Danış, it oğlu! Sənin!..

– Biz bu gün Qribkova ilə görüşəcəkdik – adam son taqətini toplayaraq izah etməyə başladı. Şirkətin yeni binalarının maliyyə məsələləri və tikinti ilə bağlı söhbətimiz olmalı idi. Bu qadın məni həmişə olduğu kimi Tatyananın tez-tez dəyişdirilən gizli yerlərindən birinə aparmalı idi. Mən həmin yeri tanımıram. Qadın isə hər şeydən xəbərdardır.

Qribkovanın dediyi ünvan isə hələ ki, bu qadının özünə də bəlli deyil. Siz gəlməmişdən əvvəl Qribkovanın görüş üçün haranı təyin etdiyini soruşdum. Hətta mənimlə ayrı-ayrı vaxtlarda bir neçə dəfə yatmasına baxmayaraq, yerin hara olduğunu bilmədiyini dedi. Əvvəlcə həmişəki kimi inanmadım. Çünki bu qadın mənimlə yatağa girsə də, öz sahibindən it balası kimi qorxur. Mən onu qınamıram. Özüm də qorxuram... Macal tapıb indi yataqda yenə Qribkova ilə görüş yerinin harada olmasını soruşdum. Elə bil hiss edirdim ki, başıma nəsə gələcək... Bu dəfə and içdi ki, görüş ünvanını bilmir. Tatyana buna tapşırıbmış ki, mənim yanıma çatandan sonra ona zəng etsin. Yalnız bundan sonra görüş yeri bizə bildiriləcəkdi.

– Ay səni şərəfsiz! Bunu indi deyirlər?! Hə, it oğlu? – Qüdrətov gecikə biləcəklərini və Qribkovanın şübhələnib aradan çıxmasından qorxdu. Belə olacağı halda izi, bəlkə də, həmişəlik itirmiş olacaqdı. Cəld gödəkcəsinin cibindəki naşatır spirtinin flakonunu açaraq özünə gəlmək üzrə olan qadının burnuna tutdu:

– Özünə gəl!

Kəskin iyli ammonyakın qoxusu az qala ağciyərlərinə qədər gedib çıxan qadın madyan kimi fınxıraraq özünə gəldi.

– Götür, zəng elə, de ki, çatıbsan! Ünvanı desin! – mayor həyəcana qarışmış qorxunc səslə bədəni əsməcə tutmuş qadına qışqırdı.

– Məni öldürərlər! Yox, yox, yooooox...

Ani qərardan sonra Qüdrətov artıq tətiyi çəkərək Komarovu öldürmüşdü. Qadının nazı ilə oynamağa vaxt yox idi. Hər keçən dəqiqə o danışmadıqca mayorun Qribkovanı əldən çıxarmaq təhlükəsi daha da artırdı. Buna görə Qüdrətov onsuz da öldürəcəyi Komarovu məşuqəsinin gözü qarşısında düşünmədən güllələyərək işini sonraya saxlamadı. Məqsədi qadını qorxudub Qribkovaya zəng vurmağa təhrik edərək tələsdirmək idi.

– Mən səni də bax, belə düşünmədən öldürə bilərəm. Götür zəng elə! Cəld ol! Mayor bunu deyib qan içində yerə sərilən Komarovun cəsədini göstərdi. Bir az əvvəl öldürülən bu adamın üzündəki cizgilərdə gözlənilməz ani atəşdən əvvəl yaranmış qəribə təəccüb və çarəsizlik oxunurdu. Sanki, bu cizgilər "mən axı bildiyim hər şeyi sənə danışdım" deyirdi...

## 47. Zindandakı şahid

Gecə onun əsrarəngizliyini sevən, uşaqlığından bəri onun sirli qaranlığından doymayan Tənha canavar ləqəbli əməliyyatçıya öz töhfəsini vermişdi. Bir az əvvəl gözlədiyi adamı əldən çıxaracağından, izini itirəcəyindən ehtiyat edən Qüdrətov indi öz məqsədinə çataraq rahatlanmışdı. Bu dəqiqə Rusiyanın ucsuz-bucaqsız ərazilərinin bir parçası olan bu köhnə qaraj həyətində baş verənlər tamamilə onun və doğma vətəninin xeyrinə idi. Rusiya ərazisində yaşayan və ermənilərin əsas himayədarlarından olan Tatyana Qribkova adlı həmin qadının törətdiyi cinayəti bütün detalları ilə Qüdrətova danışmaqdan başqa çıxış yolu yox idi. Məxfi şöbənin gizli agenti mayor Mikayıl Qüdrətov bu qadını gözlədiyindən daha rahat şəkildə ələ ke-

çirmişdi. Bu, təxminən bir saat əvvəl belə baş vermişdi...

Komarovun ölümündən sarsıntı keçirib qorxuya düşən məşuqəsi Tatyana Qribkovaya zəng edərək şübhələndirmədən Komarovun yanına çatdığını bildirir. Şərtləşməyə görə, Qribkova görüş yerini verir. Həmin görüş yeri gözlənilmədən elə bu köhnə qarajın həyəti seçilir. Qüdrətov görüş yerini öyrənəndən sonra çox şübhələnsə də, başçı qadının tez-tez görüş yeri dəyişdirdiyini yada salıb sakitləşməyə çalışdı.

Beləliklə, Qribkova şəxsən təyin etdiyi bu görüş yerinin həyətinə girər-girməz onu əvvəlcə öz əlaqələndiricisi olan məşuqə qadın, sonra isə qəfildən Qüdrətov özü qarşılayaraq ələ keçirdi. Nə baş verdiyini anlamayan erməni himayədarının gözləri qarşısında məşuqə qadını da güllələyən mayor cinayəti nəyə görə törətdiyini danışmayacağı halda Tatyananın özünü də bu cür əzabla cəhənnəmə göndərəcəyini bildirdi. Ölüm təhlükəsinin ona aldığı nəfəs qədər yaxın olduğunu, sanki burnunun ucunda duyan erməni himayədarı üstündən illər keçməsinə baxmayaraq, indi hər şeyi – bu cinayəti nəyə görə törətdiklərini olduğu kimi danışmağa başlamışdı...

– Siz türklər çox kinlisiz. Amma ən pis xüsusiyyətiniz unutqan olmağınızdır. Mənim güvəndiyim ermənilər isə sizdən çox fərqlidirlər. Siz bəzən özünüzdə olanların qədrini bilmirsiz. Buna görə onlar – ermənilər həmişə sizin torpaqlarınızı işğal ediblər... Mən də həmişəki kimi öz borcumu yerinə yetirmişəm. İyirmi ildən çoxdur ki, onlara analıq edirəm. Onlar da həmişə bizə möhtac olublar... Həmişə!.. Amma deyim ki, indi məni öz biznesim maraqlandırır. Öz vətənimdə malım-mülküm ilə məni hamı yaxşı tanıyır. Qaldı ki, o hadisəyə, mən onu cinayət adlandırmazdım. Madam ki, siz deyirsiz, eybi yox qoy elə olsun...

– Türklər haqqında fikir yürütmək sənə qalmayıb, qancıq! Uzatma, mətləbə keç! – deyən Qüdrətov bu qadının haqlı sözlərindən sonra əsəbiləşsə də, bunun səbəbini gizlətməyə çalışdı.

Qadın hansısa qəzet müxbirinə müsahibə verirmiş kimi arxayınlıqla fikirlərini davam etdirirdi. İndi qadının bütün danışdıqlarını dinləmək məcburiyyətində qalan Qüdrətov bu hadisənin hər bir detalına diqqət yetirməyə çalışırdı. Tatyana Qribkova adlı bu hiyləgər qadın hər an nəzərdən qaça biləcək hansısa fikri deyə bilərdi. Buna görə də təmkinlə onu sonuna qədər dinləmək lazım idi. Hər halda söhbət bitən kimi bu qadını da o birilərinin yanına göndərib işi bitirəcəkdi. Sonra isə, yəqin ki, bütün günün yorğunluğunu çıxarmaq üçün mehmanxanaya qayıdacaq və yaxşı istirahət edəcəkdi. Xocalı əsiri Aytəkinin uşağı doğularkən mamaçalıq edən Sonya adlı qadının axtarışı isə hələ ki, davam etdirilirdi. Agenturadan isə qısa vaxt ərzində bu barədə xəbər-ətər gəlməsi, yəqin ki, mümkün olmayacaqdı. Odur ki, sabah işin uzanması ilə bağlı Bakıya məlumat göndərmək lazım gələcəkdi. Çox yəqin ki, sabah, indi yox. Bu gecə isə dincəlmək üçün yaxşı vaxtı olacaqdı... Qüdrətov heç özü də niyəsini bilmədən yenə də Anitanı xatırladı. Qüdrətov kimi ciddi və qadınlara maraq salmayan bir adam necə olmuşdusa, birdən-birə bu qız haqqında düşünməyə başlamışdı. Məgər Anita o qədər çoxmu özünə cəlb edə bilmişdi qaraqabaq təhlükəsizlik işçisini?! Deyəsən, mayor bu sualın cavabını müəyyən etməyə çətinlik çəkəcəkdi. Buna görə də gözlənilmədən beyninə yer eləməyə çalışan bu fikir burulğanını uzaqlaşdıra bildi. Yalnız bircə an bunu düşündü ki, bu uğurlu gecənin sonunu Anita ilə keçirtsəydi, pis olmazdı. Qıza dünən Bakıya qayıtdığını deyib başından etdiyinə görə, indi təbii ki, bu mümkün deyildi. Həm də ayrılıb

qapıdan çıxarkən necə olmuşdusa, hətta onu acılayıb yola salmağa gəlməməsini bildirmişdi...

Qribkova isə susmurdu... Qarabağdan, türklərdən, ermənilərdən danışıb çərənləyirdi. Nəhayət ki, mayorun şilləsindən sonra özünə gələ bildi. İndi o kəkələyərək Qarib adlı erməninin Bakıda öldürüldüyü həmin günü və cinayətin nəyə görə baş verdiyini danışmağa başladı.

... Ermənistan hakimiyyəti indi ölkənin iqtidarında olduğuna görə mənim kimi adamlara minnətdar olmalıdır. Qaribin öldürülməsi əmrini o vaxt çevriliş edərək Ermənistanda hakimiyyətə gəlmək istəyən qüvvələr vermişdi.

Qarib adlı həmin erməni gəncin anası Jor külli miqdarda pulu ilə onu Azərbaycandakı həbsxanadan azad edərək Ermənistana qaytaracaqdı. Həmin vaxt məndən xahiş olundu ki, buna necə olur-olsun mane olum. Məsələ burasında idi ki, Qarib sizin Gəncə şəhərinizdə o vaxt cinayət üstündə tutulsa da, Qarabağ məsələsi başlayandan sonra onu digər əsirlərlə eyni yerdə saxlamışdılar. Və onun öldürülməsinin səbəbi də onunla bir yerdə saxlanılan Tivan adlı əsirdən öyrəndikləri idi. Qarib Ermənistana gələn kimi həmin məlumatları öz anasına çatdırmalı idi. Qarib əslində o vaxtkı ordu komandirlərindən olan Safaryanın məşuqələrindən biri olan Jor adlı həmin qadınla qeyri-rəsmi nikahından doğulmuşdu.

Həmin vaxt ermənilər tərəfdə ara qarışıq idi. Mənə də məlumatlar gəlib çatırdı ki, hakimiyyət çevrilişi gözlənilir. Həmin vaxt himayədarlıq etdiyimiz adamların hakimiyyətə gəlməsinə yaxşı şərait yaranmışdı. O vaxtkı mövcud hakimiyyəti devirmək üçün sadəcə inqilab çatmırdı. Təxribatların birində Safaryan sui-qəsd nəticəsində öldürüldü. Biləsiz ki, o sui-qəsdin təşkilində mənim də rolum az olmadı. Safaryandan sonra isə yerinə əsas adamlarından ən birincisi hesab edilən və sizin əsirlərə

cürbəcür işgəncələr verməklə ad qazanmış Albert Vaskanyan gəldi. Amma o Safaryandan dəfələrlə hiyləgər çıxdı. Biz bu günə qədər də ona bir şey edə bilməmişik. Safaryan öldürülməmişdən bir neçə ay əvvəl o vaxtkı hakimiyyətə xaricdən himayədarlıq edərək iqtidara gətirən erməni qüvvələri və bizə məlum olmayan xüsusi erməni təşkilatı ona gizli məktub göndəribmiş. Bu barədə məlumat Safaryanın sui-qəsdindən sonra məlum oldu. Sən demə, Safaryan özünün sağ olduğu müddətdə gələcək Ermənistan dövləti və o vaxtkı hakimiyyətin qorunması ilə bağlı bütün ordu planlarının, gizli silah-sursat yerləşdirilən ərazilərin sxeminin əks olunduğu həmin məktubu hansısa bir yerdə basdırmaq üçün Tivana veribmiş. Tivan isə Safaryanın at tövləsində xidmət göstərən sıravi erməni əsgəri idi. Safaryanın qəfil sui-qəsdindən sonra gözlənilmədən Tivan da siz tərəfə əsir düşür. Və beləliklə, həmin məktubun izi itir. Yalnız ölüm ayağında olarkən Vaskanyan öz komandirindən həmin məktubun Tivanda olduğunu öyrənə bilir. Həmin gündə də Tivan döyüşdə sizinkilərə əsir düşür...

Safaryanın öldürülməsindən və Tivanın əsir düşməsindən sonra Albert Vaskanyan öz böyükləri tərəfindən göndərilən vacib sənədin, yəni ki, həmin məktubun tapılmasını qarşısına məqsəd qoyur. Təbii ki, Jor da Safaryanın xatirinə və həm də Vaskanyanın xahişinə görə sizin əsirliyinizdə olan oğlu Qarib qayıdarkən Tivan adlı həmin əsgərdən məktubun hara basdırıldığını öyrənməyi tapşırır. Elə buna görə də, Komarova gizli məktubun yerini bildiyinə görə Qaribi öldürtdürməsini əmr etdim. Qətl günü üçün Qaribin həbsxana maşınında dəyişdirilməyə aparıldığı gün seçilmişdi və mən bu barədə məlumatlı idim. Səhv etmirəmsə, həmin işi təşkil edən adamın adı Aleksey idi. Siz, yəqin ki, elə onun vasitəsilə bizi ifşa

etmisiniz. Hə, onun adı Aleksey idi... Mənim dəqiq yadımdadır. Çünki Qaribin öldürülməsi ilə şəxsən özüm maraqlanmışdım. O gün mən böyük bir izi itirdim və o vaxt sarsılmaq üzrə olan erməni hakimiyyətinin yenidən dirçəlməməsi üçün öz üzərimə düşmüş olan borcu ödəmiş oldum!

... Qüdrətov artıq hiss etdi ki, qadının bundan sonrakı yersiz izahatları heç nəyi dəyişməyəcək. Qadın bayaqdan bəri onu nəzarət altında saxlayan, ona hakim olan və danışmağı diktə edən nifrətli gözlərin nə demək istədiyini də oxumağa başlamışdı. Getdikcə daha çox havalanan insanlar kimi danışırdı. Ətrafında olan iki cəsədə isə qətiyyən baxmadan özünü ələ almağa, bu sorğu-sualın nə vaxt bitəcəyini gözləməyə çalışırdı. Gözlərində yaşamağa olan ümid hələ də sönməmişdi... Amma bu ümidlər ona söz verə bilmədi! Qüdrətov üçün isə mövzu artıq qapanmış, təxminən iyirmi il əvvəl baş vermiş həmin cinayətin sirri açılmış, səbəbi məlum olmuşdu. Daha bir an olsun düşünmədən işini bitirdi... Və sonra da otaqdan çıxmaq üçün qapıya tərəf getdi. Bir neçə saniyə əvvəl edilən atəşdən sonra Qribkovanın ağzından keçən tapança mərmisi arxadan ənsəni yararaq taxta dirəyi al qana boyamışdı...

... Mayoru isə mehmanxananın rahat otaqlarından birində yaxşıca yatıb istirahət etmək gözləyirdi...

– Amma tək... – Qüdrətov bunu təəssüflə kiməsə pıçıldayırmış kimi deyib həmişəki iti addımlarla oradan uzaqlaşdı.

## 48. Arzuolunan qonaq

Taksi şəhərin mərkəzindən o qədər də aralıda olmayan mehmanxananın qarşısında dayandı. Qüdrətov gəldiyi

yola uyğun sürücünün haqqını verib maşından düşdü. Çox yorğun olmasına baxmayaraq, gecəni necə keçirəcəyi barəsində düşünürdü. Yolboyu bir gün müddətində keçirdiyi gərgin əməliyyat barəsində fikirləşmiş, əldə etdiyi nəticələri götür-qoy etməyə çalışmışdı.

Bu gün baş verənlərdən sonra bir daha əmin oldu ki, apardığı təhqiqatda doğru yolla gedir. Bakıdakıların, xüsusilə də məxfi şöbənin rəisi general-mayor Kamil Əzimovun bundan hələ xəbəri olmasa da, Qüdrətov sabah bu barədə şöbəyə məlumat göndərəcəkdi. Əməliyyat uğurlu keçmişdi. İndi mayor təxminən iyirmi il əvvəl baş vermiş hadisələrin əslində bir-biri ilə zəncirvari əlaqəsini aşkara çıxara bilmişdi. Hələ ki səhərə qədər təcili görüləcək bir iş olmadığına görə, bu cinayətin mərhələləri və iştirakçıları ilə bağlı bir daha qarşılaşdırmalar aparmaq lazım gəlirdi. Adətən hüquq-mühafizə orqanlarının üzləşdirmə adlandırdığı bu mühakimələri Qüdrətov öz xəyalındakı hadisə iştirakçılarının rolları ilə elə xəyalında da canlandırmalı idi. Bu sanki hansısa filmə, yaxud maraqlı bir əsərə bənzəyirdi. Bu filmdə aktyorlardan çoxu mənfi qəhrəmanlar idilər... Qüdrətov hərdən belə düşünəndə onları qəhrəman da adlandıra bilmirdi. Onların bu filmdə rol almamaları üçün isə yəqin ki, hələ uzun müddət yenə də bugünkü kimi etmək, Komarov və ya Tatyana Qribkova kimi erməni himayədarlarını məhv etmək lazım gələcəkdi.

Yorğun olmasına baxmayaraq, gecənin səssizliyi və şəhərin əsəb sakitləşdirici görkəmi Qüdrətovu bir az ayaq saxlamağı, hələ tələsməməyi tövsiyə edirdi. Bu şəhər və ümumiyyətlə, bu ölkə onun üçün qürbət idi. Qərib olmasına baxmayaraq, burada onun çoxlu həmvətənləri yaşayırdı. Pis, yaxşı, vətənini unudan, buradakı biznesi naminə düşmənlərimizlə bir süfrə arxasına oturan... Nə-

dənsə buradakı azərbaycanlıları beləcə saf-çürük etdikcə, safların sayının az olduğu hiss olunurdu. Mayor özü də başa düşmürdü ki, niyə həmişə məhz belə düşünür. Axı o, burada yaşayan soydaşlarımızın hamısını tək-tək, şəxsən tanımırdı. Bu halda onların pis, yoxsa yaxşı olması haqqında nəyə görə fikir yürütməli idi? Yox, o haqsız deyildi... Özü bunu bilsə də, buna görə qərib ölkədə heç kəsin duya bilməyəcəyi daxili utanc hissi keçirsə də, bu, həqiqət idi. Və Qüdrətov istəməsə də, bunu etiraf etməli idi...

Beynindəki fikirlər sürətlə inkişaf edir, sanki bu fikirlər də öz aralarında mübahisə edərək hansının daha haqlı olmasını müəyyən etməyə çalışırdı. Yenicə təcəlli edən fikir isə o birilərlə müqayisədə daha tələskən, daha hövsələsizlik edir, sahibini yormağa başlayırdı. Məxfi şöbənin əməkdaşı indi bir az əvvəlki düşüncələrindən xeyli uzaqlaşıb Bakıdakı adam haqqında düşünməyə başlamışdı. Tivan... Bu adamda olan məlumatın indiyə qədər yalnız onda olması, kənara çıxa bilməməsi çox müəmmalı görünürdü. Digər tərəfdən də Qüdrətov buna görə öz vətəninin təhlükəsizlik işçilərini alqışlayırdı. Əgər iyirmi il müddətində erməni tərəfi bu məlumatı hələ də öyrənə bilməyibsə, həqiqətən də, buna təhlükəsizlik əməkdaşlarının uğurlu fəaliyyəti demək lazımdır. Amma əsas məsələ bu deyildi. Qribkovanın dediyi kimi, Tivan adlı həmin erməni əsgər öz komandirinin ölümündən xeyli əvvəl ona verdiyi gizli sənədlərin yerini bilirdi. Bir neçə ay əvvəl leytenant Tahir Qurbanovun mayora verdiyi məlumatda da Tivanın halhazırda biz tərəfdə saxlanıldığını demişdi. Hətta Ramil özü Tivan və onunla kamerada saxlanılan digər dörd nəfərlə bir neçə dəfə görüşüb onları danışdırmışdı da. Yəqin ki, Ramilin də bu adamlarla bağlı hansısa özünəməxsus şübhələri olub. Əgər belə

olmasaydı, eyni məsələyə görə eyni adamları bir neçə dəfə sorğulamazdı. Deməli, Tivandakı məlumatların ardınca hələ də adam gəlib çıxmamışdı. Və bəlkə də, heç gəlməyəcəkdi... Amma istənilən halda sabah bu barədə mütləq məlumat verilməli idi. Təcrübəli əməliyyatçı bu barədə daha da dərindən düşünməyə ehtiyac hiss edirdi. İyirmi il əvvəl baş vermiş hadisələrdən sonra əksəriyyətin unutduğu hadisələrin tanınmayan tərəfləri daha çox qalırdı. İndi buna şərait də yaranmışdı. Olub keçənləri, ermənilərin törətdiyi faciələri silib atmaq, yaxud da qarşısını almaq mümkün deyildisə də, bundan sonrası haqqında daha tədbirli davranmaq öz əlimizdədir... Qüdrətov bu barədə düşündükcə, özünü daha çox sadə vətəndaş, bu xalqın sıravi bir nümayəndəsi kimi hiss etməyə çalışdı. Öz əlimizdədir... Bunu gözündə ölüm qorxusu olmayan əməliyyatçının daxilindəki məni sadə vətəndaş olan özü ilə söhbəti kimi qeyri-ixtiyari olaraq bir daha dilə gətirdi. Və elə bundan sonra da öz səsindən ehtiyatlanıb bir anlıq ətrafına boylandı.

Şəhər işıqları, küçələrdə şütüyən maşınlar onun öz vətənindəki kimi olmasa da, yenə də gecənin qaranlığında Tənha canavarı özünə bağlayır, çəkərək daha da yaxınlaşdırır və fikirlərini özünün də bilmədiyi uzaq yurdlara daşıyırdı. İndi onun simasındakı mənalı cizgilərə baxan olsaydı, halını bəlkə yalnız bu zaman anlaya bilərdi. O, ağlı kəsəndən vətəni üçün canını fəda etməyə hazır olan, vətəninə aşiq olan, millətinə qarşı yuxaürəkli, düşmənlərə qarşı amansız bir insan idi. Çətin əməliyyatlarda bərkə-boşa düşmüş, şəxsi fərziyyələrində yanılmayan Qüdrətov üçün olub-keçənləri düşünmək nə qədər ağır və ağrılı gəlirdisə, bunları xalqının başına gətirən ermənilərin, Albert Vaskanyan kimi qaniçənlərin hələ də cəzasız qalmasını şəxsən özünə bağışlaya bilmirdi. Doğma

Qarabağında hələ də qisassız qanlarla doymuş torpağın naləsi eşidə bilənlərin qulaqlarına yol etməyə çalışırdı. Ana torpaq neçə illər idi ki, bu həsrətlə öz övladlarının yolunu gözləyirdi...

***

Gecə gəzintisi, adət etdiyi kimi, Qüdrətova xoş təsir göstərmişdi. İndi artıq acdığını da hiss edib yenidən mehmanxanaya qayıdırdı. Yadına düşdü ki, qaldığı nömrənin haqqını da cəmi bir günlük ödəyib. Amma, yəqin, hələ otağı boşaltmazdılar. Necə olsa, bir sutka tamam olmamışdı. Həm də axı Qüdrətov onların gözündə Azərbaycandan qonaq gəlmiş firma əməkdaşı Xəyal Mövsümsoy idi. Bu halda hər yerdə iş adamlarına olan münasibəti nəzərə alaraq əminliklə deyə bilərdi ki, belə xırda məsələlər Xəyal müəllim üçün problem yarada bilməzdi. Qüdrətov mehmanxanaya girərkən üzündə yaranan qəribə təbəssüm də, yəqin, bir az əvvəl bununla bağlı düşündükləri ilə bağlı idi. Elə mehmanxana resepşini olan cavan sarısaçlı qız da onu eyni təbəssümlə qarşıladı:

– Xoş gəlmisiniz, Mövsümoviç!

– Xoş gördük! – Bir az əvvəl Qüdrətovun üzündə yaranan təbəssümə indi təəccüb də əlavə olundu. Bunu hiss etdirmək istəməsə də, bu qızın onun soyadını necə maraqla yadında saxlamasına, doğrudan da, təəccübləndi. Amma yadına düşdü ki, səhər həmin bu qız ondan kosmetika kataloqu olan jurnaldan hansısa məhsul haqqında soruşmuşdu. Qız onun həmin kosmetika firmasının əməkdaşı olduğunu biləndən sonra bir az söhbət də etmişdilər. Sən demə, qız da ixtisasca kosmetoloq imiş.

– Necəsiz? – Natalya adlı bu qız yenidən mehmanxana rəhbərliyinin işçilər üçün qoyduğu qaydalara zidd olaraq rəsmiyyəti pozdu.

– Çox sağ olun, Natalya xanım! – Qüdrətov qıza boynundan asılan vəsiqədəki adı ilə müraciət etdi.

– Mövsümoviç, bir xanım sizi görmək üçün bu gün iki dəfə buraya gəlib. Elə indi də zalda sizi gözləyir.

– Adı? – Qüdrətov sadəcə bunu soruşub gələn qonağın kimliyi ilə maraqlandı.

– Bilmirəm, adını demədi. Dedi ki, siz onu tanıyırsız.

– Yaxşı, mən zala keçib onunla görüşərəm.

***

Qüdrətov zala girən kimi onu gözləyən qadını gözləri ilə axtarmağa çalışdı. Kim idi görəsən, bu qadın? Axı o, heç kimi gözləmirdi. Özü də ki tanımadığı bir yerdə bu arzuolunmaz qonağın kimliyi mayor üçün bir anlıq çox şübhəli gəlsə də, bu, çox davam etmədi.

– Anita?! – Qüdrətov sağ tərəfdən bara yaxın masalardan birində yanakı oturmuş və qarşısındakı meyvə şirəsini qurtumlayaraq gözləri yol çəkən qadına səsləndi. “Aman Allah, bu doğrudan da odur!” daxilən bunu düşünən Qüdrətov yuxu görmədiyinə əmin olub qəribə sevinc hissi keçirtdi. Qız onun səsini eşitcək özünə gəlib arxaya çevrildi və sevincək uşaqlar kimi qabağına yüyürdü:

– Mövsümoviç!.. Elə bildim, daha bura da gəlməyəcəksən... Qorxdum!..

– Niyə? Nə isə olub? – Qüdrətov onun buraya necə gəlməsini soruşmağa macal tapmadan qızın narahatlığının səbəbini dəqiqləşdirmək istədi. Bəlkə, nə isə baş vermişdi...

– Hə, oldu... – Anita bunu deyib onun boynuna sarıldı. Sanki aylardır həsrətini çəkdiyi sevgilisinə qovuşmuşdu Anita. Bu hərəkətlərdə zərrə qədər də sünilik, yalan, dürüstlükdən kənar heç nə hiss olunmurdu. Mayor bunu

çox yaxşı başa düşürdü. İndi qız sadəcə başını onun qoynuna söykəyib susurdu.

– Anita, de görüm nə olub axı?! Mənim burada olduğumu necə bildin? – Qüdrətov mülayimlik göstərdi. Əslində isə qız tərəfindən izlənildiyini özünə həzm etdirə bilmirdi. Bəlkə də, bunun səbəbi qısa vaxt ərzində Anitanın sadə və dürüst insan olduğunu görməsi və buna inanması idi. Yəqin ki, bu qızdan azacıq da olsa, şübhələnmiş olsaydı, heç vaxt belə ehtiyatsızlıq etməzdi. Amma izlənildiyinə və diqqətsizliyinə görə yenə də özünü tənbehlədi.

– İstəməsən də, səni yola salmaq üçün sən evdən çıxan kimi taksi tutub ardınca gəldim. Nə yaxşı ki, buraya gəldin... – Qız indi başını Qüdrətovun sinəsindən ayıraraq gözlərinin içinə baxırdı. Bu baxışlarda məsumluq, tənhalıq, ərsiz qadının nisgili var idi...

– Niyə gəldin buraya? – Qüdrətov bayaq qızı görəndən bəri cavabını bildiyi sualı sınayıcı tərzdə dilə gətirdi.

– Sənə vurulmuşam, Mövsümoviç... – qız çətinliklə bunu deyib, sanki xeyli yüngülləşdi.

– Ta denən işə düşdük ki... – Qüdrətov bunu elə məzəli və mənalı dedi ki, qız da bu sözdən sonra, hətta inciməyib gülümsədi. Bu qısa kəlmə, sanki bircə anda mövzunu bağladı. Acsan? – Anita da dəlicəsinə bəyəndiyi bu adamla keçirəcəyi gecənin dadını qaçırmamaq üçün ən azından bu günün xətrinə söhbəti dəyişdi.

– Hə, qalxaq yuxarı, – Mayor da onu anlayışla qarşıladı.

## 49. Bakıdan gələn zəng

Gecədən əsməyə başlayan xəfif külək səhərə yaxın getdikcə artmış, indi səhər olmasına baxmayaraq, hələ də susmaq istəmirdi. Küləyə alışmayan şəhər sakinləri

yavaş-yavaş yatdıqları şirin yuxudan ayılır və işə getmək üçün narazı halda küçələrə doluşurdular.

Qaldığı mehmanxananın pəncərəsindən yaxınlıqdakı yaşayış binalarına, həyətlərə və hərdən də özünün belə bilmədiyi məchul istiqamətlərə tamaşa edən Qüdrətov bu şəhərin onun doğma Bakısından çox fərqləndiyini, sanki indi hiss etməyə başlamışdı. Dünən gecə bu şəhərə bir az alışsa da, indi şəhəri qoynuna almış küləyin vıyıltısını eşitdikcə öz doğma küləklər şəhərini xatırlayır və daha da çox darıxmağa başlayırdı. Sanki əsən külək də öz sorağını ona çatdırmaq üçün pəncərənin qarşısına qədər gəlib çataraq içəri keçmək üçün ona yalvarır, hər cür xoş sözlərlə bəzənmiş cümlələrlə uşaq kimi dil tökürdü. Pəncərəni açdı...

Külək nə isə pıçıldayırdı. Bu pıçıltıda sevgi, qəriblik və həsrətlə yanaşı qeyri-müəyyən bir narahatlıq da var idi... Qüdrətov yenə də xəyallarından ayrılıb yolboyu hərəkət edən insanlara nəzər saldı. Şəhər sakinləri öyrəşmədiyi səhər küləyinin müşayiəti ilə öz yollarına davam edirdilər. Qüdrətov düşünürdü ki, onun doğma Bakısında insanlar küləyə qarşı heç vaxt belə laqeyd olmamışdılar. Ötən gecə barəsində fikirləşməməyə çalışsa da, indi hələ yataqdan qalxmayan Anita yadına düşdükcə qərarsızlıqla üzləşir və tez də bundan uzaqlaşmağa çalışırdı. Açıq pəncərədən çölə yol edən siqaretin tüstüsü onunla üz-üzə dayanan küləyə qarışıb başına gələnləri onun dilindən nağıl edirdi. Deyəsən, külək də bu əhvalata maraqla qulaq asmağa başlamış, daha bayaqkı kimi əsib-coşmayaraq sakitləşmişdi. Mayor yenə də dünənki gecə barəsində düşünməyə başlamışdı... İstəməsə də...

Dünənki günü gecəyə qədər gərginlik içində keçirən Qüdrətov yalnız gecə sakitlik tapmış, qərib şəhərdə arzuladığı yeganə qadınla bir yatağı paylaşmışdı. Anitanın

gözlənilmədən onun qaldığı mehmanxanaya gəlməsini dünən baş verən maraqlı hadisə hesab etmək də olardı... Bunu Qüdrətov indi düşündüsə də, həqiqət olduğunu dünən onu görəndə özlüyündə təbəssümlə etiraf etmişdi. Anita isə doğrudan da, onun qayğısına qalmaq istəyən, həm gözəllik baxımından, həm də mütənasib bədən quruluşu cəhətdən Qüdrətovun bəyənə biləcəyi bir qadın idi. Bəlkə, artıq onu bəyənirdi də. Sadəcə bunu etiraf etmək istəmirdi və yəqin ki, Bakıya qayıdandan sonra onu birdəfəlik unudacaqdı. Bir neçə gündən sonra... Edə biləcəkdimi?! Əlbəttə! Yalnız buna görə idimi Qüdrətovun bu qadına dünən gecəki xoş münasibəti?! Yoxsa Anitada hansısa başqa xüsusiyyət mayoru özünə daha çox cəlb edə bilmişdi. İndi düşünməyə başladı ki, qadına qarşı yaranan mehriban münasibətinin səbəbkarı da elə Anitanın özüdür. Bu qadın, həqiqətən də, çox mehriban insan idi. Mayorun həmişə qadınlarda ən pis xüsusiyyət hesab etdiyi həyasızlıq, həyasız qadın rəftarının və bunun kimi bir çox xüsusiyyətlərin heç biri Anitada yox idi. Elə buna görə də Qüdrətov dünən onu geri qaytarmamışdı. Əksinə, arzuladığı bir qadın olaraq gecəni onunla bir keçirmiş, yatağına qədər gəlmiş Anitanın qadın arzusunu ürəyində qoymamış, hisslərinə cavab vermişdi. Və yəqin ki, bundan sonra qadın ona daha çox bağlanmışdı. Vacib əməliyyat üçün burada olan Qüdrətov son iki gündə Anita ilə aralarında olan münasibətlərə müəyyən qiymət verməyə çətinlik çəkirdi. Qadın isə görünür ondan ayrılmaq fikrində deyildi. Nəhayət ki, mayor bu şəhərdə olduğu bütün boş vaxtlarını onunla keçirəcəyini qadına deyəndən sonra o da anlayış göstərmiş və yalnız telefon nömrəsini yazıb Qüdrətova verməklə kifayətlənmişdi. Özü də dəfələrlə xahiş edərək demişdi:

– Bilirəm, buradakı işlərin bitən kimi gedəcəksən. Axı

özün elə indi dedin ki, qəzet üçün hazırladığın material bitən kimi doğma vətəninə qayıdacaqsan. Əmin ol ki, mən sənin getməyini istəmirəm. Xahiş edirəm, bunu itirmə... Bu kağızda mənim nömrəm yazılıb. Nə vaxt buraya gələsi olsan, məni də yada sal...

Qadın bunları deyərkən sərxoş adamlar kimi sayıqlamış, kövrəldiyi üçün ağlamağa başlamışdı... Qüdrətovla Bakıya getmək istəyini bircə dəfə belə, dilinə gətirməsə də, gecə bir neçə dəfə bu istəyinə işarə etmişdi. Və hər dəfəsində də bunun mümkün olmadığını Qüdrətov ona hiss etdirmişdi.

İndi gödəkcəsinin cibinə qoyduğu həmin kağızı çıxarıb bir anlıq təbəssümlə seyr etdi. Sonra isə oradakı nömrəni qeyd dəftərçəsinə yazdı. Pəncərəni örtüb otağa keçdi. Artıq külək də dayanmışdı.

– Sabahınız xeyir, cənab Mövsümoviç! – vanna otağından Anitanın gümrah və ədalı səsi eşidildi. Qadın Qüdrətovun qarşılıq verən cavabından sonra dayanmayıb söhbətinə davam etdi:

– Bəlkə, bu gün gəzməyə gedək, şəhəri sənə yaxşıca tanıtdıracağıma söz verirəm. Həm də bu gün əla gündür. Əsl gəzmək havasıdır. Hələ saat on bir olmayıb, nahar edib on birdə çıxarıq. Hə, nə deyirsən, əzizim? – Qadın müraciət formasını dəyişdi.

– Hə, lap yaxşı, – Qüdrətov saat onu keçdiyini eşidib astadan dilləndi.

– Nə?!

– Heç, səninlə deyiləm.

Yəqin ki, rəis indi işdə idi. Odur ki, dünənki uğurlu əməliyyatla bağlı ona məlumat vermək olardı.

– Mənim telefonumu gətir, – qadına səsləndi.

– Bu dəqiqə, əzizim!

Anitanın bir gecənin içərisində ona müraciət forması-

nı dəyişməsi də Qüdrətovun nəzərindən qaçmırdı. Buna görə bərk dilxor olmuşdu. Amma nə etmək olardı ki?!...

***

Qüdrətov telefonu alıb zəng etmək istəyirdi ki, gözlərinə inanmadı. Bakıdan xəbər gəlmişdi. Tahirdən. Şifrələnmiş yazıda dünən Ramilin şəhərdən kənarda bir həftədən artıqdır ki, tək yaşadığı evdə daha bir nəfər qadının göründüyü qeyd olunurdu. Məlumata görə, həmin qadınla Ramilin münasibətləri çox müəmmalı görünürdü. Bu əməliyyat müddətində Qüdrətovun ən çox gözlədiyi xəbər idi. Həm də gözləmədiyi bir zamanda... O, Bakıya qayıdana kimi məxfi şöbə təcili araşdırma aparmalı və gələn qadının kimliyini öyrənməli idilər. Özü isə burada ləngiməməli idi. Elə bu saat Bakıya qayıtmalı idi. Yataq otağına keçib kiçik çantasını götürərək qadına səsləndi:

– Bağışla, amma bu dəfə, doğrudan da, getməliyəm.

– Bilirdim ki, belə edəcəksən... – Anita bu dəfə daha təmkinli davrandı. "Yaxşı yol, sağ-salamat get!" vaxt tapıb yalnız bunları deyə bildi.

– Hələlik, – Qüdrətov bunu deyib qapıya tərəf getdi.

– Hə, bir də, mənim dalımca gəlməsən yaxşı olar, – elə bunu da mayor dedi. Bunu liftin gəlməsini gözləməyərək pilləkənlərlə tələsik aşağı düşərkən bir az ucadan deyib yoluna davam etdi. Qaldıqları mehmanxana otağının dəmir qapısı qarşısında dayanan qadın isə bir addım atmayaraq sevimli qonağının son dedikləri ilə baş-başa qaldı... İndi onun çöhrəsində, sanki ölənə qədər silinməyəcək miskin bir kədər yaranmışdı.

## 50. Təhlükə var

Yorucu uçuşun yarıya qədər müddəti geridə qalmışdı. Bu isə o demək idi ki, təyyarə Bakıya çatana qədər Qüdrətov təxminən bir saatdan çox səbir etməli idi. Saatı dəqiqləşdirdi. Artıq günorta saat biri keçirdi. Hava limanına gələn kimi biletini qeydiyyatdan keçirməsinə baxmayaraq, uçuşun başlanmasına qədər olan saat yarımdan çox vaxt ərzində gözləməli olmuşdu. Beynində çək-çevir etdiyi yeganə məsələ son ayların böyük zəhmətləri hesabına açılmaq üzrə olan cinayət idi. Səhər telefonunda Tahirdən aldığı mesajdan sonra bütün kiçik hadisələri də nəzərə almaqla baş verənlər barəsində bir daha fikir yürütmək lazım gəlmişdi. Özü də bu fikirlərin hamısı səhvsiz mühakimələr əsasında qurulmalı idi. İndi o, nə bir həftədən çox bu qərib şəhərdə keçirdiyi günlər, nə Anita, nə də dünən ölümlə cəzalandırdığı erməni himayədarları haqqında düşünürdü...

Mayor qeydiyyat dəftərçəsini vərəqləməyə başlamışdı ki, əməliyyata başladığı ilk vaxt yazdığı qeydlərdən biri diqqətini çəkdi. Burada Aytəkin adlı həmin girov qızın yazdığı dəftərdəki bəzi uyuşmayan fikirlər var idi. Və çox yəqin ki, iyirmi il əvvəl baş vermiş bu müəmmalı hadisələr zəncirinin əsasında da bu uyuşmazlıqlar dayanırdı. Hər halda Qüdrətov Bakıya çatan kimi Ramilin yanına gələn qadının kimliyini öyrənə biləcəkdi. Və çox güman ki, bundan sonra bu sualların da cavabını vermək mümkün olacaqdı. Məxfi şöbə rəisinin də son görüşlərində yürütdüyü mühakimə onu göstərirdi ki, Qüdrətov şəxsi mülahizəsi əsasında başladığı bu əməliyyatda gözlənilməz hadisələrlə qarşılaşa bilər. Ən yaxşı halda isə uğursuzluğa düçar olmaq və ya heç bir nəticəyə gəlib çıxmadan bu əməliyyatı dayandırmaq. Hər halda bunu istəyən

məxfi şöbə rəisinin özü idi. Uzun illərin təcrübəsi əsasında böyük məktəb keçmiş şöbə rəisi general-mayor Kamil Əzimov öz sevimli əməkdaşının boşuna enerji tükətməsini və həm də öz həyatını riskə atmasını istəmirdi. Bu əməliyyatda Qüdrətova qarşı gəlməsi də eyni səbəbdən idi. Bəlkə buna heç qarşı gəlmək də demək olmazdı. Çünki həmin son görüşdən sonra bir neçə dəfə Qüdrətova yardım da etmişdi. Görünür, elə həmin görüşdən sonra Əzimov şöbəsinin ən qorxmaz və bacarıqlı əməkdaşının, həqiqətən də, vacib bir cinayətin üstünü açacağına əmin olmuşdu. Görəsən, bu cinayətlərin sirri nə idi?! Bu sualın cavabı həmin görüş günündən ta ki, bu günə qədər məxfi şöbə rəisinə müəmmalı olaraq qalırdı. İndi Bakıya qayıdan Qüdrətov öz rəisinin qarşısına əliboş çıxmayacaqdı. Bakıdakı işlərinin az olmadığı vaxtda Rusiyaya getməsinin böyük faydası olmuşdu. Mayor öz rəisinin bu cinayətlərin necə törədilməsi ilə bağlı suallarının cavablarını müəyyənləşdirə bilmişdi. Bunun üçün burada olduğu ötən yeddi-səkkiz gün ərzində hər şeyi bir daha dəqiqləşdirib konkret faktlar tapmışdı. Amma hələ də dəqiq mühakimə yürüdə bilmədiyi əsas məsələ öz izahını gözləyirdi. Və bu sual bayaqdan bəri artıq neçənci dəfə idi ki, ağır çəkicin dəmir parçasına çırpıldığı kimi onun bütün beyninə təzyiq göstərirdi. Ramilin gizli görüşdüyü qadın kimdir görəsən?! Kimdir, kim?!... Əgər bu, o, idisə, onda Ramilin buraya qədər apardığı təhqiqatlar, o dəftərdə yazılanlar, dəftərin sonundakı qeydlər... Ramil... Yox, bu onun düşündüyü kimi ola bilməzdi...

Daxilində yaranan şübhələr daha da artmağa başlamışdı. Məhz bu şübhələr hansısa konkret bir səbəb üzərində baş sındırmağa qoymurdu. Hava limanına gələrkən telefonla Tahirə məktub göndərdi. Tapşırdı ki, Tivan adlı həmin adamı məxfi şöbənin köməkliyi ilə xüsusi nəzarətə

götürsün. Ramilin yanında görünən, hələlik naməlum olan qadını isə bir an olsun nəzarətsiz qoymasın.

Bəs mayor özü Bakıya çatandan sonra necə yaxınlaşacaqdı onlara? Ramilin şəxsi həyatı ilə bağlı ehtimal olunan həmin qadın onun düşündüyü adam olmasaydı, nə edəcəkdilər? Hər halda əməliyyatı gizli aparmaq lazım idi. Ramili və onun qeydiyyatda olduğu şöbə bundan qətiyyən xəbər tutmamalı idilər. Əks halda şəxsi hissləri naminə Ramil onun aylarca sazladığı planları alt-üst edə bilərdi. Qüdrətov isə buna heç bir vəchlə razı ola bilməzdi. Çünki gözləmədiyi vaxtda aldığı bu xəbərdən sonra işləri də yarımçıq qoyub Bakıya qayıtmışdı. Ramilin isə hansısa səhvə yol verəcəyi halda, hər iki tərəfdən yolları bağlanmış ola bilərdi. Onsuz da Sonyanın və onun ailəsinin axtarışını federasiya ərazisində yerləşən agentura əməkdaşlarına tapşırıb vətəninə narahat qayıdırdı. Məlumatı dəqiqləşdirdikdən sonra Sonyanın və ailəsinin həqiqətən də, bu şəhərdə yaşadıqları təsdiqlənmişdi. İndi onların tapılması və ifşa olunması qalırdı ki, bunu da agentura öz öhdəsinə götürdü. Maraqlısı bu idi ki, həmin qadının ələ keçirilməsi şahidi olduğu hadisələrin aydınlanması demək idi. Və yəqin ki, Albert Vaskanyanın Aytəkinə verdiyi işgəncələri də izah edə bilən o olacaqdı. Qüdrətov isə hələ də cəzasız gəzən bu cinayətkarların adlarını xatırladıqca, qarşıda onu gözləyən işlərin daha çox olduğunu başa düşürdü... Ötən gün öldürdüyü Tatyana Qribkova adlı erməni himayədarını danışdırandan sonra hadisə ilə bağlı bəzi şeylər haqqında daha da dəqiq qərar vemək olardı. Amma həmin işbirlikçi qadının deməyindən həm də bu çıxırdı ki, Bakıda saxlanılan Tivan adlı adamın bildiyi məlumatlar hələ də ermənilərin əlinə keçməyib. Bu isə Ramil üçün təhlükəli idi. Məlumatı bilən adamın yeri-

ni öyrənmək üçün onu ələ keçirə bilərdilər. Buna görə də Bakıya çatan kimi dərhal Tivanı danışdırmaq lazım idi.

## 51. Möcüzə

Qüdrətovun Rusiyada Tatyana Qribkovanı ifşa etdiyi gün Bakıda görünməz hadisə baş verdi... Və bu hadisə təxminən iyirmi il əvvəl doğulmuş həsrətin sonu, iyirmi ildir yası tutulan bir sevdanın qəbirdən qalxıb gəlməsinə bənzəyirdi... Gəlişi ilə də onu illərlə gözləmiş, kədərlənmiş, sonda sevgi duyğuları gözündə sönmüş biçarə insanın uzun mücadilədən sonra yaranmış sakit həyatını yenidən təlatümə çevirdi...

Soyuq küləyin getdikcə daha da şiddətlənməsinə baxmayaraq, Xəzərin sahilində dayanan Ramil indi həyatının ən ağır gününü – dünəni və ötən bir həftəni xatırlayırdı... Və dənizin ucsuz-bucaqsız sularına baxan gözləri onun düşüncələrini də özü ilə uzaq sahillərə daşıyırdı...

***

Artıq evdən ayrıldığı yeddinci gün tamam olmuşdu. Nə evə, nə də işə gedərək burada – hamıdan gizli olan kiçik evdə öz dərdləri ilə baş-başa qalmış, ömrünün bütün ağrı-acılarını xatırlamış, içdən ağlayaraq ovunmuş və bir az yüngülləşmişdi. Bəlkə də, belə etməyi doğru deyildi, bəlkə də, bunlara son qoymalı idi. Amma bu, Ramilin özündən asılı deyildi. Aytəkini unutduğunu, xoş xatirə olaraq çoxdan dəfn etdiyini düşünsə də, bunun belə olmadığını beyninə birdəfəlik yazmışdı. İllər keçdikcə közərib sönməkdənsə, getdikcə daha da alışırdı bu qığılcımlar.

Onun bu halı həyatdan, yaşamaqdan, hər şeydən və hər kəsdən bezən insanların halından daha acınacaqlı, daha ürəkağrıdıcı idi. Belə olanda, sanki o da ölməyə, sevgilisi

Aytəkinin yanına getməyə can atırdı... Amma özü də yaxşı bilirdi ki, hər şeyin belə davam etməsinin, özünə zülm etməsinin sonu yoxdur. Bu işə birdəfəlik son qoymaq lazım idi. Necəsini bilmədən... Bu barədə düşünməkdən də bezmişdi. Sanki sevgilisini itirməsinin də, Xocalı faciəsinin də, orada həmin gün – iyirmi il əvvəl soyuq fevral gecəsində dinc əhalinin gülləbaran edilməsinin də, hətta Qarabağ müharibəsinin də baiskarı o idi... Ermənilər bu işdə sadəcə olaraq onun və onun kimi digər “qorxaq” insanların iradəsizliyinə, unutqanlığına, dözümsüzlüyünə, öz rahat həyatlarını heç nəyə qurban verməmələrinə görə bunu dərs olaraq millətimizin başına gətirmişdilər. İndi Ramil bu halı ilə beynində və ürəyində daşıdığı ağrı-acıları dindirmək iqtidarında da deyildi. Özünü nəyə görə belə günahkar hesab etdiyinin də səbəbini bilmirdi... Bircə bildiyi, düşündüyü heç bir günahı olmayan övladına, valideynlərinə və həyat yoldaşı Nərminə xanıma etdiyi haqsızlıq idi. Axı bütün bu olanlarda, Ramilin başına gələnlərdə onların heç bir günahı yox idi. Əksinə, onun ən çətin anlarında ailəsi Ramili başa düşməyə çalışmışdı. Uzun müddət həkim müayinəsinə gedib-gəlsə də, son bir neçə ildə özünü yaxşı hiss etdiyi üçün bu kursları da dayandırmışdı. Ailəsi də son illərdə onun daha gümrah, daha enerjili olmasından sevinc hissi keçirir və hər fürsət düşəndə bunu Ramilə büruzə verməyə çalışırdı. O da ailəsinin xoşbəxtliyi naminə bacardıqlarının daha artığını etməyə cəhd göstərir və beləcə hər şey tədricən unudulurdu. Amma bunlar yalan imiş! Ramil bədbəxt və nakam sevgilisini unuda bilməyibmiş?!

Fikirlər burulğanından ayrılıb, nəhayət ki, gizli və sakit yaşamaq istədiyi bu yerdən ayrılıb evə qayıtmaq qərarına gəldi. Əgər doğma ailəsi onun halını anlayırdısa, Ramil də öz növbəsində, çətin olsa da, onları xoşbəxt et-

məli idi. Əslində, heç vaxt sevdiyi insanlara öz sevgisini əsirgəməyən Ramil isə, sanki son bir həftədə hər şeydən uzaqlaşmış, telefonunu söndürərək onu axtaranlardan uzaq qalmışdı. Bütün bunların keçəcəyinə ümid edib özünü toplamaq, bir az tək qalmaq üçün buraya gəlsə də, indi daha narahat vəziyyətdə Bakı kəndlərinin birində yerləşən bu xəlvəti evindən ayrılırdı. Özü də səbəbini bilmədən getdikcə daha çox daxili narahatlıq keçirməyə başlamışdı. Heç vaxt belə olmamışdı. Nə vaxt ailəsi ilə yaşadığı evdən aralanıb buraya gəlsəydi, istər-istəməz stimul tapmasına, düşdüyü psixoloji vəziyyətdən çıxmağa kömək olardı. İndi isə əksinə... İçində son bir-iki gündə yaranan boşluq, sanki onu gözlənilməz bir xəbərlə üz-üzə qoymaq üçün hazırlayırdı... O isə yersiz hesab etdiyi bu həyəcanını, hisslərini və narahatçılıqlarını hələ də dərk edə bilmirdi...

Telefonu açdı. Bir neçə oxunmamış məktub var idi. Tədricən oxumağa başladı. Əksəriyyəti həyat yoldaşından gəlmişdi. Ramilin vəziyyətini, yenə də ağır günlər keçirdiyini hiss edən Nərminə onu anlayışla qarşılamışdı. Yazdığı məktubların da mövzusu əsasən narahatçılıqdan yaranıb və Ramilin kef-əhvalını xəbər almaq xarakteri daşıyırdı. Nə isə düşünüb evlərini yığdı. Dəstəyi Nərminə götürmüşdü. Qısa danışıb bildirdi ki, bu gün universitetə gedib dərslərini qaydaya salandan sonra evə gələcək. Danışığı bitirəndən sonra isə bir həftə müddətində qaldığı evin yenə də susan və sakit-sakit onu yola salan daş divarlarına nəzər saldı... Hiss etdi ki, artıq bu divarların da ona qarşı hirsi soyuyub. İndi bu daş divarlar da dinməz-danışmaz ona ürək-dirək verməyə çalışırdılar...

***

Universitetə gələn kimi dərslərlə maraqlandı. Sağ olsun Sabir müəllim. Yaşlı vaxtında ona xeyli kömək etmişdi. O olmadığı müddətdə bütün dərslərini əvəz etmişdi. Sonra isə dekanlığa getdi. Burada da dəyişən bir şey yox idi. Ramil düşündü ki, bu qısa vaxt ərzində nə dəyişməli idi ki?! İnsanlar monoton və problemlərlə zəngin həyatlarının məngənəsində səhərdən axşama qədər saatları saymağa alışıblar. Onun dərs dediyi tarix fakültəsində də bu hal bayaqdan düşündüyü ümumi vəziyyətdən azacıq fərqlənirdi. Tək-tük insanlardan başqa qalan fakültə əməkdaşları demək olar ki, günlərcə yerlərində saymaqla məşğul idilər. Və pisi də bu idi ki, özləri bundan xəbərsiz ola-ola kimlərinsə bunu onlara deməsini də qəbul etmir, həmin adamları gözümçıxdıya salırdılar. Dekanlığa yenicə girib hal-əhval tutmuşdu ki, katibə söz arası ona kiminsə nömrəsi yazılan kağızı uzatdı:

– Ramil müəllim, bunu siz olmayanda bir xanım verdi. Dedi ki, zənginizi vacib olaraq gözləyir.

– Universitetdən idi? – Ramil dəqiqləşdirməyə çalışdı. Nədənsə fikirləri çox dağınıq idi. İşə gələrkən burada sakitləşəcəyini güman etsə də, bayaqkı yersiz narahatçılığı indi daha da artmışdı. O, kağızdakı nömrəyə gözucu baxıb götürmək istəmədi.

– Xeyr, Ramil müəllim, qadın məcburi köçkün idi və dedi ki, sizi tanıyır. Mənə də xeyli tapşırdı ki, nömrəsini sizə verim.

– Mənim nömrəmi istəmədi?

– İstədi, amma sizdən xəbərsiz vermək istəmədim. Gərək verəydim...

– Yox, yaxşı etmisən, – Ramil bunu deyib onu axtaran qadının telefon nömrəsi yazılan kağızı da götürərək tələsik otaqdan çıxdı.

***

Universitetin həyatinə düşdü. Gözləri ilə, sanki kimisə axtarırdı. İndi Ramilin gözündə bu həyət, buradakı tələbə gənclərin yenə həmişəki qayğısız həyatlarının xoş saatlarını bir-birilə gəzib dolaşmaq, söhbət etməklə keçirən insanları kimi deyil, təxminən iyirmi il əvvəl əl-ələ tutuşub gəzdiyi, ölənə qədər ondan başqasına baxmayacağına söz verdiyi Aytəkinli illəri xatırlatdı. Bu qəlbağrıdıcı düşüncələrlə darvazadan aralanaraq küçəboyu metroya tərəf addımlamağa başladı. İndi onu qərq olduğu fikirlər dünyasından, hətta gedərkən ara-sıra çiyninə və qoluna toxunub keçən gənclərin ehtiyatsızlığı da ayıra bilməzdi...

Metronun girişində nəyisə unudubmuş kimi qəfildən ciblərini axtarmağa başladı. Axı zəng etmək istəyirdi bayaq...

... Uzun çağrıdan sonra telefonu, nəhayət ki, qadın açdı. Danışığında qəribliklə yanaşı, müəmmalı təlaş, hətta Ramil doğru duya bilmişdisə, qorxu da var idi. Telefon danışığı isə qısa oldu. Ramilə yalvararaq onun köməyinə ehtiyacı olduğunu bildirən qadın görüşmək üçün xəlvəti bir yer təyin etməsini istədi. Nömrəsini onun üçün qoyub zəng etməsini istəyən və Ramilin də indi bu dəqiqə danışdığı qadın kim ola bilərdi axı?! Dediyinə görə, onunla vacib söhbəti var idi. "Çox vacib sözüm var", dedi qadın. Ramil də düşünmədən ilk anda ağlına gələn yeri görüş üçün qadına bildirdi. Bu qadının istədiyi kimi xəlvəti yerdə olan və bir həftəyə qədər Ramililn qaldığı şəhərdən kənarda yerləşən həmin ev idi. Telefon danışığından sonra Ramil də vaxt itirmədən geri qayıdıb metronun yaxınlığındakı taksilərdən birinə oturaraq bir az əvvəl çıxdığı həmin evə getdi.

***

Görüş yerinə təxminən yarım saat əvvəl çatan Ramil hələ də qonağını gözləyirdi. Bura çatandan sonra onunla danışmışdı. Qadın gəldiyini bildirsə də, indi qadının telefonuna zəng çatmırdı. Növbəti dəfə zəng edib yoxlamaq istəyirdi ki, qapı döyüldü. Sadəcə bir dəfə və qısa pauza ilə daha iki dəfə ardıcıl... Bu an Ramilin həyəcanı bayaq universitetdə olduğundan daha kəskin, daha sıxıcı idi. Bir az əvvəl yanaqlarında bərqərar olan istilik getdikcə əllərinə və bədəninə sirayət edirdi. Tərəddüdlər içərisində qapıya tərəf getdi və cəftəni geriyə dartıb qonağın üzünü görmək üçün qapını özünə sarı çəkdi... Təxminən qırx yaşlarında olan qadın burnuna qədər çəkdiyi örpəyini hələ də bərk-bərk tutaraq yerə zillənən baxışlarını oradan ayırıb ev yiyəsinin üzünə baxmağa, sanki cürət etmirdi. İndi Ramilin qarşısında günahkar, təsəlliyə ehtiyacı olan və qayğının nə olduğunu, bəlkə də, ömrüboyu bilməyən bir qadın dayanırdı. Amma hələ də başını dikətməyə çətinlik çəkirdi... Sanki boynu sınmışdı, əzələlərin də gücü, qüvvəsi yetmirdu onun boynunu dikəltməyə...

– Kimsiniz?! – Ramilin səsi titrədi. Bundan artığını ifadə edə bilmədi. Sanki nitqi bu dəqiqə tutulacaq, ürəyi qopub yerə düşəcək, yuxularda gördüyü kimi ittiham olunacaqdı. Gözləri qadının sol əlinin ovcunda bərk-bərk sıxıb ürəyinin üstünə qoyduğu saralmış kağız parçasında idi.

– Ramilim... Mən ölməmişdim... Yaşayırdım... – qadın sanki nəfəsinin bütün qüvvəsini toplayıb yalnız bunları deyə bildi.

Bu səs, bu danışıq, bu müraciət Ramilə tanış idi, əziz idi... Unutmamışdı... Unuda bilməmişdi...

– Aman Allah!.. Ramil bütün qüvvəsini toplayaraq ona yaxınlaşmağa çalışdı. Sanki çiyinlərindəki ağır yük nəin-

ki hərəkətinə, hətta ayaq üstə durmasına mane olacaq və bu saat onu yerə girənə qədər, kiçilənə qədər sıxacaqdı. Titrəyən əllərini qadının gözlərində gəzdirdi, o gözəl simanı gizlədən örpəyi boynuna apardı... Vücudundakı istilik sürətlə soyumağa başladı... Yanaqlarındakı hənirti buz bağladı. Örpək də dil açıb danışacaqdı, elə bil... Aytəkin!.. Aytəkinim!.. Onun çiyinlərini özünə sıxdı. İlahi, bu dəfə yuxu deyildi! Yuxu deyilmiş, deyilmiş, deyilmiiiiş... O gəlmişdi – Aytəkin!.. Ramilin bədbəxt sevgilisi gəlmişdi...

... Aytəkinə sarılıb susurdu... Hər ikisi göz yaşlarını saxlaya bilməyib ağlaşırdılar... Bu möcüzə illər sonra Ramilin bütün varlığını alt-üst edən, xəyallarını başına yıxan, həyatını məhv edən ən ağır itkisinin əvəzi idi... Və Aytəkini ona Tanrı özü göndərmişdi... Ramil bu dəqiqə ən mücərrəd anında nə ifadə edəcəyini, nə edəcəyini bilmədən, düşünmədən yalnız daxildən öz Tanrısına qarşı sonsuz məhəbbət və minnətdarlıq hissləri keçirirdi... Belə etdikcə hiss etməyə başlayırdı ki, günlərdir davam edən və bir az əvvəl ən yüksək həddə çatan narahatlığı ruh bədəndən ayrılan kimi onu tərk edir... Bu davam etdikcə daha da yüngülləşirdi... Ağzını açıb nə isə demək istədi. Bacarmadı... Dili də ağzında deyildi, sanki... Aytəkinin üzünə, saçlarına, nəzər salmağa çalışdı. İndi iyirmi il əvvəl tanıdığı həmin şıltaq Aytəkini görməyə çalışdı. Bacarmadı, görə bilmədi. Qarşısındakı qadın pak qız duyğularını çoxdan itirmiş, qadınlıq mənliyi, qüruru dəfələrlə tapdalanmış, alçaldılmış, analıq duyğularına nifrət edən, ondan başqa heç kimi görmək istəməyən bir varlıq idi indi...

Üzündəki hər bir cizgi onun işgəncələr, ağrı-acılarla, vəhşiliklərlə yaşadığı saatları anbaan canlandırırdı Ramilin gözlərində... Danışmağın, təsəlli verməyin, heç bir şair qələminin, rəssam bacarığının gücü yetməzdi bu

məsum və yaşamaq duyğusunu itirmiş qadının hisslərini açıb-göstərməyə... Ramil özü də onu tanıya bilmirdi... Sevgilisinin təhqir olunmuş siması, varlığı indiyə qədər şərəflə qoruduğu kişilik qürurunu büllur kimi çilikləyib ayaqlar altına səpirdi... İndi durduqları yer də murdarlanırdı, sanki mənliyi iki paralıq edilən Aytəkinin və ali hissi puç olmuş Ramilin bu yerdə dayandıqlarına görə... Göz-gözə gəlməyə qorxurdular, sanki... “Bizim nə günahımız var idi, ay Allah?..” Aytəkin ürəyinin lap dərinliyində pıçıltı ilə bunları deyirdi. İndi burada erməni girovluğunda Albert Vaskanyanın köləsi, fahişəsi olmaqdan daha böyük əzab çəkirdi... Hər şeyin bitəcəyini gözləyirdi bəlkə də... Bəlkə də, bu, elə son idi... Sadəcə bu nöqtəni qoymaq lazım idi... Bu rüsvayçılıqdan həm özünü, həm də Ramili əbədəlik qurtarmaq lazım idi. Özünü öldürməyi bacarmalıydı... Onsuz da buraya qədər gəlməsi, şərəfli insan cildindən çıxdığı halda yaşaması bəs edərdi artıq... İndi bəhanəsi də qalmamışdı... Ramilini də görmüşdü...

Nə Aytəkin, nə də Ramil dinirdi... Bəzən susmaq hər şeydən vacibdir deyənlər varsa da, indi – iyirmi il sonra gözlənilmədən, bir möcüzə nəticəsində görüşən bu insanların halı üçün doğru deyildi. Onlar iyirmi il əvvəl sevməyə başlayanda da beləcə lal sükutla baxmışdılar bir-birilərinin gözlərinə. Amma indi bu baxış o vaxtkının tam əksi idi... Daha ürəklər danışmırdı. Heç nə soruşmaq istəmirdi... Deyəsən, getdikcə daha da peşman olurdu titrəyən vücudları, bədənləri... Aytəkin yenə də gözlərini yerə dikib susqun-susqun baxırdı... İndi onun Ramili də yox idi... Onu başa düşən, anlayan... Bəlkə də, yanılırdı...

Bu görüşə bəslənilən ümidlər, ayların, illərin həsrəti indi hər iki gözdə peşmançılıq hissi yaradırdı. Kaş bu görüş olmayaydı... Bunu hər iki saf məhəbbətin sahibləri düşünürdülər. Ramil onun gözlərinə baxmağa çalışsa da,

Aytəkin gizlədirdi həmin sevgi dolu gözləri, o gözlər də qaçırdı, gizlənməyə başqa göz qapağı axtarırdı, elə bil. Amma bacarmırdı... Sanki deyirdi: "Bilirəm, Ramil, bilirəm. İndi düşünürsən ki, niyə gəldin? Niyə?  Axı Məcnun belə, Leylisinə insan əli toxunduğunu düşünərək onu rədd etmişdi. Sevgisindən dəli olacaq səviyyədə olan Məcnun, Leylinin "mənim ruhum da, cismim də sənindir, pak və toxunulmaz olaraq" deməsinə inanmayan Məcnun belə rədd etmişdisə, sən niyə məni rədd etməyəsən? Məni indiyə kimi özümü öldürmədiyim üçün qınamağa da haqqın var, Ramil, haqqın var! Amma mən bunu illərdir istəməyimə baxmayaraq, bacarmadım. Öldür məni, elə indicə öldür, buna haqqın var! Hətta sənə etdiyim xəyanətləri bilsən, məni parçalayarsan, onu da bilirəm. Öldür..., öldür məni, parçala, did, alçalt, nə istəyirsən et. Et ki, bəlkə, mən bu vicdan əzabından qurtulum, sənin yadında, sadəcə, Aytəkin olaraq qalım, ay təkin... Mənim bacarmadığımı sən etməlisən, sən. Axı sən kişisən, dünyada gördüyüm ən qeyrətli kişi... Sən azərbaycanlısan, sən mərdsən, sən düzgün qərar verməyi bacararsan. Buna əminəm. Ən azından bunu o vaxtkı saf, təcrübəsiz, əlinə səndən başqasının əli dəyməyən bir qız demir, bunu dünyanın ən alçaq üzünü görən, ən şərəfsiz kişilərini görən, üzü üzlər görmüş bir məxluq deyir, əzizim. Məxluq... Cinsi, əqidəsi, məzhəbi, şərəfi bəlli olmayan bir məxluq. Əzab çəkirəm, Ramil, əzab... Yaşadıqlarımı, boynuma götürdüklərimi bilsən, mənə nifrət edərsən, onun üçün də bilmədən, öyrənmədən parçala məni... İradəcə zəif bir qadının bacarmadığını sən bacara bilərsən. Bu işgəncəyə son verə bilərsən.  Məncə, o zaman sən də rahat olarsan..."

Ramil də gözlərdəki bu ifadəni oxuyurdu. Qarşısındakı qadının nə demək istədiyini, nələri deyə bilmədiyini dərk edirdi... Amma uzun illərin təcrübəli əməkdaşı olan

Ramil ürəyi ilə heç söhbət də edə bilmirdi. Hətta özünün dövlət əhəmiyyətli adam olduğunu da unudaraq, bu möcüzəni adi bir insan kimi qiymətləndirirdi. Qəlbində yaşayan uzun illərin kök atmış məhəbbəti ona hər şeyi unutdurmuşdu. Sanki Ramil ehtiyatı əldən vermiş, səriştəsiz adama çevrilmişdi. İndi sadəcə ürəyinin sızıntısına qulaq asır, içindəki qürur və sevginin çarpışmasında hansının qalib gələcəyini gözləyirdi, elə bil. Sanki Ramil də dilə gəlib həsrətini çəkdiyi görüşün belə adi, gözlənilməz olduğuna təəssüflənirdi... Nə edəcəyi, necə qərar verəcəyini heç ağlına da gətirmirdi... Heç düşünə də bilmirdi ki, ilin-günün  bu vaxtında bu necə olur? İyirmi il... Bu, bir igidin ömrüdür. Niyə indi? Niyə bu qədər vaxtdan sonra... Axı o, necə gəlmişdi Azərbaycana? Axı Ramil özü Əsir və Girovlarla İş üzrə Dövlət Komitəsinin əsas əməkdaşı ola-ola niyə bundan xəbəri yox idi?  Bunların heç birini düşünə bilmir, sadəcə, qəlbinin dərinliyində qaxaca çevrilmiş sevgisini eşq damlaları ilə yumşaltmağa çalışırdı...

Aytəkinin boyun-boğazındakı izlərə baxdıqca Ramil onu itirdiyini indi daha çox hiss edirdi. Bu, onun universitet auditoriyalarından birində gördüyü həmin qız deyildi... Onun varlığından nəinki qadınlıq, hətta bütün insanlıq duyğuları kəlbətin gücü ilə sökülüb atılmışdı. Cansızdan yalnız nəfəs-alıb verməsinə görə fərqlənirdi bu bədən... İndi Aytəkin də, Ramil də bir az özünə gəlməyə başlamışdı. Qadının yanaqlarından süzülüb gələn isti göz yaşları Ramilin əlinə töküləndə, sanki yuxudan oyanıbmış kimi diksindi. Bir daha baxışlarını onun üzərində gəzdirdi. Bu baxışlar qadını sıxaraq, sanki son nəfəsini, canını təhvil verməyə vadar edirdi. Qadın ovcunun içində tutduğu kağız parçasını islanmaması üçün qoynuna qoymaq istəyirdi ki, Ramil əlini ona tərəf uzatdı. Qadının

ovcunun içində belə möhkəm qoruyaraq sıxıb saxladığı kağızda yazılanları oxumaq istəyirdi. Bu, 1991-ci ilin yayında Aytəkinə yazdığı son məktub idi. Ramil ilk sətirləri oxuyar-oxumaz məktubu tanıdı...

## 52. Hədəfə doğru

Bakıya gələn kimi Tahirlə görüşən Qüdrətov məxfi şöbəyə getmədən rəislə yalnız telefonla danışmış, hadisələrin gedişatı ilə bağlı ilkin məlumatları bildirmişdi. Razılaşmalarına görə, Ramillə bağlı olan əməliyyat bitəndən sonra görüşməli idilər. Amma Qüdrətov özü də bu əməliyyat üçün gözlədiklərindən daha çox vaxt gedəcəyini qabaqcadan bilirdi.

Əvvəlcə Tahirin verdiyi ünvana gedib Ramilin yanına gələn gizli qonağın kimliyini araşdırmağı tapşırmışdı. Qadının şəkillərini isə köməkçisinə verib dəqiqləşdirməyi, həmin qadının kimliyini araşdırmağı bildirmişdi. Həm Ramil, həm də yanına gələn qadının hər addımı onları izləyən xüsusi əməkdaşların nəzarəti altında idi. Ramili əməliyyata başladığı elə ilk vaxtdan izlətdirən Qüdrətov onun yanına gələn qadın haqqında məlumat öyrənən kimi daha bir nəfər əməkdaşın ayrıca bu qadını izləməsini əmr etmişdi. Mayorun bütün əmrlərini yerinə yetirən Tahir bir az əvvəl Ramilin yanına gələn qadının kimliyi ilə bağlı məlumatı dəqiqləşdirib Qüdrətova ötürə bilmişdi. Bu məlumata əsasən, gələn qadın iyirmi il sonra müəmmalı formada girovluqdan qayıdan Aytəkin idi. Maraqlısı bu idi ki, Ramil qadınla görüşdükdən sonra onu evdə qoyaraq saatlarla dəniz kənarında vaxt keçirmiş, nə barəsindəsə düşünmüşdü. Burada, sözsüz ki, sevgilisinin başına gətirilənlərlə bağlı fikirlər çoxluq təşkil edirdi.

Amma Qüdrətovun bilmədiyi bir məsələ qadının Ramilin yanına hansı təkliflə gəlməsi, Ramilin buna münasibəti və yaxud etirazı idi... Hər halda iyirmi il çox böyük müddət idi və bu müddət ərzində sağ qalmış bir girov qadından Ramil özü də ehtiyatlanmalı, şübhələnməli idi... Onun bu barədə hələ də nə üçün danışmadığını tam anlaya bilmirdi. Amma yenə də Ramilin öz sevgilisinə və onun acınacaqlı vəziyyətinə qarşı zəifliyini mənəvi hisslərlə bağlayıb ehtiyatsızlıq etməsi çox təhlükəli idi...

Qüdrətov isə hələ də baş verənlərə inanmaq istəmirdi. Aytəkin Səfərova adlı həmin girov qadının dəftərçəsini vərəq-vərəq oxumuşdu. Az qalsın ki, bəlkə də, oradakı cümlələrin yerlərini də əzbərləmişdi. İndi necə ola bilərdi ki, qızlığından qadınlığına qədər sanki Aytəkinin bütün həyatına şahidlik edən mayor onu yaxşı tanıya bilməmişdi?! Axı Vətənini satmaq həmin dəftəri yazan Aytəkinin vicdanına xas deyildi. Yanılırdımı?.. Dəfələrlə ölüm qorxusunu yaşayan, amma ölməyən Aytəkin bu dəfə ölməmək üçün ermənilərlə razılaşmışdımı? Albert Vaskanyanın sonuncu təklifi nə olmuşdu, görəsən, ona? Yoxsa Aytəkin dəftərçəsinin axırında yazdığının səhəri günü bu erməni ilə razılaşıb Azərbaycana gəlmişdi?

Sualların, müəmmaların bitmədiyini görən Qüdrətov bir yandan həm Ramili, həm də yanına gələn Aytəkini həbs edib ayrı-ayrı danışdırmaq istəyirdi. Digər tərəfdən də bunu tələskən addım kimi qiymətləndirib hədəfinə doğru yaxınlaşan bu işin sonuna diqqətlə baxmağa çalışırdı. İşin əslini bilmək üçün sonuncu şübhəli məqamı müəyyən etmək qalırdı. Aytəkinin əmisi oğlu həmin dilənçi oğlan – Həsrət!.. Qohumluq əlaqələrini nəzərə alıb hər ikisinin DNT analizini çıxartdırmaq lazım gəlirdi. Hələ ki Ramilin şəhərdən aralıdakı kiçik evindən kənara çıxmayan qadından xəbərsiz ondan analiz üçün nümunə

götürmək işləri bir az əngələ salırdı. Hər halda Tahir söz vermişdi ki, yolunu tapıb bunu edəcək. İndi əməliyyat haqqında konkret fikir demək məhz bu məsələyə bağlı idi.

Çox keçməmişdi ki, Tahirin verdiyi məlumata görə, qadının qaldığı evə çox da yaxın olmayan mağazalardan birinə girdiyi məlum oldu. Vəziyyətdən düzgün istifadə edən xüsusi əməkdaş elə oradaca DNT analizi üçün lazım olan nümunəni – həmin qadının saçını götürə bilmişdi. İndi artıq Qüdrətov da, Tahir də laboratoriyada olan tibbi ekspertlərin rəyini gözləyirdilər...

***

Məxfi şöbənin həyətində həmişəki kimi səssizlik hökm sürürdü. İş vaxtı bitsə də, şöbə rəisi general-mayor Kamil Əzimov otaqda var-gəl edirdi. Gözlədiyi adam isə hələ də gəlib çıxmamışdı. Əməliyyat bu qədər uzanmışdısa, görünür, hansısa problem var idi. Artıq hava da qaralmışdı. Hövsələsi getdikcə daha da daralan Əzimov daxili telefona yaxınlaşıb xüsusi əməliyyat qrupu çıxarmaq üçün əmr vermək istəsə də, nə isə düşünüb dəstəyi yenidən aparatın üstünə qoydu. Bayaqkı sözlər yadına düşdü – “Sizin yeganə köməyiniz bu ola bilər ki, əməliyyatı sona qədər aparmağım üçün səbirli olasınız. Mənim istəyim olmadan xüsusi əməliyyat qrupu göndərmək qərarına gəlsəniz, bilin ki, bu, bizim planımıza mane olacaq”.

Rəis masanın yanından yenicə ayrılmışdı ki, daxili telefonun cingiltili səsi eşidildi. Gənc əsgər qıvraqlığı ilə dəstəyi sevincək götürüb qulağına apardı:

– Eşidirəm!

– Cənab general-mayor, Tənha Canavar gəldi! – həyətin arxa girişində quraşdırılmış kameraları nəzarətdə saxlayan əməkdaş məlumat verdi.

– Aydındır, leytenant, sağ ol. Nəhayət ki, gözlədiyi adamın gəlmə xəbərini eşidən rəis indi daha səbirsizliklə onun içəri girməsini gözləməyə başladı.

***

– Cənab general-mayor, əməliyyat uğurla bitmişdir! – içəri girən Qüdrətov hərbi salam verib məruzə edərək rəisə yaxınlaşdı.

– Necə yəni?! – Əzimov nə deyəcəyini bilmədən qeyri-ixtiyari təəccübləndi. Bayaqdan bəri gözlədiyi adamın gec gəldiyinə görə narahatçılıq keçirirdisə, indi onun verdiyi məlumatdan sonra hər şeyin necə baş verdiyini, sanki bircə saniyəyə öyrənmək üçün tələsdi. Uzun illərin təcrübəsi belə onun heyrətlənməsinə mane ola bilmədi. Sevimli əməkdaşının sağ-salamat qayıtmasına görə də çox sevindi. Hətta çoxdan bəri üsulunca hərbi salam verib, məruzə etməyi unudan Qüdrətovun bu dəfə bilərəkdən bunu xatırlayıb əməl etməsi də diqqətindən qaçmadı. Mayorun əməliyyatdan belə arxayınlıqla qayıtmasını görüb bir az kövrəlmişdi də...

– Danış görək... Necə yəni əməliyyat bitdi?... Niyə gec qayıtdın? Bir az da geciksəydin... – Əzimov sözə başlamaq istəyən Qüdrətovu daha da tələsdirdi.

– Xüsusi əməliyyat qrupu göndərəcəkdiniz. Elə deyilmi? – Qüdrətov çətin sezilən təbəssümlə onun fikrini tamamladı.

– Hə! – rəis də onun mimikasına özünəməxsus qaşqa-baqla qarşılıq verdi. Bu məhz məmnunluq əlaməti idi. Və xoşbəxtlikdən rəisinin belə mimikalarını görmək Qüdrətova demək olar ki, rəhbərlik etdiyi bütün əməliyyatları bitirəndən sonra nəsib olurdu.

– Ramilin yanına gələn qadın Aytəkin deyil! Gecikməyimizə səbəb bunu öyrənməyə çalışmağımız idi, – rəisi-

nin hövsələsizliyinə çox yaxşı bələd olan Qüdrətov baş verənlər haqqında məlumat verməzdən əvvəl əsas xəbəri bildirdi.

Əzimov yalnız bundan sonra başa düşdü ki, əslində mayor əməliyyat müddətindən daha faydalı istifadə edib ehtiyatlı davranıbmış. Bir neçə işi eyni vaxtda aparan Qüdrətov, Tahirin köməyindən də istifadə edərək bu işin sonuna qədər gedib çıxmışdı.

Məxfi şöbənin rəisi general-mayor Əzimovun ona diqqətlə qulaq asdığını görən Qüdrətov danışmaq üçün bir az tez olduğunu düşünsə də, atası yaşında olan sevimli rəhbərini intizarda qoymaq istəmədi. Odur ki, əməliyyat barəsində daha ətraflı məlumat vermək üçün sözə başladı...

Ramilin yanına gələn naməlum qadının kimliyini dəqiq araşdırmaq lazım idi. Mən hələ Rusiyadan qayıtmamışdan əvvəl Tahirdən bu xəbəri alan kimi belə qərara gəldim. Təbii ki, həmin qadının kimliyi hamını şübhələndirə bilərdi. Amma mənim o qadınla bağlı şübhələrim tamam başqa idi – o qadının Aytəkin olmasına inana bilmirdim. Mən Aytəkin Səfərovanın öz dəftərində yazdıqlarına əsasən bu fikirdə idim... Amma yenə də şübhələrə son qoymaq üçün bu işi tədqiq etdiyim günlərdən bəri əldə etdiyim bir neçə şəklin hamısını bir daha araşdırdım. Həmin qızın məndə olan dəftərçəsi onun əsl simasını, xasiyyətini canlandırmaq üçün bəlkə də, buna bəs idi. Amma mən yenə də azacıq şübhələrin belə qalmaması üçün o qadının Aytəkin Səfərova olmadığını sübut etməliydim. Özü də gecikmədən. Kəlbəcərə kəşfiyyata gedən Dilavərlə görüşməyim haqqında sizə danışmışdım. Aytəkinin mənim beynimdə canlanan görünüşü, təxmin etdiyim əlamətləri və ən əsası da Fabian adlı məlum fransız iş adamı ilə bir yerdə qalması Dilavərin Kəlbəcərdə

gördüklərini bir-bir xatırlayıb danışması ilə nəticələnmişdi. Və, deyəsən, həmin vaxt biz Aytəkinin izinə bir az da yaxından düşə bilmişdik. Dilavərin də həmin qadının əlamətləri haqqında danışdıqları, demək olar ki, mənim dediklərimə xeyli uyğun gəlirdi. Əgər, həqiqətən də, Dilavərin gördüyü həmin qadın Aytəkinin özü idisə, deməli o, 1999-cu ilə qədər sağ idi. Buna isə Dilavər öz gözləri ilə şahid olduğunu deyirdi. Məndə olan şübhə isə Dilavərin gördüyü qadının məhz Aytəkin olmadığı idi. İzi itirməmək üçün bunu da dəqiq araşdırmaq lazım idi. Dilavərin köməkliyi ilə həmin qadının fotorobotunu hazırlatdırdım. Bu gün Aytəkinin məndə olan şəkilləri ilə yanaşı, həmin fotorobot rəsmdən də istifadə etdim. Amma təəssüflər olsun ki, Ramilin yanına gələn qadın ilə həmin şəkillərdəki qadın eyni adam çıxdı. Şübhələrim və intuisiyam isə mənə bunu demirdi. Sözsüz ki, həmin qadının Aytəkin olduğuna əmin olana qədər araşdırmanı davam etdirməliydim. Üstündən iyirmi il keçməsinə baxmayaraq, bunu müəyyən etmək o qədər də asan deyil. Amma bu da son deyildi. Tahirin nəzarəti ilə psixoloji cəhətdən müalicə olunan Həsrət, yəni ki, Aytəkinin əmisi oğlu qərəzsiz sübut idi. Həmin oğlanın ailəsi Xocalıda məhv edilmişdi. Sonradan anası Şərqiyyə adlı qadın girovluqdan azad olunaraq Azərbaycana qaytarılıb və Həsrət də burada doğulmuşdu.

Biz çox çətinliklə olsa da, Ramilin yanına gələn həmin qadından saç nümunəsi götürərək DNT analizinə verdik. Nəticə heyrətləndirici idi! Həsrətin analiz nəticəsi ilə qadınınkı qətiyyən uyuşmurdu. Gələn qadın Aytəkinin oxşarı olsa da və üz cizgilərində xüsusi plastik əməliyyatlar aparılıb ona çox bənzədilsə də, əslində o, Aytəkin deyildi. DNT analizindən əldə olunan gen xəritələri Ramilin yanına göndərilən qadınla Həsrətin qohumluq əlaqələri-

nin mümkünsüzlüyünü göstərirdi. Çox güman ki, casus qadının genlərinin hansı millətə aid olduğunu Milli Gen Fondu təyin edə bilər. Amma indi bu vacib deyil. Onsuz da biz onu danışdırıb hər şeyi öyrənəcəyik.

Biz təxminən iyirmi dəqiqə əvvəl həmin qadının Aytəkin olmadığını öyrənə bildik. Dərhal da tapşırığım əsasında Tahirin tabeliyində olan əməkdaşlarımız əvvəlcə qadını, sonra isə həmin evə qayıtmaq üçün yolda olan Ramili həbs etdilər.

– Ramili niyə? – eşitdiklərinə, sanki gerçəyə dönmüş rəvayət kimi qulaq asan rəis yenə də hövsələsizlik etdi.

– Ramilin sarsıntı keçirərək hisslərə qapılmağından ehtiyatlanaraq onu da həbs etmələrini mən özüm tapşırdım. Bu vacib idi. İndi onların hər ikisi burada – Tahirin nəzarəti altında əsas zirzəmidəki dindirilmə otaqlarındadır. Qadının gəlmə məqsədi bəllidir. Bu barədə mən sizə telefonda dedim. Sözsüz ki, Tivanın dalınca göndərilən bu casus qadın Tivandan fərqli olaraq, ondakı məlumatın vacibliyini və mahiyyətini də bilir. Və çox yəqin ki, həmin məktubda yazılanlar haqqında da bilgilərə malikdir.

– Hə, razıyam. Tivan necə oldu? – rəis dəqiqləşdirməyə çalışdı.

– Həmin adam əslində özündə olan məlumatın belə vacib olması haqqında çox az xəbərdardır. Sadəcə olaraq bir-iki dəfə şübhələnib. Tivandan onu da öyrəndim ki, milli ordumuzun əsgərlərinə girov düşənə qədər Safaryanın yanında ən sadiq qulu olub. Bütün günü komandirinin atlarına baxmaqla məşğul olan bu adamı Safaryan məhz buna görə saxlayırmış. Və dediyinə görə buna səbəb onun Safaryanı çox istəməsi imiş. Nə qədər bəsit olsa da, Tivan komandirinin sevimli adamına belə çevrilibmiş. Məhz Tivanın ona çox sadiq olması Safaryanın da ona belə vacib sənədi etibar etməsinə səbəb olub.

– Amma, məncə, şübhə çəkməmək üçün, – təcrübəsinə əsaslanan Əzimov əminliklə izah etdi.

– Razıyam. Onu da deyim ki, Safaryan sui-qəsd nəticəsində öldürüldüyü vaxt Tivan bu xəyanəti həzm edə bilməmiş və yəqin ki, nifrətini soyutmaq üçün döyüşə atılmışdı. Təbii ki, döyüşün nə olduğunu bilməyən naşı mehtəri bizim əsgərlər elə həmin gün əsir götürmüşdülər, – Qüdrətov bunu da deyib ayağa qalxdı. İfşa etdiyi casus qadının söyləyəcəklərini eşitməyi aylardır gözləyirdi. Maskasını üzünə çəkərək gözucu rəisə nəzər saldı:

– Onun deyəcəklərini eşitməyə hazırsız?!

– Gedək! – rəis Qüdrətovun suala bənzəməyən fikrinə qısa cavab verib kabinetdən çıxmaq üçün qabağa düşdü.

***

– Sizi tanımıram, amma bu şöbənin varlığından xəbərim var. Yəqin özünüz də bunu məndən daha yaxşı bilirsiz ki, hələ indi də Şahid müəllimin şöbəsinin əməkdaşıyam, – danışan adam kimliyini Qüdrətovdan gizlətmədi. Bu, Ramil idi. Bir az əvvəl gözləri və ağzı bağlı olan universitet müəllimi Qüdrətov üçün yeni olmayan məlumatı dedi. Bir neçə gün ərzində şahidi olduğu hadisələrin mahiyyətini indi-indi dərk edirdi. Qüdrətov onun halını düzgün anlayırdı. Bilirdi ki, qorxmaz adam olan Ramilin düşdüyü bu vəziyyət əslində onun özünə uyğun deyil. "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası"nın da Ramil İbrahimov haqqında dedikləri buna əsas verirdi. Bu baxımdan Ramilin qeydiyyatda olduğu şöbənin rəisi – Şahid müəllimin verdiyi məlumatlarda da onun təcrübəli, qorxmaz və ehtiyatlı əməkdaş olduğu göstərilirdi. Təbii ki, Qüdrətov bu məlumatları öz rəisinin köməkliyi ilə öyrənə bilmişdi. Ramildən cəmi bir dəfə şübhələnmişdi. O da bir az əv-

vəlki əməliyyatda. Düşünmüşdü ki, ola bilsin, Ramil yanına gələn casus qadının əsl kimliyini bilməsə də, onun həqiqətən də Aytəkin olduğunu düşünsə də, qadının əsl niyyətindən – Azərbaycana məhz Tivan adlı həmin ermənidəki məlumatın yerini öyrənmək üçün gəldiyindən xəbərdardır. Amma indi bu şübhələrin heç biri yox idi. Və hələ ki digər otaqdakı həmin casus qadını danışdırmazdan əvvəl Qüdrətov, onun əslində kim olduğunu Ramilə deməli idi...

***

– Bilirəm, sənə ən çox təsir edən yanına gələn qadının gələrkən sənin 1991-ci ildə Aytəkinə yazdığın həmin məktubu özü ilə gətirməsidir. Sən hisslərə qapılmısan, özündə olmamısan. Əslində bu qadının Aytəkin deyil, əməliyyat nəticəsində peşəkarlıqla üzü dəyişdirilmiş, Aytəkinin bütün "tökdüklərini yığışdıran", onu ən gözəl aktyorlardan daha yaxşı yamsılayan casus olduğunu qəbul etməmisən. Hər halda ondan şübhələnib şübhələnmədiyindən xəbərim yoxdur. Ola bilsin ki, hansısa addımı atmısan. Amma yenə deyirəm, o qadınla görüşündən sonra sənin arxayınlığını görüb sakit dayanmaq şəxsən mənim üçün bağışlanılmaz ehtiyatsızlıq ola bilərdi. Hansı ki, özün də bunu etiraf edə bilərsən ki, bu ehtiyatsızlıq nəinki sənin və mənim üçün, hətta dövlətimiz üçün təhlükəli ola bilərdi, – deyib susdu. Sözünün davamını gətirmək istəsə də, fikrindən yayındı. Aytəkinin dəftərçəsi ilə bağlı söz salmaq istəmədi. Hər halda üzündə maska olan məxfi şöbə əməkdaşının əsl kimliyi ilə bağlı kiməsə məlumat verməsi, açığa çıxması nə qədər qəbuledilməz idisə, rəsmiyyətdən səmimiliyə keçmək də buna bənzəyirdi. Bu da onların – Vətənlərinin təhlükəsizliyinin keşiyində dayanan "adsız qəhrəman"ların həyatı idi. Həm də şüurlu

formada sevərək seçdikləri həyatları!.. Bunu xatırlayaraq susdu... Nəyisə düşünüb yalnız özünün hiss edəcəyi şəkildə köks də ötürdü... Yəqin ki, Ramil ilə sərbəst şəkildə, maskasız-filansız söhbət edən jurnalist Xəyal Mövsümsoy ola bilmədiyi üçün təəssüfləndi bir anlıq.

– Həmin qadını danışdırmağa gedirəm. Qulaq asmaq üçün səni də içəri sala bilərəm. Amma... – söhbətini bitirib digər kamerada hələ də Tahirin nəzarəti altında saxlanılan casus qadının yanına getmək istəyən Qüdrətov sözünün davamını gətirmədi. Yəqin ki, bu "amma"nın sonunda mayor Ramilin səhhətinin və psixoloji vəziyyətinin pozulmasını nəzərdə tutmaq istədi. Hər halda Albert Vaskanyan adlı həmin erməni vəhşisinin Aytəkinin başına gətirdiyi işgəncələri və... Və sözlə ifadə olunması mümkün olmayan ləyaqətsizlikləri danışdıracağı casus qadın deyəcəkdi, məcbur olub etiraf edəcəkdi... Könüllü olmasa da, zorla danışacaqdı! Hər şeyi!..

– Mən də içəri girmək istəyirəm, – Ramil mayorun tərəddüdünə son qoydu. Sevgilisi haqqında, yəqin ki, son məlumatları öyrənib bilmək ən çox onun haqqı idi. Həm də ki, qəribə olsa belə, düşmənin öz dilindən...

– Gedək! - Qüdrətov da onun fikrinə etiraz etmədi. Ramilin oturduğu yerdən necə qalxdığına bir anlıq nəzər də saldı. Universitet müəllimi bu halı ilə yaralı aslanı xatırlatdı ona. Və hiss etdi ki, hələ casus qadının danışdıqlarını eşitmədən indidən ürək ağrısı keçirir...

***

Monitorlar quraşdırılmış xüsusi izləmə otağında əvvəlcə Ramilin danışdıqlarını izləyən general-mayor Əzimov, indi Qüdrətovun müşayiəti ilə onun casus qadının saxlanıldığı otağa daxil olmasının görüntülərini böyük maraqla izləyirdi. Əvvəlcə Qüdrətov özü içəri daxil oldu.

Ramil də sakitcə onun ardınca girib gözləri və ağzı qara parça ilə bağlanmış casus qadına yaxınlaşdı. Ramilin bu hərəkətini çaşqınlıqla qarşılayan Tahir Qüdrətovun reaksiyasını gözləmədən tapançasını Ramilə tuşladı. Bu o qədər ani oldu ki, nə Qüdrətov, nə də Tahir nə edəcəklərini bilmədi.

– Leytenant! Silahı aşağı endir! – qadına yaxınlaşan Ramilin çox sakit olduğunu görən Qüdrətov, Tahirə əmr etdi. Sanki Ramil, Tahirin ona tuşladığı silahı heç görmədi də. Qüdrətov da Ramilin casus qadına yaxınlaşdığını görəndə ilk anda çaşqınlıq keçirsə də, onun əsl məqsədinin başqa olduğunu indi gördü. Ramil qadının əl çantasını götürüb nəyisə axtarmağa başladı. Qüdrətov indi başa düşdü ki, Ramil qadının çantasında hansısa səsötürücü cihazı axtarır.

– Bunu axtarırsan? – Qüdrətov buraya gəlməmişdən əvvəl Tahirin ona verdiyi kiçik səsötürücü cihazı cibindən çıxarıb Ramilə uzatdı. Tahir həmin cihazı yararsız hala salaraq elə əməliyyat zamanı zərərsizləşdirmişdi.

– Hə, özüm yerləşdirmişdim bunun çantasına – Ramil nəhayət ki, dilləndi.

– Özün?! – Qüdrətovdan əvvəl dillənən Tahir təəccübünü gizlətmədi.

– Bu qadın gəldiyi gün özümdə deyildim. Sizin də dediyiniz kimi hisslərə qapılmağa başlamışdım, – Ramil bunu deyib adını bilmədiyi üzü maskalı mayor Mikayıl Qüdrətovu işarə etdi, amma yenə də ehtiyatsızlıq etmədim. Yanıma gələn bu qadınla bağlı nə fikirdə olduğumu, əslində mənim də şübhələndiyimi, təbii ki, siz öyrənə bilməzdiniz. Yəqin ki, iyirmi il əvvəl sevdiyinin yaşamadığını qəbul edəndən, sonra isə möcüzə nəticəsində sağ qaldığını və onun yanına qədər gəlib çıxdığını görəndən sonra sakit, xəbərsiz gəzdiyimə görə mənim özümdən də

şübhələnmisiniz. Amma bayaq özünüz bunu da dediniz ki, mənim bu qadın haqqında nə düşündüyümü bilmirdiniz. Uzun müddət əsir və girovlarla işləyən adamın belə ehtiyatsızlıq etməsini, yəqin ki, heç kim qəbul etməz. Nəinki siz... Lakin mən ehtiyatsızlıq etmədim...

Həmin gün – bu qadının yanıma gəldiyi gün həyatımın ən ağır günü olmasına baxmayaraq, sarsılmadım... Yanıma gələn bu qadının Aytəkin olmadığından şübhələnməsəm də, ermənilərin onu bu qədər müddətdən sonra sağ-salamat buraxmasının səbəbi mənə aydın idi. Belələrinin çox vaxt casus olaraq hansısa tapşırıq dalınca Azərbaycana göndərilməsinin dəfələrlə şahidi olmuşam. Öz şöbə rəisimizə dərhal məlumat göndərdim. Yanıma gələn bu qadının çantasına səsötürücü yerləşdirdiyimi, önləmə tədbirimi aldığımı bildirib ondan, hələ ki bu işə qarışmamasını xahiş etdim. O isə mənə üç gün vaxt verdi. Bu müddətdən sonra mən istəsəm də, istəməsəm də Aytəkini şöbəyə təhvil verməliydim. Hər halda onun buraya hansısa satqın niyyətlə gəlmədiyi sübut olunana qədər ciddi nəzarət altında saxlanılması vacib idi. Mən bunu çox yaxşı bildiyimə görə, rəisimin mənim şəxsi həyatımla bağlı olan bu məsələdə anlayış göstərməsini normal qarşıladım. Aytəkin hesab etdiyim bu qadınla söhbət üçün üç gün də mənə görə böyük müddət idi. “Bəlkə də, onu bir daha azadlıqda görə bilməyəcəyəm...” deyə düşündüm. Nə yaxşı ki, yanıma gələn bu qadın mənim öz Aytəkinim deyilmiş... İndi yalnız buna görə təsəlli tapıb, beləcə sakitləşirəm...

## 53. Casus qadın danışır

– Leytenant, ekspertlərə tapşır ki, götürdükləri nümunəni araşdırarkən son dərəcə diqqətli olsunlar. Sonra isə nəticələri lazımi yerə şəxsən özün göndər – otaqdan çıxıb Tahiri də yanına çağıran Qüdrətov zəruri tapşırığını verib onu yola saldı. İndi leytenant Tahir Qurbanov, Aytəkin adı ilə Ramilin yanına göndərilmiş qadının qan nümunəsini də götürüb təxminən qırx dəqiqə əvvəl gəldiyi yeri – məxfi şöbəni tərk etdi. Mayorun ona verdiyi qan nümunəsini tam araşdırmaq üçün şöbənin xüsusi laboratoriyasına yollandı.

Ötən qırx dəqiqəyə yaxın müddət ərzində isə məlum hadisələrdən savayı casus qadının dindirilməsi də baş tutmuşdu. Çətinliklə də olsa, Qüdrətov onun bütün bildiklərini öyrənməyə müvəffəq olmuşdu. Ramilin bir az əvvəl otaqda danışdıqlarından sonra ifşa olunduğunu öz qulaqları ilə eşidən casus qadının həqiqəti etiraf etməkdən başqa yolu qalmamışdı. Təbii ki, mayor Qüdrətovun xüsusi dindirmə metodları öz sözünü demişdi.

Bir az əvvəl otaqdan çıxan Tahir də eşitdiklərini eşitmiş, bilmədiklərini öyrənmişdi. Belə çətin əməliyyatı uğurla davam etdirdiyinə görə Qüdrətovla fəxr də etmişdi. Elə Ramilin özü ilə də. Bəlkə, çoxlarının bacarmadığı bir işi bacarmışdı Ramil İbrahimov. Aytəkin bildiyi bu qadına qarşı hisslərini bir kənara qoyub dövlətinin təhlükəsizliyi naminə ona tanımadığı insan münasibəti göstərmişdi Ramil. Sözsüz ki, bu münasibətin diqqəti çəkən əsas tərəfi Ramilin qadının çantasında yerləşdirdiyi səsdinləmə cihazı idi. Ramil dişini-dişinə sıxaraq bunu bacarmışdı!..

Nəhayət ki, görüntüləri qeydə alan xüsusi kameraları işə salmaq vaxtı gəlib çatdı. Casus qadın bir az əvvəl dindirilmə prosesində qısaca dediklərini indi videoka-

mera önündə daha ətraflı, bütün detalları ilə birlikdə danışmaq məcburiyyətindəydi. Məhz bu videoyazı diskə köçürülərək bir daha araşdırılandan sonra məxfi arxivə göndəriləcəkdi. Qüdrətov vaxt itirməyin onların xeyrinə olmadığını bir daha xatırlayıb casus qadına baxdı:

– Mənim işarəmdən sonra başlaya bilərsən. Bayaqdan danışdıqlarını yeri gəldikcə suallarım əsasında cavablandıraraq izahat verəcəksən. Aydındır?

– Başa düşdüm... – qadın dilləndi. Onun indiki halı təcrübəli casusdan daha çox döyüləndən sonra ağıllandığını nümayiş etdirmək istəyən uşağın vəziyyətini xatırladırdı. Bu baxışlar "bax, daha bayaqkı kimi tərslik etmirəm, nə deyirsən edirəm" deyirdi sanki... Və sözsüz ki, bu baxışların özündə də şeytan qılığına girmiş tülkü hiyləgərliyi gizlənirdi. Amma artıq gec idi! Bunu otaqda olan Ramil də, casus qadın da, Qüdrətov da çox gözəl başa düşürdü.

– Başla! – Qüdrətov videokameranın görüntünü qeydə alan düyməsini basandan dörd-beş saniyə sonra ona işarə verdi.

***

Mən, Ayanyan Milana Petrovna, 44 yaşım var. Atam rus, anam ermənidir. İndicə haqqında danışacağım tapşırığı Albert Vaskanyan adlı rəhbərimdən almışam. Artıq iyirmi ilə yaxındır ki, onun yanında çalışıram. Buna oxşar tapşırıqlarda çox olmuşam. Amma birinci dəfədir ki, belə ağır tapşırıq dalınca, həm də üzümü dəyişdirtdirərək böyük risk altında gəlmişdim...

Aytəkin Səfərova adlı həmin azərbaycanlı qadının buradakı keçmiş sevgilisi Ramil İbrahimovdan məqsədimizə çatmaq üçün istifadə edə bilmək planını Albert Vaskanyan şəxsən özü düşünüb planlaşdırmışdı. Bu plan təxminən on il əvvəl hazırlansa da, o vaxt həyata keçirt-

mək mümkün olmadı. Aytəkin ona verdiyimiz tapşırığın mahiyyətini öyrəndikdən sonra casus olaraq Azərbaycana bizim verdiyimiz gizli tapşırıq dalınca gəlməkdən boyun qaçırtdı. Həyatının hər saniyəsi bizim əlimizdə olan bu qadının qorxmazlığına indi də heyrət edirəm...

Tapşırığa görə Azərbaycanda saxlanılan Tivan adlı erməninin o vaxt komandiri tərəfindən gizlədilməsi üçün ona verilən məktubun yerini öyrənmək lazım idi. Bizim qüvvələr o vaxt Ermənistanda hakimiyyətdə olanda bir neçə dəfə cəhd göstərsələr də, buna nail ola bilməmişdilər. Həmin vaxt məlumatı Tivandan öyrənməyə macal tapmış Qarib adlı ermənini isə bizdə hakimiyyət çevrilişi yaratmağa çalışan qüvvələr aradan götürdülər. Sonradan Ermənistanda hakimiyyətə məhz bu qüvvələrin gəlməsi nəticəsində Tivandakı məktubun yerini öyrənmək, ümumiyyətlə, böyük bir problemə çevrildi. Vaskanyan isə bu illər ərzində artıq arzusunda olduğu siyasi fəaliyyətindən birdəfəlik uzaqlaşıb Qarabağdan yığdığı var-dövlət hesabına genişmiqyaslı müstəqil biznesə qoşulmuşdu. Mən onun bütün biznes işlərinə yaxından bələd olan bir adam olaraq deyə bilərəm ki, bu məktubun tapılması bu günün özündə Vaskanyanın özü üçün qətiyyən maraqlı olmaya bilərdi. Hətta mən bu barədə ondan soruşdum da...

– Nəyi soruşdun? – Qüdrətov müdaxilə etdi.

– Mənim kimi vacib adamını nəyə görə riskə atdığını və lazımsız bir məktub dalınca buraya göndərməsinin səbəbini soruşdum. Bilirdim ki, hakimiyyət barəsində fikirlər yürütmək, hakimiyyəti pisləmək və yaxud tərifləmək son illər ərzində, ümumiyyətlə, vecinə deyildi. O isə həmin məktubu təzyiqlər altında qalan yaxınlarının canlarını xilas etmək üçün tapmaq istədiyini bildirdi. Bundan sonra anladım ki, Vaskanyan bu məktubu təhdid və zor altında qalaraq tapmaq məcburiyyətində olub. Hətta ona

vaxt da vermişdilər. Əks halda həm özü, həm də ən yaxın adamları öldürüləcəkdi. Təbii ki, belə vəziyyətində onu ən çox düşündürən şəxsən öz təhlükəsizliyi və yığdığı pulların əldən çıxmamasını təmin etmək idi.

– Onu öldürməklə hədələyənlər kim idi? – mayor növbəti dəfə dəqiqləşdirmə apardı.

– Onu hədələyən adamlar bu dəqiqənin özündə iqtidarı silahlı çevriliş yolu ilə ələ keçirtmək istəyən qüvvələrdir. Biz düşünürdük ki, bu qüvvələr o vaxt hakimiyyətdə olan iqtidarın maraqlarına xidmət edirmiş. Yoxsa həmin məktub onların nəyinə lazım idi?!

Öz rahat həyatını qorumaq üçün, onların istədiklərini verməyə çalışan Vaskanyanın da bu, son aylarda rahatlığını alt-üst edən əsas səbəb idi. Odur ki, çoxdan düşündüyü bu planı – məni Aytəkin Səfərova adı ilə buraya göndərməyi vaxt itirmədən tətbiq etməli olduq. Bu, bəlkə də, bizim və şəxsən Vaskanyanın yaşamaq üçün son şansı, son planı idi...

– Tivanın gizlətdiyi məktub barəsində danış! – mayor gözlərini qadından yayındırmadan onu tələsdirdi.

– Tivandakı sənədi Safaryan ona vermişdi. Tapşırmışdı ki, mənə nəsə olsa, sən bu sənədi gizli bir yerdə basdır. Sənəd çürüməyə qarşı davamlı olan xüsusi, çox kiçik qutunun içərisində yerləşdirilmişdi. Hər halda Vaskanyanın o vaxt ölüm ayağında olan komandirindən öyrəndiklərini nəzərə alsaq, belə deməliyəm. Safaryan xaricdəki gizli erməni təşkilatının rəhbərindən gələn həmin sənədi üçüncü bir şəxs sayılan naməlum adama verməli idi. Bu adam isə o vaxt Ermənistana hələ ki, bir neçə ay sonra gələcəkdi. Əgər Safaryana nə isə olsaydı o, bu sənədi Vaskanyana yetişdirməli idi. Safaryan Vaskanyana nə qədər inansa da, sağ ikən bu sənədi ona etibar etməyib gizlətmək üçün Tivana vermiş və ona bir şey olacağı halda bir həftə gözlə-

yib Vaskanyana verməsini tapşırmışdı. Elə oldu ki, Safaryan sui-qəsd nəticəsində ağır yaralanaraq elə həmin gün də öldü. Tivan isə Azərbaycan ordusuna əsir düşdü. Və məktub Vaskanyanın əlinə keçmədi. Amma Vaskanyan bu vacib sənədin varlığından və onun yerini yalnız Tivandan öyrənə biləcəyindən xəbərdar idi. Dediyim kimi, ölümündən bir neçə saniyə əvvəl bunu ona gec də olsa, Safaryan özü demişdi. Bu vacib və gizli sənədi Safaryan lazımi üçüncü – ən əsas icraçı şəxsə ötürə bilmədən öldürülmüşdü. Və bir neçə il keçməsinə baxmayaraq, həmin üçüncü şəxsin tabeçiliyində olan gizli silahlılar son günlərdə daha da fəallaşmış Vaskanyanı ölümlə hədələyərək o sənədin harada olur-olsun tapılmasını, əks halda da bütün yaxınlarının, özünün və hətta bütün nəslinin məhv edilməsi ilə təhdid etmişdilər. Görünür, son dövrlərdə dünya miqyasında Ermənistanın nüfuzdan düşməsi, iqtisadiyyatının zəifləməsi və bu kimi məsələlər dövlətin əsl sahiblərinin ciddi narahatlığına səbəb olmuşdu. Buna görə də onlar Albert Vaskanyan kimi yalnız özünü və var-dövlətini düşünən adamlara güzəştə getməyi düşünmürdülər. Yəni ki, məsələ mənim və hətta Vaskanyanın özünün düşündüyündən daha da ciddi idi. Başına gələnlərdən sonra artıq Vaskanyan üçün bu sənəd Böyük Ermənistan sevgisinin planlarından biri deyildi. O hətta bu sənəddə yazılanlara nifrət edir, Safaryanı, üçüncü vacib şəxsin adamlarını da hər gün dəfələrlə təhqir edirdi. Elə üçüncü vacib şəxsin adamları da öz növbəsində Safaryanı işi yarıda bilməməsinə görə hər gün lənətləyir, ölənlərin goruna söyüşlər yağdırdılar. Bu ay isə üçüncü vacib şəxsin şəxsən özünün Vaskanyan üçün verdiyi sonuncu müddət idi. Yəni ki, məni bu əməliyyat dalınca göndərəndə Vaskanyanın otuz gündən daha az vaxtı varıydı...

– Bayaqdan dəfələrlə dediyin üçüncü vacib şəxs

haqqında nə bilirsən? Adını heç eşitməmisən? – bu barədə bir az əvvəl videokameranı işə salmazdan əvvəl soruşan Qüdrətov çəkiliş zamanı yenidən bu sualı verdi.

– Yox, nəinki mən, Albert Vaskanyan özü də həmin adamın kimliyini bilmir. Bizə məlum olan yalnız onun məqsədləri idi. O da ancaq bizə aid olan qismini. Bundan artığını bilmirdik.

– Aytəkinlə bağlı danış! Onu kim öldürdü? – Qüdrətov bunu soruşub Ramilə nəzər saldı. Onun vəziyyəti getdikcə daha da pisləşirdi. Bir az da belə qalsaydı, dözə bilməyəcəkdi... Qüdrətov isə Milana adlı casus qadına Aytəkinlə bağlı danışmasını göstəriş verəndə bilərəkdən özü qabağa düşüb Aytəkinin öldürüldüyünü Ramilə eşitdirdi. Mayor Aytəkinin təxminən doqquz il əvvəl öldürüldüyünü casus qadını ifşa edən kimi elə yoldaca danışdıraraq onun özündən öyrənmişdi. Və yəqin ki, bunu indicə dilə gətirməsinin səbəbi, bəlkə də, daxilində Aytəkinin sağ qalması ümidləri ilə yaşamaq istəyən, bilə-bilə özünü aldatmağa çalışan Ramili çəkdiyi əzablardan qurtarmaq idi. Necə olur-olsun, Ramil öz sevgilisinin ölümünü çoxdan beyninə yazmışdı... Ürəyi bu ölüm xəbərini qəbul etməmişdisə də... Qara kağızı gətirən "elçini" qapıdan qovsa da... Beyni bütün şüuru ilə Aytəkinin ölüm xəbərini qəbul etmişdi. Və bu acı xəbər iyirmi il idi ki, mərmi kimi onun beynində hərəkət edir, onu sızladır, hərdən fürsət tapıb damarlarında axan qanın içinə qarışaraq ürəyinin qapısına qədər gəlib çıxırdı da... Və hər dəfə də arsız "elçi"lər kimi "yox" cavabı ilə geri dönürdü...

– Aytəkini, o, özü öldürdü – Vaskanyan. Aytəkin vətəninə xəyanət etməkdən boyun qaçırdıqdan sonra Vaskanyan onu hələ də yaşayan bacısı Gülcahanı öldürməklə qorxutdu. Fikirləşmək üçün bir gün vaxt da verdi. Sonda o, yenə razılaşmadı. Əslində Aytəkinin anası və qardaşı

öldürüləndən sonra Vaskanyan onun bacısını məqsədli şəkildə sağ saxlamışdı. Həmin vaxt Gülcahan Ermənistanda xüsusi nəzarət altında saxlanılırdı. Biz isə öz planımızı işə salmaq üçün Aytəkini saxladığımız yerə – Fransaya gəlmişdik. Vaskanyan Aytəkini Gülcahanı öldürməsi ilə hədələyəndə şəxsən mən onun bizim təkliflə razılaşacağına çox inanırdım. Amma Aytəkin bizi pis vəziyyətdə qoydu. Albert onu elə "yox" dediyi həmin vaxt öldürəcəkdi. Mən isə "əsl Aytəkin" olmağım üçün hələ də müəyyən şeyləri Aytəkindən öyrənməli idim. O, məni tanımasa da, görməsə də, mən onun haqqında çox şey bilirdim. Vaskanyan onun "yox" cavabından sonra silahı üstünə tuşlayanda araya girdim. Guya onu xilas etdim. Əslində bu kiçik planı da Vaskanyanın razılığı ilə həmin gündən bir gün əvvəl mən düşünmüşdüm. Aytəkinlə aranı düzəltmək, bir qadın kimi ona yaxınlaşmaq və onun Ramil haqqında bütün söhbətlərini dinləmək bu tapşırıq ardınca gələ bilməyim üçün çox vacib idi. Ona bacardıqca daha çox yaxınlaşmalı idim. Bunun üçün əlimdə çox yaxşı fürsət də var idi – simaca ona bir az oxşayırdım. Mən atamın rus olduğunu ona deyəndən sonra mənimlə münasibətdə, söhbətlərdə bir az da rahat olmuşdu. Onu Vaskanyanın silahından "xilas" etdiyim günə qədər məni tanımayan, görməyən qadın qısa vaxt ərzində mənə getdikcə daha çox inanmağa başladı. Mən ona Vaskanyanı dərindən tanımadığıma, sadəcə olaraq Fransada təsadüfən tanış olduğuma inandıra bilmişdim. Bəlkə də, məni Ermənistanda görsəydi, hadisələr belə sürətlə mənim xeyrimə dəyişməzdi və mən də ondan heç nə öyrənə bilməzdim.

– Gülcahan öldürüləndə sən də orada idin? – Qüdrətov cavabını bildiyi sualı bilərəkdən soruşdu.

– Yox, mən onun öldürülməsini Vaskanyanın danışmasından öyrəndim. Vaskanyan, Gülcahanın öldürülməsi

anlarını məcburi şəkildə internet vasitəsilə Aytəkinə izlətdirmişdi. Onun əmri ilə Ermənistanda saxlanılan Gülcahanın hər iki ayağını, sonra isə qollarını kəsmiş və üstünə elə bu vəziyyətdə də benzin töküb yandırmışdılar. Bu, dəhşət idi! Bacısının belə işgəncə ilə faciəli şəkildə öldürülməsini izləyən Aytəkin keçirtdiyi stressdən sonra şok vəziyyətinə düşüb günlərlə ac-susuz, gözləri bir nöqtəyə zillənmiş halda saxlanıldığı otağın bir küncündə oturdu. Albertin ona qarşı hirsi hələ də soyumamışdı. Mən isə Aytəkinin həmin vaxt ölməsini istəmirdim. Həkim çağırıb onun vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər gördüm. Qadın sanki, ölüb yenidən dirilmişdi. Daha doğrusu, mən onu ölməyə qoymadım.

Aytəkini tanımağa başladıqca onun möhkəm iradəli qadın olduğunun dəfələrlə şahidi oldum. Amma gözlərindəki qorxu, dəhşət, kin və nifrət onu öyrəndiyim bir ilə yaxın vaxt ərzində məni rahat buraxmırdı. Bir ildən sonra isə artıq ona ehtiyac qalmamışdı. Mən Ramil haqqında, onların necə tanış olmaları haqqında hər şeyi bilirdim. Elə Vaskanyana bunu bildirdiyim günün gecəsi bir il əvvəl onun təklifi ilə razılaşmayaraq Azərbaycana tapşırıq dalınca gəlməkdən boyun qaçıran Aytəkinin cəzasını verdi. Bu, mənim gözlərim qarşısında oldu. Albert Aytəkinə bacısından daha ağır işgəncələr verərək döyməyə başladı. O, əlindəki armatur parçası ilə dayanmadan vurur və hər vurduqca da söyüşlərinin ardı-arası kəsilmirdi. Yalnız onda əlini saxladı ki, qadının can verdiyini və nə isə pıçıldadığını hiss etdi. Bu, bizim üçün, həqiqətən də, heyrətləndirici idi. O, gözlərini yumana qədər eyni cümləni təkrar edirdi – "İlahi, şükür ki, məni rəzalətdən qurtardın... Şükür sənə İlahi!.."

Casus qadının Aytəkinlə bağlı danışdıqlarını, onun can verərkən dediyi sözləri eşidəndən sonra halı daha da

pisləşən Ramil, Qüdrətovun göstərişi ilə otaqdan çıxarıldı. Ramil özü də erməni casusunun danışdıqlarını daha eşitməmək üçün baş götürüb buradan uzaqlaşmaq istəyirdi... Çıxarkən qulağında bu sözlər cingildəyirdi: "Albert Vaskanyan, Vaskanyan, Vaskanyan!.."

***

Ramil otaqdan çıxarılandan sonra Qüdrətov sorğu-sualı dayandırmadı. Hələ də əsas suallar cavabsız qalmışdı.

– Tivandakı məktubun yerini öyrənəndən sonra Vaskanyanla harada görüşəcəkdiniz? – Qüdrətov, sanki Ramilin çıxmasını gözləyirmiş kimi, nəhayət ki, onu maraqlandıran ən vacib sualı verdi.

Casus qadın susurdu. Bayaqdan bəri bildiklərini danışıb bülbül kimi ötən adamdan səs-səmir gəlmirdi. Eşitdiyi sualdan sonra rəngi də ağarmışdı. Amma lal sükut çox çəkmədi. Qüdrətovdan aldığı zərbədən sonra erməni casus bağlı vəziyyətdə oturduğu stulla qarışıq döşəməyə yıxıldı. Danışdırılmağa başladığı vaxt razılaşdıqları şərti pozan qadının növbəti dəfə qorxulu susması mayoru daha da hiddətləndirirdi. Bir az əvvəl bildiyi hər şeyi kamera önündə danışacağına razılaşsa da, indi yenə də danışmaqdan boyun qaçıran qadının hərəkətləri mayoru şübhələndirməyə başlamışdı. Hiss edirdi ki, Albert Vaskanyanın ən etibarlı adamlarından olan bu erməni qadın hələ də gizlədib demədiyi müəmmalı məlumatlara malikdir.

– Danış! – Qüdrətov onu döşəmədən qaldırıb yenidən kameranın qarşısında otuzdurdu. Bütün bu baş verənlərin qeydə alındığını görən casus qadın hələ də danışmağa qorxurdu. Rəhbərinin qaniçənliyinə, xəyanəti bağışlamamağına bələd olan Ayanyan Milananı öz rəhbəri ilə olan ən yaxın münasibətləri belə sakitləşdirə bilmirdi. Sözsüz

ki, Vaskanyan heç nəyə baxmadan onu və bəlkə də, bütün yaxınlarını öz üsulları ilə cəzalandıracaqdı. Amma qarşısına dikilən və yalnız gözlərini görə bildiyi bu adamdan – məxfi şöbənin gizli əməkdaşı olan Qüdrətovdan getdikcə daha çox qorxmağa başlayırdı. Bu qorxu fiziki qorxudan daha çox Qüdrətovun aydın və zəhmli baxışlarından qaynaqlanırdı. Mayorun baxışlarındakı özünə əminliyi üzərində hiss etdikcə erməni qadın sakit qala bilməyib əsməyə başlamışdı.

– Görüş yerini de! – Qüdrətov hirslə yumruğunu düyünlədi.

– Onu satdığımı bilən kimi mənim ailəmi və bütün yaxınlarımı məhv edər... – casus qadın dili topuq vura-vura kəkələdi. Deyəsən, bir az da belə davam etsəydi, arsızlıq edib hələ ağlayacaqdı da!..

– Konsert açma! Onsuz da Albert sənin gəlmədiyini görüncə hər şeyi başa düşəcək. Ailənə yazığın gəlirsə, bildiyin hər şeyi deməlisən.

Casus qadın mayorun nə demək istədiyini anladı. Qarşısında olan bu adamın inadkarlığını bir daha gördü. İndi özü də hiss etdi ki, görüş yerini desə, Vaskanyanın tülkü kimi hiyləgər olmasına baxmayaraq, bu adam, yəqin ki, onu yaxalaya biləcək. Və sözsüz ki, sağ buraxmayacaq. Bu isə casus qadının ailəsinin o qaniçənin əlindən qurtulması demək idi. Casus qadın ani olaraq bunları düşünüb bildiklərini danışmaq üçün, sanki Qüdrətovdan daha çox tələsdi.

– Mən Tivandakı məktubun yerini öyrənən kimi Rusiyaya qayıtmalıydım. Vaskanyanla görüşümüz də elə orada olacaqdı. Amma görüş yerinin konkret hara olması barəsində mənə deməmişdi. Bircə bunu bilirəm ki, Albert Rusiyaya çoxdan bəri əlaqədə olduğu adamları aradan götürmək üçün gələcəkdi. Bunu onun telefon danışığı

zamanı eşitmişdim. Yəqin ki, o vaxt Rusiyada olan hansısa əlaltısına hazırlaşıb onu gözləmək tapşırığını verirdi. Çünki çox əsəbi və həm də həyəcanlı idi. Yüksək səslə danışırdı. Bu planla bağlı məni gizli görüşdüyümüz yerə çağırmışdı. Bunları da elə içəri girərkən eşitdim. Başa düşdüm ki, aradan götürmək istədiyi adam Sonya adlı qadındır. Vaskanyanın onunla hansısa vacib gizli əlaqələri olduğunu bilirdim. Deyəsən, aralarında hansısa uşaq söhbəti də var idi. Çünki o, ildə bir neçə dəfə qadına pul göndərirdi. Amma Albert pulu ona nə üçün göndərdiyi barədə mənə heç vaxt danışmamışdı. Bundan əlavə, Albertdən xəbərsiz həmin qadının Roma adlı oğlunun olduğunu və Rusiyadakı ermənilərə dəstək verən təşkilatın başında dayandığını da öyrənmişdim. Amma sonralar bunu araşdırmağa vaxtım olmadı. Həm də Vaskanyanın mənim ona xəyanət etdiyimi, ondan xəbərsiz işlər gördüyümü düşünməsindən və şübhələnməsindən ehtiyatlandım. Onun mənə verdiyi tapşırıqlarla bağlı, demək olar ki, çox vaxt gizli görüşürdük. Ötən illər ərzində inandığı adamlardan birinə çevrilmişdim. Mən heç vaxt ona xəyanət etməyi düşünmürdüm. Ona xəyanət edən bir nəfər erməninin acınacaqlı aqibətini görəndən sonra Albertin necə qorxunc adam olduğunu anladım.

– Görüş nə vaxt olmalı idi?

– Mən Ermənistandan əvvəlcə Rusiyaya, oradan isə Bakıya gəlməli, sonra isə Ramil vasitəsilə Tivandakı məktubun yerini öyrənməli idim. Vaskanyanın fərziyyələrinə görə bunu qısa vaxt ərzində etmək mümkün idi. Mən isə qısa müddətdə bunu bacarmağın çox çətin olduğunu dəfələrlə desəm də, məni tələsməyə məcbur edirdi. Görünür, ona verilən vaxtın tamam olmasına az müddət qaldığını görüncə başını tamam itirmişdi. Sonuncu görüşümüzdə isə çox həyəcanlı görünürdü. Onu həmişə so-

yuqqanlı görməyə alışsam da, bu dəfə qorxduğunun və çıxılmaz vəziyyətdə qaldığının şahidi oldum. Mənə tapşırdı ki, necə olur-olsun, bu işi mümkün dərəcədə tez bitirib Rusiyaya qayıdım. Bakıdan ona zəng etməməli idim. Onsuz da əlaqə üçün heç bir nömrə-filan da verməmişdi mənə. Sadəcə olaraq bunu dedi ki, Rusiyada görüşəcəyik. Başqa heç nə bilmirəm. Yəqin ki, aeroportda adamları var imiş. Məhz bu adamlar mənim Rusiyaya gəldiyimi ona xəbər verəndən sonra Albert özü mənimlə əlaqəyə keçəcəkmiş.

– Romanın başçılıq etdiyi təşkilatın adın öyrənmədin?

– Yox... Dedim axı, Vaskanyanda özümə qarşı yersiz şübhə yaratmaq istəmədim...

***

Qüdrətov aldığı məlumatdan sonra gecikmədən otaqdan çıxıb rəisin yanına getdi. Rəis də onu qapıda gözləyirdi.

– Mən təcili Rusiyaya getməliyəm! Hava limanındakı əməkdaşlara mənim elə indi oraya uçmağım üçün şərait yaratmalarına, tapşırıq verməyinizi xahiş edirəm, – Qüdrətov qapının yanına çatar-çatmaz bildirdi.

– Mən artıq onlara xəbər göndərmişəm, narahat olma. Bir saat sonra onlar səni hava limanında gözləyəcəklər! – Əzimov sevimli əməkdaşının çıxarkən nə istəyəcəyini qabaqcadan başa düşüb bir saat sonra Rusiyaya uçmaq üçün növbədənkənar bilet hazırlatdırmışdı.

– Bu lap yerinə düşdü. Amma qorxuram ki, gecikə bilərik.

– Başqa yolumuz yoxdur. Şübhə yaranmaması üçün bir saat gözləməliyik. Əks halda səs-küy yarana bilər, – rəis sanki, ona təskinlik verdi.

– Milananın danışdıqlarının hamısını dinləyə bildiniz?

– Hə, sənin şübhələrinin doğru çıxmasına sevindim. Qızın çantasından götürdüyün sənədləri də araşdırıblar. Onun Azərbaycana gəlişində klassik üsuldan istifadə olunub. Guya ki, buraya hansısa qohumuna baş çəkmək üçün gəlirmiş. Həmin vaxt hava limanındakı buraxılış məntəqəsində növbədə olan bütün heyət nəzarət altında növbə ilə danışdırılır. Güman etmirəm, amma yenə də şübhəli əlaqələri olmuş olanı varsa, onları danışdıranın diqqətlərindən yayınmaz.

– Bizim danışdırmağımıza ehtiyac yoxdur?

– Yox. Heyət on yeddi nəfərdən ibarətdir. Sözsüz ki, ehtiyatsız davrananlar da bunlardan ikisi, ya da üçüdür. Onları da digər şöbə araşdırıb tapacaq. Mayor Turabovla danışdım. Sən  onun təcrübəsinə bələdsən.

– Hə, – Qüdrətov, onun adını eşidib arxayınlaşdı. Gənc leytenant olduğu illərdən mayor Turabovu tanıyan Qüdrətov onun peşəkarlığına bələd idi.

– Dünən şöbəmizə gizli mənbədən xəbər daxil olub. Bu əməliyyatını uğurla bitirən kimi onu araşdırmalı olacaqsan – rəis sevimli əməkdaşının yorğun və kinli üzünə nəzər salıb özünəməxsus ahənglə səsləndi. Deyəsən, bayaqdan bəri əsəb içərisində casus qadını sorğu-sual edən mayor Qüdrətov rəisinin yanında olduğu üçün üzündəki maskanı çıxarıb bir az rahatlanmışdı. Rəisinin yeni tapşırığına başı ilə təsdiqedici cavabı verib əlavə etdi:

– Nə ilə bağlıdır?

– Rusiyada hansısa Azərbaycan təşkilatına qarşı təxribat hazırlanır. Təşkilatın adı ilə bağlı məlumatımız yoxdur. Ola bilsin ki, yeni fəaliyyətə başlayıb, yaxud da ki, üzvləri az olan kiçik bir təşkilatdır. Hər halda sənin özünün araşdırmağın daha yaxşı olardı.

– Başa düşdüm. Oradakı agenturamıza bu barədə məlumat veribsiniz?

– Hələ ki yox.

– Yoldaş general-mayor! – Qüdrətov qəflətən casus qadının dediyi təşkilatı xatırladı. – Məncə, sizin dediyiniz təşkilatın rəhbəri elə Romanın özüdür. Milananın bayaq dediyi adam! – Qüdrətov hövsələsiz formada izah etdi.

– Bu barədə bayaq düşünməmişdim heç. Amma erməni qadının dediyi Roma adlı adam erməni təşkilatına rəhbərlik edir. Bizim məlumatda isə təşkilatın Azərbaycanın mənafeyinə xidmət etdiyi göstərilir, – Əzimov öz mülahizələrini irəli sürdü.

– Əlbəttə, bu mümkündür. Çünki Romanın atası Məhəmməd azərbaycanlı, anası Sonya isə ermənidir. Biz məhz bunu unutmamalıyıq, – Qüdrətov əlində olan dəlillərə istinad edib qəti fikrini bildirdi.

– Razıyam. Amma yenə də dəqiqləşdirmək lazımdır.

– Mən indicə Rusiyadakı agenturaya təşkilat barəsində məlumat verib, Sonyanın və onun ailəsinin axtarışlarını sürətləndirmələrini tapşıraram, – Qüdrətov bunu deyib, ardınca da ümidli tərzdə əlavə elədi:

– Onlara daha bir ipucu verdim, yəqin bu dəfə məni məyus etməzlər...

Rəis hiss etdi ki, Qüdrətov "onlar" deyəndə Rusiyadakı agentura əməkdaşlarını nəzərdə tutdu. Bir az onun ardınca baxıb nə isə düşündü. Qüdrətov artıq çıxmışdı. Sonra özü də kabinetinə getmək üçün zirzəmidən çıxdı. İndi qarşıda Albert Vaskanyan kimi erməni qaniçənini ələ keçirtmək üçün çətin bir tapşırıq onları gözləyirdi. Amma məxfi şöbənin rəisi general-mayor Kamil Əzimov sevimli əməkdaşının bu işin də öhdəsindən uğurla gələcəyinə çox ümid edirdi. Elə bir az əvvəl Qüdrətovun ardınca baxarkən də bunu düşünmüşdü...

## 54. Geriyə yol yoxdur

Yenicə başlamış gün özü ilə bərabər gətirdiyi müəmmalı qətl xəbərləri ilə şəhər əhalisinin üzünə açıldı. Rusiyanın paytaxt şəhərində baş vermiş bu hadisə qısa vaxt ərzində bütün ətraf ərazilərə yayılmağa başladı. Burada "Толос Кавказа" adlanan təşkilatın rəhbəri olan Roma adlı şəxs səhər şəxsi maşın ilə işə gələrkən qətlə yetirilmişdi.

Gecə ilə Rusiyanın bu böyük şəhərinə gələn Qüdrətov hadisədən təxminən on beş dəqiqə sonra xəbər tutdu. Ona xəbər göndərən buradakı agentura əməkdaşı həm axtardıqları təşkilatın tapıldığını, həm də rəhbərinin qətlə yetirildiyini eyni anda bildirdi. Mayorun bir az əvvəl öyrəndiyi xəbərdə isə qətl haqqında daha ətraflı məlumat verilirdi. Hadisə təşkilat rəhbərinin idarə etdiyi avtomobilin yönişığının qırmızı işığında gözlədiyi vaxt baş vermişdi. Qırmızı işıqda gözlədiyi vaxt onun sağ tərəfində dayanan "Ford" markalı avtomobilin sürücüsü siqnal verərək nə isə soruşmaq bəhanəsi ilə Romanın şüşəni endirməsinə nail olub. Elə gözlənilməz atəş də bu vaxt baş verib. Sərrast atan qatil cəmi bir güllədən istifadə etməklə onu gicgahından vuraraq öldürüb. Yol təhlükəsizlik kameralarının qeydlərinə görə qatil öz üzünü burnuna qədər bağladığı şərf vasitəsi ilə gizlədə bilib. Onun hadisə zamanı idarə etdiyi avtomobilin nömrə nişanı isə artıq axtarışa verilmişdi.

İndi dünənki günün əsəbi ilə gecənin yuxusuzluğu üstüstə qalaqlanmış və sanki bütün ağırlığı ilə Qüdrətovun çiyinlərindən asılmışdı. Gecikmək olmazdı. Baş verən qətl bunu göstərirdi ki, hadisəni törədən, həqiqətən, Ermənistandan buraya gələn Albert Vaskanyandır. Bu, dünən ələ keçirdiyi casus qadının dedikləri ilə üst-üstə düşür-

dü. Dünən axşam Bakıda olarkən öz rəisinin haqqında bəhs etdiyi təşkilat da elə bu idisə, deməli, doğru yolda idi. Belə çıxır ki, ölmək növbəsi Romanın digər ailə üzvlərində – Sonya və Məhəmmədədir. Mayor onların ev ünvanı haqqında məlumatı isə hələ ki, gözləyirdi. Ünvanı öyrənməkdə geciksəydilər, Albert Vaskanyanı əldən çıxara bilərdilər. Bu barədə düşünürdü ki, axşamkı tapşırığına əsasən agentura əməkdaşının xəbəri daxil oldu. Məlumatda bildirilirdi ki, indicə verilən xəbərə görə təşkilat rəhbərinin anası – Sonya adlı qadın da öz evində gicgahından vurularaq qətlə yetirilib. Qatilin bu dəfə qeydiyyat nömrə nişanları dəyişdirilmiş həmin "Ford" markalı maşınla gəldiyi bildirilir.

– Heç olmasa, təşkilatın əsl fəaliyyəti ilə bağlı bir şey öyrənə bildin? – Qüdrətov əsəbi şəkildə soruşdu. Gecikdiklərini və Albert Vaskanyanı əldən çıxarmaq üzrə olduğunu görən mayor hövsələsini toplaya bilmədi.

– Bir az əvvəl öyrəndik. Həmin təşkilat sizin dediyiniz kimi, üzdə bizə, gizli şəkildə isə ermənilərin mənafelərinə xidmət göstərirmiş.

– Məhəmməd sağdır?

– Biz Romanın və ailəsinin tərcümeyi-halı haqqında məlumatları öyrəndik. Atası Məhəmməd bir neçə il əvvəl hansısa səbəbdən onlardan ayrılıb başqa yerə köçüb. Bu barədə məlumat tapa bilmədik. Bir də Romanın keçmiş həyat yoldaşı Anitanın harada yaşadığı haqqında hələ ki, məlumatımız yoxdur.

– Adı nədir qadının?! – Qüdrətov bu adı eşidəndə qeyri-ixtiyari olaraq heyrətini gizlədə bilmədi.

– Anita.

– Həm Məhəmmədin, həm də onun fotoşəkillərini cəld mənə göndər!

– Oldu, cənab mayor!

## EPİLOQ

*Hadisədən 8 ay sonra...*
*Azərbaycan, Bakı*

Otaqda olan adam bayaqdan bəri televizorda bir-birini təqib edən rəngarəng musiqi proqramlarının səs-küyündən bezib onu söndürdü. Qonşu otaqlara qulaq verib mənzildə tək yaşadığını, sanki indi öyrənibmiş kimi bir anlıq duruxdu. Həmişəkindən daha fikirli və bir az da məyus halda gözlərini sönmüş televizorun ekranına zilləyən bu adam məxfi şöbənin gizli agenti mayor Mikayıl Qüdrətov idi. Bir az əvvəl televizorda rus kanallarından birində xəbərlər proqramının aparıcısı olan həmin qız Anitaya necə də bənzəyirdi. Amma indi o yaşamırdı... Üç ay sonra öldüyünün bir ili tamam olacaqdı. Öldüyününmü?! Buna da səbəb Qüdrətov idi... Qarşısındakı tünd çaydan bir qurtum içib kənara itələdi. Beynindəki fikirlər burulğanı yenə də baş qaldırmış, daxildən onun iradəsinə tabe olmadan vulkan kimi püskürməyə başlamışdı... Həmin hadisədən sonra birinci dəfə idi ki, Anita barəsində düşünməyə başlamışdı... Səkkiz ay əvvəl...

***

Həmin günlər Qüdrətovun yaddaşında ən uğurlu əməliyyat vaxtları kimi qaldı. Həqiqətən də, hər şey planlaşdırıldığı ssenari üzrə davam etmişdi. Albert Vaskanyanın izinə düşməyə çalışan mayor Moskvadakı agentura əməkdaşının ona göndərdiyi şəkillərdən sonra Romanın boşandığı həyat yoldaşının məhz onun tanıdığı Anita adlı qız olduğunu öyrənir. Həyatda heç vaxt təsadüflərə inanmayan Qüdrətov, bəlkə də, ömründə bircə dəfə də olsa, təsadüflərin olduğunu etiraf etmək məcburiyyətində qal-

saydı, yəqin ki, bunu deyərdi. Anita ilə ilk tanış olduğu günlərdə qızın məcburən ona verdiyi telefon nömrəsi işə yaramışdı. Qüdrətov indicə həmin günü xatırladı. "Bilirəm, buradakı işlərin bitən kimi gedəcəksən. Axı özün elə indi dedin ki, qəzet üçün hazırladığın material bitən kimi doğma vətəninə qayıdacaqsan. İnan ki, mən sənin getməyini istəmirəm. Xahiş edirəm, bunu itirmə... Bu kağızda mənim nömrəm yazılıb. Nə vaxt buraya gələsi olsan, məni də yada sal..." Bu sözləri Anita demişdi...

Anita ilə görüşəndə də qız Qüdrətovun yenidən qayıtmasına çox sevinmişdi. Kim bilir, bəlkə də, nə xəyallar qurmuşdu. Amma Qüdrətov onun yanına tamam başqa məqsədlə – Romanın ailəsində yeganə sağ qalan adamın, yəni ki, Məhəmmədin bir neçə il əvvəl köçüb getdiyi yeri öyrənmək üçün gəlmişdi. Xəbər tutmuşdu ki, onda hələ Anita öz ərindən boşanmamışdı və şübhəsiz ki, qayınatasının harada yaşadığını da bilirdi. Qızdan Məhəmmədin yerini öyrənəndən sonra vaxt itirmədən birbaşa oraya – Rusiyanın Saratov vilayətinin ərazisində Volqa çayının sahilində yerləşən Pavlovka kəndinə getmişdi.

Qüdrətov kəndə o vaxt çatdı ki, Vaskanyan artıq Məhəmmədi öldürmüş, amma yeniyetmə ilə birlikdə aradan çıxmağa macal tapmamışdı. Məhz həmin vaxt mayor onu ələ keçirərək ifşa edə bilmişdi. Albertin yanındakı Kolya adlı yeniyetmə oğlan isə əslində onun öz oğlu idi... Azərbaycanlı girov qadın – Aytəkindən olan oğlu...

Qüdrətov həmin dəhşətli mənzərənin şahidi idi... Bu barədə – Aytəkinin onu zorlayan Vaskanyandan oğlu olduğunu, onun Sonya adlı qadın tərəfindən Rusiyada saxlanıldığını və sonra da əri Məhəmmədin nəzarətində böyüdüyünü qabaqcadan bilsə də, bu barədə Ramilə və ya Aytəkinin Naxçıvanda olan qohumlarına heç nə deməmişdi. Bu hadisə bir insan beyninin düşünə biləcəyi, bir

insan ürəyinin yaşada biləcəyi ən ağır və ən yüklü bir sirr idi. Onsuz da olanların heç birini geri qaytarmaq mümkün deyildi. İstər Aytəkinin öldüyü ilə çoxdan razılaşan Naxçıvandakı yeganə qohumları, istərsə də Ramilin bu xəbəri bilməsinə nə ehtiyac var idi axı?!

Kolya da ağlı kəsəndən bəri Məhəmmədi özünə ata bilmiş, ona bağlanmışdı. Vaskanyan isə Məhəmmədi uşağın gözü qarşısında güllələyəndə uşaq ona hücum etmiş, "atamı niyə öldürdün, alçaq?!" – deyərək Vaskanyanı vurmağa çalışmışdı. Vaskanyan isə acı istehza ilə "ara, sənin atan mənəm, ay türk qancığının qarnından çıxan!"- demişdi.

Elə həmin gün Kolyanı, Vaskanyanın əlindən xilas edən Qüdrətov hər şeyi uşağa başa saldı. Eşitdiklərindən sonra sarsıntı keçirən yeniyetmə olanlara inana bilmirdi. Öz atasının bu cür qaniçən olması, onun kin, nifrət və ən böyük günah içində bu dünyaya göz açması Kolyanı, sanki ildırım kimi vurdu. Heç kimin gözləmədiyi anda Vaskanyanın silahını götürərək özünü güllələdi.

Qüdrətov üçün bu həm Kolyanın və həm də şəxsən onun özünün mənəvi əzabdan qurtulması idi. Onun etdiyi bu hərəkət damarlarındakı türk qanının müqəddəsliyindən qaynaqlanırdı. Və bu qan erməni qanı ilə bir hərəkət etməməli idi. Çürüyüb torpağa qarışsaydı belə. Mayor özünü vuran yeniyetmənin çöhrəsində bərqərar olan rahatlığı görəndə özünü güclə saxladı... Uşağın üzündən, sanki xeyirlə şərin mübarizəsini əks etdirən cizgiləri oxumaq mümkün idi...

Qüdrətov üçün həmin günün daha təsirləndirici xəbəri Anitanın öldürüldüyü ilə bağlı xəbər oldu. Hansı ki bu barədə əmri də elə o, özü vermişdi... Dövlətinin adına xələl gəlməməsi üçün!.. Çox yaxşı başa düşürdü ki, Anita ilə görüşməsini, Məhəmmədin yerini ondan öyrənməsini

gec-tez öyrənəcəklər. Və yəqin ki, bundan sonra həmin adamın Bakıdan gələn firma əməkdaşı Xəyal Mövsümsoy olduğunu bilib onu araşdırcaqlar. Bu isə olmayan yerdən xoşagəlməz problemlər çıxaracaq. Odur ki, Məhəmmədin yerini öyrənəndən sonra agentura əməkdaşlarına onu aradan götürməyi əmr etdi. Əmrin icrasını isə yerindəcə icra etməyi tapşırdı. Çünki gözləmək üçün daha zaman da qalmamışdı. Romanın digər yaxın adamları Federal Təhlükəsizlik əməkdaşları üçün hələ də müəmmalı olan qatildən qorunması üçün nəzarət altına alınacaqdı. Anitanın öldürülməsi isə yenə də həmin "naməlum qatilin" – Qüdrətovun ələ keçirərək Ramilə təhvil verdiyi Albert Vaskanyanın adına yazıldı...

Mayor Qüdrətov Albert Vaskanyanı ələ keçirəndən sonra birbaşa Bakıya xəbər göndərib Ramilin onun yanına – Rusiyaya göndərilməsini tapşırdı. Həmin gün isə Rusiyanın sıx meşələrinin birində agenturanın köməkçi əməkdaşlarından biri Qüdrətovun tapşırığı ilə Albert Vaskanyan adlı həmin ermənini Ramilə təhvil verdi...

Qüdrətov isə həmin gün məhz iki nəfərin – Kolyanın və Anitanın ölümünə təəssüfləndi... Yaxşı ki bunları düşünərkən bütün bu hadisələrin səbəbkarı olan adamın da öz cəzasına çatdığını xatırlayıb sakitləşmək mümkün idi...

Və... yaxşı ki, bu dünyada hər bir cinayətin gec-tez çatan cəzası var...

Tanrının barmağı yoxdur ki, basıb göz çıxartsın!

**Xaçmaz, 2011 iyul – Bakı, 2012 yanvar**

Çapa imzalanıb: 09.09.2019
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 96
Sifariş № 10/361